**Azərbaycan Tarixi**

# T A R İ X Ş Ü N A S L I Q

**(1920-1991-ci illər)**

**DƏRSLİK**

**BAKI-2017**

Kitab Azərbaycan Turizm və Menecment Universiteti Elmi Şurasının 04 mart 2016 mart tarixli iclasının ( Protokol № 5) qərarı ilə nəşr olunub

**Müəllif: t.ü.f.d.,dosent Məhərrəm Zülfüqarlı**

**Elmi redaktor: t.ü.e.d.,prof., Minaxanım Əsədova**

**Rəyçilər: t.ü.e.d., prof., ATMU-nun rektoru Cəfər Cəfərov**
**t.ü.e.d.,prof., Dövlət Mükafatı laureatı Kərim Şükürov**

Kitabda Azərbaycan tarixnin 1920-1991-ci illər dövrünün tarixşünaslığı öz əksini tapıb. Müəllif 70 illik sovet dövrü tarixinin müqayisəli təhlilini verib. Kitabın yazılmasında arxiv materiallarından, çoxlu sayda kitab, məqalə və dissertasiyalardan mənbə kimi istifadə olunub. Kitab ali təhsilin bakalavriat, magistratura, doktorantura pillələrində təhsil alanlar üçün dərslik kimi nəzərdə tutulub. Bundan başqa elmi-tədqiqat işləri ilə məşğul olan dissertantlar, geniş oxucu kütləsi də kitabdan yararlana bilər.

**Kitab ali məktəblərin bakalavr, magistr və doktorantura pilləsində təhsil alan, universitetlərin “Mənbəşünaslıq və tarixşünaslıq” kafedrasında ixtisas kursu keçən tələbələr üçün dərslik kimi nəzərdə tutulub.**

## M Ü N D Ə R İ C A T

**GİRİŞ**......................................................................................................4

**I fəsil - 1920-1930-cu illərin tarixşünaslığı**......................................................27

1.1.1920-1922-ci illər tarixi tədqiqatlarda..........................................................27

1.2. 1922 - 1930 - cu illər elmi araşdırmalarda....................................................87

**II fəsil - 1939-1945-ci illərin tarixşünaslığı**................................................162

**III fəsil - 1946-1985-ci illərin tarixşünaslığı**................................................200

3.1. 1946-1950-ci illər elmi araşdırmalarda......................................................200

3.2. 1960 - cı illər tarixi tədqiqatlarda...............................................................266

3.3. 1970 -1985- ci illərin tarixşünaslığı..........................................................295

**IV fəsil – 1985-1991-ci illərin tarixşünaslığı**................................................343

4.1. 1985-1987-ci illər tarixi tədqiqatlarda.......................................................343

4.2. 1988-1991-cı illər elmi araşdırmalarda......................................................355

**Nəticə**..........................................................................................................434

**İstifadə edilmiş ədəbiyyat**..........................................................................445

# GİRİŞ

Azərbaycanın XX əsr tarixinin ən mürəkkəb və ziddiyyətli dövrlərindən biri 1920-1991-ci illəri əhatə edən sovet dövrüdür. Bu dövrün tarixşünaslıq baxımından tədqiqi müham aktuallıq kəsb edir.

Azərbaycanın üç min ildən artıq dövlətçilik tarixinin təxminən min ili müstəqillik, iki min ili isə istilalar və yadelli əsarət dövrünə aid edilir. Azərbaycan dövlətçilik tarixində XX-əsr dövlətlərinin özünə məxsus yeri var. XX əsr Azərbaycan dövlətlərini forma, məzmun və mahiyyətinə görə şərti olaraq iki qrupa bölmək olar:

- Müstəqil dövlətlər: Azərbaycan Xalq Cümhuriyyəti (28 may 1918-27 aprel 1920), Araz-türk hökuməti və ya Araz cümhuriyyəti (3 noyabr 1918-12 aprel 1919), Azadstan dövləti ( 6 aprel-14 sentyabr 1918-ci il), Cənubi Azərbaycan Milli Hökuməti (12 dekabr 1945-14 dekabr 1946), Azərbaycan Respublikası (18 oktyabr 1991)
- İşğalçılar tərəfindən yaradılmış dövlətlər: Bakı Kommunası (25 aprel- 31 iyul 19918), Muğan Sovet Respublikası (19 aprel-29 iyul 1919), Azərbaycan SSR (27 aprel 1920-18 oktyabr 1991)

Azərbaycan tarixində şərəfli yer tutan 20-dən artıq müstəqil dövlətlərlin tədqiqi ilə yanaşı, xarici təcavüz nəticəsində dövlət müstəqilliyinin itirildiyi dövlətlərin də obyektiv tədqiqi müasir dövrdə mühüm əhəmiyyət kəsb edir. Belə dövlətlərdən biri də 27 aprel 1920-ci il XI ordunun işğalı ilə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra yaradılmış Azərbaycan Sovet Sosialist Respublikasıdır.

Müasir Azərbaycan tarixşünaslığı müxtəlif mövzularla zəngin, rəngarəng bir tarixşünaslıqdır. Sovet dövrünün tarixşünaslığı digər dövrlərin tarixşünaslığından öz aktuallığına görə fərqlənir. Fikrimzcə müasir dövrdə sovet dövrü tarixşünaslığının müstəqil Azərbaycan Republikasının təhlükəsizlik məsələləri ilə bağlılığı onun obyektiv tədqiqini daha da aktuallaşdırır. Sovet tarixşünaslığına aid yazılan əsərlərin daha çox siyasiləşməsi, həmin dövrün mürəkkəb və ziddiyyətli olması bu dövr tarixşünaslığının uzun illər, nisbətən diqqətdən kənarda qalmasına səbəb olmuşdu.

Müasir dövrdə mövzunun obyektiv şəkildə tədqiqini daha da zəruri edən bir sıra subyektiv amillər də mövcuddur:

- Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra da XX əsr tarixinin saxtalaşdırılması cəhdlərinin hələ də qalması;

- Obyektiv faktlar əsasında tərəfsiz tarix yazılması sahəsində problemlərin tam aradan qaldırılmaması;
- 1918-ci ildən başlanan və üç respublika dövrü kimi xarakterizə edilən tarixin hələ də obyektiv öyrənilməməsi;
- ABŞ-da 11 sentyabr 2001-ci il, Fransanın paytaxtı Paris şəhərində 13 noyabr 2015-ci il, Belçikanın paytaxtı Brüssel şəhərində 23 mart 2016-cı il və s. ərazilərdə baş vermiş terror hadisələrindən sonra bir sıra ölkələrdə anti - müsəlman əhval- ruhiyyəsinin güclənməsi;
- Azərbaycan Respublikasının son illər iqtisadi cəhətdən inkişaf edərək regionda lider dövlətə çevrildiyi və dövlətin ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində səylərinin artırdığı bir vaxtda Azərbaycanın dövlət müstəqilliyinə düşmən olan qüvvələrin daha da fəallaşması;
- Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra ölkədə fəaliyyət göstərən kommunist yönümlü partiyaların dövlət müstəqiliyinə qarşı olan sovet dövrü ənənələrini bərpa etmək istiqamətində səylərini artırmaları;
- Rusiyanın postsovet məkanında, o cümlədən Azərbaycanda itirdiyi əvvəlki mövqelərini bərpa etmək istiqamətində son vaxtlar bir sıra praktik addımlar atmağa başlaması, Azərbaycanın Gömrük İttifaqına və Avrasiya İqtisadi Birliyinə qoşulması istiqamətində səylərini artırması;
- Rusiyanın GUAM əleyhinə MDB-ni gücləndirmək cəhtlərinin artması;
- Bəzi tarixçilərin hələ də öz tədqiqatlarında sovet konsepsiyalarından xilas ola bilməmələri və s.

Elmi ədəbiyyatda bəzən sovet dövrünü "İkinci Respublika" dövrü kimi də adlandırırlar. Azərbaycanın sovet dövrü tarixinin İkinci Respublika dövrü kimi adlandırılması əsasən C. Quliyevin 1997 - ci ildə rus dilində nəşr olunmuş "İkinci Respublikanın yaranma tarixindən" əsərinin nəşri ilə başlanmışdır. Müəllif XX əsrdə Azərbaycanın üç respublika dövrünü Fransanın beş respublika dövrü (1870 - 1958 - ci illər) ilə müqayisə edərək, bu üç respublika arasında varislik əlaqəsinin olduğunu bildirmişdir. bu respublikaya uzun illər rəhbərlik etmiş H.Əliyevin Azərbaycan

tarixinin sovet dövrü haqqında aşağıdakı fikirləri kitaba epiqraf kimi seçilib: "Azərbaycan xalqı 70 il kommunist rejimi şəraitində, sosialist dövlətinin tərkibində yaşamışdır. Bu dövr Azərbaycan xalqının həyatında çox böyük tarixi mərhələdir və ona düzgün xarakteristika vermək vacibdir."(525, s.1)

Azərbaycanın XI rus ordusu tərəfindən işğalı dövlət müstəqilliyimizlə yanaşı tarix elminin də müstəqil inkişafına son qoymuşdu. Sovet tarixçiləri 70 ildən artıq bir dövrdə tarix elminə obyektivlikdən uzaq, sinfi nöqteyi - nəzərdən yanaşaraq burjua tarixşünaslığına təftişçi, ehkamçı və millətçi damğaları vurmaqla ona qarşı mübarizə aparmışlar.

Sovet tarixçilərinə görə tarixşünaslıq tarix elminin tarixi olmaqla yanaşı, müəyyən dövrə, mövzuya həsr olunmuş tədqiqatların məcmusu, sosial - sinfi və ya milli baxımdan vəhdət təşkil edən tarixi əsərlərin marksist - leninçi metodologiyası ilə öyrənilməsindən ibarət olmuşdur. Tarix elminin bir sahəsi olmaqla yanaşı sovet tarixşünaslıq elmi tarixi təfəkkürün sosial əsası və funksiyasının, tarixi konsepsiyaların sinfi məzmununun, tarixi mənbələrin istifadəsi və təhlili metodlarının birtərəfli tədqiqi ilə məşğul olmuşdur.

Sovet dövründə tarix kitablarının "yuxarıların" sifarişi və təzyiqi ilə yazılması faktdır. Bu müxtəlif formalarda-ideoloji, mənəvi, metodoloji, inzibati və repressiv formalarda həyata keçirilib. Bəzi tarixçilərin fikrincə bu iş 30-cu illərdən Pakrovski məktəbinə qarşı mübarizə ilə başlanılıb, "ÜİK(b)P tarixi. Qısa kurs" kitabı nəşr olunduqdan sonra daha da güclənib. Sov.İKP XX qurultayından sonra sosialist cəmiyyəti tarixinin yaradıcılıqla tədqiqinə müəyyən şərait yaransa da, az sonra yenə də tarixçilərin arxivlərə buraxılmasına məhdudiyyət qoyularaq yenə də "sərfəli" və "sərfəli olmayan" həqiqət konsepsiyası dövriyyəyə buraxılıb.

Sovet hakimiyyətinin müxtəlif illərində sovet dövrü tarixinin obyektiv yazılmasına cəhdlər olmasına baxmayaraq, bu işi həyata keçirmək mümkün olmayıb. Kommunist partiyasının rəhbərlik etdiyi təkpartiyalı bir cəmiyyətdə rejimin mahiyyəti tarixi tədqiqatlara birtərəfli, sinfi mənafedən yanaşmanı tələb edirdi.

Sovet tarixçiləri tarixi mənbələrin və əsərlərin öyrənilməsində o zaman bütün ictimai elmlərə tətbiq edilən vahid marksist - leninçi metodologiyaya əsaslanırdılar. Bu metodologiyanın da əsasını - dialektik materializmin cəmiyyət hadisələrinə, cəmiyyətin tarixinə tətbiqi kimi meydana çıxan tarixi materializm təşkil edirdi. Sovet cəmiyyətində tarix elmi partiyalı, sinfi mahiyyət daşıyırdı. Tarixə münasibətin

də əsasını  təşkil etmiş bu metodun obyektivlikdən uzaqlığını V.İ.Leninin "... Sinfi mübarizə üzərində qurulmuş bir cəmiyyətdə "bitərəf" sosial elm ola bilməz" (255,c.23, s. 43) fikri  bir daha sübut edir.

SSRİ-də 1985-ci ilin aprelindən həyata keçirilən yenidənqurma, aşkarlıq dövründən başlayaraq sovet ittifaqının süqutuna qədər sovet rejminə münasibətə görə tarixçiləri şərti olaraq iki qrupa bölmək olar.

Birinci qrupa aid  tarixçilər bu rejimə müsbət münasibət bəsləyir, onun nöqsanlarını görməyərək yalnız bu rejimin pozitiv cəhətlərini qeyd edir. Digər qrupa aid olanlar isə əksinə bu rejimə qarşı düşmən mövqe tutaraq onun yalnız mənfi cəhətlərini önə çəkirdilər. Fikrimizcə Azərbaycan SSR - in  tarixinin obyektiv tədqiqi üçün hər iki mövqe düzgün sayıla bilməz. Heç bir siyasi xətti müdafiə etmədən, yalnız faktlara subyektivizmdən uzaq metodlarla yanaşmaqla bu dövrün obyektiv tədqiqinə nail olmaq mümkündür. Tarixin bütün dövrlərində olduğu kimi, Azərbaycan SSR - in mövcud olduğu dövrdə də müsbət və mənfi hallar olmuş, bunların birini inkar edib, digərini qabartmaq yenidən subyektivizmə və tarixin birtərəfli yazılmasına gətirib çıxara bilər. Buna görə də Azərbaycanın sovet dövrü tarixinin yenidən obyektiv tədqiqi hazırda mühüm aktuallıq kəsb edir.

Sovet tarixşünaslığının obyektiv tənqidi və təhlili müsbət nəticələrə gətirib çıxardığı kimi, bu məsələdə ifratçılığa varmaq, sovet dövrü tarixinə aid nə varsa hamısına qara yaxmaq  tarixin təkrar, özü də daha ziyanlı saxtalaşdırılmasına gətirib çıxara bilər. Son vaxtlar elmi ədəbiyyatda və  mətbuatda dərc olunan bəzi yazılar bu cür təhlükənin  olduğunu sübut edir. Həmin yazılarda "sosial kod hər şeydən əvvəl siyasi proyektdir və məqsəd vətəndaşın davranışını siyasi hakimiyyətin arzuladığı formada idarə etməkdən ibarətdir. Bu gün bizim "sevdiyimiz və şəninə abidələr ucaltdığımız hər bir ideal əslində sovet kodlarından ibarətdir" kimi səhv nəticələrə gətirib çıxarır ki, bununla da razılaşmaq olmaz.

Bu yazılarda sovet tarixşünaslığına düşməncəsinə  yanaşılaraq Cavanşir, Babək, Koroğlu, Qacaq Nəbi və digər xalq qəhrəmanlarının sovet siyasəti nəticəsində xalqa sırındığı, onların tarixdən silinməsinin müasir taleyüklü problemlərin həllinə müsbət təsir edəcəyi kimi qeyri obyektiv fikirlərə də rast gəlmək olur. (410,s.13)

Tarixçi alim X. Xəlilli  "Sovet tarixşünaslığı-milli ölüm elmi" adlı kitabında qeyd edir ki, sovet imperiyası  tarix elmini, o cümlədən onun xüsusi bir sahəsi olan etnologiyanı anti-elmə çevirərək ondan Azərbaycan xalqına qarşı sistemli

etnosid siyasəti yeridib. Müəllif milli inkişafda tarix elminin xüsusi, əvəzedilməz funksiyalara malik olduğunu nəzərə alaraq aşağıdakı təklifləri irəli sürüb:

a) tarixi saxtalaşdırmaya qarşı Cinayət Məcəlləsinə xüsusi maddə əlavə edilsin;

b) xalqımızın tarixini saxtalaşdırmaqla elmi rütbə almış və fəxri adlar verilmiş şəxslərin elmi rütbəsi və fəxri adları ləğv edilsin;

c) bilərəkdən tarixi saxtalaşdıranlar cinayət məsuliyyətinə cəlb edilsin;

ç) milli tariximizin tədqiqinin elmi səviyyədə yüksəldilməsi üçün "ictimai-elmi nəzarət şurası" yaradılsın.(169,s.14)

Azərbaycan Respublikasının Prezidenti H.Əliyev Azərbaycan Milli Elmlər Akademiyasında 31 yanvar 1997 - ci il tarixli görüşdə Azərbaycanın XX əsr tarixinin yenidən yazılmasının aktuallığı haqqında demişdir: "Azərbaycanın XX əsr tarixi yazılmalıdır… Bu əsrdə dünyada və respublikamızın həyatında baş verən ictima – siyasi hadisələr məlumdur. Ancaq bu XX əsrdə yaşadığımız ideologiyaya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur. Ona görə də mən çox çalışırdım ki, biz XX əsr tarixini tez yazaq. Çünki, bilirsiniz tariximiz bir tərəfdən təhrif olunub, digər tərəfdən isə bəziləri keçmişdə nə varsa, götürüb qəzetlərdə, kitablarda qaralamağa, pisləməyə başlayıblar."(115, s.369)

Azərbaycan SSR - in tarixinə obyektiv yanaşmanın nümunəsi kimi M.Ə.Rəsulzadənin fikirlərini göstərmək olar. O, kommunist rejiminə düşmən olsa da, sovet dövründə əldə olunmuş nailiyyətlərə qərəzli yanaşmayaraq bunları müsbət qiymətləndirib. M.Ə.Rəsulzadə sovet dövrünə obyektiv yanaşaraq yazırdı: "Hər şeydən əvvəl indi Azərbaycanda oxumağı-yazmağı bilməyənlərin sayı aşağı enmişdir. Türkcə çap edilən qəzet və kitabların tirajı xeyli artırılmışdı... Lakin mədəniyyət sahəsində sayılan bu nailiyyətlər nə kəmiyyət, nə də keyfiyyət baxımından azərbaycanlıları təmin edəcək bir şəkildə deyildir." (339,s.97)

Azərbaycan SSR tarixinin müxtəlif dövrlərində nəinki kommunist rejiminə düşmən olan Azərbaycanın görkəmli xadimləri, hətta bu rejimin öz içərisindən çıxmış şəxsiyyətlər barədə yazmaq qadağan olunduğuna görə həmin illərdə yazılmış kitablardan onların fəaliyyəti barədə məlumatlar əldə etmək mümkün deyil. Buna görə də sovet dövründə Azərbaycana rəhbərlik etmiş şəxslərin həyat və fəaliyyətinin tarixşünaslıq baxımından obyektiv tədqiqi də müasir dövrdə çox aktualdır.

Əsasən 1985-ci ildən sonra Z.Bünyadov, M.İsmayılov, Y.Mahmudov, S.Əliyarlı, C.Həsənli, E.İsmayılov, K.Şükürov, A.İsgəndərov, X.Məmmədov,

İ.Musayev, F.İbrahimli, M.Qasımov, X.İbrahimli, A.Balayev və digər tarixçilər problemin öyrənilməsi sahəsində mövcud olan nöqsanları tənqid edərək, Azərbaycanın sovet dövrü tarixinin obyektiv tədqiqinə öz töhvələrini veriblər.

Akademik Z.Bünyadov yazırdı:"Kommunist rejimi dövründə ölkəmizdə tarix elmi, əgər belə bənzətmə mümkündürsə, hər kəsin istədiyi kimi rəftar etdiyi əxlaqsız qadına çevrilmişdi. Yuxarıların ab-havasını tutub gedən müttəfiq və muxtar respublikaların katibləri tarixi öz istədikləri kimi idarə edirdilər."(108, №10,1988)

Z.Bünyadov Azərbaycanın sovet dövr tarixinin tədqiqinə münasibətini isə konkret olaraq belə bildirib:"Sovet dövrü ilə bağlı tariximiz qərəzli yazılıb. Onu yenidən işləmək lazımdır." (168,16 fevral 1997)

Professor Y.Mahmudov problemin tədqiqindəki çatışmazlıqların səbəblərini təhlil edərək belə nəticəyə gəlib:"Tarixçilər içərisində torpağının, el-obasının təəssübünü çəkən, nurlu ideyaları olan tədqiqatçılar az olmamışdır. Lakin onlara istənilən səviyyədə sərbəst işləmək imkanı verilməyib. Sifarişlə tarix yazmağa məcbur ediliblər. Bir sıra problemlərin analizi məsələsi sadəcə olaraq qadağan edilib. Mədhiyyələr yazılmasına isə yaşıl işıq yandırılıb. Tarixçilər illərlə müxtəlif siyasi yarlıqlar kabusu altında fəaliyyət göstəriblər." (41,1 mart 1989.)

Tarix elmləri doktoru İ.Musayev sovet tarixşünaslığına tənqidi münasibət bəsləyərək yazırdı: "XX əsr Azərbaycan tarixşünaslığındakı iki qütbün - sovet və mühacirət tədqiqatlarının istiqamətləri, məzmun və nəticələri bir - biri ilə ziddiyyət təşkil etmişdir... Azərbaycan sovet tarixşünaslığı sırf sinfi ideoloji prinsipləri rəhbər tuturdu."(308,s.3)

T.ü.e.d.,prof. M.Qasımlı "Tarix problemlərimizə metodoloji baxış" adlı məqaləsinin "Sovet dövrü tariximizə yanaşma" bölməsində yazır: "Məlumdur ki, sovet dövründə hakim ideologiya və rəsmi xətt mərkəz tarixçiliyinə üstünlük verirdi. SSRİ-də "bir qazanda qovrulan" xalqların gerçək tarixi barədə susulurdu. Bu da səbəbsiz deyildi. Çünki xalqın gerçək tarixinin yazılması milli özünüdərkin, milli şüurun güclənməsinə, milli azadlıq hərəkatının artmasına və ayrılmasına təsir edərdi."(221)

Azərbaycanın Sovet tarixşünaslığına nisbətən başqa mövqedən yanaşan professor Q.Bayramov yazırdı:"Fərəhli haldır ki, son 50 ildə Azərbaycan tarixçilərinin tanınmış bir nəsli yetişmişdir. Azərbaycan tarixçilərinin XX əsr Azərbaycan tarixinin öyrənilməsi və tədqiq edilməsi sahəsində xidmətləri unudulmazdır. Onların sanballı

əsərləri Azərbaycanı dünyaya tanıtmışdır.” (386, № 1, 1997)

Bakıda 1988-ci ildən sonra keçirilmiş bir sıra tədbirlər, o cümlədən “Yenidənqurma və Azərbaycan sovet dövrü tarixinin bəzi aktual problemləri” (dekabr 1988),“Azərbaycan tarixinin tədqiqi, təbliği və tədrisinin bəzi məsələləri ” (dekabr 1988),“Müasir Azərbaycan tarixi və bədii ədəbiyyat”(may 1989), “Azərbaycanın XIX-XX əsrlər tarixi və onun tədris məsələləri”(oktyabr 1997) və s. mövzularda keçirilmiş elmi-praktik konfranslarlar və dəyirmi masalar Azərbaycan SSR-in ictimai-siyasi tarixinin tarixşünaslıq baxımdan obyektiv tədqiqinə müsbət təsir göstərib.

K.Şükürovun 1998-ci ildə “Şirvannəşr” tərfindən çap olunmuş “Azərbaycan tarixi”, T.Qaffarovun 1999-cu ildə nəşr olunmuş “Azərbaycan tarixi” ( 1920-1991) və bir sıra digər kitabları problemin öyrənilməsində müsbət addım hesab etmək olar.

Mövzu ilə yaxından tanış olduqda aydın olur ki, problemin kompleks şəkildə öyrənilməsinə müasir dövrdə böyük ehtiyac var.

Tədqiq olunan mövzunun xronoloji çərçivəsi Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və sovet hakimiyyətinin elan olunmasından Azərbaycanın dövlət müstəqilliyinin bərpasına qədər olan dövrü (27 aprel 1920-18 oktyabr 1991) əhatə edir.

Sovet dövrü tarixşünaslığının tədqiqində Azərbaycan SSR tarixinin dövrlərə bölünməsinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Sovet dövrü tarixinin dövrlərə bölünməsi sahəsində problemlər mövcud olmuş və bu problemlər hələ də qalmaqdadır. Bu məsələ ilə əlaqədar sovet tarixçilərindən M.V.Neçkina, M.P.Kim, N.N.Dikov bir sıra elmi məqalələr yazmışlar. (498,№6, 1988;499, №9,1991;585,№1,1960;600, №7,1981, №12, 1987)

SSRİ - də sovet dövrü tarixinin dövrləşməsini əsaslı surətdə akademik M.P.Kim hazırlayıb. Lakin onun sxemindən daha təkmil sxemi SSRİ EA müxbir üzvü N.N.Dikovun “Sovet cəmiyyəti tarixinin dövrləşməsi haqqında” məqaləsində verilib. (499,№9 1991)

A.A.Danilov və L.Q.Kosulinanın Moskvada 1996-cı ildə rus dilində nəşr olunmuş “XX əsr Rusiya tarixi” kitabında sovet tarixi aşağıdakı dövrlərə bölünüb:“Rusiya perspektivlərin axtarışında (1917-1927-ci illər)”,“Rusiyanın Stalinsayağı modernizə edilməsi (1928-1938-ci illər)”,“Sovet İttifaqı ikinci dünya müharibəsi dövründə (1939-1945-ci illər)”,“Stalinizmin apogeyi:SSRİ 1945-1953-

cü illərdə", "Stalinin fəaliyyətinin tənqidinə ilk cəhdlər: SSRİ 1953-60-cı illərin ortalarında", "Sistemin böhranı:SSRİ 60-cı illərin ortalarından-80-ci illərin ortalarına kimi", "Sistemin "sonuncu şansı":SSRİ-də "yenidənqurma" 1985-1991-ci illər".

Azərbaycan SSR-in tarixinin dövrlərə bölünməsi sahəsində müxtəlif baxışlar və sistemlər mövcud olduğuna görə bu problemlər hələ də qalmaqda davam edir. Buna görə də Azərbaycanın sovet dövrü tarixinin dövrlərə bölünməsi tarixşünaslığının tədqiqi də böyük aktuallıq kəsb edir.

Azərbaycan SSR - in dövrlərə bölünməsi uzun zaman Sov.İKP-nin siyasi xətti əsasında həyata keçirilib. SSRİ tarixinin tərkib hissəsi kimi Azərbaycan SSR-in tarixi də eyni dövrlərə bölünüb. Bu problemlə bağlı digər respublikalarda müəyyən elmi araşdırmalar aparıldığı halda, Azərbaycanda buna ciddi fikir verilməyib.

Bu sahədə Bakı Dövlət Universitetinin tarix fakultəsində 1992-ci ilin may ayında keçirilmiş "Azərbaycan tarixinin dövrləşməsi" probleminə həsr olunmuş seminar istisna təşkil edir. Bu seminarda Azərbaycan tarixinin dövrlərə bölünməsinə aid müxtəlif fikirlər səslənib, alimlər başqa dövrlər ilə yanaşı, sovet dövrü üçün də yeni bölgülər təklif ediblər.

Professor S.Əliyarlı Azərbaycan tarixini beş dövrə bölməyi, 4-cü dövrü 1920-1991-ci illər qırmızı bolşevizmin varlığı, 5-ci dövrü 1991-ci ildən sonra milli dövlətçiliyin bərpası kimi adlandırmağı təklif edib. K.Şükürov həmin seminarda Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər inkişafını əks etdirən yeni bölgü təklif edib. (385,7 may 1992)

SSRİ tarixinin sovet dövrü sovet tarixşünaslığında çox cüzi dəyişikliklərlə əsasən aşağıdakı dövrlərə bölünüb: I dövr."Proletar inqilabı və SSRİ-də sosializmin qələbəsi"(1917-1937), II dövr."SSRİ-də sosializm cəmiyyətinin möhkəmlənməsi və inkişafı uğrunda mübarizədə"(1938-1958), III dövr."SSRİ geniş kommunizm quruculuğu dövründə"(583)

Azərbaycan SSR-in tarixinin dövrləşməsinə 1990-cı ildən başlayaraq bir sıra alimlər uzun illər mövcud olmuş sistemə tənqidi yanaşmış, hətta bəzi tarixçilər ehkamçılıqdan uzaqlaşaraq bəzi dövrləri tamamilə dəyişmişlər.

Azərbaycan SSR tarixinin dövrlərə bölgüsü sahəsində fikrimizcə nisbətən obyektiv, daha düzgün dövrləşmə prof. E.İsmayılovun redaktorluğu və müəllifliyi ilə nəşr olunmuş Azərbaycan tarixi (191) və dos. K.Şükürovun müəllifi olduğu Azərbaycan tarixi (378) kitablarında aparılıb.

E.İsmayılovun kitabında Azərbaycan SSR-in tarixi- “Azərbaycan SSR 1920 -1930-cu illərdə”,“Azərbaycan İkinci Dünya müharibəsi illərində”,“Azərbaycan SSR 1945-1985-ci illərdə”,“Sovet imperiyasının süqutu və Azərbaycanda milli-azadlıq hərəkatı”,“Azərbaycanın dövlət müstəqilliyinin bərpası” dövrlərinə bölünüb. (191)

K.Şükürovun kitabında isə dövrlər aşağıdakı kimidir:“Azərbaycan SSR 1920-1922-ci illərdə”,“Azərbaycan SSR 1920-1930-cu illərdə”,“Azərbaycan SSR 1941-1945-ci illərdə”,“Azərbaycan SSR 1940-cı illərin 2-ci yarısı-1950-ci illərin əvvəllərində”,“Azərbaycan SSR 1950-ci illərin ortaları-1980-cı illərin ortalarında”, “Azərbaycan SSR 1980-ci illərin 2-ci yarısı-1990-cı illərin başlanğıcında”. (378)

VII cildlik Azərbaycan tarixi kitabının C.B.Quliyevin redaktorluğu ilə nəşr olunmuş VI cildində və T.Qaffarovun redaktorluğu ilə nəşr olunmuş VII cildində (70) tədqiqata aid illərin dövrləşməsi digər kitablardan fərqli olaraq çox geniş verilib. Bu kitabların mündəricatında hər fəsil hissələrə və yarımhissələrə bölünüb.

T. Qaffarovun 1999-cu ildə nəşr olunmuş “Azərbaycan tarixi” (1920-1991) kitabında verilmiş bölgü VII cildlik Azərbaycan tarixinin VI və VII cildlərinə nisbətən yığcamdır.

AMEA-nın həqiqi üzvü, professor R.Mehdiyevin məqaləsində XX əsr tarixinə aid H.Əliyev tərəfindən irəli sürülmüş yeni bölgü haqqında məlumat verilib. Bu bölgünü XX əsr Azərbaycan tarixinin dövrlərə bölgüsündə yenilik kimi qəbul etmək olar. Bu bölgüyə əsasən Azərbaycanın XX əsr tarixi 4 dövrə bölünür:

1. XX əsrin əvvəllərindən 1917-ci ilin oktyabrına qədərki dövr;
2. 1918-1920-ci və 1920-1922-ci illər-Azərbycan Xalq Cümhuriyətinin mövcud olduğu və Azərbaycan Sovet Respublikası SSRİ-nin tərkibinə daxil olana qədərki dövr;
3. 1922-ci ildən Azərbaycanın öz milli müstəqilliyini bərpa etdiyi 1991-ci ilədək olan dövr;
4. 1991-ci ildən bu günədək olan dövr (23, 2 aprel 2008-ci il)

Bu bölgünün yeniliyi ondan ibarətdir ki, 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyətinə, 1920-1922-ci illər isə Sovet Azərbaycanına aid dövrlər olmasına baxmayaraq 1918-1922 illərin bütöv, eyni dövr daxilində öyrənilməsi təklif olunub. Bundan başqa Azərbaycan SSR-in 1920-1991-ci illəri əhatə edən tarixinin 1920-1922-ci illər dövrü ayrıca verilməsi başqa yeni fikrin irəli sürülməsinə

də imkan verir. Məhz bu bölgüyə əsasən bəzi tarixçilər Azərbaycanın XX əsr tarixi üç respublika dövrü kimi deyil, dörd respublika dövrü kimi veilməsini təklif edir: I respublika 1918-1920, II Respublika 1920-1922, III Respublika 1922-1991; IV Respublika 1991-hazırki dövr.

Azərbaycan tarixinin dövrlərə bölgüsü sahəsində peşəkar tarixçilərlə yanaşı, bəzi ekspertlərin də 70 illik sovet dövrünə aid öz siyasi bölgüləri mövcuddur. Məsələn, ekspertlərdən biri bu dövrü üç mərhələyə bölüb: 1.Bolşevik rejiminin xalqa qarşı terroru (1920-1956), 2.Total terror sisteminin total rüşvət sisteminə çevrilməsi (1956-1988), 3.Bolşevizmin ideoloji süqutu.(196,10 dekabr 1991)

Azərbaycanın dövlət müstəqiliyinin bərpasından sonra sovet dövrünə aid müdafiə edilən bəzi tədqiqat işləri sovet tarixşünaslığında qəbul edilmiş 70 illik dövr çərçivəsindən kənara çıxıb. Belə tədqiqat işlərinə H.Alıyevin 1998-ci ildə müdafiə etdiyi "Azərbaycan Respublikasında mülki müdafiənin yaranması və inkişaf tarixi (1920-1994-cü illər)" namizədlik dissertasiyasını göstərmək olar.

Müəllif müxtəlif elmi əsərlərdə mövcud olan xronoloji ardıcıllığı tədqiq edərək Azərbaycanın SSR tarixinin təkmil xronologiyasını verib və bu tədqiqatını "Azərbaycan SSR tarixinin dövrlərə bölünməsinin tarixşünaslığı" adlı məqaləsində şərh edib.(87,№ 3, 2000-ci il) Fikrimizcə tarixçilər Azərbaycan tarixinin dövrlərə bölgüsü sahəsində tədqiqatları davam etdirməli, yeni təklif və tövsiyyələrlə tarixşünaslığı zənginləşdirməlidirlər.

Sovet tarixçiləri uzun illər marksist və qeyri marksist tarixşünaslığın mövcudluğu haqqında fikri müdafiə edərək, qeyri marksist tarix elmini ümumiyyətlə elm hesab etməyiblər. Bu fikrə hələ sovet dövründə tənqidi yanaşan professor Ə.A.İsgəndərov yazırdı:"Hər bir elmdə olduğu kimi, tarix elmində də dünya tarixi fikrinin müəyyən inkişaf mərhələsinə uyğun gələn ümumdünya elmi kriteriyalar var. Əminəm ki, sovet tarix elmi özünə dünya tarix elminin tərkib hissəsi kimi baxmalıdır."(498, № 3,1990)

Sovet hakimiyyətinin müxtəlif illərində sovet dövrü tarixinin obyektiv yazılmasına cəhdlər olmasına baxmayaraq, bu işi həyata keçirmək mümkün olmayıb. Kommunist partiyasının rəhbərlik etdiyi təkpartiyalı bir cəmiyyətdə rejimin mahiyyəti tarixi tədqiqatlara birtərəfli, sinfi mənafedən yanaşmanı tələb edirdi.

Artıq 80-ci illərin ikinci yarsından etibarən tarix elminin bir sahəsi olan tarixşünaslığa aid tədqiqatlara əvvəlki illərə nisbətən obyektiv münasibət özünü

büruzə verməyə başlamış və hətta 19-20 aprel 1989-cu ildə Daşkənddə tarixşünaslığa aid regional konfrans da keçirilmişdi. Bu tədbirdə sovet tarixşünaslığının böhran keçirdiyi və bunun əsasən sovet dövrünün tədqiqinə aid olduğu xüsusi qeyd edilib. Konfransda son vaxtlar özündə yeni yanaşma tərzini əks etdirən, təzə mənbələr əsasında yazılan məqalələrin nəşr olunması müsbət hal kimi qiymətləndirilib.(498,№ 11,1989)

Sovet dövrü tarixşünaslığı Rusiya tarixçiləri tərəfindən öyrənilib və tarixşünaslığa aid bir çox əsərlər nəşr olunub.(575,576,581,605,610,671,683,713 və s.)

Azərbaycan SSR-in tarixinə sovet tarixçiləri çoxlu sayda monoqrafiyalar, dissertasiyalar həsr etmələrinə baxmayaraq, bu mövzu tarixşünaslıq baxımından nə əvvəlki dövrlərdə, nə də Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra kompleks şəkildə, ayrıca tədqiq olunmayıb.

Sovet tarixçilərindən Q.İmanov, A.Qubaydulin, İ.A.Hüseynov, A.A.Əlizadə, Ə.S.Sumbatzadə, C.İbrahimov, Z.İ.İbrahimov, Y.A.Tokarjevski, İ.Z.İsmayılov, V.N.Leviatov və başqaları Azərbaycan SSR-nin tarixşünaslığına aid bir sıra kitablar və elmi məqalələr yazıblar. (192; 438, 498, №11, 1957, № 10, 1959, №12, 1972,№2,1981; 509, 562, 565,№3,1965,№ 6, 1943, №10, 1957; 571; 585, №2,1977;731,732,733,742;748, XIV c.1960, № 5,1967 və s.)

XX əsrin 40-cı illərində Azərbaycan SSR Elmlər Akademiyasının elmi katibi olan S.Vurğun da Azərbaycan SSR-də ictimai elmlərin inkişafına aid elmi məqalə həsr edib.( 509)

A.Qubaydulinin 1930-cu ildə Azərbaycan dilində, latın qrafikası ilə nəşr olunmuş “10 il içərisində Azərbaycanda tarix elminin inkişafı” kitabını Azərbaycan tarixinin sovet dövr tarixşünaslığına aid yazılmış ilk əsərlərdən biri hesab etmək olar. Kitabın əvvəlində müəllif Azərbaycan tarixşünaslığına sovet tarixçilərinə xas olan mövqedən yanaşaraq yazırdı: “Aprel inqilabına qədər bu günkü Azərbaycan Şura Cümhuriyyətinə daxil olan ölkədə tarix elminin inkişafından bəhs etməyə dəyməz. Ümumən tarix elmi Azərbaycanda bir fənn olaraq, ancaq Aprel inqilabından sonra doğulmuşdur.”

Müəllif daha sonra aprel işğalından sonra Azərbaycanda tarix elminin Azərbaycan dövlət darulfununun üç fakultəsində və Politexnik institutunun sonralar bağlanmış iqtisadiyyat şöbəsində inkişaf etdiyini və iki dövr keçdiyini bildirir.

Onun fikirincə birinci dövr, Rusiya proletar inqilabından sonra professorların "bitərəf" tarix ilə çuğlaşıb "mühüm" tarixi problemlərlə məşğul olaraq marksizmin düzgünlüyünü etiraf etmədikləri, darulfununun qapısından onu içəri buraxmadıqları dövr idi. İkinci dövrü isə müəllif, əski idealizmlə marksizmin tarix fənni cəbhəsindəki mübarizəsi və bu məfkurənin qələbəsi dövrü kimi xarakterizə edib. Bundan başqa kitabda Azərbaycan tarixinin öyrənilməsində böyük rolu olan "Azərbaycanı Öyrənən Cəmiyyətin" tarix və etnoqrafiya şöbəsi, "Arxeologiya komitəsi",1923-1928-ci illərdə nəşr olunan "Maarif və Mədəniyyət", sonra isə "İnqilab və mədəniyyət" adı ilə çıxan jurnallar, türkcə nəşr olunan "Maarif işçisi","Bolşevik","Kommunist", rus dilində çıxan "Bakinski Raboçi","Vışka" qəzetləri haqqında da məlumat var.

Müəllif aprel işğalından sonra Şura Azərbaycanında Qərb, Rusiya, Yaxın Şərq və İslam aləmi, türk-tatar tarixlərinin öyrənilməsini, bundan başqa Azərbaycanın inqilaba qədərki və inqilabi hərəkat dövrünün tarixinin öyrənilməsi sahəsində naliyyətlər əldə edildiyini bildirir. Əsərdə başqa dövrlərə aid yazılmış əsərlərlə yanaşı, 1917-1930-cu illərə aid yazılmış kitablar da təhlil olunub. Müəllif bu illərə aid S.S.Şaumyanın 1927-ci ildə rus dilində nəşr olunmuş "Bakı Kommunası", V.V.Pakrovskinin "İnqilab ərəfəsində Bakı proletariatı", S.Belenko və A.Manfelovun "Azərbaycanda 1917-ci il inqilabı", "İngilis işğalı və müsavat hökuməti", Ratquzerin rus dilində "Bakıda inqilab və vətəndaş müharibəsi", yenə onun 1928-ci ildə nəşr olunmuş "Bakı kommunası, komissarların həbsi və edamı", "Şuralar Azərbaycanı uğrunda mübarizə" (əsər 1929-cu ildə türkcəyə təcrümə edilib), "Hakimiyyət uğrunda mübarizə", Karanyanın "Şaumyan və Qafqazda millətçilik cərəyanları" kitablarının təhlilini verib.

Müəllif kitabın sonunda 1930-cu ilə qədər olan Azərbaycan tarixşünaslığını təhlil edərək aşağıdakı nəticəyə gəlib:

1. Feodal Azərbaycanı tarixə dair az çox vərasət buraxmışsa da burjua Azərbaycanı bizə az şey vermişdir;
2. Burjua dövrünün meydana çıxardığı əsərlər panislamizm və sonra pantürkizm əsasında yazılmış risalələr və qəzet - jurnal məqalələrindən ibarət olmuşdur;
3. "Müsavat" dövrü tarix elmi babında bir şey verməmişdir. "Açıq söz" məcmuə və qəzetində bir neçə felyeton varsa da onların elmi əhəmiyyəti yoxdur. Çünki o əsərlər özlərinin siyasətinin... doğru olduğunu isbat etmək yolunda yazılmış ...

əhəmiyyətsiz əsərlərdir;
4. Aprel inqilabı dövründə həqiqi milli azadlıq dövrü başladıqda az çox əsərlər çıxmağa başlamışdı. Lakin bu əsərlərdə osmanlı pantürkizmi və yerli millətçilik təsiri hələ çoxdur. Rus alimləri tərəfindən yazılmış əsərlər də çox sənələr marksizmdən " pak" olarak yazılmış əsərlərdən ibarətdir;
5. Bu son beş sənə içərisində tarix cəbhəsində marksizmlə idealizm, millətçilik ilə beynəlmiləlçilik arasında mübarizə başlanmışdır;
6. Bu mübarizə axırıncı illərdə qəti bir yola girib, indi millətçilik, idealizm, plüralizm məfkurələrinin tarix sahəsində məğlub olduqlarını görürük.

Fikrimizcə A. Qubaydulinin kitabındakı bu təhlillər sovet tarixşünaslığının əsil mahiyyətini açıb göstərir. Tarixşünaslığa aid olan bu əsər sovet tarixşünaslığına aid sonrakı illərdə yazılmış kitab və məqalələrin çatışmazlıqlarını üzə çıxarmaqda tədqiqatçılara kömək edə bilər.

Azərbaycan sovet dövrü tarixinin bir sahəsi olan etnoqrafiya elminin tarixşünaslığı da sovet tarixçiləri tərəfindən tədqiq olunub. Bu sahədə tarixçi alimlərdən T.Bünyadov, H.Quliyev, Ə.Dadaşov, A.Mustafayev və başqa alimlər bir sıra kitab və məqalələr yazıblar.(65,№3-4,1967;66,№4,1975;522;652,№6, 1972 və s.)

Azərbaycan tarixinin tarixşünaslığına aid yazılmış əsərlər sırasında Ə.S.Sumbatzadənin rus dilində nəşr olunmuş "XIX-XX əsr Azərbaycan tarixşünaslığı" kitabı (733) öz həcminə görə diqqəti cəlb edir. Əsərdə bizim hesablamamıza görə sovet dövrünün problemlərinə aid 1985-ci ilə kimi nəşr olunmuş 456 kitab və məqalənin şərhi verilib. Bunlardan Azərbaycan SSR-in sovet tarixşünaslığına 6, Azərbaycanın bolşevik rəhbərlərinə 24, Azərbaycan KP, həmkarlar ittifaqları və komsomol təşkilatının fəaliyyətinə 21, Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və sosializm quruculuğuna 82, Böyük Vətən müharibəsinə 57, beynəlmiləl tərbiyəyə və başqa respublikalarla iqtisadi və mədəni əlaqələrə 19, mədəniyyət və təhsilin inkişaf tarixinə 14, sosializm yarışına 7, sovet dövrü etnoqrafiyasına 12 əsər həsr olunub. Kitab giriş və 9 fəsildən ibarətdir. 1, 2 və 9-cu fəsillər bizim tədqiqata aid olmadığından onlar təhlil olunmayıb.

Müəllif tərəfindən kitabın birinci fəslinin "Zəngin tarixi keçmiş və kasıb tarixşünaslıq mirası" adlandırılması reallığı əks etdirir. Kitabın 3-cü fəsli "Böyük Oktyabr və Azərbaycan tarixşünaslığının formalaşdırılmasının başlanması", 4-cü

fəsli "Azərbaycan tarixşünaslığı 40-50-ci illərin birinci yarısında. Konsepsiya axtarışı", 5-ci fəsli "Azərbaycan tarixinin konsepsiyasının hazırlanması və üç cildli "Azərbaycan tarixinin" yazılması", 6-cı fəsli "Azərbaycan tarixşünaslığının bilavasitə üç cildliyin hazırlanmasının başa çatmasından sonrakı inkişafı", 7-ci fəsli "Azərbaycan tarixşünaslığı 70-80-ci illərin birinci yarısında", 8-ci fəsli isə "Azərbaycan tarixinin sovet dövrü probleminin öyrənilməsinin gələcək inkişafı" adlanır.

Əsərin giriş hissəsində verilmiş "Böyük Oktyabrın və Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra vahid marksist-leninçi sovet tarix elminin bir hissəsi kimi Sovet Azərbaycanının  tarix elmi yaranmış, inkişaf etmiş və indi də inkişaf etməkdədir" fikri (733,s.5) kitabın hansı metodologiya ilə yazıldığını  aydın göstərir.

Ümumilikdə götürdükdə böyük zəhmət çəkilməsinə baxmayaraq Ə. Sumbatzadənin bu əsəri Azərbaycan sovet dövrü tarixinə aid yazılmış əsərlərin əksəriyyətini deyil, bir hissəsini əhatə edir və əsasən biblioqrafik xarakter daşıyır. Müəllif müxtəlif məsələlər barədə sovet alimlərinin yazdıqlarını obyektiv təhlil etmək əvəzinə onların yazdıqlarını əsasən təsdiq etməyə üstünlük verib. Bu cür kitablarda isə adətən obyektiv elmi təhlil, nöqsanlara tənqidi münasibət  ya heç olmur, ya da çox cüzi şəkildə özünü göstərir .

C.Həsənov və E.İsmayılov  bu kitabda tarix elminin vəziyyəti, problemləri və inkişaf perspektivlərinin konkret tarixşünaslıq baxımından təhlil olunmamasını tənqid ediblər. Onların fikirincə öz həllini gözləyən vacib problemlərdən biri Sovet dövrü tarixinin öyrənilməsidir. Bu dövrə aid əsərlərin içərisində faktiki materialların toplandığı və sistemləşdirildiyi əsərlərin olduğunu qeyd edən C.Həsənov və E.İsmayılov göstərirlər ki, bu əsərlərin hamısını bir mənfi cəhət-konyukturluq xarakterizə edir. Onların fikrincə Sovet tarixçilərinin əsərləri ilə tanış olduqda belə məlum olur ki, müəlliflər sanki  Oktyabrın Azərbaycana müsbət təsirini və ictimai həyatın bütün sahələrində yalnız pozitiv amillərin ən yaxşı şəkildə təbliğ olunmasından başqa qarşılarına heç bir məqsəd qoymamışlar.(111, 18 mart 1988)

Bir sıra biblioqrafik nəşrlər (63,64,70,71,75,120,312,331,412,467,468,482, 485,486,489 və s.)  mövzunun öyrənilməsində mənbəşünaslıq baxımından diqqəti cəlb edir.

Z.V.Mustafayevanının tərtib etdiyi "Azərbaycanda müdafiə olunmuş

dissertasiyaların bibloqrafiyası (1920-1975) 1-ci hissə, humanitar elmlər" kitabı dövrün tarixşünaslıq baxımından tədqiqində köməkçi ədəbiyyat kimi əhəmiyyətə malikdir. Kitabda tarix elmi üzrə bu illərdə Azərbaycanda müdafiə olunmuş 469 doktorluq və namizədlik dissertasiyalarının siyahısı dərc edilib ki, bunların da 221-i sovet dövrünə aid yazılmış dissertasiyalardır. 221 dissertasiyanın da 29-u doktorluq, 192-si isə namizədlik dissertasiyasıdır. Konkret olaraq bu illərdə 1920-1930-cu illərə aid 15 doktorluq, 96 namizədlik, 1941-1945-ci illərə aid 3 doktorluq, 19 namizədlik, 1946-1960-cı illərə aid 3 doktoluq, 44 namizədlik, 60-cı illərə aid isə 8 doktorluq, 33 namizədlik dissertasiyası müdafiə olunub. (Rəqəmlər müəllif tərəfindən hesablanıb.) (75, s.114-188)

Artıq 80-ci illərin ikinci yarsından etibarən tarix elminin bir sahəsi olan tarixşünaslığa aid tədqiqatlara əvvəlki illərə nisbətən obyektiv münasibət özünü büruzə verməyə başlamış və hətta 19-20 aprel 1989-cu ildə Daşkənddə tarixşünaslığa aid regional konfrans da keçirilmişdi. Bu tədbirdə sovet tarixşünaslığının böhran keçirdiyi və bunun əsasən sovet dövrünün tədqiqinə aid olduğu xüsusi qeyd edilib. Konfransda son vaxtlar özündə yeni yanaşma tərzini əks etdirən, təzə mənbələr əsasında yazılan məqalələrin nəşr olunması müsbət hal kimi qiymətləndirilib.(498,№ 11,1989,s.5)

Bakıda 1988-ci ildən sonra keçirilmiş bir sıra tədbirlər, o cümlədən "Yenidənqurma və Azərbaycan sovet dövrü tarixinin bəzi aktual problemləri" (dekabr 1988), "Azərbaycan tarixinin tədqiqi, təbliği və tədrisinin bəzi məsələləri " (dekabr 1988), "Müasir Azərbaycan tarixi və bədii ədəbiyyat"(may 1989), "Azərbaycanın XIX-XX əsrlər tarixi və onun tədris məsələləri"(oktyabr 1997) və s. mövzularda keçirilmiş elmi-praktik konfranslar və dəyirmi masalar Azərbaycan SSR-in tarixinin tarixşünaslıq baxımdan obyektiv tədqiqinə müsbət təsir göstərib.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra A.İsgəndərov, M.Əliyev, E.Əlibəyova, B.Mirzəyeva və başqa tarixçilər tarixşünaslığa aid bir sıra kitab və məqalələr yazmışlar. (121,184,185,186,187, 188,297,406,410,430)

Tarixşünaslıq sahəsində t.ü.e.d.,prof. A.İsgəndərovun tədqiqatları mühüm əhəmiyyətə malikdir. O, 1989-cu ildə "Azərbaycanda sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsinin tarixşünaslığı" mövzusunda namizədlik, 2004-cü ildə isə "Azərbaycanda 1917-1918-ci illərdə türk-müsəlman soyqırımı

probleminin tarixşünaslığı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Onun "1917-1920-ci illər Azərbaycan tarixşünaslığına yeni bir baxış", "1918-ci il mart qırğının tarixşünaslığı", "Azərbaycanda sovet hakimiyyətinin qələbəsi 50-ci illərin sonu-70-ci illər tarixşünaslığında", "Bakı kommunası və onun tarixşünaslığı haqqında", "Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı 1918-1920-ci illər" və s. kitab və məqalələri Azərbaycan tarixinin tarixşünaşlığının tədqiqində mühüm rola malikdir.(184,185,186,187,188)

Son illər Bakı Dövlət Universitetinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası" əməkdaşlarının səyi ilə bir sıra kitab, məqalə, metodiki işlərin yazılması, dissertasiyalarin müdafiə edilməsi tarixşünaslıq sahəsində tədqiqatların inkişafına kömək etmişdir. Kafedranın elmi-tədqiqat işinin əsas istiqamətindən birini "XX əsr Azərbaycan tarixinin tarixşünaslığı və mənbəşünaslığı problemləri" təşkil etməsi də bu sahədə mövcud problemlərin aradan qaldırılmasında mühüm rol oynamışdır. Kafedra əməkdaşlarının təhsilin magistratura pilləsi üçün hazırladığı 2001-ci ildə çap olunmuş "Azərbaycan tarixinin İkinci Respublika dövrünün tarixşünaslığı (1920-1991-ci illər)", 2002-ci ildə çap olunmuş "Azərbaycanda 1920-1930-cu illər milli hərəkatın tarixşünaslığı", "Azərbaycanda millətlərarası münasibətlərin tarixşünaslığı (1920-1991-ci illər)" və digər tədris-metodik işlər tarixşünaslığın tədqiqi və tədrisinə yaxından köməklik göstərir.

Son illər tarixşünaslıq sahəsində bir sıra dissertasiyaların müdafiə edilməsi də müsbət qiymətləndirilməlidir. Bunlardan N.R.Gözəlovanın "XVIII əsr Azərbaycan tarixi məsələləri ingilisdilli tarixşünaslıqda" (2006), Q.Ş.Davudovun "XIX əsrin birinci otuzilliyində İran-Rusiya münasibətləri İran tarixşünaslığında"(2006), K.K.Şükürovun "Azərbaycan əhalisi:öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək) (2007), E.Ş.Xəlilovun "XVIII əsrin I yarısı Azərbaycan tarixinin tarixşünaslığı"(2011), H.R.Şamıyevanın "VIII-IX əsrlərdə Azərbaycanda dini-siyasi hərəkatlar və onların tarixşünaslıqda əksi"(2012), Z.Ə.Hacıyevanın "Qarabağ və İrəvan xanlıqlarının tarixşünaslığı"(2013), A.B.Məmmədovun "Almaniyanın XIX əsrin sonu-XX əsrin əvvəllərində Türkiyə siyasəti və onun tarixşünaslığı"(2013), A.F.Məhərrəmovanın "Azərbaycan Respublikasının tarixşünaslığı (1991-2006-cı illər)"(2015), L.R.Qafarzadə "Azərbaycan orta əsrlər tarixi ingilisdilli mənbələrdə"(2015) və s. dissertasiyaları göstərmək olar.

Lakin müxtəlif dövrlərin tarixşünaslığına aid tədqiqat əsərləri yazılsa da,

Azərbaycan SSR-in ictimai-siyasi tarixinə tarixçilər çoxlu sayda monoqrafiyalar, dissertasiyalar həsr etsələr də, Azərbaycan SSR-in ictimai-siyasi tarixinin tarixşünaslığı nə əvvəlki dövrlərdə, nə də Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra kompleks şəkildə, ayrıca tədqiq olunmayıb.

Müasir dövrdə tarixi tədqiqatlar sahəsində mühüm irəlləyişlər olsa da bir sıra ciddi problemlər hələ də qalmaqdadır ki, bu da digər dövrlər kimi sovet dövrü tarixişünaslığının obyektiv şəkildə tədqiqini daha da zəruri edir.

İctimai elmlər sahəsində mövcud problemlər 21 noyabr 2009-cu il tarixdə keçirilmiş müşavirədə geniş müzakirə edilib. Müşavirədə akademik R.Mehdiyevin "İctimai və humanitar elmlər:zaman kontekstində baxış" adlı məqaləsi geniş müzakirə olunub. Məqalədə qeyd edilir ki, "Milli Elmlər Akademiyasının Tarix İnstitutu son illər ərzində rəğbətlə qarşılanmış bir sıra fundamental əsər hazırlayıb nəşr etmişdir. Lakin bununla yanaşı bizim tarixçilərin ünvanına haqlı olaraq ciddi tənqidi fikirlər də söylənməkdədir. Biz bu gün də elmi səviyyəsi qənaətbəxş olmayan, aktuallıqdan uzaq və əhəmiyyətsiz əsərlərin ortaya çıxması halları ilə rastlaşırıq. Həmçinin dəyərli tarixi sənədlərin və arxiv materiallarının çapı və şərhi sahəsində vəziyyət qənaətbəxş deyildir. Tarix İnstitutunda elmi ictimaiyyət tərəfindən birmənalı qəbul olunmayan yeddicildlik "Azərbaycan tarixi" nəşr edildiyi vaxtdan bəri çox az dəyişiklik olmuşdur." (23,8 dekabr 2009-cu il)

Sovet sistemi ləğv olunandan sonra sovet tarixşünaslığına müxtəlif yanaşmalar olmuşdur ki, bunlar hazırda da qalmaqdadır. Bu yanaşmaları şərti olaraq ümumi şəkildə aşağıdakı kimi qruplaşdırmaq olar:

- **Birinci yanaşmanın** tərəfdarları SSRİ-də tarix elminin irəliyə doğru proqressiv inkişaf etdiyini qeyd edirlər. Bəzi çatışmazlıqlara baxmayaraq onlar tarix elminin inkişafının hər bir mərhələsini kəmiyyət və keyfiyyət baxımından digər mərhələyə nisbətən daha yüksək olduğunu vurğulayırlar. Ümumiyyətlə bu yanaşmanın tərəfdarları sovet dövrünü "qələbədən qələbəyə, yüksəlişdən yüksəlişə, nailiyyətdən nailiyyətə" inkişaf etmiş bir dövr kimi xarakterizə edirlər. Bu cür yanaşmanın formalaşmasında yenidənqurmaya qədərki son iyirmi ildə partiya-dövlət ideologiyasının ümumi cəhətlərinin tarixşünaslıqda əks olunması mühüm rol oynamışdı.

- **İkinci yanaşmanın** tərəfdarları sovet dövrü tarixşünaslığına qiymət verilməsində müxtəlif metodlardan istifadəni nəzərdə tutan differensal yanaşmanı müdafiə edirlər. Bu yanaşmanın tərafdarları tarixə mürəkkəb, çoxcəhətli, müxtəlif mərhələli elm kimi baxırlar. Hər mərhələ inkişaf səviyyəsinə görə fərqləndiyindən, onlar hər bir mərhələnin inkişaf səviyyəsinə uyğun tarixin təhlil olunması tələb edirlər. Bu yanaşma üçün xarakterik olan ümumi kriteriya-problemin deformasiyaya uğrama səviyyəsini aşkara çıxarmaqdan ibarətdir.
- **Üçüncü yanaşma** tərəfdarları digərlərindən fərqli oalaraq açıq şəkildə sovet tarixşünaslığının elmi kriteriyalara uyğun gəlmədiyini, tarixçilərin fəaliyyətində saxtakarlığın üstünlük təşkil etdiyini qeyd edirlər. Onlar ümumiyyətlə sovet cəmiyyətində tarix elminin mövcudluğunu inkar etməyə çalışırlar.
- **Dördüncü yanaşma** tərəfdarları sovet dövründə tarix elminə "totalitar dövlət sistemində harmonik yazılan və onun ideya-siyasi tələbatına cavab verən xüsusi elmi-siyasi fenomen" kimi baxırlar. Onlar sovet dövründə tarix elmini partiya sistemi ilə sıx ideoloji əlaqədə olduğunu qeyd edirlər. Bu yanaşmanın tərəfdarları göstərirlər ki, əgər sovet dövründə tarix sahəsində az da olsa elmi elementlər olubsa, bu heç də sistemin sayəsində olmamışdır.

Azərbaycan SSR-in tarixinə aid tarixçilər tərəfindən yazılmış kitablara, dissertasiyalara, məqalələrə, tarixi sənədlərə, arxiv materiallarına və digər mənbələrə tənqidi münasibət bəsləməklə, onları obyektiv təhlil və tədqiq etməklə tarixşünaslıq baxımından kitab yazmaq tədqiqatın əsas məqsədini təşkil edir. Bu məqsədə çatmaq üçün kitabda aşağıdakı konkret vəzifələrin həllinə cəhd olunub:

- Azərbaycan SSR-in ictimai-siyasi tarixinə aid yazılmış əsərlərin müsbət və mənfi cəhətlərini obyektiv şəkildə aşkara çıxarıb təhlil etmək;
- Problemin tarixşünaslıq baxımından tədqiqinin vəziyyətini nəzərdən keçirmək və bu sahədə mövcud olan problemlərin həlli yollarını müəyyənləşdirmək;
- Tarixi ədəbiyyatda Azərbaycan SSR-də mövcud olmuş siyasi və

ictimai təşkilatların fəaliyyətlərinin nə dərəcədə əks olunduğunu üzə çıxartmaq;

- Sovet dövründə siniflərin, sosial və etnik qrupların, millət və xalqların cəmiyyətdəki vəziyyət və rolunu, onların inkişaf dinamikasını xarakterizə edən əsər müəlliflərinin problemə nə dərəcədə elmi yanaşmalarını müəyyən etmək;
- 1985-ci ilin aprelindən sovet cəmiyyətində irəli sürülmüş siyasi xəttin tarix elminin obyektiv tədqiqinə nə dərəcədə təsir etməsini müəyyənləşdirmək;
- Dağlıq Qarabağ probleminə aid sovet tarixşünaslığını təhlil etmək, mərkəzin bu problemin həllində tutduğu ikili, qeyri-obyektiv mövqeyin əsas səbəblərini aşkara çıxarmaq;
- 1988-ci ilin fevralından başlayaraq ölkənin ictimai - siyasi həyatında mühüm amilə çevrilmiş milli-azadlıq hərəkatının, onun məqsəd və vəzifələrinin, hərəkat iştirakçılarının sosial tərkibinin, yeni yaranan siyasi və ictimai təşkilatların ölkədə mövcud olan təşkilatlara münasibətlərinin, milli problemlərlə yanaşı üzə çıxan sosial prblemlərin həlli üçün irəli sürülən tələblərin və s. məsələlərin elmi ədəbiyyatda hansı səviyyədə işıqlandırıldığini müəyyən etmək;
- Müasir dövrdə postsovet məkanında, o cümlədən cənubi Qafqazda baş verən hadisələrlə sovet dövründə baş vermiş hadisələr arasında paralellər aparmaqla onların mahiyyətini üzə çıxarmaq;
- Azərbaycan tarix elminin bir sahəsi olan tarixşünaslığın, o cümlədən sovet tarixşünaslığının ayrıca tədqiqat sahəsi kimi zəif öyrənilməsinin obyektiv səbəblərini araşdırmaq və bunların aradan qaldırılması üçün tövsiyyələr hazırlamaq və s.

Kitab əsasən Azərbaycan SSR-in ictimai-siyasi tarixinə aid olduğu üçün əsas diqqət siyasi və ictimai təşkilatların fəaliyyətlərinə, siniflər, digər sosial zümrələrə və millətlərarası münasibətlərə aid yazılmış tarixi əsərlərin və sənədlərin tarüxşünaslıq baxımından tədqiqinə verilib.

Problemin tədqiqində istifadə olunmuş mənbələri aşağıdakılardan ibaətdir: 1) Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin əsərləri; 2) Sovet alimlərinin əsərləri; 3) Xarici tarixçilərinin əsərləri; 4) Azərbaycan KP və sovet hökuməti rəhbərlərinin

əsərləri; 5) Azərbaycan KP qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları; 6) Azərbaycan Respublikası alimlərinin və siyasm xadimlərinin əsərləri; 7) Bibloqrafik və statistik kitablar; 8) Arxiv sənədləri; 9) Dövrü mətbuat

Mənbəşünaslıq baxımından tədqiqatın mənbələri içərisində nəşr olunmuş "Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. I cild, 1920-1937" kitabı (33), "Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri" kitabları (29,30), "Azrevkomun dekretləri(1920-1921-ci illər)" (543) kitabı və s. əsərlər mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatın mənbəşünaslıq bazasını təşkil edən hər bir mənbənin mahiyyəti, sosial təbiəti, onun obyektiv və subyektivliyi, adekvatlığı və tarixi həqiqətləri bütövlükdə əks etdirmə səviyyəsi, onun məlumat vermə imkanları müəllif tərəfindən dərindən öyrənilib. Bundan başqa mənbələrlə işin metodikasına uyğun olaraq problemin mənbəşünaslıq bazasının zahiri və daxili tədqiqi həyata keçirilib, mənbələrdən götürülmüş faktlar təhlil və şərh edilib. Mənbələrin bütün növlərinin təhlili nəticəsində tədqiqatçı mənbələrarası əlaqələri müəyyən edərək onun inkişaf istiqamətlərini öyrənib, tarixi hadisələr arasında qanunauyğun əlaqələri və asılılığı aşkara çıxarıb.

Tədqiqatın mənbəşünaslıq bazasının bir hissəsini təşkil edən Azərbaycan KP sənədləri, Ali Sovetin qəbul etdiyi qanun və qərarların sovet dövründə mövcud olmuş mühiti nə dərəcədə obyektiv əks etdirməsi tərəfimizdən öyrənilib.

Ümumilikdə götürüldükdə tədqiqatın elmi-metodoloji əsaslarını tarixi müqayisə və təsvir metodu təşkil edib, tədqiqatın mənbəşünaslıq bazasına tənqidi yanaşılıb, müxtəlif sənədlərdə öz əksini tapmış materialların və faktların müqayisəsi əsasında problemin araşdırılması və təhlili məqsədəuyğun hesab edilib.

Azərbaycanın sovet dövrü tarixinin başqa dövrlərə nisbətən həddindən artıq siyasiləşməsi və bu dövr tarixini yaradan və yazan şəxslərin müasir dövrdə də cəmiyyətin ictimai-siyasi həyatında aparıcı rol oynamaları bu dövrün tədqiqinə daha məsuliyyətlə yanaşmağı tələb edir. Tədqiqat işində Azərbaycan SSR-in sovet tarixşünaslığı tərəfsiz öyrənilərək aşağıdakı elmi yeniliyə nail olunub:

- Azərbaycan SSR-in sovet tarixşünaslığı ilk dəfə olaraq kompleks şəkildə obyektiv öyrənilib;
- Tədqiqat işində sovet tarixşünasılığının nöqsanları elmi şəkildə tənqid olunmaqla yanaşı, onun müsbət cəhətləri də göstərilib;

- Son vaxtlar bəzi yazılarda sovet tarixşünaslığına qarşı ifrat, qatı düşmən münasibət bəslənilməsi, o dövrdəki bütün dəyərlərin, hətta Azərbaycanın milli iftixarı olan qəhrəmanların da sovet dövrünün qalıqları kimi tarixdən silmək cəhtləri faktlarla tənqid və təkzib olunub;
- Faktlarla zəngin olan və bəzən bir-birini təkzib edən sovet mənbələrinə tənqidi münasibət bəsləməklə və onlara istinad edilməklə bir sıra tarixi həqiqətlər aşkara çıxarılıb;
- Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra mühacirətə getməyə məcbur olmuş siyasi xadimlərin və tarixçilərin əsərləri sovet tarixşünaslığı ilə müqayisəli şəkildə araşdırılıb;
- Müasir dövrdə cənubi Qafqazda baş verən hadisələrlə XX əsrdə baş verən hadisələr müqayisə edilərək onlar arasında oxşarlıqlar üzə çıxarılıb;
- Sovet tarixşünaslığına alternativ olaraq müasir dövrdə yazılmış kitab və məqalələr ilk dəfə olaraq sovet tarixçilərinin əsərləri ilə müqayisəli şəkildə tədqiq olunub;
- Tədqiqat işində inkişaf etmiş qərb ölkələrində geniş yayılmış şifahi tarixi faktlara da yer verilib;
- Sovet tarixşünaslığında daim düşmən münasibət bəslənilmiş burjua tarixçilərinin fikirləri dərindən təhlil edilərək onlara obyektiv münasibət bəslənilib;
- SSRİ tarixinin tərkib hissəsi olmasına baxmayaraq ilk dəfə olaraq Azərbaycanın sovet dövrü tarixinin bəzi fərqli cəhətləri, spesifik xüsusiyyətləri tədqiqat nəticəsində üzə çıxarılıb;
- Sovet tarixşünaslığında düşmən mövqedən yanaşılaraq cox az və birtərəfli tədqiq olunmuş antisovet üsyanlar, dissident hərəkatları yeni mənbələr əsasında öyrənilib;
- Tədqiqat nəticəsində aşkara çıxarılıb ki, Böyük Vətən müharibəsinin iştirakçısı olmuş və qəhrəmanlıqlar göstərmiş soydaşlarımız haqqında çoxlu sayda əsərlər yazılsa da, Böyük Vətən müharibəsindən əvvəl sovet-fın müharibəsində və uzaq şərq ərazisndə hərbi əməliyyatlarda iştirak etmiş azərbaycanlıların fəaliyyəti demək olar ki, tədqiq

olumayıb. Kitabda bu problemə ilk dəfə tənqidi münasibət bəslənilib və onun həllinin zəruriliyi irəli sürülüb;

- Sovet tarixşünaslığında öz əksini tapmayan 1946-1950-ci illərdəki reallıqlar, azərbaycanlıların Ermənistan SSR-dən 1948-1953-cü illərdə deportasiyasının tarixşünaslığı yeni mənbələr əsasında araşdırılıb;
- Çağdaş Azərbaycan milli-azadlıq hərəkatı, Dağlıq Qarabağ problemi, Sumqayıt hadisəsi, 20 yanvar faciəsi, 1990-cı ilin 20 yanvar ərəfəsi və sonra Bakı, Naxçıvan, Neftçala, Lənkəran və s. regionlarda baş verən hadisələr tarixşünaslıq baxımında ayrıca təhlil edilib;
- Azərbaycanın sovet dövrü tarixinin hər bir mərhələsini bir-birinə əks olan çoxlu sayda mənbələr əsasında tədqiq edən müəllif, problemləri təhlil edərək hər bir mərhələyə və hadisəyə öz münasibətini bildirib və s.

Azərbaycan tarixinin ən gərgin və ən ziddiyyətli dövrlərindən birinə həsr olunmuş tədqiqat işinin aşağıdakı praktik əhəmiyyəti var:

- Bütövlükdə Azərbaycan SSR-n 70 illik tarixinə və ya onun ayrı-ayrı mərhələlərinə aid dərsliklərin, dərs vəsaitlərinin, monoqrafiyaların hazırlanmasında;
- Azərbaycan tarixinin tarixşünaslığına aid ümumiləşdirilmiş elmi əsərlərin yazılmasında;
- Tədris vəsaiti kimi tarixçi mütəxəssislər hazırlayan ali məktəblərin bakalavr, magistatura və doktrantura mərəhələləri üçün mühazirə, seminar dərslərinin və xüsusi kursların keçirilməsində;
- "Azərbaycan tarixi"nin tədris olunduğu ali məktəb tələbələrinin sərbəst işlərin və seminar məşğələrinin hazırlanmasında;
- Azərbaycan tarixinin sovet dövrü haqqında obyektiv rəyin formalaşdırılmasında;
- Azərbaycan SSR-in sovet tarixşünaslığının müsbət və mənfi cəhətlərini göstərməklə bu dövrə birtərəfli yanaşmanın aradan qaldırılmasında;
- Müasir dövrdə Azərbaycanın XX əsr tarxinin saxtalaşdırılması üçün edilən cəhtlərin qarşısının alınmasında;

- Azərbaycanın XX əsr tarixinin öyrənilməsində şifahi mənbələrin istifadəsinin əhəmiyyətinin ictimai fikirdə özünə geniş yer tapmasında və s.

Bu kitab Azərbayan 1920-1991-ci illərin tarixşünaslığına aid yeni dövrdə yazılmış ilk böyük həcimli elmi iş olduğuna görə müəllif mütəxəssislərin müxtəlif məsələlərlə bağlı irad və təkliflərinin olacağına təbii baxır. Müəllif hesab edir ki, gələcəkdə tarixçilərin bu mövzuya yenidən müraciət etməsinə, Azərbaycan tarixşünaslığını yeni əsərlərlə zənginləşdirməsinə böyük ehtiyac var.

Tarix sahəsində tədqiqatlar inkişaf etdikcə sovet dövrünün tarixşünaslıq baxımından öyrənilməsinə də diqqətin artırılması vacibdir. Bu aktual problemə tarixçilər daha ciddi yanaşmalı və tərəfsiz mövqe nümayiş etdirməklə Azərbaycan tarixinin sovet dövrünün tarixşünaslığını yeni obyektiv əsərlərlə zənginləşdirməlidirlər.

# I FƏSİL. 1920-1930-cu illərin tarixşünaslığı

## 1.1.1920-1922-ci illər tarixi tədqiqatlarda

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və Azərbaycan Sovet Sosialist Respublikasının yaranması problemi sovet tarixçilərinin daim diqqət mərkəzində olub. Bu mövzuya aid C.B.Quliyev, Q.Ə.Dadaşov, Ə.Dadaşlı, P.Ə.Əzizbəyova, M.Ə.Qazıyev, X.O.Əlimirzəyev, N.Əlizadə, Z.İ.İbrahimov, Y.A.Tokarjevski, N.Y.Makeyev, İ.A.Hüseynov, A.Hüseynov, K.H. Şahgəldiyev, S.Qarayev və başqa alimlər əsərlər yazıblar. (101,116,124,130,150,151,165,166, 175,246,257,265,296,302,342,368,427,428, 431,479,485,486,493,525,531,532, 533,540,542,550,592,594,629,660,677, 697,739,752)

Azərbaycan tarixinin bu dövrünə və Azərbaycan KP-nin tarixinə aid, mənbəşünaslıq və tarixşünaslıq baxımından zəngin bir neçə kitab (29,30,33,36,72), bundan əlavə bu dövrün tarixşünaslıq və mənbəşünaslıq baxımından tədqiqində mühüm rol oynayan sənədlər külliyyatı da nəşr olunub.(493,543,547,700)

Bu dövrə aid X.H.Vəzirov "1919-1920-ci illərdə Azərbaycan bolşevik mətbuatı Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizədə" (1962), K.A.Ağayeva "Azərbaycanda sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizədə xüsusi dəniz ekspedisiyasının fəaliyyəti"(1965), N.M.Quliyev "Sosialist inqilabı problemi Azərbaycan sovet tarixşünaslığında (1920-1931-ci illər)"(1968), Ş.Z.Abdullayev ""Pravda" qəzeti Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda mübarizədə (1912-1920-ci illər)"(1970) mövzularında dissertasiyalar müdafiə ediblər.

Sovet tarixçilərinin bütün əsərlərində 27 aprel 1920-ci il hadisəsi birmənalı olaraq rus proletariatının Azərbaycan proletariatına qardaşlıq yardımı kimi qiymətləndirilib. Lakin sovet tarixçılərinin əksinə olaraq burjua tarixçiləri öz əsərlərində bu hadisənin qardaşlıq yardımı deyil, işğal olduğunu faktlarla sübut edirlər. Hətta sovet tarixşünaslığını diqqətlə nəzərdən keçirdikdə belə bu hadisənin müstəqil Azərbaycana qarşı işğalçı yürüş olduğunu sübut edən çoxlu faktlara rast gəlmək mümkündür.

Sovet dövrünə aid yazılmış dissertasiyaları müqayisə etdikdə aydın olur ki, ən çox elmi tədqiqat işləri məhz 1920-1930-cu illərə həsr olunub. Məsələn, 1970-ci ilə kimi sovet dövrünə aid Azərbaycanda 29 doktorluq, 192 namizədlik

dissertasiyası müdafiə edilibsə, bunlardan 15 doktorluq və 96 namizədlik dissertasiyaları məhz 1920-1930 cu illərə aiddir.(75) Fikirimizcə sovet tarixçilərinin bu dövrün tədqiqinə daha çox fikir vermələrinin əsas səbəbini bu illərdə yeridilən siyasətin təbliğinə başqa illərə nisbətən kommunist partiyasının daha çox diqqət verməsində axtarmaq lazımdır.

Sovet tarixşünaslığında qarşıya qoyulan məqsədləri aydın başa düşmək üçün o dövrdə nəşr olunan istənilən kitabın girişində irəli sürülən fikirlərə diqqət yetirmək kifayətdir. Məsələn, Azərbaycan Kommunist Partiyası tarixinin oçerklərinin 1986-cı ildə çapdan çıxmış I cildində redaksiya heyəti və müəlliflər kollektivi qarşılarına aşağıdakı məqsədlər qoyulub ki, bu da bütün sovet tarixşünaslığına xas xüsusiyyətləri özündə əks etdirir:

- Sov.İKP tarixi ilə qırılmaz əlaqədə Azərbaycan KP-nin tarixinin ən mühüm mərhələlərini işıqlandırmaq, istismarçı quruluşun devrilməsi, proletar diktaturası yaradılması, sosializm və kommunizm quruculuğu uğrunda Azərbaycan kommunistlərinin mübarizə təcrübəsini göstərmək;

- V.İ.Leninin Azərbaycanda inqilabi mübarizəyə və sosializm quruculuğuna rəhbərlik sahəsində fəaliyyətini, onun ideya və vəsiyyətlərinin respublikada həyata keçirilməsini hərtərəfli işıqlandırmaq;

- sovet xalqının həyata keçirdiyi böyük dəyişikliklərdə cəmiyyətin siyasi sisteminin rəhbər və istiqamətverici qüvvəsi, özəyi olan Kommunist Partiyasının rolunu dərindən açıb göstərmək;

- sosialist millətlərinin tərəqqisinə və bir-birinə yaxınlaşmasına yönəlmiş Sov.İKP Lenin milli siyasətinin, proletar beynəlmiləlçiliyinin pirnsiplərinin təntənəsini Azərbaycan SSR-in timsalında göstərmək;

- planların və partiya göstərişlərinin yerinə yetirilməsində, zəhmətkeşlərin səfərbər edilməsində Azərbaycan KP-nin təcrübəsini elmi surətdə ümumiləşdirmək;

- sovet tarix elmininin nailiyyətlərini, ictimaiyyatşünaslığın ən yeni müvəffəqiyyətlərini tamamilə nəzərə almaq, yeni tarixi mənbələrin aşkara çıxarılması, öyrənilməsi və elmi ədəbiyyata daxil edilməsi yolu ilə "Oçerklər"in mənbəşünaslıq zəminini genişləndirmək. (29,s.13-14)

Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri ilə yanaşı 1987-ci ildə "Azərbaycan Kommunist Partiyası qurultayları, konfransları ( 1920-1937- ci illər)" kitabının birinci cildi çapdan çıxıb. Başqa sovet tarixçilərinin əsərlərində olduğu

kimi bu kitabın da tərtibçiləri ancaq partiya fəaliyyətinin müsbət tərəflərinə aid materiallara üstünlük vermişlər. Kitabda AK(b)P-nin XII, XIII qurultayının materialları olduğu kimi verilməyib, AK(b)P MK-nın kütləvi cəza tədbirlərinə istiqamət vermiş 1937-ci il plenumlarının materialları isə ümumiyyətlə kitaba salınmayıb. Kitabda 30-cu illərin repressiyalarına, onların nahaq qurbanlarına aid müxtəlif sənədlərdəki fikirlər ixtisar edilib.

Problemin öyrənilməsində İ.İ.Minsin rəhbərliyi altında Azərbaycanın sovet tarixçilərindən İ.A.Hüseynov, Z.İ.İbrahimov, Ə.S.Sumbatzadə, Y.A.Tokarjevskinin iştirakı ilə üç respublika alimlərinin birgə yazdığı Zaqafqaziyada sosialist inqilabının qələbəsinə həsr olunmuş kitab və Zaqafqaziyada sosialist inqilabının qələbəsinin burjua tarixşünaslığının tənqidinə aid qonşu respublika tarixçilərinin yazdığı bir sıra əsərlər də müəyyən əhəmiyyətə malikdir.(513,514,515,544,589) Həmin əsərlərin hətta özündə də Azərbaycanda işğaldan əvvəl bolşevizmin dayaqlarının, kommunist ideologiyasının sosial bazasının zəif olmasına aid çoxlu sayda faktlara rast gəlmək olur.

Şərqdə ilk demokratik Respublikanın süqutu və Azərbaycanda sovet rejiminin bərqərar olması haqqında məlumatlar yuxarıda qeyd olunan mənbələrdə əsasən təhrif olunaraq birtərəfli şəkildə, bolşeviklərin siyasi xəttinə uyğun verilib. Bu kitablarda hadisələr barədə məlumatlar ümumiləşmiş şəkildə qısaca belə qeyd olunub: “1920-ci ilin yazında Azərbaycanda inqilabi şəraitin yaranması fəhlə sinfinə yoxsul kəndlilərlə ittifaq bağlayıb, müsavat hökümətini yıxmaq və hakimiyyəti ələ almaq imkanı verirdi. Azərbaycan zəhmətkeşlərinin milli mənafeyinə xain çıxan müsavatçıların ifşa edilməsi nəticəsində burjuaziya və onun millətçi partiyası olan Müsavat təklənmiş oldu. Azərbaycan İnqilab Komitəsi RSFSR XKS sədri V.İ.Leninə teleqram göndərərək xarici və daxili əksinqilabın birləşmiş quldur dəstələrinin təzyiqinə öz qüvvəsi ilə müqavimət göstərməyə imkanı olmadığına görə, Qızıl Ordu dəstələrinin Azərbaycana göndərilməsini xahiş etdi. Bu xahişi nəzərə alaraq Qızıl Ordu hissələri 1920-ci il aprelin 27-də Azərbaycan sərhəddini keçib, gecə yarısı Bakıya yaxınlaşdı. Aprelin 27-dən 28-nə keçən gecə Bakıda heç bir güllə atılmadan proletariatın dinc silahlı üsyanı qalib gəldi və Sovet hakimiyyəti bərpa olundu. Bütün hakimiyyət Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin əlinə keçdi və Azərbaycan müstəqil Sovet Sosialist Respublikası elan edildi. Bakıda inqilabı çevriliş xəbərini aldıqda, AK(b)P Gəncə Vilayət Komitəsi aprelin 29-da

Gəncə quberniyasında hakimiyyəti ələ aldı. Aprelin 29-30-da Şamaxıda, Salyanda, Zaqatalada, Şuşada, Ağdamda və başqa yerlərdə Sovet hakimiyyəti quruldu. 1920-ci il mayın ortalarında Sovet hakimiyyəti yalnız Naxçıvan istisna olmaqla bütün Azərbaycanda qalib gəldi. Vəziyyətin mürəkkəbliyi üzündən Naxçıvan qəzası və ona yaxın rayonlar bir müddət əksinqilabçıların əlində qaldı."

Aprel işğalından dərhal sonra sovet rejiminin Azərbaycan əhalisi arasında vətəndaş müharibəsini alovlandırmaq siyasəti yeritməsi onun əsil mahiyyətini üzə çıxarmağa imkan verir. AK(b)P MK-nın 29 may 1920-ci il müraciətində deyilirdi: "Kəndlilər! İndi sizin yeganə vəzifəniz mülkədarlara qarşı mübarizə aparmaqdır, bəyləri, xanları, ağaları, müsavatçıları məhv etməkdir, çünki onlar sizi torpaqsız qoymaq istəyirlər. Torpağı tutub alın, mülkədarları məhv edin, fəhlələrlə əlbir olub öz qardaşlarınızın qanlı qatillərinə qarşı mübarizəyə qalxın!"( 36,s.397-398)

Azərbaycanın əyalətlərində sovet hakimiyyətinin qələbəsinə aid sovet tarixçiləri M.K.Rüstəmbəyli, T.S.Miralayev, P.Əliyev, Q.Ə.Mədətov və digər başqa tarixçilər ayrıca əsərlər yazıblar.(116,265,296,342,642) Bu əsərlərlə yanaşı H.M.Hüseynov 1958-ci ildə "Bolşeviklərin rəhbərliyi altında Naxçıvan zəhmətkeşlərinin sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi", T.S.Miralayev 1960-cı ildə "1917-1920-ci illərdə Qazax qəzasında kəndlilərin inqilabi hərəkatı tarixindən", A.A.Qalustyan 1965-ci ildə "Azərbaycanda sovet hakimiyyəti uğrunda Gəncə (Yelizavetopol) quberniyası zəhmətkeşlərinin mübarizəsi (1917-1920-ci illər)", M.K.Rüstəmbəyli 1969-cu ildə "Quba qəzasında Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda qəza zəhmətkeşlərinin mübarizəsi (1917-1922-ci illər)" mövzularında dissertasiyalar müdafiə etmişlər. Bakıya sovet qoşunlarının daxil olması sovet tarixşünaslığında necə işıqlandırılıbsa, həmin qüvvələrin Quba, Naxçıvan, Qarabağ, Gəncə, Qazax və s. ərazilərə daxil olması da bu əsərlərdə həmin siyasətə uyğun olaraq eyni şəkildə verilib.

F.E.Useynova sovet ənənələrinə sadiq qalaraq Azərbaycandan sonra Gürcüstanın işğalını və bu işğalda Azərbaycan SSR-in iştirakını qardaşlıq yardımı kimi qiymətləndirib.(65,№1,1982)

Azərbaycan İnqilab Komitəsinin rus dilində 1920-1921-ci illərə aid 368 dekreti dərc olunmuş "Azrevkomun dekretləri" kitabı mənbəşünaslıq baxımından diqqəti cəlb edir. Bu sənədləri tədqiq edərkən, sovet hakimiyyətinin mahiyyəti

haqqında müəyyən obyektiv təsəvvür əldə etmək mümkündür. Məsələn:“26 Bakı komissarlarının ailələrinin təminatı haqqında”(19 iyul 1920) və “Əhali arasında özbaşına axtarışlar və müsadirələrin dayandırılması haqqında”(22 fevral 1921) 107 və 365 nömrəli dekretlər rejimin hansı istiqamətlərdə fəaliyyət göstərdiyi haqqında məlumat verir. 107-ci dekret Azərbaycan SSR-in Bakı Kommunasının varisi olduğunu bir daha sübut edir. Bundan başqa Azərbaycan İnqilab Komitəsinin sədri N. Nərimanovun 1920-ci ilin oktyabrında imzaladığı mandatla Suren Şaumyanın Leninə Bakı proletariatı adından 50 ədəd xalça aparması da bunu təsdiqləyir. (543,s.483-484)

Azərbaycanda 27 aprel 1920-ci ildə qurulmuş Sovet hakimiyyətinin mahiyyətini başa düşmək üçün 25 aprel-31 iyul 1918-ci il tarixində mövcud olmuş Bakı kommunasının tarixşünaslığının təhlil edilməsinə nəzər yetirmək lazımdır.

Sovet rejiminin süqutu ərəfəsi Bakı kommunasına aid yeni faktlarlar ortalığı çıxdığından bu mövzu daha da aktuallaşmışdı. Həmin dövrdə Bakı kommunasına münasibətə görə tarixçilər arasında bir-birinə əks olan iki mövqe mövcud idi. P.Əzizbəyova, D.Quliyev, İ.Mədətov və başqa tarixçilər öz yazılarında Bakı kommunasına aid 70 il sovet tarixşünaslığında mövcud olmuş və onların özləri tərəfindən də yazılmış kitablardakı fikirləri əvvəlki kimi müdafiə edirdilər. (13,86,20 sentyabr1988; 204, 24 aprel, 20 sentyabr 1988) Hətta Azərbaycan SSR EA və Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutu 26 Bakı komissarının həlak olmasının 70 illiyi münasibətilə “Qəhrəmanlıq ənənələri yenidənqurmanın xidmətinə” mövzusunda 1988-ci ilin sentyabrında elmi sessiya da təşkil edib. (204, 24 sentyabr 1988)

Akademik Z.Bünyadovun “Əfsanə və əfsanə yaradanlar”, “Bir qədər Bakı və Bakı komissarları haqqında”, “Bir daha uydurma 26 rəqəmi haqqında” və s. başlıqlı məqalələri Bakı Kommunası ilə bağlı sovet tarixşünaslığında yazılmış fikirləri təkzib edərək, bunların saxta olduğunu faktlarla sübut etmişdir.(23,6 noyabr 1989;385,15 noyabr 1990,10 aprel 1992).

Həmin məqalələrdə akademik faktlarla sübut edirdi ki, bu qurum sovet Rusiyasının mənafeyinə xidmət edərək Azərbaycan xalqına, onun müstəqil dövlətçiliyinə düşmən olub. Onun fikrincə Bakı Kommunasında 26 komissar olmamışdır. Kommunada cəmi 12 komissar olmuşdur ki, bunların da əksəriyyətinin adları xalqa təqim olunan saxta 26 komissarın tərkibində yoxdur. Xalqa təqdim

olunan saxta 26 komissarların rəhbərləri, o cümlədən S. Şaumyan 1918-ci ilin 20 sentyabrında Ağcaqum çölündə güllələnməmiş, ingilislər tərəfindən Hindistana aparılmışlar. Onun fikrincə sovet rejimi tərəfindən 70 il ərzində 26 rəqəmi və komissarlar haqqında saxta tarixi əfsanələr yaradılaraq xalqın beyninə yeridilib. A.İsgəndərovun "Bakı kommunası və onun tarixşünaslığı haqqında", "Bakı Xalq Komissarları Sovetinin mühacir tarixşünaslığı", M.Zülfüqarovun "Akademik Ziya Bünyadov və çağdaş Azərbaycan tarixşünaslığı" məqalələrində və başqa müəlliflərin yazılarında bu fikirlər daha da inkişaf etdirilib. (184,185,186,294, 15 aprel 1997)

Oktyabr sosialist inqilabının 50 illiyi ilə bağlı 1967 - ci ildə rus dilində nəşr olunmuş "Oktyabr və Azərbaycan:Biblioqrafiya" kitabında göstərilmiş əsərlər, o cümlədən P.Ə.Əzizbəyovanın bu problemin tarixşünaslığına həsr olunmuş "Azərbaycan SSR-də Oktyabr sosialist inqilabının öyrənilməsi vəzifələri və bəzi nəticələr" mövzusunda məqaləsi (585,№1977) də sovet tarixşünaslığının bariz nümunələrindəndir.

1977-ci ildə Azərbaycan ictimaiyyətçi alimlərinin kollektiv əməyinin məhsulu olan "Böyük Oktyabr və Sovet Azərbaycanın iqtisadiyyatının və mədəniyyətinin çiçəklənməsi" kitabı rus dilində çapdan çıxıb. Kitabın əvvəlində 1917-1920-ci illər dövrü qısa şəkildə qeyd olunur və sovet hakimiyyətinə qədər əldə olunmuş bütün müsbət işlərin üstündən xətt çəkilib. Kitabda sovet hakimiyyəti illərində bütün sahələrdə əldə olunmuş müvəffəqiyyətlər təsvir olunub, nöqsanlar üstündən sükutla keçilib.

P.Ə.Əzizbəyovanın "Azərbaycan neft sənayesinin bərpasında böyük rus xalqının köməyi (1920-1923-cü illər)" mövzusunda 1954-cü ildə müdafiə etdiyi namizədlik, "Azərbaycandakı sosialist dəyişikliklərdə V.İ.Leninin rolu (1920-1923-cü illər)" mövzusunda 1960-cı ildə müdafiə etdiyi doktorluq dissertasiyaları, 1958-ci ildə rus dilində yazdığı "Azərbaycan SSR-in tarixi" kitabı da bu problemlərə həsr olunub. Bundan başqa Azərbaycan Tarixi Muzeyi əməkdaşlarının P.Ə.Əzizbəyovanın redaktorluğu ilə 1977-ci ildə rus dilində nəşr etdirdikləri "Böyük Oktyabr və Sovet Azərbaycanı (eksponatlar danışır)" adlı kitabı mövzunun tədqiqində köməkçi ədəbiyyat kimi müəyyən rola malikdir. (426,427,428)

Sovet hakimiyyətinin qələbəsinin tarixşünaslıqına aid həm Azərbaycan

tarixçiləri (184,561,562,571,632), həm də keçmiş ittifaq alimləri bir sıra kitab və məqalələr həsr ediblər.(576,581,605,752)

Kollektiv müəlliflər tərəfindən 1978-ci ildə nəşr olunmuş "Azərbaycan tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı" adlı kitabın (69) 34-38 səhifələrindəki yazısında N.Y.Makeyev Azərbaycan tarixinin burjua tarixşünaslığının nümayəndələri olan S.A.Zenkovskinin, F.Kazımzadənin, R.Q. Syuninin, A.Benniqsenin, Ç.Xostlerin, M.Ə.Rəsulzadənin, M.B. Məmmədzadənin, Ə. Cəfəroğlunun və başqa müəlliflərin 23 əsərini tarixşünaslıq baxımından tədqiq edərək, onların Azərbaycan milli burjuaziyası ilə zəhmətkeşlər arasında antoqonizmin zəifliyi, müsəlman zəhmətkeşlərinin sosial-demokratiyaya və o cümlədən bolşevizmə meyl etməmələri, sosialist inqilabı üçün iqtisadi və sosial şərtlərin olmaması haqqındakı tezislərini tənqid edib. Kitabdakı faktlara tənqidi münasibət bəslədikdə burjua "saxtalaşdırıcıları" kimi təqdim olunan alimlərin Azərbaycanda sovet hakimiyyətinin qələbəsi probleminə sovet tarixçilərinə nisbətən daha obyektiv mövqe tutmaları aşkara çıxır. Məsələn, kitabda XI-ci ordunun yürüşü haqqında Nəsrulla Fateminin "Bakının işğalından sonra (28 apreldən) Azərbaycan Respublikası həqiqətdə deyil, yalnız adda mövcuddur" fikrini sovet tarixçisi B.Bağırov tənqid edərək, bunu tarixdə misli bərabəri olmayan Lenin milli siyasətinə qarşı burjua alimlərinin cürbəcür böhtanlarından biri hesab etsə də (69,s.201) tarixi faktlar bunun əksini sübut edir.

İ.S.Bağırova 1987-ci ildə yazdığı "Azərbaycanda inqilabi hərəkatın müasir burjua tarixşünaslığının tənqidi" adlı dissertasiyada ölkədə yenidənqurma prosesinin getdiyi və tarixi tədqiqatların demokratikləşdirilməsinə müəyyən şərait yaradıldığı bir vaxtda əvvəlki dövrlərdə sovet alimlərinin burjua tarixşünaslığına bəslədiyi düşmən münasibəti davam etdirmiş və burjua alimlərinin Azərbaycanda inqilabi hərəkata aid sovet tarixşünaslığına alternativ yazdıqları əsərlərdə heç bir obyektiv fikrin olmadığını sübut etməyə çalışmışdır.

T.Köçərlinin 1972-ci ildə nəşr olunmuş "Tarixi saxtalaşdıranlar əleyhinə" kitabı giriş, 5 fəsil və nəticədən ibarətdir. Girişdə müəllif kommunist partiyası rəhbərlərindən iqtibaslar gətirərək burjua alimlərinin saxtakarlığını sübut etməyə çalışıb. Bu məqsədlə o, C.Məmmədquluzadənin 1926-cı ildə "Molla Nəsirəddin" jurnalında dərc etdirdiyi "Qatıq ağdırmı, ya qaradırmı?" məqaləsini yada salaraq fikirlərini əsaslandırmağa çalışıb. Bundan başqa müəllif "Milli azadlıq hərəkatı

və müasir antikommunizmə qarşı mübarizə məsələləri" mövzusunda 21 oktyabr 1971-ci il tarixdə keçirilmiş elmi konfransda Azərbaycan KP MK-nın birinci katibinin "Müasir antikommunizm... Azərbaycan xalqının tarixini və həyatını hər vasitə ilə təhrif etməyə çalışır" kimi fikirlərinə istinad edərək burjua alimlərini kəskin tənqid edib.

Kitabın "Tarixi saxtalaşdırmaq-antikommunizm ideologiyasının əsas istiqamətlərindən biridir" adlanan birinci fəslində ideoloji mübarizədən, kapitalist ölkələrindən Sovet İttifaqına radio verlişlərinin ümumi həcminin son 20 ildə 1500 dəfə artmasından, 34 xarici radiostansiyanın SSRİ xalqlarının 22 dilində, o cümlədən Azərbaycan dilində gecəli-gündüzlü 200 saat verilişlər verilməsindən bəhs olunur. Daha sonra müəllif M.Ə.Rəsulzadənin 1922 - ci ildə İstambulda nəşr olunmuş "Azərbaycan Cümhuriyyəti", 1928-ci ildə nəşr olunmuş "Millət və bolşevizm", "Qafqaz türkləri", 1951-ci ildə nəşr olunmuş "Çağdaş Azərbaycan tarixi", M.B.Məmmədzadənin 1938-ci ildə nəşr olunmuş "Milli Azərbaycan hərəkatı", ""Müsavat" firqəsinin tarixi" kitablarını və müxtəlif vaxtlarda nəşr olunmuş "Yeni Qafqaz", "Odlu yurd", "Müsavat bülleteni", "Yaşıl yarpaq" və s. qəzet və jurnalları kəskin tənqid edərək, onları Azərbaycanda sosialist inqilabının tarixini saxtalaşdırmaqda, Sovet hakimiyyətinə çirkin böhtanlar yağdırmaqda günahlandırır.

Kitabın "Azərbaycanda sosialist inqilabının ilkin şərtlərinin yetişməsi tarixi burjua cızma-qaraçılarının əyri güzgüsündə" adlanan 2-ci fəslində F.Kazımzadənin "Zaqafqaziya uğrunda mübarizə. 1917-1921-ci illər", S.Zenkovskinin "Rusiyada pantürkizm və islam", V.Kolarsın "Rusiya və onun müstəmləkələri" və başqa burjua alimlərinin kitablarında "Azərbaycanda proletar inqilabı olmamışdır, hər hansı hərəkat olmuşdursa bu sırf burjua-millətçi hərəkat olmuşdur " kimi fikirləri tənqid edilib. Bu fəsildə Londonda çıxan "Sentral Eyşen Revyu" jurnalının 1960-cı il 2-ci nömrəsində "Sovet dövründə Azərbaycanda tarixi tədqiqatın inkişafı" kimi tarixşünaslıq baxımından qiymətli olan məqalənin adı ötəri çəkilib, lakin bu məqalədə nədən bəhs olunduğu barədə heç bir məlumat verilməyib. Bundan başqa müəllif 1966-cı ildə ABŞ-da nəşr olunmuş "Kürdlər. Tarixi və siyasi oçerk" əsərinin müəllifi Həsən Ərfənin "rus, erməni və digər sovet ünsürlərinin axışıb gəlməsi üzündən Bakı artıq öz milli xüsusiyyətlərini itirmiş, Təbriz isə həmişə azərbaycanlıların başlıca şəhəri olmuşdur" fikrinə qarşı çox ustalıqla Əhməd

Şəmidənin İranda farslaşdırma siyasətini tənqid edən fikirlərini qoyaraq sovet rejimi barədə deyilənləri təkzib etməyə çalışıb.

Kitabın "Azərbaycanda Böyük Oktyabrdan sonra yaranmış vəziyyətin və Bakı kommunası tarixinin burjua ədəbiyyatında saxtalaşdırılması" adlanan 3-cü fəslində müəllif, "Oktyabr sosialist inqilabına Azərbaycan xalqının rəğbət bəsləməməsi, bu inqilabın Rusiya xalqlarının, o cümlədən Azərbaycan xalqının da əlindən Fevral burjua-demokratik inqilabının vermiş olduqlarının hamısını qoparıb alması, buna görə də xalqların sovet hakimiyyətini tanımaq istəməməsi" və s. haqqında burjua alimlərinin yazdıqları fikirləri tənqid edib. Müəllif Q.Uratadzenin "Gürcüstan demokratik respublikasının təşkili və birləşməsi" kitabında yazdığı "Oktyabr inqilabından sonra Zaqafqaziyanın üç əsas milləti azərbaycanlılar, gürcülər və ermənilər sovet üsuli-idarəsini qəbul etməkdən imtina etdilər və məhəlli Zaqafqaziya hökümətini yaratdılar", 1954-cü ildə ABŞ konqresində müzakirə edilmiş "Kommunizm təcavüzü" haqqında xüsusi məruzədə deyilmiş "Oktyabr inqilabının qələbəsindən sonra Zaqafqaziyanın bütün xalqları Sovetləri tanımaqdan imtina etdilər" və s. bu kimi fikirləri sovet tarixşünaslığına xas olan prinsiplərlə tənqid edir. T.Köçərli 3-cü fəslin sonunda burjua alimlərinə Avropa tarixçisi L.Rankenin "Mənbələrə doğru geriyə !" şüarı və Amerika kibernetiki N.Vinerin "əgər alim həqiqətdən qaçırsa, onda alim adını itirir" sözləri ilə cavab verib. Lakin tarixi faktlar sübut edir ki, bu fikirlər burjua alimlərindən daha çox sovet tarixçilərinə aid edilməlidir.

Kitabın "Azərbaycanda xarici hərbi müdaxilə və müsavat hökmranlığı dövrü tarixinin burjua ədəbiyyatında saxtalaşdırılması" adlanan 4-cü fəsli F.Kazımzadə, H.Baykara, S.Zenkovski və başqa tarixçilərin Azərbaycan Xalq Cümhuriyyəti haqqında fikirlərinin tənqidinə həsr olunub.

"Azərbaycanda sovet hakimiyyətinin qalib gəlməsi tarixinin burjua ədəbiyyatında təhrif edilməsi" adlanan son fəsildə müəllif V. Kolarsın 1964-cü ildə nəşr olunmuş "Kommunizm və müstəmləkəçilik" kitabında yazdığı "kommunistlər Azərbaycanda milli hökümətə qarşı açıqcasına təcavüz etdilər. 1920-ci ilin aprelində Azərbaycanın düşdüyü vəziyyət 1956-cı ilin oktyabrında Macarıstanın düşmüş olduğu vəziyyətə bənzəyir... On birinci Qızıl Ordu Bakıya ona görə gəlmişdir ki, Bakı neftinə pəncəsini uzatsın və bu... kobud klassik imperializm idi ", F.Kazımzadənin "Qısa bir müddət ərzində Azərbaycanı yenə

də Rusiya uddu, hərçənd ölkənin adı və zahiri müstəqillik forması saxlandı", R. Paypsın "1920-ci il aprelin 28-də başda Orcanikidze və Kirov olmaqla zirehli qatar və XI Ordunun qoşunları Bakıya gəlib onu işğal edərək Sovet hakimiyyətini qurmuşlar" kimi fikirləri, bundan başqa S.Zenkovski, U.Allen və P. Müratovun buna oxşar fikirlərini tənqid edib.

Azərbaycan Respublikası Milli Məclisinin 18 oktyabr 1991-ci il tarixi qərarı və müstəqil Azərbaycan Respublikası alimlərinin müasir dövrdə yazdıqları əsərlərdə XI ordunun işğalı ilə Azərbaycanın dövlət müstəqilliyinin itirilməsi və s. haqqında burjua alimlərinin fikirləri öz təsdiqini tapıb.

Bir qrup müəllif tərəfindən 1987-ci ildə rus dilində yazılmış "Sovet Azərbaycanı:Əfsanələr və həqiqət" adlı kitab (722) giriş, altı fəsil və nəticədən ibarətdir.

"Azərbaycan zəhmətkeşlərinin siyasi nailiyyətləri və burjua saxtalaşdırıcılarının təhrifləri" adlanan birinci fəsildə müəlliflər burjua alimlərindən F.Kazımzadə,T.Svyatoçovski, B.Meysner, R.Payps, U.Kolarz, Z.Zenkovskiy, P.Muratov və başqalarının əsərlərində göstərilmiş faktları təkzib ediblər. Onlar F.Kazımzadənin 1951-ci ildə yazdığı "Zaqafqaziyada mübarizə" (1917-1921-ci illər), B.Meysnerin 1962-ci ildə yazdığı "Sovet İttifaqı və xalqların özünütəyin hüququ", T.Svyataxovskinin 1978-ci ildə nəşr olunmuş ""Hümmət" partiyası. Rusiya Azərbaycanında sosializm və milli məsələ", 1985-ci ildə çapdan çıxmış "Rusiya Azərbaycanı(1905-1920).Müsəlman cəmiyyətində millətin formalaşması" və s. əsərlərdə işıqlandırılmış və sovet tarixşünaslığında öz əksini tapmayan faktları subyektivcəsinə tarixin saxtalaşdırılması kimi qələmə veriblər.

F.Kazımzadə Beynəlxalq əlaqələr üzrə Vilson mərkəzinin və SSRİ-ni öyrənən İnstitutun 15 may 1979-cu ildə keçirdiyi konfransda demişdir: "Qırmızı Ordu 1920-1921-ci illərdə Zaqafqaziya respublikalarını işğal etmiş, öz hakimiyyətini pərdələmək üçün Moskva ... bolşevik hökümətləri ilə müqavilələr imzalamışdır... Zaqafqaziya Moskvanın müstəmləkəsi kimi idarə olunur." Kitabda qeyd olunmuş bu cür faktları müəlliflər tarixin saxtalaşdırılması hesab etmişlər.

Kitabın müəllifləri digər burjua alimlərinə nisbətən T.Svyataxovskiyə bir qədər fərqli münasibət bəsləyiblər. Onlar T.Svyataxovskinin əsərlərində tarixin tam təhrif olunmadığını, onun burjua tarixşünaslığından və sovet nəşrlərindən kifayət qədər istifadə etməsini müsbət qiymətləndiriblər. Lakin bütün bunlara baxmayaraq

onun əsərlərindəki bəzi faktları da müəlliflər tarixin saxtalaşdırılması kimi qiymətləndiriblər.Onlar T.Svyataxovskinin əsərlərinə münasibəti ümumiləşdirərək bildiriblər ki, T.Svyataxovski Azərbaycan kommunistlərini rus bolşeviklərinə qarşı qoymağa, Azərbaycanda sovet hakimiyyətinin qələbəsini Qırmızı Ordunun işğalının nəticəsi kimi qələmə verməyə çalışır. Müəlliflər T.Svyataxovskinin "Azərbaycan sosialist inqilabına hazır deyildi, Azərbaycan xalqı ona can atmırdı", "kommunist ideologiyası Azərbaycan xalqının rühüna əks, lazımsız və zərərli idi", "Kommunist Partiyasının proqramı və siyasəti ilə Azərbaycan xalqının milli maraqları və arzuları əkslik təşkil edirdi" və bu kimi digər fikirlərini tənqid ediblər.

Kitabın müəllifləri T.Svyataxovskinin fikirləri ilə yanaşı burjua alimi Uimbuşun "Azərbaycan əhalisinin Rusiyaya deyil Türkiyəyə meyilli olması" haqqında fikirlərini tənqid edərək M.K.Atatürkün fikirləri ilə özlərinin doğruluğunu sübut etməyə çalışıblar. Onlar bu məqsədlə M.K.Atatürkün 1966-cı ildə rus dilində Moskvada nəşr olunmuş "Seçilmiş nitq və məruzələri" kitabının 169-170-ci səhifələrinə istinad ediblər. Həmin səhifələrdə göstərilir ki, Türkiyədə 1921-ci ildə Azərbaycan SSR-in nümayəndəliyi qarşısında bayraq qaldırılarkən M.K.Atatürk demişdir:"Mənə belə gəlir ki, Türkiyə və Azərbaycan arasında olan qardaşlıq və səmimi münasibətlərin dərəcəsini izah etməyə ehtiyac yoxdur... Azərbaycan höküməti - bu xalq hökümətidir. O, öz taleyini özü həll edir, öz taleyinin yiyəsidir."

Müəliflərin M.K.Atatürkün bu fikirlərinin hansı tarixi şəraitdə deyilməsinə münasibət bildirməmələri onların bu müqayisəsinin uğrsuzluğunu göstərir. Çünki az sonra SSRİ-Türkiyə münasibətlərinin tamamilə əks istiqamətdə dəyişməsi burjua alimlərinin fikirlərinin düzgün olduğunu sübut edir.

Son illər tarixçilər tərəfindən Azərbaycan tarixinin burjua tarixşünaslığına yeni münasibəti özündə əks etdirən bir sıra kitab və məqalələr yazılıb.(184,186, 223,224,271,309,311,410 və s.) Bu əsərlərdə sovet tarixşünaslığında burjua saxtalaşdırıcıları kimi tənqid olunmuş tarixçilərin fikirləri müdafiə olunur.

20-ci illərin əvvəllərindən Azərbaycan xalqını öz tarixi köklərindən ayırmaq və müsəlman şərqinə qarşı qoymaq üçün kommunist ideoloqları fəaliyyətlərini genişləndirir və hətta Azərbaycanda kommunist hərəkatı tarixinin IX əsrdə Babəkin başçılıq etdiyi Xürrəmilər hərəkatından başladığını iddia edən əsərlər də yazırdılar. Belə əsərlərdən biri professor P.K.Juzenin 1921-ci ildə rus

dilində nəşr olunmuş “Babək və Babəkizm. IX əsr Azərbaycanda kommunist hərəkatı tarixindən” adlanan əsəridir. Əsərdə müəllif mülkiyyətə, qırmızı bayrağa və s. amillərə münasibətdə xürrəmi və kommunist dünyagörüşləri arasında əlaqələr olduğunu sübut etməyə çalışaraq, Azərbaycan əhalisində islama qarşı düşmənçilik və kommunist ideologiyasına məhəbbət hissi aşılamağa çalışıb.(556) Bundan başqa hətta Dərbənd qala divarının şimaldan deyil, cənubdan gözlənilən təcavüzə qarşı tikildiyini iddia edən kommunist ideoloqu Mixayloviç (Valantyor) “Bakinski raboçi” qəzetində bu mövzuya aid məqalə həsr edib.(338)

Bolşeviklərin bu siyasətini ifşa edərək M.Ə.Rəsulzadə yazırdı: “Azərbaycanda vətən və milli istiqlal uğrunda unudulmaz mübarizəsi ilə tanınmış Dağıstanın böyük imamı Şamil ilə Gəncənin igid müdafiəçisi Cavaddan bəhs etmirlər. Bunun yerinə isə Azərbaycan tarixinin dərinlikləri aranaraq, oradan Babək kimi şəxsiyyətlər çıxarılıb ideallaşdırılır...Babək Azərbaycanı şimala deyil cənuba qarşı qoyurdu. Bu halda o, Sovetlər Birliyinin ehtimal olunan düşməninə qarşı savaşın rəmzi ola bilər.” (339,s.100)

Tarixə bu cür münasibət sonrakı illərdə də kommunuist partiyası rəhbərlərinin istiqamətverici çıxışlarında və tarixçilərin əsərlərində davam etdirilib.

Azərbaycan sovet tarixşünaslığında 1920-1922-ci illər Azərbaycan sərvətlərinin əvəzi ödənilmədən Rusiya və digər ərazilərə daşınması qardaşlıq yardımı kimi qiymətləndirilib. Azərbaycan İnqilab Komitəsinin N. Nərimanov tərəfindən imzalanmış 2 dekabr 1920-ci il tarixli bəyannaməsində deyilir: “Sovet Azərbaycanı öz hədsiz sərvətlərindən: neft və Sovet Azərbaycanındakı başqa məhsullardan istifadə etmək üçün öz qapılarını sovet Ermənistanın üzünə geniş açır. Bu sərvətlər... indi Rusiya, Sovet Azərbaycanı və Sovet Ermənistanı zəhmətkeşlərinin malıdır.”  Bundan sonra Azərbaycan İnqilab komitəsi 1920-ci ilin dekabrında Ermənistana 48 sistern kerosin, 50 vaqon taxıl və başqa məhsullar göndərdi.( 72,s.274-275)

Sovet hakimiyyətinin ilk günlərindən başlayaraq Azərbaycan sərvətlərinin Sovet Rusiyasına və Ermənistana daşınmasını Azərbaycanın bolşeviklər tərəfindən işğalının nəticəsi hesab edən burjua tarixçilərinin əksinə olaraq sovet tarixçiləri bunu proletar beynəlmiləlçiliyinin nümunəsi hesab ediblər. Sovet tarixşünaslığının verdiyi məlumata görə, təkcə 1920-ci ilin mayında Sovet Rusiyasına 15 milyon pud,

iyununda isə 21,2 milyon pud neft və neft məhsulları, dekabrda isə Ermənistana 48 sistern kerosin, 50 vaqon taxıl və başqa məhsullar göndərilib.(72,s.264,275)

Azəpbaycan KP MK tərəfindən yaradılmış, tərkibi M.S.İsgəndərov, V.Y.Səmədov, C.B.Quliyev, M.Ə.Qazıyev, Ə.H.Şahgəldiyevdən ibarət olan komissiya tərəfindən hazırlanaraq 1958-ci ildə Bakıda nəşr olunmuş "Azərbaycan Kommunist Partiyasının Tarixi" kitabının I hissəsində Azərbaycanın işğaldan az sonra Polşa panlarına və Vrangel ağqvardiyaçılarına qarşı mübarizə aparmaq üçün Sovet Rusiyasına canlı qüvvə ilə də kömək göstədiyi qeyd olunub. Kitabın 419-cu səhifəsində bu məsələ barədə deyilir: "AK(b)P MK qərara aldı ki, partiya üzvlərinin 10%-i səfərbərliyə alınıb cəbhəyə göndərilsin. Artıq mayın 24-dək Bakı partiya təşkilatı kommunistlərin 10 faizlik səfərbərliyini müvəffəqiyyətlə yerinə yetirmişdi. Bakı fəhlələri sırasından xeyli miqdarda könüllü yazılanlar var idi. 1920-ci il mayın 26- da 1-ci Bakı kommunist polku Bakıdan Polşa cəbhəsinə göndərildi. Azərbaycandan cəbhəyə minlərlə başqa kommunistlər, bitərəf fəhlə və kəndlilər də getdilər."

1989-cu ilin may ayında Azərbaycan SSR-in 9 tanınmış tarixçisinin iştirakı ilə "1918-1920-ci illər dövrünün bəzi məsələləri" mövzusunda keçirilmiş "Dəyirmi masada" akademik C. Quliyev yenidənqurma dövründə 20-ci illərin əvvəllərinə sovet tarixçilərinin münasibətini bu cür ifadə edib:"Heç də demək olmaz ki, Azərbaycanda Oktyabrın qələbəsi tarixini biz yenidən yazmaq, indiyə kimi yazılanların üstündən qələm çəkmək fikrindəyik....Biz bu sahədə uzun illər ərzində yaranmış, böyük bir tarixçi nəslinin yazıb-yaratmış olduğu bütün yaxşı nə varsa hamısına çox diqqətlə, həssaslıqla yanaşmalıyıq.Məhz bu əsərlər zəminində biz öz işimizi yenidənqurmalı, yeni təfəkkürlə, aşkarlıq baxımından öz tədqiqatlarımızı aparmalı, Oktyabrın Azərbaycanda tarixini zənginləşdirməliyik."(204,6 iyun 1989)

XI ordunun işğalı ilə qurulmuş sovet hakimiyyətinin Azərbaycan xalqına qarşı cinayətlər bolşevik rəhbərlərin müxtəlif çıxışlarında, hesabatlarında da öz əksinin tapıb. Məsələn, "Azərbaycan ordusu" qəzetinin 19 aprel 1996-cı il sayında və R.M.Bayramovanın 2007-ci ildə nəşr olunmuş "Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər)" kitabının 11 səhifəsində qeyd oluan N.Solovyovun hesabatı buna misal ola bilər. Xalq Təsərrüfatı Şurasının sədri N.Solovyovun Leninə göndərdiyi "Çevrilişdən sonrakı 3 ay müddətində

bizim Azərbaycanda siyasətimiz” adlı hesabatında yazırdı ki, çevrilişə qədər hətta azərbaycanlı ziyalılar içərisində də sovet hakimiyyətinə rəğbət bəsləyənlər var idi. Məlumdur ki, Azərbaycan hökuməti azərbaycanlılardan təşkil edilmişdir. Heç kimə sirr deyildir ki, Azərbaycan hökumətinin üzərində də bir hakimiyyət mövcuddur. O, Azərbaycan KP-nin hakimiyyətidir. Partiya rəhbərliyi isə əsasən erməni və gürcülərin əlindədir. Bunlar isə sanki Azərbaycanı başsız qoymaq fikrinə düşmüşlər. Ziyalılar soldan-sağa, sağdan-sola güllələnir. Küçələrdən kütləvi surətdə həbs edilən müsəlmanlara qarşı ermənilərin istehzalı gülüşləri müsavatçıların əvvəlcədən söylədikləri belə bir fikri təsdiqləyir ki, Azərbaycanda sovet hakimiyyətinin qurulması ümummilli fəlakətdir.

Azərbaycan tarixinin sovet dövrünün obyektiv tədqiqi üçün ilkin olaraq aşağıdakı məsələlərin aydınlaşdırılmasına ehtiyac var:

- 1920-ci ilin aprel ayında sovet tarixşünaslığında göstərildiyi kimi doğrudanmı zəhmətkeşlərin milli hökümətdən narazılığı inqilabla nəticələnmiş, inqilabın qələbəsi ilə proletariat hakimiyyəti ələ almış və sonra kömək üçün Sovet Rusiyasına müraciət etmişdir?
- Əgər bu müraciət olmuşdusa buna cavab olaraq Azərbaycan proletariatına köməyə gələn Sovet Rusiyası hərbi qüvvələrinin məqsədi doğrudanmı Azərbaycanda müstəqil sovet respublikası yaradılmasına kömək etmək idi  və ya bu hərbi yürüşdə başqa məqsədlər var idı?
-“Müstəqil Azərbaycan Sovet Respublikası” şüarı nə məqsədlə irəli sürülmüşdür?

Azərbaycan Respublikasının pezidenti İ.Əliyev bu məsələlərə münasibətini aşağıdakı kimi bildirmişdir: “XX əsrin ilk onilliklərində Bakının neft sənayesi firmaları Rusiyanın hərbi-dəniz donanması üçün yanacaq istehsalını davam etdirirdilər.

Rusiya və Avropa ölkələri Bakı nefti uğrunda əsil müharibə aparırdılar. Nəticədə Şərqdəki ilk demokratik respublika olan ADR cəmi 23 ay yaşaya bildi. Sovet qoşunları onu işğal etdilər.” (172,s.151)

Professor S.Əliyarlı bu məsələlərə münasibət bildirərək yazırdı: “Tariximizin düzgün olmayan mövqedən “işıqlandırılması” yalnız bu və ya başqa bir tarixçinin suçu üzündən baş vermirdi. Birtərəfli, düzgün olmayan münasibət, 20-30-cu illərdə yaranmış olan bütöv bir konsepsiya ilə, “qalib gəlmiş partiya konsepsiyası” ilə bağlı idi. Onlarca tarixçi bu “konsepsiyanın” burulğanında

fırlanırdı. Kimi “zorən diplomat” sifətində, kimi isə canla-başla “qulluq işi” yapırdı. Ancaq hamısı eyni qəlibdə yazırdı... Xoşbəxtlikdən bütün bunlar artıq arxada qalmış, tarixin çevrilmiş bir vərəqinə dönmüşdür.” (328,10 may 1990)

Faktlar sübut edir ki, bütün bunlar arxada qalmamış və tarixi həmin qəlibin yeniləşmiş forması ilə saxtalaşdırmaq cəhdləri Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra hələ də qalmaqda davam edir.

Azərbaycan SSR-in tarixinə sovet tarixçilərindən fərqli münasibət bəsləyən tarixçilərdən C.Cəfərov, K.Şükürov, A.İsgəndərov, M.Qasımov, C.Həsənli, E.İsmayılov, F.İbrahimli, İ.Musayev, X.Məmmədov, N.Nəsibzadən, X.İbrahimli, A.Balayev və başqalarının kitab və məqalələri (96,97,158, 159, 160, 173,174,311,324,378,379 və s.), A.İsgəndərov və başqa tarixçilərin isə 1917-1920-ci illər dövrü və Azərbaycanda sovet hakimiyyətinin qurulmasının tarixşünaslığı sahəsində apardığı tədqiqat işləri obyektivliyinə görə sovet tarixçilərinin əsərlərindən köklü surətdə fərqlənir.(9,184,186,386, № 1,1998)

F. İbrahimli “Azərbaycan kəndində sosial - siyasi proseslər” (1920-1930) kitabında yazır: “Respublikanın müstəqillik qazandığı, ideoloji sədlərin dağıldığı indiki zamanda tariximizin obyektiv öyrənilməsi üçün geniş imkanlar açılmışdır. Bu imkandan istifadə edib xalqımızın yaxın və uzaq keçmişinin öyrənilməsi tarix elminin və tarixçilərin çox vacib vəzifəsidir ” (173,s.4)

A. İsgəndərov “Azərbaycanda sovet hakimiyyətinin qələbəsi 50-ci illərin sonu-70-ci illər tarixşünaslığında” adlı elmi məqaləsində sovet tarixçilərindən P.Ə.Əzizbəyova, Z.İ.İbrahimov, Y.A.Tokarjevski, K.Şahgəldiyev, A.Milman, M.Qazıyev, Q.Mədətov, T.Köçərli və başqalarının əsərlərini tarixşünaslıq baxımından tədqiq edərək, onların səhvlərini tənqid edib. Konkret olaraq T. Köçərlinin iki əsəri haqqında müəllif yazır: “Bu gün hər iki kitabı vərəqlədikcə vətən tarixini inqilabiləşdirmək, yerli xalqı inqilabçı kimi göstərmək üçün nə qədər yalanların, böhtanların uydurulduğu məlum olur.” (186)

A.Xəlilovun 1996-cı ildə rus dilində nəşr olunmuş “1917-1920-ci illərdə Zaqafqaziyanın müsəlman əhalisinə qarşı soyqırım tarixi mənbələrdə” kitabında bu illərdə erməni daşnak və bolşeviklər tərəfindən dinc müsəlman əhaliyə qarşı həyata keçirilən kütləvi qırğın siyasəti faktlarla ifşa edilib.

T.Zeynalovanın 1996-cı ildə “Azərbaycanda milli dövlət quruculuğu tarixindən” mövzusunda yazdığı namizədlik dissertasiyasında sovet

tarixşünaslığından fərqli olaraq sovet hakimiyyətinin ilk illərində Azərbaycanın itirilmiş torpaqları haqqında dəqiq məlumat verilir. Müəllif qeyd edir ki, XI ordunun işğalından sonra Azərbaycanın 114,5 min kv.km ərazisinin 29.338,2 kv. km itirilib, başqa sözlə Ermənistan və Gürcüstana hədiyyə edilib. Konkret olaraq Ermənistana-İrəvan (qalan hissəsi) 3.100,2 kv km, Zəngəzur (çox hissəsi) 5.115,4 kv.km, Qazax (Dağlıq hissəsi) 2.980,3 kv km, Dərələyəz 1.583,8 kv.km, Gürcüstana-Borçalı ( bir hissəsi) 5.161,4 kv km, Sıqnax 6.832,6 kv km və digər başqa ərazilər 4.564,6 kv km verilib.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna və sovet hakimiyyətinin qurulmasına sovet tarixşünaslığından tamamilə fərqli mövqe tutan və öz əsərlərində tarixi faklarla sovet tarixşünaslığının saxtakarlığını ifşa edən, uzun illər sovet rejimi tərəfindən "burjua saxtalaşdırıcıları" damğası vurulan siyasi xadimlərin, alimlərin əsərləri problemin tədqiqində mühüm rol oynayır.

Azərbaycanın görkəmli ictimai-siyasi xadimi M.Ə.Rəsulzadənin əsərləri (337,338,339 və s.) problemin öyrənilməsində müstəsna əhəmiyyətə malikdir. M.Ə.Rəsulzadənin əsərləri 2014-ci ildə Bakıda beş cilddə nəşr olunması Azərbaycan tarixnin obyektiv tədqiqnə mühüm bir töhvə hesab oluna bilər. Kitabın V cildində M.Ə. Rəsulzadənin 1918-ci il fevral-1920-ci il aprel aylarında mətbuatda və rəsmi sənədlərdə yayınlanmış 100-dən artıq əsəri toplanmışdır.

M.Ə.Rəsulzadə "Demokratiya və sovetlər" məqaləsində yazırdı: "Sovet höküməti cahan sülhünü təmin işində nə dərəcədə əmniyyətsiz bir müttəfiq isə, bolşevizm dəxi hürriyyət və demokratiya rejimini himayədə o dərəcədə mənfi bir qüvvədir. Demokratiya ideologiyamız, sovetlərsə düşmənimizdir."(99,20 yanvar 1999)

B.Rəfiyevin 1993-cü ildə tərtib etdiyi və "Azərnəşr" tərəfindən nəşr olunmuş "İstila qurbanları" kitabında dərc olunmuş materiallarda M.Ə.Rəsulzadə digər məsələlərlə yanaşı Bakının rus ordusu tərəfindən işğalından sonra Gürcüstana keçmək istərkən Siqnax qəzasında müəmmalı şəkildə öldürülmüş Nəsib bəy Yusifbəylidən bəhs edir. Onun "Odlu yurd" qəzetinin 1929-cu il 3-cü sayında verilmiş və kitabda təkrar çap olunmuş "Öyrədən bir müsibət. Min öyüdlə bir müsibət yekdir" məqaləsində deyilir: "Bundan doqquz sənə əvvəl, 27 nisana təsadüf edən bir gündə Azərbaycan xalqı müsibətlərin ən böyüyünə və faciələrin ən faciəsinə məruz qaldı. İstiqlalını qeyb etdi. Sənələrdən bəri bəkləyərək hənuz

qovuşduğu hürriyyət və hakimiyyətinə təkrar həsrət qaldı.”

M.Ə.Rəsulzadənin əsərləri ilə yanaşı Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bolşevik təqib və təzyiqlərindən mühacirətə getməyə məcbur olan M.B.Məmmədzadənin, H.Baykaranın və başqa müəlliflərin əsərləri (89,272,273,328 № 7,1991,402, 24 aprel 1992 və s.) də dövrün tədqiqində sovet tarixşünaslığına alternativ əsərlər kimi mühüm əhəmiyyət kəsb edir.

1920-1921-ci illər Naxçıvan və Zəngəzur bölgələrindəki ictimai-siyasi vəziyyət barədə sovet tarixşünaslığına alternativ məlumatları t.ü.e.d.,prof. İ.M.Musayevin və digər tarixçilərin kitab və məqalələrindən (308,309,310 və s.) almaq mümkündür.

Sovet tarixşünaslığının əksinə olaraq bu əsərlərdə konkret olaraq aşağıdakı fikirlər öz əksini tapıb: “1920-ci ildə Bakıda heç bir inqilab olmamış, 40 minlik Azərbaycan milli ordusunun əksəriyyətinin Qarabağda erməni qiyamçıları ilə mübarizə apardığı bir zamanda, fürsətdən istifadə edən XI ordu sərhəddi keçərək işğalçı yürüşə başlamışdır. Qüvvələrin qeyri-bərabərliyini nəzərə alan Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti Azərbaycanın tam müstəqilliyinin qorunub saxlanması, yeni yaranan hökümətin müvəqqəti orqan olması, hökümət idarələrindəki köhnə qulluqçuların tutduqları vəzifələrində qalması, hökümət və parlament üzvlərinin həyat və mülkiyyət toxunulmazlığının təmin edilməsi və s. şərtlərlə hakimiyyətin müsəlman bolşeviklərinə verilməsi haqqında qərar çıxararaq Bakını döyüşsüz təslim etmişdir. Hadisələrin bu cür cərəyan etməsində isə Türkiyənin I Dünya müharibəsindən məğlub dövlət kimi çıxması, Antanta qoşunlarının Türkiyənin dövlət müstəqilliyinə son qoymaq üçün onun ərazisini işğal etməsi, işğalçılara qarşı milli-azadlıq hərəkatının güclənməsi və Türkiyənin Antanta qoşunlarına qarşı mübarizədə sovet Rusiyası ilə yaxınlaşması mühüm rol oynamışdır. İşğalçı ordu Bakı istiqamətində hücuma keçərkən əhali arasında belə bir fikir yayılırdı ki, guya XI ordu Bakıya girməyəcək və Anadoluya türk qoşunlarına köməyə gedəcəkdir. Bu saxta fikrin yayılmasında XI ordunun tərkibində Bakıya gələn türk hərbi generalı Xəlil Paşanın müəyyən rolu olmuşdur. Xəlil Paşa Dərbənddən Bakıya qədər yol boyu bütün dayanacaqlarda çıxış edərək əhalini sovet hakimiyyətini müdafiə etməyə çağırırdı. “Müstəqil Sovet Azərbaycanı” şüarı isə işğalı pərdələmək üçün rus bolşeviklərinə müəyyən dövr üçün lazım olan taktiki manevrdən başqa bir şey deyildir və s.”

N.Nərimanov ömrünün sonuna yaxın "Müstəqil Sovet Azərbaycanı" şüarının saxta olduğunu başa düşərək V.İ.Leninə məktubunda yazırdı:"Məgər "Müstəqil Azərbaycan" sizin dilinizdən çıxmamışdırmı? ... İndi vəziyyət belə bir şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycanın ərazilərini almışdır... Üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir." (323,s.62)

"Müstəqil sovet Azərbaycanı" şüarının saxta olmasını əvvəllər gizli saxlanan, yalnız son illər işıq üzü görmüş bir sıra sovet mənbəşünaslığının nümunələri də sübut edir. Məsələn, İ.Stalinin Leninə 1922-ci ilin sentyabrında yazdığı məktubda müstəqil respublika oyununa son qoymağın vaxtının çatdığını bildirməsi buna misal ola bilər.(564, c.6 1990,s. 186)

Heç bir hüquqi əsas olmadan, Azərbaycan sərvətlərini ələ keçirmək məqsədilə 27 aprel 1920-ci il tarixdə Azərbaycanın şimal sərhəddini keçib Bakıya yaxınlaşan XI ordunun məqsədinin işğalçılıq olduğunu digər müəlliflərin əsərləri ilə yanaşı hətta sovet tarixşünaslığındakı faktlar da sübut edir. Məsələn: V.İ.Leninin İ.T.Smilqa və Q.K.Orcanikidzeyə Bakının işğalının zəruri olması barədə 17 mart 1920-ci il tarixli teleqramı, Ə.H.Qarayevin 1926-cı ildə nəşr olunmuş "Yaxın keçmişimizdən" kitabında verilmiş parlamentədəki 1 aprel tarixli çıxışı və H.Sultanovun Azərbaycan KP-nin 2 - ci qurultayında (16-23 oktyabr 1920-ci il) söylədiyi fikirlər buna misal ola bilər. H.Sultanov demişdir: "Hakimiyyət devrilməsində mən özüm şəxsən iştirak etmişəm. Mən çox yaxşı başa düşürdüm ki, arxamızda MK-dan olan hörmətli yoldaşlar deyil, Yalamada yerləşən qırmızı süngülər dayanır... biz Sovet hakimiyyətini hazır şəkildə aldıq, bizə onu qabda gətirdilər"(173,s.156)

Azərbaycan KP-nin 2-ci qurultayının "Hazırki vəziyyət haqqında" qətnaməsində göstərilib ki, "Sovet Azərbaycanı özünün mövcud olduğuna görə Qızıl Orduya borcludur". 27 apreldə Azərbaycan ərazisinə daxil olan rus bolşevik ordusunun təcavüzü ilə Azərbaycanın müstəqilliyinə son qoyulduqdan sonra, İnqilab Komitəsi adından 29 apreldə "Azərbaycan fəhlə və kəndlilərinə kömək üçün Sovet Rusiyasının şanlı Qızıl ordusunun" Azərbaycana dəvət olunması faktı da Bakının işğal olunmasını bir daha sübut edir. (543,s.12)

Mirzə Bala Məmmədzadə "Müsavatçılar və kommunistlər" əsərində

yazırdı: "27 aprel 1920 sənəsi hadisələrinin rus istilası deyil mütləq Azərbaycan bolşevik firqəsinin sövq və idarəsi ilə vaqe olan "proletar inqilabından" ibarət olduğunda israr edib duran Azərbaycan bolşevik yazıçılarına biz vaxtilə "Yeni Qafqasiya", "Azəri - türk" və "Milliyyət və bolşevizm" səhifələrində cavab vermiş, 27 aprel hadisələrinin rus istilasından ibarət olduğunu, yenə rus mənbələrinə istinadən göstərmişik."(273,s.5) Bu əsərdə M. B. Məmmədzadə prof. Ratqauzerin 1928-ci ildə Bakıda "Bolşevik" məcmuəsində çap olunan "Aprel inqilabının müqəddimələri" məqaləsini elmi faktlarla tənqid edib.

Akademik Z.Bünyadov XI ordunun işğalı haqqında yazırdı:"Bakıda Sovet hakimiyyəti uğrunda proletariatın heç bir üsyanı olmamışdır. Çünki,...Azərbaycanda Sovet hakimiyyəti 1920-ci il aprelin 28-də üsyansız elan olunmuşdur... Beləliklə, Azərbaycanda hakimiyyətin sovetlərin əlinə keçməsi dövrünü araşdıran müasir tədqiqatçıların bu vaxtadək uydurduqları konsepsiyaların yenidən nəzərdən keçirilməsi çox vacibdir." (108,№10,s.2)

Azərbaycanın azadlıq hərəkatından bəhs edən bir neçə kitabın müəllifi Hüseyn Baykaranın 1975-ci ildə İstambulda çapdan çıxmış, 1992-ci ildə Bakıda Azərbaycan dilində nəşr olunmuş "Azərbaycan istiqlal mübarizəsi tarixi" əsərinin "Azərbaycan istiqlaliyyətinin faciəsi..." fəsli aprel işğalı ilə bağlı Türkiyə tarixşünaslığının tədqiqinə həsr olunub. Müəllif Veysəl Ünüvərin "Bolşeviklərlə səkkiz ay"İstambul,1948, Lord Kinrosun "Atatürk" İ.,1966, Səlahəddin Tanselin "1919-1922-ci illər Atatürk və qurtuluş savaşı" İ.,1966, Aslan Sayılqanın "Solu 94 ili" İ.,1967 və s. əsərləri təhlil edərək işğalla bağlı bəzi məqamları üzə çıxarıb. Kitabda doktor Rza Nurunun çoxcildli "Türkiyə tarixi" əsərindəki belə bir fikri qeyd olunub: "Azərbaycanlılar türklər haqqında deyirlər, əvvəlcə bizi düşmənin pəncəsindən qurtardılar, sonra qırmızı ruslara satdılar". Bundan başqa kitabda qeyd olunur ki, 1920-ci il avqustun 14-də Ərzurum millət vəkillərinin sorğularına cavab olaraq M.Atatürk demişdir: "Əfəndilər, etdikləri yardım X və XI ordularını açıqdan-açığa Qafqaza, Şərq cəbhəsinə parçalamaq oldu. Bu ordular bizim istiqamətimiz, təsirimiz və xidmətimiz sayəsində asanlıqla Şimali Qafqazı keçib Azərbaycana gəldilər."(89, s. 261-265)

Mirzə Bala Məmmədzadə 1991- ci ildə Türkiyənin Ankara şəhərində nəşr olünmuş "Milli Azərbaycan hərəkatı"adlı kitabının 129-cu səhifəsində bu məsələ barəsində belə yazılıb:"Dağıstana hərəkət edən Xəlil Paşa daha yolda ikən qırmızı

ordu 26 Nisan axşamı Azərbaycan hüdudunu keçərək Bakı üzərinə hücuma başladı. Daxili ihtilal ilə bir iş yapılmadığından qızıl ordu daha aylarca əvvəl qərar verdiyi şəkildə Azərbaycanı sadəcə işğal edəcəkdi. Ordunun Azərbaycana qarşı heç bir hərəkət yapmayacağını mərkəzi komitə tərəfindən bizə təminat verildiyi halda bu xəbər içində səmimiyyət olmadığı…, Türk nüfuzundan istifadə edilmək məqsədi ilə bizim bir alət kimi istifadə edildiyimiz qənaətini verdi. ”

Akademik Rafael Hüseynovun “Vətənin adında can” kitabında (163) çap edilmiş Həsən bəy Ağayevin məktubunda bu məsələlərə aydınlıq gətirilir. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədr müavini, Parlamentin sədri Ə.Topçubaşov nümayəndə heyətinin başçısı kimi Versal sülh konfransına gediyinə görə parlamentin bütün iclaslarına sədrlik etmiş Həsən bəy Ağayev bu məktubu 1920-ci ildə yazmışdı. 17 il sonra 1937-ci ildə İstambulda F.Əmircanın (Daryal) redaktorluğu ilə çıxan “KAFDAĞI. Kafkasiya haqqında yazılar dərgisi” bu məktubu ilk dəfə dərc edilib. Məktubda deyilir: “Dövlətli Paşa həzrətləri!…Nisanın (aprelin -R.H.) 24-ü gecəsi Rusiya Şura qoşunu Azərbaycan tərəfindən qətiyyən bir səbəb olmadığı halda vətənimizə təərrüz edib şimal sərhədimizi keçməyə başladı. Azərbaycan qoşunlarının yüzdə doxsan doqquz hissəsi Qarabağda erməni asiləri ilə müharibədə olduğundan şimal sərhədimizdə 300-ə qədər əsgərimiz Rusiya qoşunlarına icabınca müqabilə edəməmiş, bunla bərabər imkan daxilində müqabilə edirdi. Hər iki tərəfdən məqtul və məcruhlar düşmüşlər. Bolşeviklər iki gün sonra məqtullarını Bakıda təntənəli surətdə dəfn etmişlərdir. 27 nisan axşam zamanı rus ordusu Bakının 15 çağrına (kilometrliyinə-R.H.) çatmış. Rus qoşunları Bakıya çatar-çatmaz Xəlil paşa ilə doctor Fuad rusları qarşılayıb bunlar bizim müttəfiqlərimizdir deyə əhalini müqabilədən saxlamışlar (müqavimət göstərməkdən çəkindirmişlər-R.H.). Zat-i aliləri ruslar tərəfindən aldadılmışdır. Azərbaycanın islam əhalisi bu qədər tökülmüş qanlar, viran şəhərlər, göylər məsələsində məsul zat-i alilərini bilirlər… Avropa hökümətləri qarşısında protesto etmişik. Rus ordusunun Azərbaycandan çıxarılmasını tələb edirik”.(163,s.13-19)

Akademik Z.Bünyadovun Bakı kommunasının saxta tarixni ifşa edən məqalələrində də XI ordu Samur çayı keçərkən 300 sərhədçimizin qeyri bərabər döyüşə girməsi, qəhramanlıqla həlak olmaqla yanaşı düşmənə də xeyli itki vermələrini arxiv materiallarına əsasən təsdiq edir. O, həmçinin qeyd edir ki, sərhədçilərimiz tərəfindən XI ordunun öldürülmüş 9 komissarı Bakıda dəfn

olunduğu bağ əvvəllər 9 komissar bağı adlandırılıb. 1920-ci ilin sentyabrında Ağcaqum çölündən cəsədlər gətirib burda dəfn edərək bağın adını dəyişərək 26 Bakı komissarı bağı adlandırmışlar. Z.Bünyadov həmçinin XI ordu Bakını işğal edərkən Xəlil paşanın işğalçıların xeyrinə əhali arasında təbliğat aparmasını da qeyd edib. (23,6 noyabr 1989;108,№10,s.2;385,15 noyabr 1990,10 aprel 1992).

Buradan belə nəticə çıxarmaq olar ki, 1920-ci ilin mart-aprel aylarında mövcud olan tarixi şərait Azərbaycan və Türkiyəninin xeyrinə olmamış və Türkiyə bu ağır vəziyyətdə Azərbaycana kömək edə bilməmiş, öz dövlətçiliyini qoruyub saxlamaq naminə Azərbaycanın bolşeviklər tərəfindən işğalına razı olmuşdur.

Tarixçilər E.Məmmədov və L.Hüseynova BDU-nun gənc tarixçi tədqiqatçılarının 1991-ildə keçirilmiş elmi konfransına təqdim etdikləri "ADR - in süqutu dövründə (yanvar - aprel 1920 - ci il) "Azərbaycan" qəzetinin kontent-təhlili" adlı məruzədə Sovet Rusiyasının Azərbaycana qarşı işğalçılıq niyyətlərini sübut edən faktlardan bəhs edirlər. Məruzədən məlum olur ki, bu dövrdə qəzetdə təhlükənin mənbəyi olan Sovet Rusiyası ilə münasibətlərə dair, konkret olaraq "Sovet Rusiyası Azərbaycana qarşı düşmənçilik və işğalçılıq nümayiş etdirir" mövzusunda 16, "Sovet Rusiyası dinc qonşuluq münasibətlərinin yaradılmasına meyl etmir və Azərbaycanın müstəqilliyini tanımaqdan imtina edir" mözusunda 14, "Azərbaycan müstəqilliyinə qarşı çevrilmiş hər cür qəsdi aradan qaldırmağa hazır olmalıdır" mözusunda 14, "Azərbaycan hököməti Rusiyanın daxili işlərinə qarışmağı arzu etmir" mözusunda 10, "Azərbaycan-Rusiya iqtisadi əmtəə mübadiləsinin bərpası zəruridir" mözusunda 9, "Sovet Rusiyasının Azərbaycana münasibəti qeyri - müəyyəndir" mözusunda 8, "Qırmızı Ordu öz qüvvələrini Azərbaycan sərhədlərində cəmləşdirir" mözusunda 6 məqalə dərc olunub. Bundan başqa bu dövrdə "Yerli bolşeviklər Azərbaycan hökuməti əleyhinə pozuculuq işi aparır" mövzusunda 24, "Bolşeviklərin dövlət əleyhinə fəaliyyətinə qarşı hökümət tədbirlər görməlidir" mövzusunda 16 məqalə çap edilib. Bu cür faktlar bir daha sübut edir ki, sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətinə qarşı işğalçı siyasət yeridib və bunun reallaşması üçün daim müxtəlif yollar axtarıb.

İ.Musayevin "Azərbaycanın xarici siyasəti (mart 1917-aprel 1920-ci illər)" adlı kitabının (310) "Azərbaycan-Rusiya münasibətləri və Aprel işğalı" adlanan altıncı bölümündə bu iki dövlət arasında münasibətlərin səciyyəsi, Azərbaycan Xalq Cümhuriyyəti-Denikin münasibətləri, işğal ərəfəsində Azərbaycanın beynəlxalq

vəziyyəti, Azərbaycanın işğalına böyük və qonşu dövlətlərin münasibətləri tədqiq olunub.

Müəllif "Böyük Ermənistan"nın bərpasına yönəlmiş hərbi-diplomatik səyləri, qərb dövlətlərinin ikili mövqeyini, Türkiyənin yardım göstərə bilməməsini, Rusiyanın işğalçı siyasəti və hərbi təcavüzünü Azərbaycanın dövlət müstəqilliyinin itirilməsinin xarici amilləri sırasına aid edib. Müəllif bu amillər sırasında sonuncu amili həlledici hesab edir. Kitabda qeyd olunan Qafqaz cəbhəsi komandanlığının XI orduya və Volqa-Xəzər donanması komandanlığına Petrovsk şəhərindən verdiyi 490 saylı (21 aprel 1920) və Rostovda imzalanan 5969/s saylı (23 aprel 1920) direktivlər, Dərbənddən verilən 52 saylı əmr (25 aprel 1920) və digər sənədlər işğalın qabaqcadan planlaşdırıldığını göstərir.

Kitabda bu direktiv və əmrlərin şərhi verilib: "Bakıya hücum və Azərbaycanın azad edilməsi haqqında" 490 saylı direktivdə: 1) aprelin 27-də Azərbaycan sərhədlərini keçib Bakı quberniyasını tutmaq; 2) desant çıxararaq neftdaşıyan Azərbaycan Xalq Cümhuriyyəti donanmasını ələ keçirmək və s. nəzərdə tutlub. 5969/s saylı direktivdə isə əvvəlki direktivə əlavə olaraq yalnız Bakı quberniyasını deyil, Azərbaycanın bütün ərazisini ələ keçirmək XI ordunun əsas vəzifəsi sayılırdı. 52 saylı əmrdə isə hərbi əməliyatın 17 maddəlik konkret planı verilib.

Müəllif qeyd edir ki, "XI ordunun Azərbaycan zəhmətkeşlərinə beynəlmiləl yardımı", bunun üçün də onun "dəvət" olunması, habelə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin hakimiyyətin təhvil verilməsi barədə qərar çıxarmağa məcbur edilməsi Rusiyanın hərbi təcavüzünə geyindirilən "siyasi hüquqi" dondan başqa bir şey deyil.

Müəllif kitabın sonunda belə nəticəyə gəlir ki, 1920-ci ilin apreli üçün Azərbaycanda (Bakıda) sosialist inqilabı üçün şərait olmamış və fəhlə sinfinin silahlı üsyanı baş verməmişdir. Sadəcə, Azərbaycanın müstəqilliyini əsla qəbul etməyən Rusiya onu yenidən işğal etmişdir. (310)

N.Ağamalıyevanın redaktorluğu ilə beş nəfərdən ibarət redaksiya heyətinin hazırladığı və 1998-ci ildə "Elm" nəşriyyatı tərəfindən çap olunan "Azərbaycan Cümhuriyyəti (1918-1920)" kitabının yeddinci fəsli "Bakıda aprel çevrilişi və 1920-ci ildə Azərbaycanın RSFSR XI ordusu tərəfindən işğal olunması" adlanır. Kitabın bu fəslində qeyd olunur ki, hələ aprelin ortalarında XI ordunun

birlikləri və hissələrinin Azərbaycan sərhəddində cəmləşməsi başlamışdı. Gələcək əməliyyatlarda iştirak etmək üçün 20-ci, 28-ci və 32-ci atıcı diviziyaları (20 minə yaxın süngü), sonralar 2-ci süvari korpusda birləşdirilən 7-ci və 8-ci süvari diviziyaları və Taman süvari briqadası (cəmi 7 min qılınc) ayrılmışdır. Ordunun sərəncamında Dərbənddə yerləşən 5 zirehli qatar, həmçinin bir neçə aviasiya dəstəsi verilmişdir.

Kitabda işğal faktını təsdiq edən digər bir sənəd, ordu komandanı M. Levandovskinin 25 aprel tarixli əmri də şərh edilib. Əmrdə hərbi hissələrə konkret olaraq aşağıdakı tapşırıqlar vermişdir: 2-ci korpus özünün əsas qüvvələrilə aprelin 30-na qədər Şamaxı-Ağsu rayonunu ələ keçirməli və Kürdəmir stansiyasında Bakı-Gəncə dəmir yolunu bağlamalı, Qızılburuna çatdıqda atıcı dviziyalarla birgə Bakıya hücum etmək üçün öz qüvvələrinin bir hissəsini ayırmalı, 3 atıcı diviziya isə öz növbəsində dəmir yolu xətti boyunca Bakıya hücum etməli və 1920-ci il mayın 1-nə qədər bütün Bakı neft rayonunu ələ keçirməli idi.

V.Arzumanlı “Müstəqillik və azadlıq bayrağı altında totalitarizmin hökmranlığı (XX əsrin 20-ci illəri)” adlı məqaləsində qeyd edir ki, xalqa zorla, bolşevizmin süngüləri ucunda gətirilən “müstəqillik” və “azadlıq” tezliklə xalqın qızıl qanına boyanaraq əsil simasını aşkara çıxardı... 1920-ci ilin yazından 1921-ci ilin əvvəllərinədək azərbaycanda 40 mindən artıq insan siyasi repressiyaya məruz qalmış, heç bir günahı olmadan güllələnmişdir. (224,s.18-20)

Sovet tarixşünaslığında 20-30-cu illərdə milli hərbi hissələrin yaranması problemi  az da olsa tədqiq olunub. Sovet tarixşünaslığında bu məsələyə ümumi münasibət belədir ki, çar Rusiyası dövründə 40-a qədər millət və xalqa, o cümlədən azərbaycanlılara etibar edilmədiyinə görə bu millət və xalqların nümayəndələri orduya çağırılmayıb və  sovet hakimiyyətinin ilk illərində onların hərbi məsələlər barədə təsəvvürləri olmayıb. Bu  səbəblərdən RK(b)P XII qurultayının (aprel 1923) qərarı ilə milli hərbi hissələr yaradılmağa başlanılıb, bu hissələr 1925-ci ildə sovet ordusunun 10 faizini təşkil edib, sosializmin tam qələbəsi ilə millət və xalqların inkişaf səviyyəsi bərabərləşdiyi üçün ÜİK(b)P MK və SSRİ XKS qərarı (mart 1938) ilə ləğv olunub.

Lakin faktlar Azərbaycan Xalq Cumhuriyyəti dövründə yaranan və bolşeviklərə qarşı döyüşlərdə qəhrəmanlıqlar göstərən Azərbaycan milli ordusunun tarixinin sovet tarixşünaslığında biləәkdən saxtalaşdırıldığını göstərir. Azərbaycan

milli hərbi hissələri yuxarıda göstərildiyi kimi heç də 1923-cü ilin aprelində deyil, 1918-ci ilin iyununda yaranaraq, 27 aprel 1920-ci il işğalı ərəfəsində Qarabağda erməni qiyamının yatırılmasında fəal iştirak edib. Aprel işğlından sonra sovet rejimi milli ordunun 266 hərbçisini, o cümlədən 12 general, 27 polkovnik, 6 podpolkovnik, 48 kapitanı güllələmişdi, (337, s.17)

İşğaldan sonra bir sıra ərazilərdə baş verən üsyanlardan qorxuya düşən kommunist rejimi Azərbaycan milli hərbi hissələrini dağıtmaq üçün onların bir hissəsini Qafqaz sıra dağları ərazisinə, bir hissəsini isə İran ərazisinə göndərərk öz təcavüzkar siyasətlərində istifadə etmişdir.

M.Ə.Rəsulzadə bu siyasəti ifşa edərək yazırdı:"Az-çox bağlı qalan Azərbaycan əsgəri dəxi dağıdılıyordu. Bir qisim qitəati müqabil inqilabçı deyə dağıtmış, geridə qalan mövcudiyyəni də Azərbaycan ixtilalının mütəaqib bolşeviklər tərəfindən İran üzərinə yapılan təcavüz səfərinə göndərmişlərdi… Bolşeviklər həm Azərbaycan ordusunun itlaf ediyor, həm də Rəşt ilə Ənzəlidən yapdıqları vəqayei Azərbaycanlı əliylə icra etmək surətilə bu iki dindaş millət arasında əbədi bir nifaq və uçurum açmaq istiyorlardı." (337, s.74)

Yalnız 1931-ci ildə milli hərbi hissələr geri qaytarılaraq Dağlıq Qarabağ və Hacıkənddə yerləşdirilib. Sonra isə şəxsi heyətin əsas üzvləri sıradan çıxarıldıqdan sonra milli hərbi hissələr 1938-ci ildə tamamilə ləğv edilib.(23,31 avqust 1990, 108, № 10,1990, s. 17 - 19)

L.Şüküroğlunun 2000-ci ildə nəşr olunmuş "Cümhuriyyət höküməti repressiya məngənəsində" kitabında F.X.Xoyski, S.Mehmandarov, Ə.Şıxlinski, M.Cəfərov, X.Sultanov, X.Rəfibəyli, Ə.Rəfibəyli, S.Rəfibəyli, B.Cavanşir, C.Hacınski, M.Hacınski, Ə.Pepinov, X.Məlikaslanov və başqa şəxslərin 20-30-cu illərdə başlarına gələn faciələr tarixi sənədlər əsasında tədqiq olunub.

Azərbaycan SSR-in 20-ci illər xarici siyasət məsələləri t.e.d.,prof. M. Qasımovun "Xarici dövlətlər və Azərbaycan (Aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik - siyasi münasibətlər)" kitabında geniş tədqiq olunub. (223) Kitab giriş, on altı bölüm və nəticədən ibarətdir.

Kitabın giriş hissəsində problemin Azərbaycan, Türkiyyə, Rusiya, Gürcüstan, ABŞ tarixşünaslığınının təhlili verilib. Müəllif problemə dair Azərbaycan tarixşünaslığında iki xəttin olduğunu göstərib. O, müstəqil, milli dövlətçiliyə və tarixi obyektivliyə meyl ruhunda yazılmış əsərləri bir qrupa, 1920-

ci il aprel işğalından sonrakı dövrü mədh edən əsərləri isə digər qrupa aid edib. Kitabda Azərbaycan tarixçilərindən Y.Bağırovun, M.Sofiyevin, C.Quliyevin, X.İbrahimlinin, İ.Musayevin kitablarının təhlili verilib.

"Aprel işğalından sonra Azərbaycanın daxili və beynəlxalq vəziyyətinin ümumi mənzərəsi" adlanan birinci bölümdə müəllif aprel işğalının mahiyyətini, Azərbaycanın daxili və xarici vəziyyətini göstərib.

Müəllif "Müstəqil sovet Azərbaycanı" şüarının saxtalığını və sovet tarixşünaslığında işğalı ört-basdır etmək üçün irəli sürülmüş fikirlərin əsassızlığını İ.Stalinin aşağıdakı sözləri ilə bir daha sübut edir:"... biz qabaqcadan Bakıda üsyan qalxacağına ümid edirik. Lakin şübhəsiz, bunun şansı yoxdur. Ona görə də Azərbaycan hüdudlarına soxulmaq gərəkdir... Mənə elə gəlir ki, gələcək (nəzərdə tutulan) müstəqillik ciddi praktik əhəmiyyət daşımadan yalnız bəyanat kimi ola bilər" (223,s. 25)

"Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər nazirliyinin bağlanması və "yeni xarici siyasət xətti"" adlanan ikinci bölümdə keçmiş kadrların təmizlənməsi və yeni kadrların seçilməsi, sovet xarici siyasətinin milli dövlətçiliyə zidd mahiyyəti tədqiq olunub.

"Xarici siyasət sahəsində RSFSR hökümətinin təzyiqləri və əsasnamələrin məcburi xarakteri" adlanan üçüncü bölümdə sovet müstəmləkə siyasətinin ilk tədbirləri işıqlandırılır.

"Azərbaycanın xarici siyasət fəaliyyətinin güney qafqaz respublikaları ilə birləşdirilməsi və xaricdəki nümayəndəliklərinin ləğv edilməsi" adlanan dördüncü bölümdə təsərrüfat və maliyyə həyatının, xarici siyasətin birləşdirilməsi, Azərbaycanın aprel işğalınadək Gürcüstanda, Batumda, Ermənistanda, İranda, İstambulda, Ukraynada, Krımda, Kubanda, Donda mövcud olan nümayəndəliklərinin ləğv edilməsi göstərilib. Bundan başqa işğaldan sonra Azərbaycanın Təbriz, Ənzəli, Kars və Batumda fəaliyyət göstərən konsulluqları, Ankara, Tiflis və Moskvadakı səlahiyyətli nümayəndəliklərinin bağlanılmasının səbəbləri faktlarla izah olunur.

"Azərbaycanın dövlət müstəqilliyinin itirilməsinə İngiltərə, Fransa, ABŞ, Türkiyə və İranın münasibəti" adlanan beşinci bölümdə müəllif Rusiyanın xarici dövlətlərə 18 milyard rubl borclu olmasını və bu dövlətləri Rusiya dağılacağı təqdirdə borclarının taleyi narahat etməsinə baxmayaraq Rusiya imperiyasının

parçalanmasının və gənc dövlətlərin, o cümlədən müstəqil Azərbaycanın mövcd olmasının tərəfdarı olduqlarını qeyd edir. Müəllif göstərir ki, aprel işğalına inqilabi Türkiyənin münasibəti ciddi təhlil tələb edir. Tarixi ədəbiyyatda bu məsələyə birmənalı münasibət mövcud deyil. Bəzi qəzetlərdə, hətta bəzi Türkiyə tədqiqatçılarının əsərlərində belə mülahizələrə rast gəlmək olur: guya Mustafa Kamal Paşa V.İ.Leninlə birləşərək Azərbaycan Xalq Cümhuriyyətini Rusiyaya bəxş edib. Müəllif Səlahəddin Taselin 1966-cı ildə nəşr olunmuş "1919-1922-ci illər Atatürk və qurtuluş savaşı", Aslan Sayılqanın 1967-ci ildə nəşr olunmuş "Solun 94 ili", Doğan Avçıoğlunun "Milli qurtuluş tarixi" və başqa müəlliflərin əsərlərini və digər sənədləri təhlil edərək belə nəticəyə gəlmişdir ki, düşmüş olduğu ağır vəziyyətə və yunan-ingilis müdaxiləsinə baxmayaraq Türkiyə Azərbaycanı müstəqil görmək istəyirdi. Türk xalqı təkcə bunu istəmirdi, o, bunun üstündə israr edirdi. Müəllifin fikrincə 1921-ci ilin oktyabrında keçirilmiş Kars konfransının gedişinin stenoqramının bunu sübut edir.

"Azərbaycan-Rusiya münasibətləri" adlanan onuncu bölümdə Azərbaycanın bolşevik rəhbərliyinin Rusiya ilə münasibətlər qurmasından, Rusiya ilə danışıqlar aparmaq üçün səlahiyyətli nümayəndənin təsdiq edilməsindən, ilk Azərbaycan-Rusiya danışıqları və imzalanan sənədlərdən, Azərbaycanın Moskvada səlahiyyətli nümayəndəliyinin yaradılması və onun fəaliyyəindəki çətinliklərdən, Bakıda Rusiya konsulluğunun yaradılmasından bəhs olunur. Müəllif bu bölümdə Azərbaycan-Rusiya münasibətlərini sovet tarixşünaslığından fərqli tədqiq edib. Məsələn, müəllif Moskvada keçirilən danışıqlarda B.Şahtaxtinskinin 1920-ci il sentaybrın 20-də V.İ.Leninə yazdığı fikirləri o dövrün reallığını əks etdirirən fikir kimi yüksək qiymətləndirir. B.Şahtaxtinski yazırdı :"İndi Azərbaycanda belə düşünürlər ki, Azərbaycan- Rusiya münasibətləri göstərdi ki, Rusiya ilə ittifaq aclıq, iflas və müstəqilliyin itirilməsi deməkdir."

"Azərbaycan-Türkiyə münasibətləri" adlanan on birinci bölümdə 20-ci illərin əvvəllərində Türkiyə ilə Rusiyanı yaxınlaşdıran amillər, 1921-ci il 16 mart tarixli Rusiya-Türkiyə müqaviləsi və Azərbaycana münasibət, Azərbaycan-Türkiyə münasibətlərinə Rusiyanın yaratdığı maneələr, keçirilən ikitərəfli görüşlərdə müzakirə olunan məsələlər, Kars konfransında Azərbaycanın taleyinə aid müzakirə olunan məsələlər işıqlandırılıb.

"Azərbaycan-İran münasibətləri" adlanan on ikinci bölümdə münasibətlərin

inkişafına mane olan problemlər, 1921-ci ilin fevralın 26-da imzalanmış Rusiya - İran müqaviləsi və bunun Azərbaycana təsiri şərh edilib.

İki dövlət arasında müzakirə olunan məsələləri müəllif aşağıdakı ardıcıllıqla qeyd edir:

1. Sərhəd pozulması, İran ərazisindən keçən dəstələrin Lənkəran və Muğanda törətdikləri hərəkətlər;
2. Gilan hadisələri və Azərbaycan hərbi hissələrinin orada olması;
3. İran Kommunist Pariyası ilə bağlı məsələlər;
4. Azərbaycanda İran təbəələrinin vəziyyəti;
5. Ticarət, nəqliyyat və başqa sahələrdə əməkdaşlıq.

"Azərbaycan-Ermənistan münasibətləri" adlanan on üçüncü bölümdə Ermənistan sovetləşməmişdən əvvəl və sonra Azərbaycana qarşı iddiaları, Moskvanın köməkliyi ilə Azərbaycan ərazilərinin Ermənistana verilməsi faklarla göstərilib.

"Azərbaycan-Gürcüstan münasibətləri" adlanan on dördüncü bölümdə Azərbaycan SSR-in Gürcüstan Demokratik Respublikası və qonşu ərazidə sovet hakimiyyəti qurulduqdan sonra Gürcüstan SSR ilə münasibətləri tədqiq edilib. Müəllif bu dövrdə əsasən Gürcüstan sovet Rusiyası tərəfindən işğal olunana qədər onun ərazisində mövcud quruluşu devirmək üçün Azərbaycan sovet orqanlarının təbliğat aparmasının və ərazi-sərhəd məsələsin müzakirə predmeti olduğunu qeyd edir. Müəllifin Gürcüstanın mübahisəli hesab etdiyi Zaqatala dairəsi, Siqnax qəzası, Qarayazı düzü, Borçalı, Axalsıx qəzasının əhalisinin tərkibi haqqında verdiyi məlumatdan görünür ki, bu ərazilərin əhalisinin əksəriyyətini o dövrdə azərbaycanlılardan ibarət olub.

Müəllif demək olar ki, Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Azərbaycan SSR ilə Gürcüstan Demokratik Respublikası arasında 1920-ci il iyunun 12-də imzalanmış Ağstafa müqaviləsini geniş şərh edib. Müqavilədə aşağıdakı məsələlər öz əksini tapıb:

- iki respublika arasında bütün hərbi əməliyyatların dayandırılması və tərəflərin bir-biri ilə möhkəm sülh və dostluq münasibətlərinə daxil olması,
- hərbi əsirlərin dəyişdirilməsi, sərhəd xəttinin müəyyənləşdirilməsi,
- bir il müddətinə qüvvədə qalacaq bitərəf zonaların yaradılması və burada heç bir hərbi hissənin yerləşdirilməməsi,

- Qırmızı körpü, Zaqatala qəzası ilə bağlı məsələlərin tənzimlənməsi,
- bir-birinin müstəqilliyini qeyd-şərtsiz tanımaları və bir-birinin daxili işlərinə qarışmaması,
- bir-birinin gerb və bayraq rəmzlərinin tanınması,
- diplomatik və konsulluq münasibətlərinin yaradılması,
- tərəflərin öz ərazilərində Azərbaycan və Gürcüstan hökümətlərinə iddia edən hər hansı qrup, təşkilat və şəxsin fəaliyyət göstərməsinə icazə verməyəcəkləri və onlara yardım etməyəcəkləri barədə öz üzərlərinə öhdəliklər götürmələri,
- bir-birinə əlverişli ticarət və iqtisadi şəraitin yaradılması,
- azad tranzit prinsipinin həyata keçirilməsi,
- tərəflərin vətəndaşların əmlaklarının qarşılıqlı surətdə qaytarılması,
- saziş imzalananadək Azərbaycan heyvandarlarının Gürcüstan yaylaqlarından maneəsiz və azad istifadə etməsi,
- vətəndaşların sərbəst öz vətənlərinə qayıtması və s.

Bundan başqa dörd maddə ilə imzalanan digər sazişdə Azərbaycanın Gürcüsitana neft və neft məhsulları göndərməsi, əvəzində isə manufaktura və kağız alması, tərəflərin bərabər qaydada ayırdığı vəsait hesabına Gürcüstanın Poylu körpüsünü bərpa etməsi və vətəndaşlara vurulan ziyanın ödənilməsi məsələləri tənzimlənilirdi.

Müəllif Ağstafa sazişindən sonra ikitərəfli münasibətlərin vəziyyəti və bu sahədə olan problemləri, Gürcüstanın Rusiya tərəfindən yenidən işğalından sonra Azərbaycan-Gürcüstan münasibətlərində baş vermiş dəyişikləri də tədqiq edib.

“Əfqanıstan, Buxara və Dağıstanla münasibətlər” adlanan XV bölümdə bolşeviklərin şərq siyasətində Azərbaycandan istifadə etməyə çalışmaları və digər məsələlər işıqlandırılıb.

“Beynəlxalq konfranslar və Azərbaycan” adlanan XVI bölümdə Spa (Belçika) (6-16 iyun 1920), London (21 fevral-14 mart 1921), Genuya (10 aprel-19 may 1922), Haaqa (Hollandiya) (15 iyun-20 iyul 1922) konfranslarında Azərbaycanla bağlı müzakirə olunan məsələlər tədqiq edilib.

Kitabın nəticə hissəsində müəllif sovet tarixşünaslığına öz münasibətini bildirib. O qeyd edib ki, indiyədək 20-ci illəri tədqiq edənlər tarixi tədqiqatların qəbul olunmuş ümumi-metodoloji prinsiplərini deyil, hadisə və proseslərə sinfi

və Kommunist Partiyası nöqteyi-nəzərindən yanaşmanı əsas götürüblər. Sinfi və partiyalı yanaşma tarixi tədqiqatların prinsipi kimi götürüldükdə və onların əsasında hər hansı iş yazıldıqda o, obyektiv, tarixi gerçəkliyi əks etdirən iş sayıla bilməz. Dövrü "ağ" və "qaraya" bölmək, birini təriflәmək, digərini isə pisləmək obyektiv tarixi tədqiqat işi yazmaq demək deyildir. Tarixi hadisə və prosesləri baş verdiyi konkret şəraitdə, daxili və beynəlxalq tərəflərini nəzərə almaqla kompleks tədqiq etdikdə obyektiv nəticələrə gəlmək olar. (223)

M.Qasımovun "Aprel işğalından sonra Azərbaycandakı xarici ölkə vətəndaşlarının vəziyyəti" adlanan məqaləsində 1920-ci ilin sentyabr ayı üçün Gürcüstandakı Azərbaycan SSR-in nümayəndəliyində işləyən 40 nəfərdən 19 nəfərinin rus, erməni, gürcü və başqa millətlərdən olduğu, Moskvada isə "müstəqil Azərbaycan SSR-i" 1922-ci ilin iyulunda Kalustovdan, İbrahimovdan, Saqomonovdan, Şahbazovdan, Petrovdan, Akopovdan, Ter-Petrosyandan, Rusanovdan və Maluntsevdən ibarət nümayəndəlik təmsil etdiyi qeyd olunub. (212, №1,s. 38 - 39)

S.M.Seyidova 1994-cü ildə "Azərbaycanın beynəlxalq əlaqələri (1920-1930-cu illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək problemə sovet tarixşünaslığından fərqli münasibət bəsləyib.

Sovet tarixşünaslığında mövcud olan saxtakarlıqlar XX əsrin 80-90-cı illərində Rusiya alimlərinin də əsərlərində tənqid olunub. Kommunist rejiminin və onun liderlərinin fəaliyyətinin yalnız müsbət cəhətlərini özündə əks etdirən sovet tarixşünaslığının (517,519,589,637,711 və s.) əksinə olaraq, bu illərdə sovet hakimiyyətinin səhvlərini tənqid edən kitablar nəşr edilib. (419,718,727,728 və s.)

Azərbaycanda sovet hakimiyyətinə qarşı aprel işğalından dərhal sonra Gəncədə (25-31 may 1920), Qarabağda (5-15 iyun 1920), Zaqatalada (9-20 iyun 1920) və s. ərazilərdə baş vermiş xalq üsyanları Azərbaycan xalqının sovet rejimini qəbul etmədiyini sübut edir. Bu üsyanlara və sonrakı illərdə baş vermiş antisovet hərəkatlarına sovet tarixşünaslığında düşmən münasibət bəslənilib, bu üsyanları doğuran obyektiv səbəblər nəzərə alınmadan birtərəfli tədqiq edilib.(72,s.256-257) Azərbaycan İnqilab Komitəsinin "Şamxor qəzasında banditizmə qarşı mübarizə üçün müvəqqəti fövqəladə üçlüyün yaradılması haqqında" (16 may 1921) 365 nömrəli qərarı (543,s.483-484) xalq üsyanlarına qarşı hansı üsullarla mübarizə aparıldığını aydın göstərir.

Sovet hakimiyyətinə qarşı baş vermiş ilk üsyanlar haqqında fikrimizcə obyektiv məlumatlar Ə.V.Yurdsevər, N.Nəsibzadə, Q.Muxtarlı, M.Cəfərli, İ. Umudlu və b. müəlliflərin əsasən 80-ci illərin ikinci yarısından sonra yazdıqları kitab və məqalələrində verilib. (22,26 aprel 1991, 23,7 dekabr 1990, 294,10 iyun 2000, 385,6 aprel 1991 və s.)

"Gəncədən ucalan yol. Faktlar, rəqəmlər, xatirələr, sənədlər" adlı məqalə (23,27 may 1997) sovet hakimiyyətinə qarşı baş vermiş üsyanlar haqqında obyektiv təsəvvür yaradılmasına kömək edir. Məqalədə Gəncə üsyanı zamanı qeyri-dəqiq məlumata görə 8,5 min nəfər işğalçı ordu tərəfdən, 12 min nəfər isə üsyançılardan itki olduğu bildirilir. Məqalədə C.Hacıbəylinin Gəncə üsyanı haqqında dediyi "Gəncədə may ayında axan türk qanı 27 aprel hadisəsi hərəkatından millətimizə atılan ləkəni silib götürdü" fikri bəzi qaranlıq məsələlərə aydınlıq gətirir.

"Ekspress" qəzetinin 01 fevral 2001-ci il tarixli sayında dərc olunmuş keçmiş 3-cü Gəncə piyada alayının komandanı Cahangir bəy Kazımbəyovun 1943-cü il Berlində yazdığı "Gəncə üsyanından xatirələr" məqaləsi də üsyan haqqında ətraflı məlumat verir. Məqalədə deyilir:"Gəncə istiqlal və azadlıq keşiyində sarsılmaz imanla dayandığını sübut etməklə, əski ənənəsini yenidən göstərdi. Şəhər ətrafını dolduran düşmən meyidləri, bu tarixi gündə axıdılan saysız-hesabsız qan, müharibə necə qurtarırsa-qurtarsın, qəhrəman müdafiəçilərin daimi mənəvi qələbə sinvolu olacaqdır."

1921-1922-ci illərdə Azərbaycanın Türkiyədə hərbi attaşesi vəzifəsində işləmiş Ə.Ələsgərov "Azərbaycan faciəsi" memuarında yazırdı : "Azərbaycanda 1920-ci ilin aprelindən 1921-ci ilin avqustuna kimi 48 min adam qırmızı terrorun qurbanı olmuşdur ki, bunların da böyük bir hissəsi ziyalıların payına düşür."(385,6 aprel 1991)

İ.Umudlunun "Baş tutmayan qiyam" məqaləsində 1921-ci ildə Azərbaycan ordusunun gənc zabitlərinin orduda antibolşevik qiyamı qaldırmağa etdikləri cəhtlərdən bəhs olunur. Məqalədə qiyam baş tutmadıqdan sonra 10 nəfər Azərbaycanlı zabitin, o cümlədən Vəkilov İsrafil Hacı oğlu, Tağıyev Cümşüd Süleyman oğlu, Tağıyev Nadir Qara oğlu, Mirzəyev Məmməd Əli oğlu, Bəbişbəyov İsfəndiyar Süleyman oğlu, Naibov Yaqub Hacıməmməd oğlu, Qasımov Müseyib Sadıq oğlu, Hüseynov Mehralı Vəli oğlu, Nağıyev Qafar Abdulla oğlu, Ələkbərov Həsən Məmməd oğlunun həbs olunması və onların sonrakı taleyi haqqında

məlumat verilib. (294,10 iyun 2000)

R.M.Bayramovanın 2007-ci ildə nəşr olunmuş “Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər)” kitabında Gəncə üsyanında sonra baş vermiş Tərtər, Zaqatala, Dəvəçi, Qusar, Lənkəran üsyanları haqqında məlumat verilib. Kitabda qeyd olunur ki,Tərtər üsyanına qarşı bolşeviklər 1920-ci il iyunun 10-da əməliyata başladılar. XI Ordu komandanı Levandovskinin «düşmən mövqelərinin təyyarələrdən iyunun 10-da bombardman edilməsi» barədə verdiyi əmr üsyanın yatırılmasında həlledici rol oynadı. Zaqatalada müqavimət hərəkatının başında bölgənin nüfuzlu şəxslərindən - Molla Hafiz Əfəndiyev və hərbçi Əhmədiyev dururdu. İyunun 16-da XI Ordu hissələri V. F. Vodopyanovun başçılığı ilə Zaqatala istiqamətində hərəkət etdi. İyunun 16-da Zaqatala üsyanı yatırıldı. Bundan sonra1920-ci ilin avqustunda Quba qəzasının Dəvəçi və Qusar rayonlarında baş vermiş üsyanlar da XI Ordu tərəfindən amansızcasına yatırıldı.

Kitabda qeyd edilir ki, 1920-ci ilin avqust-sentyabr aylarında Lənkəran qəzasında Sovet hakimiyyətinə qarşı güclü və uzun müddətli üsyan başlandı. Üsyanın başında Qulam Tağıyev, general Səlimov, Nəcəfquluxan, Hüseynəli xan və Əsəd xan Talışinski dururdu. Avqustun 24-də üsyançılar Biləsuvar-Astara arasındakı məsafə boyu irəliləyərək şəhərin 20 km-nə çatmışdılar. 1920-ci il dekabrın ortalarında Astarada, Girdənidə, Şahağacıda və Pensəri yaşayış məntəqələrində sovet hakimiyyəti devrildi. l921-ci ilin yayında qəzanın Astara hissəsində yenidən üsyan baş verdi. Xəzər dənizi hərbi qüvvələrinin köməyi ilə oktyabrın 5-də bu üsyan da yatırıldı.

Kitabda həmçinin Nuxa qəzasındakı Hüseyn Əfəndinin başçılığı ilə üsyan və onun Göyçayda, Ağdaşda, başqa qəzalarda olan dəstələri haqqında, Əsədulla bəyin başçılığı altında Şuşa qəzasında, Adil bəyin başçılığı altında Kürdüstanda, Şamxor, Zaqatala, Salyan, Qazax və başqa yerlərdə müqavimət hərəkatları haqqında məlumat verilir.

Azərbaycanda baş verən üsyanlar qəddarlıqla yatırılmasına baxmayaraq, bu üsyanlar sübut etdi ki, əhali sovet hakimiyyətinə nifrət edir və xalq öz azadlığı və istiqlaliyyəti uğrunda mübarizəyə daim hazırdır.

Əlamətdar haldır ki, bir sıra universitetlərdə sovet dövrü, o cümlədən 20-30-cu illər dövrü ilə bağlı son illərdə bir sıra elmi-praktik konfranslar keçirilib. Belə konfranslardan biri Xəzər Universitetində 6-7 noyabr 1998-ci il tarixdə

“Qafqazda sovet totalitarizmi”(20-30-cu illər) mövzusunda keçirilib. Konfransda tarixçi alimlərin müxtəlif mövzularda 48 məruzələri dinlənilib ki, bunlardan da 41-i Azərbaycana aid olub. “Tarixşünaslığımızda 20-30-cu illərin bəzi problemləri haqqında”, “Müstəqillik və azadlıq bayrağı altında totalitarizmin hökmranlığı (Azərbaycan XX əsrin 20-ci illərində)”, “20-ci illərin əvvəllərində Bakıda və onun ətrafında həyata keçirilən repressiyalar”, “20-ci illərdə Azərbaycanda Sovet totalitarizminin xüsusiyyətləri” və s. məruzələr sovet dövrü tarixinə obyektiv yanaşmanın nümunəsi ola bilər.(224)

Z.Bünyadovun 1993-cü ildə nəşr olunmuş “Qırmızı terror” kitabında müəllif yazır: “Qəribədir: Azərbaycan Respublikasının parlamentindən 1920-ci il aprel ayının 28-nə keçən gecə hakimiyyəti səssiz-səmirsiz, demək olar ki, müftə əlinə keçirən bolşeviklər siyasi rəqiblərinə demirəm, adi azərbaycanlı fəhlə və kəndlilərinə insancasına münasibət göstərsəydilər, əlbəttə xalqımızın hörmətini də qazanardılar. Lakin hakimiyyəti əlinə alan kimi bolşeviklər bandit Dzerjinskinin qırmızı terror bayrağını qaldıraraq soyğunçuluq, qarət və xalqı qəsdən məhv etməklə məşğul oldular. Neft mədənlərində işləyən minlərcə azərbaycanlı fəhlələri casusluq adı ilə kimini sürgün edir, kimini də İrana qovur, əvəzində Serebrovski kimilər, Krımdan qovulmuş Vrangel ordusunda xidmət edən zabit və əsgərlər Bakıya gətirilirdi. Yazıq kəndlilərimiz isə son illərə qədər pasportsuz sübhdən gecənin zülmətinə qədər qan-tər tökərək əvəzində demək olar ki, heç bir şey qazanmırdı... hər hansı bir etiraz da əlüstü damğalanırdı: əksinqilabçı, antisovet, antikolxoz, antipartiya və min cür başqa “anti”lər adı ilə yüzlərcə və minlərcə kəndli zəhmətkeş güllələnir və ya sürgün edilirdi.”(93, s.31-32)

Kitabın “Əsl qırım ərəfəsində” başlıqlı hissəsində “İttihad” partiyasının 155 nəfər üzvünün həbsi barədə məlumat verilir. Həmin şəxslərlə bağlı qaldırılmış cinayət işində qeyd olunur ki, “İttihad” partiyası 1920-ci ilin aprelində qırmızı qoşunların Azərbaycana gəlməsilə bağlı fəaliyyətini dayandırıb. Bunun səbəbi guya onların sovet hakimiyyəti ilə elə bir prinsipial fikir ayrılığının olmaması idi. Partiyanın buraxılması haqqındakı aktda burjua “azadlığı” çərçivəsində Müsavatla açıq mübarizə aparan “İttihad” hesab edir ki, Qırmızı Sovet hissələrinin Azərbaycana gəlməsi müsavatçılarla mübarizədə müsbət rol oynayıb. Buna görə də öz məqsədinə çatmış “İttihad” tarix səhnəsindən gedir. Lakin buna baxmayaraq cinayət işində göstərilir ki, hər hansı bir ciddi, müəyyən siniflərin içərisində kök

salmış siyasi partiya mövqelərini döyüşsüz vermir, eləcə də “İttihad”. 1920-ci ilin iyul ayında nə vaxtsa vahid olmuş “İttihad” üç müstəqil qrupa, “Vətən və ya ölüm”, “Mərkəzi İttihad”, “Quranın əmin-amanlığı” qruplarına bölünür. Lakin onlar Qarabəyovun rəhbərliyi altında “Məhv olsun sovet hakimiyyəti!”, “Bolşevizmə ölüm!”, “Başda milli hökümət olmaqla şərqdə müsəlmanlığa eşq olsun!” şüarları ilə birlikdə sovet hakimiyyətinə qarşı mübarizə aparıblar. (93,s.8-9)

1921-ci il yanvarın 25-də XI ordunun xüsusi şöbəsinin 3 nəfərdən ibarət komissiyasının qərarı ilə Qarabəy Qarabəyov, Cəmil Lənbəranski, Məmməd Həsənov başda olmaqla 155 nəfər partiya üzvü müxtəlif müddətə azadlıqdan məhrum edilərək Rusiyanın Xolmoqor, Ryazan, Nijni-Novqorod həbs düşərgələrinə göndərilib. Sənədlərdən aydın olur ki, N.Nərimanov Bəşirbəy Aşurbəyovu taminə götürmüş və çox güman ki, onun təsiri ilə AKP MK Siyasi Bürosu B. Aşurbəyov haqqında ənənəvi kütləvi teror tədbiri olan güllələmə hökmünə sanksiya verməyib. (93,s.18-20)

Kitabın “Sovet həbs düşərgələrinin ilk məhbusları” adlı bölümündə həbs olunmuş sol müsavatçı, Azərbaycan Dövlət Universitetinin tələbəsi Rəhim Alı Ağa oğlu Vəkilovun Azərbaycanın gələcəyi üçün konsepsiyası belə şərh edilib: “Mən Rusiya inqilabının “Xalqların öz müqəddəratını təyin etməsi hüququ” əsasında, tamam ayrılmasının təmin olunması əsasında ilhaqsız, təzminatsız sülh şüarının təsiri altında idim. Mənim Antantaya olan antiimperialist əhvali-ruhiyyəm dəyişməmişdi. Çünki aydın idi: nə qədər ki, iki nəhəng qüvvə-qərb imperializmi ilə Rusiya və Türkiyə arasında mübarizə gedir, kiçik Azərbaycan müstəqil respublika ola bilməz, heç şübhəsiz mən bu iki qüvvələrdən birinə Rusiya-Türkiyə ittifaqına rəğbət bəsləyirəm”. Buradan aydın olur ki, o zamanki beynəlxalq şərait və Türkiyə ilə Rusiyanın yaxınlaşması bəzi şəxslərdə çaşqınlıq yaradıb.

Kitabda daha sonra müəllif qeyd edir ki, Lenin və Trotskinin sərəncamlarına əsasən Solovetsk adalarında, Suzdal, Yaroslavl və s. yerlərdə həbs düşərgələri yaradılıb. Təkcə Müsavat partiyasının yüzlərlə oğlu bura sürgün edilib. Yalnız generallar Səməd Mehmandarov və Əliağa Şıxlinski N. Nərimanovun səyi nəticəsində sağ qalıblar.(93,s.38- 39)

Gəncə üsyanı ilə əlaqədar N.Nərimanovun V.İ.Leninə 1 avqust 1920-ci il tarixli məktubunda deyilir:“Gəncə üsyanı zamanı keçmiş Azərbaycan ordusunun bütün zabitləri həbs olunmuşdur. Onların arasında məşhur generallar

Mehmandarov və Şıxlinski də var... Onları Sizin sərəncamınıza göndəririk... Onlar müsavatçılara nifrət edir, əmindirlər ki, Azərbaycan Sovet Rusiyasız mövcud ola bilməz."(653,s.31)

Sovet hakimiyyətinin ilk illərində AK(b)P sovet, həmkarlar, komsomol təşkilatlarının yaranması və inkişafına xüsusi fikir verirdi. AK(b)P-nin 2-ci qurultayı (16-23 oktyabr 1920) "Azərbaycanda sovet quruculuğunun növbəti vəzifələri haqqında tezislər", "AKP-nin iqtisadi siyasəti və təsərrüfat vəzifələri, təsərrüfat orqanlarının həmkarlar ittifaqlarına münasibəti haqqında", AK(b)P MK-nın 26-27 noyabr 1920-ci il plenumunun "Azərbaycan həmkarlar ittifaqları hərəkatı haqqında", AK(b)P 3-cü qurultayının (11-18 fevral 1921) "Sovet quruculuğu üzrə"," "Bakı soveti haqqında", AK(b)P 4-cü qurultayının (2-7 fevral 1922) "Partiya-Sovet quruculuğu haqqında", "Sovet quruculuğu", "Qadınlar arasında iş", "AKGİ içərisində iş" və s. qətnamələri ictimai-siyasi sahədə 1920-1922-ci illərdə Azərbaycan KP-nin gördüyü işlər haqqında təsəvvür yaradır. Bu qərar və qətnamələr 1920-1922-ci illər sovet tarixşünaslığına istiqamət verib. Kommunist Partiyasının bu cür istiqamətverici qərarlarının təsiri ilə M.Qazıyev, M.Mirhadiyev, Q.Dadaşov, K.Rəhimov, R.Rəcəbov, A.Nikişin, X.Əhmədov, S.İmanzadə, Ə.Ənnağıyev, N.Məmmədov və başqa tarixçilər Azərbaycanda sovet hakimiyyətinin ilk illərində hakimiyyət orqanlarının, inqilab komitələrinin, sovetlərin, həmkarlar, gənclər və qadınlar təşkilatlarının təşkili və inkişafına aid kitab və məqalələr yazıblar. (65,№3 1986, 135,143,178,302,303,334,542,591,660 ,695 və s.)

M.Mirhadıyevin problemə aid yazdığı kitab və məqalələrdə proletar diktaturasının forması kimi sovetlərin təşkili və inkişafı tədqiq olunmaqla yanaşı, proletar diktaturasının ilkin qurumları olan inqilab və yoxsul komitələri də öyrənilib. (302,303)

X.Əhmədovun "Azərbaycanda sovetlərin yaradılması və möhkəmləndirilməsi (1920-1925 - ci illər)" adlı kitabının(143) birinci fəsli və ikinci fəslinin bir hissəsi 1920-1922-ci illəri əhatə edir. Kitabın giriş hissəsində müəllif qısa da olsa problemin tarixşünaslığını şərh edib.

Kitabın "Sovetlərin yaradılması (1920-1921-ci illər)" adlanan birinci fəslində müəllif AK(b) P II qurultayından sonra Bakı partiya təşkilatının fəhlə-kəndli ittifaqını möhkəmlətmək üçün "Kəndli həftəsi" keçirməyi qərara almasını

və bununla əlaqədar 1500 nəfər qabaqcıl Bakı fəhləsini kəndlərə göndərməsini, Nuxa qəzasına göndərilmiş 31 nəfər fəhlənin 67 yoxsul komitəsi, Göyçay qəzasına göndərilmiş fəhlələrin 100-dən artıq yoxsul komitəsi təşkil etmələrini və başqa məsələləri şərh edib. Bundan başqa müəllif bəzi məsələlərə birtərəfli yanaşaraq  sovet hakimiyyətinin ilk illərində yol verilmiş kobud səhvləri müsbət addımlar kimi dəyərləndirib. Məsələn,  müəllif Azərbaycan İnqilab Komitəsinin ərzaq sapalağı siyasətini həyata keçirməsini, artıq taxıl və digər kənd təsərrüfatı məhsullarının dövlətin xeyrinə zəbt etmək haqqında 26 sentyabr 1920-ci il tarixli dekreti müsbət qiymətləndirib və  bu siyasətdən kəndlilərin razılıqlarını    sovet arxiv sənədləri əsasında  əsaslandırmağa çalışıb.

Müəllifin kitabda nümunə kimi verdiyi aşağıdakı sual-cavabdan müxtəlif nəticələr çıxarmaq olar. "Bakı fəhlələri sizinlə nə cür rəftar etmişlər?" sualına kəndlilərin "Yalnız Bakı fəhlələrinin bizə göstərdiyi köməyi, onların təşviqatı və hərəkəti nümunəsində biz sovet hakimiyyətinin nə olduğunu həqiqətən dərk etdik" cavabından müəllif fəhlə-kəndli ittifaqının möhkəm olması nəticəsinə gəlir. Müəllifin göstərdiyi kimi ərzaq sapalağı siyasətindən onların razı qalması, yəni öz məhsullarını kəndə gəlmiş silahlı fəhlə dəstələrinə  könüllü verməsi fikrimizcə saxtakarlıqdan başqa bir şey deyil. Sovet tarixşünaslığında verilmiş bu cür faktlar fəhlə-kəndli ittifaqının  yalnız sözdə mövcud olduğunu dolayı yolla sübut edir.

Kitabda N.Nərimanovun I Ümumazərbaycan sovetlər qurultayındakı (may 1921-ci il) verilmiş çıxışı sovet hakimiyyətinin ilk dövründə görülmüş işlərin hansı mənfi nəticələr verdiyini üzə çıxarmağa imkan verir. N.Nərimanov demişdir:"Yoxsul komitələri inqilab komitələrindən sonra, söz yoxdur ki, müəyyən nəticələr verdi. Yoxsul komitələri öz işlərini gördülər, kəndlilər içərisində təbəqələşməyə nail oldular. Buna şübhə yoxdur ki, indi sovet quruculuğu daha asanlıqla gedəcəkdir." (143,s.29- 30)

Buradan belə nəticə çıxarmaq olar ki, birincisi hər hansı bir cəmiyyətdə təbəqələşmənin uzun tarixi və təbii proses olduğunu nəzərə alsaq N.Nərimanovun fikirlərində Azərbaycanda bolşeviklərin kəndlərə silahlı fəhlə dəstələri göndərməklə, qısa bir müddətə, süni yolla kənddə təbəqələşməyə nail olduqları etiraf edilir. İkincisi onların süni təbəqələşmə yaratma siyasəti kəndlilərin bir hissəsinin sinfi düşmən elan edilərək məhv edilməsi ilə nəticələnmişdir ki, bunu da N.Nərimanov "indi sovet quruculuğu daha asanlıqla gedəcəkdir" kimi ifadə

edib.

Müəllif Bakı sovetinə 25-29 may 1920-ci ildə keçirilmiş seçkilərdə seçilmiş 576 deputatın milli tərkibini göstərib ki, bu da tədqiqatçılarda müəyyən maraq doğura bilər. Müəllif 1930-cu ildə rus dilində nəşr olunmuş "Bakı sovetinin 10 illik işi. 1920-1930-cu illər" kitabına istinadən göstərir ki, 576 deputatın 34,8 % -i azərbaycanlı, ləzgi, tatar, 12 %-i gürcü, 6 %-i erməni, 4,2%-i yəhudi, qalanlarını isə ruslar, polyaklar, almanlar, latışlar və başqalarından ibarət idi.

Kitabın birinci fəslində müəllif 1921-ci ildə Azərbaycan üzrə 1400-ə yaxın kənd soveti təşkil edildiyini, onların tərkibinə 30000-nə yaxın üzv seçildiyini qeyd edib, seçilənlər içərisində qadınların da olmasını müsbət hal kimi dəyərləndirib. O, qeyd edir ki, Gəncə qəzasında Sovetlərə seçilmiş 55 qadından 14 nəfəri azərbaycanlı, 34 nəfəri erməni, qalanları rus idi. Ağdaş qəzasında isə sovetlərə 5 nəfər azərbaycanlı qadın seçilib.

Kitabın birinci fəslində həmçinin I Ümumazərbaycan Sovetlər qurultayında 1918-ci il iyulun 10-da V Ümumrusiya Sovetlər qurultayında qəbul edilmiş RSFSR-in birinci Konstitutsiyası əsasında Azərbaycan SSR Konstitutsiyasının qəbul edilməsi haqqında da məlumatlar var. Müəllif H.Sultanovun həmin qurultayda çıxışından sitat gətirərək sovet hakimiyyətinin mahiyyətini göstərməyə çalışıb. H.Sultanov deyirdi:"Bu gün Azərbaycanda heç bir qeyri hakimiyyət yoxdur. Bu saat bu ali qurultay hökümətdir, respublikanın ağası və sahibidir. Respublikanın ağası, sahibi burada oturan, ayağında çarıq, başında motal papaq olan həmin bu kişidir." Lakin kitab yazıldığı illərdə müəllif bilməli idi ki, bu sözləri söyləyən H.Sultanov 30-cu illər repressiyasının qurbanı olmuş, motal papaqlı Azərbaycan kəndlisi isə nəinki respublikanın rəhbəri olmuş, əksinə ona ilk vaxtlar verilmiş torpaq sonradan zornan əlindən alınaraq kolxoz təsərrüfatına qatılmış və hətta 20-ci illərin axırlarında ona papaq qoymaq belə qadağan edilmişdi.

Müəllif yerlərdə müxtəlif inzibati orqanların biri-birinə qarşı ziddiyyətdə olmasını, onlar arasında münasibətlərdə hərc-mərcliyin hökm sürdüyünü tənqid edərək bunun həlli yolunu bolşevik rəhbərlərdən biri olan Q.N.Kaminskinin AK(b)P 3-cü qurultayında irəli sürdüyü fikirlərin həyata keçirilməsində görür. Q.N.Kaminski öz çıxışında yerlərdə olan hərc-mərcliyi demokratik siyasi hakimiyyət formasına keçməklə ləğv ediləcəyini irəli sürsə də, faktlar göstərir ki, bu fikir reallığı əks etdirməyib. Ümumiyyətlə tarixi faktlar sübut edir ki,

təkpartiyalı sovet sistemində demokratik siyasi hakimiyyət formasına keçmək qeyri- mümkün idi. (143)

1920-1930-cu illər dövrünün tarixşünaslığını öyrənmək üçün birinci növbədə həmin illərdə nəşr olunmuş N.Nərimanov, S.M.Kirov, Ə.H.Qarayev, M.D.Hüseynov, R.Axundov, H.Sultanov, Q.Musabəyov, S.M.Əfəndiyev, D.Bünyadzadə, Ç.İldırım, A.Sultanova, S.Ağamalıoğlunun kitab və məqalələri, bundan başqa onların fəaliyyəti haqqında sonrakı illərdə yazılmış əsərlər (188, 197, 199, 264, 307, 321, 323, 341, 365, 473, 474, 527, 529, 539, 587,590,592,593, 646,653,730 və s.) tədqiq olunmalıdır. Çünki bu əsərlərdə irəli sürülən ideyalar sonrakı dövrlərdə sovet tarixşünaslığında yazılmış kitab və məqalələrə istiqamət verib.

1920-1930-cu illərdə Azərbaycan SSR də rəhbər vəzifələrdə olmuş şəxslər içərisində tarixçilərin fəaliyyətini ən çox tədqiq etdikləri N.Nərimanovdur.

XI ordunun işğalından sonra, 16 may 1920-ci ildə Bakıya gələrək Azərbaycan İnqilab Komitəsinin sədri təyin olunan N.Nərimanov 1920-1925- ci illərdə partiyadaxili mübarizədə rus, erməni və onların əlaltıları olan yerli bolşeviklərin güclü təzyiqlərinə məruz qalaraq, Moskvaya bəzi müasir tədqiqatçıların qeyd etdiyi kimi fəxri sürgünə göndərilib. Ölümündən sonra isə ona "millətçi" damğası vurulub, 30-cu illərdə isə "narimanovşina" ittihamı ilə onun tərəfdarları represiyalara məruz qalıb. 1956-cı ildə bəraət aldıqdan sonra yenidən mətin və qətiyyətli kommunist kimi təbliğ olunmağa,1988-ci ildən sonra isə ona ikili münasibət formalaşmağa başlayıb. N.Nərimanovun siyasi fəaliyyəti ilə yaxından tanış olmaq üçün onun Azərbaycanda rəhbərlikdə olduğu 29 aprel 1920-24 iyul 1921-cı illərin obyektiv tədqiqinə ehtiyac var. Onun qısa tərcüme halı aşağıdakı kimidir.

### Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov
### (29 aprel 1920-24 iyul 1921)

Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov 14 aprel 1870-ci ildə Tiflis şəhərində anadan olmuşdur. 1882-ci ildə Qori seminariyasına daxil olmuş, 1890-cı ildə oranı bitirdikdən sonra Borçalı qəzasının Qızılhacılı kəndində müəllim işləmişdir.

1891-ci ildə Bakıya gəlmiş və 1894-cü ildə Bakıda müsəlmanlar üçün ilk xalq qiraətxanasını təşkil etmişdir. Bu zaman "Nadanlıq", "Şamdan bəy", "Nadir şah", "Bahadır və Sona" kimi əsərlər yazmış və N.V.Qoqolun "Müfəttiş" komediyasını Azərbaycan dilinə tərcümə etmişdir.

1902-ci ildə ekstern qaydası ilə gimnaziyanı qurtarması haqqında kamal attestatı almış və həmin il Odessadakı Novorossiya Universitetinin tibb fakultəsinə daxil olmuşdur. İnqilabi çıxışlardan çəkinən çar höküməti 1905-ci ildə universiteti müvəqqəti bağladıqdan sonra o, Bakıya qayıdır.

1905-ci ildə Rusiya sosial-demokrat fəhlə partiyasının (RSDFP) Hümmət təşkilatına daxil olur. 1906-cı ildə RSDFP-nin Proqramını Azəbaycan dilinə təcümə edir. Sonradan yenidən Odessaya qayıdaraq təhsilini davam etdirmiş və 1908-ci ildə universiteti bitirərək Bakıya qayıdaraq həkim işləmişdir. 1909-cu ildə Bakıda təqiblərdən yaxa qurtarmaq üçün Tiflisə gedir və orda həkimlik fəaliyyətini davam etdirir. Həmin ilin martında inqilabi fəaliyyətə görə həbs edilib Metex qalasına salınır və 6 aydan sonra Həştərxana sürgün edilir. 1913-cü ildə yenidən Bakıya qayıdaraq 1914-cü ilin may ayından Qara şəhər xəstəxanasında həkim işləməyə başlayır.

N.Nərimanov 1917-ci ilin martında bolşevik Hümmət təşkilatının Müvəqqəti Komitəsinin heyətinə, 1917-ci ilin iyununda təşkilat komitəsinin sədri vəzifəsinə seçilir. 1917-ci ilin oktyabrında bolşeviklər tərəfindən şəhər Dumasına, noyabrda isə Müəssislər məclisinə namizəd göstərilir. 1918-ci ilin aprelin 25-də şəhər təsərrüfatı komissarı kimi Bakı Xalq Komissarları Sovetinin tərkibinə daxil olur. XKS iflasa uğradıqdan sonra həmin ilin iyununda Həştərxana gedir və Həştərxan icraiyyə komitəsidə maarif şöbəsinin müdiri vəzifəsində çalışır. 1919-cu ildə işləmək üçün Moskvaya çağrılır və RSFSR Xalq Xarici İşlər Komissarlığı Yaxın Şərq şöbəsinin müdiri təyin olunur. Bir müddət həmçinin RSFSR xalq milli işlər komissarının müavini işləyir.

N.Nərimanov 1920-ci ilin aprelin 27-də XI ordu Bakını işğal etdikdən sonra qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin, sonra isə Azərbaycan xalq Komissarlar Sopvetinin (XKS) sədri seçildi. O, 1920-ci ilin sentyabrında Kommunist İnternasionalı İcraiyyə Komitəsi tərəfindən Bakıda çağrılan Şərq xalqlarının I qurultayının hazırlanması və keçirilməsində fəal iştirak etmişdir. 1922-ci ilin martın 12-də Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının

(ZSFSR) sədrlərindən biri idi. N.Nərimanov Genuya (1922) konfransında sovet nümayəndə heyətinin üzvü kimi iştirak edirdi. SSRİ-nin I Sovetlər qurultayında (dekabr 1922) yaradılmış Mərkəzi İcraiyyə Komitəsinin (MİK) ilk sessiyasında ZSFSR-dən SSRİ MİK sədri seçilmişdi. N.Nərimanov 1925-ci il martın 19 - da Moskvada qəflətən vəfat etmiş və Moskvada Kremilin divarları yanında dəfn olunmuşdur. Moskvada Şərqşünaslıq İnstitutu uzun müddət Nərimanovun adını daşımışdır. (407,s.32-38)

N.Nərimanovun ziddiyyətli həyat və fəaliyyətinin tədqiqində 1989-cu ildə rus dilində nəşr olunmuş, ona müxtəlif siyasi xadimlərin göndərdiyi 38 məktub və teleqramın, onun özünün müəllifi olduğu 336 məqalə, nitq, məktubun və digər 90 sənədin toplandığı "Nəriman Nərimanov. Seçilmiş əsərləri" ikicildliyi mühüm rol oynayır. N.Nərimanovun "Bizim üçün bir yol, böyük rəhbərimiz Leninin göstərdiyi yol vardır" sözlərilə başlayan kitabın ikinci cildi 1918-1921-ci illəri əhatə edir. Bu kitabdakı bütün sənədlər onun sovet hakimiyyətinə, kommunist ideologiyasına ürəkdən inanan bir şəxs olduğunu göstərir.

Lakin N.Nərimanovun uzun illər məxfi saxlanılan, yalnız 66 il keçdikdən sonra 1990-cı ildə rus dilində, 1992-ci ildə isə Azərbaycan dilində nəşr olunan "Ucqarlarda inqilabımızın tarixinə dair" məruzəsi ikicildlikdəki fikirlərlə əkslik təşkil edir. Kitabda 1923-cü ilin iyununda RK(b)P MK-ya İ.V.Stalinə, surətləri L.D.Trotski və K.B.Radekə göndərilmiş bu məruzə ilə yanaşı, həmin sənədə 1923-cü ilin 23 dekabrında və 1924-cü ilin mayın 27-də müəllif tərəfindən edilmiş iki əlavə də daxil edilib. Bundan başqa kitabda N.Nərimanovun V.İ.Leninə məktubu və oğluna tamamlanmamış məktubu da çap olunub. Bu kitabdakı fikirlərdən aydın olur ki, N. Nərimanov 27 aprel 1920-ci il tarixindən mərhələ-mərhələ bolşeviklərin söz və əməllərinin uyğun gəlməməsini, kommunist ideologiyasına inanmasının səhv olduğunu başa düşüb və bu səhvlərinin də qurbanı olub.

N.Nərimanovun fəaliyyətinə aid yazılmış əsərləri şərti olaraq iki qrupa bölmək olar. I qrupa N.Nərimanovun həyat və fəaliyyətinə müsbət mövqedən yanaşan M.Qazıyev, F.Köçərli, V.Ağasiyev, D.Quliyev, B.Qəhrəmanov, V.Quliyev, H.Həsənov, V.Məmmədov, V.Süleymanova və digər müəlliflərin kitab və məqalələrini (23,29 iyun 1990,14 aprel 1999;65,№1,1991,s.3-17;157, 168,26 oktyabr, 4 dekabr1996; 204, 7 iyun1989; 209, 228, 244, 279, 421, 527, 590,653 və s.) aid etmək olar. II qrupa isə bu şəxsin fəaliyyətinə tənqidi yanaşaraq, əsasən

onun səhvlərini aşkara çıxarmağa çalışan A.Balayev, M.Qasımov, H.Qəhrəmanov, N.Kazımov, N.Nəsibzadə, Ə.Tahirzadə və digər müəlliflərin məqalə və kitabları (21, 7 sentyabr 1991; 22, 26 iyul 1991; 23, 20 iyun 1991, 8 dekabr 1995; 204, 6 iyul 1991; 223;294, 8 fevral 1996; 385, 6 dekabr 199, 460 və s.) daxildir. İkinci qrupa aid yazılarda N.Nərimanov haqqında "eyni zamanda həm allaha, həm də şeytana ibadət etmək olmaz" kimi nəticələr də çıxarılıb. (294,8 fevral 1996)

Professor F.İbrahimli aprel işğalından sonra Azərbaycanda hakimiyyətə gəlmiş siyasi qüvvələri aşağıdakı şəkildə qruplaşdırmağı təklif edir:

1. Azərbaycanda sosializm ideyalarını həyata keçirən və Moskvanın mənafeyini müdafiə edən qüvvələr. Bura müxtəlif millətlərdən olan kommunistlər daxil idi.
2. Siyasi çevrilişdən istifadə edib respublikada hakimiyyətə gəlmiş və milli intiqam hissi ilə fəaliyyət göstərən erməni kommunistlərindən ibarət qüvvələr.
3. "Beynəlmiləlçi" azərbaycanlı bolşeviklərdən ibarət qüvvələr.
4. Xalqın azadlıq yolunu sosializmdə görən milli hisli, milli baxışlı kommunistlərdən olan qüvvələr (173, s.83)

Fikrimizcə N.Nərimanov azadlıq yolunu sosializmdə görən milli hisli, milli baxışlı kommunistlərdən olan qüvvələrin rəhbəri kimi xarakterizə olunmalıdır.

F.Bayramovun 1972-ci ildə Azərbaycan və rus dillərində çapdan çıxmış "Nəriman Nərimanov (1870-1970). Biblioqrafik göstərici" kitabı onun fəaliyyətinin tədqiqində köməkçi ədəbiyyat kimi əhəmiyyətlidir.

Bəzi tədqiqatlar da var ki, bunlar N.Nərimanovun sırf ideoloji baxışlarını özündə əks etdirir və buna da hər bir şəxs öz siyasi dünyagörüşünə uyğun münasibət bəsləyə bilər. Məsələn, A.Hacıyeva 1994-cü ildə "N.Nərimanovun nəzəri-fəlsəfi irsində dinə münasibət" mövzusunda dissertasiya müdafiə edib ki, bu tədqiqat işinə də ateistlər və dindarların, yaxud dinə hörmətlə yanaşanların fərqli münasibət bəsləmələri təbiidir.

N.Nərimanovun baxışlarındakı ziddiyyətlər haqqında M.S.Ordubadi belə yazırdı:"...o kommunizm məsələlərində bir çox mürəkkəb və qarmaqarışıq fikirlər meydana atırdı...Onun nəzəriyyəsində kommunizm ilə islamiyyəti barışdırmaq fikri mühüm yer tuturdu."(385, 6 dekabr 1991)

F.Əhmədovanın 2000-ci ildə müdafiə etdiyi "Nəriman Nərimanovun siyasi fəaliyyəti (1920-1921-ci illər)" adlı namizədlik dissertasiyası elmi nəticələrinə görə əvvəlki illərdə yazılan elmi-tədqiqat işlərindən köklü surətdə

fərqlənir. Müəllif N.Nərimanovun siyasi fəaliyyətini tədqiq etmiş alimlərin fikirlərini ümumiləşdirərək aşağıdakı nəticəyə gəlib:“Siyasi portretini yaratmağa çalışdığımız N.Nərimanov şəxsiyyətinin “mənfilikləri” bir, “müsbət tərəfi” digər gözünə qoyulan sosial tərəziyə yerləşdirilməməlidir. Qətiyyən unutmaq olmaz ki, Nəriman Nərimanov öz zəmanəsinin gerçəkliyidir. Onu dövründən, mühitindən qoparmaq, tarixi, elmi və siyasi yanlışlıqdır.”

F.Əhmədova N.Nərimanovun siyasi fəaliyyətini mənfi qiymətləndirən tarixçilərə tənqidi yanaşaraq qeyd edir ki, onlar N.Nərimanovla bağlı mülahizələrini qatı siyasi emosiya müstəvisindən elmi-tədqiqat zəminində keçirərək öz fikirlərini əsaslandırmağa səy göstərirlər. Müəllifin N.Nərimanovun 1920-1921-ci illər siyasi fəaliyyətini tədqiq edərək gəldiyi nəticələri aşağıdakı kimi ümumiləşdirmək olar: N.Nərimanovun inqilabçılığının mənəvi mənbəyi haqsızlığa, əsarətə dözə bilməməsi idi; Sosializm cəmiyyəti quruculuğunu özünün dünyagörüşü və baxışları modelində düzgün sayan N.Nərimanov Azərbaycanda sovet hakimiyyətinin qurulmasına nəzəri tövsiyyə və məsləhətlərlə yardım etsə də, aprel çevrilişinin baş vermə mexanizmində iştirak etməmişdir; N.Nərimanovun Azərbaycana dönüşü sovet idarəçiliyində milli-mənəvi dəyərlərin qismən olsa da nəzərə alınmasına səbəb oldu. Lakin onun idarəetmə səlahiyyəti xalq arasında malik olduğu nüfuzla mütənasib deyildi; Ümumdünya sosial inqilabının qələbəsindən sonra millətlərin varlığını istisnasız qəbul edirdi. Millət məfhumunun təbii yolla, tədricən aradan qaldırılmasının tərəfdarı idi; “Millətlərin olmayacağı bəşər cəmiyyəti”ni ideal hesab etsə də, Sovet Azərbaycanının Şərq ölkələrinə nümunəsi baxımından müstəqilliyi uğrunda mübarizə aparmışdır; Azərbaycanın mədəni-milli spesifikasına, adət-ənənəsinə uyğun siyasət yeritməyi, yerli müsəlman psixologiyasını nəzərə almağı, dinə humanist, dözümlü, ehtiyatlı münasibətlə yanaşmağı irəli sürürdü; Azərbaycan Respublikasının gələcəyini Rusiya ilə federativ birləşmə çərçivəsində götürürdü; Sovet Rusiyasının xarici siyasətdə Şərqə önəm verməsi uğrunda prinsipial mübarizə aparmışdır; Heç bir zəmin yaratmadan sərbəst ticarəti qadağan etməyə qarşı olmuşdu ki, kütləvi işsizlik yaranmasın. Müsadirəni yalnız iri burjuaziyaya aid edib, xırda sənaye və ticarətə toxunmamağa, orta sinfə qarşı mülayim davranmağa çağırırdı.

H.Ə.Həsənovun “Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti” kitabın giriş hissəsində mövzunun 1920-2005-ci illər tarixşünaslığı geniş

təhlil olunub. Müəllif qeyd edir ki, N.Nərimanovu millətçilikdə ittiham edənlər də, onu müdafiə edənlər də marksist-leninçi mövqedən çıxış edirdilər. 80-ci illərin sonu 90-cı illərin əvvəllərində yaranmış şəraitdə sovet sisteminin zəifləməsi ilə N.Nərimanovla bağlı aparılan araşdırmalar genişləndi və tarixin keçid dövrlərinə xas olan fikir ayrılığı ortalığa çıxdı. Yazı müəlliflərinin bir qismi, əsasən də N.Nərimanovun sovet dövründə nəşri qadağan olunmuş irsi ilə yaxşı tanış olanlar onun bu zamana qədər nəşr olunmayan əsərlərini üzə çıxarır, milli təmayülçü baxışlarına yeni dəyərlərə əsaslanan obyektiv qiymətlər verirdilər Başqa bir qismi isə tarixi hadisə və prosesləri mövcud olduqları mühitdən ayıraraq, hissiyyatın tarixi gerçəkliyi üstələdiyi qəzet məqalələrində tarixi həqiqətlərin inkarını ön plana çəkib subyektiv mövqe tuturdular. Onlar N.Nərimanovu əsassız olaraq kommunist ideologiyasına münasibətdə və Rusiya ilə əlaqələrdə ən azı sadəlövhlükdə, milli maraqlara qarşı laqeydlikdə günahlandırırdılar. Bu müəlliflərdən A.Balayevin, H.Qəhrəmanovun, N.Kazımovun, N.Nəsibzadənin, Ə.Tahirzadənin bolşevizmə olan nifrətləri, demək olar ki, haqsız və əsassız olaraq tam həcmdə N.Nərimanova ünvanlanırdı. Sonuncuların belə yanaşması keçid dövrünün təzadlarından irəli gəldiyindən, onlar obyektiv tarixi gerçəkliyi tam əks etdirməyə qadir olmayaraq, tarixi tədqiqatların dünyada qəbul olunmuş ümumi metodoloji prinsiplərinə zidd olmaqla ən kiçik tənqidə belə tab gətirmirlər. Bunların qeyri-obyektivliklərinə cavab olaraq bir sıra tarixçilər məqalələrlə çıxış edirdilər. K.Rəhimovun məqaləsində Nərimanovun fəaliyyətinin birbaşa zamanla uzlaşması məsələləri qaldırılır və A.Balayev tərəfindən ona qarşı irəli sürülən ittihamlara kəsərli cavab verilir. F.Köçərlinin məqaləsində N.Nərimanov şəxsiyyəti geniş şəkildə elmi cəhətdən obyektiv təhlil edilmişdir. A.Hacıyeva “N.Nərimanovun nəzəri-fəlsəfi irsində dinə münasibət” mövzusunu ilk dəfə olaraq dissertasiya mövzusu kimi araşdırmış, B.Qəhrəmanov N.Nərimanovun ictimai-siyasi fəaliyyətini öyrənmişdir .(157,s.8)

Kitabda Prezident Heydər Əliyevin 1995-ci il dekabrın 18-də Nəriman Nərimanovun anadan olmasının 125 illiyi ilə əlaqədar imzaladığı fərman, 1993-cü il sentyabrın 21-də və 1997-ci il yanvarın 31-də AMEA-dakı görüşlərindəki nitqlərində N.Nərimanovun Azərbaycan tarixində mövqeyi və xidmətləri haqqında fikirlər geniş şərh edilib.

Kitabda həmçinin T.Əhmədovun N.Nərimanovun 130 illiyi münasibətilə hazırladığı  N.Nərimanovun “Seçilmiş əsərləri”nin başlanğıcında verilən yazıda

Heydər Əliyevin N.Nərimanovu "görkəmli sima, böyük siyasi xadim" adlandırması, "N.Nərimanovu ittiham edən fikirlərlə heç cür razılaşmaq olmaz" fikrinin epiqraf kimi verilməsini tarixşünaslığın yeni istiqamətdə inkişafı üçün zəmin yaratdığı qeyd olunur. Müəllifin fikirincə bundan sonra N.Nərimanovla bağlı əsərlərin sayı artmış, onun irsinə ciddi elmi yanaşmanı əks etdirən yeni əsərlərin yaranmışdır. Bundan sonra S.Rüstəmova-Tohidi N.Nərimanov və M.Ə.Rəsulzadənin, V.Quliyev N.Nərimanov və Əhməd Ağaoğlunun ictimai-siyasi fəaliyyətlərini, baxışlarını və tarixi missiyalarını müqayisəli təhlil edərək araşdırmışlar. M.Səttarov N.Nərimanovun islam dininə münasibətini, E.Fətullayev ictimai-siyasi fəaliyyətini araşdırmışlar. E.Etibarlı N.Nərimanovun şəxsiyyətinin təftişinə qarşı çıxır. C.Quliyevin məqaləsində N.Nərimanov şəxsiyyətinin həqiqətləri açılır, Elçin öz yazılarında insanları N.Nərimanovun xalqımız qarşısındakı böyük xidmətlərini qiymətləndirməyi bacarmağa çağırır. R.Xudiyev və T.Köçərli N.Nərimanovun Azərbaycanın ərazi bütövlüyü uğrundakı fəaliyyətini araşdırırlar. Ş.Qurbanovun kitabları ilk əvvəl N.Nərimanova qarşı irəli sürülən ittihamlara kəsərli cavab olaraq, onun ictimai-siyasi baxışlarının vətənpərvərlik aspektlərini açmağa kömək edir. Bu kitablara yüksək qiymət verən Q.Bayramovun yazdığı rəy tarixi şəxsiyyətlərə qiymət verməyi düzgün öyrənmək baxımından diqqəti cəlb edir. (157,s.9)

Müəllif Türkiyədə nəşr olunan əsərlərə xüsusi diqqət yetirib. Bu səpkidə Rza Nurun xatirələri və bu xatirələrdə N.Nərimanova verilən qiymət çox dəyərlidir. Doğan Avçıoglunun əsərində Atatürk hökumətinə və Kazım Qarabəkir Paşaya N.Nərimanovun başçılıq etdiyi Azərbaycan sovet hökumətinin göndərdiyi maliyyə yardımı haqqında danışılır. Türkiyə nəşrləri araşdırılarkən M.Sarayın, İ.Bozdağın, İ.Yükselin, V.İmanovun əsərlərində Azərbaycanda sovet hakimiyyəti qurularkən yaranmış şərait geniş təhlil olunur. Halit Kakıncın son zamanlar Türkiyədə nəşr olunan "Sultanqaliyev və Milli Kommunizm", eləcə də "Destani Kuramçi Sultanqaliyev" adlı əsərlərində sovet dövründə müxtəlif vəzifələrdə çalışan kommunistlərin fəaliyyətinə yeni baxışla rastlaşırıq. Əsərlərdə N.Nərimanovun sovet Rusiyasının başqa siyasətçiləri ilə birlikdə apardığı milli təmayülçülük fəaliyyəti haqqında geniş danışılır. (157,s.10)

Müəllif qeyd edir ki, Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivində (ARSPİHDA) saxlanılan "N.Nərimanov fondu"

adlandırılan xüsusi fondda 200 iş qorunub saxlanılır ki, burada olan N.Nərimanovun məktubları, teleqramları, məqalələri və qeydləri, eyni zamanda ona göndərilən məktub və teleqramlar (157,s.11) problemin öyrənilməsində mühüm rol oynayır.

M.Qasımovun "Xarici dövlətlər və Azərbaycan (Aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər)" kitabının nəticə hissəsində müəllif N.Nərimanovun 1920-1922-ci illərdəki fəaliyyətinə münasibət də bildirib. Müəllif qeyd edir ki, "N. Nərimanov başda olmaqla bolşevik liderləri Azərbaycanda müstəqillik şüurunu məhv edərək xoşbəxtliyi Rusiyanın müstəmləkəçilik əsarəti altında axtarmışlar. Onlar bütün hallarda Rusiya siyasətinin aləti olmuşlar... İşğaldan sonra Rusiya hökuməti Güney Qafqaz respublikalarının təsərrüfat və maliyyə həyatını birləşdirdi. Zorla birləşdirmə siyasətində N.Nərimanov başda olmaqla Azərbaycan bolşeviklərinin tövsiyyələri mühüm istiqamətverici rol oynadı. Bu tövsiyyələr N.Nərimanovun və B.Şahtaxtinskinin V.İ.Leninə və G.Çiçerinə göndərdikləri məktublarda toplanmışdır." (223)

N.Nərimanovun ictimai və siyasi fəaliyyətinə ikili münasibət hazırkı dövrdə də qalmaqda davam edir.

N. Nərimanovdan fərqli olaraq Azərbaycana 20-ci illərdə rəhbərlik etmiş digər rəhbərlərin bəziləri haqqında demək olar ki, heç bir məqalə və kitab yazılmasa da, bəziləri haqqında az da olsa kitab və məqalələr nəşr olunub.

R.M.Bayramovanın 2007-ci ildə nəşr olunmuş "Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər)" kitabında aprel çevrilişindən sonra bolşevik üsul-idarəsinin yaradılması, rəhbər dairələrdə yaranmış ixtilaflar, daxili siyasi çəkişmələr, onların səbəbləri və s. məsələlər tədqiq edilib. Müəllif qeyd edir ki, 1920-1925-ci illərdə Respublika rəhbərliyində ixtilaflar nərimanovçuluq, xanbudaqovçuluq ideyası altında səciyyələndirilib. Bu ixtilafların əsas səbəbi milli mənafe və yerli şəraitin nəzərə alınmaması idi. Müəllif haqlı olaraq göstərir ki, Kommunist Partiyasının vahid hegemon bir partiya olduğu dövrdə partiyadaxili ixtilafları rəsmi səviyyədə obyektiv tənqid etmək mümkün deyildi. 27 aprel işğalından dərhal sonra yerli əhalinin müsadirə bəhanəsi ilə kütləvi şəkildə qərət edilməsi rəhbərlikdə fikir ayrılığına gətirib çıxarmışdı. Müəllif kitabın 17-ci səhifəsində AK(b)P-nin 1920-ci ilin oktyabrında keçirilən II qurultayında N.Nərimanovun çıxışdan sitat gətirməklə onun bu məsələyə münasibətinə aydınlıq gətirir. N.Nərimanov bu müsadirələrin əleyhinə öz kəskin

etirazını bildirərək deyirdi: “Müsadirə edərkən və müsəlman evinə girərkən onun hansı şəraitdə yaşadığını bilmək lazımdır. Müsəlman qadınının qulağından sırğanı çıxarmaq və bədənində brilyant axtarmaq lazım deyil. Brilyant bizə lazımdır, ancaq onu başqa yerdə axtarmaq lazımdır”

Kitabın 72-73 səhifələrində N. Nərimanovun milli təmayüllü kommunist ideologiyasının 9 maddədən ibarət platforması arxiv sənədlərinə istinadən verilmişdir: l.Azərbaycan bütün qəzalarla müstəqil olmalı və SSRİ-yə müstəqil dövlət kimi daxil olmalıdır. 2.Orta sinfə, yəni orta burjua sinfinə maksimum güzəştə getmək lazımdır. 3.Dövlət idarələri tam milliləşdirilməlidir, yəni məsul vəzifələrdə çalışan dövlət məmurlarının əksəriyyəti milliyətcə azərbaycanlı olmalıdır. 4.Azərbaycan dili dövlət dili elan olunmalı və tam hüquqla fəaliyyət göstərməlidir. 5.Hərbi qulluq əhalinin tam imkanları əsasında keçirilməlidir. 6.Bütün partiya və dövlət siyasəti Azərbaycanın milli adət-ənənələri ilə uzlaşmalıdır. 7.Din məsələlərində maksimum ehtiyatlı rəftar edilməlidir. 8.Azərbaycanın iqtisadi imkanlarına və milli sərvətlərinə tam və müstəqil şəkildə sərancam verilməli, lazım bilindikdə başqa “qardaş respublikalara” yardım göstərilməlidir. 9.Şərq xalqlarının milli-azadlıq hərəkatına kömək edilməlidir.

Kitabın 50-ci səhifəsində RK(b)P MK Qafqaz bürosu və AK(b)P Bakı komitəsi ilə birlikdə AK(b)P MK plenumu (8may 1920) barədə də arxiv sənədlərinə istinadən məlumat verilir. Plenumda əsas məsələlərin müzakirəsi zamanı Azərbaycan İnqilab Komitəsinin öz daxilində, Ə.H.Qarayev və M.D.Hüseynov ilə N.Nərimanov arasında ciddi ixtilaflar olduğu da aşkara çıxdı. Ə. Qarayev öz çıxışında bildirirdi ki, müsəlman kommunistləri arasında iki qrup yaranıb, onlardan biri Nərimanov qrupu, digəri isə Qarayev-Hüseynov qrupudur. Birinci qrup Azərbaycanın müstəqilliyinin tərəfində durur, bizi-ikinci qrupu isə ittiham edirlər ki, Azərbaycanı Rusiyaya satmısınız

R.M.Bayramovanın tədqiqatları sübut edir ki, XI ordunun işğalından sonra Azəbaycan rəhbərliyində N. Nərimanov və onu müdafiə edən qrupla, əleyhdarları arasında kəskin ixtilaflar olmuşdur. Bunun nəticəsində Azərbaycan xalqının milli və dini mənafelərini müdafiə edən N.Nərimanovun tərəfdarları partiyadan xaric olunmuş, özü isə respublikada uzaqlaşdırılmışdı.

I və II Ümumazərbaycan Sovetlər qurultaylarının materialları və sovetlərin fəaliyyətinə aid digər kitablar (508,673) 1920-1922-ci illər dövrünün tədqiqində

mühüm əhəmiyyətə malikdir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan İnqilab Komitəsi ictimai-siyasi durumu bolşeviklərin xeyrinə dəyişmək üçün Kommunist Partiyası ilə yanaşı ictimai təşkilatların da yaradılıb inkişaf etdirilməsinə çalışırdı. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda bolşeviklərdən tam asılı olan həmkarlar ittifaqlarının inkişafına da xüsusi fikir verilirdi. O dövrdə qısa müddətdə 22 həmkarlar ittifaqı yaradılıb və 29 avqust-6 sentyabr 1920-ci il tarixdə Azərbaycan Həmkarlar İttifaqlarının birinci qurultayı keçirilib. Qurultayda XI ordunun komissarı A.İ. Mikoyanın AHİŞ-nin sədri seçilməsi bu təşkilatın Azərbaycan zəhmətkeşlərinin mənafeyini deyil, işğalçı sovet rejiminin mənafeyini müdafiə etməsini əyani surətdə göstərir.(72,s.252)

20-ci illərin əvvəllərində partiyadaxili birliyin qorunub saxlanmasına, fəhlə-kəndli müfəttişliyi, fəhlə-kəndli ittifaqının möhkəmləndirilməsinə, kənddə sovet hakimiyyətinin ilk illərində görülən işlərə, təsərrüfat quruculuğuna aid Rusiya alimləri bir sıra əsərlər yazıblar. (454, 465, 548, 678 və s.) Bu mövzulara A.Atakişiyev, X.Əliyev, Q.A.Dadaşov və başqa Azərbaycan tarixçiləri də kitab və məqalələr həsr ediblər.(19,119, 432 və s.)

Azərbaycan İnqilab Komitəsi 1920-ci il mayın 5-də bəy-xan və vəqf torpaqlarının müsadirə edilib heç bir ödənc alınmadan zəhmətkeş kəndlilərin istifadəsinə verilməsi haqqında, sentyabrın 23-də isə kəndlərdə sovetlərin təşkilinə şərait yaradılması üçün kənd yoxsul komitələrinin təsis edilməsi haqqında dekret qəbul edib. 1920-ci ilin ortalarından isə Azərbaycanda "hərbi kommunizm" siyasəti həyata keçirilməyə başlanıb.

Tarixçilərin 18-21 dekabr 1962-ci il tarixdə Moskvada keçirilmiş Ümumittifaq müşavirəsində "hərbi kommunizm" siyasətindən yeni iqtisadi siyasətə keçmək sahəsində RK(b)P-nin təcrübəsinin öyrənilməsinin zəruriliyi qeyd edilib və bu məsələ tarixçilərin beynəlxalq kommunist hərəkatı qarşısında borcu kimi xarakterizə olunmub.(505) Bu mövzuya aid sovet tarixçilərindən E. Q.Gimpelson, S.A.Sokalov və başqa alimlər bir sıra əsərlər yazıblar.(519) Azərbaycan tarixçilərindən Y.A.Tokorjevski, A.İ.Xəlilov, M.R.Rəhimxanov, Q.A.Bünyatov, K.Zeynalov və başqa alimlər də sovet tarixşünaslığına xas metodlarla "hərbi kommunizm" siyasətini tədqiq ediblər. (103,№ 4 1961;104, 105, 177, № 2 1990, № 3 1990; 565, № 6 1965, № 4 1980; 672, 739,)

M.R.Rəhimxanova görə Azərbaycan tarixində “hərbi kommunizmə” düzgün baxış D. A. Tokorjevskinin 1946-cı ildə yazdığı məqaləsində öz əksini tapıb.(739) Bu məqalədə “hərbi kommunizmə” tədbirlər sistemi kimi deyil, fəhlə-kəndli ittifaqının möhkəmləndirilməsini təmin edən siyasət kimi baxılmasının tövsiyə olunmasını Rəhimxanov düzgün hesab edir. Lakin bununla yanaşı o, müxtəlif kitablarda ziddiyyətli, kifayət qədər əsaslandırılmamış, hətta səhv mövqelərin olduğunu qeyd edərək problemin dərindən tədqiqini zəruri sayırdı. Bununla yanaşı o öz tədqiqatlarında aşağıdakı nəticələri çıxarıb:

“Azərbaycanda 1920-ci ilin ortalarınadək azad ticarət davam edib, sonra qadağan edilərək “hərbi kommunizm” siyasətinə keçilib, bu siyasət də 1921-ci ilin yazınadək davam edib. “Hərbi kommunizm” Azərbaycanda yerləşən hərbi hissələrin tələbatının ödənilməsində müəyyən rol oynadığı qəbul olunsa da, bunu əsas səbəb kimi qəbul etmək olmaz. Çünki “hərbi kommunizm” bu amillə bağlı olsa idi, onda 1920-ci ilin yayından deyil, yazından həyata keçirilərdi. Azərbaycanda olan qızıl ordu hissələrinin ərzaq təminatı Qafqaz cəbhəsinin ərzaq idarəsi tərəfindən mərkəzləşmiş qaydada həyata keçirilib, hər ay Bakıya Şimali Qafqazdan 255 min pud taxıl gətirilib. Bu siyasətin yeridilməsi sinfi düşmənlərin gənc Sovet hakimiyyətini aclıq yolu ilə boğmaq niyyəti ilə əlaqədar idi. “Hərbi kommunizm” siyasəti Azərbaycan bolşeviklərinə Sovet hakimiyyətini möhkəmləndirmək üçün bütün vəsaiti səfərbər etməyə imkan vermişdir.”( 566,№ 4 1980, s.13-21)

Lakin faktlar M.R.Rəhimxanov və başqa sovet tarixçilərinin yazdıqlarının əksini göstərir. Bu cür tarixçilər unudurlar ki, XI ordu hissələri Azərbaycanı işğal edərkən Rusiya kütləvi aclıq keçirdiyindən onlar Azərbaycanın hesabına digər problemləri ilə yanaşı acından ölməmək problemlərini də həll etməyə çalışırdılar. Buna görə də Şimali Qafqazdan Bakıya hər ay taxıl gətirilməsi fikri tarixi saxtalaşdırmaqdan başqa bir şey deyil.

Sovet tarixşünaslığında göstərildiyi kimi AK(b)P 2-ci qurultayından sonra yoxsul komitələrinin təşkilinə başlanmışdı. Bu komitələrə seçkilərə qolçomaqlar və digər varlı təbəqələr buraxılmırdı. Bolşeviklərin kənddəki siyasətinin bu dövrünə aid Ə.C.Rəhimov, Z.E.Papuşa, M.İsgəndərov və başqa müəlliflər ayrıca kitab və məqalələr həsr ediblər. Onlar öz yazılarında kənddə proletar diktaturası orqanı olan yoxsul komitələrinin mülkədar və qolçomaqlarla inadlı mübarizə aparmasını, artıq torpağı, mal-qaranı, kənd təsərrüfatı avadanlıqlarını, taxıl və

başqa məhsul ehtiyatlarını onların əlindən alaraq yoxsullara paylanmasını müsbət qiymətləndirib, bu siyasətin Azərbaycanın kənd təsərrüfatının inkişafında və fəhlə-kəndli ittifaqının möhkəmləndirilməsində mühüm amil hesab ediblər. (189,333, 672 və s.)

Azərbaycanda Sovet hakimiyyətinin həyata keçirdiyi ən mühüm tədbirlərindən biri aqrar məsələnin bolşevikcəsinə həlli məsələsi idi. Bu məsələyə aid Ə.C.Rəhimovun 1959-cu ildə yazdığı "1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi" mövzusunda namizədlik dissertasiyası 1962-ci ildə kitab şəkilində nəşr olunub. Bu kitab sovet tarixşünaslığı ənənələri əsasında yazılmasına baxmayaraq 1920-1921-ci illər Azərbaycan kəndində baş verən proseslərə həsr olunmuş böyük tədqiqat işi kimi müəyyən əhəmiyyətə malikdir. Kitab giriş, 3 fəsil və nəticədən ibarətdir.

"Azərbaycanda sosialist inqilabının qələbəsi ərəfəsində aqrar məsələ və kəndlilərin torpaq uğrunda mübarizəsi" adlanan birinci fəsildə müəllif 1922-ci ildə rus dilində nəşr olunmuş "Azərbaycan Statistika İdarəsinin Xəbərləri"nin 3-cü sayına istinadən göstərib ki, Azərbaycanın (keçmiş Bakı, Yelizavetpol quberniyaları və Zaqatala dairəsi sərhədləri daxilində) ümumi torpaq fondu 8130686 desyatin təşkil edirdi ki, bunlardan da 6184585 desyatini yararlı idi. Kitabda həmin mənbəyə əsasən Azərbaycanda 195 nəfər iri torpaq sahibindən Gəncə qəzasında Zülqədərovların 34278 desyatin, Məlikbəyovların 14522 desyatin, Cavanşir qəzasında Cəlalovların 9402 desyatin, Rüstəmbəyovların 5907 desyatin, Məlikbəyovların 9376 desyatin, Qaryagin qəzasında Cavanşirovların 17670 desyatin, Quba qəzasında de-Burun 6552 desyatin, Mirzəyevlərin 7318 desyatin, Salyan qəzasında Şirvanskilərin 13146 desyatin, Şuşa qəzasında Fərrux bəy Vəzirovun 8990 desyatin, Zəngəzur qəzasında Usmiyevlərin 39295 desyatin və bundan başqa digər 182 bəy-xan və mülkədarın hərəsinin 1000 desyatindən çox və Lənkəran qəzasında mülkədar Talışınskinin on minlərlə desyatin torpağı olması haqqında məlumat verilib. Bundan başqa müəllif N.A.Sokolskinin Tiflisdə 1933-cü ildə rus dilində nəşr olunmuş "Naxçıvan SSR-in öyrənilməsinə aid materiallar" kitabına əsasən göstərib ki, Naxçıvanda torpağın 89,3 faizi mülkədar və xəzinə tabeçiliyində idi. Belə ki, Naxçıvan MSSR sərhədləri daxilində kənd təsərrüfatı üçün yararlı olan 508,8 min hektar torpaqdan 273,9 min hektarı bəy və xanlara, 180,5 min hektarı xəzinəyə, 14,2 min hektarı dini qurumlara, 40,2 min hektarı

kəndlilərə məxsus idi. Naxçıvanskilərin, Kəngərlinskilərin minlərlə desyatin torpaqları var idi.

Kitabın "Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi və mülkədar torpaq sahibliyini ləğv etmək sahəsində ilk tədbirlər" adlanan ikinci fəslində 1920-ci ilin may-dekabr aylarında Bakıda 299 sənaye müəssisəsinin milliləşdirilməsi, Azərbaycan İnqilab Komitəsinin mayın 5-də elan etdiyi torpaq haqqında dekret və s. məsələlər geniş şərh edilib. Dekretdə deyilir:"Xanların, bəylərin, mülkədarların bütün torpaqları, həmçinin bütün monastır, kilsə, vəqf və məscid torpaqları, bütün canlı və cansız avadanlığı ilə birlikdə heç bir ödənc (gizli və ya açıq) alınmadan, torpaqdan bərabər istifadə edilməsi əsasında dərhal zəhmətkeş xalqa verilir." Bundan başqa müəllif Azərbaycan İnqilab Komitəsinin 1920-ci il mayın 15-də meşələrin, suların və yeraltı sərvətlərin milliləşdirilməsi haqqında verdiyi dekretlə bağlı görülmüş işlər barədə də məlumat verib.

Kitabın "Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğv edilməsi" adlanan üçüncü fəslində torpaq komissiyası tərəfindən müsadirə edilən malikanələrin qəza torpaq komitəsi nümayəndələrinin, başqa sözlə torpaq agentliyi idarəsinin sərəncamına keçməsi, bu işin 1920-ci il iyun-iyul aylarında daha da genişlənməsi tədqiq olunub. Bundan başqa həmin fəsildə 1920-ci il noyabrın 1-dən 18-nə kimi Qazax qəzasında qolçomaqlara məxsus olan 1400 baş iribuynuzlu, 20000 baş xırda buynuzlu mal-qaranın müsadirə edilməsi və s. məsələlərə aid faktlar göstərilib. Müəllif həmçinin qeyd edib ki, əgər 1920-ci ilin axırında Azərbaycanda 19 kommuna, 12 artel və 1 şirkət var idisə, bunların sayı sürətlə artaraq 1921-ci ilin mayın 1-nə kimi artellərin sayı 120-ə, kommunaların sayı isə 31-ə çatıb. Müəllif fəslin əvvəlində kommuna və artellərin sayının sürətlə artması dövründə yol verilmiş nöqsanlar və qanun pozuntuları haqqında heç bir məlumat verməyərək bunu müsbət iş kimi təqdir edir. Lakin sonradan göstərir ki, 1920-1921-ci illərdə ictimai təsərrüfatın geniş dairədə təşkil edilməsi üçün hələ obyektiv şərait yetişmədiyi, zəhmətkeş kəndlilərin xüsusi mülkiyyətə meyli hələ güclü olduğu üçün onları birdən-birə ictimai təsərrüfata keçirmək mümkün deyildi və ona görə də ilk dövrdə təşkil olunmuş ictimai təsərrüfatın çox hissəsi sonradan ləğv olundu.

Kitabda həmçinin AK(b)P MK-nın kənddə iş şöbəsi tərəfindən müxtəlif vaxtlarda Azərbaycan dilində "Kənd füqərası" və "Azərbaycan füqərası"

qəzetlərinin nəşr olunması, qolçomaqların sıxışdırılıb, məhdudlaşdırmasına aid Azərbaycan SSR XTK-nın 5 may 1920-ci il tarixli təlimatı, 22 avqust 1920-ci il tarixin kənd təsərrüfatı artelinin, 24 avqust 1920-ci il tarixin kənd təsərrüfatı kommunasının Nizamnamələrinin qəbul edilməsi və Azərbaycanda mülkədar torpaq mülkiyyətinin ləğvi prosesinin 1921-ci ildə başa çatması və digər məsələlər barəsində də məlumatlar var. Müəllif kommunist rejiminin kənddə zorakılıqla həyata keçirdiyi siyasətinə etiraz edən və bu barədə 1921-ci il sentyabrın 2-də İstambulun "İler" qəzetinə müsahibə verən Müsavat hökümətinin xarici işlər nazirinin köməkçisi və "Azərbaycan" qəzetinin redaktoru olmuş Şəfi bəy Rüstəmbəyovun söylədiyi fikirləri də tənqid edib.

Kitabın nəticə hissəsində müəllif 1920-1921-ci illərdə 1382947 desyatin torpaq sahəsinin zəhmətkeş kəndlilərin ixtiyarına keçdiyini qeyd etsə də kəndlilərin bu torpaqlardan sonradan öz mülkiyyəti kimi istifadə edə bilməməsinin səbəblərinə aydınlıq gətirməyib.

Müəllif kitabın 190-191-ci səhifələrində Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ilk üç gün ərzində Bakıdan Rusiyaya 1.239 min pud, 1920-ci ilin may ayında 15 milyon pud, iyun ayında 21,2 milyon pud neft göndərilməsi, ümumiyyətlə 1920-ci ilin may ayından ilin axırlarına kimi Bakıdan Rusiyaya 160 milyon pud neft aparılması, Azərbaycan Xalq Ərzaq Komissiyasının 1920-ci ilin may ayında hədiyyə olaraq Moskva zəhmətkeşlərinə 9 vaqon düyü, Həştərxana isə 1.032 pud pambıq göndərilməsi haqqında məlumat verir. Lakin 143-səhifədə qeyd olunan N.Nərimanovun V.İ.Leninə 25 may 1920-ci il tarixdə məktubla müraciət edərək ərzaq məsələsinin çox çətinlik törətməsi, düzgün ərzaq siyasəti yeridə bilməmələri haqqında məlumat verdikdən sonra Rusiyadan Bakıya ərzaq yardımı gəlməsi haqqında məlumatı əvvəlki faktlarla ziddiyyət təşkil edir. Bu fikirləri sovet tarixşünaslığını özündə olan digər faktlar da təkzib edir. Məsələn, həmin mənbələrdə qeyd olunur ki, Azərbaycanın fəhlə və kəndliləri Saratov, Tsaritsın və Həştərxan vilayətlərinin açlıq çəkən əhalisinə 13 min pud düyü və taxıl, 3000 arşın parça və 400 mlyon manata qədər vəsait toplayaraq göndərmişlər.(577,s.277)

Buradan belə nəticə çıxarmaq olar ki, işğaldan dərhal sonra Azərbaycan sərvətlərinin Rusiyaya daşınması doğrudan da vəziyyəti daha da kəskinləşdirmişdi. Lakin kommunist rejiminin səhv siyasəti nəticəsində işğaldan cəmi bir ay keçməmiş Azərbaycanda ərzaq qıtlığının yaranması səbəblərini müəllifin gösətərməməsi bu

ziddiyyətlərin mahiyyəti haqqında düzgün məlumat əldə etməyə imkan vermir. Lakin kommunist rejiminin kənddə yeritdiyi siyasətin doğurduğu acınacaqlı vəziyyət barədə hətta sovet tarixşünaslığının özündə də kifayət qədər faklar vardır ki, müəllif təəssüf ki, bunlardan istifadə etməyib. Məsələn S.M.Əfəndiyev AK(b) P-nin II qurultayındakı çıxışında qeyd edirdi ki, "son zamanlar fəaliyyətimizin nəticəsi olaraq kəndlilər bizdən üz çevirib qaçır... Qazax qəzasında elə kəndlilər vardır ki, Mirski priqovor düzəldib Gürcüstana müraciət etmişlər ki, onları himayələri altına alsınlar."(138,s.13)

Sovet tarixçilərinin əsərlərində yazılanlardan fərqli olaraq aqrar məsələ Azərbaycanda SSR-də digər respublikalarında olduğu kimi formal xarakter daşıyıb, elan olunmasına baxmayaraq kəndlilərin torpaqla bağlı problemləri sovet hakimiyyəti illərində həll olunmayıb. Azərbaycan İnqilab Komitəsinin 5 may 1920-ci il tarixli bəy-xan və vəqf torpaqlarının müsadirə edilib heç bir ödənc alınmadan zəhmətkeş kəndlilərin istifadəsinə verilməsi haqqında dekret sovet hakimiyyətindən narazı olan kəndliləri təbəqələrə bölməklə onların arasında mübarizəni gücləndirmək, vətəndaş müharibəsi üçün şərait yaratmaq məqsədi daşıyıb ki, bu da sonrakı dövrlərdə öz acı nəticəsini verib. Tarixi faktlar sübut edir ki, yoxsul kəndliləri öz tərəfinə çəkmək məqsədilə onlara torpaq veriləcəyini vəd edən sovet rejimi əvvəl kəndlərdə kollektiv təsərrüfatın ən mürəkkəb forması olan kommunaları, sonra isə artel, kolxoz formasını yaratmaqla vədinə əməl etməyib. Kommunalarda kəndilini bütün əmlakı, həyətdəki toyuq-cücə, hətta evdəki stəkan, nəlbəki də kollektiv mülkiyyətə qatıldığından, kəndlilərin maddi maraqları nəzərə alınmadığından özünü doğrultmadı. Buna görə də kommunalar kollektiv təsərrüfatın artel forması (kolxoz) ilə əvəz olundu. Kommunalardan fərqli olaraq kollektiv təsərrüfatın artel formasında (kolxoz) kollektiv təsərrüfatla yanaşı, kəndlilərin şəxsi təsərrüfatı da var idi ki, bu da kəndlilərin istehsala marağını az da olsa təmin edirdi.

F.İbrahimli "Azərbaycan kəndində sosial-siyasi proseslər" (1920-1930) kitabında(173) 1920-1922-ci illərdə Azərbaycan kəndində gedən ictimai-siyasi proseslərin sovet tarixşünaslığında tədqiqinin xarakterik cəhətlərini aşağıdakı şəkildə verib:

1. 1920-ci il 28 aprel çevrilişi-"azadlıq inqilabı" kimi qələmə verilir və bütün sonrakı sosial-siyasi proseslərə bu prizmadan yanaşılır;

2. Mülkədar torpaq sahibliyinin ləğvi, hərbi kommunizm siyasəti, ilk kollektiv təsərrüfatların yaradılmasına cəhd və digər məsələlər sahəsində partiya siyasətinin uğursuzluğu müəlliflər tərəfindən müxtəlif manevrlərlə ört-basdır edilir, bəzən isə müvəffəqiyyət kimi göstərilir;
3. Yeni iqtisadi siyasətin yaratdığı inkişafı təhlil edən müəlliflər, eyni zamanda bu siyasətin dayandırılması haqqında partiya xəttinin düzgünlüyünü sübut etməyə çalışırlar.

F.İbrahimlinin kitabı ilə yaxından tanış olduqda məlum olur ki, müəllif 27 aprel işğalından sonra fəhlə-kəndli ittifaqının gücləndirilməsinin zəruriliyindən yazmış sovet tarixçilərinin əsərlərinə tənqidi yanaşaraq belə nəticəyə gəlib ki, əgər işğaldan sonra bu ittifaqın yaradılmasına başlanılmışdırsa deməli Azərbaycanda fəhlə-kəndli ittifaqı əsasında sosialist inqilabının baş verdiyini iddia etmək saxtakarlıqdan başqa bir şey deyil. Müəllif Azərbaycan kəndlilərinin sovet rejimini qəbul etməməsinə aid çoxlu faktları qeyd edir. Bunların arasında N.Nərimanovun 1920-ci ilin oktyabrında dediyi,"...biz kəndi ancaq şüurlu fəhlələrin hesabına qaldıra bilərik,...mən tam məsuliyyətlə deyirəm, kənddə bütün hakimiyyəti fəhlələrə vermək lazımdır" fikri də vardır. Buradan belə nəticə çıxartmaq olar ki, Azərbaycanda fəhlə-kəndli ittifaqı olmamış, əksinə işğalçı sovet ordusu ilə beynəlmiləl tərkibli Bakı fəhlə sinfinin əsasən müsəlman olmayan nümayəndələrinin müsəlman Azərbaycan kəndliləri üzərində zorkılığa əsaslanan proletar diktaturası olmuşdur.

Akademik P.Ə.Əzizbəyovanın 1920-1923-cü illərdə V.İ.Lenin tərəfindən Azərbaycanda sosializm quruculuğuna rəhbərlik edilməsinə həsr olunmuş 1960 və 1962-ci illərdə Bakı və Moskvada iki kitabı nəşr olunub.(427,428) Bu kitabların adı və kitablarda göstərilən faktlar bir daha sübut edir ki, 1920-1922-ci illərdə Azərbaycan SSR-in müstəqilliyi formal, yalnız söz olaraq qalıb, bütün proseslər Moskvadan idarə olunub.

Sovet rejiminin yeritiyi "hərbi kommunizm siyasəti" kütləvi işsizliyə, aclıq və fəlakətə səbəb olduğundan bu siyasət Yeni iqtisadi siyasət (YİS) ilə əvəz olundu.

Hərbi kommunizm siyasətindən yeni iqtisadi siyasətə keçid, Azərbaycanda 1921-ci ilin yazında başladı ki, bunu da zəruri edən səbəblər var idi. Sovet rejiminin qoyduğu ərzaq sapalağı, yəni şəhərdə "aclıq çəkən" proletariat üçün kəndlinin

məhsulunun əksər hissəsinin onun əlindən zorla alınması siyasəti kəndliləri var-yoxdan çıxarmış və onlarda bu rejimə qarşı nifrət hissi aşılamışdı. Bu siyasət kəndlinin maddi marağını öldürdüyünə görə ölkə fəlakət qarşısında qalmışdır. Bundan əlavə sovet hakimiyyətinin arxalandığı fəhlə sinfi işsizlik və aclıq ucbatından öz sinfi simasını itirməyə başlamışdır ki, bu da rejimin rəhbərliyini hərbi kommunizm siyasətini dəyişməyə məcbur etmişdir.

Yeni iqtisadi siyasət ərzaq sapalağının ərzaq vergisi ilə əvəz olunmasını, yəni məhsulunun bir hissəsinin vergi şəkilində kəndlinin əlindən alındıqdan sonra, ona qalan hissəsini azad surətdə istifadə etmək, o cümlədən satmaq imkanı verilməsini nəzərdə tuturdu ki, bu da ölkədə pozulmuş əmtəə-pul münasibətlərinin bərpa olunmasına, dövlətin nəzarəti altında sahibkarlığın inkişafına kömək etməli idi.

Azərbaycanda yeni iqtisadi siyasətin həyata keçirilməsinin zəruriliyi sovet tarixşünaslığında geniş şərh olunub. S.M.Əfəndiyev bu barədə belə yazırdı: “Kəndlilərin ərzaq siyasətinə gəldikdə mən deməyə məcburam ki, bu vaxta kimi pulemyot vasitəsi ilə taxıl toplamağımız kəndlərdə sinfi anlaqlığı qaralayır və nəticə etibarı ilə kənd bizdən uzaqlaşırdı.”(138,s.12)

S.M.Kirov Bakı Sovetinin iclasında (11 aprel 1921) “Beynəlxalq və daxili vəziyyət haqqında” məruzə edərək yeni iqtisadi siyasətin mahiyyətini izah edib. Bundan sonra Azərbaycan İnqilab Komitəsinin “Bütün ərzaq inhisarı növlərinin ləğv edilməsi haqqında” (17 may 1921) dekreti ilə respublikada ərzaq sapalağının qalıqları ləğv edilərək müəyyən çərçivə daxilində ticarət azadlığına imkan verilib.

Sovet tarixşünaslığında göstərilir ki, Azərbaycan kəndliləri ağır vəziyyətdə olduqlarına görə, ərzaq vergisinin tətbiq edilməsi 1922-ci ilə qədər təxirə salınmışdı. Lakin həqiqətdə kəndlilərə ərzaq vergisi əvəzinə “çanaq” adlı könüllü vergi müəyyən olunaraq zor gücünə yığılması məsələnin formaca dəyişdiyini, mahiyyətin isə qaldığını göstərir.

AK(b)P MK siyasi və təşkilat bürosu 31 iyul 1921-ci il tarixdə könüllü “çanaq” verilməyən yerlərdə onun məcburi toplanması, Azərbaycan MİK isə həmən il sentyabrın 18-də bütün ölkə ərazisində hər ev başına deyil, adam başına “çanağın” məcburi yığılması haqqında qərar qəbul edib. 1922-ci ilin mart-aprel aylarında isə “çanaq” ləğv olunaraq ərzaq vergisi tətbiq olunmağa başlandı ki, bu da əhalinin ağır vəziyyətini daha da ağırlaşdırdı.

İ.V.Stalin YİS haqqında belə demişdir: “Yeni iqtisadi siyasət proletar dövlətinin xüsusi bir siyasətidir, hakim mövqelər proletar dövlətinin əlində qalmaq şərtilə kapitalizmə yol verən bir siyasətdir, kapitalist ünsürləri ilə sosialist ünsürləri arasında mübarizə getməsini nəzərdə tutan bir siyasətdir, kapitalist ünsürlərinin zərərinə sosialist ünsürlərinin rolunun artmasını nəzərdə tutan bir siyasətdir, sosializm ünsürlərinin kapitalizm ünsürlərinə qalib gəlməsini nəzərdə tutan bir siyasətdir, siniflərin məhv edilməsini, sosialist iqtisadiyyatı üçün təməl qoyulmasını nəzərdə tutan bir siyasətdir. Kim yeni iqtisadi siyasətin bu ikitərəfli, keçid təbiətini anlamırsa, o, leninizmdən uzaqlaşmış olur.”(362,s.393-394)

1921-ci il fevralın 1-də RSFSR Xalq Komissarları Sovetində Bakı və Qroznı neft sahələrini əlverişli şərtlərlə xarici kapitalistlərə konsessiyaya verilməsi haqqında qərar layihəsi müzakirə olunsa da, sonradan bu həyata keçirilməyib. 1921-ci ilin axırlarında Azərbaycan SSR hökuməti ən xırda ipəkburma, baramaaçma və pambıqtəmizləmə zavodlarını, un üyüdən müəssisələrin böyük bir hissəsini xüsusi şəxslərə və ya kooperasiyalara icarəyə verməyi qərara aldı. Əvvəllər Xalq Təsərrüfatı Şurasının ixtiyarında olan 20 müəssisə 1922-ci ilin mart ayına qədər icarəyə verildi. Ümumiyyətlə 13 pambıqtəmizləmə zavodu, 71 balıq vətəgəsi, Nuxada 33 xırda baramaaçma müəssisəsi və kustar üsul ilə neft çıxarılan bəzi sahələr icarəyə verildi.(72,s.289)

M.B.Məmmədzadə yeni iqtisadi siyasətin əsas mahiyyəti və bolşeviklərin bir müddət sonra bu siyasətdən geri çəkilmələrinin səbəbləri haqqında yazırdı: “NEP”- in (YİS-M.Z.) ihdas etdiyi ufaq mülkiyyətçi cəmiyyətin bu gün siyasi, ictimai, iqtisadi sahələrdə bolşevizmə qarşı mübarizə edən aktiv qüvvəsidir ki, hər il kəşf və “iflas” edilən Müsavatın kadrlarını təşkil edirlər. Ona görə də bolşeviklərin...bu cərəyana “müsavatizm” demələri yersiz deyildir.(273,s.20)

YİS sovet tarixşünaslığında həm ayrıca, həm də başqa mövzularla birlikdə tədqiq olunub. Bu mövzuda keçmiş SSRİ-nin müxtəlif regionlarında Y.A.Polyakov, V.P.Dmitrenko, N.V.Şerban, E.V.Yufereva, L.E.Fayn, V.İ.Billik və başqa alimlər kitablar yazıblar.(465,585, №5 1968,s.14- 35;637 və s.) Bundan başqa İ.A.İsayev, İ.Buzdalov, V.P.Dmitrenko, A.S.Aleksandrov və digər alimlərin 1985-1991-ci illərdə problemə aid nisbətən fəqli elmi məqalələri nəşr olunub.(499,№3 1991,s.125-138, №7 1991,s. 80-85;501,№3 1990,s.36-46;585,№2 1990,s.15-30 və s. ) Hətta İ.B.Berxin və digər tarixçilər bu mövzunu tarixşünaslıq

baxımından da tədqiq ediblər.(498,№3 1961)

Qərb mütəxəssisləri də Yeni iqtisadi siyasətə aid çoxlu əsərlər həsr ediblər. Məsələn, ABŞ-da 1971-ci ildə “Yeni iqtisadi siyasət və Leninin ölümündən sonra partiyada böhran” əsəri nəşr olunub. Kembric universitetinin professoru E.X. Karrın 14 cildlik “Sovet Rusiyasının tarixi” əsərinin yeddinci cildi yeni iqtisadi siyasətin ilk illərinə həsr olunub. 90-cı illərdə isə bir sıra qərb alimləri sovet jurnallarında yeni iqtisadi siyasətlə bağlı məqalə və müsahibələrlə çıxış ediblər. Məsələn, ABŞ alimi P.Qreqorinin “Znanie - sila” jurnalının 1990-cı il X sayında “YİS: hansı ki, böhranlar yox idi ” adlı müsahibəsi, Böyük Britaniya alimi R.U.Devisin isə “Kommunist” jurnalının 1990-cı il VIII sayında “YİS və müasirlik” adlı məqaləsi çap olunub.

Azərbaycan alimlərindən M.Səlimov, Y.Tokarjevski, Q. Əbdülsəlimzadə, Ə. Qəribov, A. Məmmədov, L.Polonski və başaları da YİS-ə aid bir sıra kitab və məqalələr həsr ediblər.(37, № 4-5 1990,s.77-86,355;740 və s.)

M. Səlimovun “Azərbaycan Kommunist Partiyası yeni iqtisadi siyasətə keçid dövründə” adlı kitabında (355) yeni iqtisadi siyasətin xüsusiyyətləri kommunist partiyası mövqeyindən tədqiq edilərək, bu siyasətə keçidi zəruri edən faktların üstündən sükutla keçilib. Müəllif Azərbaycan kəndlisinə qarşı edilən haqsızlıqlardan, onların özlərinin aclıq çəkməsinə baxmayaraq Rusiyanın aclıq çəkən Volqaboyu rayonlarına göndərmək üçün onlardan zorakılıqla məhsullar yığılmasının üzərindən sükutla keçərək, vergi vermək imkanı olmayan Azərbaycan kəndlisinin bir il ərzaq vergisindən azad olunaraq bunun əvəzinə “könüllü” çanaq vergisi tətbiqini Mərkəzin Azərbaycana qayğısı kimi göstərib.

1990-cı ilin iyununda Azərbaycan tarixçilərindən S.Aslanov, A.Hüseynov, Y.Tokarjevskiy, Ə.Dilbazovun iştirakı ilə “Yeni iqtisadi siyasət-axtarış yolu və ibrət dərsləri” (Leninin YİS ideyasının mahiyyəti və həmin siyasətin Azərbaycanda həyata keçirilməsi xüsusiyyətləri) mövzusunda “dəyirmi masa” keçirilib. Dəyirmi masada yeni iqtisadi siyasət birbaşa sosializmə keçid konsepsiyası ilə müqayisə edilərək, bu konsepsiyanın inkişaf etmiş kapitalist ölkələrində həyata keçirilməsinin mümkünlüyü təsdiq olunub. Bundan başqa Buxarinin yeni iqtisadi siyasətin ardıcıl tərəfdarı olması, əmtəə-pul münasibətlərinin, azad rəqabəti və bazarın inkişafını nəzərdə tutan yeni iqtisadi siyasətin planlı sosialist iqtisadi siyasətinə zidd olması müzakirələrin əsas mövzusu olub. Dəyirmi masada ərzaq vergisindən Azərbaycan

kəndliləri azad olunduqdan sonra quraqlıq nəticəsində baş vermiş ərzaq qıtlığı ilə əlaqədar Birinci Ümumazərbaycan Sovetlər qurultayının kəndli nümayəndələrinin təklifi ilə Bakı fəhlələri üçün "çanaq" (20 girvənkə, 8 kq) adlı könüllü ərzaq toplanışı keçirilməsinə haqq qazandırılaraq bu dövrdə Azərbaycanın ictimai-siyasi həyatında baş vermiş hadisələrə sovet tarixşünaslığına xas olan münasibət bəslənilib.(204,6 iyun 1990)

Faktlar subut edir ki, sovet hakimiyyətinin zorakılıqlarından cana gəlmiş Azərbaycan kəndliləri heç zaman könüllü olaraq "çanaq" vergisinin tətbiqinə razı olmayıb. Bunu kəndlilərin özünün təklifi kimi irəli sürülməsini iddia etmək isə saxtakarlıqdan başqa bir şey deyil.

B.Bünyadov 1921-1925-ci illərdə Azərbaycanda sovet ticarətinin təşkili və inkişafına həsr etdiyi kitabında (92) yeni iqtisadi siyasət dövründə dövlət inhisarçı siyasətinə əsaslanan sovet ticarətinin üstünlüklərini sübut etməyə çalışır.

Yeni iqtisadi siyasətin ölkənin dağılmış iqtisadiyyatının bərpa edilməsində müsbət roluna baxmayaraq, müxtəlif təsərrüfat formalarının azad rəqabətində özəl sektorun üstünlüklərindən qorxuya düşən kommunist partiyası İ.Stalinin rəhbərliyi ilə sonrakı dövrdə ölkənin siyasi kursunu dəyişdirdi ki, bu da başqa ərazilərdə olduğu kimi Azərbaycanda da yeni faciələrlə nəticələndi.

1921-ci ilin yazında Azərbaycan qəzalarında inqilab və yoxsul komitələri fəhlə-kəndli deputatları sovetləri ilə əvəz olundu. Respublikada bu dövrdə 1400-ə yaxın kənd soveti yaradıldı. 1921-ci il mayın 6-da Bakıda Azərbaycan SSR-in I Sovetlər qurultayı öz işinə başladı və mayın 19-da Azərbaycan SSR - in birinci Konstitusiyası qəbul edildi. (577,s.281-282)

1920-1922-ci illər dövrünün son mərhələsini formal müstəqillikləri olan respublikaların ittifaq dövləti şəklində birləşməsi məsələsi təşkil edir. Bu məsələ barəsində fikrimizcə bolşeviklər partiyası daxilində məzmunca deyil, formaca fikir ayrılığı mövcud olub. Sovet tarixşünaslığında SSRİ-nin yaradılmasına dair İ.Stalin və V.İ.Lenin layihələri müzakirə olunaraq, respublikaları RSFSR-in tərkibində muxtar respublika statusu şəkilində birləşməsini nəzərdə tutan Stalin layihəsi tənqid olunub, respublikaların bərabər hüquqlu ittifaqı olan SSRİ yaradılmasını irəli sürmüş Lenin layihəsi müsbət qiymətləndirilib. Lakin sonrakı tarixi proseslər göstərdi ki, hər iki layihə formaca müxtəlif olsa da məzmunca demək olar ki, eyniyyət təşkil edib. Çünki müttəfiq respublikalara muxtar respublikalardan fərqli

olaraq Konstitutsiya ilə verilmiş bir çox səlahiyyətlər formal xarakter daşımış, hətta müttəfiq respublikaların SSRİ-nin tərkibinə daxil olması və çıxmasının könüllü olması haqqında maddə digər maddələr kimi yalnız sənəddə mövcud olmuşdur. SSRİ-nin təşkili prosesində S.M.Kirovun rəhbərlik etdiyi Azərbycan KP-nin başqalarından fərqli olaraq öz razılığını daha tez bildirməsi Azərbaycanın "müstəqilliyinin" başqa respublikalardan daha çox formal xarakter daşımasından xəbər verir. Gürcüstan KP MK 15 sentyabr 1922-ci il tarixdə Stalinin respublikaların muxtariyyət formasında RSFSR-in tərkibinə birləşməsi tezislərinin əleyhinə çıxdığı halda, Azərbaycan KP bundan dörd gün əvvəl bu layihəni bəyənib.

A.P.Nenarokovun 1983-cü ildə Moskvada rus dilində nəşr olunmuş "Müstəqil xalqların azad biliyi uğrunda" kitabı 1917-1924-cü illərdə birləşmə hərəkatının tarixinə həsr olunmub. Müəllif bu prosesi 3 mərhələyə bölüb:

I məhələ 1918-1921-ci illəri əhatə edir. Vətəndaş müharibəsi və hərbi müdaxilə dövrünə düşdüyünə görə müəllif bu mərhələni respublikaların öz varlığını qoruyub saxlamaq üçün zəruri hərbi əməkdaşlığın yaranma dövrü kimi qiymətləndirib və Stalinin bu mərhələnin sovet respublikaları arasında hərbi ittifaqın yaranması ilə başa çatması fikrini müdafiə edib;

II mərhələ Genuya və Haaqa konfransları ilə əsası qoyulmuş 1921-ci ilin axırı 1922-ci ilin əvvəllərini əhatə edir. Müəllif bu dövrü diplomatik ittifaq mərhələsi kimi qiymətləndirir;

III mərhələ isə 1922-ci ilin payızından başlayaraq 30 dekabra qədər davam edən dövrü əhatə edir. Müəllif bu mərhələni SSRİ-nin yaranması ilə nəticələn dövr kimi xarakterizə edərək, bu mərhələni təsərrüfat cəhətdən birləşmə mərhələsi hesab edib.

Digər sovet tarixçiləri kimi A.P.Nenarkov da bu mərhələlərdə baş vermiş hadisələrə obyektiv deyil, subyektiv sinfi mövqedən yanaşıb.

V.P.Buldakov, S.V.Kulenov, İ.S.Zenuşkina və başqa tarixçilər SSRİ-nin yaranmasına sovet tarixçilərindən fərqli münasibət bəsləyən burjua tarixçilərinin tənqidinə aid bir sıra kitab və məqalələr yazıblar.(683,684,729 və s.)

SSRİ-nin yubileylərinə həsr olunmuş müxtəlif konfransların materialları (471,483 və s.) problemin tarixşünaslıq baxımından tədqiqində mühüm əhəmiyyət kəsb edir.

Q.D.Alekseyevanın 1968-ci ildə Moskvada rus dilində nəşr olunmuş

“Oktyabr inqilabı və 1917-1923-cü illərdə tarix elmi” adlı kitabı problemin tarixşünaslığına həsr olunub. Problemi dərindən öyrənmək üçün II Ümumazərbaycan və I Ümumittifaq sovetlər qurultaylarının və digər qurultayların materiallarının da mühüm əhəmiyyəti var.

SSRİ-nin təşkilnə aid Azərbaycan alimlərindən Ş.Sadıxov, Y.Tokarjevski, Ə.Bağırzadə, X.Əlmirzəyev, Z.Şıxlinski, R.Rəcəbov və başqaları bir sıra kitab və məqalələr yazıblar.(80,81,348,349,350,520,523,641,720,741 və s.)

Ş.Ə.Sadıxovun 1961-ci ildə nəşr olunmuş “Sovet Sosialist İttifaqının təşkilinə dair” kitabında müəllif SSRİ-nin təşkilinə dair sovet tarixşünaslığında yazılmış faktları və fikirləri təsdiq edərək bu hadisəni Azərbaycan xalqının tarixində əlamətdar hadisə hesab edib.

Azərbaycan Dövlət Universitetinin 9 professorunun kollektiv əməyinin nəticəsi olan, SSRİ-nin 60 illik yubleyinə həsr olumuş və 1983-cü ildə rus dilində çapdan çıxmış “Sovet Azərbaycanı SSRİ xalqlarının qardaşlıq ailəsində” kitabının “SSRİ-nin təşkili və sovet Azərbaycanı” adlanan birinci hissəsində üç məqalə nəşr olunub.

Z.B.Şıxlinski “SSRİ-in təşkili Lenin milli siyasətinin təntənəsidir” başlıqlı məqaləsində 1918-1920 - ci illərdə sovet respublikaları arasında üç tip federativ münasibətin, yəni RSFSR-in tərkibinə daxil olan muxtar qurumlar, ittifaq müqaviləsi əsasında yaranmış Zaqafqaziya respublikaları və müstəqil sovet respublikaları arasında müqavilə münasibətlərinin yarandığını qeyd edərək SSRİ-ni Lenin milli siyasətinin prinsipləri əsasında respublikaların tam könüllü ittifaqı olduğunu sübut etməyə çalışıb.

Q.M.Bayramov “SSRİ-nin təşkilində Azərbaycan SSR zəhmətkeşlərinin iştirakı” adlı yazısında 1921-1922-ci illərdə sovet respublikaları arasında əlaqələrin inkişafı üçün bağlanmış müqavilələrin kifayət etdiyini, təsərrüfat, iqtisadiyyat, hərbi sahədə vahid dövlət şəkilində birləşmənin zərurətdən yarandığını qeyd edir. Bundan başqa müəllif bütün millətlərin faktiki bərabərliyinə, əsil xalqlar dostluğuna və əməkdaşlığına nail olmaq üçün SSRİ-nin yaradıldığını bildirərək bu prosesdə Azərbaycan zəhmətkeşlərinin ürəkdən iştirak etdiyini 20-ci illərin bolşevik sənədlərinə istinadən göstərir. Müəllifin 20-ci illərin bolşevik sənədlərinə tənqidi münasibət bəsləməməsi məqalənin birtərəfli mövqedən yazıldığını sübut edir.

M.F.Məlikovanın “Sovet sosialist federasiyasının Lenin prnsipləri” başlıqlı yazısı isə SSRİ-nin təşkilinin hüquqi əsaslarına həsr olunub.

Sovet tarixçiləri öz əsərlərində SSRİ-ni azad millətlərin ittifaqı, eyni hüquqlu müttəfiq respublikaların qardaşlıq birliyi kimi vermələrinə baxmayaraq faktlar bunların həqiqətə uyğun olmadığını təsdiq edir. Məsələnin mahiyyəti isə fikrimizcə bundan ibarətdir ki, 1922-1923-cü illərdə kommunist partiyası daxilində milli məsələyə dair mübarizə və mübahisələr bu məsələdə iki fikirin olduğunu ortaya çıxarıb. SSRİ-nin 1922-ci ildə qəbul olunmuş milli-dövlət quruluşu federalizm qarşısında unitar dövlət üçün prioritet yaradırdı. Lenin İttifaq dövləti kimi federasiyanın ən yüksək yeni formasından danışarkən mahiyyətcə unitar dövlətinin yeni formasından bəhs edirdi. O, yaxşı başa düşürdü ki, birpartiyalı sistemdə kommunist partiyasının hegemonluğu şəraitində real federasiya mümkün deyildir.

Professor R.A.Rəcəbov “Böyük Oktyabr və Azərbaycanda 1917-1925-ci illərdə milli-dövlət quruculuğu” adlı məruzəsində bu sahədə üç əsas mərhələnin olduğunu qeyd edib:

Birinci mərhələ - Azərbaycan SSR ilə Sovet Rusiyası arasında hərbi-siyasi ittifaq haqqında müqavilənin imzalanması (bu müqavilədə Rusiyanın daha çox marağı var idi.) Bu ittifaqın rəsmi surətdə tam həyata keçirilməsi 30 sentyabr 1920-ci ildən başlandı.

İkinci mərhələ-1921-1922-ci illərdə Zaqafqaziya respublikaları ilə təsərrüfat sahələrinin birləşdirilməsi, süni federativ ittifaqın formalaşdırılması və ZSFSR-in (əsasən Gürcüstan və Ermənistanın maraqlarına uyğun olaraq) yaranması.

Üçüncü mərhələ-Azərbaycan SSR-in ZSFSR-in, onun vasitəsilə SSRİ-nin tərkibinə daxil olması.(94,s.5)

Müəllif bu prosesin Azərbaycan SSR-in (1921 - ci il), ZSFSR-in (1922-ci il) və SSRİ-nin (1924-cü il) Konstitutsiyaları ilə qanuniləşdirildiyini göstərir. Onun bu ittifaqın Azərbaycandan daha çox Rusiya, Ermənistan və Gürcüstana lazım olduğunu qeyd etməsinə baxmayaraq, Azərbaycanın sovet Rusiyası tərəfindən işğal edilməsi, sovet rejiminin mahiyyəti və s. məsələlərin üzərindən sükutla keçməsi, 6 may 1921-ci ildə Bakıda keçirilmiş, 445 deputatın 325-nin azərbaycanlı olduğu I Ümumazərbaycan Sovetlər qurultayının yerli əhalinin istək

və maraqlarını bütünlükdə ifadə etdiyini bildirməsi, müəllifin 1990-cı ildə hələ də sovet tarixşünaslığı ənənələrindən uzaqlaşa bilmədiyini göstərir. (94,s.4)

S.Seyidovanın 1994-cü ildə müdafiə etdiyi "Azərbaycanın beynəlxalq əlaqələri (1920-1930 - cu illər)" adlı namizədlik dissertasiyasında göstərilir ki, 1920-1922-ci illərdə Azərbaycan xarici ölkələrlə diplomatik əlaqələri konsulluq səviyyəsində həyata keçirirdi. Bu dövrdə Bakıda 12 dövlətin, o cümlədən Rusiya, Litva, Estoniya, İran, Türkiyə, Gürcüstan, Ermənistan, Dağıstan, İtaliya, Çexoslavakiya, İsveçrə və Almaniyanın səlahiyyətli nümayəndələri fəaliyyət göstərirdilər.

1922-ci il martın 12-də keçirilmiş Azərbaycan, Gürcüstan və Ermənistan Mərkəzi İcraiyyə komitələrinin səlahiyyətli konfransı ZSFSR-in yaradıldığını elan edib. Həmin il, dekabrın 10-da ZSFSR-in Bakıda keçirilən I qurultayında RSFSR, ZSFSR, Ukrayna SSR və Belorusiya SSR-dən ibarət SSRİ-nin yaradılmasının zəruriliyi haqqında qərar qəbul olunub. 1922-ci il dekabrın 30-da Moskvada keçirilmiş SSRİ I Sovetlər qurultayı SSRİ-nin yaradıldığını elan edib. Bununla da keçmiş Rusiya imperiyasının sərhədləri daxilində yeni formada mərkəzləşmiş totalitar dövlətin əsası qoyuldu ki, sovet tarixşünaslığında da bu dövlət qardaş xalqların könüllü ittifaq dövləti kimi qeyd olunub.

Sovet tarixşünaslığında Amerika politoloqu F.Tadjmenin bu məsələ barədə fikirləri tənqid olunsa da, fikrimizcə o, məsələyə daha obyektiv münasibət bəsləyib. F. Tadjmen "Müasir Avropada millətçilik" əsərində belə bir müqayisə aparıb:1) provaslıq+velikorusizm=Rusiya imperiyası, 2) marksizm- leninizm+velikorusizm = Sovet İttifaqı. (499,№ 6 1984,s. 90-91)

İ.Ağayev Azərbaycan xalqının öz müqəddəratını təyin etmək hüququnun türk tarixşünaslığını tədqiq edərək bu məsələ barədə fikirlərini öz məqaləsində bildirib. (9)

Professor O.Rzaquliyev "SSRİ-nin təşkil edilməsi və antikommunistlərin saxta fərziyyələri" adlı məqaləsində burjua alimlərini kəskin tənqid edib. O, ABŞ tarixçisi F.Kazımzadənin RSFSR ilə Azərbaycan SSR arasında bağlanmış müqavilə haqqında dediyi fikirlərin əsassızlığını sübut etməyə çalışıb. F.Kazımzadə müqavilə münasibətlərinin yaradılmasını Azərbaycan hökümətinin dekretlərinin ləğv edilməsi və onların RSFSR-in dekretləri ilə əvəz edilməsi kimi qiymətləndirərək belə bir nəticəyə gəlmişdi ki, "Azərbaycan xalqının gələcəkdə

qurmalı olduğu münasibətlərin forması haqqında müstəqil qərar qəbul etmək hüququnun tanınması üstündən vaz keçilmişdir.” (37,№ 12 1982,s.96)

Bolşeviklərin hakimiyyəti ələ almaq üçün başqa məsələlərlə yanaşı “Millətlərin öz müqəddəratlarını təyin etmək” hüququndan da öz təbliğatlarında sui-istifadə etmələri, hakimiyyətə gəldikdən sonra isə bu hüququ yalnız sözdə qəbul edərək, işdə millətlərin bu hüquqdan istifadəsinə imkan verməmələri, mərkəzi hakimiyyətə tabe olan yalnız formal qurumların yaradılması qərb mütəxəssisləri tərəfindən tənqid edilib. Politoloq A.Meyer bu məsələ barədə yazırdı ki, “V.İ.Lenin 1917-ci ilin oktyabrına qədər beynəlmiləlçi, inqilabdan sonra isə beynəlmiləlçilikdən imtina edib, millətçi-vətənpərvər olmuşdur.” (499,№1 1972, s.60)

Beləliklə 27 aprel 1920-ci il tarixdə XI ordunun saxta “Müstəqil sovet Azərbaycanı” şüarı altında işğalı ilə yaradılmış, formal olaraq Azərbaycan bolşeviklərinin, faktiki olaraq isə XI ordunın tərkibində Azərbaycana gəlmiş rus və erməni bolşeviklərin rəhbərlik etdiyi Azərbaycan SSR-in 1920-1922-ci illərdəki formal müstəqilliyinə də SSRİ-nin tərkibinə daxil edilməklə son qoyuldu.

Fikrimizcə Azərbaycan tarixinin digər dövrləri kimi çoxlu sayda müxtəlif mövqeli kitabların həsr olunduğu 1920-1922-ci illər dövrü də gələcəkdə tarixçilərin əsas tədqiqat obyektlərindən biri olmalıdır.

## 1.2. 1922 - 1930 - cu illər elmi araşdırmalarda

Azərbaycan SSR-in 1922-30-cu illər tarixi də sovet tarixçiləri tərəfindən kommunist rejimi ənənələrinə sədaqət ruhunda tədqiq olunub. Sovet tarixçilərinin Azərbaycan SSR-ə aid yazdıqları əsərlərin mahiyyətini başa düşmək üçün firimizcə kommunist partiyası və onun rəhbərlərinin irəli sürdüyü istiqamətverici sənədlərin öyrənilməsinə ehtiyac var. Belə sənədlərdən biri, Azərbaycan Respublikası SPİH MDA (f.456,siy.14, iş 96) saxlanan M.Ə.Rəsulzadənin 1922-ci ildə Türkiyədə nəşr edilmiş “Azərbaycan Cümhuriyyəti” əsəri ilə əlaqədar İ.V.Stalinin Azərbaycan KP rəhbərliyinə 16 sentyabr 1923-cü il tarixdə göndərdiyi məktub xüsusilə diqqəti cəlb edir. Məktubda deyilir:“Rəsulzadənin mürtəce broşurası münasibətilə yol. Musabəyova, Mirzəyana, Axundova, Kirova və Orxelaşviliyə məsləhətim. Rəsulzadə əleyhinə cavab broşurasının ümumi ruhu hücum xarakterli olmalı, daha doğrusu heç bir halda özünü təmizə çıxarmağa və müdafiə olunmağa

yol verilməməlidir, əksinə, aşağıdakılara görə günahlandırılaraq ona hücum olunmalıdır:

1. Dönüklükdə (o əvvəlcə bolşevik idi); 2. Türkiyə xalqının mənafeyinə xəyanətdə (O və onun partiyası - müsavatçılar - Türkiyə xalqına köməyə gedən Qızıl Ordunun Azərbaycana daxil olmasının əleyhinə çıxırdı); 3. Azərbaycan xalqının mənafeyinə xəyanətdə (O və onun partiyası Azərbaycan kəndlilərinin bəylərin zülmündən tam azad olunması əleyhinə çıxırdı); 4. Şərq xalqlarının mənafeyinə xəyanətdə (O və onun partiyası Şərq azadlıq hərəkatının dayağı və bayraqdarı olan sovet respublikalarının proletariatı əleyhinə, müstəmləkə və asılı ölkələrin qəddar düşməni İngiltərə qarşısında quyruq bulayırdılar); 5. Müsavat ağalığı dövründə erməni-tatar qırğınının təşkilində (buradaca onu Azərbaycan Purişkeviçi adlandırmalı); 6.Şamxor talanının təşkilində (buradaca onu Azərbaycanın talançısı adlandırmalı). Birbaşa demək lazımdır ki, Rəsulzadə "müsavatdan sonra xalq mədəniyyəti tənəzzülə uğrayıb "- qənaətilə Azərbaycan proletariatı və ziyalılarına yalan söyləyir (faktlar və rəqəmlər gətirməli, müqayisəli taktika seçməli.) (99,10 mart 1995)

Azərbaycan SSR-də 1920-1930-ci illər tarix elminin inkişafına, bu dövrün tarixşünaslığına aid bir sıra kitab və məqalələr də yazılıb. (562,570,571,605, 632)

Sovet hakimiyyəti illərində Azərbaycan tarixinə, Azərbaycan kommunist partiyasının tarixinə həsr olunmuş kitablar, Azərbaycan tarixçilərinin 1920-1930-cu illərin ayrı-ayrı problemlərinə aid məqalələrinin toplandığı ayrıca kitab və s. əsərlər 1920-1930-cu illər tarixşünaslığının öyrənilməsində müəyyən rola malikdir.(29,30,32,33,72,577 və s.)

1920-1930-cu illər tarixşinin tədqiqində Azərbaycana rəhbərlik etmiş şəxslərin fəaliyyətinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. N.N. Nərimanovdan sonra (16 may 1920-24 iyul 1921), M.C.Bağırovun hakimiyyətə gələnə kimi, yəni 24 iyun1921-ci ildən 10 dekabr 1933-cü il tarixinə qədər Azərbaycana qeyri millərlərdən olan şəxslər rəhbərlik etmişlər. Bunlar aşağıdakılardan ibarətdir: S.M. Kirov (24 iyul 1921-20 yanvar 1926), L.İ. Mirzoyanın(21 yanvar 1926-11 iyul 1929) rəhbərlik etdiyi Ə.Qarayev, N.Ağaverdiyev, R.AxundovdaN ibarət qrup, N.F.Gikalo (11 iyul 1929- 4 avqust 1930), V.İ.Polonski (18 avqust 1930-6 fevral 1933), R. Q. Ruben (6 fevral 1933 -

10 dekabr 1933)

N.Nərimanov rəhbərlikdən uzaqlaşdırıldıqdan sonra 1921-1933-cü ilə qədər, yəni M.C.Bağırov respublikaya rəhbər təyin olunana qədər demək olar ki, Azərbaycana rus və erməni millətindən olan şəxslər başçılıq etmişlər. Ə.Qarayev, N.A.Ağaverdiyev, R.Axundov, Q.Musabəyov və bir sıra digər azərbaycanlı bolşeviklər rəhbərlikdə təmsil olunsalar da onların nüfuzu N.Nərimanova nisbətən qat-qat aşağı olmuş və onların təmsilçilikləri formal xarakter daşımışdır. N.Nərimanovla yanaşı və ondan sonra Azərbaycana rəhbərlik etmiş rus və ermənilərin oxuculara tanış olmadığını və onların fəaliyyətləri haqqında məlumat azlığını nəzərə alaraq bu şəxslərin fəaliyyətinin də tədqiqnə ciddi ehtiyac var.

N.Nərimanov Müvəqqəti İnqilab Komitəsinin təşkil etdiyi Xalq Komissarları Sovetinin sədri olsa da, S.M.Kirov rəhbərliyə gətirilənə qədər V.İ.Naneyşvili, E.D.Stasova, V.E.Dumbadze, Q.N.Kaminski növbə ilə Azərbaycan Kommunist Partiyasına başçılıq etmişlər.

## Sergey Mironoviç Kirov
## (24 iyul 1921-20 yanvar 1926)

15 (27) mart 1886-cı ildə Rusiyanın indiki Kirov vilayətinin Urjum kəndində anadan olub. Kirov onun partiya təxəllüsü idi, əsil familyası Kostrikov olmuşdu. Kiçik vaxtlarında valideynlərini itirən Kirov yeddi yaşından uşaq evinə verilmişdir. 1897-1901-illərdə Urjum şəhər məktəbində, sonra Kazan mexaniki-texniki məktəbində oxumuş və 1904-cü ildə oranı bitirmişdir. Həmin ilin payızında Tomsk şəhər idarəsində layihə çəkən işləmişdir. 1904-cü ildə Tomsk sosial-demokrat təşkilatına daxil olmuş və 1905-ci ilin iyulunda RSDFP Tomsk komitəsinin üzvü seçilmişdir. 1906-cı ildə qeyri-leqal mətbəə təşkil edərək dəmiryolçular arasında partiya işi aparmışdı. 1905-ci ilin oktyabr ayında Tayqa stansiyasında dəmiryolçuların böyük tətilini təşkil etmişdir. 1905-1906-cı illərdə dəfələrlə həbs olunmuşdur. 1907-ci ilin fevralında 7 aylıq həbsdən sonra 1 il 4 ay müddətinə yenidən həbs edilmişdir. 1908-ci ilin iyun ayında azadlığa çıxdıqdan sonra Kirov İrkutska gedərək orada polis tərəfindən dağıdılmış partiya təşkilatını bərpa etmişdir. Polis təqiblərindən yaxa qurtarmaq üçün 1909-cu ilin mayında Vladiqafqaza (sovet dövründə Orconikidze adlanıb) gəlmiş və “Terek” qəzetində işləmişdir. 1912-ci ilin noyabrında həmin qəzetdə S.Kirov imzasılə “Əxlaqın

sadəliyi” məqaləsi  nəşr olundu və bundan sonra bu imza onun partiya təxəllüsü oldu.

1910-1918-ci illərdə Kirov Şimali Qafqazda  bolşevik təşkilatına rəhbərlik etmişdi. 1917-ci il fevral iqtilabından sonra Vladiqafqaz sovetinin üzvü seçilmişdir. 1917-ci ilin oktyabrında II Ümumrusiya Sovetlər qurultayının nümayəndəsi kimi Petroqradda silahlı çevrilişdə fəal iştirak etmişdir.

1919-cu ilin fevralında Kirov Həştərxan Vilayət Müvəqqəti  İnqilab Komitəsinə sədr, həmin il  mayın 7-də XI ordunun Hərbi İnqilab Komitəsinin üzvü, 7 iyulda Qırmızı Ordunun cənub qrupu Hərbi İnqilab Komitəsinin üzvü təyin olunmuşdur. O, Həştərxanın müdafiəsinin təşkilatçı və rəhbərlərindən biri olmuşdur.

1919-cu ilin yanvarında Kirov və Q.K.Orconikidze XI ordunun Şimali Qafqaza hücumuna rəhbərlik etmiş və onların rəhbərliyi altında ordu 30 martda Vladiqafqazı, 27 apreldə Bakını işğal etmişdir.

29 may 1920-ci il tarixdə Kirov RSFSR-in menşeviklərin hakimiyyətdə olduğu Gürcüstanda səlahiyyətli nümayəndəsi təyin olunmuşdur. O, həmin il oktyabrın 1-12-də Polşa ilə sülh müqaviləsi bağlamaq üçün Riqaya getmiş nümayəndə heyətinə rəhbərlik etmişdir.

1921-ci ilin iyul ayında Kirov Azərbaycan KP MK -nın katibi seçilmiş və neft sənayesinin bərpasında mühüm rol oynamışdır. O, 1922-ci ilin dekabrında ZSFSR -in təşkilatçılarından biri olmuşdur.

1926 - cı ilin fevralında Kirov ÜK(b)P Leninqrad quberinya komitəsinin birinci katibi seçilmişdir.

1934-cü il dekabrın 1-də Leninqradda, Smolnıda Kirov sui-qəsd nəticəsində öldürülmüş və Moskvada Kreml divarlar yanında dəfn olunmuşdur.

Sovet hakimiyyəti illərində Kirovun adının əbədiləşdirilməsi üçün SSRİ miqyasında bır sıra işlər görülüb. 1934-cü ildə Azərbaycanda Gəncə şəhəri Kirovabad, Ermənistanda Qarakilsə şəhəri Kirovokan, Rusiyanın Vyatka şəhəri Kirov, Xibinoqorsk şəhəri Kirovsk adlandırıldı. Hazırkı Bakı dövlət Universiteti sovet dövründə S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti, Bakı şəhərinin hazırkı Binəqədi rayonu Kirov rayonu adlanır, çoxlu sayda kolxoz, sənaye müəssisələri və s. obyektlər onun adını daşıyırdı. Hazırkı Şəhidlər Xiyabanı, Kirov adına dağüstü park adlandırılaraq orada onun böyük heykəli qoyulmuşdu.

Azərbaycan SSR-də 1966-cı ildə ssenari müəllifiləri Niyazi Bədəlov, Marlen Bağırov, rejissoru Niyazi Bədəlov, operatoru Vladimir Zbudski, bəstəkarı Fərəc Qarayev, səs operatoru Ələkbər Həsənzadə olan "Kirov Azərbaycanda" sənədli filmi çəkilmişdi.

S.M.Kirov 24 iyul 1921-ci ildə Mərkəzi Komitə plenumunun qərarı ilə Azərbaycana rəhbər təyin edilmişdi. Bu şəxs haqqında bir çox kitab və məqalələr yazılmasına baxmayaraq demək olar ki, onun fəaliyyəti hələ də obyektiv tədqiq olunmamışdır. Azərbaycanın paytaxtı Bakı şəhərindəki dağüstü parkda onun uzun müddət böyük heykəlinin olması, Bakının rayonlarından birinin, qədim Gəncənin uzun müddət onun adı ilə adlandırılması və s. tarixi səhv kimi aradan qaldırılsa da onun əməlləri haqqında obyektiv faktların öyrənilməsinə çox təəssüf ki, hələ də lazımi fikir verilmir. Onun haqqında sovet tarixşünaslığında yazılan əsərlərdə bu şəxs əsasən müsbət rəhbər işçi kimi xarakterizə edilmişdir. Fikrimizcə bunun əsas səbəblərindən biri S.M.Kirovun sui-qəsd nəticəsində qətlə yetirilməsi və bu qəsddən müxtəlif şəxslərə qarşı repressiyalarda istifadə edilməsi də az rol oynamamışdır. Lakin yaddan çıxarmaq lazım deyildir ki, 1921-1926-cı illərdə Azərbaycan xalqına qarşı edilmiş cinayətlərin başında məhz S.M.Kirov durmuş və onun bu cinayətlərinin araşdırılaraq xalqa çatdırılmasına ciddi ehtiyac var.

Faktlar sübut edir ki, S.M.Kirov 24 iyul 1921-ci ildə Azərbaycana rəhbər təyin olsunsa da, aprel işğalında dərhal sonra respublikda yeridilən sovet siyasətinə əsas istiqamət verənlərdə biri olub. Onun müxtəlif tədbirlərdə etdiyi çıxışlar bunu deməyə əsas verir. O, I ümum Bakı partiya konfransındakı (5 may 1920-ci il) çıxışında deyirdi: "İkinci zərbə iri kapitala vurulmalıdır. Azərbaycanın indi malik olduğu bütün sərvətlərə, bütün qərbi Avropa ölkələrini şirnikləndirən hər şeyə, birinci növbədə bizim neft mədənlərinə-bunların hamısına fəhlə-kəndli sovet kommunist nişanı vurulmalıdır" (36,s.383)

Azərbaycanda işğalçı rejimin törədiyi faciələr ölkəni var-yoxdan çıxarmışdır. Məhz buna görə də S.M.Kirovun Bakı Sovetinin iclasında (11 aprel 1921) "Beynəlxalq və daxili vəziyyət haqqında" məruzəsindən sonra Azərbaycan İnqilab Komitəsinin "Bütün ərzaq inhisarı növlərinin ləğv edilməsi haqqında" (17 may 1921) dekreti ilə respublikada ərzaq sapalağının qalıqları ləğv edilərək müəyyən çərçivə daxilində ticarət azadlığına imkan verilmişdi. Lakin bundan sonra Azərbaycan əhalisinin işğalçı rejim tərəfindən var-yoxdan çıxarılması daha

da güclənmişdir.

Sovet tarixşünaslığında göstərilir ki, Azərbaycan kəndliləri ağır vəziyyətdə olduqlarına görə, ərzaq vergisinin tətbiq edilməsi 1922-ci ilə qədər təxirə salınmışdı. Lakin həqiqətdə kəndlilərə ərzaq vergisi əvəzinə "çanaq" adlı könüllü vergi müəyyən olunaraq zor gücünə yığılması məsələnin yalnız formaca dəyişdiyini, mahiyyətin isə qaldığını göstərir. Azərbaycandakı vəziyyətin dözülməzliyi nəzərə alınmadan 1921-1922-ci illərdə əhalidən zorkılıqla yığılmış 13 min pud düyü və taxıl, 3000 arşın parça və 400 milyon manat pul Rusiyanın aclıq çəkən Saratov, Saritsın və Həştərxan quberniyalarına göndərilməsi sovet tarixşünaslığında qardaşlıq yardımı kimi qiymətləndirilmişdi.(577,s.277)

AK(b)P MK siyasi və təşkilat bürosu 31 iyul 1921-ci il tarixdə könüllü "çanaq" verilməyən yerlərdə onun məcburi toplanması, Azərbaycan MİK isə həmin il sentyabrın 18-də bütün ölkə ərazisində hər ev başına deyil, adam başına "çanağın" məcburi yığılması haqqında qərar qəbul etmişdi. 1922-ci ilin mart-aprel aylarında isə "çanaq" ləğv olunaraq ərzaq vergisi tətbiq olunmağa başlanmışdı ki, bu da elə bir ciddi dəyişiklərə gətirib çıxarmamışdı.

SSRİ-nin təşkili prosesində S.M.Kirovun rəhbərlik etdiyi Azərbycan KP-nin başqalarından fərqli olaraq öz razılığını daha tez bildirməsi Azərbaycanın "müstəqilliyinin" başqa respublikalardan daha çox formal xarakter daşıdığını sübut edir. Gürcüstan KP MK 15 sentyabr 1922-ci il tarixdə Stalinin respublikaların muxtariyyət formasında RSFSR-in tərkibinə birləşməsi tezislərinin əleyhinə çıxdığı halda, Azərbaycan KP bundan dörd gün əvvəl bu layihəni bəyənmişdi.

Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağda DQMV-nin təşkil edilməsində də S.M.Kirovun böyük rolu olmuşdu.

Kirovun rəhbərliyi altında Azərbaycan xalqının adət-ənənəsinə, tarixi abidələrinə böyük zərbə vurulmuşdur. 1924-cü ildə Azərbaycanda təşkil olunan "Allahsızlar cəmiyyəti" islam dininə qarşı xüsusi qəddarlıqla mübarizə apararaq dindarlara qarşı müxtəlif vəhşiliklər törətməklə yanaşı tarixi abidə olan məscidlərin də dağıdılmasına rəhbərlik etmişdir. (407,s.38-42)

M.S.İsgəndərovun 1965-ci ildə nəşr olunmuş "S.M.Kirov haqqında" kitabında bu şəxsin yalnız müsbət cəhətləri tədqiq olunub və onun Azərbaycan iqtisadiyyatının, mədəniyyətinin inkişafında böyük xidmətləri olduğu göstərilib. Lakin M.S.İsgəndərovun kitabından fərqli olaraq Z.Bünyadovun "Arxiv

sənədlərində (Azərbaycan diktatoru S.M.Kirov haqqında)" məqaləsində (107,16 mart 1991) bu şəxsin mənfi cəhətləri göstərilib və onun Azərbaycanda törətdiyi cinayət faktları açıqlanıb. Müəllif bu məqalədə ilk dəfə olaraq S.M.Kirovun Azərbaycanda törətdiyi cinayətləri faktlarla sübut etmişdir.

Sovet rejiminin 1920-1930-cu illərdə kəndlilərə qarşı yeritdiyi siyasət dəhşətli və amansız olmasına baxmayaraq S.M.Kirov bu siyasəti həddindən artıq liberal siyasət kimi qiymətləndirib. O bun münasibətlə yazırdı: "Kolxoz və kooperativ təşkilatları dövlət təşkilatları ilə bərabər tutmağın vaxtı çatıb. Əgər hər hansı bir şəxs kolxoz və kooperativ vəsaitlərini oğurlama meyil edirsə onu ən ağır cəzaya məhkum etməyə qədər cəzalandırmaq lazımdır. Əgər bir qədər cəzanı yüngülləşdirmək lazım gələrsə onda ən azı 10 il azadlıqdan məhrum etmə cəzası verilməlidir" (682, 6 avqust 1932)

Bundan sonra Xalq Komissarları Soveti 7 avqust 1932-ci ildə S.M.Kirov tərəfindən irəli sürülmüş "Dövlət müəssisələrinin əmlakının qorunması haqqında" qərar qəbul etdi. Xalq arasında bu qərar "Beş sünbül haqqında qanun" adlanırdı. Bu qanun hətta uşaqlarını yedirmək imkanı olmayan və taxıl biçinindən sonra tarlada qalan sünbül qalıqlarının toplayan çoxuşaqlı analara da şamil edilirdi. Onlar buna görə ağır cəzaya məhkum edilirdilər.

Bu cür cəhətlərinə görə S.M.Kirov1934-cü il yayın axırlarında aclıqdan əziyyət çəkmiş Qazaxstana taxıl tədarükünə rəhbərlik etmək üçün göndərilmişdi. O, bunu kütləvu repressiyalar vasitəsilə həyata keçirmişdi. Onun rəhbərliyi ilə yüz minlərlə məhbus sadə əmək alətləri ilə Ağ dəniz-baltik kanalının çəkilişində 20 ayda 200 km qazıntı işləri yerinə yetirmişlər.

V.C.Braçevin ""Akademik Platonov" işi" adlı məqaləsində qeyd olunur ki, S.M.Kirov Elmlər Akademiyası aparatında yoxlama aparan komissiyaya rəhbəri kimi 20 avqust 1929-cu il tarixdə Stalinə müraciət göndərib. Müraciətdə təhlükəsilik orqanlarını bu işə cəlb etmək üçün icazə verilməsi xahiş olunurdu. Bundan sonra qondarma "Akademik Platonov" işi hazırlanaraq akademiyanın 525 işçisinə qarşı cəza tədbirləri həyata keçirilib. Onlar akademiyadan qovularaq bir hissəsi sürgün edilib, bir hissəsi həbs olunaraq güllələnib. (499**,** №5,1989)

S.V.Volkovun tərtib etdiyi, Moskvada 2004-cü ildə. Rus dilində çap olunmuş "Rusiya xəritəsində yeri olmayan adların qara kitabı" kitabında da S.M.Kirovla bağlı bu cür faktlar öz əksini tapıb.

## L.İ.Mirzoyan, Ə.Qarayev, N.A.Ağaverdiev üçlüyü (21 yanvar 1926 -11 iyul 1929)

XX əsrin 20-30 illərinin təhlili göstərir ki, 1926-1929 və 1933-1934-cü illərdə faktiki olaraq Azərbaycana erməni milətindən olan L.Mirzoyan və R.Ruben rəhbərlik etmişlər. Bu dövrdə baş vermiş hadisələr, həmin şəxslərin göstərişi ilə Azərbaycan xalqına qarşı edilmiş cinayətlər çox təəssüf ki, bu günə qədər çox cüzi şəkildə araşdırılıb.

1926-cı ildə S.M.Kirovun mərkəzə çağırılaraq Leninqrada rəhbər vəzifəyə göndərilməsindən sonra AK(b)P MK-nın həmin ildə keçirdiyi növbəti plenumda yeni katiblik seçildi. Pəhbərlik Ə.Qarayev, N.A.Ağaverdiyev, L.Mirzoyandan ibarət üçlüyə tapşırılsa da hakimiyyət faktiki olaraq Levon Mirzoyanın əlində cəmləşmişdi. Bu rəhbərliyə R.Axundov da daxil idi. L.Mirzoyanın rəhbərliyi altında Azərbaycanda törədilmiş cinayətlərin miqyasının hələ də müəyyən edilməməsinin obyektiv və subyektiv səbəbləri vardır ki, bunların da aradan qaldırılmasının vaxtı artıq çoxdan çatmışdır.

L.Mirzoyanın rəhbərliyi ilə 1926-cı ildən başlayaraq ölkədə din və milli adət-ənənə əleyhinə geniş kampaniya aparılması elə dəhşətli nəticələrə gətirib çıxarmışdır ki, əhalinin geniş təbəqələri ilə yanaşı hətta partiya rəhbərliyində də ciddi narazılıqlara səbəb olmuşdur. XX əsrin 20-ci illərində AK(b)P daxilində Moskvanın Azərbaycanın daxili işlərinə qarışmasına, Rusiyadan gətirilmiş köçkünlərin respublikada məskunlaşmasına, dövlət idarələrinin ruslaşdırılmasına və s. qarşı açıq çıxanlar arasında rəhbər kommunistlər də olmuşdur. Bunlardan biri də Ə.Xanbudaqov idi.

L.Mirzoyanın əleyhinə partya rəhbərliyində qruplaşmanın yaranması rəhbərlikdə ziddiyyətlərin güclənməsinə səbəb oldu. Siyasi çəkişmələrə son qoymağı qərara alan Mərkəz 1929-cu ilin 11 iyulunda “Azərbaycan məsələləri haqqında” qərar qəbul edərək Ə.Qarayev, N.A.Ağaverdiyev, L.Mirzoyan üçlüyünü N.Gikalo ilə əvəz etdi.(407,s.43-44)

L.Mizəyanın rəhbərliyində təmsil olunan R.Axundov siyasi savadına görə digərlərtindən fərqlənirdi. O, kommunist ideologiyasının nəzəri əsaslarını köklü surətdə bilən nadir insanlardan idi. Respublikada sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan K(b)P MK-nın kəndlərdə iş üzrə şöbəsinin müdiri, partiyanın

Bakı komitəsinin katibi, “Kommunist” qəzetinin, “Bakinski raboçi”nin və digər dövri nəşrlərin redaktoru olur. 1924-1930-cu illərdə artıq Azərbaycan K(b)P MK-nın katibi, “Azərnəşr”in direktoru, respublika xalq maarif komissarı vəzifələrində çalışır. 1930-cu ildə ÜK(b)P Zaqafqaziya Vilayət Komitəsinin katibi seçilir. Daha sonra Mərkəzi Komitənin nəzdindəki Tarix İnstitutunda çalışır, Xalq Komissarlığında İncəsənət işləri üzrə idarənin müdiri vəzifəsini icra edir.

1929-cu ildə Azərbaycanda əlifba islahatı keçirilərkən, yəni ərəb əlifbasının latın əlifbası ilə əvəz olunmasında R.Axundovun böyük xidmətləri olub. Yeni Əlifba Komitəsinin orqanı olan “Yeni yol” qəzetinin səhifələrində xeyli məqalə ilə çıxış edib. Azərbaycan ədəbi dilinin inkişafına qayğı ilə yanaşıb, dilin saflığına, təmizliyinə çalışıb. O, Azərbaycan ədəbiyyatı klassiklərinin və şifahi xalq ədəbiyyatının öyrənilməsində mühüm işlər görmüşdür. Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsinə hazırlıq dövründə onun əsərlərinin nəşri, “Koroğlu” dastanının toplanması və çapı, eləcə də dastanın ən nadir əlyazmasının o zaman Tacikistanda işləyən M.D.Hüseynovun köməyi ilə Azərbaycana gətirilməsi R.Axundovun ədəbiyyatımız qarşısında əvəzsiz xidmətləridir.

R.Axundov dövlət vəzifələrindən əlavə tərcüməçilik və alimliklə məşğul olmuşdu. O, ana dilindən başqa rus, fars, ingilis, fransız dillərini mükəmməl bilirdi. Marksın, Engelsin və Leninin əsərlərini Azərbaycan dilinə ilk dəfə tərcümə edənlərdən biri olmuşdu.1920-1926-cı illərdə Ruhullanın rəhbərliyi ilə Azərbaycan dilində Leninin 26 əsəri 130,5 min nüsxə ilə çap olunur. 1927-1932-ci illər ərzində isə Marks və Engelsin 15 min tirajla 5 əsəri, Leninin 106 min nüsxə ilə 19 əsəri Azərbaycan dilində işıq üzü görür. 1928-1929-cu illərdə nəşr olunmuş ikicildlik rusca-azərbaycanca lüğətin redaktoru olur. Bundan əlavə, tarix, ədəbiyyat, incəsənət mövzusunda bir sıra dəyərli əsərlər yazır.(23,04 avqust 2015)

**N.F.Gikalo**
**(11 iyul 1929 - 4 avqust 1930)**

N.F.Gikalo əvvəllər Şimali Qafqaz ərazisində bir sıra rəhbər vəzifələrdə çalışmış və Azərbaycana gələnə qədər Özbəkistan KP MK-nın katibi olmuşdur. Mərkəz qarşısında yeni rəhbərliyə qarşı heç bir mübarizə aparmayacağı haqqında öhdəlik götürən köhnə rəhbərlik bir qədər sonra bu öhdəliyə əməl etmədi. Onlar tərəfindən AK(b)P X qurultayında N.Gikalo yeni şəraiti və yerli dili bilməməkdə, qolçomaqlara qarşı lazımi səviyyədə mübarizə aparmamaqda suçladırıldı və ona qarşı ciddi ittihamlar irəli sürüldü. Azərbaycana cəmi 1 il 1 ay rəhbərlik etmiş N.Gikalonu Mərkəz 1930-cu il avqustun 5-də “Azərbaycan məsələləri haqqında” ikinci qərar qəbul etməklə rəhbərlikdən uzaqlaşdırdı və o, 1938 - ci ildə repressiyaya məruz qaldı.

N.F.Gikalonun yerinə Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının (ÜİHİMŞ) ikinci katibi V.Polonski AK(b)P MK-nın birinci katibi təyin olundu.

**V.İ.Polonski**
**(18 avqust 1930 - 6 fevral 1933)**

V.Polonski öz işinə N.Gikalonu və Ə.Qarayev, N.A.Ağaverdiyev, L.Mirzoyan üçlüyünün fəaliyyətlərinin kəskin tənqidi ilə başladı. 1932-ci ilin yanvarında keçirilmiş AK(b)P-nin XI qurultayında əvvəlki rəhbərliyin səhvləri faktlarla göstərildi. Lakin bir qədər sonra rəhbərlikdə onun özünə qarşı da narazılıqlar artmağa başladı.

V.Polonskinin rəhbərlyi dövründə yüksək səviyyəli azərbaycanlı kadrlar respublikadan uzaqlaşdırıldığına görə rəhbər vəzifələrə əsasən erməni millətindən olan şəxslər təyin edilmişdi. Onun bu cür hərəkətləri yerli əhalinin haqlı narazılığına səbəb olmuşdu. Respublika daxilində olan bu narazılığı bəzi qüvvələr şəxsən V.Polonskiyə qarşı yönəldərək onun 1933-cü ildə rəhbərlikdən uzaqlaşdırılmasına nail oldular. Lakin V.Polonskinin əvəzinə partiyanın Moskva şəhəri Frunze rayon komitəsinin katibi, milliyyətcə erməni olan R.Rubenin təyin olunması ermənipərəst siyasətin daha qabarıq şəkildə aparılacağından xəbər verirdi. Onun bu vəzifəyə irəli çəkilməsində Serqo Orconikidzenin böyük rolu olmuşdur.

## R.Q.Ruben
## (6 fevral 1933-10 dekabr 1933)

"Bakinski Raboçi" qəzetinin 9 fevral 1933-cü il tarixli sayında R.Rubenin qısa tərcümeyi-halı dərc olunub. O, Azərbaycana rəhbər vəzifəyə gələnə qədər Şimali Qafqazda, Gürcüstanda və Moskvada rəhbər partiya vəzifələrində olmuş, "Zarya Vostoka" qəzetinə redaktorluq edib. R.Ruben Azərbaycanda rəhbər vəzifədə V.Polonskidən də az, cəmi 11 ay işləyib. Bundan sonra L.Beriyanın yaxından köməkliyi ilə Mir Cəfər Bağırov 1933-cü ilin dekabrında AK(b)P MK-nın birinci katibi təyin olundu və bununla da Azərbaycana rəhbərlikdə birinci şəxsin qeyri millətlərdən təyin olunması siyasətinə son qoyuldu. Bundan sonra AK(b)P-nin ikinci katiblərinin qeyri millətlərdən, özü də respublikadan kənardan təyin olunması siyasətinə keçildi ki, bu şəxslər də əsasən birinci katibin işinə nəzarət funksiyasını yerinə yetirirdilər.(407,s.45-47)

Fikrimizcə 1920-1930-cu illər Azərbaycana rəhbərlik etmiş şəxslər haqqında obyektiv tədqiqat işlərinin aparılması müstəqil Azərbaycan dövlətçiliyinin inkişafına yaxından köməklik göstərə bilər. Buna görə də bu sahədə tədqiqatların davam etdirilməsinə ciddi ehtiyac var.

Azərbaycan SSR-in 20-30-cu illər tarixinin öyrənilməsində 1987-ci ildə çapdan çıxmış "Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. Birinci cild. 1920-1937", 1990-cı ildə kollektiv müəlliflər tərəfindən nəşr olunmuş "Azərbaycan Kommunist Partiyasının 20-30-cu illər tarixinin bəzi məsələləri" və s. kitablar da faktların zənginliyi baxımından əhəmiyyətlidir.

Naxçıvan MSSR-in və DQMV-nin yaranması XX əsrin 20-ci illərin əvvəllərinə aid mövzular içərisində əsas yerlərdən birini tutur. Naxçıvan MSSR-ə S.Quliyev, Q.Mədətov, T.Köçərli, X.Vəzirov, A.Nadirov, H.Hüseynov, Y.Yusifov, Y.Qasımov və digər tarixçilər kitab və məqalələr həsr ediblər.(166, 206, 220, 265, 359 və s. )

Y.Yusifovun "Naxçıvan MSSR 25 ildə" məqaləsində (65,№5,1949) sovet tarixşünaslığının tələblərinə uyğun şəkildə Naxçıvanın 1924-1949-cu illər tarixi işıqlandırılıb. Müəllif Naxçıvanda bu dövrdə əsasən sovet hakimiyyəti üçün müsbət hesab etdiyi cəhətləri tədqiq edib.

Q.A.Mədətovun 1958-ci ildə nəşr olunmuş “Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in yaranması” kitabında XI qızıl ordunun işğalçı yürüşü Naxçıvan zəhmətkeşlərinin sovet hakimiyyəti uğrunda mübarizəsinə rus bolşeviklərinin köməyi kimi qiymətləndirilib. Müəllif alman-türk və ingilis-amerikan qoşunlarının bölgədəki fəaliyyətinə sovet Rusiyasının mövqeyindən münasibət bəsləyib. O, 1918-ci ilin axırlarında türk qoşunlarının məcburən Naxçıvandan çıxarkən Araz respublikasına kömək məqsədilə həmin ərazidə 5 zabit və 300 əsgər saxlamaqlarını onların işğalçı məqsədlərini sübut edən fakt kimi dəyərləndirib.

Kitabın ikinci hissəsi Muxtar Respublikanın yaranması və hüquqi statusu ilə bağlı məsələlərə həsr olunub.(265)

Naxçıvan MSSR-in yaranmasının 50 illik yubileyi münasibətilə 1974-cü ildə rus və azərbaycan dillərində X.Q.Vəzirov, C.B.Quliyev, Q.A.Mədətov və başqa tarixçilərin birgə yazdığı “Lenin milli siyasətinin yetişdirməsi”, 60 illik yubiley münasibətilə 1984-cü ildə yenə hər iki dildə C.B.Quliyev, Q.A.Mədətov, A.A.Nadirovun yazdığı “Sovet Naxçıvanı” kitabları, həmin ildə nəşr olunmuş “Naxçıvan MSSR” foto albomu və digər kitablar mövzunu öyrənmək üçün mühüm əhəmiyyət kəsb edir.(359)

Ə.Əliyevin 1990-cı ildə nəşr olunmuş “Qırmızı tabor” kitabında Naxçıvanda və Ermənistanda sovet hakimiyyətinin ilk illərində Abbasqulu bəy Şadlinskinin fəaliyyəti işıqlandırılıb.

Naxçıvanın sovet dövrü tarixinə aid sovet tarixşünaslığından fərqli kitab və məqalələri Azərbaycanın mühacir siyasi xadimlərindən olan H.Baykara, ölkə daxilində isə İ.Musayev, M.Əliyev və başqa tarixçilər yazıblar. (89,308,309, 310)

H.Baykaranın 1970-ci ildə Türkiyədə nəşr olunan “Türk kültürü” qəzetində dərc edilmiş “Naxçıvan məsələsi” məqaləsində 20-ci illərin əvvəllərində Naxçıvanla bağlı yaranmış gərgin siyasi vəziyyəti işıqlandırıb.

İ.M.Musayev “1917-1921-ci illərdə Naxçıvan bölgəsində ictimai-siyasi vəziyyət” məqaləsində və 1996-cı ildə çapdan çıxmış “ Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921)” kitabında problemi yeni faktlar əsasında tədqiq edib.(308)

M.B.Əliyevin 1993-cü ildə nəşr olunmuş “Qanlı günlərimiz” kitabında 1918-1920-ci illərdə Naxçıvanda baş vermiş erməni-azərbaycanlı qırğınları

haqqında yeni faktlar işıqlandırılıb.

DQMV-nin yaranması və sonrakı inkişafına P.Əliyev, İ.Əliyev, İ.S.Müslümov, K.Mehdiyev, R.İmanov, İ.M.Mosesova, E.Q.Sarkisov, Ş.Mkrtıçyan, B.Gevorkov və başqları kitab və məqalələr həsr ediblər. (114,116, 179,180, 260,304,431,596,604,651 və s. )

Bundan başqa N.R.Məmmədov 2011-ci ildə "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin tarixi(1923-1991)" mövzusunda dissertasiya müdafiə edib.

P.Əliyevin 1963-cü ildə çapdan çıxmış "Qarabağ bolşevikləri sovet hakimiyyətinin qələbəsi uğrunda" kitabında Azərbaycanın Qarabağ bölgəsində sovet hakimiyyətinin qurulması sovet tarixşünaslığına xas üsullarla qələmə alınıb. DQMV yaranmasının 60 illiyi münasibətilə İ.S.Müslümov, İ.M.Mosesova, E.Q.Sarkisovun rus dilində birgə hazırladığı "Sovet Dağlıq Qarabağı. Lenin milli siyasətinin təntənəsi" kitabı 1983-cü ildə çapdan çıxıb. Bu kitabda müəlliflər Lenin milli siyasətinin Azərbaycan SSR-də və onun muxtar qurumunda necə müvəffəqiyyətlə həyata keçdiyini, DQMV-də 49 millət və xalqın nümayəndəsinin mehriban ailə kimi yaşamasını, beynəlmiləlçilik ideyalarının, xalqlar dostluğunun həyatda özünə dərin kök saldığını faktlarla sübut etməyə çalışıblar. (116)

Kitabın "İnqilabi rus təqvimi ilə" başlıqlı birinci fəslindən başlayaraq Vilayətin 60 illik tarixi müsbət faktlarla, sovet tarixşünaslığına xas bir surətdə işıqlandırılıb. Kitabın sonunda 1970-1983-cü illər ərzində Vilayətin sənaye və kənd təsərüfatı sahəsində əldə etdiyi müvəffəqiyyətlər xüsusi cədvəllərdə rəqəmlərlə göstərilib. Kitabda millətlərarası münasibətlər sahəsində mövcud olmuş problemlər barədə söz açılmaması sübut edir ki, müəlliflərin əsas məqsədi obyektivlikdən uzaq, formal xalqlar dostluğunu təbliğ etmək olub. Bu cür formal yanaşma sonradan daha ciddi problemlərin ortaya çıxmasına, qondarma Dağlıq Qarabağ probleminin ortaya atılmasına və Ermənistan-Azərbaycan müharibəsinə gətirib çıxarıb.

R.İmanovun 1984-cü ildə nəşr olunmuş "Çiçəklənən diyar" adlı kitabı giriş və üç fəsildən ibarətdir. Kitabın giriş hissəsində müəllif yazır:"1920-ci il 28 aprel günü-Azərbaycanda sovet hakimiyyətinin qələbə çaldığı gün Dağlıq Qarabağın yeni tarixinə qızıl həriflərlə yazılmışdır.1923-cü ilin 7 iyul günü vilayətin tarixində xüsusi yer tutur. Həmin gün Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Dağlıq

Qarabağ Müxtar Vilayətinin təşkil olunmasını elan etmişdir...Oxuculara təqdim olunan bu kitabda Sovet hakimiyyəti illərində Dağlıq Qarabağ fəhlə, kolxozçu və ziyalılarının əmək hünərləri, Muxtar Vilayətində sosializm quruculuğu illərində baş verən köklü ictimai dəyişiklər, son üç beşillikdə iqtisadiyyat və mədəniyyətin inkişafı sahəsində Azərbaycan KP MK-nın rəhbərliyi altında vilayət partiya təşkilatının məqsədyönlü fəaliyyəti konkret materiallar əsasında işıqlandırılır.”

Kitabın “DQMV-nin yaranması xalqların Lenin dostluğunun təcəssümüdür” adlı birinci fəslində vilayətin yaranması tarixi qısa şərh olunur. Müəllif DQMV-nin yaranması ilə bağlı inqilabçı Həbib Cəbiyevin “Bakinski raboçi” qəzetinin 21 noyabr 1923-cü il tarixli sayında dərc edilmiş “Qarabağ məsələsi və bizim partiyanın növbəti vəzifələri” adlı məqaləsindən sitat gətirib. Həmin məqalədə deyilir:“Azərbaycan daxilində Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkil edilməsi üçün verilən dekretə görə Azərbaycan SSR hökümətinə minnətdarlığımızı və təşəkkürümüzü bildirməliyik. Ona görə ki, bu dekret azərbaycan və erməni zəhmətkeşləri arasında dostluq və qardaşlıq əlaqələrinin bərpası və daha da möhkəmləndirilməsi işində böyük rol oynayacaqdır.”

“Sosializm quruculuğu illərində vilayətin iqtisadi və sosial inkişafı” adlanan ikinci fəsildə Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 5 may və 15 dekabr tarixli dekretlərinə əsasən Dağlıq Qarabağda 117.560 desyatindən çox torpaq, 42.764 desyatin otlaq sahəsi və 140 min desyatindən artıq meşə zolağının milliləşdirilib zəhmətkeş xalqın istifadəsinə verilməsi, 1922-ci ildə 28 min desyatin torpaq becərilməsi və 5 ipəkçilik müəssəsinin istifadəyə verilməsi, 1925-ci ildə taxıl istehsalının inqilabdan əvvəlki səviyyənin 92,2 %-nə çatması, üzüm və tütün istehsalının isə 1921-ci ilə nisbətən 2,5 dəfə artması, 1922-ci ildə Şuşa pedaqoji texnikumunun açılması, 1937-1938-ci illərdə vilayətdə 191 ümumtəhsil məktəbinin fəaliyyət göstərməsi, 1925-ci ildə vilayətdə 241, 1939-cu ildə isə 1.796 müəllimin fəaliyyət göstərməsi və digər faktlar barədə məlumatlar verilib.(180)

C.Quliyevin “Dağlıq Qarabağın yaranması tarixindən” adlı məqaləsində (65,№3,1973) daşnak quldur dəstələrinə qarşı ermənilər və müsəlmanlardan ibarət beynəlmiləl dəstənin igidliklə vuruşmasını, 1921-ci il iyunun 27-də Azərbaycan K(b)P MK bürosunuu Dağlıq Qarabağ məsələsini bir daha müzakirə edərək Dağlıq Qarabağın coğrafi-inzibati və iqtisadi cəhətdən respublikanın ayrılmaz bir hissəsi olduğundan, onun Azərbaycan SSR-in tərkibində qalmasını məqsədəuyğun hesab

etməsini, 1923-cü il iyunun 23-də Azərbaycan K(b)P MK Rəyasət Heyətinin qərarı ilə bir inzibati mərkəz olmaqla Qarabağın-Dağlıq Qarabağ və Qarabağ kimi adlandırılmasının məqsədəuyğun hesab etməsini və nəhayət DQMV-nin təşkili haqqında Azərbaycan MİK-in 7 iyul 1923-cü il tarixli dekretini geniş şərh edib.

İ.Əliyevin 1989-cu ildə nəşr etdirdiyi "Dağlıq Qarabağ. Tarix. Faktlar. Hadisələr" kitabı və D.Quliyevin redaktəsi ilə həmin il, rus dilində nəşr olunmuş "Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkil edilməsi tarixinə dair. 1918-1925. Sənədlər və materiallar" kitabı mövzunu tədqiq etmək üçün mənbə kimi əhəmiyyətlidir. Bu kitablarda olan sənəd və materiallar əvvəlki illərdə yazılmış kitablardakı materiallardan öz dəqiqliyinə görə fərqlənir.(114, 599)

Azərbaycanın bir qrup tarixçisinin iştirakı ilə "Partiya həyatı: 20-ci illərin problemləri" mövzusunda keçirilmiş "Dəyirmi masa"-nın materiallarının (204, 24 avqust 1989) Azərbaycanın 20-ci illər tarixinin öyrənilməsində müəyyən rolu var. Bu tədbirdə bir sıra alimlər 20-ci illər problemlərinə əvvəlki illərdən fərqli münasibət bəsləyiblər.

Vətəndaş müharibəsindən sonra iqtisadiyyatın bərpası, sosialistcəsinə sənayeləşmənin həyata keçirilməsi və 20-30-cu illər fəhlə sinfinin fəaliyyəti, fəhlə-kəndli ittifaqı, fəhlə sinfinin kəndli sinfinə və ya şəhərin kəndə hami köməyinə aid X.Əlmirzəyev,Y.A.Tokarjevski, X.Əliyev, A.A.Məmmədov, A.Atakişiyev, B.S.Qurbanov, V.A.Quliyeva, Ş.M.Şərifov, N.O.Osipova, Ə.K. Şirinova və başqa tarixçilər müxtəlif məqalə və kitablar həsr ediblər.(19, 119,126,249, 565, t.14,1960, №1, 1988, s.43-49;740,742 və s.)

X.A.Əliyev 1961-ci ildə "Azərbaycan Kommunist Partiyası sosializm quruculuğu illərində fəhlə sinfi ilə kəndlilərin ittifaqının möhkəmləndirmək uğrunda mübarizəsi (1920-1937-ci illər)" mövzusunda doktorluq, Ə.P.Əliyev 1966-cı ildə "Kapitalist neft inhisarlarına qarşı mübarizə və sovet neftinin dünya bazarına çıxması tarixi (1920-1937-ci illər)" mövzusunda doktorluq, A.M.Atakişiyev 1957-ci idə "Kommunist Partiyasının xalq təsərrüfatının bərpası dövründə fəhlə sinfi ilə kəndlilərin ittifaqının möhkəmləndirmək uğrunda mübarizəsi (1921-1925-ci illər)" mövzusunda namizədlik, Ə.İ.Abdullayev 1966-cı ildə "Dəmir yol nəqiliyyatı xalq təsərrüfatının bərpası dövründə (1921-1926-cı illər)" mövzusunda namizədlik və başqa müəlliflər problemə aid müxtəlif mövzularda dissertasiyalar müdafiə ediblər.

M.Mirhadiyevin 1973-cü ilədə nəşr etdirdiyi "Kapitalizmdən sosializmə keçid dövründə Azərbaycanda proletar diktaturası dövlətinin təşkili və inkişafı (1917-1937-ci illər)" kitabı və bu mövzuda müəllifin yazdığı digər kitablarda (300,302,303) əsas məqsəd keçid dövrünün müvəffəqiyyətlə başa çatmasını sübut etməkdən ibarət olub. Lakin müəllif 20-30-cu illər keçid dövründə baş vermiş faciələr, kütləvi qanun pozuntuları və onların əsl səbəbləri barədə heç bir fikir bildirməyib. Digər müəlliflər kimi sovet rejiminin formal cəhətlərini M. Mirhadıyev həqiqət kimi qələmə verməyə çalışıb. Müəllif A.Milmanın 1971-ci ildə rus dilində nəşr olunmuş "Azərbaycan SSR SSRİ-nin tərkibində suveren respublikadır" kitabındakı(641) fikirləri yeni faktlarla sübut etməyə çalışıb.(303)

D.Qüdrətovun 1970-ci ildə "Sosializm quruculuğu dövründə sovet respublikaları ilə iqtisadi və mədəni əməkdaşlıq (1920-1937-ci illər)" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası və 1973-cü ildə çapdan çıxmış "Azərbaycanın qardaş respublikalarla iqtisadi və mədəni əməkdaşlığı (1920-1932-ci illər)" kitabında (253) əlaqələrin kökünü hələ sovet hakimiyyəti qurulmamışdan əvvəl, Azərbaycan bolşevikləri ilə Rusiyanın digər bölgələrinin partiya təşkilatları arasında mövcud olan beynəlmiləl əlaqələrdə axtarırdı. Fikrimizcə bu əlaqələrin yaranmasının əsas səbəblərini sovet hakimiyyətindən əvvəl Rusiya imperiyasının əraziləri kimi bu bölgələrin eyni iqtisadi məkana daxil olması, əhalinin isə eyni dövlətin vətəndaşları kimi fəaliyyət göstərməsi, sovet hakimiyyəti qurulduqdan sonra isə kommunist rejiminin üsul-idarəsinə uyğun olaraq yuxarıdan diqtə ilə, planlı surətdə iqtisadi və mədəni əlaqələrin yaradılmasında axtarmaq daha düzgün olar.

SSRİ-də sosialistcəsinə sənayeləşmə və elektrikləşməyə aid P.B.Jibarev, D.Q.Jimerin, V.S.Lelçuk və başqa tarixçilərin kitab və məqalələri nəşr olunub.(554,555,621,691 və s.) Bundan başqa V.S.Lelçuk SSRİ-də sosialistcəsinə sənayeləşmənin tarixşünaslığına, V.N.Kotova 20-30-cu illər tarixşünaslığına, B.İ.Maruşkin sosializm quruculuğunun burjua tarixşünaslığının tənqidinə, İ.N.Oleqina SSRİ-nin sənayeləşməsinin ingilis və amerikan tarixşünaslığına aid ayrıca kitablar həsr ediblər.(605,622, 637,666)

Azərbaycanda sosialistcəsinə sənayeləşmən problemini öyrənmək üçün 1957-ci ildə rus dilində çapdan çıxmış "Azərbaycanın sosialist sənayeləşməsi (1926-1932-ci illər). Sənədlər və materiallar" kitabı mənbəşünaslıq və tarixşünaslıq

baxımından dəyərlidir. Bundan başqa Azərbaycan alimlərindən S.Qəndilov, A.Hüseynov, T.Köçərli və başqaları sosialist sənayeləşdirilməsinə aid məqalə və kitablar həsr ediblər. (204,27 oktyabr 1989,229,528,606,723 və s.)

L.Əsgərovun Azərbaycan Dövlət Universitetinin nəşriyyatı tərəfindən dərs vəsaiti kimi 1986-cı ildə nəşr olunmuş kitabı 1926-1932-ci illər Azərbaycan SSR-in xalq təsərrüfatının inkişaf tarixinə həsr olunub.(145) Mülkü tarixə aid altı fəsildən ibarət bu kitabın demək olar ki, hər səhifəsində çoxlu sayda faktlar verilməsinə baxmayaraq mənbələr göstərilməyib. Azərbaycanla bağlı faktların mənbələri verilmədiyi halda kitabda qeyd olunmuş 19 mənbədən K.Marks və F.Engelsin əsərlərinə 4, V.İ.Leninin əsərlərinə 5, Sov.İKP-yə 3, Azərbaycan KP-yə aid sənədlərə 1, Azərbaycan KP-nin orqanı olan qəzetlərə 5 mənbə aiddir. Azərbaycanla bağlı faktların mənbələrinin qeyd olunmaması kitabın elmi dəyərinə xələl gətirməklə yanaşı, həmin dövrdə müəlliflərin tədqiqatlara qeyri-ciddi münasibətini ortaya çıxarır.

T.Köçərli 1979-cu ildə rus dilində çapdan çıxmış “Bakı neftçilərinin birinci beşillikdə qəhrəmanlığı” adlı kitabında 1928\1929-1932\1933-cü illərdə Azərbaycan neftçilərinin əldə etdiyi naliyyətləri faktlarla işıqlandırılıb.

A.A.Məmmədovun 1964-cü ildə nəşr olunmuş “Azərbaycan fəhlə sinfi birinci beşillikdə (1928-1932)” və 1975-ci ildə çapdan çıxmış “Azərbaycanda Staxanov hərəkatı” adlı kitabları, bunlardan başqa müəllifin 1980-ci ildə “Azərbaycan fəhlə sinfi 1926-1941-ci illərdə” mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası, S.S.İbrahimovun 1975-ci ildə “Azərbaycan Kommunist Partiyası fəhlə sinfinin əmək və siyasi fəallığının yüksəldilməsinin təşkilatçısıdır (1926-1932-ci illər) mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası və s. tədqiqat işləri Azərbaycanın 20-30-cu illər ictimai-siyasi vəziyyətinin öyrənilməsində, fəhlə sinfinin fəaliyyətinin tarixşünaslıq baxımından tədqiqində müəyyən əhəmiyyətə malikdir.

T.M.Ağayevin 1964-cü ildə “Ölkənin elektrikləşdirilməsinə dair Lenin planının Azərbaycan SSR-də həyata keçirilməsi (1921-1931-ci illər)” mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası problemin öyrənilməsində faktiki materiallar baxımından müəyyən əhəmiyyət kəsb edir. Azərbaycanda elektirikləşdirilmə prosesi iqtisadiyyata aid müsbət hadisə olsa da onun siyasiləşdirilməsi sovet tarixşünaslığında problemə aid yazılmış əsərlərin

çatışmayan cəhətlərindəndir.

S.T.Qəndilov, T.Köçərli və başqa tədqiqatçılar sosializm quruculuğu dövründə kommunist partiyası daxilində müxtəlif fraksiyalara qarşı aparılan mübarizəyə ayrıca məqalə və kitablar həsr ediblər.(230,231,232,233,499, №5,1963)

S.T.Qəndilov 1957-ci ildə "Sov. İKP-nin öz sıralarının birliyini qoruyub möhkəmləndirilməsi uğrunda mübarizəsi (1926-1929-cu illər)" mövzusunda namizədlik, 1966-cı ildə "Sosializm quruculuğu illərində Azərbaycan Kommunist Partiyasının ideya və təşkilatca möhkəmlənməsi (1920-1932-ci illər)" mövzusunda doktorluq dissertasiyaları müdafiə edib. Müəllif hər iki elmi işdə kommunist partiyası daxilində gedən ideoloji mübarizəni faktlarla işıqlandırıb ki, bu da dövrün tədqiqində mühüm əhəmiyyətə malikdir.

Sovet tarixçilərinin tədqiqi etdiyi mövzularından biri kənd təsərrüfatının kollektivləşdirilməsi mövzusudur.

Rusiyada kooperasiyanın təşkilinə dair M.İ.Tuqan, A.Çayanov, N.İ.Buxarinin və başqa alimlərin kitabları nəşr olunub.(476,751,757) Bu kitablarda kooperasiyanın müxtəlif formaları və kollektiv təsərrüfatın inkişafı üçün zəruri olan amillər göstərilib. Bu əsərlərdə diqqəti cəlb edən əsas cəhətlərdən biri odur ki, bu alimlər kooperativ təsərrüfatın inkişafını ölkədə müxtəlif təsərrüfat formalarının paralel inkişafında və bunların azad rəqabətində görürdülər. Faktlar göstərir ki, bu kitablarda irəli sürülən ideyalardan kapitalist ölkələrində səmərəli istifadə edildiyi halda SSRİ-də bu ideyalara və onların müəlliflərinə düşmən münasibət bəslənilib.

Kənd təsərrüfatının kollektivləşdirilməsinə aid SSRİ miqyasında sovet alimləri tərəfindən çoxlu sayda kitablar yazılıb.(621,724,753 və s.) Bu mövzu Azərbaycan tarixçilərinin də diqqət mərkəzində olmuş, bir sıra alimlər, o cümlədən X.O.Əlimirzəyev, X.Əliyev, İ.Qurbanov, A.Xəlilov, M.N.Abbasov, H.Bağırov və başqa tarixçilər bu mövzuya bir çox məqalə və kitablar həsr ediblər .(117,118,127,131,132,432,755 və s.)

Azərbaycanda Moskvanın göstərişi ilə kənd təsərrüfatının kollektivləşdirməsinin digər Qafqaz respublikalarına nisbətən sürətlə getməsi haqqında hələ 20-ci illərdə nəşr olunan kitablarda da bəzi faktlar var. İ.Reznikovun 1929-cu ildə rus dilində çapdan çıxmış "Azərbaycan kolxozları 1928-ci ildə" kitabında qeyd olunub ki, 1928-ci ilin hesabatına görə Ermənistanda kollektivləşmə

0,7 % -ə , Gürcüstanda 0, 9 % -ə , Azərbaycanda isə 1,3 %-ə bərabər idi.

Problemi dərindən tədqiq edən X.O.Əlimirzəyev 1953-cü ildə “Kommunist Partiyasının 1930-1934-cü illərdə kənd təsərrüfatı uğrunda mübarizəsi” mövzusunda namizədlik, 1961-ci ildə “Azərbaycan Kommunist Partiyasının kəndin sosialistcəsinə yenidən qurulması uğrunda mübarizəsi (1920-1937-ci illər)” mövzusunda doktorluq, H. Bağırov 1960-cı ildə “Leninin kooperativ planı və onun ümumdünya tarixi əhəmiyyəti” mövzusunda namizədlik, M.N.Abbasov “Azərbaycan Kommunist Partiyasının kənd təsərrüfatı kadrlarının hazırlanması uğrunda mübarizədə (1928-1937-ci illər)” mövzusunda namizədlik və digər müəlliflər bu mövzuda bir sıra dissertasiyalar müdafiə ediblər.

A.K.Qurbanovun 1961-ci ildə “Azərbaycan Kommunist partiyasının kənd təsərrüfatının elliklə kollektivləşdirilməsi dövründə Sovetlərin kənddə möhkəmləndirilməsi uğrunda mübarizəsi” adlı kitabı nəşr olunub.(248)

Kitabda Azərbaycanda kolxozların təşkilində Kommunist partiyasının rəhbərliyi ilə sovetlərin fəaliyyəti tədqiq olunub, proletar diktaturasının bir forması olan sovetlərin fəhlə sinfi ilə yanaşı, zəhmətkeş kəndlilərin də mənafeyini müdafiə etməsinə dair faktlar açıqlanıb.

Y.Yusifovun 1967-ci ildə çapdan çıxmış “Sovxozların təşkili və inkişafı sahəsində Azərbaycan Kommunist partiyasının fəaliyyəti (1920-1965-ci illər)” kitabında kənd fəhlə sinfinin formalaşdırılması, kolxozlarla yanaşı sovxozların təşkil olunması sahəsində Azərbaycan KP-nin gördüyü işlər müsbət mənada işıqlandırılıb. Müəllif kənddə dövlət təssərrüfatı kimi fəaliyyət göstərən sovxozların işində olan çatışmazlıqlara, neqativ hallara tənqidi münasibət bəsləməyərək, müqayisəli elmi təhlil aparmayaraq, yalnız quru və qeyri-real rəqəmləri sadalamaqla kifayətlənib. Müəllif 1969-cu ildə eyni mövzuda doktorluq dissertasiyası müdafiə edib.

K.Muxtarov Azərbaycan kənd təsərrüfatında 1920-1929-ci illərdə mövcud olmuş fəhlə sinfinin fəaliyyətinə aid dissertasiya, D.B.Qürbətov 1928-1932-ci illərdə kolxozların təşkili ilə yanaşı kənddə dövlət təsərrüfatı olan sovxoz quruculuğuna aid ayrıca kitab (254), M.H.Axundov 1933-cü ildən Böyük Vətən müharibəsinə qədərki dövrə qədər Azərbaycan fəhlə sinfinin aqrar dəstəsinin inkişafına aid məqalə həsr edib. (65,№ 3,1987,s. 10 -15,)

T.K.Babayeva 1971-ci ildə “Azərbaycan Kommunist Partiyasının sosialist kənd təsərrüfatının daha da inkişaf etdirilməsi sahəsində fəaliyyəti (1937-iyun

-1941-ci illər)" mövzusunda dissertasiya yazıb. Bu elmi işdə müəllif sovet statistikasına istinad edərək müxtəlif rəqəmlərin müqayisəsi ilə 1937-ci ildən Böyük Vətən müharibəsinə qədər kommunist partiyasının rəhbərliyi altında Azərbaycanda kənd təsərrüfatının inkişaf etdiyini qeyd edib. Lakin elmi işdə müəllifin bu dövrdə baş vermiş neqativ hallara, nöqsanlara münasibət bildirilməyərək yalnız özündən əvvəlki sovet tarixçilərinin kitablarındakı fikirləri təsdiq etməklə kifayətlənib.

Kənd təsərrüfatının ellikcə kollektivləşməsi və qolçomaqların bir sinif kimi ləğv edilməsi dövründə kənddə sinfi mübarizə kəskinləşmiş və bu siyasətə qarşı partiya daxilində N.İ.Buxarinin, A.İ.Rıkovun, M.P.Tomskinin rəhbərlik etdikləri sağ təmayül adlanan cərəyan çıxış etmişdi. Bu mövzuya sovet tarixçiləri bir sıra əsərlər həsr ediblər.(476,477,548 və s. )

Sovet tarixşünaslığında sağ təmayülə qarşı mübarizənin ideya mənbəyini İ.Stalinin müxtəlif əsərlərində və çıxışlarında tapmaq olar. İ.Stalin ÜİK(b)P XVII qurultayında "sağ" və "sol" təmayüllər haqqında demişdir: "Onlar tələb edirlər: sovxozlar buraxılsın, çünki gəlirli deyildir, kolxozların çox hissəsi buraxılsın, çünki bunlar şişirdilmişdir, qolçomaqları ləğv etmək siyasətindən əl çəkilsin, konsessiya siyasətinə qayıdılsın və bir sıra sənaye müəssisələri konsessiyaya verilsin, çünki bunlar gəlirli deyildir. Mənfur qorxaqların və təslimçilərin proqramı, SSRİ-də kapitalizmi bərpa etməyin əksinqilabi proqramı belədir!" (361,s.604-605)

Sovet tarixçiləri bu tezisləri öz əsərlərində inkişaf etdirərək 20-30-cu illərdə kommunist partiyası tərəfindən həyata keçirilmiş siyasətin düzgünlüyünü sübut etməyə çalışıblar.

Azərbaycanda sosializm quruculuğu illərində kəndə gedən sinfi mübarizə mövzusu da sovet alimlərinin tədqiqat obyekti olub. Bu mövzunu tədqiq edən alimlər içərisində E.İ.Məmmədovun əsərləri (280,281 və s.) başqalarından faktların zənginliyinə görə seçilir. Müəllif keçid dövründə Azərbaycan kəndində gedən sinfi mübarizəyə aid bir sıra məqalə və kitab yazıb. O, 1966-cı ildə "Sosializm quruculuğu dövründə Azərbaycan kəndində sinfi mübarizə (1920-1937-ci illər)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib və 1967-ci ildə "Elliklə kollektivləşmə illərində Azərbaycan kəndində sinfi mübarizə (1920-1937-ci illər)" adlı kitabı çapdan çıxıb. E.İ.Məmmədov əsərlərində keçid dövründə Azərbaycanda baş vermiş faciələrə sinfi mövqedən yanaşdığından və ümumiyyətlə bu məsələnin sovet dövründə obyektiv tədqiqi mümkün olmadığından hadisələrin

əsil mahiyətini göstərə bilməyib. Başqa sovet tarixçiləri kimi o da bu faciələrin əsil səbəbkarı kimi qolçomaqları ittiham edərək qolçomaqların əvvəl sıxışdırılması, sonra isə bir sinif kimi ləğv edilməsi siyasətinə haqq qazandırıb.

O.Q.Qüdrətov 1964-cü ildə "Xalq təsərrüfatının bərpası dövründə Azərbaycan kəndində sinfi mübarizə (1921-1925-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Müəllif elmi işdə sovet tarixşünaslığı metodlarına sadiq qalaraq proletar diktaturasının kənddə həyata keçirdiyi tədbirlərin düzgünlüyünü faktlarla sübut etməyə çalışıb.

SSRİ-də 1985-ci ildən sonra başqa mövzularla yanaşı, kənd təsərrüfatının kollektivləşməsi probleminə tənqidi yanaşan, o dövrdə buraxılmış səhvləri və cinayətləri ifşa edən çoxlu sayda məqalələr və kitablar yazılıb.(521,566,3 iyul 1993; 665, № 52,s. 23-25; 724,727, 728, 756)

1985-ci ildən sonra kənd təsərrüfatının zorakılıqla kollektivləşdirilməsi zamanı baş vermiş faciələr haqqında ilk dəfə olaraq mərkəzi mətbuatda çıxan məqalələrdə məlumatlar verilib. Məsələn, belə məlumatlardan birində qeyd olunur ki, 1932-ci ilin avqustundan 1933-cü il yanvarın 1-nə kimi "Sosialist əmlakının qorunması haqqında" qanuna əsasən 54.645 nəfər mühakimə olunub, onlarda 2.110 nəfəri güllələnib. Bunda əlavə  göstərilir ki, elliklə kollektivləşmə zamanı 13 milyon adam məhv olmuş, bunlardan da 7 milyonu acından ölmüşdü.(682, 16 sentyabr 1988)

V.A.Kozlov və Q.A.Bordyukovun "1929-cu il: Yeni iqtisadi siyasət nə üçün yığışdırıldı?" məqaləsi Azərbaycan dilinə təcrümə edilərək "Tarix, İctimaiyyət, Coğrafiyanın tədrisi" jurnalının  1989-ci il 2 saylı nömərəsində çap olunub. Müəlliflər yeni iqtisadi siyasətin üstünlüklərini, onun ölkə iqtisadiyyatının inkişafında müsbət təsirini faktlarla izah edərək, 1929-cu ildə bu siyasətin yığışdırılması və əvəzində azad rəqabəti aradan qaldıran sosialistcəsinə sənayeləşmə və elliklə kollektivləşməyə keçirilməsinin əsas günahını İ. Stalinin inzibati amirlik sistemində görmüşlər. Ümumiyyətlə 1985-ci ilin aprelindən sonra sovet dövrü tarixinə aid yazılan əksər məqalə və kitablarda sovet rejimi və onun yaradıcısı olan V.İ.Lenin deyil, yalnız ondan sonrakı liderlərin tənqid olunması onu göstərir ki, bu dövrdə də obyektiv tədqiqat üçün tam şərait yaradılmamış, yalnız yuxarıların müəyyən etdiyi hədlər daxilində nöqsanların tənqidinə icazə verilmişdi. Bu da o dövrdə hələ yaşamaqda olan sovet rejiminin müəyyən dəyişiklər

edilməklə qorunub saxlanmasına xidmət edirdi.

B.Xandrosun "Yunost" jurnalının 1990-cı il 12-ci sayında nəşr olunmuş "Ölüm səhifələri (Ukraynada 1932-1933-cü illər kütləvi aclıq haqqında)", L.Kapleyuşinin "Aclıq (1933-cü ilin dəhşətli aclığı haqqında)" (566,3 iyul 1993) və digər müəlliflərin məqalələri sovet tarixşünaslığında öz əksini tapması mümkün olmayan problemə, ellikcə kollektivləşmənin həyata keçirilməsi nəticəsində 1932-1933-cü illərdə Ukrayna, Volqaboyu və s. ərazilərdə baş vermiş kütləvi aclığa həsr olunub. Bu məqalələrdə göstərilən faktlardan məlum olur ki, kollektivləşmə heç də sovet tarixşünaslığında göstərildiyi kimi müvəffəqiyyətlə həyata keçirilməyib, əksinə kəndlilərə yeni-yeni faciələr gətirib. Hətta vəziyyət o qədər acınacaqlı olub ki, kütləvi aclıq nəticəsində çoxlu kəndlər boşalmış, acından insan yeyilməsi halları da baş verib.

Alma-Ata şəhərində 1988-ci ilin noyabrında "Orta Asiya və Qazaxstanda kənd təsərrüfatının kollektivləşdirilməsi" mövzusunda elmi-praktik konfrans keçirilib. Bu konfransı SSRİ-də aşkarlıq şəraitində kollektivləşməyə həsr olunmuş ilk tədbirlərdən biri hesab etmək olar. Konfransda tarixçi J.Abılxojin və demoqraf M.Tatimov "Qazaxstanda kollektivləşmə: dərsliklər nələr haqqında susur" mövzusunda çıxış ediblər. Bu çıxış konfransdan əvvəl Alma-Atada çıxan "Leninskaya smena" qəzetinin 19 oktyabr 1988-ci il sayında dərc olunub. Onların hesablamalarına görə 1930-1933-cü illərdə aclıqdan, xəstəliklərdən və digər səbəblərdən qazax əhalisinin 1,7 milyon nəfəri məhv olub. Bundan başqa respublikada həddini aşmış repressiv tədbirlərdən yaxa qurtarmaq üçün 1 milyondan artıq əhali Özbəkistana, Qırğızıstana, RSFSR-ə və xarici ölkələrə qaçıb.

V.P.Danilov "Kollektivləşmə: bu necə olmuşdur?" başlıqlı yazısında göstərir ki, aclıqdan ölənlərin sayını dəqiq göstərmək çox çətindir. Xarici sovetoloqlar elliklə kollektivləşmə dövründə 13 milyon kəndlinin məhv edildiyini, bunların da 7 milyon nəfərinin acından öldüyünü qeyd edirlər. Lakin müəllif bu rəqəmlərlə razılaşmayan və acından ölənlərin sayını 3-4 milyon nəfər göstərən qərb sovetoloqlarından Robert Devisin, Stiven Uitkrofun, Barbara Andersenin, Brayana Silverin fikirlərini müdafiə edir. (728)

Kollektivləşməyə son illər sovet tarixşünaslığından fərqli mövqedən yanaşan kitab və məqalələr Azərbaycan tarixçiləri tərəfindən də yazılıb.

(5,96,97,111,14 iyul 1989,317)

T.ü.e.d.,prof.C.M.Cəfərovun problemlə bağlı yazdığı kitablar (96,97) diqqəti xüsusilə cəlb edir. Onun "Azərbaycan kəndi kollektivləşmə illərində (1920-ci illərin sonu-30-cu illər)" adlı kitabı (96) girş 3 fəsil və nəticədən ibarətdir. Giriş hissəsində müəllif tərəfindən başqa məsələlərlə yanaşı Azərbaycan SSR-də əxlaqi statistikaya dair cədvələrdəki məlumatlara xüsusi yer verilmişdir. Bu cədvəllərə tənqidi münasibət bəsləyən müəllif qeyd edir ki, 1990-cı il məcmuəsinin daha dəqiq olmasına baxmayaraq onların real vəziyyəti tam əks etdirdiyini söyləmək olmaz. Cədvəldə 1925-ci ildə dövlət cinayəti olmadığı aydın olur. Bunu müəllif 1920-ci aprel çevrilişindən sonra antisovet üsyanları silah gücünə yatırılması və onların təkrar olunmaması üçün hərbi-polis reyimi yatratmaqla əlaqələndirir. Kitabda 1926-cı ilə dair Azərbaycan SSR-də intihar edənlərin sayı barədə verilən rəqəmlər maraq doğurur. Qeyd olunur ki, 1926-cı ildə respublika üzrə intihar edənlərin ümumi sayı 126 nəfər olmuşdur ki, onlardan da 75-i kişi, 51-i qadın idi. İntihar edənlərin 85nəfərinin (67,46% ) 18-39 yaş arasına təsadüf edir. Müəllif hesab edir ki, bu rəqəmlər Azərbaycan SSR-də siyasi-mənəvi durumu və ona qarşı reaksiyanı faktlarla sübut edir.(96,s.21)

"Azərbaycan kəndi kollektivləşməyə keçid ərəfəsində" adlanan I fəsildə müəllif 20-ci illərin axırlarında kommunust partiyasının kəndə müxtəlif mülkiyyət formalarının, o cümlədən kooperasiyanın müxtəlif formalarının azad rəqabətə əsasən fəaliyyət göstərməsinə imkan verməməsinin düzgün olaraq xüsusi mülkiyyətə düşmən olan rejimin mahiyyəti ilə əlaqələndirir. Müəllif qeyd edir ki, totalitarizmin güdən-günə gücləndiyi, qapalı sistemin formalaşmağa başladığı SSRİ-də 20-ci illərin axırı və sonradan 30-cu illərin axırlarında sovet vətəndaşları dünyadan təcrid olunduğuna görə onların başına gələn faciələrdə bəşəriyyət vaxtında xəbər tuta bilmədi. (96,s.50-51)

"Azərbaycan kəndində yeni siyasi kursun başlanması və gedişi" adlanan II fəsildə 1927-1928-ci illərin qışından başlayaraq 1940-cı ilə qədər dövrü əhatə edir. Bu fəsildə müəllif qeyd edir ki, qolçomaqlara qarşı mübarizədə faktiki olaraq ortabab kəndlilərin və hətta yoxsulların çox böyük kütləsinə qarşı da zorakılıqlar tədbiq edilirdi. Kəndlilərin çox böyük hissəsi ailələri ilə birlikdə torpaqdan, doğma yerlərdən ayrılmış, düşərgə və sürgünlərdə müsibət çəkir və həlak olurdular. (96,s.152)

“Yeni siyasi kursun yekunları” adlanan III fəsildə Azərbaycan kəndində siyasi repressiyalar və ona qarşı üsyanlar və kənd təsərrüfatının kollektivləşdirilməsinin nəticələri tədqiq olunub. Müəllif qeyd edir ki, XX əsrdə müxtəlif ölkələrdə etnik soyqırım, açlıq və müharibələr nəticəsində 170 milyon nəfər insan məhv olmuşdusa, onlardan 15 milyonu Stalin repressiyasının və Sovet hökümətinin “Qırmızı terror”unun payına düşür. Sovet hakimiyyətinin 73 illik hakimiyyəti zamanı təkcə dövlət cinayətlərində günahlandırılmış insanların sayı 9 milyon 853 min 900 nəfər olmuşdur ki, onlardan 2 milyon 117 min 995 nəfəri ağır cəzaya məhkum olunmuş və güllələnmiş, 5 milyondan artıq günahsız insanlar Sibirə, Qazaxstana və digər regionlara sürgün edilmiş, onların yarsından çoxu tələf olmuşdu. (96,s.161)

Kitabın nəticə hissəsində müəllif qeyd edir ki, ölkədə, o cümlədən azərbaycanda taxıl və digər kənd təsərrüfatı məhsullarının böyük hissəsinə qiymətlər bazar qiymətlərindən 10-12 dəfə aşağı təyin edilmişdi. 20-ci illərin axırı yeni iqtisadi siyasətdən imtina edilərək elliklə kollektivləşməyə keçilməsi tarixşünaslıqda öz əksini hələ də yetərincə tapmayan mərhumiyyətlər və faciələr gətirmişdi. (96,s.267)

C.M.Cəfərovun problemlə bağlı ikinci kitabı “Stalinizm və Azərbaycan kəndi” adlanır.(97) Kitab giriş, 3 fəsil və nəticədən ibarədir. Kitabın giriş hissəsində mövzu tarixşünaslıq baxımından geniş təhlil edilib.

“Azərbaycan kəndi:sovetləşmənin ilk sınaqları” adlanan bitinci fəsildə hərbi kommunuzm siyasətinin yeni iqtisadi siyasətlə əvəz olunması səbəbləri, kolxozların ildən-ilə artması, kəndə kommunist partiya özəklərinin möhkəmləndirilməsi, kadr siyasəti ilə bağlı məsələlərə aydınlıq gətirilir. I fəsildə kolxozların sayının artması ilə bağlı maraqlı faktlar da öz əksini tapıb. Müəllif qeyd edir ki, əgər Azərbaycanda 1927-ci ildə kolxozlarlın sayı 3000 təsərrüfatı birləşdirən 150 ədəd idisə, 1928-ci il üçün onların sayı 4,5 min təsərrüfatı birləşdirən 287 ədəd oldu. (97,36) Müəllif bu fəsildə yerli kadrların dövlət aparatında yerləşdirilməsi sahəsində mövcud olan nöqsanları Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının sənədləri əsasında tənqid edib. Həmin qurumun Azərbaycan SSR-in 8 kooperativ müəssisəsi və sovxozunda apardığı araşdırmadan aydın olub ki, bu müəssisələrin işçilərinin tərkibində 1928-ci ildə türklər (azərbaycanlılar-C.C.) 37,5% təşkil etdiyi halda1931-ci ildə 34% təşkil edirdi. O dövrdə Azərbaycanda Torpaq

Komissarlığının 42 işçisindən 17-si, Təchizat Komissarlığının 35 işçisindən cəmi 5 türk idi.(97,c.32)

"Stalinizm: Azərbaycan kəndində təzahürü və reallıq adalanan" ikinci fəsildə digər məsələlərlə yanaşı kolxozların sayının süni şəkildə artırılmasının əsas səbəbləri faktlarla göstərilib. Müəllif qeyd edir ki, 1929-cu ildə Moskvadan Azərbaycana xüsusi yoxlama briqadası göndərilməsi kolxozların sayının süni şəkildə artırılmasına səbəb oldu. Məsələn əgər 1930-cu il yanvarın 1-də respublikada11,6 min təsərrüfatı birləşdirən 525 kolxoz var idisə, yanvarın 15-nə kimi kolxozların sayı artıb 1497-yə, bu kolxozlarda birləşmiş təsərrüfatların sayı isə 74672-yə çatsa da bunların xeyli hissəsi kağız üzərində idi. Bunun nəzəri çəhətdən əsaslandırılması isə Stalinin "Böyük dəyişiklər ili" adlı məqaləsi oldu. Bundan az sonra keçirdilmiş ÜİK(b)P Mərkəzi Komitəsinin Plenumunda (10-17 noyabr 1929-cu il) qeyd olunurdu ki, sovet hökümətinin 12 ilində cəmi 400 mindən artıq kəndli təsərrüfatı kolxozlaşdırıldığı halda, yalnız təkcə 1929-cu ilin may-oktyabr aylarında bu rəqəm 3 dəfə artmışdır. (97,s.40-41) Dağlıq Qarabağda 1930-cu ilin yanvarın 1-dən martın 10-na kimi kollektivləşmə faizi 4,5%-dən 63%-ə qədər, Samux rayonunda 2,4%-dən 66%-ə qədər artdı. 1930-cu ilin fevral ayının ortalarına Bərdə dairəsində yaranan 134 kolxozdan 100-ə yaxını yalnız sənəddə mövcud idi.( 97,s.43)

"Kollektivləşdirilmiş kənd:siyasi kursun yekunları" adlanan III fəsildə qolçomaqların bir sinif kimi ləğv edilməsi və elliklə kollektivləşməyə keçilməsi ilə əlaqədar görülən tədbirlər, sovet rejiminə qarşı baş verən antisovet üsyanlar, sovet dövlətinin yeritdiyi vergi siyasəti haqqında ətraflı məlumat verilir. Müəllif qeyd edir ki, kollektivləşmənin sonrakı gedişində hamılıqla daxil olmasına baxmayaraq, şəxsi təsərrüfatlar ağır vergilərdən azad olmadılar. Şəxsi təsərrüfatda olan hər şey üçün: mal-qara, qoyun, keçi, ev quşları, hətta meyvə ağacları üçün belə kolxozçu-kənli vergi verməli idi. Bir toyuğun illik vergisi 60 yumurta idi. Belə vergi 50-ci illərin ortalarına qədər davam etmişdi.(97,s.65)

Kitabın nəticə hissəsində müəllif qeyd edir ki, kollektivləşmə və ondan sonrakı dövrdə aparılan repressiyalara aid sənədlərin yenidən araşdırılması nəticəsində məlum olmuşdur ki, qonşu respublikalara nisbətən Azərbaycanda bunun daha kəskin şəkil almasında rəhbər vəzifələrdə çalışan qeyri-azaərbaycanlılar mühüm rol oynamışlar. 1935-ci ildə AK(b)P MK üzvlərindən 26 nəfəri rus, 16

nəfəri erməni, 2 nəfəri yəhudi və 1 nəfəri gürcü olmuşdu. Digər qurumlarda vəziyyət bundan da acınacaqlı idi. (97,s.98)

C.Cəfərov 2010-cu ildə "Azərbaycan sovet kəndi XX əsrin 20-ci illərinin sonu-30-cu illərdə" mövzusunda dissertasiya müdafiə edərək, tarix üzrə elmlər doktoru adını alıb.

K.P.Nəbiyev "Azərbaycanda kollektivləşmənin müasir dövr baxımından bəzi məsələləri" adlı məqaləsində qeyd edir ki, 1929-cu ildə kolxozların qapısının varlı kəndlilərin üzünə bağlanması, fövqəladə qanunların zorla varlı kəndliləri sovet hakimiyyətinə düşmən etməsi, aqrar siyasətin sərt qanunları və yerli şəraitin nəzərə alınmaması kollektivləşməyə kəndlilərin marağını zəiflədirdi. 1929-cu ildə bütün təsərrüfatın yalnız 1,3%-i kolxozlara daxil olmuşdu ki, onların əkin sahələri də 1%-dən az idi. Müəllif daha sonra qeyd edir ki, kollektivləşmənin sərt qaydalarla həyata keçirilməsi, kolxoza daxil olmayanların sovet hakimiyyətinin düşmənləri hesab edilməsi, kolxozların kəndli təsərrüfatlarının var-yoxdan çıxması hesabına təşkil olunması, mal-qaranın, arıçılığın, ipəkçiliyin ictimailəşdirilməsi haqqında Azərbaycan K(b)P MK-nın fevral 1930-cu il qərarı, sonrakı illərdə kolxozların dəfələrlə iriləşdirilməsi və xırdalaşdırılması, kolxozların kütləvi surətdə sovxozlara çevrilməsi, kadr siyasəti və s. amillər böyük narazılıqlar yaradıb. Bu narazılıqlar hətta kommunist partiyasının öz daxilində də tənqid olunmasına baxmayaraq onların aradan qaldırılması sahəsində irəliləyiş olmayıb. Məsələn, Azərbaycan K(b)P-nin Bakı komitəsinin 1930-cu ilin mart plenumunda bu narazılıqlara münasibət bildirilərək qeyd edilib ki, "dairələrdən aldığımız məlumata görə kolxozsentrimiz yerlərə tapşırıq göndərərək hər bir şeyin: xoruzun, toyuğun, pətəklərin ictimailəşdirilməsini və kollektivləşdirilməsini təklif edib. Deyirlər hətta stəkan, nəlbəkilər də ictimailəşdirilməli idi." (317)

Müəllif kollektivləşmədə yol verilmiş nöqsanları tənqid etsə də əksər sovet tarixçisi kimi bu səhvlərin rejimin mahiyyətindən deyil, kooperasiyanın Lenin prinsiplərinin pozulmasından irəli gəldiyini qeyd edib.

C.Həsənov "Kollektivləşmə və tarixi həqiqət" məqaləsində sovet tarixşünaslığından fərqli mövqedən çıxış edərək mövzuya aid bəzi qaranlıq məsələlərə aydınlıq gətirib. (111,14 iyul 1989)

C.Həsənovun 1991-ci ildə nəşr olunmuş ""Ağ ləkə"lərin qara kölgəsi" kitabının "Həqiqətin qırmızı rəngi" adlı bölməsində kollektivləşmə dövrünə

tənqidi münasibət bəsləyərək problemin tarixşünaslığına münasibət də bildirib. Müəllif Azərbaycan kəndində aparılmış kollektivləşməyə münasibət bildirərək yazır: “Haqqında danışacağım tarixi dövr barədə hələ çox yazacaqlar, hələ çox doğrular üzə çıxacaq, çox yalanlar faş olacaq, “həqiqət” (!) utandığından qızaracaq... Elə ona görə də elliklə kollektivləşmə dövründə Azərbaycan kəndinin taleyi barədə bu qeydlərimi “həqiqətin qırmızı rəngi” adlandırıram.

Müəllif Azərbaycanda həyata keçirilmiş kollektivləşmənin sovet tarixşünasılığına tənqidi münasibət bəsləyərək yazır: “30-40-cı illərdə bir sıra məqalələri çıxmaq şərti ilə respublikada kollektivləşmə barədə ciddi tədqiqat yox idi. Yalnız 50-ci illərin ortalarında X.Əlmirzəyev, X.Əliyev, İ.Qasımov bu barədə ilk namizədlik dissertasiyaları yazmışlar. Sonrakı dövrlərdə isə qeyd edilən müəlliflərlə yanaşı Z.Şıxlinskinin, E.Məmmədovun, Ə.Dilbazovun, A.Xəlilovun və başqalarının 20-30-cu illər Azərbaycan kəndinin tarixi ilə bağlı tədqiqatları çap olunmuşdur. Obyektivlik naminə göstərilməlidir ki, X.Əlmirzəyev və E.Məmmədovun əsərləri problemə nüfuz edib dövrü əks etdirmək baxımından digər əsərlərdən fərqlənir. Lakin bununla belə birincisi: birtərəflilik, kollektivləşmənin yalnız uğurlarının əks etdirilməsi, kollektivləşmədən kənarda kənd təsərrüfatının inkişafının qeyri mümkünlüyünün əsaslandırılması indiyə qədər yazılmış əsərlərin hamısı üçün səciyyəvidir. İkincisi, partiyalılıq konteksində kəndli məsələsində milli ənənələrin arxa plana çəkilməsi, ümumilikdə bu amilin inkar edilməsi mövcud ədəbiyyatın zəif cəhətidir. Üçüncüsü, indiyə qədər Azərbaycan tarixçiləri tərəfindən daha çox “sərfəli” materiallar dövriyyəyə gətirilib, 20-30-cu illərin ziddiyyətli hadisələri, kənddə sinfi mübarizə, sosializm quruculuğundakı fikir ayrılıqları ilə bağlı mübahisəli materialların üstündən sükutla keçilib.

Bir sözlə, Azərbaycanda aqrar siyasəti səciyyələndirən ən mühüm cəhətlər, xüsusilə 20-30-cu illərdə tarixi ənənələrin, yerli şəraitin, təsərrüfat xüsusiyyətlərinin, kəndli psixologiyasının nəzərə alınmaması Azərbaycan sovet tarixşünaslığının çatışmayan cəhətlərindəndir. Daha sonra müəllif qeyd edir ki, Azərbaycan kəndində aqrar “inqilabın” aşağıdan deyil, yuxarıdan aparılması, bu “inqilabda” əsas sima olan kəndlinin mənafeyinin nəzərə alınmamasının kənd təsərrüfatının inkişafına mənfi təsir göstərməsi demək olar ki, tədqiqatdan kənarda qalmışdır. Problemlə bağlı yazılmış əsərlərdə yerli-yersiz təriflənən, bütün göstəricilərə görə mədh edilən Azərbaycan kəndində əslində pambıq istehsalını

çıxmaq şərti ilə digər kənd təsərrüfatı məhsulları istehsalı 1920-1940-cı illərdə əhali artımından xeyli geri qalırdı.

Azərbaycan tarixçi alimlərinin iştirakı ilə "Kollektivləşmə: "Yuxarıdan inqilab və reallığın acılığı" mövzusunda keçirilmiş "Dəyirmi masa"nın materiallarında bəzi alimlərin fikirləri sovet tarixşünaslığındakı fikirlərdən köklü surətdə fərqlənir. Məsələn, D.Qüdrətov yenidənqurma dövründə əksər tarixçilər kimi "yuxarıların" müəyyən etdiyi çərçivə daxilində məsələyə yanaşaraq elliklə kollektivləşmə xəttini Leninin göstərişlərinin Stalin tərəfindən təhrif olunması kimi qiymətləndirib. Lakin bu tədbirdə C.Həsənli problemin tarixşünaslığına fərqli yanaşaraq qeyd edib ki, "obyektiv və subyektiv səbəblər üzündən tarixi həqiqətdən uzaqlaşmaq, təhriflər kitablardan kitablara köçürülmüş, nəticədə elə bir şərait yaranmışdır ki, kollektivləşmənin tarixi tamamilə yenidən yazılmalıdır." (204,25 iyul 1990)

Sovet tarixşünaslığınnın əksinə olaraq Azərbaycanda həyata keçirilmiş elliklə kollektivləşməyə hətta Azərbaycan KP MK-nın iyun (1989-cu il) plenumu da tənqidi yanaşıb. Plenumda qeyd olunub ki, "ölkənin digər yerlərində olduğu kimi, Azərbaycan şəraitində də 2-3 ildə sürətli kollektivləşmə əsassız oldu, kəndlilər üzərində zorakılığa çevrildi... kooperasiya prinsipinin rüsvayçı şəkildə təhrif edilməsi ciddi iqtisadi və əxlaqi-mənəvi qüsurlara gətirib çıxarmışdı. Kolxozların saxta müstəqilliyi əslində onların hüquqsuzluğuna çevrildi, öz əməyinin nəticələrinə kəndlilərin marağının ölməsi ilə nəticələndi." (204, 24 iyun 1989)

Plenum kollektivləşmə zamanı yol verilmiş nöqsanları tənqid etsə də bu nöqsanların sovet rejiminin mahiyyətindən yaranmasını, kəndlilərin maddi marağının öldürülməsinin kommunist ideologiyasının xüsusi mülkiyyətə düşmən münasibətindən əmələ gəlməsini açıb göstərməyib. Ümumiyyətlə sovet hakimiyyətinin müxtəlif dövrlərinə sonradan kommunist partiyası tərəfindən müəyyən tənqidi münasibət bəslənsə də bu nöqsanların səbəbkarı kimi ayrı-ayrı subyektlər, rəhbər şəxslər ittiham olunub, rejimin mahiyyəti isə tənqiddən kənarda qalıb.

Azərbaycan tarixinin 1920-1930-cu illərinə aid son illər nəşr olunmuş kitablarda sovet tarixşünaslığında öz əksini tapmayan bir sıra məslələr haqqında obyektiv məlumatlar verilir. Belə məsələlərdən biri də sovet rejiminin 20-ci illərin

əvvələrindən başlayarq  zaman-zaman azərbaycan ərazilərinin ermənilərə verməsi məsələsidir. Bu proses 20-ci illərin sonları, kollektivləşmənin həyata keçirdiyi dövrdə də davam etmişdir.

A.Ə.Paşayevin "Ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (XIX-XX əsrlər)" kitabında qeyd olunur ki, "1929-cu il fevralın 18-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi öz iclasında qəbul etdiyi qərarla Cəbrayıl qəzasının üç kəndi-Nüvədi, Ernəzur və Tuğut, Naxçıvan MSSR-də isə 657 kv. km. ərazisi olan 9 kəndi öz torpaqları ilə birlikdə Ermənistan SSR-ə verir.  1930-cu ildə isə Əldərə, Lehvəz və Astazur kəndləri də Ermənistan SSR-ə verilmiş və həmin ərazidə Mehri rayonu yaradılaraq Naxçıvan MSSR ilə Azərbaycan arasında 45 km-lik bir məsafə yaradılmışdı.(330,s.68)

20-30-cu illərdə kommunist rejiminə qarşı ideoloji mübarizə ilə yanaşı silahlı üsyanlar da geniş vüsət alırdı. Silahlı üsyanlar haqqında tarixi ədəbiyyatda müxtəlif məlumatlar mövcuddur. Bəzi məlumatlara görə Azərbaycanda sovet hakimiyyəti əleyhinə 1923-cü ilə qədər 53, 1941-ci ilə qədər isə 200-ə qədər irili-xırdalı üsyan və silahlı çıxış  baş verib.(385,30 oktyabr 1990)

1929-cu ilin yazında zorakılıqla əhalidən taxıl yığımı sovet hakimiyyətinə qarşı qiyamları daha da artırıb. Bu il ərzində SSRİ üzrə 1300 kəndli qiyamları qeydə alınıb.(728,s.232)

M.Ə.Rəsulzadə kommunist rejiminə qarşı baş vermiş üsyanlar haqqında demişdir:"Bütün milli müəssisələr bağlanılır, milli ordu dağıdılır, ziyalılar öldürülür,...sinfi mübarizə alovlandırılır, ictimai nifrət qızışdırılır, qardaş qardaşa qarşı təhrik edilir, bir sözlə, məmləkət sovetləşirdi. Bütün bunlarla bərabər milli müqavimət davam edirdi və Azərbaycanın hər tərəfində qanlı hadisələr olurdu" (339,s.92)

17-18 mart 1930-cu il tarixdə kənd burjuaziyasının sıxışdırılmasına və ümumilikdə bu siyasətin kəndlilər üçün acı nəticələrinə etiraz olaraq Gəncə mahalının Bitdili kəndində (Hazırda Şəmkirin Yeniabad kəndi) "müqəddəs imamın zühuru" pərdəsi altında çox güclü xalq hərəkatı olmuşdur ki, bu hərəkat da lokal xarakter daşıdığına görə amansızcasına yatırılmışdı.(62,s.199)

1931-ci ilin ikinci yarsında qolçomaqların sıxışdırılması siyasətindən, bir sinif kimi ləğv edilməsi siyasətinə keçilməsi ilə mübarizə daha da kəskinləşib.

Azərbaycanın kənd rayonlarında sovet rejiminin yeritdiyi səhv

siyasət nəticəsində ölkəni yeni silahlı üsyanlar dalğası bürümüşdü. Bu silahlı üsyanlar haqqında sovet tarixşünaslığından fərqli məlumatları Z.Bünyadovun, C.Həsənovun, N.Yaqublunun, H.İsaxanlının, X.İbrhimlinin, M.Oruclunun, İ.Umudlunun, Ş.Nəzirlinin və başqa müəlliflərin kitab və məqalələrindən almaq olar. ( 5, 23,19 fevral 2000, 93, 224, 273, 313,19 fevral 1997, 386, № 3, 1998)

Z.Bünyadovun 1993-cü ildə nəşr olunmuş "Qırmızı terror" kitabında 1930-cu ilin əvvəllərində Azərbaycanın demək olar ki, bütün mahallarında hökümətin özbaşnalığı əleyhinə baş vermiş üsyanlar, Zaqatala, Şəki, Quba, Lənkəran, Qarabağ, Naxçıvan və başqa ərazilərdə üsyanların daha şiddətli olması haqqında məlumat verilir. Kitabdakı "1930-cu ilin faciəsi" başlıqlı yazıda müəllif arxiv materialları əsasında göstərilir ki, Naxçıvanda fəaliyyət göstərən Üçlüyün qərarı ilə 1930-cu il sentyabrın 22-dən oktyabırın 12-dək üsyançılara kömək göstərdiyinə və antisovet təbliğatına görə Keçili kəndindən 7 nəfər, Şahbuz kəndindən 7 nəfər, Baş Noraşendən 4 nəfər, Naxçıvan şəhərindən 28 nəfər, Əbrəkunis kəndindən 6 nəfər əmlakı müsadirə olunmaqla güllələnmiş, Naxçıvan şəhərindən 33 nəfər 5-10 il müddətinə azadlıqdan məhrum edilmiş, 16 ailə sürgün olunmuşdur. Güllələnmiş və məhkum olunmuş şəxslərin hamısı haqqında kitabda məlumat var. Bundan başqa kitabda həmçinin 1930-cu ilin iyun ayında Baş Siyasi İdarənin Qarabağ vilayət şöbəsinin erməni məmurları tərəfindən uydurulmuş saxta ittihamlara əsasən güllələnmiş Əsgər Qənbər oğlu Hacıyev haqqında da məlumat verilir.(93)

İ.Umudlunun "Azərbaycan Milli Mərkəzi" adlı silsilə məqalələrində 20-ci illərin sonlarında Bakıda fəaliyyət göstərmiş, sovet hakimiyyətini devirərək Xalq Cümhuriyyətini bərpa etməyi qarşısına məqsəd qoymuş təşkilatın fəliyyəti faktiki materiallar əsasında işıqlandırılıb. Təşkilatın yaranma səbələri haqqında Məlik-Aslanov belə demişdir: Biz bunlardan narazı idik: a) kənd təsərrüfatının zorakılıqla kollektivləşdirilməsi metodlarından və ümumiyyətlə kollektivləşdirmənin miqyasından; b) qolçomaqların təqib edilməsindən və ardınca onların bir sinif kimi ləğv edilməsi kursunun götürülməsindən; v) təhsil müəssisələrinə qəbul işinə sosial seçimlə yanaşılmasından; q) cəza orqanları tərəfindən görülən repressiv tədbirlərin kəskinliyindən.

Bütün bunlar birlikdə götürüldükdə bizə Azərbaycanın gələcəyinin qayğısına qalmağı diktə edirdi və bu qayğılanma bizi AMM-i yaratmağa sövq etdi."(294,15 iyul 2000)

Ş.Nəzirlinin "Şəki üsyanı" haqqında məqaləsində 1930-cu il aprelin 13-də baş vermiş üsyan haqqında sovet tarixşünaslığından fərqli olaraq obyektiv məlumat verib.(23,19 fevral 2000)

H.Manaflının 2002-ci ildə nəşr olunmuş "Şəki üsyanları", N. Eltəkinin 2001-ci ildə çapdan çıxmış "Qaçaq Abbas" kitablarından Şəkidə baş verən hadisələr haqqında dolğun məlumatlar əldə etmək mümkündür. B.Vahabzadənin 1991-ci ildə nəşr olunmuş "Şənbə gecəsinə keçən yol" kitabında da Qaçaq Abbas haqqında məlumat var.

H.Manaflı öz kitabında şifahi mənbələrdən istifadə edərək üsyana başçılıq etmiş Göynüklü Molla Mustafa Şeyxzadə ilə yanaşı, üsyanın bu vaxta qədər məlum olmayan iştirakçılarından İsmayıl Əfəndi, Rəsul Yüzbaşı, Yunis, Kərim, Qaçaq Abbasın silahdaşları Xudu İbrahim, Tanrıverdi Şərif, Nağdalı, Əhməd, Hümbət, Hidayət, Aslan, İsfəndiyar, Əşrəf, Kor Umar, Abdulla və başqaları haqqında məlumat verir. Kitabda həmçinin 1927-1939 -cu illərdə Şəki ərazisində sovert hakimiyyətinə qarşı mübarizə aparmış Zəyzidlı Xudu İbrahim Abdulla oğlu , Bideyizli Cəfər Mirzə oğlu, 1941-ci ilə qədər mübarizəni davam etdirmiş Vartaşenin (hazırda Oğuz rayonu) Muxas kəndindən Tapdıq Üzeyir oğlu Mikayılovun qaçaq dəstələri haqqında məlumat var.

B.Rəfiyevin 1993-cü ildə "Azərnəşr" tərəfindən nəşr olunan "İstila qurbanları" kitabında M.B.Məmmədzadənin "Odlu yurd" qəzetinin 1929-cu il 2-ci sayında dərc edilən "Azərbaycan həyat və mətbuatından" adlı məqaləsi yenidən çap olunub. Məqalədə "Sovetlərə seçkilər necə gedir?", "Milli ruh və milli tərbiyəyə qarşı cihad" başlıqlı yazılarda bolşeviklərin "Zarya Vostoka" və "Kommunist" qəzetlərinə istinadən Lənkəran, Salyan, Gəncə, Qazax, Tovuz, Şəki, Göyçay, Ağdaş, Quba və digər qəzalarda kəndlilərin sovetlərə seçkiləri boykot etdikləri, kommunistləri döyərək qovduqları, bir sıra yerlərdə isə öldürdükləri haqqında məlumatlar verilib. Məqalədə qeyd olunur ki, "Gəncə qəzasının Sərkar, Söran, Bəyəhmədli, Şamxor, Samux, Dəlilər, Dəliməmmədli və s. kimi nahiyələrində seçki zamanı və vuruşmalarda 13 kommunist öldürülmüş, ... Ağdamda bir çox kolxoz, sovxoz və sovet müəssisələri yandırılmış, bir neçə kommunist diri-diri yandırılmışdır. Lənkəran və Salyan tərəflərində 17 kommunist qətlə yetirilmişdir."

H.İsaxanlı "Qafqazda sovet terroruna qarşı 1928-1930-cu illər silahlı müqavimət hərəkatı haqqında" adlı məqaləsində (224,s.55-58) göstərir ki,

Qafqazda sovet terror aparatı tam gücü ilə işləyirdi. Bütün xalqlar terrorun qurbanı idi. Lakin müsəlmanlar, türklər (o zamankı azərbaycanlılar) daha ağır vəziyyətdə idilər. 1926-1927-ci təsərrüfat ilində adambaşına verginin miqdarı Ermənistanda 2 rubl 23 qəpik, Gürcüstanda 2 rubl 25 qəpik, Azərbaycanda isə 3 rubl 60 qəpik idi. Yenə həmin ildə varlı kəndlilərə düşən vergi payı Ermənistanda 23,25 %, Gürcüstanda 35,13 %, Azərbaycanda isə 45,62 % təşkil edirdi… 20-ci illərin ortalarından başlayaraq Azərbaycan rəhbərləri hər cür sovet təzyiq və terror üsullarının tətbiqində öndə idilər.

Daha sonra müəllif qeyd edir ki, 1930-cu il 30 yanvar tarixinə kimi Qarayazıdakı 17 kənddən 15-ində tam kollektivləşmə aparıldığı barədə məlumat verilib. Məhz bu rayon ən güclü üsyan yuvasına, Cənub-şərqi Gürcüstan, Şimali Ermənistan və Qərbi Azərbaycan ərazisində kolxoz hərəkatını iflasa uğradan, milis və orduya böyük tələfat verən hərəkatın mərkəzinə çevrilmişdi. Üsyana hətta Moskva rəhbərliyini də lərzəyə salmış İsaxan rəhbərlik edib. 1930-cu ilin əvvələrində Ermənistanda Ağbaba, Qızıl Qoç və s. kəndlərində müsadirə və həbslər başlamış, mütəşəkkil silahlı üsyan isə Kərbəlayi İsmayılın başçılığı ilə Vedibasar rayonunda baş vermişdi. Zəngəzur, Şəmsəddin də toqquşmaların içində idi.

Müəllif daha sonra Azərbaycanın daxilində baş vermiş üsyanlar haqqında məlumat verir. Məsələn o qeyd edir ki, Lənkəran ətrafında sərhəd qoşunları və milis qüvvələri ilə gərgin döyüşlər aparan dəstələrə Həsən İsa oğlu və Cankişi başçılıq edib. Gəncədə və Gəncəbasarda Məmməd Qasım, Hacı Axund və Rüstəmin dəstələri döyüşürdülər. Sovetlər üçün Naxçıvandakı güclü üsyanın böyük təhlükə doğurduğunu qeyd edən Q.Musabəyov xalqa rəsmi müraciət edib. Bu hadisə və əks effekt doğura bilən müraciət Tiflis və Moskvanı bərk narahat etdiyinə görə Q.Musabəyovun yazılı müraciəti yığışdırılıb. Təkcə 1930-cu ilin mart ayında Zaqafqaziyada 50-yə yaxın kütləvi silahlı üsyan qeydə alınmışdı ki, onların da 40-ı Azərbaycana, digərləri isə əsasən Gürcüstan və Ermənistanın türk əhalisinin yaşadığı ərazilərə aid idi. (224,s.56)

Azərbaycanda sovet rejimi əleyhinə milli-müqavimət hərəkatı, onun əsas formalarından olan qaçaqçılıq hərəkatı tarixçilər tərəfindən demək olar ki, çox az tədqiq olunub, sovet tarixşünaslığında isə bu məsələyə qərəzli yanaşılıb. Əgər tarixçilər son illər qaçaqçılıq hərəkatının əvvəlki dövrünə aid bir sıra əsərlər,

hətta tarixşünaslığına aid məqalələr həsr ediblərsə, çox az sayda məqalə istisna olunmaqla qaçaq hərəkatının sovet dövrü demək olar ki, ayrıca tədqiqat obyekti kimi öyrənilməyib. (224,313,16 fevral 1993; 402, 25 iyun 1991 və s.)

Sovet tarixşünaslığında kommunist rejiminə qarşı mübarizə aparmış şəxsləri xalqın gözündən salmaq üçün onlara “xalq düşməni”, “sinfi düşmən” və s. adlar verilərək fəaliyyətləri saxtalaşdırılıb. Sovet alimlərinin əsərinə tənqidi yanaşmaqla və yeni yazılan məqalələrə əsasən qaçaqçılıq hərəkatında iştirak etmiş mübariz insanların bəziləri haqqında məlumat əldə etmək olar. Bu mənbələrdən Lerikdə Şahverən Əsgər oğlu, Astarada Fəttah Rəsulov və Hüseyn Ramazanov, Tağıyev, Qarabağ və Kürdüstanda Gülmalı xan, Goranboyda qaçaq Musa, Şəki-Zaqatala bölgəsinin səkkiz rayonunda üsyana başçılıq etmiş molla Mustafa Şeyxzadə, polkovnik Bəhram bəy Nəbibəyov, Qaxlı Sadıq bəy Balacayev, Lahıclı qaçaq Cümşüd haqqında, bundan başqa Naxçıvanın Keçili kəndində, Xızı dairəsinin Ağdərə kəndində, Ağdamda, Gəncə okruqunun Bitdili kəndində, Ağdaş rayonun Piraza kəndində, Göyçay rayonunun Mollakənd kəndində və s. ərazilərdə qaçaqların fəaliyyəti haqqında məlumatlar əldə etmək mümkündür. (72,s.324;86,25fevral 1992;313,16 fevral 1993;360,s.147;386 və s.)

R.Salmanlının məqaləsində Gəncə Qəza Partiya Komitəsində katib işləmiş, sonradan repressiyaya uğramış Vəli Xuluflunun sovet rejiminə qarşı silahlı mübarizə aparan Şəmkir qaçaqlarının, o cümlədən, qohumu-Keçili qaçaqlarının başçısı Əbdüləlinin, qapanlı Gürzalının, qaracəmirli Eminli Tanrıverdinin, Ramazanoğullarının müdafiə etməsinə aid faktlar var. Məqalədə deyilir: “Gəncə Qəza Partiya Komitəsinin katibi Vəli Xuluflu ən məhdud dairədə gedən məsləhətləşmələrdən böyük yığıncaqlaradək söhbətlərdə, Həmid Sultanovun, İbrahim Əliyevin, inqilabi hökumətin digər üzvlərinin “qaçaqların yerinin öyrənilib, tutulub hökumətə təhvil verilməsi” təkliflərinə heç vaxt məhəl qoymamışdı. Bolşeviklərin çıraqla axtarıldığı kənddə-evlərinin həndəvərində, Kürqırağı ormanlarda gecələyən, bəzən ərzaq üçün Vəlinin ata-anasına, qardaşlarına müraciət edən qaçaqlar haqqında bir kəlmə də danışmamışdı, milli dəyər və adətlərə sadiq qalaraq susmağı üstün tutmuşdu.

Nəinki Gəncədə, ətraf kənd və rayonlarda da hamı bilirdi ki, Keçili qaçaqlarının başçısı Qaçaq Əbdüləli Vəli Xuluflunun yaxın qohumu idi. Vəlinin bacısı Əzət Qaçaq Əbdüləlinin böyük qardaşı, qolçomaq, qaçaqların himayədarı

Məşədi Çobanın həyat yoldaşı idi. Əzətin uşaqları bolşeviklərin qatı düşməni Qaçaq Əbdüləliyə əmi, bolşeviklərin hörmətli və nüfuzlu rəhbəri - Gəncə Qəza Partiya Komitəsinin katibi Vəli Xulufluya dayı deyirdilər. Məhz buna görə də Qəza Komitəsinin katibi - mötəbər vəzifə sahibi V.Xulufludan kommunistlər şübhələnir, hər addımına göz qoyurdular... Şübhələr doğru çıxdığından 1921-ci ildə partiya sıralarında “təmizləmə əməliyyatı” aparılanda Vəli Xuluflu etimadı və etibarı itirmiş adam kimi firqə üzvlüyündən çıxarılır.” ( 23,13 İyun 2014)

Sovet tarixşünaslığında kommunist rejiminə qarşı üsyanlar, qaçaq hərəkatı birtərəfli, düşməncəsinə işıqlandırıldığına  və problem ümumiyyətlə elmi şəkildə obyektiv tədqiq olunmadığına görə onun yenidən tədqiqinə ciddi ehtiyac var. Arxiv sənədləri, o vaxtkı hadisələrin canlı şahidləri və qaçaqların yaxınlarının yaddaşlarında hifz etdikləri şifahi materialları toplamaqla Azərbaycanda 20-30-cu illər qaçaq hərəkatını elmi şəkildə, hərtərəfli öyrənilməsi aktual  olaraq qalır.

Azərbaycan K(b)P VIII qurultayında (1927-ci il) kəndə mədəni-maarif işinin gücləndirilməsi, məktəblərin, qiraətxanaların, kəndli guşələrinin sayının artırılması irəli sürülüb, Azərbaycan K(b)P oktyabr (1928-ci il) plenumunda isə bir daha olaraq Azərbaycan kəndinə proletar təsirinin gücləndirilməsinin vacibliyi vurğulanıb.

Fəhlə sinfinin kəndlilərə və ya şəhərin kəndə hami köməyi mövzusuna B.Qurbanov, Ə. Dilbazov, N.Qədirova(Osipova), V.A.Quliyeva, T.Musayeva və başqa  alimlər bir sıra kitab və məqalələr həsr ediblər.(104, 249, 565, № 1,1988, s.43-49; № 1 1987,s.3-10;588 və s.)

Ə. Dilbazovun 1959-cu ildə nəşr olunmuş “Bakı fəhlələrinin Azərbaycan kəndlərinə köməyi (1920-1923)” kitabında Bakı fəhlələrinin kəndlilərə köməyi sovet tarixşünaslığına xas formada tədqiq olunub. (104) Müəllif işğaldan dərhal sonra kəndlərə göndərilən ərzaq dəstələrinin törətdiyi faciələr, şəhərdə aclıq çəkən proletariata əvəzi ödənilmədən ərzaq verməkdən imtina edən kəndlilərin əksinqilabçı damğası ilə məhv edilməsi və s. haqqında heç bir məlumat vermir. Bu hadisələri saxtalaşdıraraq fəhlə sinfinin kəndlilərər köməyi kimi təqdim edilməsi digər sovet tarixçilərinin əsərlərində də rast gəlinir.

V.A.Quliyevanın məqaləsində digər məsələlərlə yanaşı problemin tarixşünaslıq baxımından qısa, ümumi təhlili də aparılıb. Müəllif fəhlə sinfinin kəndə köməyi probleminin tədqiqatçıları çoxdan maraqlandırdığını, bu mövzunun

Azərbaycan tarixşünaslığında da müəyyən əksini tapdığını qeyd edib. O, göstərir ki, bir sıra müəlliflərin əsərlərində əsasən sovet quruculuğu və fəhlələrin sovetlərə seçkiqabağı kampaniyalarda iştirakı, onların kənd təsərrüfatının kollektivləşdirilməsində və qolçomaqların ləğv edilməsində rolu tədqiq edilib. Məqalədə əsasən mədəni-maarif müəssisələrinin yaradılması sahəsində Bakı fəhlə sinfinin kəndə hami köməyi işıqlandırılıb. Müəllif Bakı fəhlə sinfinin Azərbaycan kəndlilərinə mədəni-maarif sahəsində göstərdiyi yardımları işıqlandırmaqla yanaşı, kəndlilərin ehtiyaclarını öyrənmək üçün fəhlələrin istifadə etdiyi formaları da qeyd edib. Məqalədə kəndlilərin ehtiyaclarının öyrənilməsinin ən çox yayılmış formasının məktublaşmaq olduğu göstərilir. Müəllif qeyd edir ki, 1926-1927-ci illərdə kəndə 1713 məktub göndərilib və 1286 cavab alınıb. Müəllif cavab məktublarında əsasən kəndlilərin məktəblər, qiraətxanalar açmaq üçün fəhlələrdən kömək istədiklərini, bütün bu tədbirlərin fəhlə-kəndli ittifaqının möhkəmlənməsində mühüm rol oynadığını qeyd edir. Bundan başqa məqalədə hami köməyin digər forması, məzuniyyətdə olan fəhlələrin kəndə ezam olunması haqqında da məlumat verilib. Müəllif qeyd edir ki, 1926-cı ildə respublikanın qəzalarına 379, 1928-1929-cu illərdə isə 5 min fəhlə, 1931-ci ildə pambıq yığımı vaxtı 26 rayona bir ay müddətinə 25 mədəniyyət briqadası göndərilib.( 565, № 1,1987,s.3-10)

Z.Şıxlinskinin 1961-ci ildə çapdan çıxmış "İkinci beşillikdə Azərbaycanda fəhlə sinfi ilə kolxozçu kəndlilərin ittifaqının möhkəmləndirilməsi", 1965-ci ildə nəşr olunmuş "Azərbaycan kəndində sovet quruculuğu (1933-1937-ci illər)", 1975-ci ildə nəşr olunmuş "Azərbaycan kəndində sovet quruculuğu (1926-1932-ci illər)" kitabları, 1967-ci ildə "Azərbaycan kəndində sovet quruculuğu (1927-1937-ci illər)" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası və s. tədqiqatları 20-30-cu illər Azərbaycan tarixinin sovet tarixşünaslığının öyrənilməsində müəyyən əhəmiyyət kəsb edir. Lakin hər üç tədqiqat işində müəllif keçid dövrü problemlərinin müvəffəqiyyətli həlli barədə sovet mənbələrinə əsasən geniş məlumat verdiyi halda, həmin dövrdə buraxılmış səhvlər, kəndlilərin hüquqlarının kütləvi surətdə pozulması hallarına münasibət bildirməyib.

B.S.Qurbanovun 1960-cı ildə nəşr olunmuş "Azərbaycan kəndinə Bakı fəhlələrinin hami köməyi (1923-1934)" kitabında 20-30-cu illərdə Bakı fəhlələrinin kəndlilərə köməyi sovet mənbələrinə əsasən faktlarla verilib. Müəllif 20-30-cu

illərdə Azərbaycan kəndinin tamamilə geri qaldığını, yalnız Bakı fəhlələrinin köməyi ilə bu geriliyin aradan qaldırıldığını sübut etməyə çalışıb. (249)

N.Q.Qədirovanın (Osipova) rus dilində dərc olunmuş "Azərbaycan kəndində hami iş haqqında (1926-1929-cu illər)" məqaləsi digər sovet tarixçilərinin məqalə və kitablarından formaca fərqlənsə də məzmunca eyniyyət təşkil edir. (588)

1920-1930-cu illərdə ictimai təşkilatların fəaliyyətinə aid müxtəlif illərdə SSRİ miqyasında çoxlu sayda kitablar (478,681,687 və s.) yazılıb. Bu kitablar içərisində A.M.Valov və İ.A.Qarayevskayanın sənayeləşdirmə illərində sovet həmkarlar ittifaqlarının fəaliyyətinə aid yazdıqları monoqrafiya diqqəti cəlb edir. Monoqrafiyada ümumittifaq materialları əsasında həmkarlar ittifaqlarının kütlələrin əmək və yaradıcılıq fəallığının yüksəldilməsi sahəsində rolu, o cümlədən sosializm yarışının, istehsalat müşavirələrinin, planlaşdırmanın təşkilində iştirakı və qənaət rejimi uğrunda mübarizəsi işıqlandırılıb. Lakin kitabda həmkarlar təşkilatlarının işindəki mövcud nöqsanlardan bəhs olunmayıb ki, bu da kitabın yazıldığı mühit ilə izah oluna bilər. (478)

Azərbaycanda həmkarlar təşkilatlarının tarixi və fəaliyyəti haqqında 20-ci illərin müəlliflərinin kitablarını, o cümlədən 1925 və 1926-cı illərdə Azərbaycan həmkarlar təşkilatının 5 illik yubleyinə həsr olunmuş kitabları Azərbaycan tarixşünaslığında mövzuya aid yazılmış ilk əsərlər hesab etmək olar. (660, 685, 686, 689 və s.)

Sonrakı illərdə 20-30-cu illər həmkarlar təşkilatlarının fəaliyyəti Azərbaycan tarixçiləri tərəfindən az tədqiq olunub. R.A.Rəcəbovun 1971 və 1975-ci illərdə rus dilində nəşr olnmuş "Kütlələrin Lenin məktəbi" və "Azərbaycan ictimai təşkilatları və sovet dövlətinin idarə olunmasına kütlələrin cəlb edilməsində onların rolu (1920-1932-ci illər)" kitabları problemə aid yazılmış ən böyük tədqiqat əsərlərindəndir.

V.Həsənovun "Azərbaycan həmkarlar ittifaqlarlarının təşkilati cəhətdən möhkəmləndirilməsi və onların tərkibində dəyişiklər (1926-1932-ci illər)" adlı məqaləsində (65,№ 1,1988,s.35-42) həmkarlar ittifaqlarının inkişafı, onun sosial tərkibinin dəyişilməsi və fəhlə sinfinin sayının artması, həmkarlar təşkilatlarına partiya rəhbərliyinin bəzi xüsusiyyətləri və s. tədqiq olunub.

Azərbaycanda komsomol təşkilatlarının yaranması, sosialistcəsinə

sənayeləşmə və kollektivləşmə prosesində komsomolun fəaliyyətinə aid İ.Məmmədov, Q.Ağayev, M.Qazıyev, Ə.Bağırzadə, Ə.Ənnağıyev və başqaları kitab və məqalələr həsr ediblər.(8,83,84,135,284,285,591,615,630,695 və s.)

Prof. İ.Məmmədovun 1955-ci ildə rus dilində çapdan çıxmış "Komsomol kollektivləşmə uğrunda mübarizədə Kommunist Partiyasının etibarlı köməkçisidir", 1958-ci ildə nəşr olunmuş "Azərbaycan komsomolu sosializm qurmaq uğrunda mübarizə illərində", 1968-ci ildə çapdan çıxmış "Qəhrəmanlıq tarixindən səhifələr" kitablarında (284,285), bundan başqa 1973-cü ildə "Azərbaycan komsomolu sosializm qurmaq uğrunda mübarizədə Kommunist Partiyasının sadiq köməkçisidir (1926-1937-ci illər)" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyasında Kommunist Partiyasının siyasi xəttinə uyğun olaraq komsomol təşkilatlarının fəaliyyətini tədqiq edib. Lakin onun "20-30-cu illərdə gənclər hərəkatı məsələlərinə dair" adlı məruzəsi əvvəlki kitablarından keyfiyyətcə fərqlənir. Məruzədə müəllif bu illəri əvvəlki əsərlərində olduğu kimi böyük nailiyyətlər dövrü kimi xarakterizə etsə də, əsas diqqəti dövrün kəskin ziddiyyətləri və bağışlanılmaz səhvlərinə verib. Müəllif qeyd edir ki, böyük cəfa və çətinliklərə sinə gərən fəhlə-kəndli gənclər elə fikirləşirdilər ki, 10-15 ildən sonra onlar mütləq kommunizm cəmiyyətində yaşayacaqlar. Onlar məhz bu məqsəd naminə vuruşub, çalışmış və hər cəfaya dözmüşdülər. Müəllif 20-30-cu illərdə gənclər hərəkatında aşağıdakı nöqsanların olduğu qeyd edib:

- Gənclər hərəkatında demokratizm, pluralizmin yox dərəcəsinə endirilməsi, vahid təşkilatçılıq, monopolizm prinsipinin nəzəri və əməli cəhətdən rəsmiləşdirilməsi, komsomolun gənclərin yeganə ictimai-siyasi təşkilatı kimi qanuniləşdirilməsi;
- Gənclər təşkilatının müstəqillik statusunun təmin edilməməsi, kommunist partiyasının köməkçisi devizi altında gənclər təşkilatının əsl həqiqətdə partokratiyanın itaətkar silahına və fanatik əlavəsinə çevrilməsi, gənclər təşkilatının partokratiyanın, sovet sisteminin intiqal qayışı, onun üzvləri isə vintləri hesab edilməsi;
- Kommunist Partiyasının daxili təşkilat prinsipləri, onun bürokratik aparatının iş metodlarının (demokratik mərkəziyyət, bürokratizm, təkbaşına rəhbərlik, daxili demokratiyanın pozulması, inzibati amirlik və s.) eyni ilə komsomolun işinə, təşkilat quruluşuna və fəaliyyətinə köçməsi;
- Gənclər hərəkatında ciddi inzibatçılıq, hərbiləşmə metodlarının geniş yayılması,

hətta 20-ci illərin axırlarında ittifaqın üzvləri üçün məcburi komsomol libasları təsis edilməsi yolu ilə könüllü gənclər təşkilatlarının açıqca hərbiləşdirilməsi;
- Gənclər hərəkatında, komsomol işində dialoqlar, ideoloji mübahisələr, alternativ fikir və təkliflər azadlığının dözülməz hal kimi qəbul edilməsi, alternativ fikirlər irəli sürənlərə partiyada olduğu kimi müxalifətçi, opportunist, satqın, burjua agenti, antisovet ünsürü və s. damğalarının vurulması;
- Gənclər hərəkatında da sinfilik prinsipinin birinci yerə keçirilməsi, gənclərə hər yerdə düşmən axtarmaq, düşmən obrazı yaratmaq, onları ifşa etmək fikirlərinin təqlin edilməsi, din əleyhinə mübarizə adı altında məscid və kilsələrin dağıdılmasının gənclər üçün qəhrəmanlıq hesab edilməsi, oğulu ataya, qardaşı qardaşa və bacıya qarşı qoyulması (20-30 cu illərdə komsomolda dəfələrlə keçirilmiş təmizləmə kompaniyası bu prinsipdən irəli gəlmişdir);
- Gənclərin əksəriyyətinin ümumi savad və siyasi mədəniyyət səviyyəsinin aşağı olması üzündən gənclər hərəkatında ciddi səhvlərə yol verilməsi, bəzi yerlərdə komsomol təşkilatlarının sovet və inzibati orqanların vəzifələrini ifa etməyə, hətta onların məsələlərini müzakirə etməyə səy göstərməsi;
- Gənclər hərəkatı kadrlarının, xüsusilə rəhbər komsomol kadrlarının hazırlanması və yerləşdirilməsində ciddi səhvlərin buraxılması, milli kadrların hazırlanmasına diqqətin zəif olması;
- Komsomol işində də çox zaman milli adət və ənənələrə, milli xüsusiyyətlərə məhəl qoyulmaması, gənclərin keçirdikləri mədəni yürüş və hücümlar zamanı milli geyimlər (papaq, çuxa) və milli musiqi alətləri (tar, kamança) əleyhinə çıxışlara yol verilməsi.

İ.Məmmədov bu nöqsanları göstərərək belə nəticəyə gəlmişdir ki, bütün bunlar bəhs olunan illərdə gənclərin yaradıcıq və təşəbbüskarlığının daha geniş üzə çıxarılmasına yol verməmiş, onların itaətkarlıq, fanatizm rühündа tərbiyə olunmasına səbəb olmuş, komsomolun gələcək aqibətinin müasir böhran vəziyyətinə düşməsinə zəmin yaratmışdır.(94,s.20-21)

İ.Məmmədovun 1998-ci ildə Bakıda, Xəzər universitetində təşkil olunmuş “Qafqazda sovet totalitarizmi ( 20-30-cu illər)” adlı elmi konfransda etdiyi “20-30-cu illərdə Azərbaycanda gənclər hərəkatının bəzi məsələlərinə dair” məruzəsində problemə sovet tarixşünaslığında tamamilə fərqli mövqedən yanaşıb. Müəllif təkcə 1928-1929-cu illərdə komsomolçu gənclər tərəfindən 400-dən artıq məscidin

bağlanıb dağıdılmasını, onların “Rədd olsun tar!”, “Rədd olsun kamança!”, “Rədd olsun çuxa!”, “Rədd olsun papaq” şüarları altında keçirilən kompaniyaları və s. faktları qeyd edərək belə nəticəyə gəlmişdir:“Bütün bunlar, səhv və nöqsanları ilə bərabər keçilmiş tariximizdir. Onların obyektiv tədqiq və təbliğ edilməsi, elmi cəhətdən ümumiləşdirilməsi... çox mühüm əhəmiyyət kəsb edir.” ( 224,s.24)

SSRİ-nin ayrı-ayrı regionlarında olduğu kimi Azərbaycanda da 20-30-cu illər milli məsələ və millətlərarası münasibətlər, milli azlıqlar və azsaylı xalqlar problemi tədqiq olunub. Azərbaycan alimlərindən D.Quliyev, C.Quliyev, Z.Budaqova, Q.Cavadov, F.Feyzullayev, S.Qurbanov, A.Hüseynov, R.Cəfərov, Ə.Həsənov, N.Quliyeva və başqaları milli məsələyə aid kitab və məqalələr yazıblar. (65,№ 3,1987;111,11 avqust 1989;204,14 noyabr 1990;386, №1,1998, s.186-197; 523,524,565, №3,1980,s. 21-28;№ 3,1983,s. 3-10 və s.)

D.Quliyevin 1940-cı ildə rus dilində nəşr olunmuş “Burjua millətçilərinin Azərbaycan dili sahəsində ziyankar işi haqqında” kitabında Azərbaycan dili haqqında kommunist rejimi tərəfindən “pantürkist” damğası vurulmuş ziyalıların fikirləri tənqid olunub.

C.B.Quliyevin 1972-ci ildə rus dilində nəşr olunmuş “Lenin milli siyasətinin bayrağı altında (Kommunist Partiyası tərəfindən Azərbaycanda Lenin milli siyasətinin həyata keçirilməsi (1920-1925-ci illər)” adlı kitabı Kommunist Partiyasının Azərbaycanda 20-ci illərdə həyata keçirilmiş milli siyasətinə dair sovet tarixşünaslığında yazılmış ən böyük əsər hesab oluna bilər. Müəllif bu kitabı həm də doktorluq işi kimi müdafiə edərək tarix elmləri doktoru adına layiq görülüb. C.B.Quliyev kitabda 1918-1920-ci illər dövrünü “mahiyyət etibarilə milli mənafelərə əks olan müsavat rejimi” adlandıraraq, oktyabr sosialist inqilabı və Azərbaycanda sovet hakimiyyətinin qələbəsinə fərqli mövqedən yanaşan burjua tarixçilərini kəskin tənqid edib. Müəllif burjua alimlərindən F.Kazımzadəni, M.Karpoviçi, X.Seton-Uotsonu, R.Payası, V.Kolarzı, Z.Bzejinskini, Çaqatayı, M.Ə.Rəsulzadəni, M.B.Məmmədzadəni tənqid edərək onların Azərbaycan Xalq Cümhuriyyəti haqqında müsbət fikirlərini, XI ordunun işğalı ilə Azərbaycanda zor gücünə sovet hakimiyyətinin yaradılması fikrini təkzib edərək, bunları böhtan adlandırıb. Müəllif Azərbaycan KP-nin yaradılması, bu sahədə RK(b)P MK Siyasi Bürosunun V.İ.Leninin iştirakı ilə keçirilmiş 20 dekabr 1919-cu il iclasının əhəmiyyətini xüsusi qeyd edərək, bu iclasın Ermənistan və Gürcüstan

KP-nin də yaranmasında mühüm rol oynadığını qeyd edir. C.Quliyev bu kitabında sovet tarixşünaslıq ənənələrinə sadiq qalaraq tarixi proseslərə sinfi mövqedən yanaşmaqla proletar beynəlmiləlçiliyi ideyalarının Azərbaycanda təntənəsini birtərəfli olaraq təbliğ edib.(523)

C.Quliyevin "Sosialist beynəlmiləlçiliyinin Lenin bayrağı altında (SSRİ-nin 50 illiyi münasibətilə)" adlı ikinci monoqrafiyasını birincinin məntiqi davamı hesab etmək olar. Bu kitabda müəllif Azərbaycan SSR-in yaranmasını, onun Sovet Rusiyası ilə iqtisadi, ictimai-siyasi və hərbi əlaqələrini qeyd edərək, N.Nərimanovun "Azərbaycan Respublikasının əbədi xoşbəxtliyi Rusiya ilə əlaqədardır" şüarını müdafiə edib. Bundan başqa müəllif ZSFSR-in yaranması və onun SSRİ-nin tərkibinə daxil olmasını, Naxçıvan MSSR və DQMV-nin yaranmasını Lenin milli siyasətinin təntənəsi hesab edərək bu dövrü sovet tarixşünaslığına xas bir metodla işıqlandırıb. Hər iki kitabda milli münasibətlərdə kommunist rejiminin tələblərinə uyğun olaraq proletar beynəlmiləlçiliyi ideyalarının təbliğinə əsas yer verilib və milli məsələdə buraxılan səvlərin üstündən sükutla keçilib.(524)

Azərbaycanda yaşayan azsaylı xalqların tədqiqinə 20-30-cu illərdən tədqiqatçılar maraq göstərməyə başlayıblar. N.Y.Maarın 1922-ci ildə Petroqradda talışlar, Q.F.Çursinin 1926-cı ildə Tiflisdə, B.Millerin isə 1929-cu ildə Bakıda tatlar haqqında ayrıca kitabları çap olunub, A.K.Ələkbərov 1936-cı ildə kürdlərin mədəniyyəti haqqında məqalə yazıb, bundan başqa digər müəlliflər də bu mövculara müraciət ediblər. (430,628)

Sonrakı illərdə də Azərbaycanda yaşayan azsaylı xalqlar, etnik qruplar mövzusu tədqiqatçıların diqqət mərkəzində olub.

A.Hüseynovun "Azsaylı xalqların mətbuatı" məqaləsi sovet tarixşünaslığında az tədqiq olunmuş bir məsələyə həsr edlib. Məqalədə qeyd olunur ki, Azərbaycanda azsaylı xalqların dilində mətbu orqanların yaradılması əsasən 30-cu illərin əvvəllərinə təsadüf edir. Yalnız almanlar bir qədər tez, 20-ci illərin əvvəllərində qəzet nəşrinə təşəbbüs göstəriblər. Məqalədə həmçinin 1920-ci ilin əvvəllərində Azərbaycanda 12 minə yaxın alman yaşadığı, 1924-cü ilin martında alman dilində "Kəndli və fəhlə," 1932-ci ildən onun əvəzinə "Lenin yolu" qəzeti çıxması və 1936-cı ilin iyulunda respublika qəzetinə çevrilməsi haqqında da məlumat var. Bundan başqa Bakı və onun ətrafında yaşayan 18 min tatar üçün 1930 - cu il aprelin 28 - dən "Bakı işçisi" qəzetinin buraxılması

və həmin ilin yayından etibarən qəzetdə özbək dilində də müntəzəm səhifə çap olunması, lakin 1938 - ci ilin aprelində bu qəzetin nəşri dayandırılması barədə də məlumat verilir.

Məqalədə 1931-ci ilin yanvarından Lənkəranda talış dilində "Qızıl talış" qəzeti çıxmağa başlaması və 1936-cı ildə qəzetin çıxmasının 5 illik yubleyi münasibətilə ZSFSR XKS sədri Q.Musabəyovun göndərdiyi teleqram haqqında da məlumat var. Teleqramda deyilir:"Yeni əlifba ilə çıxan talış qəzetinin 5 illik davamı talış xalqının əldə etdiyi böyük müvəffəqiyyətlərə parlaq sübutdur." Məqalədə həmçinin 30-cu illərdə tat dilində çıxan "Kommunist" qəzeti, türk dilində çıxan "Kollektivləşmə yolu" qəzeti və onun tat dilində buraxılan səhifəsi haqqında da məlumat verilir. Müəllif məqalənin sonunda yazır:"Sosializm şəraitində bir çox etnik və milli məsələlərin həlli üçün əvvəldən heç bir nümunə yox idi ki, onlara əsaslanaraq düzgün hərəkət yolu seçilsin. Hər dəfə yeni yollar axtarmaq lazım gəlirdi, bu da çox zaman ağır nəticələr verirdi." (204,14 noyabr 1990)

Z.Budaqovanın "Yazısız dillər" məqaləsi də 20-30-cu illərdə Azərbaycan tarixinin az tədqiq olunmuş probleminə həsr olunub. Məqalədə, Azərbaycanda yaşayan yazısı olmayan, ədəbi dil kimi Azərbaycan dilindən istifadə edən talışlar, tatlar, kürdlər, udinlər, avarlar, saxurlar, ingiloylar, qrızlar, xınalıqlar, buduqlar, hapıtlar və başqa xalqların vəziyyəti barədə məlumat verilib. Məlumatda deyilir:"1929-cu ildə latın əlifbasına keçən talışlar ibtidai siniflərdə və texnikumların birinci və ikinci kurslarında öz dillərində təhsil almağa, 1930-cu ildə Lənkəranda "Qırmızı Talış" və 1931-ci ildə Astarada "Talış kolxozçusu" qəzetləri talış dilində çap olunub. Qubada tat dilində məktəb açılıb və bu illərdə tat dilində 10 min sözü əhatə edən lüğət, bundan başqa azərbaycan-talış, azərbaycan-ləzgi lüğətləri tərtib edilib. 1932-ci ildə kürd dilində, 1933-cü ildə isə saxur dilində əlifba və dərsliklər çap olunub. Sonrakı illərdə udin dili üzrə Q.Voroşil namizədlik və doktorluq dissertasiyası müdafiə edib, həmçinin "Azərbaycan-udin" lüğəti yaradıb." (111, 11 avqust 1989)

Lakin müəllif 30-cu illərin sonlarında azsaylı xalqların məktəb və qəzetlərinin bağlanmasının, Azərbaycanın latın əlifbasının kirillə əvəz olunmasının səbəblərini göstərməyib və bu məsələlərə öz münasibətini bildirməyib.

R.A.Cəfərovun "Azərbaycan və Ukrayna qardaş respublikaları arasında dostluq və əməkdaşlığın möhkəmlənməsində sosializm yarışının rolu (1928-

1932-ci illər)" məqaləsində kommunist partiyasının milli siyasətdə irəli sürdüyü beynəlmiləlçilik ideyalarının həyata keçirilməsində sosializm yarışının rolunu tədqiq edilib. Müəllif Azərbaycan və Ukrayna zəhmətkeşlərinin yarışla bağlı görüşlərini şərh edərək konkret faktlar əsasında bunun xalqlar dostluğunun inkişafında mühüm rol oynadığını sübut etməyə çalışıb. ( 65, №3,1987)

Ə.M.Həsənovun 1992-ci ildə "1917-1941-ci illərdə SSRİ-də milli münasibətllər (Azərbaycan tarixşünaslığı )" mövzusunda Moskvada müdafiə etdiyi namizədlik dissertasiyası tarixşünaslıq sahəsində yazılan sanballı əsərlərdəndir. Bu elmi işdə milli məsələyə dair Azərbaycan sovet alimlərinin yazdıqları əsərlərə tənqidi münasibət bəslənilib, onların problemə birtərəfli yanaşaraq milli məsələ sahəsində mövcud nöqsanları qeyd etməmələri, yalnız Lenin milli siyasətinin müvəffəqiyyətlərini təbliğ etmələri tənqid edilib və millətlərarası münasibətlərin təkmilləşdirilməsi üçün bir sıra təkliflər verilib.

N.H.Quliyeva 1996-cı ildə "Azərbaycan tatlarının ailə - məişət və mənəvi mədəniyyəti" mövzusunda dissertasiya müdafiə edib. Bundan başqa onun milli azlıqların problemləri ilə bağlı digər tədqiqatlar da var.

Tədqiqatçıların Azərbaycan müstəqillik əldə etdikdən sonra milli azlıqların problemlərinə daha çox fikir verməsi təqdirəlayiqdir. Q.Cavadovun 2000-ci ldə nəşr olunmuş "Azərbaycanın azsaylı xalqları və milli azlıqları" adlı monoqrafiyası problemə həsr olunmuş ən iri həcimli kitablardandır. Kitabda Azərbaycanda mövcud olan azsaylı xalqlar, etnik qruplar və milli azlıqların sayı, dil qrupu, adət-ənənəsi, təhsili və s. məsələləri barəsində geniş məlumat verilib.

Azərbaycanda 20-30-cu illərdə mədəni inqilabın həyata keçirilməsi, mədəni-maarif işinin təşkili tarixçilərin diqqət mərkəzində olub. Bu mövzularda N.Paşayev, H.Həsənov, A.Əmirova, M.B.Bağırov, Q.V.Xəlilov, E.Əlizadə və başqa tarixçilər kitab və məqalələr yazıblar. (170,566,№ 2,1981,s.33-44; №2, 1983,s.11-18, s.19 -29; № 1, 1987,s.18-26 və s.)

N.Paşayevin 1957-ci ildə çapdan çıxmış "Azərbaycanda sosialist mədəniyyətinin inkişafı (1920-1955-ci illər)" kitabı 35 illik bir dövrü əhatə edir ki, bu illər də sovet tarixşünaslığında mövcud olan sosializm quruculuğu, sosializmin tam və qəti qələbəsi kimi şərti dövrləri əhatə edir.

Kitabda müəllif 1920-ci ilin aprelinə qədər Azərbaycanın mədəni cəhətdən geri qalmış bir ölkə olduğunu sübut etməyə çalışaraq yalnız sosializm cəmiyyətinin

qurulması ilə bu sahədə böyük irəlləyişlər əldə etdiyini qeyd edir. Müəllif mədəni inqilab dövründə və müharibədən sonra Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına, tarixinə və adət-ənənəsinə qarşı edilmiş hücumlara münasibət bildirməyib.

N.Paşayevin 1986-cı ildə nəşr olunmuş "Nəriman Nərimanov və Azərbaycan mədəniyyəti" kitabı isə hətta sovet mütəxəssisləri tərəfindən də birmənalı qarşılanmayıb. X. Köçərli kitaba "Qiymətli monoqrafiya" adlı məqalə (41,12 iyul 1986) ilə yüksək qiymət verməsinə baxmayaraq, əks fikirdə olan alimlər bu kitaba ciddi iradlarını bildiriblər. Fililogiya elmləri doktoru A. Hacıyev "Tədqiqat, yoxsa köçürmə?" başlıqlı məqaləsində (111,19 avqust 1988) N.Paşayevin kitabının 16,20,21,33-cü səhifəlrini F. Köçərlinin 1965-ci ildə nəşr olunmuş "Nəriman Nərimanov" kitabından, 21,23,25,44-cü səhifələrini M.Mehdizadənin 1958-ci ildə nəşr olunmuş "Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr" kitabından, 39-40-cı səhifələrini N.Nərimanovun seçilmiş əsərlərindən, 50,51,66,69,87,93,94,118,121,122,124,125 və s. səhifələri 1928-ci ildə çap olunmuş "Azərbaycan xalq maarifi", Y.H.Məmmədəliyevin 1960-cı ildə nəşr olunmuş "Azərbaycanda elmin inkişafı" kitablarından, H.Sultanovun "Mübariz qadınlar" adlı məqaləsindən (111, 6 fevral 1971) və digər kitab və məqalələrdən köçürdüyünü iddia edib.

A.Hacıyev daha sonra göstərib ki, N.Paşayev, M.İbarihimovun, C.Quliyevin, C.Cəfərovun, İ.Dubinski-Muxadzenin, V.Məmmədovun, T.Əhmədovun, Elçinin və başqa müəlliflərin də əsərlərindən bəzi hissələri köçürərək öz fikirləri kimi təqdim edib. (111,19 avqust 1988) Tədqiqat işinə bu cür yanaşmaya digər mövzulara aid sovet tarixşünaslığında da rast gəlmək olur.

H.Həsənovun 1960-cı ildə çapdan çıxmış "Azərbaycan Kommunist Partiyasının mədəni quruculuğu genişləndirmək uğrunda mübarizə tarixindən" kitabında kommunist partiyasının rəhbərliyi ilə mədəni inqilab dövründə həyata keçirilmiş bütün tədbirlərin yalnız müsbət cəhətləri tədqiq olunub. Adından göründüyü kimi kitabda tədqiqat birtərəfli aparıldığından mədəni inqilab zamanı buraxılmış səhvlər və nöqsanlar öz əksini tapmamışdır ki, bu da tədqiqatın elmi dəyərini aşağı salır.

M.Fərzəliyevin 1973-cü ildə tərtib etdiyi "Azərbaycan sovet ədəbiyyatşünaslığı" (1920-1930) adlı biblioqrafik vəsait, R.İsmayılovun "İyirminci

illərin satirik mətbuatı” məqaləsi (24,№1,1968), T.Rüstəmovun 1970-ci ildə “Məmməd Səid Ordubadi-jurnalist (1917-1928-ci illər)” mövzusunda müdafiə etdiyi dissertasiya və s. yazılar 20-30-cu illər ədəbiyyat tarixinin öyrənilməsində müsbət rol oynayır.

M.Y.Vəkilov 1954-cü ildə “Azərbaycan Kommunist Partiyasının mədəni quruculuq uğrunda mübarizəsi” mövzusunda namizədlik, 1967-ci ildə isə “Kommunist Partiyası Azərbaycanda mədəni inqilabın təşkilatçısıdır (1920-1940-cı illər)” mövzusunda doktorluq, N.Paşayev 1948-ci ildə “Azərbaycan SSR-də mədəni inqilab (1920-1940-cı illər)”, M.M.Vəliyev 1971-ci ildə “Azərbaycan SSR-də elmin inkişafı (1920-1940 - cı illər)”, T.F.Quliyev 1968-ci ildə “Azərbaycan SSR Həmkarlar İttifaqları kitabxanalarının tarixi (1920-1941-ci illər)”, S.M.Kərimov 1973-cü ildə “1928-1932-ci illərdə Azərbaycan kəndində mədəni quruculuq”, M.B.Bağırov 1986-cı ildə “Azərbaycanda mədəni inqilaba dair Lenin planının həyata keçirilməsində sovet Rusiyasının köməyi (1920-1941-ci illər)” mövzularında namizədlik dissertasiyaları müdafiə ediblər. Bu tədqiqat işləri sırf sovet tarixşünaslığı ənənələri əsasında yazılmış, əsasən Kommunist Partiyasının, sovet Rusiyasının mədəniyyət sahəsində müsbət rolunun təbliğinə həsr olunub. Lakin müəlliflər mədəni inqilab dövründə Azərbaycanda əlifbanın iki dəfə dəyişdirilməsinin, tarixi abidələrin, o cümlədən məscidlərin dağıdılmasının, milli musiqi alətlərin və baş örtüklərinin istifadəsinə qadağalar qoyulmasının və s. halların xalqa vurduğu mənəvi zərbələr haqqında susmağa üstünlük veriblər.

M.Ə.Rəsulzadə əlifba islahatı ilə bağlı yazmışdı:“Əlifba məsələsi Azərbaycanda mübahisələrə səbəb olan günlər idi. Ərəb hərfləri tamamilə götürülüb yerinə latın hərfləri qoyulsun, yoxsa ərəb hərflərinə səsli hərflər əlavə edilmək surətilə və sadəcə islahı iləmi kifayətlənilsin, deyə cəmiyyət iki zümrəyə ayrılmış, hər iki tərəf öz tezisini müdafiə edırdi. O zaman Azərbaycanda maarif komissarı Dadaş Bünyadzadə ərəb əlifbasının islahı tezisini müdafiə edirdi. Bu tezis o zamankı şərtlər və mülahizələrlə Azərbaycan vətənpərvərləri tərəfindən də müdafiə olunurdu… Mən məsələ haqqında görüşlərimi bir məqalə şəklində Moskvada Millətlər Komissarlığı tərəfindən nəşr olunan “Jizni nasionalnostey” qəzetində nəşr etdirdim.

Bolşeviklərin ərəb hərflərini latın hərfləri ilə əvəz etdirmək xüsusunda gizli və əsil fikirlərini bildiyimizdən ( bu fikir sonradan həyata keçirilmiş, ərəb hərfləri

öncə latın hərflərinə, sonra da rus hərflərinə təbəddül edilmişdir) bu məqalədə türk elləri arasındakı mədəni əlaqələri tamamilə kəsdirməmək üçün yazılanı daha asan oxutdura bilmək məqsədini təmin edən inqilabçılara haqq verirdim."(338,s.66-67)

M.R.Qasımov 1965-ci ildə "Müasir inqilabi satirik "Molla Nəsirəddin" jurnalı və onun ictimai-siyasi istiqamətləri (1906-1931-ci illər)" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyasında jurnalın ictimai-siyasi istiqamətlərini kommunist ideoloji istiqamətlərinə uyğunlaşdıraraq, jurnalı dövrün çatışmazlıqlarına, dini xürafata qarşı deyil, islam dininə qarşı mübarizə apardığını iddia edir.

C.Cəfərovun 1959-cu ildə, Q.Məmmədlinin 1983-cü ildə 1920-1930-cu illər Azərbaycan teatrının inkişafına həsr etdikləri kitabları, Azərbaycanın teatr tarixinə aid yazılmış dəyərli tədqiqat əsərləri kimi qiymətləndirmək olar. Kitablarda ölkə üçün çətin keçid dövründə Azərbaycan teatrının inkişafında misilsiz xidmətləri olmuş incəsənət xadimlərinin həyat və fəaliyyəti tarixi faktlar əsasında işıqlandırılıb. Bundan başqa Q.Məmmədli, M.Məmmədov və başqa tədqiqatçılar Üzeyir Hacıbəyov, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə kimi görkəmli bəstəkar və teatr xadimləri haqqında ayrıca kitablar yazıblar.(274,275,276,286,370,371 və s.)

Sovet mətbuatında M.Ə.Rəsulzadə və silahdaşlarına qarşı qərəzli, təhqirlə dolu yazılar 30-cu illərdə də davam etmişdir. Əsəd Tahir imzası ilə dərc olunmuş "Gözünə girsin"adlı məqalədə deyilir: "200-ə qədər türk qızı Azərbaycan himnini oxuyur. Hələ bu himnin kim tərəfindən yazıldığını bilsən bağrın çatlayar! Onu Üzeyr Hacıbəyli yazmışdır. O Üzeyir ki, sənin çıxardığın mürtəce "Azərbaycan" qəzetinə müvəqqəti müdirlik edirdi. O Üzeyr indi çıxışda bulunaraq öz təşəbbüsü ilə Azərbaycanın on illiyi himnini yazmış, türk qızlarına oxutdurur… Görürsənmi vaxtilə bel bağlamaq istədiyiniz adamlar belə sizə nifrət edərək sizlərdən üz çevirmiş və Şuralar Azərbaycanının mədəni quruculuq işlərində ən aktiv iştirak edirlər. Çox söz söyləməyəcəyəm!

Şuralar Azərbaycanının yetişdirdiyi gənc və inqilabçı dirijor Əfrasiyabın çubuğu gözünə girsin!"(204,29 aprel 1930)

B.Rəfiyevin 1993-cü ildə tərtib etdiyi və "Azərnəşr" tərəfindən nəşr olunmuş "İstila qurbanları" kitabında M.B.Məmmədzadənin "Odlu yurd" qəzetinin 1929-cu il 2-ci sayında verilmiş "Azərbaycan həyat və mətbuatından"

adlı məqaləsi yenidən çap olunub. Məqalədə gənclərin milli ruhda tərbiyəsini Müsavat firqəsinin məktəblərdəki fəaliyyəti ilə əlaqələndirən “Kommunist” qəzetinin mövqeyi şərh edilir. Qəzet müəllimlərin proletar sinifindən olmasına əhəmiyyət verməyi, millətçi müəllimləri məktəbdən çıxarmağı, millət əleyhinə proqramları çoxaltmağı, milli və dini bayramların tamamilə ləğv edilməsini, bunların yerinə inqilabi bayramların qoyulmasını, məktəblilərin ata-anaları arasında milli adət-ənənə, din, və s. ilə mübarizə işlərini qüvvətləndirmək üçün “Allahsızlar cəmiyyəti”nin işləri canlandırılmasını tələb edirdi.

Məqalənin sonunda kommunist rejiminin səylərinin heç bir nəticə verməyəcəyinə böyük inam öz əksini tapıb.

Azərbaycanda qadın azadlığına və onların cəmiyyətdə fəal mövqeyinə aid S.İmanzadə, S.Məmmədov, A.Bayramov, A.Sultanova, İ.Qranovskaya və başqa müəlliflər ayrıca kitab və məqaələr həsr ediblər. (178,288,289,491,24 iyun1990; 730)

S.İmanzadə 1957-ci ildə nəşr olunmuş “Oktyabr sosialist inqilabı və Azərbaycanda qadın azadlığı” kitabında Oktyabr sosialist inqilabına qədər müsəlman ölkəsi olan Azərbaycanda qadınların hüquqsuz olduqlarını qeyd edərək, inqilabdan sonra onların kişilərlə eyni hüquqlara malik olmalarını faktlarla göstərmiş, onların çarşabları atmalarını müsbət hal kimi dəyərləndirib.

S.Məmmədovun 1988-ci ildə nəşr olunmuş “Azərbaycanın şanlı qızları” kitabının giriş hissəsində XI ordu tərkibində Bakıya gəlmiş Xavər Qarayeva, Bəyim Atabəyova və başqaları haqqında məlumat verilib. Bundan əlavə kitabda 20-30-cu illərdə Azərbaycan qadınları arasında mədəni inqilabın həyata keçirilməsində fəal iştirak etmiş Dursun və Fatma Bayramovalar, Salatın Hacıyeva, Səadət Abdıyeva, Qəşəng Baharova, Gülzar Hüseynova, Pəri Osmanova, Zəhra İmamverdiyeva haqqında da məlumatlar var.

A.Sultanovanın 1976-cı ildə rus dilində nəşr olunmuş “Ayna Sultanova” kitabında 20-30-cu illərin görkəmli ictimai-siyasi xadimi Ayna Sultanovanın həyat və fəaliyyəti haqqında geniş məlumat verilb. Kitabın arxasında onun rus dilində 23, azərbaycan dilində isə 35 adda nəşr olunmuş məqalə və nitqlərinin siyahısının qeyd olunması 20-30-cu illər tarixşünaslığını öyrənmək baxımından əhəmiyyətlidir. Siyahıda “Türk qızı klubda” (“Pravda”qəz.,8 mart 1926), “Azərbaycan zəhmətkeşlərinin nöqteyi-nəzərindən nikah yaşı”(“Bak. raboçiy ”

qəz.,8 oktyabr 1926), "Sənayeləşmədə qadınlar arasında iş" ("Trud" qəz., Gəncə 15 dekabr 1926),"Çadranı atmağın yolu" ("Zarya Vostoka" 5 dekabr 1928), "Savadsızlığın ləğvi" ("Şərq qapısı" jur., №12, 1925), "Bir qız da məktəbdən kənarda qalmamalıdır" ("Şərq qapısı"jur.,№18, 1933), "Konstitusiya və sovet qadınlarının bərabər hüququluğu" ("Kommunist"qəz., №51 1933) və s. məqalələr qeyd olunub.(730)

1920-30-cu illərdə Azərbaycanda marksist fəlsəfənin əsas sahələri olan dialektik və tarixi materializmin təbliğinə xüsusi diqqət verilib. Bu dövrdə marksizm-leninizm klassiklərinin azərbaycan dilinə tərcümə edilmiş əsərləri, filosoflardan C.Nağıyev, M.Hüseynov, H.Hüseynov, Ə.Kazımovun məqalələri, 1923-cü ilin dekabrında yaradılmış "Materialistlər kulubu" bu işdə mühüm rol oynayıb. Bu illərdə fəlsəfi fikrin aparıcı istiqamətləri dinə qarşı, xüsusilə islam dininə qarşı mübarizə, ateizmin təbliği, allahsızlar cəmiyyətinin işinə ideoloji istiqamət verməkdən ibarət olub ki, bu da Azərbaycan xalqı tərəfindən müsbət qarşılanmayıb. Bu problemə aid Azərbaycan alimləri tərəfindən bir sıra məqalə və kitablar yazıblar. ( 321,377)

X.S.Nəcəfovun 1968-ci ildə nəşr olunmuş "S. Ağamalıoğlunun siyasi və ateist görüşləri" kitabında 20-ci illər Azərbaycan SSR-də müxtəlif rəhbər vəzifələrdə çalışmış, 1922-ci ilin martında təşkil olunmuş əlifba komissiyasına rəhbərlik etmiş S.Ağamalıoğlunun kommunist ideologiyasına sədaqətini əks etdirən siyasi dünyagörüşü, dinə qarşı, xüsusilə islama qarşı irəli sürdüyü fikirlər geniş şərh olunub. Lakin müəllif ərəb əlifbasının latın əlifbası ilə əvəz edilməsi prosesi zamanı islam dininə aid kitabların, hətta əski əlifba ilə yazılmış müxtəlif elmi əsərlərin məhv edilməsi, dinə qarşı mübarizədə təbliğat, inandırma metodlarından daha çox zorakılıqlar yoluna üstünlük verilməsinə və s. məsələlərə öz münasibətni bildirməyib.(321)

N.M.İsayevin 1990-cı ilin noyabrında keçirilmiş "Böyük Oktyabr və Azərbaycan" adlı elmi konfransın materiallarında çap olunmuş "20-30-cu illərdə Azərbaycanda fəlsəfi fikir tarixindən" adlı məqalədə sovet rejiminini müdafiə edib. Məqalədə qeyd olunur ki,1923-cü ilin dekabrında Bakıda N.Nərimanov, S.M.Əfəndiyev, S.Ağamalıoğlu, Q.Musabəyov, R.Axundov və başqalarının təşəbbüsü ilə "Materialistlər klubu" yaradıldı. Klubun üzvləri marksist-leninçi fəlsəfənin geniş təbliğini cəmiyyətin sosialistcəsinə dəyişdirmək tələbi ilə sıx

əlaqələndirirdilər. Bu baxımdan N.Nərimanovun "Kommunizmi anlamaq üçün yol" əsəri səciyyəvidir. (94,s.64)

Q.V.Xəlilovun 1960-cı ildə nəşr olunmuş "Sovet sosialist maarifçiliyinin yaranması və inkişafı" kitabında Azərbaycanda sovet cəmiyyətinin tələblərinə uyğun maarif sisteminin yaranması və inkişafı işıqlandırılıb. Müəllif kitabda sosializm quruculuğu dövründə maarif sahəsində müsbət irəliləyişin olduğunu qeyd edib. Lakin müəllif o dövrdə maarif sahəsində mövcud olan nöqsanlara münasibət bildirməyib ki, bu da sovet tarixşünaslığının mahiyyətindən irəli gəlirdi.

AK(b)P-nin IX qurultayı 1929-cu ildə partiya təşkilatlarına "yeni məktəb quruculuğunda icbari ümumi ibtidai təhsilə keçmək sahəsində işlərini gücləndirməyi" təklif edib. (702) Bu qərar Azərbaycanda təhsilin inkişafına müsbət təsir göstərib. Lakin sovet tarixşünaslığında bəzən bu cür qərarların əhəmiyyətinin həddindən artıq şişirdilməsinin, sovet hakimiyyətinə qədərki dövrə aid faktların saxtalaşdırılması qeyri obyektiv kitabların meydana gəlməsinə səbəb olurdu. Məsələn, Bakıda 1957-ci ildə rus dilində nəşr olunmuş "Azərbaycan SSR-də xalq maarifinin naliyyətləri" kitabında göstərilib ki, Azərbaycanda sovet hakimiyyətinin qələbəsinə qədər əhalinin 97%-i savadsız idi. Lakin faktlar bu cür subyektiv fikirləri təkzib edir.

İttifaq üzrə yazılmış bir sıra kitablarda hətta başqa respublikaların tarixçiləri də Azərbaycana aid faktları təhrif ediblər. Məsələn, N.Çernyakın 1983-cü ildə Moskvada rus dilindən nəşr olunmuş "Beynəlmiləlçilik-birlik və həmrəylik deməkdir" kitabında qeyd edir ki, 1913-cü ildə Rusiyada əhalinin 70 faizi, Orta Asiyada 98 faizi savadsız idi. Orta Asiya və Azərbaycanda savadlı qadınlar demək olar ki, yox idi. Sovet tarixşünaslığında bu cür nümunələrə çox rast gəlmək olar. Faktlar isə göstərir ki, hələ 1901-ci il oktyabrın 7-də maarifpərvər xeyriyyəçi H.Z.Tağıyev vəsaiti ilə Bakı müsəlman qız məktəbi açılmışdır ki, onun da məzunları əhalinin, o cümlədən qadınların savdlanmasında mühüm rol oynayıblar. (328, №12, 1989)

Sovet hakimiyyətinə qədər əhalinin savadlanması sahəsində bir sıra işlər görülmüş, ölkənin ayrı-ayrı yerlərində ibtidai, orta məktəblər açılmış, Qızlar seminariyası, Bakı Universiteti və digər təhsil müəssisələri təsis olunmuşdu. Bu təhsil müəssisələrinin açılmasına qədər isə ölkənin bütün ərazilərində mədrəsələr fəaliyyət göstərib ki, sovet tarixşünaslığında bunlar barədə susmağa üstünlük

verilib. Z.Bünyadov və Y.Yusifovun redaktəsi ilə 1994-cü ildə nəşr olunmuş “Azərbaycan tarixi” kitabının 590-591-ci səhifələrində qeyd olunur ki, 1858-ci ildə Şamaxı quberniyasında 4700 nəfərin təhsil aldığı 299 məktəb və mədrəsə var idi. Onlardan kənddə 262, şəhərdə isə 37 məktəb və mədrəsə var idi. Azərbaycan Rusiyaya ilhaq edildikdən sonra milli maarifçilərin səyi ilə Azərbaycan-rus məktəbləri yaradılıb. Bu tipli ilk məktəblər XIX yüzilliyin 30-cu illərində Şuşada, Nuxada, Bakıda, Gəncədə, Şamaxıda və Naxçıvanda açılıb.

X.Köçərli və X.Məmmədovun 1999-cu ildə nəşr olunmuş “Azərbaycan Xalq Cümhuriyyətinin təhsil, elm və mədəniyyət sahəsində fəaliyyəti (1918-1920-ci illər” adlı kitabındakı faktlar da sovet tarixşünaslığında yazılanları təkzib edir. Kitabda göstərilir ki, Cümhuriyyət hökümətinin sərəncamı ilə 1920-ci ilin əvvəlində “Zaqafqaziyada rus siyasətinə dair sənədlər” (1-ci və 2-ci cidlər), “Ucqarlarla rus siyasətinin oçerkləri (1-ci və 2-ci cildlər) ” və digər kitablar nəşr olunub.

“Zaqafqaziyada rus siyasətinə dair sənədlər” kitabında qeyd olunub ki, bu kitabı oxuyan hər bir şəxs azərbaycanlıların siyasi və milli mənafelərinin rus şovinistləri ilə tamamilə bir-birinə zidd olduğunun şahidi olacaqdır. Giriş və 9 bölmədən ibarət sənədlər toplusunda “Milli hərəkatla mübarizə”, “Dini sıxışdırmalar”, “Maarif və mədəniyyətə qarşı mübarizə”, “Millətlərarası münasibətlər”, “Mühacirət”, “Müstəmləkəçilik və iqtisadi siyasət”, “Əhalinin silahsızlaşdırılması ”, “Hərbi mükəlləfiyyət” və s. başlıqlar altında qruplaşdırılan çar hakimiyyət orqanlarının sənədləri Azərbaycan xalqına qarşı imperiyanın düşmənçilik siyasətini aydın şəkildə göstərir.

Kitabın 77-ci səhifəsində 1918-1920-ci illərdə Azərbaycanda 89 adda qəzet çıxdığı göstərilib.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra S.Məmmədovun “Azərbaycanda qadın təhsili və Azərbaycanın tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti (XIX əsrin 2-ci yarısı-1920-ci ilə qədər)”, E. Qasımovanın “Azərbaycanda ali pedaqoji təhsil (1920-iyun 1941-ci illər)” və digər tarixçilərin yazdıqları dissertasiyalarda sovet tarixşünaslığında mövcud olan bu cür təhriflər aradan qaldırılıb.

20-ci illərdə Azərbaycanda savadsızlığın ləğvi, mədəni inqilab pərdəsi altında milli dəyərlərə, adət-ənənələrə qarşı mübarizə başlyıb. Azərbaycan MİK

və respublika hökümətinin qərarı ilə 1 yanvar 1929-cu il tarixdən ərəb əlifbasının latın əlifbası ilə, 1939-cu ildən isə latın əlifbasının kiril əlifbası ilə əvəz edilməsi xalqa böyük mənəvi zərbə vurub. Ərəb əlifbasının dəyişdirilməsi xalqın 1300 illik mədəniyyətinə böyük zərbə vururdusa, 10 il sonra yenidən əlifbanın dəyişdirilməsi isə Azərbaycan ilə Türkiyə arasında mənəvi yaxınlaşmanın qarşısının alınmasına və ruslaşdırma siyasətinə xidmət edirdi. Ərəb əlifbasının dəyişdirilməsi ilə islama qarşı aparılan zorakı mübarizədə dini kitablarla yanaşı ərəb əlifbası ilə yazılmış digər kitabların da ucdantutma məhv edilməsi və digər tədbirlər kommunist rejiminin xalqın mənəviyyatına vurduğu ən böyük zərbələrdən biri idi.

1924-cü ildə Azərbaycanda təşkil olunan "Allahsızlar cəmiyyəti" islam dininə qarşı xüsusi qəddarlıqla mübarizə apararaq, dindarları təqib etməklə yanaşı hətta tarixi memarlıq abidləri olan məscidlərin də dağıdılmasına rəhbərlik edib. Kollektivləşmə dövründə onların fəaliyyəti daha da gücləndirilmiş və hətta Azərbaycan K(b)P MK-nın aprel (1929-cu il) plenumu bunun üçün xüsusi göstərişlər də verib. Məhz bundan sonra cəmiyyət "Mübariz Allahsızlar İttifaqına" çevrilmiş, Qurban, Ramazan, Novruz bayramları kimi xalqın əsrlərlə həyata keçirdiyi bayramlar qadağan edilmiş, məscidlər bağlanmış və dindarlara qarşı mübarizə daha da kəskinləşmişdi.

Bu proseslə yanaşı 1928-ci ilin sonu 1929 - cu ilin əvvəllərində milli baş örtüyü olan-papaq və çadraya qarşı mübarizə başlanıb. Milli baş örtüyündən istifadə edənlər ictimai yerlərə buraxmır, onları keçmişin qalığı, sovet hakimiyyətinin düşməni hesab edirdilər. Bu işdə canfəşanlıq edən təcrübəsiz gənc komsomolçular şlyapa və şapkanı təbliğ edərək "Rədd olsun papaq!" kimi gülünc şüarların təsiri altında fəaliyyət göstərirdilər.

1931-ci il aprelin 14-də Azərbaycan K(b)P MK Katibliyinin qərarı ilə C.Məmmədquluzadənin yaradıcısı olduğu "Molla Nəsrəddin" jurnalı Azərbaycan Mübariz Allahsızlar Mərkəzinin orqanına çevrilib. Bu haqsızlığa qarşı mübarizə aparan Mirzə Cəlil kimi ziyalılar isə təqiblərə məruz qalaraq Azərbaycan ədəbiyyatının "cığırdaşları "siyahısına salınıb.

B.Nəcəfovun 2001-ci ildə nəşr olunmuş "Sovet rejiminin islam dininə və Azərbaycan xalqının milli adət və ənənələrinə qarşı mübarizəsi (1920-1930-cu illər)" adlı kitabında arxiv sənədləri əsasında kommunist rejiminin Azərbaycan xalqına vurduğu mənəvi zərbələr, xalqın keçirdiyi fiziki və mənəvi sarsıntılar

tədqiq olunub.

Kitabda sovet rejiminin islam dininə və din xadimlərinə qarşı mübarizəsinin xarakteri və əsas istiqamətləri, məscidlərin bağlanması və onların təsərrüfat və mədəniyyət təşkilatlarına verilməsi, dini məktəblərin və dini tərbiyə ocaqlarının ləğv edilməsi, dini əlamətlərə görə partiya sıralarının təmizlənməsi, Azərbaycan xalqının orucluq, qurban, növruz bayramları kimi dini və milli bayramlarının ləğv edilməsi və rejimin xalqın adət-ənənələrinə qarşı mübarizəsi faktiki materiallar əsasında işıqlandırılıb.

Sovet tarixşünaslığında yazılanların əksinə olaraq Azərbaycan xalqı milli baş örtüyünün zorakılıqla dəyişdirilməsi, "proletarkultçuların" milli musiqi alətlərini köhnəliyin qalığı kimi ləğv etmək tələblərinə qarşı, istiqlal, milli dəyərlər, adət-ənənə, dil və mədəniyyəti uğrunda müxtəlif üsul və vasitələrlə ciddi mübarizə aparıb.

Azərbaycan xalqının gənc şairi M.Müşviq milli musiqi aləti olan tarın "proletarkultçular" tərəfindən köhnəliyin qalığı kimi ləğv edilməsinə qarşı çıxaraq "Oxu tar" şerini yazıb. Şair "proletarkultçular"ın bəd əməllərini ifşa etdiyinə, milli mədəniyyəti müdafiə etdiyinə və digər cəsarətli addımlarına görə repressiyaya məruz qalıb.

30-cı illər repressiyasının qurbanları olan minlərlə ziyalı, o cümlədən H.Cavid, Ə.Cavad, M.Müşviq, A.M.Şərifzadə, Ü.Rəcəb, H.Zeynallı, B.Çobanzadə, B.Talıblı, Əmin Abid və başqaları kommunist rejiminin mədəniyyətimizə, tariximizə və ədəbiyyatımıza planlı surətdə vurduğu mənəvi zərbələrə qarşı mərdliklə mübarizə aparıb və bu yolda canlarını belə əsirgəməyiblər.

30-cu illər repressiyaları mövzusu 1956-cı ildən sonra tarixçilərin ən çox müraciət etdikləri mövzulardan biri olub. Bu mövzunun dərindən öyrənilməsində Sov.İKP XX qurultayında (14-25 fevral 1956-cı il) N.S.Xuruşovun "Şəxsiyyətə pərəstiş və onun nəticələrinin aradan qaldırılması haqqında" məruzəsi və qurultayın eyni adlı qərarı mühüm rol oynayıb. N.S.Xuruşovun məruzəsində, Stalin tərəfindən xüsusilə XVII qurultaydan (1934-cü il) sonra partiyaya qarşı özbaşnalığın gücləndirməsi, bu qurultayda seçilmiş MK-nın 139 üzv və namizədindən 98 nəfərinin və ya 70 faizinin 1937-1938-ci illərdə həbs olunaraq güllələnməsi, qurultayın həlledici və məşvərətçi səsə malik 1966 nümayəndəsindən 1108 nəfərinin əksinqilabçı cinayətlərə görə həbs olunması və digər faktlar

qeyd olunub. Məruzədə daha sonra göstərilir ki, kütləvi repressiyalar 1936-cı ilin axırlarında Stalin və Jdanovun 25 sentyabr 1936-cı il tarixində Soçidən Kaqanoviç, Molotov və digər Siyasi Şura üzvlərinə ünvanlanmış teleqramından sonra güclənib. Teleqramda deyilirdi:"Yoldaş Yejovun təcili surətdə Xalq Daxili İşlər Komissarı vəzifəsinə təyin edilməsini zəruri hesab edirik. Yaqoda trotski-zinovyevçi blokun ifşa edilməsi vəzifəsini layiqincə həyata keçirə bilmədi. Xalq Daxili İşlər Komissarlığı bu işdə 4 il kecikmişdir."

Məruzədə həmçinin göstərilir ki, repressiyalarda S.M.Kirovun qətlindən sui-istifadə olunmuş, 1936-cı ilə nisbətən 1937-ci ildə əksinqilabçı cinayətlərə görə həbs olunanların sayı on dəfə artmış, 1937-1938-ci illərdə Yejov tərəfindən Stalinə göndərilmiş minlərlə partiya, sovet, komsomol, hərbi və təsərrüfat işçisinin adı olduğu 383 siyahıya şəxsən özü sanksiya vermişdir. Məruzədə 1954-cü ildən XX qurultaya qədər 7679 nəfərin əksəriyyətinin ölümündən sonra bəraət alması və s. məsələlər barədə də məlumat verilib.(756, s. 398-413)

30-cu illərin repressiyaları haqqında XX qurultaydan sonra kitab və məqalələr yazılmağa başlanılıb, 70-80-cı illərin birinci yarısında bu mövzuya nisbətən az müraciət olunub, 1985-ci ildən sonra isə mövzu yenidən aktuallaşıb. Problemə aid Rusiyada çoxlu sayda kitab və məqalə nəşr olunub. (521,665,№46, 47,48, 1989; 756, 727, 728)

S.M.Kirovun öldürülməsindən sonra Stalinin təşəbbüsü ilə MİK Rəyasət heyətinin katibi Yenukidze Siyasi Büronun qərarı olmadan 1 dekabr 1934-cü il tarixində kütləvi qanun pozğunluğuna əsas verən aşağıdakı qətnaməni imzalayıb:

1. İstintaq orqanları terrorçu aktların hazırlanması və həyata keirilməsi ilə bağlı ittiham olunanların işini təcili qaydada aparsınlar;
2. Məhkəmə orqanları MİK Rəyasət heyətinin bu cür müraciətlərin qəbul edilib baxılmasını lazım bilmədiyi üçün cinayətkarların əfvlə bağlı müraciətlərinə baxmadan ən yüksək cəzanın həyata keçirilməsini gecikdirməsinlər;
3. Xalq Daxili İşlər Komissarlığının orqanları ən yüksək cəzanı təcili surətdə həyata keçirsinlər.

Bununla yanaşı L.Beriyanın "Sosializm düşmənlərinin külünü göyə sovurmalı" (682,19 avqust 1936) adlı məqaləsi kimi yazılar da repressiyaların SSRİ miqyasında, o cümlədən Azərbaycanda daha da güclənməsinə təkan verib.

Azərbaycan tarixşünaslığında 30-cu illər repressiyalarına aid yazılmış

məqalə və kitablarda iki istiqamət özünü büruzə verir. Birinci istiqamət 1956-cı il Sov.İKP XX qurultayından sonra sovet tarixşünaslığında hakim olan xəttdən ibarətdir. Bu mövqedən yazılmış əsərlərdə bütün faciələri doğuran səbəblər kommunist rejiminin mahiyyətində deyil, İ.Stalin tərəfindən Lenin normalarının pozulmasında axtarılır və bu da faciələrin səbəblərinin oyektiv deyil subyektiv amillərlə izahına gətirib çıxarır. İkinci istiqamət isə, xüsusilə 1988-ci ildən başlayaraq yazılmış məqalə və kitablarda öz əksini tapıb. Bu yazıların mahiyyəti ondan ibarətdir ki, müəlliflər repressiya dövründə baş vermiş faciələrin səbəbləri kimi subyektiv amillərin rolunu qeyd etsələr də rejimin mahiyyətindən doğan obyektiv amilləri əsas amillər kimi göstəriblər.

Azərbaycan tarixşünaslığında mövzuya aid yazılmış kitab və məqalələrdə ikinci istiqamət özünü daha çox göstərir.

Z.Bünyadovun "Repressiya dövrünün qurbanları" silsilə məqalələri (107,18,26 aprel 1990) və "Qırmızı terror" kitabı (93) nəşr olunub. Müəllif bu tədqiqatlarında 20-30-cu illər Azərbaycan tarixinin öyrənilməmiş səhifələrini arxiv materialları əsasında işıqlandırıb.

Z.Bünyadov "Qırmızı terror" kitabında yazır:"1936-1937-ci illərdə təxminən 70-80 min Azərbaycanın ziyalı nümayəndəsi məhv edilmişdir. Hər bir "xalq düşməni"nə "məhkəmə" zamanı ancaq 15 dəqiqə vaxt ayrılırdı. İndi qoy oxucu özü 1936-1937-ci illərdə bir saatda nə qədər Azərbaycanlının güllələndiyini özü hesablasın. Bir gündə 24 saat (26 nəfər), ayda 30 gün (2880 nəfər), 2 il yarımda 80 mindən çox. (93)

Kitabın "Qadınlarımız-qurbanlarımız" başlıqlı hissəsində 1937-ci il 26 sentyabr tarixli hökümlə güllələnmiş Mədinə xanım Mehdi qızı Qiyasbəyli, 1938-ci il 19 oktyabr tarixli hökümlə güllələnmiş Xədicə Osman qızı Qayıbova və 1939-cu il iyunun 9-da 5 il azadlıqdan məhrum edilmiş, sonradan 1942-ci ilin may ayında Sibirin Marinsk həbs düşərgəsində itkin düşmüş, sonrakı taleyi haqqında məlumat olmayan Gülarə xanım İbrahim Xəlil qızı Qədirbəyova haqqında məlumat verilib.(93)

Kitabın "Elm qırımı. Faciə" başlıqlı hissəsində isə müəllif Azərbaycanın repressiyaya uğramış 23 nəfər elm xadimi, o cümlədən Hənəfi Zeynallı, Bəkir Çobanzadə, Böyükağa Talıblı, Məmməd Cuvarlinski, Tağı Şahbazi, Yusif Mirbala oğlu Vəzirov (Yusif Vəzir Çəmənzəminli) və başqaları haqqında faktları

işıqlandırıb.

Bundan başqa kitabda 30-cu illər repressiyalarına məruz qalmış, saxta ittihamlarla güllələnmiş istedadlı səhnə ustaları Abbas Mirzə Rəsul oğlu Şərifzadə və Ülvi Rəcəb Şaşıqzadə, dini xadim Qazı Mir Məmmədkərim Ağa, 1938-ci ildə günahsız məhkum olunmuş Gəncə toxuculuq kombinatının baş mexaniki Süleymanov Firuz Ələsgər oğlu və kapitan Saniyev Kəbi Murad oğlu başda olmaqla məhkum olunmuş 33 nəfər Azərbaycanlı zabit haqqında da məlumatlar verilib. (93)

O.Mirzəyevin tərtib etdiyi, 1991-ci ildə nəşr olunmuş "“Ağ ləkələr” silinir..” kitabında Stalin-Beriya-Bağırov repressiyaları dövründə Azərbaycanda baş vermiş faciələr və onların günahsız qurbanları haqqında müxtəlif müəlliflərin respublika mətbuatında çap edilmiş 25 məqaləsi toplanıb. Məqalə müəllifləri faciələrin baş verməsinin əsas səbəbkarı kimi kommunist rejimi deyil, ayrı-ayrı şəxsləri ittiham edirlər ki, bu da sovet hakimiyyəti illərində yazılmış kitablara xas olan əsas xüsusiyyətlərdəndir.

C.Həsənli "“Ağ ləkə”lərin qara gölgəsi” adlı kitabının “Söz önü, yaxud qayğılarımız” adlı giriş hissəsində 30-cu illər repressiya dövrünün tarixşünaslığına tənqidi yanaşılıb. Müəllif yazır: “Məlumdur ki, XX qurultaydan sonra şəxsiyyətə pərəstişə qarşı aparılan mübarizə ardıcıl getmədiyindən, stalinizmin mahiyyəti tarixi tədqiqatlarda dərindən açılmamışdır. 50-ci illərin sonu və 60-cı illərin əvvələrində buraxılan əsərlərdə belə şəxsiyyətə pərəstişin kökləri sönük, məhdud halda göstərilmişdir... 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində hazırlanıb çap edilmiş üç cildlik “Azərbaycan tarixi”nin üçüncü cildi və 1964-cü ildə nəşr edilmiş “Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri” həmin dövrün obyektiv mənzərəsini yarada bilmədi... Güman etmək olardı ki, 1987-ci ildə çapdan çıxmış “Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları”(1-ci cild,1920-1937-ci illər) məcmuəsi mənbəşünaslıq baxımından respublika tarixşünaslığında bu boşluğu dolduracaq. Təəssüf ki, belə olmamışdır.” (158,s.3-5)

Daha sonra müəllif həmin kitabı yazan müəlliflərin birtərəfli mövqe tutmalarını tənqid edərək yazır:“712 səhifəlik həmin cildi çapa hazırlayanlar, görünür ancaq “sərfəli” materialları seçməyi üstün tutublar. Xüsusilə AK(b)P-nin XII, XIII qurultaylarının materialları olduğu kimi verilməyib. AK(b)P MK-nın kütləvi cəza tədbirlərinin genişlənməsinə təkan vermiş 1937-ci il plenumlarının

materialları ümumiyyətlə kitaba daxil edilməyib... Belə çıxır ki, müsbət nə var hamısını demək olar, səhvləri, cəza tədbirlərini, siyasi terroru isə gizlətmək lazımdır. Məcmuədə 30-cu illərin fəlakətli hadisələrinə və onların nahaq qurbanlarının faciəli taleyinə işarə edən bir şey varsa, o da mətn daxilində tez -tez təsadüf edilən üç nöqtələrdir." (158, s.6-7)

Müəllif, L.P.Beriyanın 1935-ci il iyulun 21-22-də Tbilisidə partiya fəalları qarşısında etdiyi məruzənin "Zaqafqaziya bolşevik təşkilatları tarixinin məsələlərinə dair" adı ilə kitab şəklində 1939-cu ilə kimi 15 dildə 40 dəfə, Azərbaycanda isə 99 min nüsxə ilə nəşr olunmasını, bundan az sonra M.C.Bağırovun "Bakı və Azərbaycan bolşevik təşkilatlarının tarixindən" kitabının çapdan çıxmasını İ.V.Stalinin şəxsiyyətinə pərəstişin yaranmasında mühüm rol oynadığını qeyd edib.

Kitabda həmçinin 1939-cu ildə H.Cavidin saxta ittihamlarla 8 il azadlıqdan məhrum edilərək Sibirdə vəfat etməsi, M.Müşviqin isə 5 yanvar 1938-ci il tarixdə şahidsiz, vəkilsiz güllələnməyə məhkum edilməsi haqqında məlumat verilib. Müəllif faktlarla göstərir ki, ilk əvvəl M.Müşviq 15 il həbs cəzası almasına baxmayaraq, sonradan müstəntiq Qalustyan sənədləri yenidən SSRİ Ali məhkəməsinin hərbi kollegiyasının səyyar sessiyasına təqdim etməklə ona güllələnmə hökmünün çıxarılmasına nail olub. (158)

Bu dövrdə Ə.Əkbər imzası ilə dərc olunmuş məqalədə M.Müşviqin əleyhinə aşağıdakı fikirlər verilmişdi:"Müsavatçıların əl tulası olan Müşfiqin həyasızlığı o dərəcəyə çatmışdır ki, ... hətta Azərbaycan sovet yazıçılarının üçünçü plenumunda son dərəcədə əclaf çıxış edərək, kontrrevolusion şerini belə oxumağa nail olmuşdur. "Duyğu yarpaqları" adlanan bu şer hətta "Ədəbiyyat" qəzetinin bu il 18 aprel tarixli nömrəsində dərc edilmişdir... Müşfiq "Duyğu yarpaqları"nda "Hələ bədr olmamış bir hilalım var" deyə öz həmfikirləri ilə səsləşir. Müşfiq "Yelkənim açılır, qara yel əsmə" deyə ona qarşı "əsən yel"i qara adlandıraraq, onun əsməməsini tələb edir. Demək Müşfiqi tənqid edən sovet ictimaiyyəti "şair" üçün qara yel sayılırmış.(204, 20 iyun 1937)

E.İsmayılov və C.Həsənovun "Ulduz" jurnalının 1988-ci il 11-ci sayında çap olunmuş "Fəryad: qanlı 1937 - ci il hadisələri haqqında" və "Kölgə" (30-cu illərin cəza tədbirləri haqqında bəzi qeydlər) məqalələrində (111,3 iyun 1988) göstərilir ki, Azərbaycanda partiyadan xaric etməyin kütləvi hal alması ÜİK(b)

P yanvar (1938) plenumunun “Kommunistlərin partiyadan çıxarılması zamanı partiya təşkilatlarının səhvləri” qərarında tənqid edilib. Həmin qərarda 5 noyabr 1937-ci il tarixdə Az.K(b)P MK-nın bir iclasında 279 şəxsin partiyadan xaric olunmasının mexaniki surətdə təsdiq edilməsinin ÜİK(b)P plenumu tərəfindən partiya nizamnaməsinin kobud surətdə pozulması kimi qiymətləndirdiyi qeyd edilir. Lakin faktlar göstərir ki, bu cür özünü tənqid özbaşınalığın qarşısının alınmasına heç bir müsbət təsir göstərməyib. Təkcə R.Axundov və H.Sultanovla bağlı uydurma “əksinqilabi üsyançı, terrorçu mərkəzin” işi ilə bağlı 1700 adam, o cümlədən 20 xalq komissarı və müavini, 34 rayon icraiyyə komitəsinin sədri, 52 rayon katibi, 8 professor və başqaları cəzalandırılıb. (111,3 iyun 1988)

E.İsmayılovun “Mərkəz” qəzetinin 5 aprel 2000-ci il sayında dərc olunmuş “Terror kulminasiyası” məqaləsində 30-cu illər repressiyaları ilə bağlı bir arxiv sənədi işıqlandırılır. Bu sənəd 1955-ci ildə Respublika Prokuroru işləmiş Adil Babayev tərəfindən Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi İmam Mustafayevə ünvanlanmış arayışdır. Həmin sənəd 1937-1938-ci illərdə baş vermiş repressiyaları tam miqyasda əks etdirməsə də ümumən, bu barədə təsəvvür yaratmağa imkan verir. Sənəddə deyilir:

“...İttihamların süni surətdə yaradılması, istintaqın cinayətkar üsullarla aparılması və sübutların saxtalaşdırılması nəticəsində minlərlə insan repressiyalara məruz qalmışdır.

Əksinqilabi cinayətlərinə görə, cinayət məsuliyyətinə cəlb olunanlar haqqında tam məlumatın olmaması dəqiq rəqəmlər göstərməyə imkan vermir. Lakin əldə edilmiş hesabatlar 1937-1938-ci illərdə törədilən repressiyaların kütləvi xarakter almasından xəbər verir. Daxili İşlər üzrə Xalq komissarlığının (DİXK) məlumatlarına əsasən, təkcə 1937-ci ildə Azərbaycanda 9804 nəfər həbs edilmişdir.

1937-ci ilin ikinci yarısında kütləvi repressiyalar DİXK-nın nəzdindəki “Üçlüklər” vasitəsi ilə həyata keçirilmişdir. “Üçlüklər” 1938-ci ildə siyasi cinayətlərdə ittiham olunanlar haqqında 5061 qərar çıxarmışdır. Bunlardan ancaq antisovet təbliğatında günahlandırılan 1108 nəfər güllələnməyə məhkum edilmişdir. 1937-ci ildə isə “Üçlüklər” siyasi ittihamlara görə 2846 nəfəri mühakimə etmiş, onlardan 2215 nəfəri güllələnmişdir.”

N.Kazımoğlu “Arxiv sənədləri şahidlik edir” məqaləsində (385,21 oktyabr

1991) Üzeyir Hacıbəyovun 7 may 1938-ci il tarixli Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırova göndərdiyi məktubu arxiv sənədi kimi ilk dəfə olaraq şərh edib.(Azərbaycan Respublikası SPİH MDA f.1,s.221,iş.80) Məktubda deyilir: "Xalq düşməni olan... təxribatçılar 1924-cü ildən başlayaraq necə ki, məni, eynilə də mənim əsərlərimi təqiblərə məruz qoyurdular. Çalışırdılar ki, sovet ictimaiyyətinin qarşısında mənim adımı rüsvay etsinlər, ləkələyib biabır etsinlər. Lakin mənim bəxtimdən məni qorudular." Məktubun sonunda Ü.Hacıbəyovun 53 yaşında bolşeviklər partiyasına qəbul olmaq istədiyini bildirməsi onun həmin dövrdə güclü təzyiqlərə məruz qaldığını sübut edir.

N.Kazımoğlunun 1992-ci ildə yazdığı "Getsin gəlməsin" kitabında kollektivləşmə və 30-cu illər repressiya dövrlərində Azərbaycanda baş vermiş hadisələr, Azərbaycan KP MK katibi Ə.Xanbudaqovun Stalinin yeritdiyi səhv siyasətə qarşı mübarizəsi, S.Vurğunun "Komsomol" poemasının qəhrəmanı Sarı Şəmistan kimi tanınmış Əyyubov Şəmistan Mahmud oğlunun 1917-1937-ci illərdəki fəaliyyəti, M.C.Bağırov və komandasının aqibəti və s. məsələlər işıqlandırılb.

Kitabda 30-cu illər repressiyalarına aid bir sıra yeni faklar qeyd olunub. Məsələn, Zaqafqaziya Kommunist təşkilatlarının VII qurultayının materialları əsasında göstərilir ki, Bakıda Lominadze qrupunun ifşa edilməsi, opportunizm, sağ təmayül və bunlara barışdırıcı münasibət üstündə partiya üzvlərinin 1931-ci ildə 53%, 1932-ci ildə 44,6%, 1933-cü ilin üç kvartalında 59,5 %-i partiyadan xaric olunmuş, appelyasiya qaydasında partiya kollegiyası 53,3% -in partiyadan çıxarılmasını təsdiq etmişdir. Zaqafqaziyada təmizləmə sahəsində "yaxşı" işləmiş 5 rayonun 4-ü Azərbaycanın payına düşürdü. Müəllif daha sonra M.C. Bağırovun Moskvanın göstərişlərini necə operativ yerinə yetirməsi haqqında yeni faktlar irəli sürür. Kitabda qeyd olunur ki, 29 iyul 1936-cı il tarixdə ÜİK(b)P MK-dan qapalı məktub alan M.C.Bağırov 3 gün ərzində əksinqilabi terrorçu-zinovyevçi qrupların Azərbaycanda fəaliyyətinə aid materialların hazırlanıb Moskvaya göndərilməsi haqqında göstəriş verib. 1937-ci ildə Moskvaya göndərilmiş hesabatların birində göstərilirdi ki, Azərbaycanda 32 nəfər rayon partiya komitəsinin katibi, 28 nəfər rayon icra komitəsinin sədri, 18 xalq komissarı və onların müavinləri, 66 mühəndis, 8 professor, 88 hərbi qulluqçu həbsə alınıb.

Kitabın yazıldığı dövr Azərbaycanın sovet rejimindən müstəqil dövlət

quruculuğuna keçid dövrünün ilk illərinə düşdüyünə görə bir sıra ziddiyyətlər özünü büruzə verir. Məsələn, müəllif Ə.Xanbudaqovun fəaliyyətini tədqiq edərkən ön plana onun Stalin rejiminə qarşı mübarizəsini çıxarır, lakin onun fəaliyyətinin digər sahələrinə münasibət bildirmir.

Sovet rejiminə xidmət göstərmiş bir çox şəxslər kimi Sarı Şəmistan da xidmət göstərdiyi rejimin qurbanı olub. Kitabda qeyd olunan, M.C.Bağırov və Şahverdiyanın imzası ilə təsdiq olunmuş 1935-ci ilin noyabrına aid sənəddə deyilir: "Antipartiyaçı hərəkətinə, ailə mühitində irticaçı ənənələrin qalıqlarına rəğbət bəslədiyinə görə Şəmsəddin Əyyubov RİK-in sədri vəzifəsindən azad edilsin və Əyyubovun partiya məsuliyyətinə cəlb etmək üçün bütün materiallar partiya kollegiyasına göndərilsin."

Hərbi kollegiyanın 5 yanvar 1938-ci il tarixli hökmü ilə Şəmsəddin Əyyubov güllənmiş və ölümündən sonra 6 iyun 1956-cı ildə bəraət alıb.

Kitabda 12 oktyabr 1937-ci ildə 44 yaşında güllələnmiş, 1958-ci ilin iyulunda bəraət almış Əyyub Şirin oğlu Xanbudaqov haqqında maraqlı faktlar da vardır. Müəllif onun 20-ci illərdə yazdığı "Təxirə salınmaz vəzifə" (Respublikada statistik hesabat işinin quruluşuna dair), "Azərbaycanda bizim ən yaxın vəzifələrimiz", "Təxirəsalınmaz məsələ", "Kolxoz üzvləri arasında gəlirin bölgüsünə dair" məqalələri haqqında məlumat verilib. Kitabda Ə.Xanbudaqovun sonrakı faciəsinin əsasını qoyan Az.K(b)P Bakı təşkilatının XVII Ümumbakı konfrasında (1 noyabr 1927-ci il) çıxışı verilmişdir. O, bu çıxışında Stalinin 1925-ci ildə XIV qurultayda irəli sürdüyü "Atəşin sola!" şüarını tənqid edərək konfransa aşağıdakı qətnamə layihəsini təklif edib:

- ÜİK(b)P MK siyasi və təşkilati xəttinin və işinin düzgün olmadığını qəbul etmək;
- XV qurultayın çağrılmasını bir ay geri çəkməyi zəruri hesab etmək, bütün materialları və müxalifətin platformasını dərc etmək, bütün qovulmuş müxalifətçiləri partiyaya qaytarmaq... mübahisə azadlığının və kim tərəfindən olursa-olsun başqa cür düşünənlərə qarşı cəza tədbirlərinin yol verilməməsinin zəruriliyi qeyd edilsin.

Müəllif Şəmistan Əyyubovun (Sarı Şəmistanın) fəaliyyətinə də birtərəfli yanaşır. "Sarı Şəmistan kimdir?" başlıqlı yazısında müəllif bu şəxsin 1921-1922-ci illər Şamaxı və Göyçay qəzalarında məsul işdə çalışdığını və Göyçay

qəzasında Hüseyn Əfəndinin, Gülməmmədin, Əsədullanın, Cırtan Əlinin, Hacı İslamın oğullarının, Göyçay, Ağdam, Nuxa, Şuşa və Şamaxı qəzalarında fəaliyyət göstərən Əyriçubuğun dəstəsinin məhv edilməsinə rəhbərlik etdiyini müsbət hal kimi qiymətləndirir.

S.Musayevin "Böhtanın qurbanı: Şəxsiyyətə pərəstiş dövrünün qurbanlarından biri Azərbaycan KP MK-nın keçmiş katibi Ə.Xanbudaqov" məqaləsində (111,23 avqust 1989) 20-30-illərdə Moskvanın Azərbaycanda yeritdiyi ayrı-seçkilik siyasətinə qarşı kommunist partiyası daxilində öz etirazını bildirmiş Əyyub Xanbudaqova qarşı aparılmış böhtan kompaniyası haqqında məlumat verilir. Müəllif qeyd edir ki, 1920-ci illərdə AK(b)P daxilində Moskvanın Azərbaycanın daxili işlərinə qarışmasına, Rusiyadan gətirilmiş köçkünlərin respublikada məskunlaşmasına, dövlət idarələrinin ruslaşdırılmasına və s. qarşı çıxanlar arasında rəhbər kommunistlər də var idi və bunlardan biri də Ə. Xanbudaqov idi.

M.Ə.Rəsulzadə onun fəaliyyəti haqqında belə yazmışdı: "Biz Moskvanın Azərbaycana müdaxiləsinə qarşı səslərini yüksəltmiş bulunan Xanbudaqovları unutmamalıyız". (22, 26 aprel 1991)

30-cu il qurbanları müxtəlif yerlərdə, o cümlədən  Xəzər dənizinin Nargin, Bulla və s. adalarında işgəncələrə məruz qalmış və güllələnmişlər. N.Barski tarixin açılmamış səhifələri silsiləsindən yazdığı "Xəzərdə ölüm adası" məqaləsində (204,17 dekabr 1989) Bulla adasında 30-cu illərdə həyata keçirilmiş dəhşətli hadisələrdən bəhs edir.

"Azərbaycan tarixi problemlərinin cavan tədqiqatçılarının ikinci respublika elmi konfransının ( 27-28 mart 1992)" materiallarında nəşr olunan C. Adışovanın "Repressiya və müharibə dövrünün Azərbaycanın müasir yazıçılarının əsərlərində təsviri" adlı məruzəsində Mehdi Hüseynin "Yeraltı çaylar dənizə axır", Nəbi Xəzrinin "Gecə döyülən qapılar", Ş.Qurbanovun  "Sənsiz", İ.Hüseynovun "Tütək səsi", "Saz", C.Əlibəyovun "Mənim analı dünyam", "Sınaq", "Qayalarda göz yaşı", "Hərb oyunları" və s. bədii əsərlərdə repressiya və müharibə dövrünün faciələrinin necə təsvir olunduğunu tədqiq edilib.

Q.İlkinin  "Məşum 37-ci ilin acı xatirələrindən" adlı məqaləsində (111, 17 iyun 1988)  30-cu illər faciələrinə aid müxtəlif faktlar işıqlandırılır.

Z.Rüfətoğlunun "Repressiya edilmiş gerb" məqaləsində (354, 13 sentyabr

1990) Stalin rejiminin hətta Azərbaycan SSR-in ilk gerbindən də ehtiyat etdiyini, onun üzərində olan aypara işarəsinə düşmən münasibət bəslədiyinə görə bu gerbi ləğv edib, yeni, ayparasız gerbin qəbul edilməsi haqqında xüsusi göstəriş verildiyi barədə yeni tarixi faktlar açıqlanıb.

Sovet tarixşünaslığının verdiyi məlumata əsasən 1927-1938-ci illərdə həbsxanalarda ölənlər və acından ölənlərin sayı 7,9 milyon nəfər olub, təqiblərdən yaxa qurtarmaq üçün 2 milyon adam Sovet İttifaqını tərk edib. (498, № 4,1989, s.181)

M.Katiblinin "30-cu illərin faciəsi" adlı məqaləsində (204,11 iyun 1988) Azərbaycan xalqına qarşı repressiya dövründə edilmiş cinayətlər faktlarla göstərilib.

Ş.A.Göyşəkin "Repressiyalara məruz qalmış hüquqşünasların həyatından" adlı məqaləsində (112, 10 yanvar 1991-ci il) bir sıra ziddiyyətli məqamlar var. Müəllif bu məqaləni 1921-1922-ci illərdə Azərbaycan SSR Xalq Maarif Komissarının müavini, 1922-1929-cu illərdə Azərbaycan Xalq Ədliyyə Komissarı, 1930-1933-cü illərdə Naxçıvan Vilayət Komitəsinin birinci katibi, 1933-1935-ci illərdə Gürcüstan K(b)P Borçalı Qəza komitəsinin katibi, 1936-cı ildə Azərbaycan SSR prokuroru, 1937-ci ildə SSRİ EA Azərbaycan filialının sədr müavini olmuş və 1938-ci ildə repressiyaya məruz qalmış Bahadır Qasım oğlu Vəlibəyova həsr edib. Müəllif məqalədə yazır: "B.Vəlibəyov haqqında ətraflı məlumat əldə etmək üçün çox mənbələrə əl atdım. Elə bil Vəlibəyov adlı bir bolşevik bu dünyaya gəlməyibmiş və XI ordunun sırasında belə bir adam Bakıya hücum etməyibmiş. Azərbaycan tarixinin üç cildlik saxta tarix kitabında Şaumyan, Stalin, Çaparidze, Orcanikidze kimi maskalanmış şeytanların adları yan-yana düzüldüyü halda Vəlibəyovun adı ötəri də olsa xatırlanmır." Müəllifin bunu tarixin saxtalaşdırılması kimi qiymətləndirilməsi ilə razılaşmaq olar. Lakin sonda bununla əlaqədar Sabirin "Kim nə deyər bizdə olan qeyrətə" fikrini irəli sürməsi onun fikirlərində müəyyən ziddiyyətlərin oluduğunu göstərir. Çünki müəllifin Azərbaycanı işğal etmiş XI ordunun tərkibində təcavüzkar kimi Bakıya gəlmiş digər millətlərdən olan şəxslərin adları ilə yanaşı B.Vəlibəyovun adının da yazılmasının xalqın qeyrət məsələsinə aid olduğunu iddia etməsi fikrimizcə düzgün deyil.

Ümumiyyətlə sovet hakimiyyətinin digər illərindən fərqli olaraq, 1988-1991-ci illərdə 30-cu illər repressiyalarına aid yazılmış kitab və məqalələrin

bir çoxu üçün xarakterik olan cəhətlər mövcuddur. Bu xarakterik cəhətlər də ondan ibarətdir ki, həmin illərdə nəşr olunan kitab və məqalələrdə sovet dövrü saxtakarlıqları, cinayətləri ifşa olunsa da bir çox müəlliflər bu cinayətlərin sovet rejiminin mahiyyətindən doğduğunu aydın şəkildə dərk edə bilməmiş, özlərini sovet rejimindən ayrı hiss edə bilmədiklərinə görə yazılarında müəyyən ziddiyyətli nəticələrə gəlmişlər.

Bakıda 1998-ci ilin 6-7 noyabr tarixində "Qafqazda sovet totalitarizmi (1920-1930-cu illər)" mövzusunda keçirilmiş elmi konfransın materiallarında çap olunmuş V.Həbiboğlunun "20-ci illərin əvvələrində Bakıda və onun ətrafında həyata keçirilən repressiyalar", C.Həsənlinin "30-cu illərin repressiyalarında pantürkizm ittihamı", C.Qasımovun "Repressiya və deportasiya totalitarizmin idarə və iş üsulu kimi", M.Quluzadənin "20-30-cu illərdə Azərbaycanda din xadimlərinə və müqəddəs yerlərə qarşı aparılan repressiyalar", S.Vəliyevin "20-30-cu illərin repressiyaları və onları şərtləndirən amillər" və s. məqalələr problemin tədqiqi sahəsində irəliləyiş hesab oluna bilər.(224,s.43-48, 77-85, 147-150)

R.Salmanlının "Güllələnəndən 77 il sonra arzuları çin olan alim" məqaləsində (23,13 İyun 2014) 30-cu illərdə repressiyaya məruz qalmış görkəmli ziyalılardan biri, Vəli Xuluflu haqqında məlumat verilir. Məqalədə qeyd olunur ki, Vəli Xuluflu 1926-cı ildə "Azərbaycan xalq ədəbiyyatından materiallar" seriyasından "El aşıqları" kitabını çap etdirir. Bundan bir il sonra gənc tədqiqatçının Şamxor və Tovuz saz-söz ustadlarından bəhs edən ikinci "El aşıqları" kitabı işıq üzü görür. 1927-ci ildə "Koroğlu" dastanının Aşıq Hüseyn Bozalqanlının yenidən yazdığı iki qolunu, 1929-cu ildə isə dörd qolunu və altı nağılvari əhvalatı kitab halında nəşr etdirir. 1928-ci ildə "Tapmacalar" kitabını tərtib edir.

Vəli Xuluflu 1928-ci ildə Bakıda keçirilən Azərbaycan aşıqlarının I qurultayında iştirak edib bir çox görkəmli aşıqlarla yaxından tanış olur. 1929-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna elmi katib vəzifəsinə irəli çəkilir. Az sonra institutun bazasında yaradılmış Dil-ədəbiyyat və incəsənət bölməsinə direktor (1932) təyin edilir və 1933-cü ilin dekabrınadək bu vəzifədə işləyir. 1933-cü ildə Dil, Ədəbiyyat və İncəsənət bölməsi ləğv edildikdən sonra bir müddət Mərkəzi Arxiv İdarəsinin müdiri, Azərbaycan SSR Xalq Maarif Komissarlığında Universitet və elmi-tədqiqat müəssisələri idarəsinin rəisi, həmin ilin may ayından Dövlət Elm Şurasının sədr müavini olur. 1936-cı ildən SSRİ EA Azərbaycan

Filialının (AMEA o vaxt belə adlanırdı) baş mütəxəssisi, SSRİ EA Azərbaycan Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun direktor müavini (1936-1937) və digər vəzifələrdə çalışır.

Onun əsas xidmətlərindən biri də 1920-ci ildə Azərbaycanı Öyrənmə Mərkəzinin (Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti) əsasını qoyması və inkişafındakı fəaliyyəti ilə bağlıdır. 1920-1930-cu illərdə latın qrafikalı yeni türk əlifbasına keçidin tərəfdarı və fəal təbliğatçısı olub. Hətta bu barədə 1925-ci ildə "Yeni türk əlifbası ilə yazı qaydaları" adlı kitab da hazırlayıb nəşr etdirib.

1926-cı ildə Bakıda I Türkoloji qurultayın təşkili və keçirilməsində yaxından iştirak etmişdi. Zaqafqaziya Federasiyasının yaradılmasının 10 illiyi münasibətilə elmi-ictimai sahədə gördüyü xidmətlərə görə Vəli Xuluflu "Fəxri tərifnamə" ilə təltif edilmiş və ona qızıl qol saatı hədiyyə edilmişdi.

Türk xalqlarının ortaq latın əlifbasına keçməsini qısqanclıqla qarşılayan Moskva bu təşəbbüsə çox mənfi münasibət bəsləyirdi. Moskvanın göstərişi ilə türkdilli respublikalardakı bütün türkoloq alimlər ciddi nəzarətə götürülmüşdü.

1929-cu ildən dosent, 1931-ci ildən professor kimi şərəfli bir ad daşıyan, 1936-cı ildə Az.FAN-ın həqiqi üzvlüyünə qəbul edilən tədqiqatçı-alim əksinqilabçı və millətçi təşkilatın üzvü olduğu qeyd edilərək, tezliklə həbs edilməsi qərara alınmışdı.

Vəli Xuluflu Dövlət Təhlükəsizliyi İdarəsinin dördüncü şöbəsi tərəfindən 1937-ci il yanvarın 28-də gecə həbs edilir. Onun həbs olunması barədə qərarı NKVD-də məsul vəzifə tutan, həmin dövrdə azərbaycanlılara qənim kəsilən erməni Sumbatov və onun əlaltısı Qalstyan imzalayırlar.Türkiyənin xeyrinə casusluqda müqəssir bilinərək həmin il oktyabrın 13-də güllələnən Vəli Xuluflunun işinə 1956-cı il noyabrın 17-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası yenidən baxıb, fəaliyyətində cinayət tərkibi olmadığına görə ona bəraət verir. (23,13 İyun 2014)

Şamaxının millət vəkili Elxan Süleymanovun rəhbərliyi, M.Zülfüqarlı D.Musayevin iştirakı ilə 2012-ci ildə çapdan çıxmış "Şamaxı qırmızı terrorun hədəfində" (1930-40-cı illər repressiyaları) kitabı 1930-40-cı illərdə sovet hökumətinin Şamaxıda həyata keçirdiyi repressiyalardan, xüsusilə Təklə hadisəsindən və "Şamaxı prosesi"ndən ətraflı bəhs olunur.

Kitabın "Ön söz" hissəsində E. Süleymanov qeyd edir ki, "fikrimizcə, XI rus ordusunun 29 aprel 1920-ci il tarixdə Şamaxının işğalı ilə başlamış repressiyalarını,

bolşevik və erməni daşnaklarının 1918-ci ilin mart-aprel aylarında törətdikləri soyqırımın davamı kimi qiymətləndirmək lazımdır. Çünki, əgər Şamaxıda 1918-ci ilin mart-aprel aylarında soyqırımını erməni S. Şaumyanın göstərişi ilə erməni S.Lalayev törətmişdisə, 27 oktyabr -2 noyabr 1937-ci il Şamaxıda keçirilən kütləvi məhkəmə prosesində ittiham olunanların istintaqını erməni millətindən olan A. Markaryan, X. Qriqoryan, M. Malyan və başqaları aparmışdı."

Bu dövrdə Azərbaycanın 51 rayonunun 31-də Xalq Daxili İşlər Komissarlığının yerli şöbələrinin rəisi vəzifəsini ermənilər tuturdu. Məsələn, Qaryagində (indiki Fizuli) Saakov, Şaxanyan, Vartanyan, Nuxada (indiki Şəki) Markaryan, Balakəndə Sərkisov, Astarada Arakelov, Lerikdə Xaçaturov, Astraxanbazarda (indiki Cəlilabad) Avakyan, İsrailyan, Puşkində (indiki Biləsuvar) Zakaryan, Yardımlıda Sevanyan, Masallıda Avanesov, Ağcabədidə Sərkisov, Zəngilanda Zərgəryan, Markaryan, Qaziçyan, Cəbrayılda Avanesov, Cigirdyan, Şahbuzda Qriqoryan, Samuxda Petrosyan, Qazaxda Qriqoryan, Naxçıvanda Baqdasarov, İsrailyan, İonesyan, Evonyan, Ağacanov, Seyranov, Akopov, Parseqov, Bakıda Avanesov, Arutyunov və başqaları bu vəzifədə idilər. (70s. 345.)

Kitabın I fəsli "Təklə faciəsi adlanır. Bu fəsildə müəlliflər qeyd edirlər ki, Şamaxıda 30-cu illərdə baş vermiş repressiyalar müxtəlif mərhələlərdə davam etmiş və 1937-ci ilin oktyabrında keçirilən açıq məhkəmə prosesi zamanı kulminasiya nöqtəsinə çatmışdır. Lakin 1937-ci ilin oktyabrında keçirilmiş məhkəmə prosesinə qədər Şamaxıda siyasətdən uzaq, kollektivləşmənin sərt, ağır illərindən salamat çıxaraq sovet rejimini qəbul etmiş sadə kəndlilərə qarşı da repressiyaların həyata keçirilməsi rejimin anti-hümanist, totalitar mahiyyətindən xəbər verir. Bu fəsildə çoxcildli "Azərbaycan tarixi" kitabının VI cildinə istinadən Təklə hadisəsi haqqında aşağıdakı qısa məlumat verilmişdir: "Şamaxı faciəsi tarixə qara hərflərlə daxil olmuşdur: 1937-ci ilin iyununda Təklə kəndindəki Molotov adına kolxozun sədrinə tapşırıq verilir ki, tarla və fermalardakı staxanovçu novatorların respublika toplanışında iştirak etmək üçün 70 nəfər qabaqcıl kolxozçunun siyahısını versin. Həmin siyahı tutulur və yaşı 30-dan yuxarı olan 70 kişi bu siyahıya daxil edilir. Onlar gecə ikən həbs olunur. Bakıya-Xalq Daxili İşlər Komissarlığının daxili həbsxanasına gətirilir. Onlardan 60 nəfəri edam edildikdən sonra o saat elan olunur ki, guya "Həmid Sultanovun başçılığı ilə Şamaxı rayonunda antisovet,

əksinqilabçı, üsyançı, casus-terrorçu və burjua-millətçi təşkilat fəaliyyət göstərir. 1937-ci ildə buna oxşar gecə reydləri İsmayıllı, Əli-Bayramlı (indiki Şirvan), Cəbrayıl, Astraxanbazar (indiki Cəlilabad), Qonaqkənd və başqa rayonlarda da keçirilib. Bəzi hesablamalara görə 70 minə yaxın, başqa hesablamalara görə isə 100 mindən də artıq adam etaplarla düşərgələrə göndərilmiş, üç mindən artıq kəndli isə məhv edilmişdi."(70,s.344-345)

SSRİ XDİK-nın 20 sentyabr 1937-ci il tarixli "Xarbinlər adlanan yapon terrorçu, təxribatçı və casus agent şəbəkəsi"nə qarşı mübarizə haqqında əmrindən sonra 1937-1938-ci illərdə ölkə üzrə 52.906 nəfər "yapon casusu" tutulmuşdu. Acınacaqlı da olsa qeyd etmək lazımdır ki, bu cür saxta ittihamla tutulanların içərisində Yaponiyadan xeyli uzaqda olan azərbaycanlılar, o cümlədən şamaxılılar da var idi.

Kitabın "1937-ci ilin oktyabrında Şamaxıda keçirilmiş məhkəmə prosesi" adlanan II fəsli Şamaxı şəhərində 27 oktyabr-2 noyabr 1937-ci il tarixində "kontrrevolyusyon, üsyançı, şpion-terrorçu, diversiyaçı-ziyançı, burjua nasionalist" təşkilatının işi üzrə keçirilən məhkəmə prosesindən bəhs edir. Müəlliflər qeyd edirlər ki, Bakı-Şamaxı yolunun çəkilişinə 1936-cı ilin dekabrından H.Sultanovun rəhbərlik etdiyi Xalq Kommunal Təsərrüfat Komissarlığının da cəlb olunması, onun sıradan çıxarılması məqsədi daşımışdı. Qabaqcadan hazırlanmış təxribatın ssenarisinə uyğun olaraq Şamaxıda əksinqilabi mərkəzlə bağlı əfsanələr uydurulmağa başlanmış və kütləvi həbslər aparılmışdı.

Müəlliflər qeyd edirlər ki, Şamaxıda keçirilmiş məhkəmə prosesi Azərbaycanda bu zaman keçirilən açıq kütləvi məhkəmə proseslərindən biri olsa da, ittiham olunanlar sosial tərkibinə görə diqqəti daha çox cəlb edir.

Şamaxı işi ilə əlaqədar kütləvi həbslər 6 ay ərzində, konkret 1937-ci ilin may-oktyabr aylarında baş vermiş, noyabrın 2- də məhkəmənin başa çatması ilə nisbətən səngimişdi. Müəlliflər Şamaxı prosesinin əsas səbəblərini, İ.Stalin və A.Jdanovun 1937-ci ilin mayında M.C.Bağırova göndərdikləri teleqramdakı "Azərbaycanda xalq düşmənlərinə qarşı mübarizə zəif aparılır" xəbərdarlığında, 30 iyul 1937-ci il tarixli, 00447 saylı əmrlə N.İ.Yejovun "xalq düşmənlərini" üzə çıxarıb cəzalandırmaq üçün yerlərə say göstərməklə "plan tapşırığı" göndərməsində, Azərbaycan rəhbərliyindəki ziddiyyətlərdə və ən əsası rejimin mahiyyətində görürlər. Mərkəzin bu xəbərdarlığından M.C.Bağırov nəticə çıxararaq Şamaxı işi

kimi saxta ittihamlarla kütləvi şəkildə cəza tədbirlərini daha da gücləndirməyə, Moskvanın "repressiya planı"nı artıqlaması ilə yerinə yetirməyə başlamışdı. Bu xəbərdarlıqdan sonra M.C.Bağırov bir tərəfdən özünü qorumaq və ya sığortalamaq üçün repressiyaları gücləndirirdisə, digər tərəfdən bu şəraitdən sui-istifadə etməklə hakimiyyətin yuxarı pilləsində olan rəqiblərini sıradan çıxarırdı. Onlardan da biri Şamaxı prosesində müttəhimlər kürsüsündə oturmuş Həmid Sultanov idi. O zaman Azərbaycandakı hakimiyyətdaxili ziddiyyətlər, düşmənçilik çoxlu sayda partiya və sovet rəhbərlərinin repressiyaya uğramasına səbəb olmuşdu.

Kitabda qeyd olunur ki, Şamaxı prosesində ittiham olunan 14 nəfərdən 9 nəfəri ən ağır cəzaya-güllələnməyə, 5 nəfərinə isə müxtəlif müddətlərə həbs cəzasına məhkum olundular. Konkret olaraq 1937-ci il noyabrın 2-də Şamaxıda məhkəmənin hökmü ilə əmlakları 100 faiz müsadirə edilməklə Həmid Sultanov, Xəlifə Hüseynov, İsrafil İbrahimov, Əhməd Əmirov, Aram Avalov, Georgi Yurxanov, Ağalar Kələntərov, Əlisaab Məmmədov və Məmməd Məşədi Qədim Nadir oğlu Hüseynov ən yüksək cəzaya, güllələnməyə məhkum edilmişlər. Özlərinə məxsus əmlaklarının 50 faizi müsadirə edilmək və cəzasını çəkdikdən sonra 5 il seçki hüququndan məhrum edilməklə Sirac Cəbiyev 20 il, Mirələm Tarverdiyev 15 il, Babalı Bəkirov 12 il, Əli Sadıxov 10 il, Məmməd Mirzə Eybəliyev - İsrafilov 8 il həbs cəzasına məhkum edilmişdir. Məhkəmədən sonra hökm icra edilərək Sultanov Həmid, İbrahimov İsrafil, Hüseynov Xəlifə, Avalov Aram və Yurxanov Georgi güllələnmişlər. Güllələnməyə məhkum olunmuş digər şəxslər-Məmmədov Əlisaab, Hüseynov Məmməd Məşədi, Kələntərov Ağalar və Əmirov Əhmədin güllələnmə hokum SSRİ Ali Məhkəməsi tərəfindən müxtəlif müddətlərə azadlıqdan məhrum etmə ilə əvəz olunmuşdur. Ümumilikdə "Şamaxı işi" ilə əlaqədar 300 nəfərə qədər adam həbs və məhkum olunmuşdur.

Kitabın "Şamaxının repressiya qurbanları" adlanan III fəsildə Şeyxülislam Mirmöhsün Həkimzadə Sultanməcid Məcid oğlu Əfəndiyev Əfəndiyeva Zivər Məlik qızı, Möhsun Nəcməddin oğlu İsrafilbəyov (Qədirli), Qədirli Mələk Mustafa qızı, Sultan Məcid Qənizadə, Abbas Mirzə Əbdülrəsul oğlu Şərifzadə, Axundov Ağa Əbdülxalıq oğlu, Məmməd Xələfbəyov, Məhərrəmov Məhərrəm Rəsul oğlu, Hacıbaba Hacı Ələsgər oğlu Nəzərli, Nəzərli Zivər Məmmədəli qızı, Aşıq Mirzə Bilal Mustafa oğlu Mikayılov, Sultanov Qəzənfər Hacı Zeynal oğlu, Mahmudbəyov Ağalar bəy Mahmud bəy oğlu və represiyaya məruz qalmış digər

şamaxılılar haqqında məlumat verilib.

Kitabın "Nəticə" hissəsində qeyd olunur ki, ümumiyyətlə, araşdırmalar göstərir ki, tarixin ən qanlı rejimlərindən olan sovet rejiminin 20 milyon nəfər civarında günahsız qurbanı olmuşdur. Konkret Azərbaycanda ümumilikdə 1930-40 və 50-ci illərin əvvəllərində 70 min adam repressiyaya məruz qalmışdır ki, bunun da 29 min nəfəri ziyalılardır. Təkcə 1937-ci ildə 16 Azərbaycan generalı qətlə yetirilmişdir. Azərbaycanın Qazaxıstandakı səfirliyinin məlumatına görə, Stalinin əmri ilə repressiya illərində Qazaxıstanda 150 min azərbaycanlı öldürülmüş və bunlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnmişdir.

Azərbaycanın 1950-ci illərdəki ictimai-siyasi həyatının digər sahələrinə də aid bir sıra kitablar, məqalələr və dissertasiyalar həsr olunub. Məsələn, Q.Bağırovun 1958-ci ildə "Müasir dövrdə müharibələrin qarşısını almaq uğrunda xalqlar mübarizəsinin ümumdünya tarixi əhəmiyyəti" mövzusunda müdafiə etdiyi dissertasiyanı buna misal göstərmək olar.

İ.Stalinin ölmündən sonra onun etdiyi cinayətlərin üstünün açılması sovet tarixşünaslığında bu istiqamətdə yeni əsərlərin meydana çıxmasına səbəb oldu. Sov. İKP XX qurultayında (14-25 fevral 1956-cı il) N.S. Xuruşovun "Şəxsiyyətə pərəstiş və onun nəticələrinin aradan qaldırılması haqqında" məruzəsi və qurultayın eyni adlı qərarından sonra repressiya qurbanlarına bəraət verilməsi prosesi daha da genişləndi. N.S.Xuruşovun məruzəsində, Stalin tərəfindən xüsusilə XVII qurultaydan (1934-cü il) sonra partiyaya qarşı özbaşnalığın gücləndirməsi, bu qurultayda seçilmiş MK-nın 139 üzv və namizədindən 98 nəfərinin və ya 70 faizinin 1937-1938-ci illərdə həbs olunaraq güllələnməsi, qurultayın həlledici və məşvərətçi səsə malik 1966 nümayəndəsindən 1108 nəfərinin əksinqilabçı cinayətlərə görə həbs olunması və digər faktlar qeyd olunub. Məruzədə daha sonra göstərilir ki, kütləvi repressiyalar 1936-cı ilin axırlarında Stalin və Jdanovun 25 sentyabr 1936-cı il tarixində Soçidən Kaqanoviç, Molotov və digər Siyasi Şura üzvlərinə ünvanlanmış teleqramından sonra güclənib. Teleqramda deyilirdi: "Yoldaş Yejovun təcili surətdə Xalq Daxili İşlər Komissarı vəzifəsinə təyin edilməsini zəruri hesab edirik. Yaqoda trotski-zinovyevçi blokun ifşa edilməsi vəzifəsini layiqincə həyata keçirə bilmədi. Xalq Daxili İşlər Komissarlığı bu işdə 4 il kecikmişdir."

Məruzədə həmçinin göstərilir ki, repressiyalarda S.M.Kirovun qətlindən

sui-istifadə olunmuş, 1936-cı ilə nisbətən 1937-i ildə əksinqilabçı cinayətlərə görə həbs olunanların sayı on dəfə artmış, 1937-1938-ci illərdə Yejov tərəfindən Stalinə göndərilmiş minlərlə partiya, sovet, komsomol, hərbi və təsərrüfat işçisinin adı olduğu 383 siyahıya şəxsən özü sanksiya vermişdir. Məruzədə 1954-cü ildən XX qurultaya qədər 7679 nəfərin əksəriyyətinin ölümündən sonra bəraət  alması və s. məsələlər barədə də məlumat verilib.(756,s.398-413)

Azərbaycan 18 oktyabr 1991 -ci il tarixində  dövlət müstəqilliyini bərpa etdikdən sonra kommunist rejimi dövründə repressiyaya məruz qalmış şəxslərə bəraət verilməsi prosesi daha da güclənmişdir. "Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında" Azərbaycan Respublikasının Qanunun (15 mart 1996-ci il) qəbul olunması, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin arxiv materiallarına istinadən 1920, 1921, 1923, 1931, 1932, 1935 və 1937-1938-ci illərdə tutulan və güllələnən şəxslərin siyahısını dərc edilməsi,  AŞPA-nın 2010-cu il yay sessiyaları çərçivəsində Azərbaycan nümayəndə heyətinin "Sovet siyasi repressiyaları insanlıq cinayətkarlığı kimi" adlı yeni sənədlə çıxış etməsi və AŞPA- nın bu məsələnin hərtərəfli tədqiqi üçün ayrıca məruzəçinin təyin olunması və s. buna əyani sübutdur.

Digər respublikalarda olduğu kimi Azərbaycan tarixçiləri də Stalin dövründə başı vermiş repressiyalara aid bir sıra kitab və məqlələr yazmışlar. Bu məqalə və kitablarda müəliflərin 1956-cı il Sov.İKP XX qurultayından sonra sovet tarixşünaslığında hakim olan xəttdən kənara çıxa bilməmələri özünü açıq aydın göstərir. Onlar faciələri doğuran səbəbləri kommunist rejiminin mahiyyətində deyil, İ.Stalin tərəfindən Lenin normalarının pozulması kimi qiymətləndirmişlər ki, bu da fikrimizcə faciələrin səbəblərinin obyektiv qiymətləndirilməsinə imkan vermir. Sovet tarixçiləri tərəfindən yazılmış kitab və məqalələrin  əksəriyyətində bu prosesə birtərəfli yanaşma mövcuddur və bu cür yanaşma hal-hazırda da qalmaqdadır.

Fikrimizcə, repressiyaların baş verməsinin əsas səbəbləri sovet rejiminin mahiyyətindən doğduğu halda sovet tarixşünaslığında bunu ayrı-ayrı şəxslərin, konkret desək, İ.Stalinin, L.Beriyanın, M.C.Bağırov və başqalarının səhvi kimi, Lenin normalarının pozulması kimi qələmə verilməsi kökündən yanlışdır. Bu fikri aşağıdakı kimi əsaslandırmaq olar:

Birincisi, terror, repressiya, qəddarlıq və digər antihumanist hallar,

cəmiyyəti antoqonist siniflərə bölən, insanı insana düşmən ruhunda tərbiyə edən kommunist ideologiyasının özündən doğurdu;

İkincisi, faktlar sübut edir ki, başqaları ilə müqayisədə rejimin yaradıcısı V.Lenin daha qəddar olmuş və İ.Stalini yalnız onun davamçısı kimi tənqid etmək daha düzgün olardı;

Üçüncüsü, sovet tarixşünaslığında Leninin hümanist kimi qələmə verilərək İ.Stalin və başqalarının qaniçən kimi təqdim edilməsi rejimin mahiyyətini ört-basdır etmək məqsədindən başqa bir şey deyil.

Azərbaycan tarixinin bir çox problemləri kimi Stalin dövrünün repressiyalarına aid sovet dövründən qalmış mövcud münasibətin də dəyişilməsinin vaxtı çoxdan çatıb. Təəccüblü də olsa qeyd etmək lazımdır ki, indiyə qədər bu mövzu barədə XX əsrin 50-ci illərdən formalaşmış konsepsiya dəyişilməz qalmışdır. Sanki həmin mövzu toxunulmaz elan olunmuş və bu barədə indiyə qədər yeni fikirlərin irəli sürülməsinə cəhdlər olmamışdır. Lakin problemi dərindən təhlil etdikdə sovet dövründən qalmış digər konsepsiyalar kimi Stalin dövrünün repressiyasına aid ehkamlara da son qoyulmasının vaxtının çatdığını aydın görmək olar.

Fikrimizcə hazırda Stalin dövrünün repressiyalarına sovet cəmiyyətində 1956-cı ildən sonra formalaşmış konsepsiyanın mövqeyindən deyil, müstəqil Azərbaycan dövlətçiliyi mövqeyindən yanaşılmasına ciddi ehtiyac var.

Repressiyalara məruz qalmış sovet rəhbərlərini tamamilə səhvsiz və günahsız hesab etmək fikrimizcə düzgün deyildir. Repressiyaya məruz qalmış bir çox sovet və partiya rəhbərlərinə qarşı saxta ittihamlar irəli sürülməsi, onların bu saxta ittihamlarla repressiyalara məruz qalması və 50-ci illərin ortalarında onlara bəraət verilməsi sovet rejiminin ziddiyyətlərindən doğan və bu rejimə aid olan məsələdir. Hətta müasir dövrdə aşkara çıxarılmış faktlar sübut edir ki, Stalin dövrü repressiyalarını ifşa etmiş N.S.Xuruşovun özü belə həmin prosesdə fəal iştirak etmiş və hətta repressiyaların təşəbbüskarından biri olmuşdur.

Stalin repressiyalarına münasibətdə sovet tarixşünaslığının buraxdığı səhvlər Azərbaycan tarix elmində hələ də qalmaqdadır. Bu səhvlərdən ən başlıcası repressiyalara məruz qalmış şəxslərin hamısına eyni prizmadan baxılmasıdır. Sovet reyiminin bəraət verdiyi şəxslərin heç də hamısının Azərbaycan xalqı qarşısında da günahsız olduğunu irəli sürmək düzgün deyil. Fikrimizcə repressiyalara məruz

qalmış şairlər, yazıçılar, elm adamları, sadə kəndi və fəhlə ilə kommunist rejimində rəhbər vəzifə tutmuş şəxsləri eyniləşdirmək kökündən səhvdir. Çünki ziyalılar bilavasitə rejimi qəbul etmədiklərinə və onun səhvlərini tənqid etdiklərinə görə repressiyalara məruz qalmışdılarsa, sovet rejimində rəhbər vəzifələr tutmuş və repressiya siyasətinə qulluq göstərmiş şəxslər hakimiyyət daxili ziddiyyətlərin, qruplaşmaların qurbanı olmuşlar. Repressiyaya məruz qalmış əksər sovet, partiya rəhbərləri heç bir zaman sovet hakimiyyətinə qarşı çıxmamış və bu rejimə canı dildən xidmət göstərmişlər. Azərbaycanda repressiyaya məruz qalmış bir çox sovet və partiya rəhbərlərinin Azərbaycanın dövlət müstəqilliyinə qarşı olması, həbs olunana qədər repressiya siyasətinə qulluq etmələri, hətta işğalçi orduya qarşı baş vermiş üsyanlarının yatırılmasına rəhbərlik edərək öz xalqına qarşı qırğınlar törətməsi, onların heç də günahsız olmadığını sübut edir. Bu şəxslərin əksəriyyəti Azərbaycanın dövlət müstəqilliyinə qarşı çıxdıqlarına, öz xalqına qarşı cinayətlərdə iştirak etdiklərinə görə məsuliyyət daşıyırlar. Onların əməlləri Azərbaycan Respublikasının hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 100, 101, 105, 113, 115, 116, 118, 120, 132, 133, 180, 181, 186, 188, 220, 274, 276, 277, 319 və digər maddələrində nəzərdə tutulan cinayət məsuliyyətinə tam uyğun gəlir. Bunlar hamısı ağır maddələrdir. Məsələn, bunlardan "Təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma" adlanan 100-cü və "Dövlətə xəyanət" adlanan 274-cü maddələri göstərmək olar.

"Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında" Azərbaycan Respublikasının Qanunun (15 mart 1996-ci il) 4-cü maddəsi "Bəraət hüququ olmayan şəxslər" adlanır. Bu maddədə qeyd olunur ki, "siyasi repressiya törədilməsində iştirak edənlər və sonradan özləri repressiyalara məruz qalan şəxslərə" bəraət verilmir.

Bütün bu faktlar onu göstərir ki, sovet dövründə repressiyalara məruz qalmış şəxslər barədə tədqiqatlar davam etdirilməli, onlara münasibətdə uzun illər mövcud olmuş birtərəfli yanaşmalardan əl çəkilməlidir.

İ.V.Stalin ÜİK(b)P XVIII qurultayında (10 mart 1939-cu il) repressiyaları böyük nailiyyət kimi qiymətləndirərək demişdir:"1937-ci ildə Tuxaçevski, Yakir, Uboreviç və başqa xainlər güllələnməyə məhkum edildilər. Bundan sonra SSRİ Ali Sovetinə seçkilər oldu. Seçkilərdə iştirak edənlərin 98,6%-i sovet hakimiyyətinə səs verdi. 1938-ci ildə Rozenqolts, Rıkov, Buxarin və başqa xainlər güllələnməyə

məhkum edildilər. Bundan sonra müttəfiq respublikaların Ali Sovetlərinə seçkilər oldu. Seçkilərdə iştirak edənlərin 99,4%-i Sovet hakimiyyətinə səs verdi." (361,s.740)

Bu və digər faktlar sovet cəmiyyətində 30-cu illərdə və sonralar keçirilmiş seçkilərin hansı şəraitdə baş verməsini və səsvermədə olan yüksək faizlərin necə yaranmasını, sovet demokratiyasının əsil mahiyyətini əyani surətdə göstərir.

"Bütün hakimiyyət sovetlərə!" şüarı ilə hakimiyyətə gələn bolşeviklər, proletariat diktaturasının bir forması olan, 1905-ci ildən formalaşmağa başlayan sovetləri hakimiyyət forması kimi qəbul etdilər. Sovetlərin 20-30-cu illərdəki fəaliyyətinə, bundan başqa xalq nəzarəti orqanlarının gördüyü işlərə aid Azərbaycan tarixçiləri tərəfindən bir sıra kitab və məqalələr yazılıb.(143,303, 334,372,458,508,647,747, № 2, 1963 və s.)

N.Məmmədov 1933-1941-ci illərdə Azərbaycan SSR-də kolxoz quruluşunun möhkəmlənməsində kənd sovetlərinin rolu, A.D.Muradova Bakı sovetinin 1926-1940-cı illər fəaliyyətinə aid dissertasiyalar müdafiə ediblər.

K.Rəhimovun 1959-cu ildə çapdan çıxmış "Azərbaycan Kommunist Partiyasının respublikada Sovetlərin möhkəmləndirilməsi uğrunda mübarizəsi (1921-1929 illər)" kitabı həcminə görə Azərbaycanda sovetlərin 20-ci illərdə fəaliyyətinə aid yazılmış ən böyük əsər hesab oluna bilər. Müəllif sovetlərin möhkəmləndirilməsi sahəsində kommunist partiyasının fəaliyyətini sovet mənbələrinə əsasən faktiki materiallar əsasında tədqiq edib. Lakin bu əsərdə də məsələlərə birtərəfli yanaşma özünü aydın şəkidə büruzə verir. Digər əsərlərdə olduğu kimi bu kitabda da sovetlərin hakimiyyət səlahiyyətlərini mənimsəmiş kommunist partiyasının fəaliyyətinə obyektiv qiymət verilməyib.

X.Əhmədovun "Azərbaycanda sovetlərin yaradılması və möhkəmləndirilməsi (1920-1925-ci illər)" kitabının (143) II və III fəsilləri tədqiq etdiyimiz dövrə aiddir. Kitabın "Sovetlərin möhkəmləndirilməsi uğrunda mübarizə (1921-1924-cü illər)" adlı II fəslində müəllif Azərbaycan SSR XKS-nin qəza, nahiyyə və kənd sovetlərinin yerli vergilər təyin etmək haqqında 1922-ci il 19 fevral və 22 aprel tarixli dekretlərini geniş şərh edib və sovetlərin işini təkmilləşdirmək üçün onların tərkibində ixtisarların aparıldığını müsbət iş kimi dəyərləndirib. Müəllif 1926-cı ildə nəşr olunmuş "Azərbaycan SSR-in Konstitutsiyasına" istinadən ZSFSR və SSRİ təşkil olunduqdan sonra 1921-

ci ildə I Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilmiş Azərbaycan SSR Konstitutsiyası əsasında yaradılmış 17 xalq komissarlığı əvəzinə 9 xalq komissarlığı saxlanıldığını, digər mənbələrə istinadən 1923-cü ilin ikinci yarısına qədər olan müddətdə respublikanın 16 qəza icraiyyə komitəsində 1497 nəfər əvəzinə 640 nəfər, 60 nahiyyə icraiyyə komitəsində 420 nəfər əvəzinə 180 nəfər, kənd sovetlərində 4160 nəfər əvəzinə 1200 nəfər işçi saxlandığını qeyd edib. Bundan başqa kitabın II fəslində 1924-1925-ci tədris ilində respublikada savadsızlığı ləğv etmə məktəblərinin sayının 1922-1923-cü tədris ilinə nisbətən 6 dəfə, onlarda oxuyanların sayının isə 9 dəfə artdığı qeyd olunub. Kitabın bu fəslində həmçinin 1925-ci ilin əvvəllərində respublikada savadsızlığın ləğvi üçün 1122 məktəbin fəaliyyət göstərdməsi və həmin ildə bu məktəbləri 30 min nəfər müdavimin bitirməsi və s. məsələlər haqqında da məlumatlar verilib.

Kitabın "Sovetlərin işinin canlandırılması (1924-1925-ci illər)" adlanan III fəslində müəllif sovetlərin işində yol verilmiş bəzi nöqsanları sənədlər əsasında tədqiq edib. Azərbaycan SSR Ali Məhkəməsinin 22 noyabr 1924-cü il tarixli iclasının protokollarına istinadən müəllif Azərbaycan qəzalarında yerli sovet orqanları tərəfindən hökümətin vergi qanunlarında müəyyən etdiyi normalardan əlavə müxtəlif formalarda özbaşına vergi toplamasını nöqsan kimi göstərib. Lakin müəllif bu cür özbaşınalıqlara Azərbaycan SSR XKS-nin qəza, nahiyyə və kənd sovetlərininin yerli vergilər təyin etmək haqqında verdiyi 1922-ci il 19 fevral və 22 aprel tarixli dekretlərin şərait yaratmasına münasibət bildirməyib. Daha sonra müəllif Salyan qəzasında vergi toplanarkən kəndlilərin incidilməsi, döyülməsi və həbs edilməsini, Lənkəran qəzasının Masallı və Pirişib kəndlərində bir cüt heyvanı, 3-5 desyatin torpağı olan kəndlilərin seçki hüququndan məhrum edilməsini, Şamaxı qəzasında kəndlilərin böyük əksəriyyətinin allaha inanmaları, kommunistlər haqqında bir dəfə pis söz danışmalarına görə və digər bəhanələrlə seçki hüququndan məhrum edilmələrini tənqid edən partiya rəhbərliyinin fəaliyyətini yüksək qiymətləndirib. Müəllif göstərir ki, əhalinin müxtəlif bəhanələrlə seçki hüququnun əlindən alınması nəticəsində Şamaxı qəzasının Xilmili kəndində 1924-cü ildə keçirilmiş sovetlərə seçkilərdə 4000 nəfər kənd əhalisindən yalnız 200 nəfəri iştirak edib. Müəllifin fikrincə bütün bu nöqsanlar əhalinin sovet hakimiyyətindən narazılığının artmasına və kənd əhalisinin 53,5 %-ni təşkil edən ortababların qolçomaqların tərəfinə keçməsinə səbəb olub. (143)

F.V.Axundovun 1963-cü ildə yazdığı "Xalq təsərrüfatının sosialistcəsinə yenidən qurulmasının başa çatması dövründə kənd sovetlərinin fəaliyyəti (1933- 1937-ci illər)" adlı dissertasiyada sovet tarixşünaslığında geniş yayılmış sosializmin tam qələbəsi və bu qələbədə kənd sovetlərinin rolu tədqiq olunub.

Ümumiyyətlə sovet tarixçilərinin sovetlərin fəaliyyətinə həsr olunan əsərlərində müəlliflər əsasən sovetlərin fəaliyyətinə aid çoxsaylı faktları şərh etməklə onların dövlət orqanı kimi nüfuzunu yüksəltməyə səy göstəriblər. Lakin onlar sovet hakimiyyəti illərində kommunist partiyasının sovetlərə məxsus hakimiyyəti de-fakto ələ keçirməsini, sovetlərin isə onların göstərişlərini yerinə yetirən bir əlavə quruma çevrilməsinin səbəblərini izah etməyiblər. Bu cür nöqsanlar sovetlərin fəalliyyətinin tarixşünaslığına aid sovet tarixçilərinin əksər əsərləri üçün xarakterikdir.

Xalq nəzarəti orqanlarının 20-30 illərdəki fəaliyyətinə aid həm mərkəzdə, həm də Azərbaycanda yazılmış kitab və məqalələrdə müəlliflər keçid dövründə xalq nəzarət orqanlarının dövlət aparatı və xalq təsərrüfatının müxtəlif sahələrinə nəzarətin təşkili sahəsində işini faktlara əsasən işıqlandıraraq, bu orqanın vacibliyini sübut etməyə çalışıblar. Lakin onlar demokratik cəmiyyətlərdə mövcud olan ictimai nəzarətlə sovet rejimində olan xalq nəzarətinin mahiyyəti arasında fərqləri göstərməmiş və çox zaman subyektivcəsinə sovet rejimində nəzarət funksiyasını yerinə yetirən çoxsaylı qurumların zəruri olduğunu təbliğ ediblər. Tarixi faktlar isə sübut edir ki, kommunist rejimində mülkiyyətə münasibətdən, yəni rejimin mahiyyətindən yaranan rüşvətxorluq və ümumxalq mülkiyyətini oğurlamaq hallarının qarşısını bu cür qurumların sayını və ya repressiv halları artırmaqla almaq mümkün deyil. Əksinə bu qurumların çoxluğu bir müddətdən sonra həmin neqativ halların çoxalmasına gətirib çıxarır. Deməli cəmiyyətin inkişafı üçün müxtəlif nəzarət orqanlarının işini subyektivcəsinə təqdir etmək əvəzinə rejimin mahiyyətindəki nöqsanların aradan qaldırmasına fikir vermək daha düzgün olar. Lakin rejimin tədqiqatçılar qarşısında qoyduğu tələblər onlara bu problemin də tədqiqində obyektiv mövqe tutmasına imkan verməyib.

Azərbaycanın 1920-1930-cü illərə aid dövlət və hüquq tarixinə, beynəlxalq əlaqələrə aid yazılmış dissertasiya və kitablar da dövrün tədqiqində mühüm rol oynayır.(223,641 və s.)

S.Seyidova 1994-cü ildə müdafiə etdiyi "Azərbaycanın beynəlxalq əlaqələri

(1920-1930-cu illər)" adlı namizədlik dissertasiyasında Azərbaycanın 1920-1930-cu illərdə 40-a yaxın dünya dövlətləri ilə iqtisadi, ticarət əlaqələri saxladığı, 1920-1925-ci illərdə xarici firmalarla müqavilələr bağladığı, xalq təsərrüfatının müxtəlif sahələrini bərpa etmək üçün mütəxəssislər dəvət etdiyi qeyd olunub. Müəllif göstərir ki, bu illərdə iqtisadi əlaqələrin konsessiya forması inkişaf edib, İranla müştərək müəssisələr yaranıb, Bakı yarmarkası və Zaqafqaziya Şərq Ticarət Palatası təşkil olunub. Bütün bunlar Azərbaycana qonşu olan İran, Türkiyə ilə əlaqələrinə kömək edib. Müəllif öz tədqiqatında sonradan bu prosesin inkişafına imkan verilməmsinə, əksinə zəiflədilməsinə tənqidi münasibət bəsləyib.

A.P.Əliyev, A.Məmmədov, H.Fərruxov, V.Hacıyev, F.V.Axundov, T.K.Babayeva və digər alimlər xalq təsərrüfatının sosialistcəsinə yenidən qurulmasının başa çatması, sosializm yarışı, staxanov hərəkatının Azərbaycanda yayılması və s. mövzulara aid məqalə və kitablar həsr ediblər. (66, № 4,1985, s.54 -59; 113,145, 277 və s.)

P.A.Əliyevin 1955-ci ildə çapdan çıxmış "Azərbaycanın neft sənayesində sosializm yarışı (1935-1941-ci illər)" kitabında iqtisadiyyatın inkişafında sosializm yarışının müsbət rol oynadığını sovet mənbələrindəki faktlara istinad edərək sübut etməyə çalışıb. Müəllifin sosializm yarışının əsil mahiyyətinə, onun formal cəhətlərinə tənqidi münasibət bəsləməməsi kitabın birtərəfli mövqedən, sırf kommunist rejiminin siyasətinə uyğun mövqedən yazıldığını göstərir.

O.A.Rzaquliyev 1917-1937-ci illərə aid sosializm quruculuğu tarixinin müasir burjua tarixşünaslığı tərəfindən saxtalaşdırılmasının tənqidinə aid bir sıra kitab və məqalə yazıb.(700) O, bu mözuda müdafiə etdiyi doktorluq dissertasiyasında burjua tarixçilərinin Azərbaycanda 20-30-cu illərdə baş verənlər prosesləri təhrif etməkdə ittiham edir. Lakin burjua alimlərinin Azərbaycanın XX əsrin 20-30-cu illərinə aid fikirlərinin sovet tarixşünaslığındakı fikirlərə nisbətən daha obyektiv olması sonrakı illərdə yeni faktlarla sübut olundu. Lakin buna baxmayaraq bu cür tədqiqatların hamısı üçün xarakterik olan bir müsbət cəhət var ki, bu da həmin məqalə və kitablarda burjua alimlərinin əsərlərindən götürülmüş çoxlu sayda faktların olmasıdır. Bu faktlar müasir dövrdə alimlərə öz tədqiqatlarında yaxından kömək göstərir. Hətta bu faktlara obyektiv yanaşmaqla sovet tarixşünaslığının tənqidinə həsr olunmuş elmi tədqiqat işi yazmaq mümkündür.

20-30-cu illərə aid əsərlər yazmış sovet tarixçiləri 30-cu illərin axırlarında sosializm quruculuğunun başa çatdığını və ölkədə sosializmin tam qələbə çaldığını sübut etməyə çalışaraq, bunun əksini söyləyən alimlərə qarşı müxtəlif ittihamlar irəli sürüblər. Lakin 80-ci illərin ikinci yarısından etibarən sovet mətbuatının özündə belə bu məsələ ilə bağlı sovet tarixşünaslığını tənqid edən məqalələr çap olunmağa başlanılıb. Məsələn, Y.Vittenberqin Azərbaycan dilinə tərcümə edilərək çap olunmuş “Biz hansı sosializm qurmuşuq?” məqaləsində (204,16 dekabr 1988) sosializm quruculuğunu təbliğ edən sovet tarixşünaslığı faktlarla tənqid edilib.

E.Məmmədova “Azərbaycanda 1920-30-cu illərdə sosialist quruculuğu və onun nəticələri” adlı məqaləsində (224,s.93-96) 1921-1925-ci illər Bakıda neft hasilatının iki dəfə artaraq müharibədən əvvəlki səviyyənin 64%-ni, kənd təsərrüfatı məhsulları isə 72,8 %-ni təşkil etməsini, birinci beşilliyin yekunlarına görə 35 yeni sənaye müəssisəsinin istifadəyə verilməsini və s. faktları qeyd edib. Məqalənin sonunda müəllif göstərir ki, müasir dövrdə Azərbaycan SSR-in tarixində olan müsbət halları sadəcə kənara tullamaq, yalnız mənfi hallar haqqında danışmaq düzgün deyil.

XX əsrin 30-cu illərində beynəlxalq aləmdə baş verən hadisələr, dövlətlərarası ziddiyyətlər və Almaniyada hakimiyyətə gəlmiş nasional-sosialistlərin dünya ağalığı iddiaları II dünya müharibəsinin başlaması üçün ilkin şərtləri yetişdirirdi. Bu dövr üçün xarakterik olan ölkənin müdafiə qüdrətinin artırılması mövzusuna Azərbaycan alimləri də məqalə və kitablar həsr ediblər.

N.Əlizadənin 1961-ci ildə nəşr olunmuş “Sosialist cəmiyyətinin möhkəmlətmək və inkişaf etdirmək uğrunda mübarizə-ölkənin müdafiəsinin möhkəmləndirilməsi (1938-iyun 1941-ci il.)” adlı kitabında 1933-cü ildə Almaniyada faşist partiyasının hakimiyyətə gəlməsi və işğalçı siyasət yeritməsi, ayrı-ayrı ölkələrlə aparılan sövdələşmələr, SSRİ-nin müharibənin qarşısını almaq uğrunda mübarizəsi, həmçinin ölkənin müdafiə qabiliyyətinin daha da artırılması və s. məsələlər işıqlandırılıb.

20-30-cu illərdə SSRİ xalqlarının sosial strukturunda baş verən dəyişikliklərə aid çoxlu sayda kitablar yazılıb, bu problemin tarixşünaslığına aid Moskvada ayrıca kitab nəşr olunub.(570)

20-30-cu illər dövrünü özündə əks etdirən sovet tarixşunaslığının təhlili göstərir ki, müxtəlif mövzularda yazılmış çoxlu sayda kitab və məqalələr bir

mövqedən, yəni yalnız kommunist partiyasının mövqeyindən yazılmasına baxmayaraq bu əsərlər faktiki materialların zənginliyi, bəzi hadisələr haqqında yeganə mənbəşünaslıq bazası rolu oynamaq və s. baxımdan əhəmiyyətlidir. Ona görə də bu əsərlərə həssas, tərəfsiz, obyektiv mövqedən yanaşmaqla 20-30-cu illər tarixşünaslığını yeni əsərlərlə zənginləşdirmək aktual olaraq qalır və tarixçilərin gələcəkdə bu dövrə yünidən müraciət etmələrinə ciddi ehtiyac var.

## II FƏSİL. 1939-1945-ci illərin tarixşünaslığı

Azərbaycan tarixinin ən gərgin və ziddiyyətli dövrlərindən biri də 61 ölkəni, yer kürəsi əhalisinin 80 faizini özünə cəlb etmiş ikinci dünya müharibəsi, onun tərkib hissəsi olan 1418 gün davam etmiş və 20 milyondan artıq sovet vətəndaşının tələfatı ilə nəticələnmiş Böyük Vətən müharibəsi dövrüdür. Bu dövrə sovet alimləri xeyli sanballı əsərlər həsr ediblər ki, bunların da içərisində dövrün tarixşünaslığına aid əsərlər xüsusi əhəmiyyət kəsb edir.

Böyük Vətən müharibəsinin tarixinə aid SSRİ-də 1975-ci ilə kimi 15,5 min kitab və məqalə nəşr olunub. (497,№11,1975,s.113) Təkcə "Sov.İKP-Böyük Vətən müharibəsində sovet xalqının qələbəsinin təşkilatçısı və ilhamvericisidir" mövzusunda Leninqrad Dövlət Universitetinin Sov.İKP kafedrası yanında RSFSR Ali və Orta Təhsil Nazirliyinin problem şurasının rəhbərliyi ilə 1971-ci ilə kimi 300 monoqrafiya, 900-dən artıq elmi məqalə çap olunub, 350-yə qədər doktorluq və namizədlik dissertasiyası müdafiə edilib. Bundan əlavə mərkəzi və yerli nəşriyyatlar Böyük Vətən müharibəsinə aid 400-dən artıq sənədlər külliyyatı, 500-dən artıq şəxsi memuar xarakterli kitablar, respublika, ölkə və vilayət partiya təşkilatlarının müharibə dövründəki fəaliyyətinə aid 60 oçerk nəşr edib.(607,s.6 )

Müharibə dövründə və müharibədən az sonra nəşr olunmuş kitablar problemə aid yazılmış ilk əsərlər hesab olunur.(469,492,494 və s.) Baş qərərgahın hərbi idarəsi tərəfindən 1942-1945-ci illərdə Moskvada nəşr olunmuş 20 məcmuə problemə aid yazılmış ilk əsərlər kimi mövzunun tarixşünaslıq baxımından öyrənilməsində müəyyən əhəmiyyət kəsb edir. Lakin, fikrimizcə bu kitabları elmi tədqiqat işlərindən çox təbliğat məqsədilə yazılmış publisist əsərlər kimi qiymətləndirmək daha düzgün olar.

Sov.İKP sənədləri və sovet dövlət rəhbərlərinin müharibəyə aid əsərləri problemin tədqiqində tarixçilərə istiqamət verərək sovet tarixşünaslığının yönümünü müəyyən edib. Müharibəyə aid İ.V.Stalinin, M.İ.Kalinin, Q.K.Jukovun, S.M.Ştemenkonun və başqa partiya və sovet dövləti rəhbərlərinin əsərləri (557,725 və s.) sovet tarixşünaslığının mahiyyətini üzə çıxarmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

50-ci illərin ortalarında 1941-1945-ci illər sovet-alman cəbhəsində alman faşist qoşunlarının vəziyyətini özündə əks etdirən sənədlər məcmuəsinin beş

buraxılışı nəşt edilib. 1957-1960-cı illərdə “Böyük Vətən müharibəsi” və 1984-cü ildə “Sovet İttifaqı Böyük Vətən müharibəsi illərində” sənədlər külliyatları çap olunub.

Problemə aid yazılan ilk əsərlərdən fərqli olaraq sonrakı illərdə nəşr olunan kitablar fundamental elmi tədqiqat əsərləri kimi diqqəti cəlb edir. Sov. İKP MK-nın “Böyük Vətən müharibəsi tarixinə aid çoxcildli əsərin hazırlanması haqqında” qərarından (12 sentyabr 1957-ci il) sonra 60-cı illərdə Böyük Vətən müharibəsi tarixinin sovet tarixşünaslığının ümumiləşdirilməsində ilk cəhdlər edilib. Akademik P.N.Pospelovun rəhbərliyi ilə təşkil edilmiş redaksiya heyəti 1200 tarixçi, iqtisadçı, filosov, sosioloq və başqa mütəxəssisi bu işə cəlb edərək Böyük Vətən müharibəsi tarixinə aid 1961-1965-ci illər ərzində 6-cildlik kitabın nəşrinə nail olub.(578)

Bu çoxcildlikdə partiyanın xalq təsərüfatına rəhbərliyi məsələsinə 11 fəsil və ya bütün 6-cildliyin 15%-i həsr olunub. Konkret olaraq I cilddə Böyük Vətən müharibəsi ərəfəsində partiya və xalqın sovet dövlətinin müdafiə qabiliyyətinin gücləndirilməsi sahəsində fəaliyyəti, II cilddə Kommunist Partiyasının və sovet dövlətinin düşməni dəf etmək üçün ölkənin səfərbərliyə alması, SSRİ xalq təsərrüfatının hərbi cəhətdən yenidənqurulması sahəsində fəaliyyəti, 1941-ci ildə arxa cəbhədə iş, 1942-ci ildə xalq təsərrüfatının yenidən qurulmasının başa çatdırılması, III cilddə sovet arxa cəbhəsinin sonrakı müvəffəqiyyətləri, IV cilddə 1944-cü il ərzində ölkənin hərbi-iqtisadi qüdrətinin yaranması sahəsində partiyanın fəaliyyəti, V cilddə müharibənin sonunda sovet iqtisadiyyatının, xalq təsərrüfatının vəziyyəti, Böyük Vətən müharibəsində SSRİ-nin qələbəsinin iqtisadi qanunauyğunluğu, işğaldan azad olunmuş ərazilərdə bərpa işləri, VI cilddə isə Sovet İttifaqının Böyük Vətən müharibəsində qələbəsinin ümumdünya tarixi əhəmiyyəti və müharibədən sonrakı dövrdə sülh uğrunda mübarizəsi öz əksini tapıb.

Müharibədə qələbənin 20,25,30,35,40,50 illiyinə həsr olunan ümumittifaq konfranslarının materialları tarixşünaslıq baxımından mühüm əhəmiyyətə malikdir. Qələbənin 20 və 25 illiyinə aid konfransların materialları “İkinci dünya müharibəsi” adı ilə üç kitabda və “Sovet xalqının qələbəsinin ümumdünya-tarixi əhəmiyyəti” kitabında verilib. Bu mövzuya aid digər kitablar da nəşr olunub.(506,507,579)

Moskvada 1971-ci ilin may ayında “Böyük Vətən müharibəsi dövründə Sovet arxa cəbhəsi” mövzusunda ümumittifaq elmi sessiya keçirilib və sessiyanın materialları ikicildlik kitab şəkilində nəşr olunub. Bundan başqa 1977-ci ildə sovet silahlı qüvvələrinin arxa cəbhəsi mövzusuna da kitab həsr edilib.(749)

Moskvada 1977-ci ildə çapdan çıxmış “Böyük Vətən müharibəsinə aid 1941-1967-ci illərdə nəşr olunmuş ədəbiyyat göstəricisi” adlı biblioqrafik ədəbiyyatda bu illərdə arxa cəbhədəki fəaliyyətə aid yalnız rus dilində 2,1 min, başqa sözlə müharibəyə aid yazılmış əsərlərin dördə biri qədər əsər nəşr olunduğu göstərilib.(725) Bunda başqa fəhlə sinfi, kolxozçu kəndlilər, ziyalılar və mədəniyyət xadimlərinin Böyük Vətən müharibəsi dövründə arxa cəbhədəki fəaliyyətinə aid kitab və məqalələr müharibə dövründə arxa cəbhənin fəaliyyətinin tarixşünaslıq baxımından tədqiqində mühüm rol oynayır.(443,490,643)

Düşmən arxasında xalq mübarizəsi probleminə də tədqiqatçılar böyük maraq göstəriblər. Məsələn, 1945-1975-ci illərdə Böyük Vətən müharibəsinə həsr olunmuş 120 namizədlik dissertasiyasının 70 ədədi bu mövzuya həsr olunub.(575,s.146) Bundan başqa bu mövzuda bir çox kitab və məqalələr də yazılıb.(512,575 və s.)

Müharibəyə aid yazılmış əsərlərdə Sov.İKP ilə yanaşı həmkarlar və komsomol təşkilatlarının fəaliyyəti də tədqiq olunmasına baxmayaraq bu təşkilatların müharibə dövründə fəaliyyətinə aid ayrıca kitablar da yazılıb. Həmkarlar təşkilatlarının müharibə dövründəki fəaliyyəti ilə əlaqədar yazılmış əsərlərlə (462) yanaşı, 1973-cü ildə ilk dəfə olaraq SSRİ Həmkarlar təşkilatı Böyük Vətən müharibəsində mövzusunda tarixşünaslıq baxımından dəyərli olan ayrıca kitab da nəşr olunub. (439)

60-cı illərin əvvəllərinə kimi ÜİLKGİ-nin və komsomolun yerli təşkilatlarının Böyük Vətən müharibəsi dövründə fəaliyyətinə aid 95 kitab nəşr olunub. (499, № 5,1975) Sonrakı illərdə də tarixçilər bu mövzuya bir sıra yeni kitab və məqalələr həsr ediblər. Bunlardan 1973-cü ildə komsomol və gənclər Böyük Vətən müharibəsində adlı biblioqrafik göstəricini, 1975-ci ildə isə Lenin komsomolu Böyük Vətən müharibəsində adlı iri tədqiqat əsərini göstərmək olar. Qeyd olunan ikinci kitabda problemin tarixşünaslığına ayrıca fəsil həsr olunub.(603,644)

Mövzunun ayrı-ayrı problemlərinə aid yazılmış biblioqrafik göstəricilər

və Böyük Vətən müharibəsinin ensiklopediyası da problemin tarixşünaslıq baxımından tədqiqində mühüm rol oynayır. (481,482,489,603)

SSRİ xalq təsərrüfatının, ticarət və təminatın Böyük Vətən müharibəsi illərində vəziyyəti ilə bağlı da bir sıra kitablar nəşr olunub.(494,627,655)

Tarixşünaslığa aid yazılmış əsərlər içərisində akademik M.P.Kimin redaktorluğu ilə 1980-ci ildə nəşr olunmuş "Böyük Vətən müharibəsinin tarixşünaslığı" məqalələr toplusunu xüsusi əhəmiyyət kəsb edir.(575) Kitabın əvvəlində P.A.Jilinin Böyük Vətən müharibəsinin tədqiqinin aktual problemlərinə həsr olunmuş məqaləsi verilib. Kitabda problemə aid müxtəlif alimlərin "Sov. İKP-Böyük Vətən müharibəsində sovet xalqının qələbəsinin ilhamvericisi və təşkilatçısıdır", "Alman-faşist işğalçılarına qarşı sovet xalqının silahlı mübarizəsi", "Böyük Vətən müharibəsində sovet arxa cəbhəsi" ümumi başlıqlar altında 28 elmi məqalə nəşr olunub. (575)

O.A.Rjeşevskinin ikinci dünya müharibəsinin ABŞ tarixşünaslığına həsr olunan kitabı sovet tarixşünaslığı mövqeyindən yazılmasına baxmayaraq amerika tarixşünaslığa aid faktiki materialların zənginliyi və faktların təhlilinin verilməsi baxımından qiymətlidir.(698)

4 fəsildən ibarət bu kitabda ikinci dünya müharibəsinə aid Amerika burjua tarixşünaslığının metodoloji şərhi, müharibənin mənşəyi, ABŞ və SSRİ-nin müharibədəki rollarına aid konsepsiyalar tədqiq olunub. Kitabda ikinci dünya müharibəsinə aid ABŞ-da təxminən 10 minə qədər kitabın nəşr olunduğu qeyd edilir ki, bu da ABŞ tarixçilərinin müharibə mövzusuna böyük maraq göstərildiyini sübut edir. Bu kitabda faktlara tənqidi yanaşmaqla müharibəyə aid obyektiv məlumatlar əldə etmək mümkündür ki, bu da kitabın əhəmiyyətini artırır.(698)

Böyük Vətən müharibəsinin tarixşünaslığında sovetlərin müharibə dövründəki fəaliyyətinə aid yazılmış əsərlər də var.(749) Lakin Sov.İKP-nin fəaliyyətinə aid yazılmış əsərlərlə müqayisədə bunlar çox azdır.

Azərbaycan tarixçiləri də Böyük Vətən müharibəsinə və Azərbaycan SSR-in müharibədə iştirakı və qələbədə roluna kitab və məqalələr həsr ediblər. Ümumi sovet tarixşünaslığında olduğu kimi, Azərbaycan sovet tarixşünaslığında da başqa mövzularla yanaşı Böyük Vətən müharibəsinə aid yazılan kitab və məqalələr də əsasən ya faşizm üzərində qələbənin yubileyləri, ya da Sov.İKP-nin istiqamətverici qərarları ilə əlaqədar nəşr edilib.

“Müharibə və xalqın yaddaşı” başlığı ilə Böyük Vətən müharibəsinin tarixinə dair 1991-ci ildə keçirilmiş “Dəyirmi masada” Azərbaycan tarixçilərinin müharibəyə aid 50-dən artıq kitabının nəşr olunduğu qeyd edilib və bu fakt azərbaycan tarixşünaslığının böyük nailiyyəti kimi qiymətləndirilib. (204, 20 iyun 1991)

Akademik Z.Bünyadov bu tədbirdə Böyük Vətən müharibəsinin Azərbaycan tarixşünaslığı haqqında belə deyib: “Məncə müharibəyə dair tarixşünaslığımızın bir çox məsələlərinin indiyə kimi dərindən işlənilmədiyini görmək üçün mütəxəssis olmaq vacib deyil. Tariximizin bu ağ ləkələrini aradan qaldırmaq vaxtı artıq çatmışdır. Əsas məsələ tarixə birtərəfli baxmaqdan yaxa qurtarmaqdır.” (204,20 iyun 1991)

Azərbaycan SSR Böyük Vətən müharibəsi dövründə, sənəd və materialların iki cildliyinin, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin və Hökümətinin fərman və qərarlarının xronoloji külliyyatının, 1985-ci ildə nəşr olunmuş Azərbaycan Böyük Vətən müharibəsində adlı biblioqrafik kitabının və iki cildlik sənədlər toplusunun problemin tarixşünaslıq baxımından tədqiqində mühüm əhəmiyyəti vardır.(25,67,424 və s.)

Bu kitablarla yanaşı B.M.Mirzəyevanın Azərbaycanın Böyük Vətən müharibəsində iştirakı tarixinin tarixşünaslığına aid yazdığı namizədlik dissertasiya və nəşr olunan məqalələri (297) problemin öyrənməsində müsbət rol oynayır.

Müəllif Böyük Vətən müharibəsi tarixinin sovet tarixşünaslığında başqa mövzulara nisbətən daha çox əksini tapdığını qeyd edərək, problemin Azərbaycan tarixşünaslığında aşağıdakı məsələlərə diqqət verilməsini təklif edir:

- “Böyük Vətən müharibəsi haqqında qərarlaşmış konsepsiyaların SSRİ adlanan dövlətə və onun tərkibində olmuş Azərbaycana münasibətinə;
- Müharibə haqqında yazılmış böyük kitablar rəhbər dairələrin siyasətini əks etdirməsinə;
- Azərbaycanın müstəqillik əldə etməsindən sonra əvvəlki tarixi baxışlara yeni baxışların və yeni konsepsiyanın yaranmasına və s.”

B.M.Mirzəyeva Azərbaycanın Böyük Vətən müharibəsi dövrü tarixinə aid yazılmış əsərləri xronoloji baxımdan 1941-1945-ci illər; 50-ci illərin ikinci yarısından sonrakı; 70-80-ci illər; 90-cı illərin birinci yarısı kimi dövrlərə ayırıb. Tədqiqat işində Böyük Vətən müharibəsi cəbhələrində 681 min Azərbaycan

vətəndaşının iştirak etməsi, onlardan 120-dən çoxunun Sovet İttifaqı Qəhrəmanı adını alması, 170 mindən artıq əsgər və zabitin orden və medallarla təltif edilməsi haqqında rəqəmlər verildiyi halda, nə SSRİ miqyasında, nə də Azərbaycanda problemə aid yazılmış əsərlərin sayı haqqında dəqiq məlumat verilməyib. Bu məlumatların əvəzinə dissertasiyada "xeyli", "küllü miqdar" terminləri işlədilir ki, bu da tarixşünaslıq sahəsində yazılan elmi işin dəyərini azaldır. Bundan başqa bu fakt tədqiqatın Azərbaycan tarixçilərinin Böyük Vətən müharibəsinə aid yazdığı 50-dən artıq əsəri tam əhatə etmədiyini sübut edir. Bundan başqa müəllif 1992-ci ildə yazdığı "Böyük Vətən müharibəsi illərində arxa cəbhə ilə ön cəbhənin birliyi Azərbaycan tarixşünaslığında" məqaləsində Böyük Vətən müharibəsi mövzusunun Azərbaycanda tarixşünaslıq baxımından zəif tədqiq edildiyini xüsusi vurğulasa da, V.Belyayevanın, Ə.Əliyevin, M.Abbasovun, S.Heydərovun, Q.Əbdülsəlimzadənin, T.Novruzovun, Ə.Kərimovun, S.Sultanovun, C.Hüseynovun problemə aid kitablarını yalnız müsbət cəhətdən təhlil edərək, bu kitablarda olan nöqsanlara tənqidi münasibət bəsləməyib.

Fikrimizcə B.Mirzəyevanın elmi işində Böyük Vətən müharibəsinin müxtəlif problemlərinə aid Azərbaycan tarixçilərinin yazdıqları əsərləri xronoloji baxımdan müharibə illəri, 1946-50-ci illər, 60-cı illər, 70-80-ci illər və 90-cı illər kimi verilməsi daha düzgün olardı. Lakin əsərlərin təsnifatını nəşr olunduğu illər üzrə deyil problemlər üzrə verilməsi problemin tarixşünaslıq baxımından tədqiqi üçün daha məqbul hesab oluna bilər.

Böyük Vətən müharibəsi illərində Azərbaycan tarixçilərindən Ə.Ağayevin, C.Cəfərovun, Y.Tokarjevskinin, M.Qazıyevin, B.Axundovun, Y.Qraninin və başqalarının nəşr olunmuş kitabları və məqalələri (10,11,12,225, 239,240,241,393,394) əsasən müharibədə qələbəyə kömək məqsədilə yazılmış və təbliğat xarakteri daşımışdır.

Sonrakı illərdə Azərbaycan alimləri Böyük Vətən müharibəsi dövrünün müxtəlif problemlərinə aid əsərlər yazıblar. Q.Mədətovun, Q.Q.Mehtiyevin, S.Heydərovun, M.Q.Abbasovun, C.Hüseynovun və başqalarının kitabları Böyük Vətən müharibəsində Azərbaycanın iştirakına həsr olunmuş fundamental əsərlərdir. (155,164,266, 267,268, 413,414 və s.)

Q.Mədətovun 1975-ci ildə çapdan çıxan "Azərbaycan Böyük Vətən müharibəsində" kitabı müharibəyə aid bütün məsələləri özündə əks etdirən

tədqiqat əsəridir. Bu kitab faktiki materialların, xüsusilə arxiv və az məlum olan digər materialların zənginliyi baxımından özündən əvvəl yazılmış kitablardan fərqlənir. Kitabda əhalinin səfərbərliyə alınması, xalq təsərrüfatının müharibə dövrünün tələblərinə uyğunlaşdırılması, Azərbaycan milli diviziyalarının döyüş yolu, Azərbaycanlıların partizan hərəkatında və Avropa ölkələrindəki müqavimət hərəkatında iştirakı və s. məsələlər faktlar əsasında tədqiq olunub.

Kitab giriş, 12 fəsil və nəticədən ibarətdirdir. Kitabın giriş hissəsində müəllif qeyd edir ki, Böyük Vətən müharibəsinin qalibiyyətlə başa çatmasından iyirmi il keçməsinə baxmayaraq, indiyədək Azərbaycan xalqının Böyük Vətən müharibəsində iştirakına həsr edilmiş ümumiləşdirici elmi tədqiqat əsəri yaradılmayıb. Müəllif Azərbaycan tarixçilərindən S.Heydərov, Ə.Bağırzadə, M.Abbasov, Ə.Kərimov, T.Novruzov, C.Hüseynov, V.Belyayeva, S.Quşin və İ.Şükürzadənin müharibəyə həsr olunmuş kitab və məqalələrini təhlil edib. O, təhlil nəticəsində belə qənaətə gəlib ki, bu əsərlərdə Böyük Vətən müharibəsi illərində cəbhə ilə arxanın birliyi, SSRİ xalqlarının döyüş dostuluğu, Azərbaycan xalqının ölkənin başqa xalqları ilə sosialist əməkdaşlığı və qarşılıqlı yardımı kimi mühüm məsələlər zəif işıqlandırılıb. Azərbaycan diviziyalarının döyüş yolu, respublika nümayəndələrinin partizan hərəkatında, habelə Avropa ölkələrinin partizan və antifaşist hərəkatında iştirakı isə demək olar ki, tədqiq edilməyib.

Müəllif digər əsərlərə tənqidi münasibət bəsləsə də, özü də bir sıra bəzi nöqsan yol verib. Kitabın bəzi fəsilləri xronoloji ardıcılıqla, bəzi fəsilləri isə ayrı-ayrı problemlər əsasında yazılması müəyyən qarışıqlıq yaradır. Müəllif müharibə dövründə kənd təsərrüfatının inkişafına dair əsərlər yazmış bir sıra müəllifləri tənqid etsə də, sonradan özü də bü səhvləri təkrar edir. Müharibə dövründə vəziyyətin ildən-ilə çətinləşdiyini nəzərə almayan müəllif, "Azərbaycanda 15-20 millioner kolxoz var idisə, müharibə dövründə onların sayı 150-200-ə çatmışdı" kimi irəli sürdüyü faktlar reallığı əks etdirmir. Bu cür şişirdilmiş rəqəmlər kitabda başqa sahələrə aid göstərilən rəqəmlərin də obyektivliyini şübhə altına alır. Müəllifin M.Ə.Rəsulzadəni tarixi saxtalaşdıran düşmən və xain adlandırması da kitabın sırf kommunist ideologiyasının tələbləri əsasında yazıldığını göstərir.( 267)

Q.H.Mehdiyevin 1967-ci ildə rus dilində nəşr olunmuş "Azərbaycan Kommunist Partiyasının Böyük Vətən müharibəsi dövründə fəaliyyəti (1941-1945-ci illər)" adlı monoqrafiyası giriş, üç fəsil və nəticədən ibarətdir. Kitab

partiya arxivinin və dövrü mətbuatın materialları əsasında yazılıb. Kitabın giriş hissəsində müəllifin 1967-ci ilə kimi mövcud Azərbaycan tarixşünaslığını təhlil etməsi təqdirəlayiqdir.

Kitabın "Azərbaycan Kommunist Partiyasının düşməni dəf etmək üçün sovet xalqının bütün maddi və mənəvi gücünün səfərbərliyə alınması dövründə fəaliyyəti" adlanan birinci fəsili 4 paraqrafdan ibarətdir. Bu paraqraflarda yerli partiya təşkilatlarının müharibənin əvvəllərində hərbi-təşkilati, ÜİK(b)P MK və XKS-nın direktivlərinin yerinə yetirilməsi, xalq təsərrüfatının hərbi istiqamətə yönəldilməsi və İrandakı sovet qoşunlarına kömək göstərilməsi sahəsində fəaliyyəti tədqiq olunub.

"Stalinqrad və Qafqaz uğrunda döyüşlər dövründə Azərbaycan partiya təşkilatının kütləvi-siyasi və təşkilati işi" adlanan ikinci fəsildə respublika zəhmətkeşlərinin vətənpərvərlik hərəkatı, cəbhəyə yardım üçün sənaye, nəqliyyat və kənd təsərrüfatı sahəsindəki fəaliyyəti işıqlandırılıb.

"Azərbaycan Kommunist Partiyasının əsaslı dönüş və müharibənin qalibiyyətlə başa çatdırılması dövründə fəaliyyəti" adlanan üçüncü fəsildə partiya sıralarının genişlənməsi, ideoloji iş, Azərbaycan milli diviziyalarının siyasi və döyüş hazırlığının yüksəldilməsi, işğaldan azad olunmuş ərazilərə kömək, kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində görülən tədbirlər araşdırılıb. Müəllif problemə digər sovet tarixçilərinə xas olan partiyalı mövqedən yanaşdığına və subyektiv mülahizələrə üstünlük verdiyinə görə kitab sırf kommunist partiyasının mövqeyini əks etdirir. Kitabda müharibə dövründə yol verilmiş noqsanlara tənqidi münasibət bəslənilməməsi onun elmi dəyərini aşağı salır. O, heç bir obyektiv fakt göstərmədən Türkiyə və İran tarixçilərinin müharibə dövründə bu ölkələrin bitərəf mövqedə dayanması haqqındakı fikirlərini də tənqid edib və SSRİ-nin İranın şimalına, yəni cənubi Azərbaycana və İngiltərənin İranın cənubuna qoşun yeritməsinə haqq qazandırıb. (640)

M.Abbasovun 1960-cı ildə nəşr olunmuş "Azərbaycan Kommunist Partiyasının Böyük Vətən müharibəsi dövründə cəbhəyə yardımın gücləndirilməsi uğrunda mübarizədə" kitabında arxiv və dövrü mətbuat materialları əsasında döyüşən ordunu yanacaqla təmin edən Azərbaycan neftçilərinin, neft sənayesini müxtəlif avadanlıqlarla təchiz edən maşınqayıranların, cəbhəni ərzaq və digər məhsullarla təmin edən kolxozçu kəndlilərin və yüngül sənaye işçilərinin fəaliyyəti

işıqlandırılıb. Kitabın həcimcə kiçik olması bir sıra məsələlərin geniş şərhinə imkan verməyib.

M.Abbasovun 1967-ci ildə rus dilində nəşr olunmuş "Bakı Böyük Vətən müharibəsi illərində" ikinci kitabı konkret olaraq müharibədə qələbənin qazanılmasında həlledici rol oynamış Bakı neft rayonuna həsr olunub. Bu kitab faktların obyektivliyinə görə digərlərindən fərqlənir. Kitab 4 fəsildən ibarət olub, müharibənin başlanması ilə Bakı iqtisadi rayonunda təsərrüfatın hərbi relsə keçirilməsi, dəmir yolu və dəniz gəmiçiliyinin müharibə dövründə vəziyyəti, cəbhənin yanacağa olan tələbatının neftçilər tərəfindən ödənilməsi, müharibə dövrünün tələblərinin yerinə yetirilməsində ziyalıların fəaliyyəti, cəbhəyə yardım sahəsində vətənpərvərlik hərəkatı və s. məsələləri əhatə edir. Kitabda göstərilir ki, Böyük Vətən müharibəsi illərində Bakı neftçiləri 70 milyon ton neft çıxarmış, müəssisələrdə 10 minlərlə avtomat, minomyot və oqnemyot, 100 minlərlə reaktiv mərmilər, aviasiya bombaları, əl qumbaraları, minalar və digər hərbi sursatlar istehsal olunub.(413)

M.Abbasov və Q.H.Mehdiyevin kitabları eyni ildə nəşr olunmasına baxmayaraq Q.H.Mehdiyevdən fərqli olaraq M.Abbasov kitabının giriş hissəsində mövzunun tarixşünaslıq baxımından təhlilini verməyib. O, yalnız Q. Mədətov və V.A.Belyayevanın əsrlərinin hərəsindən bir sitat gətirməklə kifayətlənib. Kitabın mülki tarixə aid olmasına baxmayaraq əsasən partiya arxivinin materiallarına istinadən yazılması onun elmi dəyərini aşağı salır.

S.V.Heydərov 1953-cü ildə "Azərbaycan Kommunist Partiyasının Böyük Vətən müharibəsində arxa cəbhədəki təşkilatçılıq işi" mövzusunda dissertasiya müdafiə edib və 4 il sonra, yəni 1957-ci ildə onu kitab şəklində çap etdirib. (155) Kitabda arxa cəbhədə respublika partiya təşkilarının fəaliyyətinə aid bir sıra məlumatlar, o cümlədən könüllülərin toplanması, qafqaz cəbhəsinə kömək üçün kommunistlərin səfərbərliyə alınması, Azərbaycanın neft sənayesi və kənd təsərrüfatı haqqında məlumatlar var. Kitabda müəllifin özünün istədiyi kimi fəsillərin adını və dövrləri tərtib etməsi sovet tarixçiləri tərəfindən tənqid olunub. Məsələn, Kitabın I fəslinin "Azərbaycan Kommunist Partiyasının Böyük Vətən müharibəsinin birinci dövründə" (1941-1942-ci illər); II fəslinin "Azərbaycan Kommunist Partiyasının alman işğalçılarının ölkəmizdən qovulması dövründə" (1943-1944-cü illərdə); III fəslin isə "Azərbaycan partiya təşkilatı Böyük Vətən

müharibəsinin başa çatması dövründə" (1945-ci il) adlandırılmasını Q.Mehdiyev düzgün hesab etmir. O, öz əsərində S.V.Heydərovun hadisələrin şərhində xronoloji ardıcıllığa əməl etməməsini, faktlara az yer verməsini, xüsusilə arxiv materiallarından cüzi istifadə etməsini kəskin tənqid edib.

Tarixçi alimlərdən Ə.Z.Bağırzadənin tədqiqat mövzusu əsasən Azərbaycan komsomolunun və ziyalıların Böyük Vətən müharibəsində iştirakı problemindən ibarət olub.(79,82,453) Bundan başqa müharibə dövründə qəhrəmanlıq göstərmiş pionerlərə həsr olunmuş kitabça da nəşr edilib.(227)

Ə.Z.Bağırzadənin 1957-ci ildə nəşr olunmuş "Qəhrəman gənclik. (Azərbaycan komsomolu Böyük Vətən müharibəsi illərində)" kitabında ÜİLKGİ və ALKGİ MK-nın çıxardığı çoxsaylı qərarların şərhinə daha çox yer verilib. Bu hal digər kitablar üçün də xarakterikdir. Bu kitablarda ölkənin müvəqqəti işğal olunmuş ərazilərində və Avropa ölkələrində azərbaycanlı gənclərin göstərdikləri qəhrəmanlıqlar, qələbədə həlledici əhəmiyyətə malik olan Azərbaycan neft sənayesində cəbhəyə getmiş atalarını əvəz edən gənclərin ağır əməyi haqqında az məlumat verilməsi onların elmi dəyərini aşağı salır.(82)

Müəllifin 1970-ci ildə nəşr olunmuş "Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində" kitabında arxa cəbhədə neft sənayesinin inkişafına tövhələr vermiş alimlərin, əhalini faşizm üzərində qələbəyə ruhlandıran əsərlər yazmış ziyalıların fəaliyyəti tədqiq olunub.(79)

V.A.Belyayeva, A.Kərimov, T.A.Novruzov və başqa tarixçilər fəhlə və kəndlilərin Böyük vətən müharibəsində arxa cəbhədəki fəaliyyətinə aid kitab və məqalələr həsr ediblər. (463, 598) V.T.Aniskov kəndlilərin Böyük Vətən müharibəsindəki fəaliyyətinin tarixşünaslığına aid ayrıca kitab həsr edib.(442) V.A.Belyayeva 1957-ci ilədə, rus dilində çapdan çıxmış "Böyük Vətən müharibəsi illərində Azərbaycan fəhlələrinin əmək qəhrəmanlığı" adlı kitabında neft, yüngül, yeyinti və yerli sənaye sahəsində çalışan fəhlələrin, Xəzər dənizçiləri və dəmiryolçuların əməyini rusdilli dövrü mətbuat, "Azneft" və Azərbaycan SSR EA Tarix İnstitutunun arxiv materialları əsasında tədqiq edib. Müəllifin dövlət arxivinin sənədlərindən və azərbaycan dilində çıxan mətbuatın materiallarından istifadə etməməsi kitabın elmi cəhətdən dəyərinə müəyyən qədər xələl gətirir. Kitabın ayrı-ayrı fəsillərinin adları ilə məzmununun uyğun gəlməməsi və fəsillərin dövrləşməsinin elmi cəhətdən əsaslandırılmaması da kitabın çatışmayan

cəhətlərindəndir. Məsələn, bütün fəsillərdə müəllif görülmüş işləri “Kommunist Partiyasının böyük təşkilatı işinin nəticəsi” olduğunu bildirsə də, əsərdə bu “ böyük təşkilatı işin” nədən ibarət olduğu açıb göstərməyib.

Kitabın üçüncü fəsli “Azərbaycan neftçilərinin 1943-1945-ci illərdə cəbhəyə yardım edilməsi işinə tövhələri” adlansa da bu tövhələr konkret faktlarla deyil, əsasən ümumi şəkildə yanacağ istehsalının artırılması, neft sənayesinin kadrlarla təchizi, Azərbaycan fəhlə sinfinin kolxozçu kəndlilərə köməyi, kəndlilərin qəhrəman əməyi, MTS-lərin fəaliyyəti, 416-cı Azərbaycan diviziyası əsgərlərinin qəhrəmanlıqları və s. şəkildə verilib. Azərbaycan neft və maşınqayırma sənayesinin sovet ordusunun qələbələrindəki rolu, bu sənaye sahələrinin inkişafında cəbhəyə getmiş ər və atalarını əvəz edən qadın və gənclərin əməyi isə demək olar ki, müəllifin diqqətindən kənarda qalıb.(463)

A.E.Kərimov 1955-ci ildə “Sovet İttifaqı Kommunist Partiyası Böyük Vətən müharibəsi dövründə ölkənin kənd təsərrüfatında sosializm yarışının təşkilatçısıdır (Azərbaycan SSR-in materialları əsasında)” mövzusunda dissertasiya müdafiə edib və 1963-cü ildə onun “Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının rəşadətli əməyi” adlı kitabı nəşr olunub. Kitabda bilavasitə mövzuya aid olmayan çoxlu saylı materiallar verilməsi, bir sıra faktların mənbələrinin göstərilməməsi, xronoloji ardıcıllığa riayət edilməməsi, faktların qeyri dəqiqliyi, ümumiləşmə və elmi nəticələrin azlığı onun elmi dəyərini aşağı salır.

T.A.Novruzovun 1963-cü ildə çapdan çıxmış “Azərbaycanın kolxozçu kəndlilərinin Böyük Vətən müharibəsi dövründə əmək qəhrəmanlığı.1941-1945-ci illər” kitabında fəhlə sinfi ilə kolxozçu kəndlilərin dostluğu, fəhlə sinfinin onlara göstərdiyi kömək, müharibə dövründə təşkil olunmuş sosializm yarışı, işğaldan azad edilmiş rayonlara Azərbaycan kəndlilərinin yardımı və s. məsələlər faktiki materiallar əsasında tədqiq olunub. Müəllif kitabda müharibə dövründəki reallıqdan uzaq belə bir fikri təsdiq etməyə çalışır ki, Azərbaycan kənd təsərrüfatı bu illərdə nəinki zəifləmiş, hətta bəzi göstəricilərə görə müharibədən əvvəlki səviyyəni də ötüb keçib. Lakin bu fikrin reallığı əks etdirməməsi müəllifin özü tərəfindən də dolayısı ilə etiraf olunur. Onun kənd təsərrüfatının inkişafını yalnız taxıl istehsalının artımı ilə əsaslandırması deyilənləri sübut edir. Müəllif bu fikri irəli sürərkən yaddan çıxarır ki, müharibə dövründə taxıl istehsalının artımı digər

sahələrin ixtisarı hesabına olmuşdur ki, bunu da tam halda götürüldükdə kənd təsərrüfatının inkişafı kimi qeyd etmək düzgün deyil.

A.Xəlilov, B.L.Trepetin Azərbaycan Elmlər Akademiyasının (754), Z.Quliyeva, İ.Zeynalov , G.Səfərov, Ə.Ş. Şahmirov Azərbaycan neft və kimya sənayesinin Böyük Vətən müharibəsi illərindəki roluna (37,№ 6,1990,s.50-52; 65,№ 2,1991,s.9-15,367), S.A.Orucov, A.A.Əlizadə, A.A.Əliyev isə ümumiyyətlə neft sənayesinin və neft kəşfiyyatının müharibə dövründəki vəziyyətinə (425, № 5) aid kitab və məqalələr yazıblar.

Ş.Şahmirovun 1996-cı ildə nəşr olunmuş "Faşizm üzərində qələbədə Azərbaycanın neft və kimya sənayesinin həlledici rolu" kitabı müqəddimə, on fəsil və nəticədən ibarətdir. Cəmi 116 səhifəlik kitabın on fəslə bölünməsi Böyük Vətən müharibəsi mövzusunda yazılmış kitablar üçün xarakterik deyil və onun elmi dəyərini aşağı salır.

Kitabın müqəddimə hissəsində müəllif Azərbaycan xalqının müharibə dövründə ordu sıralarına 678950 nəfər yalnız kişi cinsli nümayəndəsinin səfərbər edildiyini, onlardan 200 min nəfərdən çoxunun fəhlə sinfi nümayəndəsi olduğunu bildirir. Bundan başqa müəllif qeyd edir ki, cəbhəyə gedənləri əvəz etmək üçün 260 min nəfərə qədər evdar qadın, təqaüdçü, yeniyetmə istehsalata cəlb olnub. Kitabda göstərilir ki, Azərbaycan neftçiləri, kimyaçıları, maşınqayıranları müharibə illərində təxminən 177 addan cox, yeni növ məhsul, müxtəlif hərbi texnika, döyüş sürsatı istehsal etmişlər ki, həmin məhsulların 40-dan çoxu maşın yağları, yanacaq və düşməni lərzəyə salan katyuşa silahının materialları idi.

Kitabda həmçinin Bakıda tank və digər texnika əleyhinə silah-sürsat, 20-dən çox yeni markalı təyyarələrin, tank və başqa texnikanın təmiri üçün ehtiyat hissələrinin hazırlanması, Rusiyaya 100 milyon tona qədər neft və neft məhsullarının göndərilməsi haqqında da məlumat verilib.(367)

Ə.Ə.Mahmudov və Q.Y.Əbdülsəlimzadənin redaktorluğu ilə 1985-ci ildə Sovet xalqının Böyük Vətən müharibəsində qələbəsinin 40 illiyinə həsr olunmuş "Azərbaycan SSR-in xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində" kitabı nəşr olunub. Əsər giriş, doqquz fəsil və nəticədən ibarətdir. Kitabın I fəsli "Böyük Vətən müharibəsi ərəfəsi və müharibə illərində xalq təsərrüfatının ümumi vəziyyəti və iqtisadiyyatın hərbi qaydada qurulması", II fəsli "Müharibə illərində respublika xalq təsərrüfatının planlaşdırılması xüsusiyyətləri", III fəsli "Sənayenin əsas

sahələrinin inkişafı", IV fəsli "Cəbhənin və arxanın ehtiyacları üçün nəqliyyat və rabitənin səfərbərliyə alınması", V fəsli "Respublikanın kənd təsərrüfatı müharibə illərində", VI fəsli "Müharibə illərində respublikanın maliyyəsi", VII fəsli "Ticarət və əhalinin istehlak malları ilə təchizi", VIII fəsli "Azərbaycan elmi Böyük Vətən müharibəsi dövründə", IX fəsli isə "Müharibə illərində Azərbaycan SSR-in müttəfiq respublikalarla iqtisadi əlaqələri" adlanır.

Kitabda Azərbaycan alimlərinin gərgin əməyi nəticəsində yüksək oktanlı, keyfiyyətli aviasiya yanacağı texnologiyasının işlənilib hazırlaması, yeni yandırıcı bombanın yaradılması, neft məhsulları almağın 17 mühüm texnoloji prosesinin istehsalata tətbiq edilməsi, 60-dan çox yeni müəssisə və qurğunun tikilib istismara verilməsi, 200-dən artıq neft məhsullarının, o cümlədən 9 markada aviasiya benzininin, 8 növdə dizel və 36 növdə başqa sürtkü yağlarının, 26 növ mühərrik və partlayıcı vasitələrin istehsalının başlanması və başqa işlər barədə məlumat verilib.

Bundan başqa kitabda digər elm sahələri ilə yanaşı tarix sahəsində də görülmüş işlər barədə bir sıra faktlar var. Kitabda qeyd olunur ki, tarixçi alimlərin Azərbaycan xalqının tarixinin qəhrəmanlıq səhifələrinə, çoxmillətli vətənimizin başqa xalqları ilə sarsılmaz dostluğuna həsr olunmuş 100-dən artıq elmi-kütləvi kitabçası və məqaləsi dərc olunub. Müharibə illərində tarixçi alimlərin hazırladığı "Azərbaycan tarixinin qısa oçerki" kitabı Azərbaycan və rus dillərində çapdan çıxıb.

Kitabın nəticə hissəsində qeyd olunur ki, 1941-1945-ci illərdə Azərbaycan SSR-in 600 mindən çox oğlan və qızı cəbhəyə səfərbər edilib, on minlərlə döyüşçü rəşadət və igidliyinə görə orden və medallarla təltif olunub, onlardan 128 nəfəri isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Daha sonra göstərilir ki, müharibə dövründə Azərbaycan neftçiləri ölkəyə 75 mln. ton neft, 22 mln. ton benzin və digər neft məhsulları verib, respublikada 130 növ silah, döyüş sursatı və hərbi ləvazimat istehsal edilib, faşist işğalından azad edilmiş rayonlara yüzlərlə vaqon müxtəlif avadanlıq, tikinti materialları, kənd təsərrüfatı məhsulları, yanacaq və ev əşyaları, habelə 40 min baş iribuynuzlu mal-qara göndərilib.

Kitabda müəlliflər müharibə dövründə ABŞ və İngiltərənin SSRİ-yə göstərdikləri yardımların çox az olması və bunun qələbənin qazanılmasında heç bir rol oynamamasını rəqəmlərlə sübut etməyə çalışıblar. Kitabda qeyd olunur

ki, SSRİ-nin beynəlxalq kredit üzrə başqa ölkələrdən aldığı maliyyə vəsaiti onun ümumi müharibə xərcinin yalnız 4 faizinə qədərini təşkil edib. (68,107,5 may1990)

M.Alıcanovun tədqiqatları nisbətən az tədqiq olunmuş sahəyə, Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakına həsr olunub.(14) Onun 1975-ci ildə nəşr olunan “Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı (1941-1944-cü illər)” kitabı giriş və 4 fəsildən ibarətdir.

Kitabın giriş hissəsində Q.Ə.Mədətovun, Q.Mehdiyevin, Ə.Bağırzadənin, M.Abbasovun, T.Novruzovun, V.A.Belyayevanın, Ə.Kərimovun, C.F. Hüseynovun, A.Sərkisovun Böyük Vətən müharibəsinə həsr etdikləri kitabların tarixşünaslıq baxımdan təhlil edilməsi təqdirəlayiqdir. Müəllif həmin əsərlərdə azərbaycanlı döyüşçülərin partizan hərəkatında iştirakı məsələsinin tədqiq edilməməsinə və bəzi əsərlərdə isə zəif işıqlandırılmasına tənqidi münasibət bəsləyib. O, tədqiq etdiyi mövzuya aid yazılmış K.Tskitişvilinin, M.Seyidovun, C.Həkimovun, V.Seyidovun, C.Rəfiyevin, Q.Jilyayevin, S.Məmmədovun, İ.Qasımovun, Q.Ə.Mədətovun kitablarını da tarixşünaslıq baxımından təhlil edib. Müəllif K.Tskitişvilinin kitabını prblemin tədqiqi sahəsində ilk təşəbbüs olduğunu göstərməklə yanaşı, kitabda azərbaycanlı döyüşçülərin partizan hərəkatında iştirakının səthi işıqlandırıldığını qeyd edir. O, K.Tskitişvilinin kitabında Belorusiya partizan hərəkatında iştirak etmiş azərbaycanlı döyüşçülərdən yalnız polkovnik Ə.Əliyevin fəaliyyəti haqqında qısa məlumat verilməsini düzgün hesab etməyib. (737) Müəllifin fikrincə digər kitablarda da azərbaycanlı döyüşçülərinin partizan və antifaşist hərəkatında iştirakı müəyyən dərəcədə işıqlandırılsa da, onların SSRİ-nin müvəqqəti işğal edilmiş rayonlarında fəaliyyət göstərmiş partizan dəstələrinin tərkibində mübarizəsindən çox az bəhs olunur.

Kitabın giriş hissəsində müəllif həm də mövzuya dair burjua tarixçilərinin əsərlərinə öz münasibətini bildirib. O, ABŞ ordusunun keçmiş polkovniki Çarl V.Hostlerin 1957-ci ildə Nyu-Yorkda nəşr etdirdiyi “Türkizm və Sovetlər” adlı kitabında SSRİ-nin şərq respublikalarının əhalisinin sosialist vətəninin müdafiəsi ideyasına yad olması haqqında fikirlərini tənqid edərək, bu cür fikirlərin M.Ə.Rəsulzadənin 1951-ci ildə Türkiyədə nəşr etdirdiyi “Müasir Azərbaycan tarixi” kitabında da öz əksini tapmasına mənfi münasibət bəsləyib. Müəllif AFR tarixçiləri Ç.O.Diksonun, O.Gelbrunnun, Middeldorfun, L.Renduliçin, D.Karovun öz kitablarında irəli sürdükləri “müvəqqəti işğal olunmuş ərazilərdə qalan sovet

adamları faşist qoşunlarına rəğbət bəsləyirdilər. Məhz buna görə də müharibənin ilk 4-5 ayında partizan hərəkatı mövcud olmamışdır. Partizan hərəkatına səbəb alman hərbçilərinin qəddarlığı olmuşdur" kimi fikirlərini tənqid edərək bunu sovet xalqının vətənpərvərlik hərəkatının, düşmənə qarşı amansız mübarizəsinin saxtalaşdırılması kimi qiymətləndirir.

Kitabın giriş hissəsində müəllif fransız Mişel Leqrana istinadən 1944-cü ildə kapitan Hüseynrza Məmmədov başda olmaqla azərbaycanlı döyüşçülərinin Rodez şəhərini faşistlərdən azad etməsi və Polşada çıxan "Za volnoşu Lyüd" jurnalının 1973-cü il 49-cu sayına istinadən Kelt meşələrindəki partizan dəstələri içərisində öz cəsarəti və qəhramanlığı ilə şöhrət qazanmış Əli Qarabala adlı azərbaycanlı döyüşçü haqqında məlumatlar verir.

Kitabın "SSRİ-nin müvəqqəti işğal edilmiş rayonlarında partizan hərəkatının başlanması" adlanan I fəslinin yalnız 42-ci səhifəsində Sovet Hökümətinin notasında adı çəkilmiş və işgəncələrə məruz qalmış azərbaycanlı döyüşçülər haqqında məlumat var.(682, 28 aprel 1942)

"Azərbaycan döyüşçülərinin Ukrayna ərazisindəki partizan hərəkatında iştirakı" adlanan II fəsildə müəllif Ukrayna SSR-in müxtəlif arxiv sənədləri əsasında hesablayıb ki, Ukrayna ərazisində fəaliyyət göstərən gizli antifaşist təşkilatlarında, müxtəlif partizan birləşmələri və dəstələrində 5000 nəfər azərbaycanlı döyüşçü faşistlərə qarşı mərdliklə vuruşub və onlardan 1000 nəfəri müxtəlif orden və medallarla təltif olunub. Bizim hesablamamıza görə müəllif bu 5000 nəfərdən cəmi 119 nəfər azərbaycanlı döyüşçünün qəhrəmanlığı haqqında məlumat verib ki, bu da fikrimcə çox azdır. 119 nəfərdən də 2 nəfər erməni, 1 nəfər rusdur. Kitabda bunlardan ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif olunmuş, qəhrəmanlığı V.Milyuxa və Q.Qalkinanın "Komendant saatı" pyesində öz əksini tapmış Vəli Hüseyn oğlu Axundov, qəhrəmanlığına S.Vurğunun "Partizan Babaş" şeri həsr etdiyi Babaş Dadaşov, "Gənc qvardiya" gizli təşkilatının üzvü, şair Q.Kirsanovun "Qeroy-azerbaydjanes" şerini həsr etdiyi Əli Dadaşov (rəsmi siyahıda Leonid Dadışev yazılıb), 12 nəfər azərbaycanlılardan ibarət dəstəyə rəhbərlik etmiş, qəhrəmanlığına görə yazıçı Fyodr Zalata tərəfindən Krivoy-Roq şəhərində heykəlinin qoyulması təklif olunmuş, A.Tutıkin tərəfindən haqqında "Oni ne moqli inaçe" adlı sənədli povest yazılmış Xanlar Babanlı, 8 saatlıq döyüşdən sonra qəhrəmanlıqla həlak olmuş Alfa Əli qızı Şirazi, Sara İbrahimova

və başqaları haqqında məlumatlar verilib.

"Azərbaycan döyüşçüləri Belorusiya xalq intiqamçıları arasında" adlanan III fəsildə müəllif Belorusiyanın müxtəlif arxivlərində tədqiq etdiyi sənədlərə əsasən hesablayıb ki, 1000 nəfər azərbaycanlı döyüşçü bu ərazidə işğalçılara qarşı mübarizə aparıb, bunlardan da 300 nəfərdən çoxu müxtəlif hökümət mükafatlarına təqdim olunub. Bizim hesablamalarımıza görə müəllif kitabda cəmi 60 nəfərin döyüşlərdə göstərdikləri qəhrəmanlıqlar haqqında məlumat verir ki, bu da fikrimizcə 1000 nəfərlə müqayisədə çox azdır. Adı çəkilən 60 nəfərdən də 2 nəfər milliyətcə ermənidir. Kitabda mayor Ələkbər Seyidməmməd oğlu Əliyev, Qəhrəman Nəcəf oğlu Məmmədov, İsa Nurəhməd oğlu Hüseynov, Məzahir Baxış oğlu Hənifiyev, Uqus Allahyar oğlu Allahyarov, Mahmud Mahmudov, Musa Orucov və başqalarının qəhrəmanlıqları haqqında məlumat verilib.

"Azərbaycan döyüşçülərinin RSFSR-in müvəqqəti işğal edilmiş ərazilərinin faşist zülmündən azad edilməsi uğrunda döyüşlərdə iştirakı" adlanan IV fəsildə müəllif əvvəlki iki fəsildən fərqli olaraq azarbaycanlı döyüşçülərin ümumi sayını göstərməyib və bunun səbəblərini də açıqlamayıb. Bu fəsildə bir sıra azərbaycanlılar, o cümlədən İ.Ə.Əliyevin, A.F.Rüstəmbəyovanın, A.A. Əliyevin, N.C.Allahverdiyevin, M.K.Əliyevin, S.C.Hacıyevin və başqalarının döyüş rəşadətləri haqqında məlumat verilib.

Kitabın nəticə hissəsində müəllif düşmən tərəfindən işğal edilmiş ərazilərdə 1milyon 300 min insanı əhatə edən 6200 partizan dəstəsi və qrupunun fəaliyyət göstərdiyini qeyd edir. Bundan başqa müəllif göstərir ki, sovet Azərbaycanından yüz minlərlə döyüşçü Böyük Vətən müharibəsində düşmənə qarşı vuruşub və onların da 30 mini qadın olub. Azərbaycandan olan 170 minə qədər döyüşçü göstərdikləri igidliklərə görə SSRİ-nin orden və medalları ilə təltif edilib, 115 nəfəri isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.(14)

M.Alıcanovun kitabının təhlili göstərir ki, müəllif böyük zəhmət bahasına faşistlər tərəfindən işğal olunmuş ərazilərdə fəaliyyət göstərən partizan dəstələrinin tərkibində qəhrəmanlıqla vuruşan azərbaycanlı döyüşçülər haqqında çox əhəmiyyətli faktları üzə çıxarıb. Bu faktlar müxtəlif rəsmi mənbələrə istinad etdiyindən çox əhəmiyyətlidir. Lakin sonradan bu istiqamətdə tədqiqatların aparılmaması yüzlərlə azərbaycanlı döyüşçünün qəhrəmanlıqları haqqında faktların üzə çıxarılmasına imkan verməmişdir. Fikrimizcə M.Alıcanovun başladığı

tədqiqatların müasir dövrdə tarixçilər tərəfindən davam etdirilməsi aktual olaraq qalır.

E.F.Edlinskinin 1963-cü ildə Moskvada, rus dilində nəşr olunmuş "Xəzər nəqliyyat gəmiçiliyi Sovet ittifaqının Böyük Vətən müharibəsində. 1941-1945-ci illər" adlı kitabında müharibə illərində döyüşən ordunu yanacaq, müxtəlif silah və ərzaqla təmin edilməsi sahəsində Xəzər nəqiliyyat gəmiçilərinin göstərdikləri qəhrəmanlıqlardan bəhs edilir. Müəllif müxtəlif statistik materiallar əsasında müharibə dövründə dənizçilərin vuruşan orduya etdikləri yardımlar, ayrı-ayrı illər üzrə və ümumiləşmiş şəkildə qeyd edir. Kitabda xüsusilə Stalinqrad vuruşması ərəfəsində Volqa çayından gəmilərin üzməsinin mümkün olmadığı bir şəraitdə döyüşən ordunu yanacaqla təmin etmək üçün dənizçilərin göstərdikləri fədakarlıqlar faktlarla işıqlandırılıb.

Böyük Vətən müharibəsminin tarixşünaslığının öyrənilməsində müharibə zamanı göstərdikləri igidliyə görə Sovet İttifaqı Qəhrəmanı adını almış Azərbaycan vətəndaşları haqqında Ə.Ağayevin, Q.Mədətovun, Ə.İsayevin, S.Məmmədovun, Z.Təhməzovun, İ.Həsənovun, C.Rəfiyevin və başqa tarixçilərin yazdıqları əsərlər (10,76,161,240,241,268,351,389,394 və s.) də mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunda Q.Mədətovun rəhbərliyi ilə "Sovet dövrü tarixi" şöbəsinin işçiləri tərəfindən 1963-cü ildə hazırlanmış məqalələr məcmuəsinin birinci buraxılışı olan "Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları" kitabında 73 nəfər qəhrəman haqqında məlumat verilib. (76)

S.Məmmədovun 1988-ci ildə çapdan çıxmış "Azərbaycanın qəhrəman qızları" kitabında (289) Azərbaycan qızlarının ön və arxa cəbhədəki qəhrəmanlığından bəhs olunur. Kitabda göstərilir ki, təkcə neft sənayesində 1944-cü ildə 32330 nəfər qadın çalışıb. Müəllif kitabda Azərbaycandan cəbhəyə yollanmış 97 qadının qəhrəmanlığı haqqında məlumat verir ki, onlardan da 19 nəfəri rus və erməni millətindən olan qadınlardır. Kitabda ilk təyyarəçi qadınlardan Sona Nuriyeva, Leyla Məmmədbəyova, Züleyxa Seyidməmmədova, Qara dəniz sahillərində düşmənə qarşı qəhramanlıqlar göstərmiş Əsmər Həsənova, Kübra Məmmədova, Lətafət Məmmədova, Pakizə Vahabova, Zinyət Manafova, Dürrə Məmmədova, Səkinə Məmmədova, Adilə Məmmədova, həkimlər Züleyxa İsmayılova, Səfiyyə Rüstəmbəyova, diş həkimi Şura Əlizadə, Lyudmila Kərimova,

Susanna Sanamova, Suğra Paşayeva, Stalinqrad döyüşlərində vuruşmuş Həlimə Rzayeva, Zərifə Camalbəyova, Bikəxanım Bağırova, ana - bala Bəyim və Səlimə Əlizadələr və başqaları haqqında məlumat verilib. Bunlarla yanaşı kitabda şair M.Ə.Sabirin qız nəvəsi, tibb xidməti baş leytenantı Naibə Həsənovanın Qara dəniz donanmasının Novorossiysk şəhərindəki bazasında müharibə dövründəki gərgin fəaliyyəti haqqında da məlumat var.

Kitabda həmçimnin Azərbaycanlılardan ibarət 416-cı diviziyada döyşən 152 qadından 45 nəfərinin "Qızıl ulduz" ordeni, 42 nəfərinin "İgidliyə görə" və "Döyüş xidmətinə görə" medalları ilə təltif edilməsi, 17 qadının zabit rütbəsi daşıdığı qeyd olunub. Bunlardan Ədilə Abbasova, Səkinə Bayramova, Nəzakət Yəhyayeva, Şükufə Əsgərova, Rəşidə Qasımzadə, Zəhra Səlimova, Mina Hacıyeva, Cənnət Hacıyeva, Səkinə Şəfiyeva və başqaları haqqında kitabda məlumat verilib.

Kitabda snayperçi Ziba Qəniyevanın qəhrəmanlığı haqqında oçerk və jurnalın üz qabığında portiretinin çap olunması, şair M. Dilbazinin ona şeir həsr etməsi haqqında da məlumat var.(665, № 28,1943)

Kitabda həmçinin şərqi Avropa ölkələrinin işğalçılardan azad edilməsi uğrunda vuruşmuş azərbaycanlı qadınlar haqqında da məlumat verilib. Bunlardan Səlimə Xəlilovanı, Bikə Gözəlovanı, Anatollu Əbilovanı, Sitarə Ağayevanı, Xanım Əhmədovanı, Səlimə Hacıyevanı, Qədriyyə Səlimovanı göstərmək olar. Müəllif kiçik leytenant Qədriyyə Səlimovanın göstərdiyi qəhrəmanlıqlar haqqında bolqar jurnalisti Yirban Draqanovun 1969-cu ildə türkcə çıxan "Yeni işıq" qəzetində "Müharibə alovlarından keçən Qədriyyə" məqaləsinin də dərc olunduğunu qeyd edir.

Kitabda İtaliya partizanları ilə birgə vuruşmuş Mədinə Əhmədova, Uzaq Şərqdə xidmət etmiş Təzəxanım Əzimzadə, Cəvahir Abbasova, Mülayim Cəfərova, Fəridə Vəzirova və başqaları haqqında da məlumat verilib.(289)

H.Quliyevin, İ.Novruzovun, A.Zamanovun, R.Tağıyevin kitabları (245, 408 və s.) Böyük Vətən müharibəsi illərində cəbhə və ordu qəzetlərində fəaliyyət göstərmiş Azərbaycanlı jurnalistlərə, döyüşən orduda xidmət etmiş yazıçılara həsr olunub.

İ.Novruzovun 1982-ci ildə çapdan çıxmış "Əzablı yollar" kitabında müəllif ordu və cəbhə qəzetlərində fəaliyyət göstərmiş jurnalistlərin gərgin əməyindən, görkəmli sovet sərkərdələri, partiya və dövlət xadimləri ilə görüşlərindən və

iştirakçısı olduğu döyüşlərdən bəhs edib.

A.Zamanovun 1986-cı ildə nəşr olunmuş "Cəbhə dəftərindən" kitabında müəllifin Böyük Vətən müharibəsi cəbhələrindəki fəaliyyəti haqqında məlumat verib. Kitabda qeyd olunur ki, müəllif cəbhədə ictimai əsaslarla Azərbaycan Teleqraf Agentliyinin müxbiri kimi fəaliyyət göstərib və 1943-cü ildə döyüşən orduda jurnalist fəaliyyətinə görə ona Sovet İttifaqı Teleqraf Agentliyinin fəxri fərmanı verilib.

R.H.Tağıyevin 1985-ci ildə nəşr olunmuş "Xatirələrdə yaşayanlar" kitabında Böyük Vətən müharibəsi cəbhələrində həlak olmuş yazıçı döyüşçülər Abdulla Faruq, Hüseyn Natiq, Sergey İvanov və başqaları haqqında məlumatlar var. Bundan başqa kitabda müharibə dövründə ön və arxa cəbhədə fəaliyyət göstərmiş şair və yazıçılardan S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim, M.İbrahimov, O.Sarıvəlli, Ə.Əbülhəsən, S.Vəliyev, N.Əliyev, N.Məmmədli, A.Kirəçli, Z.Cabbarzadə, M.Aranlı, C.Xəndan, S.Paşayev, S.Nazim, İ.Sayılov, Ə.Məmmədxanlı, H.Arif və başqaları haqqında da məlumatlar verilib. Arxiv sənədləri, cəbhə qəzetlərinin materialları və xatirələr əsasında yazılan bu kitabdakı tədqiqiatların muasir dövrdə davam etdirilməsinə ciddi ehtiyac var.

Z.Bünyadovun, P.Əzizbəyovanın, R.Zeynalovun, A.Quliyevin, S.Kərimovun, Q.Orucovun, F.Y.Bokovun kitabları (91,202,329,475 və s.) Böyük Vətən müharibəsi illərində ayrı-ayrı döyüşlərə və bu döyüşlərdə azərbaycanlıların iştirakına həsr olunub.

F.Y.Bokovun 1975-ci ildə nəşr olunmuş "Azərbaycan övladlarının ölməz igidliyi" kitabında Böyük Vətən müharibəsi illərində Qırmızı Bayraq və Suvorov ordenli azərbaycanlılardan ibarət 416-cı Taqanroq atıcı diviziyasının döyüş əməliyyatları və onunla birlikdə fəaliyyət göstərmiş 5-ci zərbə ordusunun döyüşçülərinin hünər və qəhrəmanlıqları haqqında qısa məlumat verilib. Kitabda Azərbaycan SSR-də yaranaraq Qafqaz dağlarının ətəklərindən Berlinin mərkəzinədək şanlı yol keçmiş, digər hissələrlə birlikdə müharibəni 1945-ci il mayın 3-də səhər hitlerçilərin son mövqelərini darmadağın etməklə və Brandenburq darvazası üzərində bayraq sancmaqla başa çatdırmış 416-cı Taqanroq atıcı dviziyasının bir sıra qəhrəman döyüşçüləri haqqında faktlar işıqlandırılıb. Kitabda Sovet İttifaqı Qəhrəmanları Ağaşirin Ağaməmməd oğlu Cəfərov, Bəhyəddin Mirzəyev, Ziya Bünyadov, polkovnik Mehdi Mahmudov, podpolkovnik İsmayıl

Aslanov, kapitanlar Əsəd Məlikabbasov, Xeyrulla Gülməmmədov və Ənvər Əlibəyli, üç ordenli Əbdül Zeynalov, baş leytenant Vahab Osmanov, döyüşçü Bəhram Mirtağıyev, tibb bacısı Tahirə Dadaşova haqqında da geniş məlumatlar var. Bundan başqa kitabda Azərbaycan xalqının qəhrəman oğlu, əfsanəvi general V.P.Zuvanovun qəhrəmanlığı xüsusi qeyd olunub.(91)

Kitabda general V.P.Zuvanovun qəhrəmanlığı xüsusi qeyd olunsa da onun milliyytcə azərbaycanlı olmasına baxmayaraq nəyə görə rus familiyası daşıması haqqında məlumat verilməyib. Bu barədə dəqiq məlumata Ş.Nəzirlinin 1991-ci ildə nəşr olunmuş "Azərbaycan generalları" kitabında rast gəlmək olar. Kitabda qeyd olunur ki, generalın əsil adı və familiyası Heybət Heybətovdur. Çoxuşaqlı ailədən olan Heybəti valideynləri kiçik yaşlarından Zuvanov adlı bir şəxsin rəhbərlik etdiyi müəssisəyə işə düzəldirlər. Züvanovun övladı olmadığına görə həmin şəxs Heybətin valideynlərinin razılığı ilə ona öz soyadını verərək övladlığa götürüb. Sonrada isə onu hərbi məktəbə oxumağa göndərib. Kitabda daha sonra göstərilir ki, Azərbaycanlılardan ibarət 416-cı diviziya təşkil olunarkən M.C.Bağırov bu diviziyaya Azərbaycanlı zabitlərin rəhbərlik edəcəyini bildirib və ona öz familiyasını dəyişməyi təklif edib. Lakin H.Heybətov ona qayğı göstərərək yüksək zabit rütbəsi qazanmasında böyük rolu olmuş şəxsin familiyasını dəyişməkdən imtina edib. Məhz buna görə də 13 oktyabr 1941-ci ildən başlayaraq üç il yeddi ay on yeddi gün müharibədə iştirak edərək qəhrəmanlıqlar göstərmiş, 416-cı diviziyanın komandir müavini, azərbaycanlı general Heybət Heybətov ömrünün axırına qədər Zuvanov familiyasını daşıyıb.

Kitabda Böyük Vətən müharibəsində döyüşən orduda xidmət etmiş digər general, 56-cı ordunun hərbi tribunalının sədri, ədliyyə generalı Əjdər Xaspoladov haqqında da məlumat verilib. (91)

P.Əzizbəyovanın 1970-ci ildə Mosesova ilə birlikdə yazdığı "Ailə şərəfi" kitabı Nəriman Nərimanovun oğlu Nəcəf Nərimanovun müharibədə iştirakına həsr olunmuş yeganə tədqiqat əsəridir. Kitab N.Nərimanovun Volnovaxa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan bəhs edir. Kitabda N.Nərimanovun Volnovaxa şəhərinin azad edildiyi gün qəhrəmanlıqla həlak olması qeyd olunur.

A.Hüseynov, D.Hüseynov, C.Hüseynov və başqa tarixçilər Böyük Vətən müharibəsində SSRİ-nin qələbə qazanmasında xalqlar dostluğunun rolu

mövzusunda kitab və məqalələr yazıblar.(164, 167 və s.)

Almaniyanın Sovet İttifaqına hücumu ərəfəsi tərtib olunmuş Barbarossa adlı "İldırım sürətli müharibə" planında SSRİ-nin çoxmillətli tərkibinə xüsusi diqqət verilirdi. Bu planda müharibənin ilk günlərindən SSRİ-də millətlərarası münaqişələr güclənəcəyi və bunun da alman-faşist ordusunun tezliklə qələbə qazanmasına kömək edəcəyi nəzərdə tutulurdu. Sovet tarixçilərinin əsərlərində bu planın əksinə olaraq Böyük Vətən müharibəsindəki qələbədə SSRİ-də yaşayan millət və xalqların dostluğunun mühüm rol oynaması faktlarla işıqlandırılıb. Lakin bu əsərlərdə müharibə dövründə millətlərarası münasibətlərdə mövcud olmuş prlolemlərin üstündən sükutla keçilmiş, nöqsanlara tənqidi münasibət bəslənilməyərək yalnız müsbət cəhətlərin təbliğinə üstünlük verilib.

D.Hüseynovun 1959-cu ildə nəşr olunmuş "Böyük Vətən müharibəsi illərində sovet xalqının mənəvi-siyasi birliyi" kitabında düşmən üzərində qələbədə sovet xalqının mənəvi-siyasi birliyinin, xalqlar dostluğunun rolu, sovet xalqının maddi və mənəvi qüvvəsinin səfərbər edilməsi sahəsində Kommunist Partiyasının gördüyü işlər arxiv materialları və dövrü mətbuat materialları əsasında tədqiq olunub. Kitabda həmçinin arxa cəbhədə alimlərin, həkimlərin, neftçilərin fəaliyyətinə də müəyyən yer verilib.(164)

C.Hüseynovun 1966-cı ildə çapdan çıxmış "Xalqın birliyinin qələbəsi" (Böyük Vətən müharibəsində sovet xalqının ideya və siyasi birliyinin qələbəsi haqqında) kitabı 3 fəsil və nəticədən ibarətdir.(167) Müəllif digər tədqiqatçılardan fərqli olaraq kitaba giriş verməyib.

Kitabın "Sovet xalqının ideya və siyasi birliyinin əmələ gəlməsi və möhkəmləndirilməsi" adlanan birinci fəslində müəllif ideya-siyasi birliyin iqtisadi əsası kimi sosialist inqilabı nəticəsində proletar diktaturasının qurulması ilə xüsusi mülkiyyətin və istismarçı siniflərin ləğv edilməsi, sosialistcəsinə sənayeləşdirmə və kollektivləşdirilmənin başa çatırılmasını qeyd edib. Bu birliyin ideoloji əsası kimi marksizm-leninizm nəzəriyyəsini göstərən müəllif, N.Nərimanovun sovet hakimiyyətinin ilk illərində dediyi sözləri də sitat gətirib. N.Nərimanov o zaman demişdi: "Aya Rusiya top, tüfəng, bomba və sair aləti hərbiyə iləmi qüvvətlidir. Xeyr, Rusiya bir də yüksək ruhla qüvvətlidir. Rusiyada bu yüksək ruh olmasaydı, əldə olan silahla heç kəsin müqabilinə çıxmaq mümkün deyildir...Rusiyada olan bu yüksək ruh, bu şüa, hamı məmləkətlərin qoşununu dağıtdı və heç bir qoşun bu

ruh və şüanın qarşısında davam etməyib və etməyəcəkdir.” (204, 20 may 1920)

Müəllifin istinad etdiyi bu fikirlər N.Nərimanovun özü tərəfindən həyatının sonlarında yazdığı məktublarda irəli sürdüyü fikirlərlə ziddiyyət təşkil edir. Lakin kitab nəşr olunarkən bu məktubların nəşri qadağan olunduğuna və gizli saxlanıldığına görə müəllif bunlardan xəbərsiz olmuşdu.

Kitabın I fəslində digər məsələlərlə yanaşı müharibə ərəfəsində sovet xalqının ideya və siyasi birliyinin möhkəmləndirilməsi sahəsində partiyanın fəaliyyəti də işıqlandırılıb. Müəllif N.Voznesenskinin 1947-ci ildə nəşr olunmuş “Vətən müharibəsi dövründə SSRİ-nin hərbi iqtisadiyyatı” kitabına istinadən SSRİ əhalisinin sürətlə artaraq məhsuldar qüvvələrin inkişafı üçün ehtiyat qüvvə əmələ gətirdiyini, konkret olaraq şəhər əhalisinin 1926-cı ildə 26 milyon olduğu halda 1940-cı ildə 61 milyona, kənd əhalisinin isə müvafiq olaraq 121 milyondan 132 milyona çatmasını müsbət cəhət kimi göstərib. Bundan başqa müəllif “Partiynaya jizn” jurnalının 1947-ci il 24-cü sayına istinadən ölkədə çuqun əridilməsinin 1913-cü ildəki 4,2 milyon ton səviyəsindən artaraq 1940-cı ildə 15 milyon tona çatmasını, polad əridilməsini müvafiq olaraq 4,2 milyon tondan 18,3 milyon tona, kömür çıxarılmasının 29 milyon tondan 166 milyon tona, neft çıxarılmasını 9 milyon tondan 31 milyon tona çatmasını qeyd edib və bununla müharibə ərfəsindəki vəziyyət barədə oxucularda təsəvvür yaratmağa çalışıb.(167)

Kitabın “Sovet xalqının ideya və siyasi birliyi Böyük Vətən müharibəsində sovet xalqının qələbəsinin qüvvət və qüdrət mənbəyidir” adlanan ikinci fəslində əsasən düşməni dəf etmək üçün xalqın sıx birliyinin möhkəmləndirilməsi sahəsində görülən tədbirlər tədqiq olunub. Ümumiyyətlə kitabın digər fəsillərində olduğu kimi, bu fəsildə də Azərbaycana aid faktlar azlıq təşkil edir. Lakin bu nöqsanlara baxmayaraq müəllif digər kitablarda olmayan faktlara istinad edərək ilk dəfə olaraq respublika əhalisinin azərbaycanlı döyüşçülərə göndərdiyi məktublar haqqında məlumat verib. Kitabda respublikadan göndərilmiş bu məktubların xalqın səfərbərliyə alınmasında və döyüşçülərin mübarizə əzminin artırılmasında mühüm rol oynadığı qeyd edilir.

Kitabda “Pravda” qəzetinin baş məqaləsinə istinadən verilmiş, Bakı fəhlələrinin azərbaycanlı döyüşçülərə göndərdiyi məktubda deyilir: “Neft Bakısının fəhlələri, Azərbaycanın günəşli tarlalarının kolxozçuları, gənc ziyalılar cəbhədə olan öz oğullarına, qardaşlarına coşqun ürək sözləri ilə müraciət edərək deyirlər:

sovet vətəninin keşiyində sarsılmaz qala kimi dayanın, onun azadlığını və şərəfinin son qətrə qanınız qalana qədər qoruyun, vəhşi alman faşistlərini amansızcasına qırın, mübarizədə qorxunuz olmasın, qəhrəmancasına vuruşmaqdan qorxmayın" Daha sonra məktubda yazılır: "Bizim igid əsgərlərimiz! İl yarımdan artıqdır ki, Siz Böyük Vətən müharibəsi cəbhələrində... mənfur alman işğalçılarına qarşı mübarizə edirsiniz... Vəfaya vəfa, yaxşılığa yaxşılıq lazımdır. Namusumuz bizdən tələb edir ki, sovet torpağı qəsbkarların zülmündən azad olmayınca bir nəfər də Azərbaycan oğlu öz qılıncını qınına qoymasın...Azərbaycanlı döyüşçülər yaxşı bilirlər ki, ... cəbhənin hansı yerində vuruşsalar, onlar öz müqəddəs vətənini qoruyurlar. Neva və Volqa çaylarının sahillərində, qana boyanmış Ukrayna torpağında və Smolensk vilayətinin meşələrində vuruşan azərbaycanlı döyüşçülər Muğan düzünün pambıq tarlalarını, Bakı şəhərinin neft buruqlarını müdafiə edirlər." (682, 21 aprel 1943)

Arxiv sənədlərinə istinadən verilmiş digər məktubda deyilir: "Biz ağbirçək ana və ağsaqqal atalarınız sizdən bir şey tələb edirik: öz sıralarınızda qorxaqlara, namərdlərə yer verməyin, onları öz əllərinizlə məhv edin. Can şirin şeydir, lakin vətən candan da şirindir."

"Pravda" qəzetində dərc olunmuş digər məktubda əhali Azərbaycan əsgərlərini intiqama çağırırdı: "Hitlerçilər tərəfindən əzabla öldürülən sədaqətli oğullarını: gözləri çıxarılan, qulaqları kəsilən Cəfər İsmayılzadəni, qolları vurulub bədənindən çıxarılan Əlibəy Quluzadəni, qarnı yırtılan yefreytor İslam Əliməmməd oğlunu, dirəyə sarılaraq əlləri arxadan dəmir məftillə bağlanan, əzabla öldürülən Əsgər Mustafaoğlunu xatırlarkən Azərbaycan xalqının qəlbi qəzəb hissi ilə dolur... Bu cinayətləri dağlar görsəydi titrəyərdi, daşlar görsəydi yaş axıdardı. Xalq öz oğullarını pak qanı üçün düşməndən amansız intiqam almağı tələb edir."(682, 21 fevral 1943)

Kitabda qəhrəmanlığı və düşmənə nifrəti ilə seçilən Laçın rayonu əhalisi haqqında da arxiv sənədlərinə istinadən faktlar verilib. Laçın rayonun Minkənd kəndinin ən qoca sakini 1840 -cı il təvəllüdlü Nəbiyev öz ərizəsində yazırdı: "Düşmənə qarşı vuruşmağa mənim qüdrətim vardır. Ona görə xahiş edirəm məni xalq ordusu sıralarına yazasınız." Müəllif qeyd edir ki, 100-dən artıq yaşı olan ağsaqqalla yanaşı, Laçın rayonunda 95 yaşlı Şiraslan, 61 yaşlı Telli Fətəliyeva və başqaları da bu məzmunda ərizələrlə müraciət ediblər.

Müəllifin istinad etdiyi digər fakt fikrimizcə müasir dövrdə Azərbaycanın

işğal olunmuş ərazilərinin azad olunması, gənclərdə vətənpərvərlik hisslərinin aşılanması sahəsində öz aktuallığını saxlayır. "Pravda" qəzetində dərc olunmuş yazıda deyilir: "Azərbaycanlılardan təşkil olunmuş 416-cı Taqanroq diviziyasının qəhrəmanlığı şərəfinə Moskvada yaylım atəşi atılarkən kapitan Əhməd Əhmədov demişdir : "Moskva bizi top atəşi ilə salamladı. İndi Qarabağ dağları da sevincdən oynayır" ( 682, 6 sentyabr 1943)

Kitabda göstərilir ki, 1943-cü ilin iyuluna kimi Azərbaycan partiya təşkilatının tərkibində olan 80613 kommunistdən 40948 nəfəri, yəni 49,9 faizi səfərbərlik xətti ilə və ya könüllü cəbhəyə getmişdi. (167,s.51)

Kitabda Böyük Britaniyanın baş naziri Çörçilin məxvi məktublarında Bakı ilə əlaqədar faktlar öz əksini tapıb. Almanların hücum planına görə Bakı 25 senytabr 1942-ci il tarixə qədər tutulmalı idi. Bununla bağlı Çörçilin sovet hökümətinə göndərdiyi gizli məktubda deyilirdi: "Almanlar Xəzər dənizində hərbi əməliyyat aparmaq üçün admiral təyin etmişlər. Onlar Mahaç-Qalanı özlərinə əsas hərbi-dəniz bazası seçmişlər... Hitlerin Bakını tuta bilmək ümidi boşa çıxdıqda o, Bakını hava hücumu vasitəsilə dağıtmağa cəhd edəcəkdir." (167,s.67,68)

Kitabda Qafur Məmmədovun 1942 - ci ilin avqustunda zabit Sinetskini öz sinəsi ilə ölümdən qutarması haqqında məşhur faktı xatırladan müəllif, "Krasnaya zvezda " qəzetinin 27 fevral 1942-ci il nömrəsinə istinadən Sovet İttifaqı Qəhrəmanı, zabit Xəlil Nəbiyevin döyüşçü Panov tərəfindən eyni üsulla ölümdən xilas edildiyini qeyd edir. (167,s.69)

Kitabda Azərbaycanlılardan ibarət 416-cı Taqanroq diviziyasının qəhrəmanlığına aid bir neçə fakt göstərilib. Kitabda qeyd olunur ki, diviziyanın 56 snayperçisi Sambek yaxınlığında gedən döyüşlərin dörd ayında 1017 faşisti sıradan çıxarıb. Snayperçilərdən Baloğlan Məmmədov 57, Cəlal Məmmədov 48, İsmayıl Abdullayev 42 faşisti məhv edib. (167,s.74-74)

İkinci fəslin sonunda müəllif düşmən arxasında partizan müharibəsində iştirak etmiş Mehdi Hüseynzadənin qəhrəmanlığınndan, ona ölümündən sonra 1957-ci ildə Sovet İttifaqı Qəhrəmanı adı verilməsindən, İmran Qasımov və Həsən Seyidbəylinin onun qəhrəmanlığından bəhs edən "Uzaq sahillərdə" kitabını yazmasından bəhs edir.

Kitabın "Sovet xalqının siyasi və ideya birliyi cəbhə arxasında fəhlə sinfinin, kolxozçu kəndlilərin və ziyalıların vətənpərvərliyi üçün mühüm şərtdir"

adlanan üçüncü fəslində müəllif fəhlə və kəndlilərin, həmçinin ziyalı təbəqəsinin fəaliyyətini ayrılıqda tədqiq edib. Arxiv sənədlərinə istinadən kitabda Azərbaycan zəhmətkeşlərinin 1944-cü il dekabrın 1-nə kimi cəbhəyə 13932 yarımkürk, 211220 qolsuz kürk, 33331 keçə çəkmə, 43535 qulaqlı papaq, 41264 sırıqlı, 188439 isti alt paltarı, 471916 yun corab, 329000 fərdi pasılka və 220 vaqon digər hədiyyələr göndərməsi qeyd olunub.

Kitabda arxa cəbhədə 1942-ci ilin fevralından 1944-cü ilin yanvarına kimi 1960 nəfər neftçinin orden və medallarla təltif edilməsi, 1943-cü ildə Azərbaycan neft sənayesinin 99 müəssisəsinin Ümumittifaq sosializm yarışının qalibi çıxaraq 26 dəfə Dövlət Müdafiə Komitəsinin keçici qırmızı bayrağını və 29 dəfə I dərəcəli mükafatını alması xüsusi vurğulanılır.

III fəslin "Sovet ziyalılarının vətənpərliyi" bölümündə müəllif arxiv sənədlərinə istinadən tarixşünaslıq üçün maraqlı olan aşağıdakı faktı qeyd edib: "Azərbaycanda 1944-cü ilin fevralına kimi 9800000 nüsxə tirajla 1800 adda kitab və kitabça nəşr edilib, 212 adda müxtəlif plakatlar, Azərbaycan rəssamları tərəfindən hazırlanmış 1300000 ədəd təşviqat materialı əhali arasında yayılıb." Bu cür faktlar müharibə illərində ideoloji işə xüsusi diqqət verildiyini bir daha sübut edir.

Böyük Vətən müharibəsinə aid digər sovet tarixçiləri kimi Azərbaycan tarixçiləri də əsasən qələbənin yubileyləri, Böyük Vətən müharibəsinin ayrı-ayrı döyüşlərinin ildönümləri ərəfəsi, Sov. İKP-nin göstərişləri əsasında kitab və məqalələr yazıblar. Bunu həmin kitabların çap olunduğu illər də sübut edir. Məsələn, Azərbaycan KP Bakı şəhər partiya komitəsinin "Qırmızı bayraqlı Suvorov Ordenli 416-cı Taqanroq diviziyası veteranlarının Bakı şəhərində görüşü haqqında" qərarından (1977-ci il) sonra həmin diviziya haqqında bir sıra kitab və məqalələr nəşr olunub.(53)

Azərbaycan tarixinin Böyük Vətən müharibəsi dövrünə aid müxtəlif illərdə tarixçilər tərəfindən doktorluq və namizədlik dissertasiyaları müdafiə edilib. Sovet hakimiyyətinin başqa dövrlərləri ilə müqayisədə 1941-1945-ci illər dövrünə Azərbaycan alimləri nisbətən az diqqət veriblər. Məsələn, 1920-1970-ci illərdə Azərbaycanda sovet dövrünə aid müdafiə olunmuş 221 dissertasiyadan cəmi 22 ədədi bu dövrə həsr olunub ki, bunlardan da 3 doktorluq, 19 namizədlik dissertasiyasıdır.(Rəqəmlər müəllif tərəfindən hesablanıb) (312) Bunlardan

müxtəlif illərdə müdafiə olunmuş S.V.Heydərovun "Azərbaycan Kommunist Partiyasının Böyük Vətən müharibəsində arxa cəbhədəki təşkilatçılıq işi.", A.E.Kərimovun "Sovet İttifaqı Kommunist Partiyası Böyük Vətən müharibəsi dövründə ölkənin kənd təsərrüfatında sosializm yarışının təşkilatçısıdır." (Azərbaycan SSR-in materialları əsasında), S.N.Quşinin "Kommunist Partiyasının Böyük Vətən müharibəsi illərində nəqliyyata rəhbərliyi (Azərbaycanın materialları əsasında)", S.N.Bənənyarlının "Azərbaycan Kommunist Partiyasının Böyük Vətən müharibəsi illərində xalq döyüşçülərinin yaradılması və Sovet Ordusu üçün döyüşkən ehtiyat hissəsinin hazırlanması sahəsində fəaliyyəti (1941-1945-ci illər)", R.Ə.Zeynalovun "Respublikada hərbi quruculuq. Böyük Vətən müharibəsi illərində milli diviziyaların döyüş yolu" və s. mövzularda doktorluq, T.Ağazadənin "Azərbaycan səhiyyəsi Böyük Vətən müharibəsi illərində", N.Cəfərovun "Böyük Vətən müharibəsi illərində Bakıda hərbi təşkilat və kütləvi müdafiə işi", İ.Hacıyevin "Böyük Vətən müharibəsi illərində Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların iştirakı (1941-1945-ci illərdə)", A.Əliyevin "Müharibə dövründə Respublika yerli sovetlərinin fəaliyyəti (Bakı şəhəri və rayon sovetlərinin materialları əsasında)", S.M.Bayramovun "Azərbaycan SSR-də Böyük Vətən müharibəsi illərində kolxozçu kəndlilərin rolu və xidməti" və s. mövzularda namizədlik dissertasiyalarını göstərmək olar. Bundan başqa Ə.Z.Bağırzadə 1958-ci ildə "Azərbaycan komsomolu Böyük Vətən müharibəsi illərində Kommunist Partiyasının sadiq köməkçisidir (1941-1945-ci illərdə)" mövzusunda namizədlik, 1970-ci ildə isə "Azərbaycan Kommunist Partiyası Böyük Vətən müharibəsi illərində respublika ziyalılarının yaradıcı qüvvələrinin təşkilatçısıdır" mövzusunda doktorluq dissertasiyaları müdafiə edib. Sonrakı illərdə də tədqiqatçılar Azərbaycanın Böyük Vətən müharibəsində iştirakına aid mövzulara müraciət ediblər. Məsələn, A. Piriyeva 1997-ci ildə "Böyük Vətən müharibəsi dövründə Azərbaycan xalqının cəbhə ilə arxanın birliyi uğrunda mübarizəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

Azərbaycan tarixi problemlərinin cavan tədqiqatçılarının ikinci respublika elmi konfransının (27-28 mart 1992) materiallarında A.Həbibovanın "Böyük Vətən müharibəsi illərində Azərbaycan qadınının əmək fəaliyyəti və döyüş qəhrəmanlığı", İ.Hacıyevin "Böyük Vətən müharibəsi illərində Respublika sənayesində qadınların iştirakı", C.Adışovanın "Repressiya və müharibə dövrünün Azərbaycanın müasir

yazıçılarının əsərlərində təsviri" məruzələri diqqəti cəlb edir. Bu məruzələrdə müharibə illərində xalq təsərüfatında çalışan qadınların sayının 1940-cı ildəki 165 mindən artaraq 1945-ci ildə 195 minə çatması, 1940-cı ildə qadınların fəhlə və qulluqçuların 34 faizini təşkil etdiyi halda bu rəqəmin 1945-ci ildə 48 faiz olması 1977-ci ildə nəşr olunmuş yubiley statistik ədəbiyyatına istinadən qeyd edilib. Bundan başqa Azərbaycanda cəbhəyə getmiş 11 min qadın, o cümlədən 77, 223, 416-cı diviziyalarda qəhrəmanlıqlar göstərmiş Leyla Məmmədbəyova, Züleyxa Seyidməmmədova, Sona Nuriyeva, Aliyə Rüstəmbəyova, Adilə Məmmədova, Fəridə Vəzirova, Ədilə Abbasova, Dürrə Məmmədova, Səkinə Bayramova, Zöhrə Səlimova, Şəfiqə Əhmədova və başqaları haqqında da məlumatlar verilib.

F.Vəzirovanın ""Gənc çekistlər" Vətən müharibəsi mövzusunda ilk Azərbaycan romanıdır" məqaləsində müharibə dövründə Azərbaycanın gənc çekistlərinin fəaliyyətinə həsr olunmuş ədəbi əsər haqqında məlumat verilib və roman elmi şəkildə təhlil olunub. (747, № 3 1970)

Professor R.Hüseynovun "525-ci qəzet"in 25 oktyabr 2008-ci il sayında dərc olunan "Gəncəli Nizami Hitlerlə göz-gözə" adlı məqaləsində 900 gün faşistlər tərəfində mühasirədə saxlanılmış, 850 min nəfərin həlak olduğu Leninqrad şəhərində 19 oktyabr 1941-ci il tarixdə Nizami Gəncəvinin 800 illiyinin qeyd edilməsinə aid yeni faktlar verilib. Məqalədə həmin yubley yığıncağında giriş sözü ilə çıxış etmiş N.Tixonov, İ.Orbeli, "Nizami və onun dövrü" mövzusunda çıxış etmış A.N.Boldırev, "Nizami şərq rəssamlığında" mövzusunda çıxış etmiş M.M.Dyakonov, "Nizami və dünya ədəbiyyatı" mövzusunda çıxış etmiş, Nizamini əsərlərini rus dilinə tərcüməçisi Q.Ptitsın haqqında məlumatlar ilk dəfə dərc olunub. Məqalədə qeyd olunur ki, 900 günlük Leninqrad blokadası həmişə bəşər tarixində ən ağır və dəhşətli imtahanlardan biri kimi qalacaq. Nizami Gəncəvi də tarixdə daim yalnız dahi şair kimi yox, həm də o müdhiş günlərdə o şəhərdə olmuş, o şəhərdəkilərlə birgə bəşəriyyətin düşməninə qarşı mübarizə aparmış bir əsgər kimi qalacaq.

İkinci Dünya müharibəsində SSRİ-nin insan təlafatını mütəxəssislər hərbi əməliyyatlarla bağlayırlar. İ.Stalin bu rəqəmin 7 milyon, ABŞ statistikası 7,5 milyon, N.Xuruşov isə 20 milyon olduğunu bildirib. Lakin Rusiya Müdafiə Nazirliyi 2010-cu ilə qədər araşdırma apararaq bu rəqəmin 26,6 milyon olduğunu, bunun da 8 milyon 668 min 400 nəfərinin silahlı qüvvələrin şəxsi heyətinin təşkil

etdiyini elan edib. 8 milyon 668 min 400 nəfər silahlı qüvvələrin şəxsi heyətinin isə 8 milyon 509 min 300 nəfəri ordu və hərbi dəniz qüvvələrinə, 614 min nəfəri SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sərhəd qoşunlarına, 97 min 700 nəfəri isə SSRİ Daxili İşlər Nazirliyinin daxili qoşunlarına aid olduğu bildirilir. (566, 5 may 2010)

İkinci Dünya müharibəsinin başlanmasına təkan verən hadisələr, SSRİ ilə faşist Almaniyası arasında 22 iyun 1941 - ci il tarixinə qədər mövcud olmuş münasibətlər və s. məsələlər sovet tarixşünaslığında birtərəfli işıqlandırılıb. Müharibənin başlanmasında irqçi faşist rejimi ilə yanaşı totalitar kommunist rejiminin oynadığı mənfi rol haqqında mövcud faktları təhrif edən sovet tarixçiləri faciənin səbəbkarı kimi yalnız faşist Almaniyasını günahlandırıblar. Bundan başqa onlar qərb ölkələrini faşist təhlükəsini aradan qaldırmaq sahəsində SSRİ-nin təşəbbüslərinə qoşulmamaqda, onunla həmrəy olmamaqda ittiham ediblər. Onlar həmçinin hücum etməmək haqqında 10 il müddətinə 23 avqust 1939-cu ildə imzalanmış sovet-alman müqaviləsini Sovet hökümətinin xarici siyasətdə atdığı müdrik addımı kimi qiymətləndiriblər.

1985-ci ilin avqustunda AFR-in Ştutqart şəhərində keçirilmiş tarix elmlərinin XVI Beynəlxalq konqresində SSRİ-nin dünya əleyhinə faşist Almaniyası ilə sövdələşməkdə ittiham olunması problemə münasibəti kökündən dəyişib .(728,s.255)

İkinci Dünya müharibəsi tarixinin obyektiv tədqiqi üçün başqa məsələlərlə yanaşı "Hücum etməmək haqqında" (23 avqust 1939-cu il) və "Dostluq və sərhədlər haqqında" (28 sentyabr 1939-cu il) sovet-alman müqavilələrinə xüsusi diqqət verilməsinə ehtiyac var. Birinci müqavilənin gizli protokoluna görə Polşanın bölüşdürülməsi, SSRİ-nin Baltikyanı əraziləri, Bessarabiyanı işğal etməsi barədə razılıq əldə olunub. Bu faktlara əsasən sovet tarixşünaslığının əksinə olaraq demək olar ki, SSRİ faşist Almaniyası ilə sazış imzalayaraq onun 1 sentyabr 1939 - cu il tarixdə Polşaya qarşı hücumuna və deməli İkinci Dünya müharibəsini başlanmasına razılıq verib.

"Dostluq və sərhədlər haqqında" (28 sentyabr 1939-cu il) müqavilə imzalandıqdan sonra SSRİ ərazisində dost ölkə olan faşist Almaniyası əleyhinə təbliğat qadağan olunub, antifaşist təbliğatı ilə məşğul olanlar isə təqib və təzyiqlərə məruz qalıblar. Tarixi faktlar sübut edir ki, SSRİ 17 sentyabr 1939-cu il

tarixdə müharibədə bitərfliyini elan etsə də, 2 gün sonra özünü faşist Almaniyasının müttəfiqi elan edib. 19 sentyabrda elan olunmuş sovet - alman bəyanatında hər iki dövlətin qoşunları qarşısında "Polşa dövlətinin məğlubiyyəti ilə pozulmuş qayda-qanunu və sakitliyi bərpa etmək" vəzifəsi qoyulduğu xüsusi vurğulanır. SSRİ Ali Sovetinin 31 oktyabr 1939-cu il tarixli sessiyasındakı çıxışında Molotov demişdir: "Polşaya əvvəl alman, sonra isə sovet ordusu tərəfindən zərbələr vurulmuşdur ki, Versal müqaviləsinin bu əcayib yetirməsindən bir şey qalmasın... Hitler ideologiyasını... qəbul etmək və ya inkar etmək olar... Lakin hər bir adam başa düşər ki, ideologiyanı güc işlətməklə məhv etmək olmaz... Buna görə də "demokratiya" uğrunda mübarizənin saxta bayrağı altında gizlənərək "hitlerizmi məhv etmək" uğrunda müharibə aparmaq nəinki ağılsızlıqdır, həmçinin cinayətdir." (728,s.299-300)

SSRİ xalq deputatlarının II qurultayında komissiya sədri A.N.Yakovlevin "Hücum etməmək haqında 1939-cu il Sovet-Alman müqaviləsinə hüquqi və siyasi qiymət verilməsi haqqında" çıxışında müqvilə haqqında yeni faktlar haqqında məlumat verilib.

SSRİ EA ABŞ və Kanada institutunun 1939-1941-ci illər SSRİ-nin xarici siyasətinə həsr etdiyi "dəyirmi masa"-nın "Bu necə olmuşdur?" başlıqla çap edilmiş materialları (602,8 avqust 1989) sovet tarixşünaslığında tədqiq olunmayan məsələlər barədə yeni faktların üzə çıxmasına kömək edib. Bundan başqa Alman səfiri F.V.Şulenburqun 1939-cu ilə aid arxiv sənədlərinin çap olunması, D.Nəcəfovun, O.A.Rjevskinin, O.Qorçakovun İ.Stalinlə A.Hitlerin 1939-cu ilin oktyabrında Lvov şəhərində gizli görüşləri haqqında məqalələri, R. Medvedyevin 1939-1941-ci illərdə Stalinin diplomatik və hərbi səhvləri haqqında məqaləsi, D.A.Volkoqonovun sovet-alman gizli razılaşmaları haqqında məqaləsi, A. Finkonun Almaniyanın Rusiyanı ikinci dünya müharibəsindən əvvəl işğal etməsi haqqında məqaləsi, Q.M.İvaniskinin 1939-1941-ci illərdə sovet-alman ticarət-iqtisadi əlaqələri haqqında məqaləsi, V.M.Molotovun 1940-cı ilin noyabrında Berlində apardığı danışıqlar haqqında sənədlərə əsaslanan məqalələr bizə ikinci dünya müharibəsi haqqında sovet tarixşünaslığında əksini tapmamış məlumatlar verir. Bundan başqa yeni məqalələrdə SSRİ-yə mühacirət etmiş 4 minə yaxın alman kommunistinin, o cümlədən 242 görkəmli rəhbər alman kommunistinin məhv edilməsi və s. haqqında faktlar var. Bu faktlar həm

mərkəzdə, həm də Azərbaycanda müqavilənin 50 illiyi ilə bağlı 1989-cu ildə və sonrakı illərdə nəşr olunan məqalə və kitablarda öz əksini tapıb.(154,22 may 1992;386,№1,s.108-111;434,566,15 avqust 1989;602,11,30 noyabr 1990; 625, 16 avqust 1989;639,№9,1989,s.90-97,№12,1989,№1,1991,s.118-123, №7,1991, s.126-138, №8,1991,s.104-119,s.57-74,645,№9,1989,s.83-87, 662, №19,1991,s. 36-40;682, 24,28 dekabr 1989,746,7 may 1993 və s.)

Almanların tələbi ilə Stalin müharibə ərəfəsi birinci dünya müharibəsi illərində Rusiya ərazisində həlak olumuş alman əsgərlərinin qəbirlərini axtarmaq üçün alman kəşfiyyatçılarının Baltik dənizindən Qara dənizə qədər sərbəst fəaliyyətinə icazə vermişdir ki, bu da sovet rəhbərliyinin ən bağışlanmaz səhvlərindən biri sayıla bilər. Bundan başqa bu dövrdə alman təyyarələri sərbəst surətdə SSRİ-nin hava sərhədlərini pozaraq ölkənin içərilərinə doğru kəşfiyyat uçuşları edərkən bu təyyarələri vurmaq qadağan olunmuşdu. Bundan başqa bəzi nasazlıq üzündən sovet aerodromlarında enən təyyarələr təmir edlir və yanacaqla doldurularaq yola salınırdı. Almanlar sazişdə nəzərdə tutlmasına baxmayaraq 1941-ci ilin əvvəllərindən SSRİ-yə maşın, dəzgah və s. avadanlıqları göndərməyi dayandırsalar da, sovet tərəfi sazişə sadiq qalaraq müharibə başlayan son ana kimi taxıl, dəmir filizi ilə dolu vaqonları Almaniyaya göndərməkdə davam edirdi. (728,s.303)

General Gerinq "Deyli Meyl" - in Hitlerə yaxın ingilis müxbiri U.Praysa 19 noyabr 1936-cı il tarixli nəşr olunması nəzərdə tutulmayan gizli müsahibəsində demişdi: "Rus ordusu daim bizə ideoloji fikir ayrılığımızı dəfn edib dünyanı nasizm və bolşevizm arasında bölməyi təklif edir." Bu sənəd 20 dekabr 1936-cı ildə M.M.Litvinov tərəfindən Stalinə təqdim olunub.(564,№3, s.207)

Bu faktlar uzun zaman gizli qalsa da, sovet-alman müqaviləsinin 50 illiyi ilə bağlı Sov.İKP MK yaratdığı komissiyada aparılan diskussiyalarda bir sıra tarixçilərin səyləri nəticəsində tarixi ədalət müəyyən qədər bərpa olunub. Komissiyanın 28 mart 1989-cu il tarixli iclasında V.M.Falin 23 avqust müqaviləsini dövlətin müdafiəsi zərurətindən əmələ gəldiyini, 28 sentyabr müqaviləsini isə Stalinin xarici siyasətin Lenin prinsiplərindən opportunistcəsinə geri çəkilməsi kimi qiymətləndirib.

Komissiyada çıxış edən SSRİ Müdafiə Nazirliyi Hərbi İnstitutunun rəisi D.A.Volkoqonovun məruzəsi dəqiqliyinə görə başqalarından fərqlənir. O

konkret olaraq demişdir: “23 avqust müqaviləsinə əlavə protokolun olmadığının idddia edilməsinə baxmayaraq bir sıra sənədlər tapılıb ki, bunun əksini deyir. Məsələn, sovet qoşunları Polşaya hücum edərkən Almaniyanın hərbi attaşesi Sovet ordusunun Baş Qərərgahına zəng edərək qabaqcadan hazırlanmış xəritəyə uyğun olaraq hansı şəhərlərin sovetlərin nəzarətinə verildiyini bildirib. Bundan başqa Beriyanın Stalinə etdiyi məruzədə dəqiq bildirilir ki, sovet qoşunlarının 17 sentyabr 1939-cu il tarixdə Polşaya hücumundan 22 iyun 1941-ci il tarixinə kimi 496 min polyak deportasiya olunmuş, yalnız 1941-ci ilin iyulunda Sikorski ilə Almaniyaya qarşı birgə mübarizə haqqında razılıq əldə olunduqdan sonra onların həbsxanalardan azad olunması haqqında fərman verilib.” (564,№7,1989, s.28-32)

Lakin D.A.Volkoqonov da bir çox tarixçilər kimi 23 avqust müqaviləsini gizli sövdələşmələrdən imtinanı nəzərdə tutan Lenin prinsipləri ilə ziddiyyət təşkil etdiyini bildirməklə sovet tarixşünaslığında 1956-cı ildən başlanmış ənənəni, rejimin bütün səhvlərinin və faciələrinin günahını Stalinin üstünə yıxmaqla Leninin toxunulmazlığının təmin etmək və onun səhvsiz olduğunu sübut etmək ənənəsini davam etdirib.

Faktlar göstərir ki, başqa məsələlərdə olduğu kimi Almaniya ilə yaxınlaşmaqda da Stalin Lenin xəttinin davamçısı kimi çıxış edib. Hətta bolşeviklər partiyasının yaranması, hakimiyyətə gəlməsində Almaniya dövlətinin maliyyə yardımının mühüm rol oynaması, 1918-ci ilin martında Brest-Litovskdə bağlanmış Rusiya-Alman müqaviləsi ilə bağlı faktlar və digər tarixi sənədlər də bunu sübut edir.

Azərbaycanın sovet tarixşünaslığında tədqiq olunmayan mövzulardan biri də 1939-1940-cı illəri əhatə edən sovet-fin müharibəsidir. Bu müharibəyə aid SSRİ-nin digər ərazilərində tarixçilər bir sıra elmi araşdırmalar aparsalar da (497, №1,1990,s.72-79, №3,1990,s.43-46 və s.) bu mövzu Azərbaycan tarixçilərinin diqqətindən kənarda qalıb. Sovet ordusu sıralarında sovet-fin müharibəsidə iştirak etmiş azərbaycanlı döyüşçülər haqqında tədqiqatların aparılması aktual olaraq qalır. Bu problemin aradan qaldırılması müasir dövrdə Azərbaycan tarixçiləri qarşısında duran vacib vəzifələrdən biridir.

Son dövrlər mətbuatda sovet tarixşünaslığında öz əksini tapmayan, yuxarıda adı çəkilən sovet-alman müqavilələri vasitəsilə iki dövlətin yaxınlaşmasından Azərbaycan üçün yaranmış təhlükə haqqında A.Kərimov, M.Bağırov və başqa

tarixçilər bir sıra kitab və məqalələr yazıblar. (21,10 sentyabr 1993; 168,7 may 1997, 411 və s.)

A.Kərimovun "Fransanın Almaniyaya məğlubiyyəti Bakının məhvinin qarşısını aldı" adlı məqaləsində qeyd olunur ki, sovet-alman müqavilələrinə əsasən Bakıdan faşist Almaniyasına neft ixracı nəzərdə tutulurdu. Bunun qarşısını almaq üçün faşist Almaniyası ilə müharibə vəziyyətində olan iri dövlətlər tərəfindən Bakını bombalamaq planı hazırlanıb. Lakin 10 iyun 1940-cı ildə Fransanın faşist Almaniyası tərəfindən işğalı bu dəhşətli planın həyata keçməsinə imkan verməyib. (21,10 sentyabr 1993)

M.Bağırovun "Bakının daşı daş üstə qalmayacaqdır (Ermənilərin baş tutmayan daha bir qəsdi)" adlı məqaləsində sovet tarixşünaslığında müharibənin tədqiq olunmamış hadisələri haqqında məlumat verilir. Müəllif məqalədə 25 oktyabr 1941-ci il tarixdə A.Mikoyanın rəhbərliyi ilə köçürmə məsələləri üzrə dövlət komitəsinin Bakıya qarşı qəsd planını işıqlandırıb. A.Mikoyanın göstərişi ilə 1941-ci ilin noyabrında Bakının əsas sənaye obyektləri və iri binalarını minalamaq üçün xüsusi qrupun gələrək, M.C.Bağırovun "Bakını minalayıb partlatmaq fikri çox tezdir..., yeri gələrsə Bakıdakı obyektləri özümüz minalayıb partladarıq" fikrinə məhəl qoymadan işə başlayıblar. Onlar Bakının ali təhsil ocaqlarının, partiya və hökümət idarələrinin və digər təşkilatların yerləşdiyi binaları, neft dolu çənləri, neft mədənlərini, neftayırma zavodlarını və s. obyektləri, şəhərin bütün giriş və çıxış yollarını minalayıblar. Məqsəd isə Moskva və Stalinqrad ətrafında sovet qoşunları məğlub olacağı və alman qoşunlarının Bakını tutmaq təhlükəsi yaranacağı təqdirdə şəhəri yerlə yeksan etmək idi. (168,7 may 1997)

T.ü.e.d.,professor T.Ş.Baxşəliyevin tərtib etdiyi 2015-ci ildə "Bakı Dövlət Universiteti" nəşryatında çap olunmuş "Slavyan ölkələri ikinci Dünya müharibəsi illərində" adlı fənn proqramında da sovet tarixşünaslığından fərqli yanaşmalar özünü göstərir. Bu fənn proqramında "SSRİ-nin sülh uğrunda saxta mübarizəsi", "SSRİ-nin Qərbi Ukrayna və Qərbi Belorusiyanl işğal etməsi", "Hitler Almaniyasının Sovet İttifaqını bu müharibədə açıq müdafiə etməsi", "Sərhədlərin təhlükəsizliyi bəhanəsi ilə Baltikyanı dövlətlərin, Bessarabiyanın, Şimalı Bukovinanın zorla SSRİ-yə birləşdirilməsi" və s. kimi fikirlər yeni yanaşmaya misal ola bilər.

M.P.Zülfüqarlının "Bakının qəhrəman müdafiəçisi. General Məmməd Bağır Hadi oğlu Bağırov" adlı kitabı tədqiqatdan kənarda qalmış bir mövzuya

həsr olunub. Kitabda sovet tarixşünnaslığında əksini tapmayan çoxlu saylı faktlara rast gəlmək olur. Kitab “Ön söz”, “Mövzunun tarixşünaslığı”, “Generalın keçdiyi şərəfli yol”, “Bakının qəhrəman müdafiəçisinin müəmmalı ölümü” bölümlərindən ibarətdir. (411)

Kitab 1940-1945-ci illər Bakı şəhəri Hava Hücümündan Müdafiə Qoşunlarının komandanı, general-mayor M.B.Bağırovun gərgin, lakin şərəfli fəaliyyətinə həsr olunub. Kitabın “Ön söz” hissəsində qeyd olunur ki, general-mayor M.B.Bağırov Bakını qəhrəmanlıqla müdafiə etmiş şəxsiyyətlərdəndir. Onun Bakını müdafiə etdiyi dövrün nisbətən fərqli və həddən artıq mürəkkəb olması, 1939-1945-ci illərdə bir-birinə düşmən olan bir neçə qüvvənin öz mənafeyi üçün Bakını yer üzündən silməyə çalışması şəhərin müdafiəçilərinin üzərinə necə ağır bir vəzifənin düşdüyünü göstərir. General M.B.Bağırov bu məsuliyyətli işin öhdəsindən şərəflə gəlmiş və Bakının xilası üçün əlindən gələni əsirgəməmişdir. (411,s.4)

General haqqında son vaxtlara qədər tədqiqat işinin aparılmaması, bu görkəmli şəxsiyyətin fəaliyyətinə biganə yanaşılması acı təəssüf doğurur.

Kitabın “Mövzunun tarixşünaslığı” hissəsində göstərilir ki, Azərbaycan aviatorları Böyük Vətən müharibəsində adlı biblioqrafik nəşrdə 190 Azərbaycan, 307 rus dilində nəşr olunmuş 497 kitab və məqalənin adı göstərilib ki, bunlardan da yalnız 2 kitab Bakının Hava Hücumundan Müdafiə qüvvələrinə həsr olunub. Bu kitablarda da konkret olaraq 1940-1945-ci illərdə Bakı Hava Hücumundan Müdafiə Qoşunlarının komandanı olmuş general M.B.Bağırov haqqında demək olar ki, heç bir məlumat verilmir. (411,s.7)

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra da Azərbaycan generalları haqqında nəşr olunan kitablarda M.B.Bağırov haqqında məlumatların olmaması təəccüblüdür. Məsələn, Ş.Ə.Nəzirlinin 1991-ci ildə nəşr olunmuş “Azərbaycan generalları”kitabında 30, AMEA Azərbaycan Tarixi Muzeyi tərəfindən 2005 – ci ildə nəşr edilmiş “Azərbaycan generalları” kitab-kataloqda yalnız 14 azərbaycan generalı haqqında məlumat verilsə də, digər kitablarda olduğu kimi bu kitablarda da M.B.Bağırovun adına rast gəlinmir. (411,s.7)

Azərbaycan Sovet Ensiklopediyasında verilmiş qısa yazıdan başqa general-mayor M.B.Bağırov haqqında elmi ədəbiyyatda heç bir məlumata rast gəlmək mümkün deyil. Bu qısa məlumatda deyilir: “Bağırov Məmməd Bağır Hadı

oğlu( 1901, Bakı -26.12.1946, Bakı) mühəndis-texniki xidmət general-mayoru ( 1944). 1929-cu ildə hərbi məktəbi bitirdikdən sonra Azərbaycan atıcı dviziyasında vzvod komandiri olmuşdur... 1926-cı ildə Leninqradda təkmilləşmə kurslarını bitirmiş, bölmə komandiri vəzifəsində çalışmış və yüksək ixtisaslı mühəndis qoşunları zabiti kimi yüksəlmişdir. Bağırov 1940-cı ildə Bakı şəhər Yerli Hava Hücumundan Müdafiə Qoşunlarının rəisi təyin olundu və  Bakı şəhər Soveti sədrini müavini seçldi. Lenin ordeni, Qirmizi Bayraq, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz ordenləri və medallarla təltif edilmişdir. (62)

Tədqiqtların nəticəsi olaraq müəllifin "Bakı xəbər" qəzetinin 23 aprel 2012-ci il tarixli sayında dərc olunmuş "Moskvada erməni həkimin qəsdlə öldürdüyü məşhur generalımızın izi ilə...", "Kimlik" jurnalının 2012-ci il dekabr sayında dərc olunmuş "Bakının xilaskarı-general  Məmməd Bağır Bağırov" adlı məqalələrini və "Azərbaycanın II Dünya müharibəsində və Qafqazda holokosun rolu" mövzusunda beynəlxalq simpoziumun(17-19 oktyabr 2012-ci il) nəşr olunmuş "II Dünya müharibəsi dövründə Bakının müdafiəsi tarixindən" adlı yazısını generalın fəaliyyəti ilə bağlı ilk tədqiqiat materialları hesab etmək olar.

Kitabda qeyd olunur ki, sovet tarixşünaslığında azərbaycanla bağlı əsasən arxa cəbhədə zəhmətkeşlərin hünərləri, cəbhəyə yanacaq, silah, ərazaq yardımı kimi mövzular diqqət mərkəzində olmuşdu. Məhz buna görə də Bakının qəhrəman müdafiəçilərinin  fəaliyyəti diqqətdən kənarda qalmışdır. Fəaliyyətləri tədqiq olunmuş generalların mütləq əksəriyyəti çar ordusu və sovet ordusu sıralarında Azərbaycandan kənarda qəhrəmanlıqlar göstərmiş şəxslərin olması deyilənləri sübut edir. Təəcüblü də olsa general M.B.Bağırovun SSRİ-nin digər ərazilərini deyil, məhz doğma Azərbaycanda, onun döyünən ürəyi olan  Bakı-neft rayonunda fəaliyyət göstərməsi onun tədqiqatlardan kənarda qalmasına səbəb olmuşdur .( 411,9-10)

Müəllif kitabın elmi yeniliyin aşağıdakılardan  ibarət  olduğunu qeyd edir:

1.Kitabda İkinci Dünya müharibəsinin ən strateji obyektlərindən biri olan Bakı neft rayonunun hava hücumdan müdafiəsinə rəhbərlk etmiş, Azərbaycan xalqının görkəmli sərkədəsi, qəhrəman oğlu, general M.B.Bağırovun fəaliyyəti ilk dəfə olaraq  geniş araşdırılıb və bu sahədə gələcək tədqiqatların  zəruriliyi  elmi şəkildə əsaslandırılıb;

2.İlk dəfə olaraq 1939-1943-cü illərdə Bakı neft rayonunu üçün 3 istiqamətdə yaranmış təhlükə Böyük Britaniyanın arxiv sənədləri və yerli sənədlər əsasında təhlil edilib. Bu təhlil nəticəsində sovet tarixşünaslığında əksini tapmayan aşağıdakı həqiqətlər konkret şəkildə oxucuların diqqətinə çatdırılıb:

• SSRİ ilə Almaniya arasında 23 avqust 1939-cu il tarixdə imzalanmış sazişindən sonra Fransa, Böyük Britaniyanın Bakını bombalamaq planı, bu plana ABŞ -in xeyr-dua verməsi;

• 1941-ci ildə almanların Bakını tutmaq, mümkün olmadıqda bombalamaq planı. Bu dövrdə Bakının müdafiəsinə Fransa, Böyük Britaniya və ABŞ-ın yaxından kömək göstərməsi;

• Almanların Bakını tutmaq planları reallaşdığı təqdirdə SSRİ rəhbərliyinin Bakını bombalamaq planı. Bu planın reallaşmasına Mircəfər Bağırov başda olmaqla Azərbaycan rəhbərliyinin, o cümlədən Yerli Hava Hücümundan Müdafiə Qoşunlarının Komandanı M.B. Bağırovun müqavimət göstərməsi və s.

Kitabda Böyük Britaniya arxivlərində uzun müddət məxvi saxlanılan, yalnız son zamanlar tədqiqatçıların istifadəsinə verilmiş sənədlərdən, o cümlədən Böyük Britaniya aviasiyası tərəfindən II Dünya müharibəsi illərində və müharibədən sonra çəkilmiş fotolarından da istifadə olunmuşdur. (411,s.11-12)

Kitabın "Generalın keçdiyi şərəfli yol" adlanan bölümündə göstərilir ki, Bakının Hava Hücumundan Müdafiə qoşunlarının qırıcıları 1240 dəfə həyacan komandası ilə havaya qalxmış düşmənin 8 təyarəsini məhv etmiş, onlarla düşmən təyarrələrini qaçmağa məcbur etmişlər. Konkret olaraq 1942-ci ilin 14 avqustunda Yalama-Giləzi istiqamətində 7000 m yüksəklidə uçan YU-88 alman təyarəsi Quba üzərində vurulmuşdur. Bundan başqa həmin il 29 sentyabrında Xudat üzərində 8500 metr yüksəklikdə, 2 oktyabrda Xızı üzərində və Şamaxı üzərində alman təyyarəsi vurulmuşdur. Ümumiyyətlə Cənubi Qafqaz üzərinə alman-faşistləri 1942-ci ilin iyulunda 180, avqustunda 172, sentyabrında 275, oktyabrında 4568, noyabrında 1765, dekabrında 533, cəmi 7493 hava hücumu həyata keçirmişlər. Bütün bu hücumların qarşısının alınmasında M.B.Bağırovun və onun yetişdirdiyi

kadrların əvəzsiz xidmətləri olmuşdur. Bu zaman Bakı Hava Hücümundan Müdafiə qüvvələri tərəfindən vurulan alman təyyarələri əhalinin qələbəyə inamını artırmaq üçün Dağüstü parkda (İndiki Şəhidlər Xiyabanı) nümayiş etdirilirdi. (411,s.24)

Kitabın "Bakının qəhrəman müdafiəçisinin müəmmalı ölümü" adlanan bölümündə faktlara istinadən qeyd olunur ki, azərbaycanlı hərbçilərin əksəriyyəti sovet rəhbərliyinə müharibənin gərgin və çətin günlərində lazım olsa da, sonradan onlara qarşı əvvəllər yeridilmiş ənənəvi ayrı-seçkilik siyasəti davam etmişdir. Müharibədən sonra isə onların bir hissəsi repressiyaya məruz qalmış, bir hissəsi isə müəmmalı şəkildə ölmüşdür.

Müharibədən sonra Məmməd Bağır Bağırovun səhətində ciddi problemlər olmasa da, Moskvada adi tibbi müayinədən sonra vəziyyətinin ağırlaşmağa başlaması, sonradan sağalmaz xəstəliyə düçar olması ona qarşı qabaqcadan hazırlanmış təxribatdan xəbər verir. Doğmalarının bildirdiyinə görə generalı Moskada müalicə edən həkimin milliyyətcə erməni olması, geri qayıtdıqdan sonra səhhətində ciddi problemlərin baş verməsi və ağ ciyərində xərçəng xəstəliyi diaqnozu ilə tezliklə vəfat etməsi sübut edir ki, onun ölmü Moskvadakı yüksək dairələr tərəfindən təşkil olunmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycanın görkəmli ictimai -siyasi xadimi N.Nərimanov da 1925-ci ildə Moskvada eyni xəstəlikdən müəmmalı şəkildə vəfat etmişdir.

General Məmməd Bağır Bağırova qarşı ehtimal olunan bu təxribatın bir səbəbini də fikrimizcə müharibədən sonra bütün hərbi hissələrdə, o cümlədən Hava Hücumundan Müdafiə qoşunlarında aparılan kəskin ixtisarlarda axtarmaq lazımdır.(411,s.25-26)

Kitabın sonunda qeyd olunur ki, general M.B.Bağırovun fəaliyyətinin daha geniş şəkildə araşdırılması, onun haqqında yeni-yeni əsərlərin yazılması aktual olaraq qalır. Onun fəaliyyətinin təbliği digər məsələlərlə yanaşı vətəndaşlar arasında vətənpərvərlik hisslərinin daha da inkişafına, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpasına müsbət təsir göstərə bilər.

Azərbaycan tarixinin sovet tarixşünaslığında milli legionların yaradılması və onların fəaliyyəti çox cüzi, özü də düşmən mövqeyindən işıqlandırılıb. Son illər ölkəmizdə bu sahədə sovet tarixşünaslığından fərqli bir sıra məqalə və kitablar nəşr olunub.

Bunların arasında X. İbrahimlinin 1997-ci ildə nəşr olunmuş "Azərbaycan

siyasi mühacirəti (1920-1991)" kitabı və bu mövzuya aid məqalələri diqqəti cəlb edir. (174, 386, № 3,1998,s.91-99)

Azərbaycan siyasi mühacirətinin 1920-1991-ci illər fəaliyyətindən bəhs edən bu kitabın üçüncü fəsli "Siyasi mühacirət 2-ci dünya müharibəsi və sonrakı dövrlərdə" adlanır. Azərbaycan legionlarının formalaşdırılması, alman rəsmi dairələri ilə aparılan danışıqlar və s. məsələlərdən bəhs edən üçüncü fəslin birinci paraqrafında müəllif milli legionların fəaliyyətini sovet tarixşünaslığından fərqli tədqiq edib. Əsərdə Azərbaycan mühacirətinin müharibə dövründəki fəaliyyəti iki yerə bölünür:

1. Əsir düşmüş azərbaycanlıların xilas edilməsi, ayrıca döyüş legionlarının təşkili;
2. Almaniyanın Azərbaycanın müstəqilliyinin tanınması sahəsində işi.

Kitabda Azərbaycan legionlarının məqsəd və vəzifələri 1943-ci ilin 6-9 noyabrında Berlində 300 nəfər nümayəndənin iştirakı ilə keçirilmiş ümum Azərbaycan qurultayının materiallarına istinadən göstərilib. Qurultayın yekun sənədində deyilir:

1. 1918-ci il 28 maydan 1920-ci il 27 aprelə qədər davam etmiş Milli Azərbaycan hökuməti dövrü şanlı tariximizin ən parlaq səhifəsini təşkil edir.
2. Vətənimiz bolşevik işğalına uğraşdıqdan sonra keçən bu 23 il içərisində millətimizin istər vətən daxilində, istərsə də yad ellərdə apardığı şanlı və qanlı mübarizə yalnız bu istiqlalın bərpası üçün olmuşdur.
3. Qurultay bu ağır şərait daxilində aparılan mübarizədə canlarını vətənin azadlığı uğrunda fəda edən şəhidlərin xatirəsini hörmət və ehtiramla yad edir.
4. Dünyanı sarsıdan bu İkinci Cahan müharibəsi nəticəsində milli müqəddəratımızın həllinə və istiqlalımızın bərpasına sarsılmaz bir inamımız vardır. Bunun isə ilk şərti əzəli və əbədi düşmənimizin məhvindən ibarətdir. Bunun üçün də milli mənafeyimiz bizi bu gün bolşevizmə qarşı döyüş aparan və tarix boyu Türk xalqlarının dostu olan Almaniyaya bağlamışdır.
5. Qurultay əsrlər boyu olduğu kimi, bu gün də Azərbaycan xalqı ilə Qafqaz qonşunları və qardaş Şimali Qafqaz, Türküstan, İdil-Ural və Krım xalqları ilə eyni qayə və ideal birliyi müşahidə edir və onlarla iş birliyini zəruri sayır. (174, s.188)

V.K.Mustafayevin məqaləsi 1941-1942 illərdə "Azərbaycan" qəzetinin əhalinin milli şüurunda oynadığı müsbət roluna həsr olunub. Müəllif sovet tarixşünaslığında tədqiq olunmamış sənədlərə istinadən o dövrdə mühacirətdə

yaşayan azərbaycanlılar arasında Azərbaycanın dövlət müstəqilliyinin bərpasına böyük inam olduğunu və bu inamın möhkəmləndirilməsində mətbuatın mühüm rol oynadığını faktlarla əsaslandırıb. (65, №1 1991, s.72 - 76)

Sovet tarixşünaslığında 1921-ci il Sovet-İran müqaviləsinə istinad edərək 26 avqust 1941-ci il tarixdə SSRİ-nin İranın şimal ərazilərini, yəni cənubi Azərbaycan ərazisini işğal etməsi və işğaldan sonra bu ərazidə baş verən hadisələr də birtərəfli işıqlandırılıb. Professor C. Həsənli Güney Azərbaycanın 1939-1945 - ci illər tarixinə həsr etdiyi kitabında sovet tarixşünaslığından fərqli olaraq yeni materiallar əsasında bu mövzunu tədqiq edib. (160)

Azərbaycan tarixinin 1941-1945-ci illər dövrünün tədqiq olunmamış mövzularından biri də sovet rejiminə qarşı ölkə daxilində mübarizəni davam etdirmiş ayrı-ayrı şəxslərin və təşkilatların fəaliyyətidir. Son illər az da olsa bu mövzuda məqalələr dərc olunub. Məsələn, N.Umudlunun "Ayna" qəzetinin 1 fevral 1997- ci il tarixli sayında dərc olunmuş "Azərbaycanda dissidentlik: belə bir şey olubmu?" adlı məqaləsində göstərilir ki, 30-cu illərin repressiyalarından sonra da kommunist rejiminə qarşı mübarizə davam edib. 1942-ci ildə 8 nəfərdən ibarət "Gizli millətçi gənclər qruplaşmasının" üstü açılıb və qrupun 3 üzvü güllələnməyə, 5 üzvü isə 10 il həbs cəzasına məhkum edilib.

Böyük Vətən müharibəsinə aid son dövrlər mətbuatda bəzi məlumatlar verilir ki, bu məlumatları dəqiqləşdirmək tarixçilərin başlıca vəzifələrindən biridir. Məsələn, "Ədalət" qəzetinin 2 sentyabr 2000-ci il tarixli sayında "Ruslar Həzi Aslanovu gözümün qabağında güllələdilər" başlıqlı yazıda müharibə veteranı, müharibə dövründə H.Aslanovun yavəri olmuş Əliyev Adil İsa oğlunun fikirləri dərc olunub. A.Əliyev H.Aslanovun nüfuzunun artmasına bir çox generalların, o cümlədən Baqramyanın qısqanclıqla yanaşdığını, onun əkskəşfiyyatın polkovniki Solovyov Pyotr Vasilyeviçin arxadan atdığı atəşlə qətlə yetirildiyini bildirib.

Azərbaycan tarixinin Böyük Vətən müharibəsi dövrünün müxtəlif problemlərini tədqiq etmiş tarixçilərin əsərlərinin tarixşünaslıq baxımından təhlili göstərir ki, bu əsərlər müxtəlif problemlərin, hadisələrin faktlar əsasında öyrənilməsi baxımından əhəmiyyətlidir. Lakin sovet dövrü tarixinin digər dövrləri kimi bu illər də hakim kommunist partiyasının yuxarıdan göstərişlərinə, müəyyən etdiyi kriteriyalara uyğun olaraq birtərəfli tədqiq edildiyi üçün bu dövrün yenidən, obyektiv faktlar əsasında tərəfsiz mövqedən öyrənilməsinə ciddi ehtiyac var.

## III FƏSİL. 1946-1985-ci illərin tarixşünaslığı
### 3.1. 1946-1950-ci illər elmi araşdırmalarda

Müharibədən sonrakı illərin dövrləşməsinə elmi ədəbiyyatda müxtəlif yanaşmalar olsa da, bu dövrün 1946-1950-ci illər çərçivəsində verilməsi fikrimizcə daha məqsədə uyğundur.

1946-50-ci illər Azərbaycan tarixinin nisbətən az tədqiq olunmuş dövrlərindəndir. Fikrimizcə bunun əsas səbəbi bu dövrə münasibətin sonrakı illərdə bir neçə dəfə dəyişməsi olub. Sov.İKP XX qurultayından sonra İ.V.Stalinin, həmçinin 1933-1953-cü illərdə Azərbaycan SSR-ə rəhbərlik etmiş M.C.Bağırovun fəaliyyətinə tənqidi, 1964-cü ilin oktyabrından sonra isə onların fəaliyyətinə nisbətən loyal, 1985-ci ilin aprelindən sonra bu şəxslərin fəaliyyətinə yenidən tənqidi münasibətin ön plana keçməsi sovet tarixşünaslığına da öz təsirini göstərib. Bu dövrə sovet rəhbərliyinin münasibətinin bir neçə dəfə dəyişməsi tədqiqatçıların 1946-50-ci illərə başqa dövrlərdən fərqli olaraq ehtiyatla yanaşmasına və həmin illərə aid başqa dövrlərə nisbətən az tədqiqat işlərinin yazılmasına səbəb oldu. Bu fikirləri aşağıdakı rəqəmlər də təsdiq edir. Məsələn, əgər 1970-ci ilə qədər Azərbaycanda 1920-1930-cu illərə aid 15 doktorluq, 96 namizədlik dissertasiyası müdafiə olunduğu halda, 1946-50-ci illərə aid cəmi 3 doktorluq, 44 namizədlik dissertasiya müdafiə olunub.(312)

Müharibədən sonrakı sovet tarixinin 60-cı illərə qədərki dövrünün tarixşünaslığına aid SSRİ miqyasında və o cümlədən Azərbaycan SSR-də tarixçilər bir sıra məqalələr, biblioqrafik əsərlər yazıblar.(412,467,498, №5, №10 1961; 499, № 5 1988;521,534,576, 713, 719,733,742,748, c. 4 1958,s.23-31 və s.)

Bunların içərisində E.A. Tokarjevskinin Azərbaycan SSR-də sosializm və kommunuz quruculuğunun əsas problemlərinin öyrənilməsi", Ə.Əlzadə və V.N. Leviatovun "Azərbaycan SSR-də tarix elmi", C.İbrahimovun "Azərbaycanda tarix elminin inkişafı" məqalələri problemin tarixşünaslıq baxımından tədqiqində mühüm əhəmiyyətə malikdir.(433,s.125-135;742,748,c.4,1958,s.23-31)

Sonrakı illərdə rus tarixçiləri L.A.Siderova,N.V.Starkova və başqaları 50-ci illərin tarixşünaslığına aid sovet tarixşünaslğından fərqli əsərlər yazıblar (716,722,726). Azərbaycan tarixçiləri də bu mövzuya aid müasir dövrdə əsərlər yazmış, dissertasiyalar müdafiə etmişlər.(380,406,410)

M.Zülfüqarovun "Milli münasibətlər problemi Azərbaycan tarixşünaslığında (1946-1990)" məqaləsi (385,№ 3,1998,s.187-191) problemin tarixşünaslığına həsr olunub. Müəllif milli münasibətlər mövzusuna 40-cı illərdə sonrakı illərə nisbətən az diqqət verildiyini, bunun da əsas səbəbinin müharibədən sonra kosmopolitizmə qarşı mübarizənin güclənməsi olduğunu qeyd edir. Müəllif qeyd edir ki, bu dövrdə başqa ölkələrin hansısa nailiyyətlərinin qeyd edilməsi kosmopolitizm, vətənpərvərliyə əks hallar kimi dəyərləndirilirdi. Bu da xalqlar dostluğunun inkişafına və bu mövzuda əsərlərin yazılmasına mane olurdu.

Bu illərdə baş verən bir sıra mühüm hadisələr dövrün tarixşünaslığının inkişafına da təsir etmişdir. Bunlardan xalq təsərrüfatının dinc dövrün tələblərinə uyğun qurulmasının başa çatdırılması (1946), yeni sənaye şəhərlərinin inşa edilməsi (1946-1949), Azərbaycan SSR Ali Sovetinə seçkilərin keçirilməsi (9 fevral 1947), Nizami Gəncəvinin 800 illik yubleyinin qeyd edilməsi, kartoçka sisteminin ləğv edilməsi (sentyabr 1947), SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul etməsi (23 dekabr 1947), ÜİK(b)P MK-nın fəlsəfə, biologiya, fiziologiya, siyasi iqtisad, dilçilik və başqa elmlər üzrə diskusiyyalar təşkil etməsi (1947-1951), AK(b)P-nin XVII qurultayının keçirilməsi (25-28 yanvar 1948), Azərbaycanlıların Ermənistandan köçürülməsinə dair SSRİ Nazirlər kabinetinin daha bir qərar qəbul etməsi (10 mart 1948), "İldırım" tələbə təşkilatının fəal üzvlərinin həbs edilib sürgünə göndərilməsi (1948-1949 ), icbari 7 illik təhsilin elan olunması (7 noyabr 1949), SSRİ Ali Sovetiə və yerli sovetlərə seçkilərin keçirilməsi (12 mart, 24 dekabr 1950), Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti dekadasının təşkili (30 noyabr-9 dekabr 1950), Azərbaycan SSR Ali Sovetinə seçkilərin keçirilməsi (18 fevral 1951), AK(b)P-nin XVIII (24-26 may 1951) və XIX qurultaylarının keçirilməsi (23-25 sentyabr 1952), İ. Stalinin ölümü (5 mart 1953) və digər hadisələri göstərmək olar.(378,s.361-362)

Sovet tarixşünaslığında müharibədən sonra ictimai-siyasi və iqtisadi vəziyyətin ildən ilə yaxşılaşması, mövcud problemlərin qısa müddətə müvəffəqiyyətlə həll edilmsi geniş təbliğ olunur. Lakin son illərdə Azərbaycan tarixçılərinin tədqiqatlarında vəziyyətin sovet tarixşünaslığında göstəriləndən fərqli olduğu sübut olunub. Məsələn, E.İsmayılovun 2003-cü ildə, rus dilində nəşr olunmuş "Hakimiyyət və xalq. Azərbaycanda müharibədən sonrakı stalinizm"

(1945-1953-cü illər) kitabında(573) müharibədən sonra Azərbaycanda vəziyyətin açınacaqlı olması ilə bağlı sovet tarixşünaslığında əksini tapmayan faktlar verilib. Kitabda qeyd olunur ki, Azərbaycan SSR Nazirlər Sovetinin "Kolxozlara, kolxozçulara və fərdi təsərrüfatlara taxılı və günəbaxanın sərbəst satışının qadağan edilməsi haqqında" qərarı (avqust 1946-cı il) əhalinin vəziyyətini daha da ağırlaşdırmışdı. Həmin qərarı pozan kolxoz sədrləri və digər rəhbər işçilər məhkəmə məsuliyyətinə cəlb olunurdular. Sıravi kolxozçular və fərdi təsərrüfatçılar qərarı pozardılarsa birinci dəfə 300 manat cərimə, ikinci dəfə isə məhkəmə məsuliyyətinə cəlb olunma nəzərdə tutulurdu. Kitabda daha sonra göstərilir ki, müharibədən sonrakı Azərbaycan kəndindəki vəziyyəti öyrənmək üçün 1948-1949-cu illərə aid 24 kənd rayonundan hərbi qulluqçulara göndərilmiş 74 məktubdakı fikirlər maraq doğurur. Azərbaycan kəndlilərinin hərbi qulluqda olan övladlarına bu illərdə yazdıqları məktublarda deyilirdi:"Biz indi məhsul yığımına hazırlaşırıq, amma yığmağa bir şey yoxdur… Bizim həyatımız çox ağırdır, indi aclıq çəkirik", "İndiki zamanda bizim kəndimizdə eynilə əvvəlki kimi aclıqdır, insanlar aclıqdan getdiyi yerdə yıxılırlar", "Xalq korluq çəkir, heç kim öz həyatından razı deyil", "Bilmirik axırımız necə olacaq, əgər bir ay da belə davam etsə hamımız milçək kimi qırılıcığıq", "Bu il bir qram da taxıl verməyəcəklər, kartof da çox azdır, işlər çıxılmaz vəziyyətdədir. Gənclər hamısı şəhərə qaçır", "Çox pis yaşayıram, mənim vəziyyətimdə olmaqdansa həbsxanada olmaq daha yaxşıdır", "Çörək çatmır, almağa da pul yoxdur, ağırdır, uşaqlar yemək istəyən dəqiqədə ölmək istəyirəm. Özüm haqqında danışmağa dəyməz" və s. (573,s.23-24)

Şəhərdə də vəziyyət ürək açan deyildi. Dövlət Təhlükəsizlik Nazirliyinin 1948-ci ilin iyun və dekabrında tərtib etdiyi "Sənayedə çalışan fəhlələrin şikayətləri"nə dair məlumatında bəzi faktlara diqqət yetirək: "Maaşların verilməsində işlər çox pisdir… İndi 10-11 saat işləmək lazım gəlir, lakin artıq işlədiyimiz vaxtların haqqı ödənmir", "İş şəraiti dözülməzdi. Bəzi adamlar özbaşına işdən çıxmağa cəhd edirlər, lakin onları tapıb mühakimə edirlər", "Hər şey qulların vəziyyəti kimidir" və s. (573,s.26 -27)

Sovet tarixşünaslığında 1947-1952-ci illərdə beş dəfə qiymətlərin aşağı salınması çox geniş təbliğ olunsa da reallığı əks etdirən alternativ faktlar da mövcuddur. Məsələn, arxiv sənədlərində deyilir: "Qiymətləri 300 faiz artırır,

30 faiz aşağı salır və bütün dünyaya hay-küy salırlar", "Bu qiymət aşağı salma məsələsi ilə bizi idarə edənlər xalqı öz tərəfinə çəkmək istəyir. Bu alverçilərin tədbiridir", "Bu qiymət aşağı salma mənə nə verir. Malların qiyməti qramla, əməkhaqqı isə kiloqramla aşağı salınır", "Gülməlidir, amma bütün ay boyu danışacaqlar, necə ki, seçkilərdən danışırlar, bütün bunlardan hamının artıq ürəyi bulanır" və s. (573,s.31-32)

Müharibədən sonrakı dövrdə ərazaq qıtlığı ilə bağlı açınacaqlı vəziyyətin olduğunu müasir dövrdə əhalinin yaşlı nəslin nümayəndələri də təsdiq edir. Yaşlı nəslin nümayəndələri onlarla aparılan şifahi sorğular zamanı ərzaq qıtlığı nəticəsində əhali arasında açından ölmə hallarının artması, hətta insanların ictimai yerlərdə oturduqları vəziyyətdə birdən-birə ölməsi, 1946-cı ililn yazında, cincilim, ətəppəyi kimi təbii bitkilərin əvvəlki illərə nisbətən bol yetişməsi səbəbindən insanların bir hissəsini acından ölməkdən xilas olması və digər məsələlər haqqında məlumat verirlər.

Azərbaycan tarixinin ən ziddiyyətli və həm də ən şərəfli səhifələrindən biri cənubi Azərbaycan Milli Hökümətinin yaranması və onun fəaliyyəti ilə bağlıdır ki, bu da sovet tarixşünaslığında birtərəfli tədqiq olunub. Sovet tarixşünaslığında 1921-ci il Sovet-İran müqaviləsinə istinad edərək 26 avqust 1941-ci il tarixdə SSRİ-nin İranın şimal ərazilərini, yəni cənubi Azərbaycan ərazisini işğal etməsi və işğaldan sonra bu ərazidə baş verən hadisələr sovet siyasətinə uyğun, birtərəfli işıqlandırılıb.

Mözu ilə bağlı sovet tarixşünaslığında M.O.İbrahimovun 1948-ci və 1949-cu ildə Bakıda rus dilində nəşr olunmuş "Cənubi Azərbaycandakı 1945-1946-cı illər demokratik hərəkat haqqında" və "İran Azərbaycanı haqqında həqiqət", Ə.İ.Şəmidənin 1961-ci ildə Bakıda nəşr olunmuş "İranda fəhlə və həmkarlar hərəkatı. 1941-1946", 1984-cü ildə Bakıda nəşr olunmuş "Mir Cəfər Pişəvəri. Seçilmiş əsərləri", M.M.Çeşmazərin 1986-cı ildə Bakıda nəşr olunmuş "Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti (Cənubi Azərbaycan, 1945-1946-cı illər)" və s. kitab və məqalələr nəşr olunub.

Bundan başqa S.Q.Mirzəzadə 1971-ci ildə "İran Azərbaycanın milli məclisi və onun qanunvericilik fəaliyyəti (1945-1946-cı illər)", M.R. Abdullayev(Vilayi) 1973-cü ildə "İran Azərbaycanında milli-azadlıq hərəkatında mətbuatın rolu (1941-1946)" mövzularında namizədlik dissertasiyaları müdafiə ediblər.

Bu əsərlərdə hadisələrin gedişi və mahiyyəti sovet dövlətinin siyasətinə uyğun izah edilib. Xüsusilə milli hökümətin süqutunun əsas səbəbləri, hökümət üzvlərinin və fədailərin sonrakı taleyi barədə sovet tarixşünaslığında obyektiv məlumatlar əldə etmək demək olar ki, mümkün deyil. Fikrimizcə bu kitab və məqalələr tənqidi yanaşmaq, müasir dövrdə nəşr olunan kitablarla müqayisələr aparmaqla hadisələr haqqında obyektiv məlumatlar əldə etmək mümkündür.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra 1991-ci ildə Bakıda nəşr olunmuş "Cənubi Azərbaycan tarixi məsələləri", M.Qasımovun 1993 -cü ildə Bakıda nəşr olunmuş "Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi", N.Nəsibzadənin 1997-ci ildə Bakıda nəşr olunmuş "Bütöv Azərbaycan" və "İranda Azərbaycan məsələsi", C.Həsənlinin 1998-ci ildə Bakıda nəşr olunmuş "Güney Azərbaycan:Tehran-Bakı-Moskva arasında (1939-1945)" və 2001-ci ildə Bakıda nəşr olunmuş "Güney Azərbaycanda Sovet-Amerika-İngiltərə qarşıdurması (1941-1946)", T.Qaffarovun redaktorluğu ilə 2008-ci ildə nəşr olunmuş "Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər)", C.M.Vəkilov 1991-ci ildə nəşr olunmuş "Azərbaycan respublikası və İran: 40-cı illər", G.Yeniseyin 2009-cu ildə işıq üzü görmüş "İranda etnosiyasi hərəkatlar (1922-2004)", P.Məmmədlinin 2009-cu ildə çapdan çıxmış "Cənubi Azərbaycan mətbuatı tarixi", Ə. Rəhimlinin (Bije) 2015-ci ildə nəşr olunmuş "21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər)" və s. kitablarda problemə sovet tarixşünaslığından fərqli yanaşılıb. S.Bayramzadənin 2015-ci ildə tərtib etdiyi "21 AZƏR-70" fotoalbomu da mövzunun öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

(Təqdirəlayiq haldır ki, son vaxtlar bu mövzuya həm ölkə daxilində, həm də xaricdə diqqət daha da artıb. Məhz bunun nəticəsidir ki, bir sıra elmi konfraslar və dəyirmi masalar təşkil olunub. Buna misal olaraq 3 aprel 2015-ci il tarixində Azərbaycan İstiqlal Muzeyində Azərbaycan Demokratik Partiyasının yaradıcılarından biri, Milli Məclisin üzvü olmuş, Müdafiə Naziri General Cəfər Kavianın 120 illik yubileyinə həsr olunmuş "İşıqlanan yaddaş" adlı tədbir-sərgini, 26 may 2015-ci ildə tarixində Bakıda "21 Azər-70" mövzusunda keçirilmiş dəyirmi masanı, 07 dekabr 2015-ci il tarixdə AMEA Şərqşünaslıq İnstitutunda "21 Azər" mövzusunda keçirilmiş elmi konfransı və s. tədbirləri göstərmək olar. Azərbaycan İstiqlal Muzeyində "İşıqlanan yaddaş" adlı tədbir-sərgidə general

Cəfər Kavianın oğlu Marks Kavian tərəfindən muzeyə daimi mühafizəyə təhvil verilmiş generalın şəxsi əşyaları, hərbi geyim, Səttarxan ordeni, 21 Azər medalı, qılınc, fotoşəkillər, sənədlər nümayiş olunub.)

Bundan başqa Şimali Amerika, Avropa və Türikiyədə yaşayan azərbaycanlılar 1945 dekabrın 12-də Azərbaycan Milli Hökümətinin 70-ci quruluş ildönümü münasibəti ilə tədbirlər təşkil ediblər.

Ankara, Vaşinqton və Vankuver kimi şəhərlərdə keçirilən tədbirlərdə Milli Hökümət dönəmində həyata keçirilmiş layihələr, eləcə də türk dilinin rəsmiləşdirilməsi, qadınların seçmə və seçilmə hüququnun təmin edilməsi və fərdi azadlıqların artırılması kimi islahatlar müzakirə edilib. Həmçinin 13 dekabr 2015-ci il tarixdə İsveçin paytaxtı Stokholm və Toronto şəhərlərində Güney Azərbaycanda Milli Hökumətin qurulmasının 70 illiyi münasinətilə Güney Azərbaycan Konqresinin təşkilatçılığı ilə "21 Azər" həftəsi təşkil olunub.

Mövzu ilə bağlı yazılmış kitablar və məqalələrdə 1941-1946-cı illərdə Cənubi Azərbaycanda baş vermiş demokratik hərəkat şərti olaraq iki dövrə bölnür:

I dövr 1941-ci ilin avqustu-1945-ci ilin yayı;

II dövr 1945-ci ilin yayı-1946-cı ilin dekabrı.

Azərbaycan demokratik hərəkatı ilə bağlı məsələləri araşdırmaq üçün birinci növbədə sovet qoşunlarının İranın Şimal ərazilərini, yəni Cənubi Azərbaycan ərazilərini işğal etməsinin səbəbələri və bu işğalın hərəkatda oynadığı müsbət və mənfi cəhətlər aydınlaşdırılmalıdır. Bundan başqa sovet işğalı nəticəsində mərkəzi hakimiyyətin Cənubi Azərbaycana təsirinin minumuma enməsi, milli oyanış üçün münbit şəraitin yaranması və bu oyanışda ilk dövrlərdə Moskvanın maraqlı olması, sonradan isə ona xəyanət etməsi dərindən təhlil edilməlidir.

Cənubi Azərbaycan demokratik hərəkatının inkişafında kənar təsirin, yəni Moskvanın təsirinin güclü olmasına baxmayaraq bu prosesdə həlledici rolu Səttarxan və Ş.M.Xiyabanı hərəkatlarında böyük mübarizə məktəbi keçmiş yerli əhalinin oynamasına xüsusi diqqət vermək lazımdır. Bundan başqa hərəkatın sonlarında dünyada gedən proseslərin Azərbaycan milli qüvvələrinin əleyhinə olmasının səbəbləri, Moskvanın xəyanəti dərindən təhlil edilməlidir.

C.Həsənlinin "Güney Azərbaycan Tehran-Bakı-Moskva arasında (1939-1945)" kitabında müəllif problemin tarixşünaslığını qısa təhlilini verib. Müəllif qeyd edir ki, " problemin elmi araşdırılması prof. Ə.Quliyevin məqaləsi ilə

başlanmış, 50-ci illərdə bir neçə dissertasiya işi müdafiə edilmişdir. "Soyuq müharibə"nin doğurduğu hərbi psixoloji qarşıdurma fonunda hadisələrə bütövlükdə ideoloji təbliğat xarakteri verilməsi adları çəkilən elmi araşdırmaların hamısı üçün səciyyəvidir. Problemə belə münasibətin formalaşması sonrakı dövrün tədqiqatlarına təsirsiz qalmadı. 60-70-ci illərdə Bakıda və Moskvada F.Dəstgüşadə, İ.Tariqpeyma, İ.İbrahimi, Ə.Dəvəlli-Məmməd, S.Mirzəzadə, M.Abdullayev (Vilayi) və digərləri əlyazma hüququnda olan namizədlik dissertasiyaları müdafiə etmişlər. Moskvanın müxtəlif elmi mərkəzlərində aparılmış araşdırmalarda daha çox problemin beynəlxalq tərəflərinə toxunulmuşdur. Rus tarixçilərindən M.İvanov, A.Başkirov, E.Orlov, M.Popov, L.Pozdeeva və digərləri problemə SSRİ-nin siyasətinə uyğun "Sovet yardımı" mövqeyindən yanaşıblar. Tarixçi alim və publisistlərdən professorlar Ş.Tağıyeva, M.Çeşmazər, S.Onullahi, doktor N.Nəsibzadə, yazıçı Q.İlkin, C.Vəkiləv, V.Mustafa, İ.Şəms, S.Bayramzadə, Q.Zahidov, Ə.Lahrudi, Ə.Nəmini və digərləri Güney Azərbaycan milli azadlıq hərəkatının ayrı-ayrı məsələləri ilə bağlı dəyərli fikir və mülahizələr irəli sürüblər. (160,s.17-19)

Kitabda göstərilir ki, sovet qoşunları 26 fevral 1921-ci il tarixli Sovet-İran müqaviləsinin 6-cı maddəsinə istinad edərək Dövlət Müdafiə Komitəsinin qərarı ilə Zaqafqaziya Cəbhəsi hərbi Şurasının əmrinə əsasən Güney Azərbaycan sərhədlərində dayanmış Sovet qoşunları 1941-ci il avqust ayının 25-də kecə saat 2-də hərbi əməliyyata başladı. Kecə saat 5-ə qədər Naxçıvandan Xəzərin cənubuna doğru bütün istiqamətlərdən SSRİ sərhəd qoşunları, 44-cü və 47-ci ordular, Xəzər donanması, Zaqafqaziyadakı 8-ci aviakorpus, Yevlaxdakı 132-ci aviadiviziya artıq Güney Azərbaycanda və Xəzərin cənubunda hərbi əməliyyatlara başlamışdı... Avqustun 28-də İran ordusunun müqaviməti rəsmən dayandırıldı. Sovet qoşunları Güney Azərbaycan, Gilan, Mazandaran və Xorasanı tutdu.(160,s.48)

Kitabda Əziz Əliyevin prosesdə iştirakı da geniş işıqlandırılıb. Kitabda qeyd olunur ki, "Dövlət Müdafiə Komitəsinin göstərişinə və Zaqafqaziya cəbhəsinin komandanı general-leytenant D.Kozlovun 16 sentyabr 1941-ci il tarixli əmrinə əsasən polkovnik-komissar Əziz Əliyev Təbrizdə yerləşmiş 47-ci ordunun hərbi şurasının üzvü vəzifəsinə təyin edildi. Əmrdə göstərilirdi: "Ezam olunan yoldaşlar bütün İşlərində Azərbaycan K(B)P MK-nın katibi və hərbi şura üzvü Əziz Əliyevin göstərışlərini rəhbər tutmalıdırlar. Komissarlar və hərbi-siyasi

orqanlar "Əziz Əliyev qrupu"nun işinə qarışa bilməzlər və bilavasitə onlara rəhbərlik edə bilməzlər. Eyni zamanda ezam olunanlar hərbi İşlərə müdaxilə edə bilməzlər, hərbi xarakterli hər hansı göstərışlər verə bilməzlər". (160,s.51)

Kitabda qeyd olunur ki, Böyük Vətən müharibəsi qələbə ilə başa çatdıqdan, faşist Almaniyası məqlub olduqdan sonra, artıq İrandan SSRİ-yə qarşı hər hansı təhlükə qalmırdı. Ona görə də İranın Xarici İşlər naziri Ənuşiravan Sipəhbudi sovet səfirinə 19 may 1945-ci il tarixli 1117 saylı Nota təqdim etdi. Notada deyilirdi: "Müharibənin qurtarması münasibətilə ürəkdən sevinirik. Özümüzə borc bilirik ki, İran hökümətinin təbriklərini böyük müttəfiqlərin qəhrəman ordusu ilə birlikdə düşmənin qüvvələrini əzmiş, Alman ordusu danışıqsız təslim olmağa məcbur etmiş SSRİ-nin qüdrətli ordusuna çatdıraq. İranla SSRİ arasında mehriban münasibətləri təsdiq etməklə İran hökümətinin aşağıdakı fikrini və xahişini zati alinizin nəzərinə yetirirk:

Belə ki, Avropada müharibə rəsmən başa çatmışdır. Müharibənin nəticəsi olaraq İrandakı mövcud vəziyyəti saxlamağa ehtiyac duyulmur. Tezliklə ölkədə normal-dinc vəziyyəti bərqərar etməyin zəruriliyni və İran xalqının iradəsini ifadə edərək bildiririk ki, artıq İran ərazisində Sizin dövlətinizin silahlı qüvvələrinin saxlanmasına heç bir ehtiyac yoxdur. Almaniya ilə müharibədə bizim müttəfiqlərin qələbəsinə yardım məqsədilə imzalanmış üç dövlətin müqaviləsinin ruhuna uyğun olaraq İran höküməti xahiş edir ki, Sovet İttifaqının silahlı qüvvələri İran ərazisini tərk etsin".(160,s.167)

ABŞ və Böyük Britaniya siyasi dairələri cənubi Azərbaycanda müstəqil dövlətin yaradılması və onun sovet Azərbaycanına birləşdirilməsi planı ilə razılaşa bilmirdilər. 1945-ci il iyulun 21-də Böyük Britaniya nümayəndələri müttəfiq qoşunlarının İrandan çıxarılması barədə Potsdam konfransına memorandum göndərdilər. Həmin sənədə müttəfiq qoşunların Almaniya ilə müharibə qurtardıqdan sonra altı aydan gec olmayaraq İrandan çıxarılması nəzərdə tutulurdu.

İranın bu tələbinə müharibədən qalib kimi çıxmış SSRİ ilk vaxtlar etinasız yanaşdı. İranın notasına məhəl qoymayan Sovet İttifaqı İranın şimalında möhkəmlənmək üçün əlavə təbdirlər planlaşdırmağa başladı. İyulun 6-da ÜİK(b)M MK Siyasi Bürosu "Cənubi Azərbaycanda və İranın şimalının digər vilayətlərində separatçı hərəkatın təşkili üzrə tədbirlər haqqında" gizli qərar qəbul etdi.

1945-ci il sentyabrın 3-də M.C.Pişəvəri başda olmaqla Azərbaycan

Demokrat Partiyası yaradıldı və bu barədə xalqa müraciət olundu. Müraciətdə deyilirdi: "Tarixdə azadlığın bayraqdarı kimi tanınan Azərbaycan artıq Tehran mürtəce hökümətinin zülm və fişarı altında tapdalana bilməz, o, azad olmalıdır. Azərbaycan keçmişdə parlaq bir mədəniyyətə malik olduğu halda, indi savadsız qala bilməz. Azərbaycan xalqının öz gözəl ana dili var. Bu dillə məktəblərində oxumalı, idarələrində yazmalıdır. Azərbaycanın zəngin sərvətləri Azərbaycanın özünün olmalıdır. Azərbaycanda sənaye ocaqları yaradılmalı, Azərbaycan mədəni kənd təsərrüfatı ölkəsinə çevrilməlidir. Fəhlə işsiz, kəndli torpaqsız qala bilməz. Azərbaycan hər cəhətdən azad və abad olmalıdır"(160, s.212)

Azərbaycan Demokrat Partiyasının yaranması ingilis və amerikanları bərk narahat edirdi. Təbrizdəki ingilis konsulu Uol ADP ilə bağlı deyirdi: "Bu partiya daha təhlükəlidir, nəinki sovetpərəst təşkilat olan Xalq Partiyası. Xalq Partiyasında zəngin adamlar yoxdur, o imkanlı təbəqəyə və ziyalılara arxalana bilmir. Yeni Demokrat partiyasının tərkibində çoxlu nüfuzlu adamlar görünür. Onun proqramı çox ağıllı tərtib olunub, partiyanın tələblərinə qarşı etiraz etmək çox çətindir. Əgər bu partiya öz ideyalarını həyata keçirsə onu bütün Azərbaycan əhalsi müdafiə edəcəkdir. Bu məqsədlərlə o, çox uzağa gedəcəkdir." (160, s.216-217)

Müharibə qurtardıqdan sonra keçmiş mütəfiqlər olan ABŞ və İngiltərə ilə SSRİ arasında ziddiyyətlər kəskinləşməyə başladı ki, bu da cənubi Azərbaycan məsələsində özünü daha qabarıq şəkildə büruzə verirdi. Hadisələrin bu şəkildə inkişaf etməsi Azərbaycan demokratik hərəkatını müdafiə tədbirləri görməyə məcbur etdi. 1945-ci ilin yay-payız aylarında cənubi Azərbaycanda fədai dəstələri yaradılmağa başlandı. Bütün bu işlərə Pişəvərinin rəhbərlik etdiyi ADP başçılıq edirdi. Sentyabrın 5-də ADP-nin orqanı olan "Azərbaycan" qəzeti ana dilində çıxmağa başladı.

1945-ci ilin oktyabrın 8-də ÜİK(b)P MK və SSRİ XKS cənubi Azərbaycanda hərbi cəhətdən möhkəmlənmək barədə qərar qəbul etdi.

Cənubi Azərbaycan Milli Məclisinə seçkilər Təbrizdə 1945-ci il dekabrın 3-də, digər yerlərdə isə bir qədər gec başa çatdı. Moskvanın razılığı ilə Azərbaycan Milli Məclisinin birinci sessiyasının açılması dekabr ayının 10-na təyin edildi. Lakin məclisin ilk sessiyasını dekabrın 10-da, yəni Azər ayının 19-da açmaq mümkün olmadı. Nəhayət iki gün sonra 21 Azərdə bu tarixi hadisə baş tutdu.

1945-ci ilin 12 dekabrında Təbrizdə Azərbaycan Milli Məclisinin ilk

iclası keçirildi və ADP-nin sədri M.C.Pişəvəri baş nazir olmaqla Milli Hökümətin tərkibini təsdiq etdi. Bu tərkibdə Xarici İşlər Nazirindən başqa bütün nazirliklər vardı. Nazirlərdən yalnız Briya əvvəllər kommunistlərlə münasibətdə olmuşdu, qalanları isə bu ideyadan uzaq idilər. Moskva Milli Höküməti himayə etməklə onu öz nəzarəti altında saxlamağa çalışır, bura tudəçilərin qoşulmasına cani dildən kömək edirdi.

Milli Hökümət fəaliyyətdə olduğu 1 il ərzində aşağıdakı islahatları həyata keçirib ki, bu da yerli əhali tərəfindən müsbət qarşılanıb:

- İran tarixində ilk dəfə olaraq qadınlara seçmək və seçilmək hüququ verildi;
- Bütün sahələrdə qadın-kişi bərabərliyi təmin olunmağa başlandı;
- Bütün növ işgəncələr qadağan olundu;
- Əmək qanunu qəbul olunduğu gündən icra olunmağa başladı;
- Dövlət orqanlarının işinə nəzarət şuraları yaradıldı;
- Torpaq islahatları aparıldı;
- Savadsızlığın ləğvi üçün tədbirlər həyata keçirildi;
- Azərbaycan dilində ilk universitet və orta məktəblər açıldı;
- Səhiyyə islahatları aparıldı, pulsuz xəstəxanalar istifadəyə verildi;
- Radio stansiyası quruldu və ana dilində verilişlər yayımlandı;
- Yollar çəkildi, qiymətlərə nəzarət imkanı yaradan dövlət mağazaları açıldı və s.

Bu islahatlarla yanaşı Səttar xan və Bağır xana Təbrizdə heykəllər qoyuldu, Filarmoniya  və digər təhsil və mədəniyyət ocaqları açıldı.

İslahatlar elə geniş sahələri  əhatə edirdi ki, hətta onun əleyhdarları da bunu yüksək qiymətləndirirdilər. R.Cottamın 1964-cü ildə nəşr olunmuş "Nationilsm in İran" kitabında yazırdı: "Milli Hökümətin bir illik həyatında gördüyü işlər Rza şahın 20 illik hakimiyyətində gördüyü işlərdən qat-qat çox idi."

Lakin bir çox uğurlarına baxmayaraq Milli Hökümət Moskva və Tehranın təzyiqləri altında işləyirdi. Tudəçilər Moskvanın təsiri altında Milli Hökümətin müvəffəqiyyətlərindən ehtiyat edir, onun Türkiyə ilə əməkdaşlığa gedəcəyindən qorxurdular.

ABŞ və İngiltərənin təziyqləri  və İranın şimal neft yataqlarını SSRİ ilə birgə istismarına razı olması Moskvanın əvvəlki mövqelərdən geri çəkilməyə

və “yeni müharibə başlamasına yol verməmək” bəhanəsi ilə qoşunları cənubi Azərbaycandan çıxarmaq haqqında qərar verməyə sövq etdi. Bundan sonra 1946-cı ilin dekabrında şah qoşunları Məclisə keçiriləcək seçkilərin təhlükəsizliyini təmin etmək bəhanəsinə Təbriz üzərinə hücuma keçdi. Şah qoşunlarına qarşı mübarizə məsələsində Milli Hökümətdə olan fikir ayrılığı məğlubiyyətin başlanğıcını qoydu. Milli Hökümət üzvlərinin bir hissəsi müqavimət göstərməyin tərəfdarı olmayıb, fədailəri nahaqdan güdaza verməməyi təklif edirdilər. Baş nazir Pişəvərinin rəhbərlik etdiyi millətçi qrup isə şah ordusu ilə vuruşmaq, lazım gələrsə partizan müharibəsinə başlamağın tərəfdarı idi. Təbrizdə olan sovet konsulu məsələyə qarışaraq Pişəvəri və onun silahdaşlarını Sovet Azərbaycanına mühacirətə məcbur etdi. Pişəvərinin başçılığı ilə mühacirət edən qüvvələr bunun müvəqqəti olduğunu və tezliklə yeni qüvvə ilə qayıdaraq Milli Höküməti bərpa edəcəklərini düşünürdülər.

Şah qoşunları 21 Azərdə Təbrizə daxil oldu və şəhərdə misli görünməmiş dəhşətli qətllər başladı. Minllərlə azərbaycanlı şah qoşunları tərəfindən qətlə yetirildi. Hətta uşaq və qadınlara da rəhm edilmədi.

Şah qoşunlarına qarşı müqavimət göstərməyin əleyhinə olan Cavid və Şəbüstəri barədə isə şah əfv fərmanı verdi.

Sovet Azərbaycanına gəlmiş fədailər Pişəvərinin rəhbərliyi altında hərbi təlimlər keçərək tezliklə vətən uğrunda döyüşlərə başlamağı planlaşdırırdılar. Bu istək Moskvanın planları ilə üst-üstə düşmədiynə görə Hacıkənddən, fədailərin təlimlərindən qayıdan Pişəvəri 1948-ci ildə mərkəzin göstərişi ilə Yevlax yaxınlığında magistral yolda avtomobil qəzasına salındı. Qəzadan az sonra yaralı şəkildə xəstəxanaya gətirilmiş M.C.Pişəvəri müəmmalı şəkildə vəfat etdi. Bundan sonra sovet orqanları ilə əməkdaşlıqdan imtina edən mühacirlərin böyük bir hissəsi, o cümlədən Milli Hökümətin mədəniyyət naziri Biriya həbs olundu. Əməkdaşlığa razı olanlar isə, sovet dövlətinin siyasətinə baş əyərək müxtəlif sahələrdə fəaliyyət göstərməyə başladılar.

T.e.d.,prof. M.Qasımovun 1993-cü ildə çap olunmuş “Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi” adlı kitabı giriş və beş fəsildən ibarətdir. “Sovet-İran münasibətlərində Azərbaycan məsələsi” adlanan üçüncü fəsildə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində 1946-cı ilin yanvarından başlayaraq müzakirə edilən Cənubi Azərbaycan məsələsindən bəhs olunur.

Kitabda qeyd olunur ki, Təhlükəsizlik Şurasının iclası keçirildiyi vaxtlarda 1946-cı ilin yanvar ayının sonlarına yaxın İran məclisi Qəvvam-əs-Səltənəni ölkənin baş naziri seçdi. O seçilən kimi bildirdi ki, "bu gün İranın Təhlükəsizlik Şurasına müraciəti məsələsi ilə məşğul olacaq. Şah onu təsdiq edən kimi isə ruslarla birbaşa danışıqlara başlayacaq." Bundan sonra BMT-də Azərbaycan məsələsi ətrafında mübahisəli müzakirələr kəskinləşdi, sovet nümayəndə heyətinin üzərinə güclü hücuma keçildi. Bu da öz təsirini göstərdi.

Kitabda daha sonra qeyd olunur ki, BMT Baş Məclisinin birinci sessiyasında Tağızadə və Vışinskinin bəyanatları ilə əlaqədar uzun müzakirələrdən və qətnamənin qəbul edilməsindən sonra Sovet-İran münasibətlərində yaxınlaşma baş verdi. Bu yaxınlaşma 1946-cı ilin aprelində hər iki tərəfi təmin edən sənədin imzalanması ilə nəticələndi. Həmin sənəddə sovet ordu hissələrinin1946-cı ilin martın 24-dən başalayaraq bir ay yarım ərzində İranın bütün ərazilərindən çıxarılması, qarşıq İran-Sovet Neft Cəmiyyəti yaratmaq haqqında müqavilə və onun şərtləri 1946-cı ilin martın 24-də hesablanmaqla yeddi aylıq müddətə qədər məclisin 15-ci çağrışının müzakirəsinə verilməsi nəzərdə tutlurdu. Sənəddə Azərbaycan haqqında məsələ üzrə ayrıca maddə qəbul olunmuşdu. Həmin maddədə deyilirdi ki, "bu məsələ İranın daxili işi olduğundan hökumət və Azərbaycan əhalisi arasında mövcud qanunlara uyğun olaraq, Azərbaycan əhalisinə xeyirxah münasibət ruhunda islahatlar keçirməklə, dinc yolla həllini tapacaqdır."

Musa Qasımov və Mahir Abdullayevin 1998-ci ildə nəşr olunmuş "Beynəlxalq münasibətlər tarixi kitabının 396-cı səhifəsində qeyd olunur ki, "Cənubi Azərbaycanın general-qubernatoru doktor Cavid və əncümənin sədri Şəbüstəri həbs edildi. Xalqa qarşı kütləvi terrora keçildi. Güney Azərbaycan İran hərbçilərinin əlinə keçdi. Təkçə dekabrın ikinci yarısında təxminən 25 min adam öldürüldü. Komendant saatı quruldu. Milli-azadlıq hərəkatına zərbə endirildi. 1946-cı il dekabrın 20-dən sonra Güney Azərbaycandakı xalq hakimiyyəti devrildi."

T.e.d.,prof. C.Həsənlinin "Güney Azərbaycanda Sovet-Amerika-İngiltərə qarşıdurması (1941-1946)" kitabının XVI fəslində qeyd olunur ki, sərhədi keçənlərdən 2082 tüfəng, 137 avtomat, 386 tapança, 11 pulemyot, 320 əl qumbarası, 25 yük maşını, 30 minik maşını, 5 avtobus və s. müsadirə edildi. 1947-ci ilin 5 yanvarında SSRİ-yə köçənlərin sayı 6318 nəfərə çatmışdı. 1954-cü

ildə ümumilikdə güneyli mühacirlərin sayı 9022 nəfər idi. Güney Azərbaycandan Sovetlərdən sığnacaq alanların 1097 nəfəri 1947-ci ilin əvvəlіndə başlayaraq Azərbaycan SSR dövlət təhlükəsizlik orqanları tərəfindən həbs olundu.( 159,s.540)

"İranda türk dilində kitabların yandırılmasının 67-ci ildönümü qeyd edilib" adlı məqalədə ("Amerikanın səsi" radiosu 21 dekabr 2013 ) 1946-cı ilin dekabrında Seyyid Cəfər Pişəvərinin öndərliyi ilə qurlumuş Azərbaycan Milli Hökümıəti devrildikdən sonra həmin hökümət dönəmində çap olmuş türkcə kitabların İran Ordusu tərəfindən yandırıldığı bildirilir. Azərbaycan fəalları 17 dekabrı Güney Azərbaycan Kitab Günü adlandıraraq bu hadisənin ildönümünü qeyd edirlər. Məqalədə daha sonra hadisələrin şahidi olmuş Rza Bərahəni aşağıdakı fikirləri yazılıb:"Onlar bizi türk dilində yazılmış dərslikləri Şəhrdari (Bələdiyyə) meydanına toplayıb və onları yandırmağa məcbur etdilər. Kitabların alovları bizim başımız üstündə dar ağacından asılmış kişilərin ayaqlarına qədər qalxırdı. Gündüzləri Təbrizi qoruyub, gecələri isə onun küçələrinə asfalt örtən fədailəri-demokrat firqəsi devrildikdən sonra  evlərindən çıxarılır, biz uşaqların gözləri önündə onlardan arxalarına baxmadan yerimələrini istəyirdilər və sonra bizim gözümüzün önündə arxadan onlara güllə açıb, cəsədlərini küçədəki nova atırdılar."

Bu hadisələrdən sonra SSRİ-nin cənubi Azərbaycan məsələsində yeritdiyi siyasət 180 dərəcə dəyişdi və əvvəlki illərdə Azərbaycan xalqının birliyinə aid yazılan və  təbliğ olunan əsərlərə qadağa qoyuldu. Məsələn, Rəşid Behbudovun 1946-cı ildə rus dilində ifa etdiyi və xalqın rəğbətini qazanmış "İki sahil" mahnısının qadağa olunması buna misal ola bilər. "Rəşid Behbudovun qadağan olunmuş mahnısı" başlıqı məqalədə bunula bağlı qısa məlumat verilir.(403,01 yanvar 2011)

Tanınmış rus şairi Nikolay Dorizo sözlərinə Fikrət Əmirovun bəslədiyi bu mahnıda milli hökumətin məğlubiyyətindən sonra xalqın Araz çayı ilə yenidən ikiyə bölünməsi, lakin qardaşın qardaşa heç zaman düşmən olmayacağı, tezliklə bu ayrılığa son qoyacaq baharın gələcəyinə inam və s. fikirlər öz əksini tapıb.  1946-cı ildə olduqca məşhur əsər olan bu mahnı, az sonra qadağan olunaraq tamamilə yaddaşlardan silinib. Lakin Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bu cür qadağalara məruz qalan əsərlər yenidən bərpa olunub.

Azərbaycan Milli Höküməti əsasən onun üçün əlverişli olmayan beynəlxalq

şəraitin ucbatından məğlubiyyətə uğradı. ABŞ, İngiltərənin Milli Hökümətə qarşı olması və Moskvanın xəyanəti Milli Hökümətin faciəsi ilə nəticələndi.

Azərbaycan Milli Höküməti məğlub olsa da bu qısa və şərəfli tarix Azərbaycan xalqının sonrakı illərdə milli şüurunun yüksəlməsində mühüm rol oynayıb .

Azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistan SSR ərazisindən deportasiya olunması mövzusu sovet tarixşünaslığında öz əksini tapmayan mövzulardandır. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bu mövzuya aid R.Mehdiyev, B.Nəcəfov, İ.Məmmədov, S.Əsədov, V.Arzumanlı, N.Məhərrəmov, A.Paşayev, M.Qasımlı, İ.Vəliyev, K.Muxtarov, F.Hüseynov, İ.Məmmədov və başqaları kitab və məqalələr yazıblar.(77,270, 283,311,320,386,№1,1998,s.27-32 və s.)

Bundan başqa A.Mustafayev 2005-ci ildə "XX əsrdə qərbi Azərbaycan ərazisindən azərbaycanlıların deportasiyası və Naxçıvan", A.Paşayev 2008-ci ildə "XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar və deportasiyalar", S.Qurbanlı 2012-ci ildə "Ermənistan SSR-də azərbaycanlılar əleyhinə siyasət (1945-1990-cı illər)" mövzularında dissertasiyalar müdafiə ediblər.

Bu tədqiqatların meydana çıxmasında Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi deportasiyası haqqında" (18 dekabr 1997-ci il) və "Azərbaycanlıların soyqırımı haqqında" (26 mart 1998-ci il) fərmanları mühüm rol oynayıb.

İ.Məmmədov və S.Əsədovun "Ermənistan azərbaycanlıları və onların acı taleyi (qısa tarixi oçerk)" adlı kitabda 1948-1953-cü il deportasiyasının əsil mahiyyətinə aydınlıq gətirilir. Kitabda qeyd olunur ki, Ermənistanda azərbaycanlılara qarşı 1918-1920-illərdə soyqırım və 1930-1938-ci illərdə repressiya aksiyası həyata keçirilməsinə baxmayaraq, Ermənistanın Türkiyə və İran sərhədləri, eləcə da Azərbaycan və Gürcüstan sərhədləri boyunca yenə də əsasən azərbaycanlılar yaşayırdılar. İrəvan şəhərinin ətraf rayonları ən münbit torpaqlar hesab edilirdi və həmin rayonlarda da azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Ermənistan rəhbərlərinin qarşısında duran başlıca vəzifə İrəvan ətrafında və Türkiyə ilə sərhəd boyu münbit torpaqlarda yaşayan azərbaycanlıları həmin

ərazilərdən köçürülməsinə nail olmaqdan ibarət idi. (283)

Ermənilər bu məqsədlərinə nail olmaq üçün İkinci Dünya müharibəsindən sonra xaricdə yaşayan ermənilərin yaşamaq üçün Ermənistana gəlmək istəməsi, lakin onları yerləşdirmək üçün yararlı torpaqların olmamasını bəhanə edərək SSRİ rəhbərliyinə dəfələrlə müraciət etmiş və nəhayət öz məqsədlərinə nail olmuşlar. 1945-ci ildə SSRİ rəhbərliyi xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi haqqında qərar qəbul etmişdir ki, bu da azərbaycanlılar öz dədə-baba torpaqlarından deportasiya olunmasına səbəb olmuşdur.

B.Nəcəfovun "Deportasiya" kitabı ön söz, giriş sözü əvəzi, üç fəsil, nəticə və əlavələrdən ibarətdir. Kitabın əvvəlində Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli fərmanının tam mətni verilib. Fərmanda göstərilir ki, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur... Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrün Azərbaycan rəhbərliyinin də öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.(320)

Kitabın "Giriş sözü əvəzi" başlıqlı hissəsində müəllif yazır: "... 1947-1953-cü illər deportasiyası heç də fərdi akt, Stalin rejiminin iradi qərarı deyildir, bu deportasiya-Ermənistan sovet rəhbərliyi ilə "Daşnaksütyun" partiyasının xaricdəki mərkəzlərinin birgə şəkildə həyata keçirdikləri təcavüzlər, provokasiyalar, böhtanlar və siyasi şantajlarının növbəti qanunauyğun halqası idi. Bu fikrin ... həqiqət olduğunu bilmək üçün sənədləri, "Daşnaksütyun"-un XIV konqresinin Direktivini (iyun, 1947-ci il) və bundan az sonra azərbaycanlıların Ermənistandan köçürülməsi haqqındakı sovet direktiv orqanlarının qərarlarını xronoloji baxımdan müqayisə etmək kifayətdir."

Kitabın birinci fəsli "Avanturist niyyətləri həyata keçirmək üçün geniş meydan", ikinci fəsli "Köçürmə-erməni şovinizminin təzahürü kimi ", üçüncü fəsli "Pambıqla kəsilən başlar. Deportasiyanın başa çatması", nəticə isə "Faciənin

qanlı dərsləri" adlanır.

Kitabın əlavələr hissəsində SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli 4083 nömrəli və 10 mart 1948-ci il tarixli 754 nömrəli qərarlarının tam mətni, 1948-1956-cı illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına və digər ərazilərə köçürülənlərin sayı haqqında arayış verilib. (320)

Sovet tarixşünaslığında öz əksini tapmayan SSRİ Nazirlər Sovetinin bu iki qərarı haqqında kitabda ətraflı məlumat verilir.

Kitabda göstərilir ki, 23 dekabr 1947-ci il tarixli 4083 nömrəli qərarda, 1948-1950-ci illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına könüllülük əsasında 100 min kolxozçu və digər azərbaycanlı əhalisi, onlardan: 10 min nəfərin 1948-ci ildə, 40 min nəfərin 1949-cu ildə və 50 min nəfərin 1950-ci ildə köçürülməsi qərar alınmışdı. Qərara əsasən köçürülənlərə dövlət tərəfindən təqdim edilən şəraitin və güzəştlərin izah edilməsi, köçürülən kolxozçularla onların getməsinə 10 gün qalmışdan gec olmayaraq işlənmiş əmək günləri üzrə kolxozların istehsal planlarında nəzərdə tutulmuş miqdarda tam hesablaşmanın təmin edilməsi, köçürülənlərin şəxsi istifadəsində olan bütün əmlakın, mal-qaranın və quşların daşınmasını təmin edilməsi, köçürülmələrə dövlət hesabına ödənişsiz gediş, hər ailəyə 2 tona qədər miqdarda mal-qara və əmlak aparılmasına imkan verilirdi.

Kitabda həmçinin Ermənistan SSR Nazirlər Sovetinə azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar olaraq onların azad olunmuş tikililərindən və yaşayış evlərindən Ermənistan SSR-ə gələn xarici ölkə ermənilərinin yerləşdirilməsi üçün istifadə etməsinə icazə verilməsi və s. məsələlər haqqında da məlumatlar yer alıb.

Kitabda Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli 4083 nömrəli qərarına əlavə haqqında da məlumat verilir. Sənəddə Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına tamamilə köçürülmüş kolxozlara mədəni-məişət tikililəri istisna olmaqla, bütün istehsal vasitələrini özlərilə aparmağa icazə verilməsi, köçürülən kolxozçulara, həmçinin köçürülən fəhlələrə və qulluqçulara çıxma yerlərində onlara məxsus evlərin satılmasında kömək edilməsi haqqında məlumat var. Bundan başqa həmin sənəddə azərbaycanlı əhalinin köçürülməsinə 1948-ci ildə 11 milyon manat vəsait ayrılması, Azərbaycan dəmir yolunun Lənkəran, Salyan, Sarıcalar, Saatlı, Qırmızı Kənd, Dayıkənd, Papanin, Yeni

Osmanlı, Maşburun, Ucar və Masallı stansiyalarında boşaltma-yükləmə və rels anbarları üçün hər birinin uzunluğu 600 metr olan sahələr ayırılması, atçılıq zavodlarından çıxdaş edilmiş 50 atın ayırmasına icazə verilməsi və digər məsələlər də qeyd olunub. (320)

Akademik R.Mehdiyevin ideya rəhbəri olduğu "Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi" adlı kitab (77) "Tarix olduğu kimi", "Erməni şövinistlərinin növbəti hədəfi", "Şovinizmin yeni mərhələsi", "Terror Ermənistanın dövlət siyasətinə çevrilib" başlıqlı 4 bölmədən ibarətdir.

Kitabın "Erməni şövinistlərinin növbəti hədəfi" adlanan ikinci bölməsinin birinci hissəsi "1948-1953-cü illərdə azərbaycanlıların kütləvi deportasiyası" adlanır. Burada qeyd olunur ki, deportasiya zamanı, statistik məlumata görə 10 mindən artıq insan həlak olub.(77,s.173)

Kitabın ikinci bölməsinin ikinci hissəsi "Sonuncu deportasiyanın qanlı olayları" adlanır. Kitabın bu hissəsində erməni mərkəzlərinin həyata keçirdiyi terror aksiyaları haqqında geniş məlumat verilir. Kitabda qeyd olunur ki, "Daşnaksütun" partiyası və onu himayə edən erməni diasporu ardıcıl şəkildə terror aktlarını həyata keçirməyə qərar verdilər. 1965-ci ildən sonra dünyanın 21 ölkəsinin 40-a yaxın şəhərində 110-dan artıq terror aktı keçirildi. 38 silahlı basqın oldu, 70 partlayış törədildi, 42 türk diplomatı qətlə yetirildi.

Kitabda erməni mərkəzlərinin sonrakı illərdə həyata keçirdikləri cinayətlər barədə də çoxlu sayda faktlar var. (77)

V.Arzumanlı və N.Mustafanın 1998-ci ildə nəşr olunmuş 280 səifılik "Tarixin qara səhifələri. Deportasiya. Soyqırım" kitabında 1948-1953-cü illərdə Ermənistandan 144654 nəfər doğma ev-eşiyindən zorla köçürülməsi, azərbaycanlıların deportasiyası ilə yanaşı, 1947-1953-cü illərdə 60-dan artıq yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi və s. haqqında məlumatlar var.

S.Əsədov tərəfindən tərtib edilən və akademik B.Budaqovun elmi redaktorluğu ilə 1998-ci ildə nəşr olunan "Qərbi Azərbaycanın tarixi coğrafiyası" kitabının birinci fəslinin "Baş məşq. Köçürmə (1948-1953)" bölmündə qeyd olunur ki, 1948-1953-cü illərdə Ermənistan SSR-dən zorla köçürülən və məcburiyyət üzündən buranı tərk edənlərin sayı 150 min nəfərə yaxın idi. Yerli şəraitə uyğunlaşa bilmədiklərinə görə köçürülənlərin üçdə biri həlak olmuşdu. Onlar üçün ayrılmış vəsaitin yalnız 45-47%-i istifadə olunduğundan köçürülənlərin əksəriyyəti üçün

evlər tikilməmişdi və onlar ərazaq qıtlığından əziyyət çəkirdilər.

Kitabda qeyd olunur ki, İ.Stalinin ölmü ilə köçürülmə dayanmış və əks proses, geri qayıtma başlamışdır. Bundan sonra köçürülənlərdən sağ qalanların 40-45%-i geriyə Ermənistana qayıtmışdı. Kitabda diqqət çəkən faktlardan biri boşaldılmış azərbaycan kəndlərinin əksəriyyətinin xaricdən gələn ermənilərlə məskunlaşdırılmaması, tamamilə boş qalması idi. Deməli azərbaycanlıların deportasiyasında əsas məqsəd heç də xaricdə yaşayan ermənilərin Ermənistana köçürmək deyil, azərbaycanlılıarı bu ərazidən çıxartmaq idi. Kitabda Ermənistan KP MK-nın 1975-ci ilin yanvarında keçirilmiş plenumunun materiallarına istinadən qeyd olunur ki, bu dövrdə Ermənistanda 476 kənd istifadəsiz qalmışdı. Kitabda "Qolos Armenii" qəzetinin 11 yanvar 1990-cı il sayına istinadən göstərilir ki, azərbaycanlılar köçürüləndən sonra boşalmış mənzil fondu və torpaqlara xaricdən gələn ermənilərin yerləşdirilməməsini hətta erməni millətçiləri də etiraf etmişlər.

Qarabağ Azadlıq Təşkilatı tərəfindən 2009-cu ildə çap olunmuş "Erməni iddialarının "Sovet dövrü" " adlı kitabda qeyd olunur ki, 1947-1953-cü illər ərzində 150 mindən artıq azərbaycanlı əsrlərlə yaşadıqları yurdlarından deportasiya edildilər. Deportasiya edilən azərbaycanlıların yerinə xaricdən 90 mindən artıq erməni köçürüldü. Bununla "Ermənistan" deyilən ərazilərdə ermənilərin sayının əsasən kənardan köçürülmə ilə artırılması ənənəsi davam etdirilirdi. Köçürülən ermənilərin əksəriyyəti şəhərlərdə məskunlaşdılar, azərbaycanlıların zorla çıxarıldığı kəndlərin isə xeyli hissəsi boş qaldı. Əsas məqsəd xaricdən gələn ermənilər üçün yer hazırlamaq deyil, azərbaycanlıları oradan çıxarmaq idi. Bu proses Sovet imperiyası dövründə müxtəlif adlar altında davam etdirilmişdir. Ermənilər paralel şəkildə "Ermənistan" deyilən ərazilərdən azərbaycanlıları çıxarır və Dağlıq Qarabağla bağlı əsassız idialarını reallaşdırmağa çalışırdılar.

A.Ə.Paşayevin "Ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (XIX-XX əsrlər)" kitabının(330) III fəslinin d) bölümü **"**1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası" adlanır. Kitabın bu bölümündə Azərbaycan xalqına qarşı törədilən cinayətin, təxribatın xalqa göstərlən qayğı kimi qiymətləndirilməsi tənqid olunur. Müəllif yazır: "Azərbaycan K(b)P MK isə 1948-ci il aprelin 13-də "Ermənistan SSR-dən kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-ə köçürülməsi ilə əlaqədar kütləvi izahat işləri haqqında" xüsusi qərar qəbul edir. Xalqımız üçün

ən ağır taleyüklü bu məsələ haqqında MK-nın qərarında deyilirdi: “... Azərbaycan K(b)P MK-nın xahişi ilə qəbul edilmiş”, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarı “çox böyük siyasi əhəmiyyətə malik olan sənəddir və Azərbaycan SSR-in və Azərbaycan xalqının gələcək mədəni-iqtisadi inkişafı və yüksəlişinə partiya, hökumət və şəxsən Stalin yoldaşın göstərdiyi qayğının əyani təzahürüdür”. Azərbaycan K(b)P MK-nın qəbul etdiyi bu qərarda SSRİ Nazirlər Sovetinin göstərilən qərarının “siyasi əhəmiyyətini izah etmək məqsədilə” Respublikanın partiya, sovet və ictimai təşkilatları qarşısında duran vəzifələr maddə-maddə sadalanır, nəzərdə tutulmuş güzəştlərin izahına xüsusi diqqət yetirilirdi. Bu məqsədlə “rəhbər partiya, Sovet işçilərinin, ən yaxşı mühazirəçi və təbliğatçıların kütləvi-izahat işləri aparmaq üçün” Ermənistan SSR-ə göndərilməsi nəzərdə tutulmuşdu.” (330,s.78)

Sovet rejiminin azərbaycan xalqına qarşı yeritdiyi ayrı-seçkilik siyasətinə müəllif öz münasibətini bildirərək yazır: “Təəssüflər olsun ki, Ermənistanda azərbaycanlılar yüz min bəhanələrlə sıxışdırılıb, təhqir edilib və alçaldılaraq qovulduqları bir vaxtda, Azərbaycanda erməni millətindən olan şəxslərin respublika həyatının bütün sahələrində geniş əl-qol açmaları üçün hər cür şərait yaradılmışdı. İllər boyu Azərbaycanda ermənilər bütün səviyyələrdən olan rəsmi hökumət və ictimai vəzifələrdə gen-bol təmsil olunmuşlar. Onlar Azərbaycan KP MK və Bakı Komitəsinin katibləri (hətta birinci katibləri), Azərbaycan Mərkəzi İcraiyyə komitəsi, Ali Soveti, Xalq Komissarları Soveti, Nazirlər Sovetində müavin, şöbə müdirləri, nazir, komitə sədrləri, idarə rəhbərləri və başqa mühüm vəzifələrdə işləmişlər. Bütün bunlar onun nəticəsidir ki, Sovet hakimiyyətinin ilk illərindən Azərbaycan rəhbərliyi tərəfindən ermənilərin bütün hərəkətlərinə göz yumulub, onların qarşısını almaq üçün heç bir ciddi tədbir görülməmiş, SSRİ rəhbərliyi tərəfindən isə ermənilərə lazımi şərait yaradılmışdır.” (330,s.96)

Tarixşünaslığın təhlili sübut edir ki, Azərbaycana rəhərlik etmiş şəxslərin fəaliyyəti ilə bağlı tarixçilər çox az kitab və məqalələr yazmışlar. Hətta onların bəzilərinin adı  uzun müddət tarix kitablarından silinmişdir.1946-1990-cı illərdə Azərbaycan rəhbərlik etmiş şəxslər aşağıdakılardır :

M.C.Bağırov (10 dekabr1933-18 aprel (13 iyul) 1953), M.M.Yaqubov (18 aprel 1953-17 fevral 1954), İ.D.Mustafayev (17 fevral 1954-8 iyul 1959), V.Y.Axundov (8 iyul 1959-14 iyul 1969), H.Ə.Əliyev (14 iyul 1969-2 dekabr

1982), K.M.Bağırov (3 dekabr 1982-21 may 1988), Ə.X.Vəzirov (21 may 1988-25 yanvar 1990), A.N.Mütəllibov (25 yanvar 1990-6 mart, 14-15 may 1992)

Bu siyahıda bəzi şəxslərin qarşısında eyni zamanda bir neçə tarixin yazılması həmin dövrün mürəkkəbliyindən irəli gəlmişdir. Qərb ölkələrinin rəhbərləri müharibədən sonra sovet rəhbərləri ilə rəsmi danışıqlarda Kommunist Partiyasının rəhbəri ilə deyil, dövlət və hökümət başçıları ilə görüşmək istədiklərini şərt kimi irəli sürürdülər. Çünki, sovet dövlətinin siyasi sistemində sovetlər hakimiyyət forması kimi qəbul olunduğundan onlar partiya rəhbəri ilə deyil dövlətin rəhbəri ilə rəsmi görüşlərə razılıq verirdilər. Məhz buna görə də müharibə dövründə İ.V.Stalin qərb ölkə başçıları ilə görüşlərdə partiya rəhbəri kimi deyil, Dövlət Müdafiə Komitəsinin sədri kimi iştirak edirdi. Müharibədən sonra Dövlət Müdafiə Komitəsi ləğv olunduğundan bu ziddiyyəti aradan qaldırmaq üçün İ.V.Stalin partiya rəhbəri olmaqla yanaşı SSRİ Nazirlər Soveti sədri vəzifəsini də öz üzərinə götürdü. Buna uyğun olaraq M.C.Bağırov da 18 aprel 1953-cü ildə Azərbaycan KP MK-nın I katibi vəzifəsindən imtina edərək, Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsini tutdu. Azərbaycan KP MK-nın I katibi vəzifəsinə isə M.M.Yaqubov seçildi. Lakin bu dəyişiklərə baxmayaraq 13 iyul 1953-cü ilə qədər Respublikaya faktiki M.C.Bağırov rəhbərlik etmişdir. Sonrakı illərdə kommunist partiyasının tədricən yenidən hakimiyyəti tam ələ alması, Respublikaya yenidən Azərbaycan KP MK-nın I katibinin rəhbərlik etməsi ilə nəticələnmişdir. Buna görə də sonrakı illərdə Respublikaya rəhbərlik etmiş şəxslərin hakimiyyət illərini dəqiq göstərmək mümkün olub.

Sovet tarixşünaslığında M.C.Bağırovun Azərbaycan Kommunist Partiyasının birinci katibi vəzifəsinə gəlməsi 14 yanvar 1934-cü il tarixi göstərilsə də, əsil həqiqətdə o, AK(b)P MK və Bakı Komitəsinin Birləşmiş Bürosunun 10 dekabr 1933-cü il tarixli iclasının qərarı ilə bu yüksək vəzifəni tutmuşdu.(407,s.8-9)

1946-1953-cü illərin tarixşünaslıq baxımından tədqiqində diqqəti ən çox cəlb edən məsələlərdən biri Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırovun həyat və fəaliyyətinə aid yazılmış kitab və məqalələrdir. Azərbaycana rəhbərlik etmiş şəxslər içərisində M.C.Bağırovun (1933-1953) fəaliyyətinə aid kitab və məqalələr yazmaq sovet dövründə uzun illər yasaq edilmişdi. Hətta 1976-ildə nəşr olunmuş "Azərbaycan Sovet Ensklopediyası" nın I cildində 13

nəfər Bağırov soyadlı şəxs, o cümlədən Bağırov Ruben Xristoforoviç haqqında məlumat verilsə də M.C.Bağırovun adı çəkilməyib.

1946-1950-ci illərin tarixşünaslıq baxımından tədqiqində diqqəti ən çox cəlb edən məsələlərdən biri Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırovun həyat və fəaliyyətinə aid yazılmış kitab və məqalələrdir.(21,31 yanvar 1992;168,14 avqust 1993;204,28 avqust 1988;295,385,20 aprel 1991 və s.) Bu kitab və məqalələrdə müəlliflər 1933-1953-cü illərdə Azərbaycana rəhbərlik etmiş M.C.Bağırovun fəaliyyətinə bir-birindən fərqlənənən, müxtəlif münasibətlər bəsləyiblər.

Məsələn, Ə.Əsədovun "Proses" (M.C.Bağırov və əlaltılarının məhkəmə prosesi haqqında (204,28 avqust 1988), N.Məhərrəmovun "Bağırov və K-0 (M.C.Bağırov)"(385,20 aprel 1991), Ə.Hacıyev "Ölmüş şirə təpik vuran çox olar, M.C.Bağırov: siyasi portretinə ştirixlər" (168, 14 avqust 1993), E.İsmayılov 2003-cü ildə rus dilində nəşr olunmuş "Hakimiyyət və xalq. Azərbaycanda müharibədən sonrakı stalinizm (1945-1953)"(573) və s. kitab və məqalələrdə M.C.Bağırovun fəaliyyətinə ziddiyyətli yanaşmalar özünü büruzə verir. Bu yazılarda müxtəlif subyektiv mülahizələr üstünlük təşkil etdiyindən və hər bir müəllifin mövzuya aid öz münasibətini ön plana çəkildiyindən bunlara münasibət də birmənalı deyil.

M.C.Bağırov tərcüme-halı aşağıdakı kimidir:

"M.C.Bağırov 1896-cı ildə Quba şəhərində anadan olmuşdur. İbtidai məktəbi bitirdikdən sonra Petrovski (indiki Mahacqala) şəhərində pedoqoji kursda təhsilini davam etdirmişdir. 1915-ci ildən sonra Xudat stansiyasındakı kənd məktəbində müəllim işləmiş və daha sonra Qubada ibtidai məktəbə müdirlik etmişdir. 1917-ci il fevral burjua inqilabına qədərki dövr M.C. Bağırovun fəaliyyətinin ən mürəkkəb dövrüdür və bu dövr haqqında məlumat çox azdır.

M.C.Bağırov bir müddət Qızıl orduda müxtəlif rəhbər vəzifələrdə çalışmış, vətəndaş müharibəsi cəbhələrində vuruşmuşdur. Azərbaycan XI ordu tərəfindən işğal olunduqdan sonra o, Qarabağa Vilayət İnqilab Komitəsinin sədr müavini və Hərbi İnqilab Şurasının müvəkkili vəzifəsinə göndərilib.

1921-ci ilin fevralında M.C.Bağırov Fövqəladə Komissiyanın sədri təyin olunur və on ilə yaxın bu vəzifədə çalışır. 1929-cu ildə Zaqafqaziya Su Təsərrüfatı İdarəsinin rəisi təyin olunur. 1932-ci ildə ÜİK(b)P MK yanında marksizm-leninizm kursunu bitirdikdən sonra əvvəlcə bir müddət ÜİK(b)P MK-nın məsul təlimatçısı

işləmiş, həmin ilin axırlarında isə Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri təyin olunmuşdur. 1933-cü ildə M.C. Bağırov Azərbaycan K(b)P MK və BK-nın birinci katibi seçilib. 13 iyul 1953-cü ildə Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsindən və KP MK-nın büro üzvlüyündən azad edilib.(407,s.48-49)

Azərbaycan KP MK və Bakı komitəsinin birgə VI plenumunda (12-13 iyul 1953-cü il) M.C.Bağırov vəzifəsindən azad edildi. Həmin plenumda 989 nəfər, demək olar ki, respublikanın əksər rəhbər işçiləri iştirak ediblər.

Plenumdan sonra M.C.Bağırov bir müddət Kuybışev neft birliyində rəis müavini işləyib. Lakin tezliklə həbs edilərək Bakıda 12-26 aprel 1956-ci il tarixdə keçirilən məhkəmədə ölüm cəzasına məhkum edilib. Onun həbsi əhali tərəfindən birmənalı qarşılanmayıb və hətta bəzi etiraz aksiyalarına da səbəb olub.

C.Həsənlinin "Azərbaycan milli məsələ: həqiqətlər və müəmmalar (1956 -1959)" ("525 - ci qəzet" 18 fevral 2006) məqaləsində göstərilir ki, 1956-cı ilin mart ayının 9-da Tbilisidə Stalinin heykəlinin yanında keçirilən mitinqdə əsas tələblərdən biri Mikoyanın, Bulqaninin və Xruşşovun vəzifədən kənarlaşdırılması, digəri isə Azərbaycan KP MK-nın keçmiş birinci katibi M.C.Bağırovun həbsdən azad edilməsi idi.

Azərbaycana 20 ilə qədər rəhbərlik etmiş M.C.Bağırovun bir çox səhvləri, günahları və hətta cinayətləri danılmazdır. Repressiya dövründə və sonrakı illərdə yüzlərlə günahsız insanın həbsxanalara salınması, məhv edilməsi faktlarını inkar etmək mümkün deyil. Lakin bu cinayətlərin rejimin mahiyyətindən doğduğunu və həmin cinayətlərin iştirakçılarının böyük cəza mexanizminin "vintləri" olduğunu da unutmaq olmaz. Həmin mexanizmin işləməsinə mane olmaq istəyən "vitciyin" özünü hansı aqibət gözlədiyini isə izah etməyə etiyac yoxdur. Bu məsələyə müxtəlif yanaşmalar əvvəllər də olmuş, indi də var və çox güman ki, gələcəkdə də olacaq. Sovet dövrünün tələblərinə uyğun olaraq M.C.Bağırovun günahsız insanlara qarşı repressiyalara rəhbərlik etməsi, milli, dini dəyərlərə qarşı mübarizə aparmasına aid çoxlu sayda faktlar var. Məsələn, 1951-ci ildə AK(b)P XVIII qurultayında M.C.Bağırov 1300 ildən artıq tarixə malik "Kitabi-Dədə Qorqud" dastanını millətçilik zəhəri ilə dolu bir kitab kmi qiymətləndirərək, ziyalıları məsuliyyət hissini itirməkdə ittiham edib.(204, 26 may 1951)

Kommunist Partiyası rəhbərlərinin bu cür çıxışları sovet tarixşünaslığına istiqamət vermiş və tarixçilər bu çıxışlarda səslənən fikirləri öz kitab və

məqalələrində daha da inkişaf etdiriblər. Lakin sonrakı illərdə Dədə Qorquda münasibət dəyişdiyindən bu fikirləri tənqid edən burjua tarixçilərini saxtakarlıqda ittiham etməyə başlayıblar. Məsələn, F. Köçərli və R. Qurbanov öz məqalələrinin birində yazırlar:"Antikommunizm SSRİ-də "Dədə Qorqud", "Manas", "Koroğlu", "Alpamış" və başqa mədəni abidələrə mənfi münasibət olması barədə 70-80-ci illərdə daha çox yazır, müxtəlif yalanlar uydururdular. Əhməd Qaraca "Azərbaycan" qəzetinin 1980-ci il tarixli 234-cü sayında yazırdı: "Dədə Qorqud" eposunu irtica və dərvişlik rəmzi kimi tanıtmaq istəyirlər, ruslar tariximizin dərinliklərinə belə göz dikmişlər. Dədə Qorqudluğumuzu da məhkum etmişlər."(65, № 1,1986, s.3-11)

Sovet alimləri əhalinin hətta öz yaxın tarixi haqqında da obyektiv məlumata malik olmamasından sui-istifadə edərək 1951-ci ildə M.C.Bağırovun Dədə Qorqud haqqında dediyi fikirlərə obyektiv münasibət bildirmiş burjua alimlərinin irəli sürdükləri faktları 1986-cı ildə əsassız olaraq təkzib etməsi sovet tarixşünaslığının istifadə etdiyi metodlardan biri idi.

Son vaxtlara kimi M.C.Bağırovun fəaliyyəti əsasən birtərəfli tədqiq olunub. Lakin faktlar göstərir ki, onun fəaliyyətində müsbət cəhətlər də az olmayıb.

1933-cü ildə M.C.Bağırovun Azərbaycana rəhbər təyin olunmasının və bu vəzifədə erməni Rubeni əvəz etməsinin bir sıra pozitiv cəhətlərini görməmək mümkün deyil. Fikrimizcə, dövrün ziddiyyətlərinə baxmayaraq bu təyinat respublikanın həyatında müəyyən mənada müsbət rol oynayıb. Əgər repressiyaların tüğyan etdiyi illərdə M.C.Bağırovun yerinə erməni Ruben Azərbaycana rəhbəlik etmiş olsaydı çox güman ki, faciələrin miqyası daha geniş olar, müharibə dövründə digər müsəlman xalqlarla birlikdə Azərbaycan xalqının elliklə Orta Asiyaya, Qazaxstana sürgün olunması və Azərbaycan xalqı əleyhinə çevrilmiş bir sıra digər təxribatlar reallaşardı. Onda da Cənubi Qafqazın indiki etnik və siyasi vəziyyəti tamam başqa cür olardı. Yəni Göyçə, Zəngəzur və digər torpaqlarla yanaşı, bütünlükdə vətənin itirilməsi təhlükəsi yarandığından indiki müstəqil Azərbaycan Respublikasının mövcudluğu da mümkün olmazdı. Deməli M.C.Bağırovun Azərbaycan xalqını sürgündən qurtarmaq kimi tarixi xidməti müəyyən mənada həm də gələcək dövlətçiliyin qorunub saxlanmasında müəyyən rol oynamışdır.(407, s.50 )

M.C.Bağırovun fəaliyyəti dövründə diqqət çəkən məqamlardan biri onun

şəxsi mənafeyi üçün vəzifədən su-istifadə etmək hallarına yol verməməsi idi. Buna görə onun rəhbərliyi dövründə dövlət əmlakını mənimsəmək, rüşvətxorluq halları geniş kök ata bilməmişdi. Onun rəhbərliyi dövründə əgər hansısa məmur sui-istafadə hallarına yol verirdisə, ona qarşı ciddi tədbirlər görülürdü. Məsələn, 1948-ci ildə SSRİ dövlət nəzarəti nazirliyi, 26 Bakı komissarlarından biri olmuş Məşədi Əzizbəyovun oğlu Əzizağa Əzizbəyovun öz vəsifə səlahiyyətlərindən sui-istifadə etməsi, Abşeron yarımadasında 7 hektar kolxoz torpağını mənimsəyərək Bakının Şüvəlan kəndindəki bağına birləşdirməsi haqqında faktı aşkara çıxarmışdı. Bundan başqa müəyyən edilmişdir ki, Ə.Əzizbəyov həmin ərazidə meyvə-tərəvəz yetişdirib satdıraraq böyük gəlir əldə etmiş, dövlət hesabına böyük ev və hövuz tikdirmişdi. Məhz buna görə Ə.Əzizbəyov nəinki işdən çıxarılmış, hətta kommunist partiyası sıralarından qovulmuşdu.(573,s.131)

1993-cü ildə ilk dəfə olaraq 120 səhifəlik "Mir Cəfər Bağırovun məhkəməsi (Arxiv materialları)" kitabının nəşr olunması Azərbaycana 20 il rəhbərlik etmiş bir şəxsin fəaliyyəti haqqında faktiki məlumatlar əldə edilməsinə imkan verdi.

Kitabın 114-115-ci səhifəsində M.C.Bağırovun aşağıdakı sözləri yazılıb: "O illər Azərbaycan XDİK orqanları tərəfinlən həbs olunmuş partiya-sovet fəallarının sayının bu qədər çox olması mənə indi aydın olur… Mənim əsas səhvim odur ki, Beriyaya və onunla bağlı olan…Sumbatov, Broşev, Qriqoryan, Mapkapyan və başqalarına göz yummuşam, onların iç üzünü tanımamışam.

Mən onlara inanaraq XDİK orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqın qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq azdır, məni şaqqalamaq, parça-parça eləmək lazımdır."

Lakin kitabda M.C.Bağırova qarşı irəli sürülmüş bir sıra ittihamlar sovet rejimi üçün cinayət hesab olunsa da, fikrimizcə müstəqil Azərbaycan dövlətçiliyi baxımından təqdir edilməli hərəkətlərdəndir. Məsələn, M.C.Bağırovun Azərbaycan Xadq Cümhuriyyəti dövründə müxtəlif vəzifələrdə çalışmış Əli bəy Zizinskini, Bəybala Alpanskini, Hacıbala Məmmədyarovu, Əziz Məşədi Hüseyn oğlu Əzizovu, Məmməd Hacıyevi, Əbil Qasım Rüstəmovu, Məmməd Aslan oğlu Sarıcalinskini, Müsavat əksinqilab şöbəsi sədrinin arvadı Şıxzamanovanı, Qiyas bəy Cahandar bəy oğlu Şıxlinskini və digər şəxsləri müdafiə etməsi ilə bağlı irəli sürülən ittihamlar bu qəbildəndir.

E.İsmayılovun sovet dövründə nəşr olunmuş kitab və məqalələri ilə

yanaşı, son illər müharibədən sonrakı dövrün ictimai-siyasi tarixinə aid yazdığı kitab və məqalələr dövrün tədqiqi üçün mühüm əhəmiyyət kəsb edir. Onun "M.C. Bağırov:siyasi portretin bioqrafik detalları"("Zerkalo" qəz.,3 iyun 1999), "İctimai əhval-ruhiyyə haqqında gizli arxiv sənədləri (1945-1953-cü illər)" ("Kaspian Krossroud" jurnalı, 5-ci cild, 3№-li buraxılış, 2003-cü il. Vaşinqton, ABŞ), "Qəmli yubiley ərəfəsində" (87, №1,2006) məqalələri və "Hakimiyyət və xalq. Azərbaycanda müharibədən sonrakı stalinizm" (1945-1953-cü illər), "Azərbaycan: 1953-1956. "Yumşalmanın" ilk illəri" kitablarında (573,574) sovet tarixşünaslığında olmayan çoxlu sayda faktlar öz əksini tapıb.

E.İsmayılovun "Hakimiyyət və xalq. Azərbaycanda müharibədən sonrakı stalinizm (1945-1953)" kitabında (573) M.C.Bağırovun fəaliyyətinin digər cəhətləri ilə yanaşı müsbət cəhətlərini də tədqiq olunub. M.C.Bağırovun 1945-ci ildə DQMV-nin Ermənitstana verilməsini tələb edənlərə və Azərbaycana qarşı ərazi iddiası edən gürcü millətçilərinə tutarlı cavablar verməsi, erməni saxtakarlarının azərbaycanlılara qarşı irəli sürüdüyü təxribatların qarşısının alması, 1946-cı ildə Cənubi Azərbaycandan sovet qoşunlarının çıxmasına etiraz etməsi, Kerç ətrafında minlərlə azərbaycanlıların ölümü ilə nəticələnmiş səhv hərbi əməliyyatdan sonra Stalinin ən çox etibar etdiyi generallardan olan Mexlisin onun təkidi ilə vəzifədən azad edilməsi, Böyük Vətən müharibəsi illərində milli diviziyaların təşkili və s. müsbət işləri buna misal ola bilər.

Kitabda qeyd olunur ki, 1945-ci ilin noyabrında Ermənistan Kommunist Partiyasının rəhbərliyi İ.Stalinə məktubla müraciət edərək yenidən Dağlıq Qarabağ məsələsini qaldırıb və bu ərazinin Ermənistana verilməsini tələb edib. İ.Stalin həmin məktubu tanış olmaq və təklif vermək üçün G.M.Malenkova, o, da M.C.Bağırova göndərib. M.C.Bağırov cavab məktubunda aşağıdakıları bildiririb:"...ÜİKP(b)P MK-nın nəzərinə çatdırmağı zəruri hesab edirik ki, DQMV-nin Etmənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, Ermənistan SSR-in Azərbaycan Respublikasına bitişik olan və əsasən azərbaycanlıların məskunlaşdığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır... Gürcüstanlı yoldaşlar Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarının Gürcüsitan SSR-in tərkibinə daxil edilməsi məsələsini qoyurlar. Göstərilən rayonlarda əhalinin ümumi sayı 79 min nəfərdir ki, bunlardan cəmi 9 min nəfəri gürcü-ingiloylardan ibarətdir. Gürcüstan SSR-

in demək olar ki, yalnız azərbaycanlıların yaşadığı və Azərbaycan SSR-ə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır. Nəhayət, biz Dağıstan SSR-in keçmişdə Azərbaycanın bir hissəsi olan, Bakı quberniyasının tərkibinə daxil olan və hazırda Azərbaycan SSR-ə bitişik Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxmağınızı xahiş edirik." (573)

1947-ci ildə yenidən Azərbaycanın gürcü, ingiloy əhalisi arasında separatçı təbliğatın aparılması haqqında xəbərlər daxil olan kimi təcili həmin rayonlara Azərbaycan rəhbərliyinin göstərişi ilə səlahiyyətli komissiya göndərilib. Komissiya Azərbaycan və gürcü xalqları arasında düşmənçilik ideyalarını yayan gürcü Patriarxının nümayəndəsi və Gürcüstan Nazirlər Sovetinin provoslav kilsə şurasının səlahiyyətli nümayəndəsi Aleksey Natadzenin təcili olaraq Azərbaycan ərazisindən çıxarılmasına nail olub. Stalin və Beriyanın gürcü olmasından çəkinməyərək M.C.Bağırovun məsələyə bu cür kəskin reaksiya verməsi onun fəaliyyətinin müsbət hissəsinə aid edilə bilər. M.C.Bağırov belə çətin bir vəziyyətdə Gürcüstan K(b)P MK-nın birinci katibi Q.Çarkvianiyə məktub göndərərək antisovet təbliğat üstündə məhkum olunmuş və bu cür təbliğatla məşğul olan şəxslərin həmin rayonların məktəblərinə işləmək üçün göndərilməsinə son qoyulmasını da xahiş etmişdi.

M.C.Bağırov yuxarıda qeyd olunan təxribatların qarşısını ala bilsə də, 1948-1953-cü illərdə Ermənistanda yaşayan soydaşlarımızın deportasiya olunmasının qarşısını ala bilmədi. Lakin buna baxmayaraq müharibədən sonrakı illərdə o, erməni saxtalaşdırıcılarının xalqımıza qarşı irəli sürdükləri ideoloji təxribatların dəf edilməsi sahəsində mühüm işlər görmüşdür. Bu dövrdə ermənilər M.C.Bağırova xoş gəlmək üçün ona şeirlər qoşmuş, Qafan seçki dairəsindən SSRİ Ali Sovetinə deputatlığa namizədliyini irəli sürmüşdülər. M.C.Bağırov bütün bu erməni hiyləgərliyinin arxasında nələrin gizləndiyini dəqiq bilir və onların məkrli niyyətlərinə qarşı barışmaz mübarizə aparırdı.

E.İsmayılovun kitabında buna aid bir sıra faktlar var. Məsələn, M.C. Bağırov 1946-cı ildə Marietta Şaqinyanın "Sovet Zaqafqaziyası" kitabının yenidən nəşrinə etiraz edərək, kitabın yığışdırılması tələbi ilə ÜİK(b)P MK-nın katibi A. Jdanova yazılı müraciət edib. Bundan sonra kitab yığışdırılaraq erməni yazıçısından izahat tələb olunub. Bundan sonra erməni yazıçısı Azərbaycan SSR

Nazirlər Soveti sədrinin müavini Mirzə İbrahimova məktub göndərərək səhvlərini etiraf edib və Azərbaycan xalqına dost münasibəti bəslədiyini bildirib. Bundan başqa M.C.Bağırovun göstərişi ilə Xolopovun 1947-ci ildə Moskvada nəşr olunmuş "Buxtada alov" kitabına da etiraz bildirilib. Kirovun Azərbaycandakı fəaliyyətinə həsr olunan bu kitabda bir nəfər də azərbaycanlı müsbət qəhramanın olmaması, əsas mərkəzi fiqurun erməni olması və azərbaycanlıların ermənilərin qaniçəni kimi ittiham olunması M.C.Bağırovun etirazına səbəb olmuş və bu barədə ÜİK(b)P MK-nın katibi G.Malenkova məktub göndərilmişdi. Bundan başqa 1951-ci ildə Azərbaycan KP MK Ermənistan KP MK-ya məktub göndərərək Martirosov familiyalı şəxsin "Bakıda 1918-1919-cu illərdə ingilis işğalı" mövzusunda yazdığı dissertasiyada böyük elmi və siyasi səhvlər olduğu üçün bu işin müdafiəyə buraxılmasına etiraz da etmişdi. Məktubda bildirilirdi ki, bu iş Azərbaycan Dövlət Universiteti tərəfindən rədd edildikdən sonra Yerevan universitetində müdafiə üçün qəbul edilməsi yolverilməzdir. Bu xəbərdarlıqdan sonra Ermənistan KP Azərbaycan tərəfinin etirazını qəbul etməyə və bu barədə Ali Attestasiya Komissiyasına xəbər verməyə məcbur olmuşdu. (573)

E.İsmayılovun "Azərbaycan: 1953-1956. "Yumşalmanın" ilk illəri" kitabı (574) diqqəti cəlb edir. Kitab ön söz, doqquz fəsil və nəticədən ibarətdir.

Kitabın əvvəlində müəllif, Stalin dövründə formalaşmış, cəmiyyətin bütün sahələrini dövlət inhisarına alınmasını nəzərdə tutan prinsipləri aşağıdakı kimi qeyd edir:

1. Siyasi həyatın bir partiya, kommunist partiyası tərəfindən inhisara alınması;
2. Mülkiyyət üzərində dövlət inhisarının bərqərar olması;
3. Cəmiyyətin mənəvi aləminin bir ideologiya tərəfindən inhisara alınması.

İtalyan müəllifi C.Boffanın fikirlərinə istinadən müəllif qeyd edir ki, heç bir ölkə bu cür gərgin vəziyyətə tab gətirə bilməz və Sovet İttifaqı da tab gətirə bilmədi.

Kitabın "Stalinin ölmündən Bağırovun kənarlaşdırılmasına qədər" adlanan birinci fəslində müəllif qeyd edir ki, M.C.Bağırovun Stalin və Beriyanın xüsusi himayəsi altında olması ona imkan verirdi ki, Sov.İKP və hökümət funksionerlərinin mane olmaq istədiyi məsələləri özünün və respublikanın xeyrinə həll etsin. Ona qarşı

hər hansı kampaniyaya edilən cəhdlər uğursuzluqla nəticələnirdi. Məsələn, SSRİ dövlət nəzarəti naziri L.Mexlisin rəhbərliyi ilə Azərbaycan SSR Nazirlər Sovetində aparılmış kompleks yoxlamalardan sonra respublikadakı vəziyyət haqqında mənfi xarakterli arayışın Stalin qarşısında Bağırov tərəfindən təkzib edilməsi və digər tərəfin bundan ziyan çəkməsi deyilənləri sübut edir. Bütün bunlar rəhbər işçilərdə Bağırova qarşı mənfi münasibət formalaşdırırdı ki, bu da öz təsirini Stalinin ölümü ərəfəsi göstərməyə başlamışdı. Müəllif Moskva arxivlərində əldə etdiyi arayış əsasında göstərir ki, artıq 1952-ci ildən Stalinin Bağırova münasibəti dəyişməyə başlamışdı. Həmin arayış Azərbaycan sakinlərinin respublikada mövcud olan problemlər barədə 1952-ci ildə "Pravda" qəzetinə yazdıqları məktublar əsasında, 26 səhifədən ibarət tərtib olunmuşdur ki, bu problemlər aşağıdakı başlıqlarla verilmişdi:

1. Partiya işi və rəhbər kadrların seçilməsi haqqında;
2. Fəhlələrə mənzil-məişət xidməti haqqında;
3. Ticarət və ticarət təşkilatlarının fəaliyyəti haqqında;
4. Bəzi kolxozlarda işin vəziyyəti haqqında;
5. Əhaliyə tibbi xidmət haqqında.

Arayışda qeyd olunur ki, 1952-ci ildə "Pravda qəzetinə Azərbaycan sakinlərindən 2190 məktub daxil olmuşdur. Bunlarda da respublikadakı çatışmazlıqlar öz əksini tapmışdır.

Müəllif Stalinin ölmündən az sonra Bağırov və Beriyanın Azərbaycan Xalq Cümhuriyyəti dövründəki fəaliyyəti ilə bağlı faktların toplanmasına başlanıldığını qeyd edir. Kitabda Bağırov əleyhinə başlanan kampaniyada ermənilərin mühüm rol oynamasına aid də faktlar var. Məsələn, tibb xidməti podpolkovniki Petrosyan M.C.Bağırov haqqında deyirdi: "Ağaları tıxac kimi uçduğundan azərbaycanlılar burunlarını aşağı dikiblər, artıq ermənilər rahat nəfəs ala bilərlər. Onun erməniləri hər addımda izləməsi sirr deyil, onun siyasəti müsavat siyasətindən heç nəyi ilə fərqlənmirdi." Digər erməni, Əskəran sakini Qabrielyan isə qeyd edirdi ki, "Bağırov hər vəchlə erməniləri sıxışdırır, bütün rəhbər işçiləri işdən çıxarırdı. Bakıda o, erməni dram teatrını ləğv etmişdi."

Bu dövrdə "yumşalmanın" təsiri ilə SSRİ Ali Soveti Rəyasət heyətinin qərarı ilə elan olunmuş aministiya Azərbaycanda da həyata keçirilmişdi. M.C.Bağırova Daxili Işlər naziri Yemelyanovun, Ədliyyə naziri Əlməmmədovun

və respublika prokuroru Rəhimovun 3 aprel 1953-cü il tarixli məruzələrində respublika ərazisində 21509 adamın aministiyaya düşdüyü, onlardan da 14184 nəfər məhbusun azad edilməsi göstərilirdi. Azad edilənlərdən 8509 azərbaycanlı, 2836 rus, 1703 erməni, 1136 nəfər isə digər millətlərin nümayəndələri idi.

Kitabda sovet tarixşünaslığında əksini tapmayan maraqlı faktlardan biri kitabxanalarda və kitab mağazalarında 1954-cü ilə kimi qalmış bir sıra kitabların Stalinin ölmündən sonra da siyasi cəhətdən ziyanlı hesab edilərək yığılması faktıdır. Bu fakt özlüyündə bir sıra mətləblərə aydınlıq gətirir. Stalin dövrünün repressiyalarına, qadağalarına baxmayaraq kitabxanalarda milli ruhlu əsərlərin 1954-cü ilin sonlarına qədər qalması həmin əsərlərin cəmiyyət üçün dəyərli olduğunu bir daha sübut edir. Bundan başqa yığışdırılması nəzərdə tutlan kitabların siyasi cəhətdən ziyanlı olmasının elmi şəkildə əsaslandırılmaması sovet orqanlarının Stalindən sonra da köhnə metodlarla işləməsindən xəbər verir.

Azərbaycan SSR-in yeni daxili işlər naziri Quskov 18 sentyabr 1954-cü ildə Azərbaycan KP MK-nın birinci katibi Mir Teymur Yaqubova məktub göndərərək kitabxanalarda siyasi cəhətdən ziyanlı kitabların olması haqqında məlumat vermişdi. O, həmin kitabların sosialist cəmiyyəti üçün ziyanılı cəhətlərini qeyd edərək, onların dərhal yığışdırılmasını təklif etmişdi. Bundan sonra Azərbaycan KP MK-nın 9 oktyabr 1954-cü il tarixli iclasında bununla bağlı qərar qəbul olunmuşdu. Siyasi cəhətdən ziyanlı hesab edilən kitablardan biri Abdulla Şaiq və Mahmudbəy Mahmudbəyovun tərtib etdikləri "Müntəxabat. Türk yazıçılarının əsərlərindən nümunələr" (Bakı 1919) kitabı idi. Həmin kitabda Əhməd Cavad və Hüseyn Cavidə aid materialların olması əsas göstərilirdi. Bundan başqa Əli Razi, Əli bəy Hüseynzadə,Yaqub Əliyev, İldırım Almaszadə, Axund Yusif Talıbzadə, Mirzə Abdul Xalık Axundov, Məhəmməd Biriya, Ələkbər Heydərli, Heydər Hüseynov, Adilxan Ziyadxanov, Mizə Bala Məmmədzadə, Hüseynbəy Mirzəcamalov, Məmməd Murad Muradov, Məmməd Orxanbəyli, Mahmud Səttar oğlu, Süleyman Sultanov, Neymət Kamal Zahid və başqalarının adları olan 21 müəllifin kitablarının yığışdırması haqqında qərar qəbul olunub. Məmməd Orxanbəylinin kitabının tibbə, Süleyman Sultanovun kitabının baytarlığa aid olmasına baxmayaraq bu kitablar da müəlliflərinə görə siyasi cəhətdə ziyanlı hesab edilib.

Kitabda həmçinin M.C.Bağırov və tərəfdarlarının həbsi ilə bağlı yeni

faktlar öz əksini tapıb.

A.Ə.Paşayevin "Ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (XIX-XX əsrlər)" kitabının(330) III fəslinin ç) bölümü "İkinci dünya müharibəsindən sonra ermənilərin ərazi iddialarının daha da gücləndirilməsi" adlanır. Kitabda qeyd olunur ki, "1943-cü ildə üç dövlət başçılarının Tehran konfransı zamanı, erməni diasporu həmişə olduğu kimi yaranmış fürsətdən məharətlə istifadə edir. Onlar İ.Stalindən İranda yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsinə razılıq ala bilirlər...1945-ci ilin aprelində bütün dünya ermənilərinin ali patriarx-katolikosunun müavini Georq Georokiyan ərizə ilə İ.Stalinə müraciət edərək dünya ermənilərinin müqəddəs dini mərkəzi olan Eçmiadzin monastırının fəaliyyətinin bərpasına icazə verilməsi və bununla bağlı tədbirlərin həyata keçirilməsi üçün razılıq istəyir. Onun məktubu üzərində İ.Stalin öz dəst-xətti ilə aprelin 19-da belə bir dərkənar qoyur: "Razıyam. SSRİ Xalq Komissarları Sovetinin sədri İ.Stalin". İ.Stalinin bu səxavətindən ruhlanan Ermənistan K(b)P MK-nın birinci katibi Q.Harutyunov 1945-ci ilin noyabrında heç bir əsaslı səbəb göstərmədən İ.Stalinə məktubla müraciət edərək, Dağlıq Qarabağı Ermənistan SSR-ə birləşdirməyi xahiş edir. Həmin məktub cavab üçün Azərbaycan rəhbərliyinə göndərilir. Dağlıq Qarabağın tarixi və əzəli Azərbaycan torpaqları olması haqqında ətraflı və əsaslandırılmış məlumat verən M.C.Bağırov öz məktubunun sonunda bildirirdi ki, Şuşa rayonu istisna olmaqla, Azərbaycan həmin təklifə etiraz etmir, bu şərtlə ki, Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR-də əsasən azərbaycanlılar yaşayan, Azərbaycanla həmsərhəd olan və tarixən Azərbaycanın ayrılmaz hissəsi olmuş ərazilər də Azərbaycan SSR-ə qaytarılsın. Beləliklə də bu məsələyə son qoyulur və ermənilərin xahişi nəticəsiz qalır." (330,s.73-74)

Teyyub Qurbanın 2006-cı ildə nəşr olunmuş "Düşmənlərindən güclü şəxsiyyət. Mir Cəfər Bağırov haqqında məqalələr toplusu" kitabı digər kitablardan köklü surətdə fərqlənir. "Kitabda M.C.Bağırovun çoxcəhətli siyasi fəaliyyəti arxiv sənədləri əsasında şərh edilir, Kremlin daşnak-rus hakimlərinin göstərişi ilə 1956-cı ildə qurulmuş qondarma məhkəmənin bütün ittihamları ifşa olunur. Müəllifin fikrincə, M.C.Bağırov Azərbaycan xalqının ən nəhəng və əyilməz tarixi şəxsiyyətlərindəndir" kimi əvvəldə yazılmış cümlələr müəllifin kitabda M.C.Bağırovun yalnız müsbət cəhətlərini önə çəkdiyini açıq aydın göstərir.

Kitabda toplanmış "Düşmənlərindən güclü şəxsiyyət", "Bağırov körpüsü", "Mir Cəfər Bağırov fenomeninin saxtalaşdırılması davam edir", "Azərbaycanda ermənilər", "Mir Cəfər Bağırov dövründə və sonralar", "Marietta Şaginyanın əlyazmasına Mir Cəfər Bağırovun münasibəti və...", " Nağıl həqiqət deyil", "Hökm çıxarırsan, dəlilin hanı?", "Bakı metrosu Mir Cəfər Bağırovun adı ilə bağlıdır", ""Arsax sıyığı" statusa malikdir", "Ərəb əlifbası ilə yazılmış məktubda M.C.Bağırovun dərkənarı", "Mir Cəfər Bağırovun varidatı", "Mir Cəfər Bağırov arxiv sənədlərində", "Kələfin ucu necə açılır", "Mir Cəfər Bağırov: Yalan və həqiqətlər" başlıqlı müxtəlif qəzetlərdə çap olunmuş yazılar da bunu sübut edir.

M.C.Bağırova münasibət hazırda da ziddiyyətli, müxtəlif olaraq qalır. Buna görə də M.C.Bağırov və digər tarixi şəxslər barədə tədqiqatlar davam etdirilməli, onlara münasibətdə uzun illər mövcud olmuş birtərəfli yanaşmalardan əl çəkilməli, onların səvləri ilə yanaşı faliyyətlərinin müsbət cəhətləri də dərindən öyrənilməlidir.

Sovet tarixşünaslığında öz əksini tapmayan məsələlərdən biri də 18 aprel 1953-17 fevral 1954-ci illərdə Azərbaycanda rəhbər vəzifədə olmuş Mir Teymur Mir Ələkbər oğlu Yaqubovun ictimai-siyasi fəaliyyətidir. Bu vaxta qədər nəşr olunmuş əksər kitab və məqalələrdə M.C.Bağırovdan sonra Respublikaya İ.Mustafayevin rəhbərlik etdiyi göstərilib. Lakin tarixi faktlar göstərir ki, M.C.Bağırovdan sonra Azərbaycana İ.Mustafayev deyil, M.M.Yaqubov başçılıq etmişdir.

Uzun illər Azərbaycan tarixinə dair ən sanballı kitab hesab olunan, Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən, akademiklər İ.A.Hüseynov, M.A.Dadaşzadə, Ə.S.Sumbatzadə, Z.İ.İbrahimov və digər tanınmış tarixçilərin redaktorluğu ilə 1963-cü ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabının III cildinin ikinci hissəsində M.C.Bağırovdan sonra Azərbaycan KP MK-ya rəhbərlik etmiş M.T.Yaqubov və İ.Mustafayevin adları ümumiyyətlə çəkilmir. Təəssüf ki, bu dövrə aid nəşr olunmuş kitablar içərisində ən sonuncusu olan, 2003-cü ildə nəşr olunmuş "Azərbaycan tarixi" toplusunda da M.M. Yaqubovun adına rast gəlinmir. (407,s.55)

M.M.Yaqubovun fəaliyyəti tədqiq olunmadığına görə onun haqqında elmi ədəbiyyatda məlumat çox azdır. Lakin sovet dövrü mənbələrinin tədqiqi əsasında Azərbaycanda uzun illər müxtəlif rəhbər vəzifələrdə çalışmış, 10 ay

Azərbaycan KP MK-ya rəhbərlik etmiş M.M.Yaqubov haqqında məlumat əldə etmək mümkündür.

M.M.Yaqubov haqqında məlumatları əsasən arxiv materiallarından və o zamanın mətbuatından əldə etmək olar. Məsələn, "Vışka" qəzetinin 31 yanvar 1946-cı il tarixli sayında SSRİ Ali Sovetinə deputatlığa namizəd kimi M.M. Yaqubovun şəkli və tərcümeyi-halı verilib:

"Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədr müavini və Daxili İşlər Naziri, general-leytenant Mir Teymur Mir Ələkbər oğlu Yaqubov 1904-cü ildə Bakıda dənizçi ailəsində anadan olub. Onun atası Xəzər dənizində adi dənizçidən gəmi kapitanına kimi çətin əmək yolu keçmişdir. 1919-cu ildən Teymur Yaqubov müstəqil əmək fəaliyyətinə başlayıb.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 16 yaşlı Mir Teymur Yaqubov Bakı Sovetinə işə düzəlib. O burada 1926-cı ilə kimi işləməklə yanaşı fəhlə fakultəsində də təhsilini davam etdirib.

1923-cü ildə Yaqubov komsomola, 1927-ci ildə isə ÜİK(b)P üzvülüyünə daxil olub. Fəhlə fakultəsini bitirdikdən sonra Azərbaycan K(b)P onu Moskvaya torpaqşünaslıq üzrə ali təhsil almağa göndərib. 1930-cu ildə institutu bitirən Mir Teymur Yaqubov ən yaxşı məzunlarından biri və fitri istedada malik tələbə kimi aspiranturaya qəbul olunur. Onu kənd təsərrüfatı iqtisadiyyatının incəliklərini öyrənmək üçün Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Elmləri Akademiyasına göndərirlər. O, üç ildən sonra müvəffəqiyyətlə aspiranturanı bitirərək, kənd təsərrüfatının təşkili üzrə baş elmi işçi və dosent vəzifəsinə layiq görülür.

Bakıya qayıtdıqdan sonra Yaqubov elmi-pedaqoji fəaliyyətə başlayır. O, Azərbaycan ali kommunist kənd təsərrüfatı məktəbində prorektor və kafedra müdri, torpaqşünaslıq texnikumunda müəllim işləyir. Kənd təsərrüfatına aid bir sıra elmi əsərlər yazır.

Mir Teymur Yaqubov elmi-pedaqoji işi fəal ictimai-siyasi işlə birlikdə aparmışdır. 1934-cü ilin axırlarından Yaqubov partiya işinə keçmiş, 1936-cı ildə isə Azərbaycan LKGİ MK-nın plenumunda Mərkəzi Komitənin birinci katibi seçilmişdir. Elə həmin il o, Azərbaycan K(b)P MK-nın plenum üzvü və büro üzvlüyünə namizəd, bir müddət sonra isə Azərbaycan K(b)P MK büro üzvü seçilmişdir.

1937-ci ilin dekabrında M.M. Yaqubov Bakı şəhər seçki dairəsindən SSRİ

Ali Sovetinin Millətlər Sovetinə deputat seçilmişdir.

1938-ci ildən Mir Teymur Yaqubov Azərbaycan K(b)P MK-nın üçüncü katibi, 1939-cu ildən isə təbliğat məsələləri üzrə katib vəzifəsinə irəli çəkilmişdir. Bu vəzifədə o, 1941-ci ilə kimi, yəni Azərbaycan SSR Daxili İşlər Komissarı vəzifəsinə təyin olunana qədər işləmişdir."

Qəzetdəki məlumatdan belə aydın olur ki, 1946-cı ildə SSRİ Ali Sovetinə deputatlığa namizəd irəli sürülərkən M.M.Yaqubov Azərbaycan Daxili İşlər Komissarı vəzifəsində işini davam etdirmişdi.

Yazıda bu da məlum olur ki, Mir Teymur Mir Ələkbər oğlu Yaqubov Mir Cəfər Bağırovun ən inanılmış kadrlarından olub. Bu məsələdə onun savadı və iş bacarığı həlledici rol oynayıb. O dövrdə M.C.Bağırovla birlikdə işləyənlər arasında həmçinin Nazirlər Sovetinin sədri Teymur Quliyev və Azərbaycan KP MK-nın katibləri Həsən Həsənov, Qəzənfər Məmmədov və Nazirlər Sovetinin sədrinin müavini İslam İslamzadə, MK-nın ikinci katibi Əliəşrəf Əlizadə, Mir Həsən Seyidov və başqa şəxslər də olub.

Mir Teymur Yaqubovu M.C.Bağırovun bacarıqlı kadr kimi müdafiə etməsi şübhəsizdir. Çünki onun bilavasitə etimadı ilə Mir Teymur Yaqubov 1936-ci ildə komsomolun birinci katibi, 1938-ci ildə Azərbaycan K(b) MK-nın üçüncü, 1939-cu ildə təbliğat məsələləri üzrə katibi, 1941-ci ildən başlayraq Daxili İşlər Komissarı vəzifələrinə irəli çəkilmişdir. Bütün bunlar deməyə əsas verir ki, sonradan Mir Teymur Yaqubovun Azərbaycan KP MK-nın birinci katibi seçilməsində də M.C.Bağırovun böyük rolu olub.

Azərbaycan KP MK-nın bürosu 6 aprel 1953-cü il tarixdə M.C. Bağırovu respublika Nazirlər Sovetinin sədri təsdiq etdi. Onun birinci müavini vəzifəsinə hökumətin keçmiş sədri Teymur Quliyev təyin edildi. Müavinlər isə keçmiş birinci müavin Mehbalı Əmiraslanov, Mahmud Rəhimov, Yuvelian Sumbatov-Topuridze və Azərbaycan KP MK katibi vəzifəsindən gətirilmiş Yusif Abdullayev oldular. Göründüyü kimi bu vaxta qədər Azərbaycan SSR Nazirlər Sovetinin sədri olmuş Teymur Quliyev respublikada birinci şəxs statusunda olmayıb. Lakin bu plenumdan sonra vəziyyət dəyişdi və M.C.Bağırov həmin vəzifə ilə respublikanın birinci şəxsi oldu. Həmin plenumda Azərbaycan KP MK-nın birinci katibi Mir Teymur Yaqubov, ikinci katib Vitali Səmədov, katib İmam Mustafayev təsdiq edildi. Bu vəzifəyə irəli çəkilənə qədər Mir Teymur Yaqubov Bakı Vilayət Partya

Komitəsinin birinci katibi vəzifəsində çalışırdı.

Burada sovet dövrünə xas olan daha bir məqamın da aydınlaşdırılmasına ehtiyac var. Moskva daim partyanın Bakı komitəsinə özünün əsas dayağı kimi baxırdı və sənayeyə rəhbərliyi, o cümlədən neft sənayesinə rəhbərliyi ona həvalə etmişdi. Azərbaycan KP-yə isə Bakıdan kənar ərazilərə rəhbərlik etmək tapşırılmışdı. Buna görə də M.C.Bağırov Azərbaycan KP-nin birinci katibi olan kimi həm də Bakı komitəsinin birinci katibi vəzifəsini öz üzərinə götürməyə Moskvadan razılıq almışdı. Bununla o, respublikada tam hakimiyyətə yiyələnmişdi. 1952-ci ildə isə Moskva, respublikada Azərbaycan KP-nin vahid rəhbərliyini zəiflətmək üçün iki yeni struktur yaratdı. Bakı və Cəncə Vilayət partiya komitələrinin yaranması ilə həm də Bakı şəhər partiya komitəsinin birinci katibi vəzifəsi öz əhəmiyyətini itirdi. Buna görə də bu dəyişiklikdən sonra M.C.Bağırov həmin vəzifədən imtina etdi. Bakı Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsinə Mir Teymur Yaqubovun təyin olunması belə bir qənaətə gəlməyə əsas verir ki, o, M.C.Bağırovun yaxın adamı olması ilə yanaşı, həm də Moskvanın M.C.Bağırova alternativ hesab etdiyi bir şəxs olmuşdu. (407,s.59)

1953-cü ilin iyununda Beriyanın gözlənilmədən həbsindən sonra çağrılmış Sov.İKP MK-nın 2 iyul 1953-cü il plenumunda Azərbaycandan M.C.Bağırovla yanaşı Azərbaycan KP MK-nın yeni birinci katibi M.T.Yaqubov və Nazirlər Soveti sədrinin birinci müavini T.Quliyev iştirak etmişlər. Beriyanın həbsi xalqdan və plenum üzvlərindən gizli saxlanıldığından onun uzun müddət gözə dəyməməsi Azərbaycan nümayəndə heyətini narahat etmişdi. M.C.Bağırov Moskvaya çatan kimi M.T.Yaqubov və T.Quliyevin yanında Xruşşov və Malenkova gəlişləri barədə xəbər vermişdi. Sonra Beriya haqqında məlumat əldə etmək üçün SSRİ Neft Sənayesi naziri, Bakılı Baybakova zəng etmişdi. O, isə qeyri müəyyən cavab verərək bildirmişdi ki, Beriya çox güman ki, ezamiyyətdədəir. Daha sonra o, məlumat əldə etmək üçün Mikoyana zəng etsə də ondan da lazımi məlumat ala bilməyib. Bu zənglər barədə Baybakov və Mikoyan Xruşşov və Malenkovu xəbərdar etmişlər. Bu fakt həm 2 iyul 1953-cü il plenumunda, həm də Azərbaycan KP MK və Bakı komitəsinin birgə VI plenumunda (12-13 iyul 1953-cü il) M.C.Bağırova qarşı ittiham kimi səslənmişdir.

Azərbaycan KP MK və Bakı komitəsinin birgə VI plenumunda (12-13 iyul 1953-cü il) M.T.Yaqubov "Sov.İKP MK Plenumunun nəticələri haqqında"

məruzə ilə çıxış etmiş, onun ardınca Sov.İKP MK katibi P.N.Pospelov və daha 24 nəfər danışmışdır. (407,s.60)

M.T.Yaqubov öz məruzəsində ilk növbədə Beriyanın düşmən fəaliyyəti haqqında danışaraq, onun ifşa olunması kampaniyasının vaxtında həyata keçirildiyini qeyd etmiş və bu aksiyanın təşkilatçılarını prinsipial və müdrik rəhbərlər adlandırmışdır.

Bundan sonra M.T.Yaqubov M.C.Bağırovla birlikdə Moskvaya plenuma getdiklərini və onun kimlərlə, hansı mövzuda telefonla danışması barədə ətraflı məlumat vermişdi. Sovet rejiminin qaydalarına uyğun olaraq “yıxılana balta vurmaq” bütün dövrlərində olduğu kimi 50-ci illərdə də mövcud idi. Plenumda M.C.Bağırovun Beriya ilə yaxınlığını gizlətmək mümkün deyildi. Çünki digər məsələlərlə yanaşı, hələ 1949-cu ildə Beriyanın 50 yaşı tamam olarkən M.C.Bağırov Stalindən Bakı şəhəri rayonlarından birinin adının dəyişdirilərək Beriyanın adının verilməsini xahiş etməsi çoxlarının yadında idi. Stalinin hansı səbəbdənsə buna icazə verməməsi həmin məsələnin qarşısını almışdı.

M.T.Yaqubov plenumdakı çıxışında qeyd edir ki, Bağırovun Moskvada keçirilən plenumdakı çıxışı iştirakçıları razı salmamış və ağır təssüratlar yaratmışdı. O, qeyd etmişdi ki, Bağırov plenum üzvlərinə düzgün məlumat verməmiş və bildirmişdi ki, Beriyaya respublika ordenlərinin təsisi ilə bağlı zəng etmişdi. Bundan başqa o, bildirmişdi ki, Bağırov Moskvada olarkən Beriyaya zəng etdiyini və Azərbaycanda sovet hakimiyyəti qurulmasının ildönümü münasibətilə ona ov tüfəngi bağışlamasını da gizlətmişdir.

Bundan sonra M.M.Yaqubov Respublika rəhbərliyinin ünvanına əsasən ümumi xarakterli nöqsanları qeyd edib. Bunlar partiyadaxili demokratiyanın çatışmaması, hər hansı vacib məsələnin müzakirəsindən qabaq dərindən öyrənilməməsi və s. məsələləri əhatə edirdi. M.M.Yaqubov plenumdakı çıxışında Bağırovun əleyhinə elə də bir ciddi ittiham irəli sürməmişdir. Ondan sonra çıxış edən plenum üzvlərinin çıxışlarında da ciddi ittihamlar yox idi. Buradan belə nəticə çıxarmaq olar ki, plenum iştirakçılarının M.C.Bağırovun şəxsiyyətinə böyük hörməti olmuş və yalnız Moskvanın göstərişi ilə məcburən ona qarşı çıxış etmişlər. Moskvada Beriyanın əlehinə olan alovlu çıxışlardan fərqli olaraq Bakıda Bağırovun əleyhinə çıxışlar sönük təsir bağışlamışdı. Bu Pospelovun və M.C.Bağırovun öz çıxışında da hiss olunurdu. Lakin bütün bunlara baxmayraq

Azərbaycan KP MK və Bakı komitəsinin birgə VI plenumu (12-13 iyul 1953-cü il) "M.C.Bağırovun Beriyanın işi ilə bağlı fəaliyyəti partiyaya yaraşmayan hərəkət kimi qiymətləndirilərək, ittiham olunsun" kimi qərar qəbul edərək, onu Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsindən və Azərbaycan KP MK-nın büro üzvlüyündən azad etdi. Onunla yanaşı daxili işlər naziri S.F.Yemelyanov da büro üzvlüyündən azad edildi.(407,s.61) Bununla da hökümətə və o, cümlədən güc nazirliklərinə partiya rəhbərliyi bərpa olundu. Bundan sonra yenidən ölkə, o cümlədən respublikalar üzrə birinci şəxs qismində partiya rəhbərləri çıxış etməyə başladılar.

Sov.İKP MK Rəyasət Heyəti 17 iyul 1953-cü il tarixdə Yaqubov, Quliyev və Bağırovun iştirakı ilə Azərbaycan KP MK və Bakı komitəsinin birgə plenumunun qərarını müzakirə edərək təsdiq etdi. Lakin Moskva bir müddət Bağırovun yaxın adamları hesab olunan M.T.Yaqubov və T.Quliyevə toxunmamağa üstünlük verdi. M.T.Yaqubov Azərbaycan KP MK-nın birinci katibi, T.Quliyev isə Nazirlər Sovetinin sədri vəzifəsində qaldılar. Lakin Beriyaya yaxın olan Nazirlər Soveti sədrinin müavini Sumbatov-Topuridze vəzifəsindən azad edildi.

Moskvadan qayıtdıqdan sonra nisbətən az tərkibdə yenidən 20 iyulda plenum çağırıldı. Plenumda Yaqubov və Quliyev çıxış etdilər. Onların bu dəfəki çıxışlarında əvvəlkindən fərqli olaraq Bağırova qarşı daha kəskin tənqidlər səsləndi. Məruzələr ətrafında cəmi 9 nəfər çıxış etdi.

Bundan sonra M.M.Yaqubov və T.Quliyev 6 ay respublikaya rəhbərlik etmiş və 17 fevral 1954-ci ildə Moskvanın göstərişi ilə vəzifələrindən və partiyadan azad olunmuş, lakin həbs edilməmişdilər.

Mir Teymur Yaqubovun hansı müddətdə Azərbaycana birinci şəxs qismində rəhbərlik etməsini aydınlaşdırmaq üçün aşağıdakı mərhələlərin təhlilinə etiyac var:

- 6 aprel-13 iyul 1953-ci il tarixində M.T.Yaqubov Azərbaycan KP MK-nın birinci katibi olmasına baxmayraq, respublikaya rəhbərliyi Nazirlər Sovetinin sədri M.C. Bağırov etmişdir;

- 13 iyul 1953-17 fevral 1954-ci il tarixlərində Mir Teymur Yaqubov Azərbaycan KP MK-nın birinci katibi kimi respublikaya rəhbərlik etmişdir. Lakin burada bir məsələni də qeyd etmək vacibdir. Bu da ondan ibarətdir ki, sovet sisteminin çatışmazlığı ucbatından bu dövrdə müttəfiq respublikalarda

partiyanın, yoxsa Nazirlər Sovetinin əsas səlahiyyət sahibi olması məsələsi dəqiqləşdirilmədiyindən bütün sənədlərdə M.T.Yaqubovun adı ilə yanaşı Nazirlər Sovetinin sədri Teymur Quliyevin də adı var. Hətta bu dövrü müəyyən mənada Azərbaycanda "ikihakimiyyətlik" dövrü kimi də xarakterizə etmək olar. Lakin sonrakı illərdə bu məsələ yenidən partiya rəhbərliyinin önə çəkilməsi ilə həll olunmuşdu. (407,s.62-63)

M.T.Yaqubovun 6 noyabr 1970-ci ildə 65 yaşında Bakıda vəfat edib. Onun vəzifədən çıxarılıdıqdan sonrakı fəaliyyəti, taleyi barədə yazılı ədəbiyyatda heç bir məlumatın olmaması onun haqqında tədqiqatların bundan sonra da davam etdirilməsini aktuallaşdırır.

M.T.Yaqubovdan sonra Azərbaycan KP MK-nın birinci katibi İmam Daşdəmir oğlu Mustafayev seçildi. O, bu vəzifədə 17 fevral 1954-ci ildən, 8 iyul 1959-cu ilə qədər işləyib. Sovet Ensklopediyasında M.C. Bağırov və M.T. Yaqubov haqqında heç nə yazılmadığı halda İ.D.Mustafayev barədə bəzi məlumatlar var. Bundan başqa İ. Mustafayevin fəaliyyəti haqqında 1970-ci ildə rus dilində nəşr olunmuş "İ.D.Mustafayev. Biblioqrafiya (Azərbaycanın elm və mədəniyyət xadimləri)", O.Mirzəyevin rus dilində 1994-cü ildə nəşr olunmuş "Siyasi portretlər:İmam Mustafayev. Şıxəli Qurbanov. Nazim Hacıyev", X. Balayevin azərbaycan dilində 2002-ci ildə çapdan çıxmış "Azərbaycan dilinin dövlət dili kimi təşəkkül tarixindən" adlı kitablardan və digər kitab və məqalələrdən müəyyən məlumatlar əldə etmək olar. Lakin digər rəhbərlər kimi İ.Mustafayevin də fəaliyyətinin ətraflı, obyektiv tədqiqinə böyük etiyac var. Onun qısa tərcümeyi-halı aşağıdakı kimidir:

İmam Daşdəmir oğlu Mustafayev 25 fevral 1910-cu ildə Qax rayonunda anadan olmuşdur. İxtisasça genetik və seleksiyaçı idi. 1964-cü ildə biologiya elmləri doktoru, 1965-ci ildə professor adına layiq görülmüşdü. Azərbaycan SSR EA akademiki idi. 1940-cı ildən Sov. İKP üzvü olmuşdu.

1934-1940-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda dekan, kafedra müdiri, elmi işlər və tədris hissəsi üzrə direktor müavini, 1940-1954-cü illərdə Azərbaycan SSR dövlət nəzarəti komissarının birinci müavini, Azərbaycan SSR xalq torpaq komissarının birinci müavini, Azərbaycan SSR kənd təsərrüfatı naziri, Azərbaycan KP Gəncə Vilayət Komitəsinin birinci katibi, 1954-1959-cu illərdə Azərbaycan KP MK-nın birinci katibi olmuşdur. 1959-cu ildən sonra

Azərbaycan EA Genetika və Seleksiya İnstitutunda şöbə müdiri vəzifəsində fəaliyyətini davam etdirmiş, 1971-ci ildən həmin instituta rəhbərlik etmişdir.

İ.Mustafayevin elmi tədqiqatları yerli buğda, arpa, çovdar və egilopsların toplanması və öyrənilməsinə, yeni məhsuldar sortların yaradılmasına, Azərbaycanın müxtəlif torpaq-iqlim şəraitində buğdalarda forma və növlərin əmələgəlmə prosesinin tədqiqinə həsr olunmuşdur. O, ilk dəfə egilopsların çovdarla çarpazlaşdırılması nəticəsində cinslərarası fertil hibridlər yetişdirmişdi. İ.Mustafayev "Sevinc", "Cəfəri", "Zoğal-buğda", "Arzu", "Gürgənə-1", "Turanikum-186", "Qızıl buğda", "Turgidum-7" və s. sortları yetişdirmişdir. Bir sıra elmi əsərlərin, o cümlədən 6 monoqrafiyanın müəllifidir. Sov. İKP XIX-XXI, Azərbaycan KP XVII-XXII qurultaylarının nümayəndəsi, SSRİ Ali Sovetinin (III-V çağırışlar) və Azərbaycan SSR Ali Sovetinin (IV- V çağırışlar) deputatı, 1976-cı ildən Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiya heyətinin üzvü olmuşdur. N.İ.Vavilov adına qızıl medal, XTNS-nin 3 böyük qızıl medalını almışdır. Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri və medallarla təltif olunmuşdur.

"Azərbaycanda buğdanın seleksiyası" Bakı,1956;" Azərbaycanda buğda, çovdar, arpa və egilopsların öyrənilməsi haqqında materiallar" Bakı,1961; "Azərbaycanın buğda kolleksiyası" Bakı,1962; "Azərbaycan bir çox buğda növlərinin vətənidir" Bakı,1964 və s. əsərlərin müəllifidir.(407,s.64-65)

Təkpartiyalı siyasi sistemdə böyük səlahiyyətləri olan partiya rəhbərlərinin şəxsi keyfiyyətlərindən, iradələrindən, millətə bağlılığından çox şey asılı idi. 1954-cü ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə yüksəlmiş İmam Mustafayev yaranmış şəraitdən istifadə edərək Azərbaycan xalqının vəziyyətini yaxşılaşdırmağa, ona qarşı əvvəllər edilmiş haqsızlıqları nisbətən aradan qaldırmağa, böyük aşınmalara məruz qalmış milli dəyərləri qoruyub saxlamağa və inkişaf etdirməyə müəyyən cəhdlər göstərmişdi. Məsələn, N.Xruşşovun beynəlmiləl şəhər olan, 50-ci illərdə azərbaycanlıların digər millətlərə nisbətən azlıq təşkil etdiyi, böyük sənaye mərkəzi Bakının Azərbaycanın tərkibindən çıxarılıb müstəqil inzibati bölgü kimi birbaşa Moskvaya tabe etdirmək planı məhz İ.Mustafayevin apardığı gərgin fəaliyyət nəticəsində pozulmuşdur. Onun birbaşa rəhbərliyi ilə yeni açılmış iş yerlərinə Azərbaycanın kənd rayonlarından əhalinin cəlb edilməsi nəticəsində Bakının demoqrafik vəziyyəti dəyişmiş, 50-ci

illərin əvvəlılərindən fərqli olaraq Bakıda azərbaycanlıların sayı artmış və bu proses sonrakı illərdə də davam etmişdir. (407,s.65-66)

İ.Mustafayev iqtisadiyyatın Mərkəzdən asılılığına son qoymaq istiqamətində bir sıra işlər həyata keçirmiş, pambıq istehsalı azaldılaraq əvəzində taxıl, kartof, tərəvəz, meyvə və digər məhsulların istehsalı artırılmışdır.

O zamanlar Moskvanın Bakının Qaradağ rayonu ərazisindən çıxan qazın Tiflis və Yerevana nəql olunmasına dair göstərişinə Azərbaycan rəhbərliyi etiraz etmişdir. Azərbaycan mütəxxəssisləri sübut etmişlər ki, bu qaz yataqları Gürcüstan və Ermənistanı təmin etmək gücünə malik deyil. Bu yataqlar yalnız Azərbaycanın ehtiyaclarını təmin etməyə sərf olunmalıdır. Bu mövqe N.S. Xruşşov başda olmaqla Moskva rəhbərliyinin hiddətinə səbəb olmuşdur. Bu zaman Azərbaycan KP MK-nın şöbə müdiri P.Aruşanov Moskvaya Azərbaycan rəhbərliyinin əleyhinə gizli məlumatlar göndərməsi vəziyyəti daha da gərginləşdirirdi.

50-ci illərin sonlarında Azərbaycan dilinin statusu haqqında məsələ ictimai fikirdə mərkəzi yer tuturdu. Lakin sovet tarixşünaslığında bu sahədə Azərbaycanda gedən proseslər ümumiyyətlə işıqlandırılmayıb, əksinə rus dilinin təbliğinə daha çox fikir verilib.

İ.Mustafayevin təşəbbüsü ilə Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasına cəhd edilmiş və mətbuatda bu məsələnin açıq müzakirəsi təşkil olunmuşdur. Bu zaman Gürcüstan və Ermənistan istisna olmaqla heç bir müttəfiq respublikanın, hətta digər sosialist ölkələrinin əksəriyyətinin konstitusiyasında dil haqqında maddə yox idi. Azərbaycan rəhbərliyinin bu təşəbbüsü çox cəsarətli və riskli idi.

Azərbaycan KP MK Bürosu 1956-cı il 2 iyul tarixli iclasında "Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinə Azərbaycan SSR Konstitusiyasına dövlət dili haqqında maddə əlavə edilməsi haqqında" qərar qəbul etmişdir. Azərbaycan KP MK Bürosunun qərarında qeyd olunurdu ki, "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir." Bu qərar İ. Mustafayevin imzası ilə 3 avqust 1956-cı il tarixində Ali Sovetə göndərilmişdi. Ali Sovetin sessiyası nəzərdə tutulduğu kimi avqustun 15-də deyil, 21-də çağrılmış və "Azərbaycan SSR Konstitusiyasına (Əsas qanuna) Azərbaycan SSR-in dövlət dili barəsində maddə əlavə edilməsi haqqında qanun" qəbul etmişdi. Konstitusiyanın yeni maddəsi Gürcüstan SSR və Ermənistan SSR konstitusiyalarının müvafiq maddəsindən tərcümə edilmişdir.

(407,s.69-70)

C.Həsənlinin “Azərbaycan milli məsələ: həqiqətlər və müəmmalar (1956-1959)” (“525-ci qəzet” 18 fevral 2006) məqaləsində İ. Mustafayevin rəhbərlik etdiyi dövrə aid maraqlı faktlar qeyd olunub. Məqalədə göstərilir ki, 1956 -cı il avqustun 21-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında “Azərbaycan SSR-in dövlət dili haqqında Azərbaycan Konstitusiyasına (Əsas qanuna) maddə əlavə edilməsi haqqında Qanun” qəbul edilib. Bu qanuna əsasən Azərbaycan Konstitusiyasının 151-ci maddəsində deyilirdi: “Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir.”

Dövlət dili haqqında qanun qəbul edildikdən az sonra, Mirzə İbrahimovun “Azərbaycan dili dövlət idarələrində” məqaləsi (204, 26 oktyabr1956) dərc olunub. Məqalədə çarizmin simasında Rusiyanın müstəmləkəçi siyasəti ifşa edilir, milli zülmün, milli təzyiqin insanlığa zidd vəhşi bir hərəkət olduğu göstərilirdi. Müəllif yazırdı: “Hakim millətin, “böyük” millətin məzlum millətə, “kiçik” millətə göstərdiyi hər hansı təzyiq ancaq nifrət və nifaq duyğuları oyadır, əzilən milləti tarixi intiqam saatını gözləməyə məcbur edir… çarizm qeyri-rus xalqları ən kobud və vəhşi jandarm üsulu ilə əzir, həyasızcasına “ruslaşdırmaq” siyasəti aparırdı, milli mədəniyyətlərə və milli dillərə qarşı təcavüzkar hərəkət edirdi, hətta milli qırğınlar törətməkdən belə çəkinmirdi. Başqa xalqları əzib məhv etmək və imperiyanın daxilində “əritmək” məqsədilə çarizm ucqarları zorla rus köçmələrlə doldururdu. Çarizm bu vəhşi siyasəti ilə böyük rus xalqını bədnam edir, təbii olaraq imperiyanın əzilən xalqlarının ürəyində ona qarşı etimadsızlıq oyadırdı.”

Məqalədə daha sonra deyilirdi: “Bəzi idarələrdə və bəzi adamlarda Azərbaycan dilinə qarşı biganə, laqeyd münasibət yaranmışdır. Hələ onu demirik ki, vətəndaşların azərbaycanca olan ərizələrinə, yaxud bu və ya digər azərbaycanca olan yazılara ana dilində cavab verməyən, ya da tamamilə cavabsız buraxan bürokratlar da tapılır.” (204, 26 oktyabr1956)

Məqalədə çar Rusiyası haqqında deyilənlər milli məsələdə sovet siyasətinin gerçək tərəflərini ortaya qoyduğuna görə böyük mübahisəyə və Respublika rəhbərliyinə qarşı Moskvanın hücumlarına səbəb oldu. Azərbaycan dilinin dövlət dili kimi təbliğinin güclənməsi mərkəzi hakimiyyətin ciddi müqaviməti ilə üzləşdi. Sonradan bu məsələ bir sıra şəxslərin, o cumlədən İ. Mustafayevin və M.İbrahimovun Azərbaycan rəhbərliyindən çıxarılmasında əsas səbəblərdən biri

oldu. Sov.İKP katibi Mühitdinovun iştirakı ilə keçirilmiş  Azərbaycan KP MK-nın plenumu (7 iyul 1959) İ.Mustafayevi tutduğu vəzifədən azad etdi.

"Bu gün" qəzetinin 20 avqust 2001-ci il tarixli sayında İ.Mustafayev haqqında yazılmış məqalədə onun millətsevərliynə aid bir fakt qed olunmuşdur. Həmin faktda göstərilir ki, Bakının Əmircan kəndində Niyaz adlı bir gənc öz kəndlisini ələ vermədiynə görə həbs olunmuşdu. Sonradan həmin gənci milislər Əmircanda növbəti dəfə  həbs etmək istərkən 20-dən artıq milisi qətlə yetirmiş və növbəti atışmaların birində özü də həlak olmuşdu. İ.Mustafayev qətldən xəbər tutan kimi dərhal hadisə yerinə gəlir. Onun gəldiyini görən daxili işlər nazirinin rus milliyətindən olan müavini Niyazın cəsədinə bir güllə vurur. Azərbaycanlı gəncin meyidinə qarşı bu cür hərəkət İ.Mustafayevi bərk qəzəbləndirir və həmin şəxsə öz kəskin etirazını bildirir. Bir müddətdən sonra isə həmin nazir və onun müavini işdən azad edilir.

N.Xruşşov  Sov. İKP MK-nın 1957-ci il iyun plenumunun qərarı ilə ordu və dövlət təhlükəsizlik sistemi üzərində nəzarətini gücləndirdikdən sonra yeritdiyi "volyuntarist" siyasət İ.Mustafayevin Respublika  rəhbərliyindən uzaqlaşdırılmasına gətirib çıxardı. Sov. İKP katibi Mühitdinovun iştirakı ilə keçirilmiş  plenum (7 iyul 1959) İ. Mustafayevi tutduğu vəzifədən azad etdi. Mühitdinov aeroportdan Azərbaycan KP MK binasına gələrək dəhlizdə N. Nərimanovun şəkilini görüb və yanındakılara müraciətlə bildirmişdir: "Moskvada mənə demişdilər ki, Bakıda bütün partiya təşkilatlarında Leninin şəkli əvəzinə yerli rəhbərlərin şəkli asılıb. Buyurun, bu da əyani subut." (407,s.70)

Lakin akademik İ.Mustafayevdə olan millətsevərlik, xalqa bağlılıq xüsusiyyətləri özünü 1988-ci ilin fevralında başlayan milli-azadlıq hərəkatı dövründə yenidən göstərməyə başladı. O bu zaman ziyalıların bir çoxundan fərqli olaraq DQMV-də yenidən qızışdırılan erməni separatizminə qarşı mübarizənin ön sıralarında getmişdir. İ.Mustafayev bu çətin dövrdə Azərbaycan Ağsaqqallar Şurasının və "Qayğı" cəmiyyətinin sədri kimi fəal iş aparmışdı.

Sovet hakimiyyəti illərində Azərbaycana rəhbərlik etmiş digər şəxslər kimi İ.D.Mustafayevin də fəaliyyətinin obyektiv tədqiqi aktual olaraq qalır. Onun fəaliyyətində olan müsbət cəhətlərə və nöqsanlara baxmayaraq 1954-1959-cu illər və sonrakı illərdəki gördüyü işlər kənar amillərin təsiri olmadan öyrənilməlidir. Məhz biz bu yolla Azərbaycanın ən yeni tarixini ağ ləkələrdən təmizləyə bilərik.

Müharibədən sonra yeni sənaye müəssiələrinin yaradılması ilə əlaqədar SSRİ-nin müxtəlif ərazilərindən işçi qüvvəsinin Azərbaycana göndərilməsi, fəhlə sinfinin sayı və Respublika əhalisinin milli tərkibində baş verən dəyişiklər, beynəlmiləl ailələr, yeni şəhərlərin, Sumqayıt, Mingəçevir, Daşkəsən, Əli Bayramlı (Hazırki Şirvan) şəhərlərinin salınması və s. mövzular sovet tarixşünaslığında geniş tədqiq olunub. Tarixçilər müharibədən sonra bu mövzularda bir sıra kitab və məqalələr yazıblar. (190,292,316,404,416,418,450, 455,12 noyabr 1982;480,551,633, 650,705,706,710,735,736 və s.)

Bundan əlavə bu mövzularda dissertasiyalar da müdafiə olunub. Məsələn, Z.A.Dullayeva 1960-cı ildə "Azərbaycanın yeni sosialist şəhəri Sumqayıtın tarixindən", A.Hüseynov 1964-cü ildə "Azərbaycan SSR-in yeni sənaye mərkəzlərinin yaradılması və inkişafı tarixindən", R.İmanov 1973-cü ildə "Yeni sosialist şəhəri Daşkəsənin tarixi (1945-1970-ci illər)", Y.İbrahimov 1994-cü ildə "Azərbaycanın gənc şəhərlərinin əhalisinin formalaşmasında etnososial problemlər", H.A.Alıyev 2014-cü ildə "Sumqayıt şəhərinin tarixi" U.İ.Quliyeva 2015-ci ildə "Azərbaycan Respublikasının beynəlxalq iqtisadi-mədəni əlaqələrində Sumqayıtın iştirakı (1991-2005-ci illər)" mövzularında dissertasiyalar müdafiə ediblər.

Müharibədən sonra müxtəlif millət və xalqların nümayəndələrindən ibarət fəhlə sinfinin təmərküzləşdiyi Sumqayıt şəhərinin ictimai-siyasi vəziyyətinin tədqiqi sovet tarixçilərinin diqqət mərkəzində olmuşdur. Şəhərin yaranmasının 40 illiyi ilə əlaqədar 1989-cu ildə rus dilində nəşr olunan "Sumqayıt: dünən, bu gün, sabah. Ədəbiyyat göstəricisi" biblioqrafik vəsait problemin tarixşünaslıq baxımından tədqiqi üçün müəyyən əhəmiyyətə malikdir. Bu vəsaitdə şəhərin ictimai-siyasi həyatı, tarixi, xalq təsərrüfatı, mədəniyyəti, elmi və maarifinə aid yazılmış məqalə və kitabların, bundan başqa yazıçı və şairlərin şəhərə həsr olunan əsərlərinin siyahısı verilib.(736)

A.A.Abbasov və A.Q.Səlimzadənin 1987-ci ildə rus dilində nəşr olunan "Qardaşlıq şəhəri. Sumqayıtın yaranması və əhalisinin formalaşmasının etnoqrafik xüsusiyyətləri" kitabı (416) faktların zənginliyi baxımından özündən əvvəl yazılan kitablardan fərqlənir. Kitab giriş, 3 fəsil və nəticədən ibarətdir. Müəlliflər Sumqayıtın yaranmasında müxtəlif millət və xalqların nümayəndələrinin iştirak etdiyini, orada 83 millət və xalqın yaşadığını xüsusi qeyd ediblər. Onlar kitabı

yazarkən 1959, 1970 və 1979-cu illərdə keçirilən əhalinin Ümumittifaq siyahıya alınmasının materiallarından, sosioloji tədqiqatlardan, şəhərin infomasiya-hesablama stansiyası, VAQ idarəsi, şəhər, zavod qəzetləri, yerli arxivlərin materialları və s. mənbələrdən istifadə ediblər.

Kitabın "Sumqayıtın yaranması və əhalisinin formalaşması" adlanan I fəslində qeyd edilir ki, şəhərin yaranmasında Bakı sənaye mərkəzinin elektiriklə təmin olunmasını yaxşılaşdırmaq üçün 1935-ci ildə bu ərazidə istilik elektirik stansiyasının yaradılması haqqında çıxarılmış qərar mühüm rol oynayıb. Bundan sonra 1939-cu ildə Sumqayıt boru-yayma zavodunun tikilməsi haqqında qərar qəbul olunub və zavod 1952-ci ildə ilk məhsulunu verməyə başlayıb. Kitabda Sumqayıtın metallurgiya və kimya müəssisələrinin tikintisi üçün SSRİ-nin müxtəlif şəhərlərində yerləşən 300-dən artıq zavodun öz məhsullarını göndərməsi, şəhərin ilk 500 inşaatçısının 1944-cü ilin martında Krasnovodskidən, sentyabrda isə Barnauldan gəlməsi xüsusi qeyd olunub. Bundan başqa kitabda komsomol xətti ilə 1964-cü ilin üç ayı (feral, mart, aprel) ərzində Sumqayıta 48 millət və xalqı təmsil edən 4000 gənc gəlməsi müsbət hal kimi dəyərləndirilib. (416)

Azərbaycanın gənc şəhərləri ilə yanaşı qədim tarixə malik şəhərlərdə də sosialistcəsinə dəyişiklərə, müxtəlif millət və xalqların nümayəndələrindən ibarət fəhlə sinfinin inkişafına aid bir sıra kitab və məqalələr həsr olunub. (96, 98,198,260,261,374,459 və s.) Bundan başqa S.S.İsmayılov 1968-ci ildə "Kirovabad fəhlələri sosializm quruculuğunu başa çatdırmaq uğrunda mübarizədə (1951-1958 - ci illər)" mövzusunda dissertasiya müdafiə edib.

1940-1950-ci illərin tarixşünaslıq baxımından tədqiqi göstərir ki, tarixçilərin ən çox tədqiq etdikləri mövzular müharibədən sonra kənd təsərrüfatı, sənaye, mədəniyyət, təhsil və s. sahələrin bərpa və inkişaf etdirilməsinə aid olub. Bu dövrdə Azərbaycan KP və ictimai təşkilatların fəaliyyətinə aid, həmçinin fəhlə, kəndli sinifləri və ziyalı təbəqəsinin fəaliyyətinə aid də bir sıra əsərlər yazılıb.

Azərbaycan Kommunist Partiyasının 1946-1950-ci illərdəki fəaliyyətinə aid bir sıra kitab və məqalələr yazılıb, həmçinin dissertasiyalar müdafiə edilib. (432,528,595 və s.) Bu əsərlərlə yanaşı 1945-1952-ci illərdə Azərbaycan KP MK yanında Partiya tarixi institutu "Əsərləri"- nin 18 cildi nəşr edilib.

1958-ci ildə nəşr olunan "Azərbaycan Kommunist Partiyasının tarixi"(36)

və 1960-cı ildə rus dilində çap edilən "Azərbaycan SSR və Azərbaycan Kommunist Partiyası 40 ildə" kitabları ayrı-ayrı sovet müəlliflərinin sonradan yazdıqları kitablara istiqamətverici təsiri olub. Bu baxımdan həmin kitablar dövrün mahiyyətini düzgün başa düşməkdə tədqiqatçılara yaxından kömək göstərə bilər.

A.A.Hüseynovun rus dilində nəşr olunan "Sənayeləşdirilmənin Lenin yolu ilə Kommunist Partiyasının müharibədən sonrakı illərdə yeni sənaye mərkəzlərinin yaradılması və inkişafı uğrunda mübarizəsi" adlı kitabı (528) ikinci dünya müharibəsindən sonra Azərbaycanda yeni sənaye mərkəzlərinin yaradılmasına həsr olunub. Müəllif yeni sənaye mərkəzlərinin yaradılmasını Kommunist Partiyasının Azərbaycan SSR-ə göstərdiyi qayğının bariz nümunəsi, yeni yaradılan sənaye mərkəzlərinə SSRİ-nin müxtəlif yerlərindən digər millət və xalqların nümayəndələrinin köçürülməsini qardaşlıq yardımı, xalqlar dostluğunun təcəssümü hesab etmişdi.

Y.Qasımovun rus dilində nəşr olunmuş "Azərbaycan Kommunist Partiyasının müharibədən sonrakı illərdə ağır sənayeni inkişaf etdirmək uğrunda mübarizəsi" adlı kitabında (595) müharibədən sonra Azərbaycanda ağır sənayenin inkişaf etdirilməsi, yeni sənaye mərkəzlərinin yaradılmasında müxtəlif millət və xalqların nümayəndələrinin iştirak etməsi kommunist partiyasının xalqa qaygısı kimi təqdim olunub.

Lakin sovet tarixçilərinin əksinə olaraq burjua alimləri bu dövrdə Azərbaycanda yeni sənaye mərkəzlərinin yaradılmasını Azərbaycana qayğı deyil, yeni müstəmləkəçilik siyasətinin tərkib hissəsi kimi qiymətləndirirdilər. Məsələn, burjua alimi Kolars o zaman yazırdı:"Azərbaycanda rus müstəmləkəçiliyi... davam edəcəkdir, ona görə ki, sənaye Bakıdan başqa yerlərə: Kirovabada-qədim Gəncəyə, Daşkəsənə, Mingəçevirə, Sumqayıta keçirilmişdir. Daşkəsənin ilk mədənçiləri Ukraynadan gəlmişdir. Sumqayıt inşaatçıları Xarkovdan, Moskvadan, Leninqraddan və Çelyabinskdən çağrılmışlar." (207,s.172)

Əslən azərbaycanlı, o zaman Türkiyədə mühacirətdə yaşayan, tarixçi H.Baykara isə demişdir:"Rusiyadan Azərbaycana rus kəndlisini zorla köçürmək yetməyirmiş kimi, Azərbaycanda tikilən hər bir fabrikaya minlərlə rus, ailələri ilə birlikdə köçürülməkdədir. Buna da Azərbaycanda sənaye yüksəlişi adı verilir."(207,s.173)

X.Əliyevin rus dilində nəşr olunan "Azərbaycan KP-nin fəhlə və kəndlilərin

ittifaqını möhkəmləndirmək uğrunda mübarizə tarixindən" kitabı(432) sovet tarixşünaslığında çox dəbdə olan bir mövzuya həsr olunub. Bu mövzuda yazılan əsərlərin təhlili onu göstərir ki, fəhlə və kəndli ittifaqının dövlət səviyyəsində təbliğinə baxmayaraq 70 il ərzində kəndlilərlə bağlı yeridilən siyasətdə yol verilmiş kobud səhvlər, kommunist ideologiyasının ziddiyyətləri bu ittifaqın möhkəmlənməsinə imkan verməyib.

Tarixçilər Azərbaycan KP-nin 1946-1950-ci illərdə fəaliyyətinə aid bir sıra dissertasiyalar yazıblar ki, bu tədqiqatlarda da mövzular sovet tarixşünaslığına aid digər əsərlər kimi birtərəfli tədqiq olunub. Bunlardan V.M.Ağayevin 1954-cü ildə "Azərbaycan Kommunist Partiyası dördüncü beşillik dövründə kolxozlarda sosializm yarışının təşkilatçısıdır", Ə.Ş.Abbasovun 1964-cü ildə "Azərbaycan partiya təşkilatının neft maşınqayırma sahəsində texniki tərəqqi uğrunda mübarizəsi (1956-1962-ci illər)", Q.B.Əliyevin 1964-cü ildə "Beşinci beşillik dövründə kütlələr arasında partiya-siyasi işi (1951-1955-ci illər) (Azərbaycan SSR-in materialları əsasında)", Ş.A.Haqverdiyevin 1965-ci ildə "Azərbaycan Kommunist Partiyasının müharibədən sonrakı dövrdə kənd təsərrüfatını inkişaf etdirmək uğrunda mübarizəsi (1946-1950-ci illər)", M.R.Vəkilovun "Azərbaycan Kommunist Partiyası dəniz neft sənayesinin yeni yüksəlişi uğrunda mübarizədə (1959-1965-ci illər)" mövzularında müdafiə etdikləri dissertasiyaları göstərmək olar.

Müharibədən sonrakı dövrdə həmkarlar təşkilatlarının da fəaliyyətinə aid bir sıra kitab və məqalələr həsr olunub.(503,535,615,669 və s.)

Ə.N.Quliyev və M. İ. Naydelin rus dilində çapdan çıxmış "Neft sənayesi fəhlələri həmkarlar təşkilatının 50 illiyi" kitabında(615) əsrin əvvəllərindən başlayaraq 50-ci illərin ortalarına kimi neft sənayesində fəaliyyət göstərmiş həmkarlar təşkilatlarının fəaliyyəti tədqiq olunub. Müəlliflər birinci rus inqilabı dövründə yaranmış bu təşkilatın inqilabi mübarizələlərlə dolu olan tarixini tədqiq və təbliğ etməyi qarşılarına məqsəd qoyduqlarına görə sovet hakimiyyəti illərində həmkarlar təşkilatlarının bürokratik aparatın bir hissəsinə çevrilməsi, neftçilərin hüquqlarını müdafiə etmək imkanlarının məhdud olması faktlarının üstündən sükutla keçiblər.

K.A.Hüseynovun rus dilində nəşr olunmuş "Azərbaycan həmkarlar təşkilatları kommunizm cəmiyyəti quruculuğu uğrunda mübarizədə" adlı

kitabı(535) o dövr sovet cəmiyyəti üçün aktual olan bir məsələyə həsr olunub. SSRİ-də 1959-cu ilin yanvarından başlamış kommunizm cəmiyyəti quruculuğu dövrü üçün nəzərdə tutulan bu əsərdə müəllif V.İ.Leninin "həmkarlar təşktilatları kommunizm məktəbidir" müddəasını əsas götürərək Azərbaycan həmkarlar təşkilatlarının bu sahədə fəaliyyətini işıqlandırıb.

S.X.Xəlilov 1965-ci ildə "Azərbaycan SSR həmkarlar ittifaqlarının sənaye və nəqliyyat sahəsində dördüncü beşilliyin yerinə yetirilməsi uğrunda mübarizəsi (1946 -1950-ci illər)" mövzusunda dissertasiya müdafiə edib.

Azərbaycan komsomolunun 50-ci illər fəaliyyətinə aid T.Əfəndiyev, M.Qazıyev, Ə.Əlizadə, M.Əlizadə, A.Əhədov, A.Əhmədov, V.Ağayev və digər tarixçilər bir sıra kitab və məqalələr yazıblar.(6,7,123,125,139,141,144,219,221, 293,591 və s.)

T.Əfəndiyevin "Müəllim və komsomol təşkilatı" kitabçası(139) məktəb komsomol təşkilatlarının fəaliyyətinə həsr olunub.

Y.Qasımovun 1956-cı ildə "Gənclər əmək məhsuldarlığının yüksəldilməsi uğrunda mübarizədə"(221) və 1957-ci ildə "Azərbaycan gəncləri altıncı beşilliyin yerinə yetirilməsi uğrunda mübarizədə" kitabları(219) nəşr olunub. V.Ağayevin 1958-ci ildə "Azərbaycan komsomolu VI beşillyi yerinə yetirilməsi uğrunda mübarizədə"(6) və 1961-ci ildə "Komsomol təşkilatları əmək məhsuldarlığının yüksəldilməsi uğrunda mübarizədə"(7) kitabları çapdan çıxıb. Kitabların adlarından və məzmunundan görünür V.Ağayev Y.Qasımovdan bir neçə il sonra eyni adlı kitablar yazmışdır. Bu cür hallara sovet tarixşünaslığında tez-tez rast gəlinir ki, bu da təkrarçılığa, plagiatlçılığa geniş imkanlar yaradırdı. Bu kitablarda hər iki müəllif altıncı beşillik planın yerinə yetirilməsi sahəsində Azərbaycan gənclərinin fəaliyyətini sovet statistikasına istinadən faktiki materiallar əsasında tədqiq ediblər.

A.Əhədovun 1960-cı ildə çapdan çıxmış "Azərbaycan komsomolunun şanlı yolu" kitabı (144) da eyni mövqedən yazılıb. Bu kitablarda tədqiqatın məqsədi komsomolun fəaliyyətinin təbliği və gənclər arasında onun nüfuzunu artırmaqdan ibarət olub.

Ə.Əlizadənin "Komsomol partiyanın sədaqətli köməkçisi və mübariz ehtiyat qüvvəsidir" adlı(125) kitabında komsomolun kommunist partiyasının

ehtiyat qüvvəsi kimi fəaliyyətindən, bu təşklata partiya rəhbərliyinin əsas istiqamətlərindən bəhs edilib.

A.Əhmədovun "Gənclərin ateist tərbiyəsində komsomol təşkilatlarının rolu" adlı kitabında(141) kommunist tərbiyəsinin bir sahəsi olan din əleyhinə mübarizə, dinə qarşı barışmazlıq ruhunun gənclərdə tərbiyə edilməsində komsomol təşkilatlarının fəaliyyəti tədqiq olunub. Müəllif dinə qarşı mübarizəni faktlarla işıqlandıraraq, din əleyhinə kampaniyaların keçirilməsini, bu sahədə irəli sürülən təşəbbüsləri müsbət qiymətləndirib.

M.A.Əlizadənin "Azərbaycan gəncləri kommunizmin fəal qurucularıdır" adlı kitabında (123) kommunizm quruculuğu planı olan yeddillik planın həyata keçirilməsi sahəsində gənclərin fəaliyyəti işiqlandırılıb. Faktlar göstərir ki, yeddillik planın vəzifələri yerinə yetirilmədiyinə görə bu mövzuda yazılmış əsərlər qısa müddətə öz aktuallığını itirib.

M.Qazıyevin rus dilində çap olunmuş "Azərbaycan komsomolunun tarixində səhifələr" (591) kitabında sovet hakimiyyəti illərində Azərbaycan gənclərinin sovet hakimiyyəti illərində kommunist partiyasının irəli sürdüyü plan və tapşırıqların yerinə yetirilməsi sahəsindəki fəaliyyəti araşdırılıb. Bu kitabda da tədqiqat birtərəfli aparılmış, yalnız müsbət faktlara istinad etməklə real vəziyyət təhrif olunub.

Bu kitablarla yanaşı komsomolun 1950-ci illərdəki fəaliyyətinə aid dissertasiyalar da yazılıb. Bunlardan Ə.İ.Əmirxanovun 1964-cü ildə müdafiə etdiyi "Komsomol kənd təsərrüfatının daha da inkişaf etdirilməsi uğrunda mübarizədə Kommunist Partiyasının sədaqətli köməkçisidir (1953-1958-ci illər)", Ə.Ə.Heydərovun 1971-ci ildə yazdığı "Sov.İKP XX və XXII qurultayları arasındakı dövrdə gənclərin mədəni-texniki səviyyəsinin yüksəldilməsi sahəsində Azərbaycan komsomol təşkilatının fəaliyyəti" və s. mövzularda yazılmış dissertasiyaları göstərmək olar.

Azərbaycan fəhlə sinfinin 1946-50-ci illər fəaliyyətinə aid Ə.Ənnağıyev, B.S.Qurbanov, A.M.Eldarov, K.Rəhimov, N.Q.Qədirova (Osipova) və başqa tədqiqatçılar bir sıra kitab və məqalələr həsr ediblər.(436, 617,714 və s.)

Ə.Ənnağıyevin "Azərbaycanda fəhlə sinfinin peşə təhsili" adlı kitabı (436) 40-50-ci illərdə aktual olan bir mövzuya həsr olunub. Müharibədən sonra

Azərbaycanda sənayenin yenidən qurulması və yeni sənaye mərkəzlərinin ixtisaslı fəhlə kadrları ilə təmin edilməsində peşə təhsilinin müsbət rolu olub. Ə.Ənnağıyevin tədqiqatının əsas məqsədi peşə təhsilinin müsbət cəhətlərinin təbliğindən ibarət olub. Faktlar sübut edir ki, sonrakı illərdə peşə təhsili sahəsində mövcud olan problemlər, formalizm halları bu təhsil sahəsinin nüfuzdan düşməsi ilə nəticələnib. Hətta sonrakı illərdə nazirliklərin planına uyğun olaraq orta ümumtəhsil məktəblərində zəif oxuyan və davranış səviyyəsi aşağı olan uşaqların zorla peşə məktəblərinə göndərilməsi bu məktəblərdə təhsilin və məzunların peşə səviyyəsinin aşağı düşməsinə səbəb olub. Bunun da nəticəsində peşə məktəbləri məzunlarının işlə təmin edilməsi problemləri yaranmış və nəticədə bu məktəblərə ehtiyac minumuma enmişdir. Lakin sovet tarixşünaslığında bu cür nöqsanların üzərindən sükutla keçilmişdir.

B.S.Qurbanovun “Azərbaycan fəhlə sinfi inkişaf etmiş sosializm yollarında (1945-1958-ci illər)” kitabında (617) 13 il ərzində sənayenin inkişafı ilə əlaqədar olaraq fəhlə sinfinin ümumilikdə, sənaye fəhlələrinin isə ayrılıqda sayı göstərilib. Müəllif 1940 və 1958-ci illəri müqayisə edərək rəsmi rəqəmlər və öz hesablamaları ilə ölkənin texniki yüksəlişdə olduğunu qeyd edir. B.S.Qurbanov 1939 və 1959-cu illərdə keçirilmiş SSRİ əhalisinin siyahıya alınmasının nəticələrinə aid faktları müqayisə edərək, sənaye fəhlələrinin tərkibində olan dəyişikləri göstərmiş, onların kəndə köməyini, başqa respublikaların fəhlə sinfi ilə əlaqələrini, onlar arasında keçirilən sosializm yarışının və digər məsələlərin müsbət tərəflərini tədqiq edib.

Kitabın bir fəsli “Sumqayıt sənayesinin inkişafı (1951-1958-ci illər)” adlanır. Bu fəsildə Bakının bir rayonu kimi inkişaf edərək 1949-cu ildən şəhər statusu almış Sumqayıtda istilik elektrik stansiyaları ilə yanaşı kimya və metallurgiya sənayesinin yaranması və inkişafı tədqiq olunub. (617)

A.M.Eldarovun 1971-ci ildə rus dilində çapdan çıxmış, 1946-1958-ci illəri əhatə edən “Azərbaycan fəhlə sinfinin müharibədən sonrakı sosializm quruculuğu dövründə artımı” kitabında 12 il ərzində fəhlə sinfinin tərkibində baş vermiş keyfiyyət dəyişiklikləri, onların mədəni-texniki səviyyəsinin artması işıqlandırılıb. Müəllif bir sıra cədvəllər tərtib edərək fəhlə sinfi tərkibində azərbaycanlıların sayı, fəhlə sinfi daxilində qadınlar və onların ixtisasları haqqında məlumatlar verib.

N.Q.Qədirovanın (Osipova) 1979-cu ildə rus dilində nəşr olunmuş “Azərbaycan fəhlə sinfinin dövlət və ictimai fəaliyyəti (1946-1975-ci illər)” adlı

kitabında Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq fəhlə sinfinin dövlət və ictimai fəaliyyəti zəngin arxiv materialları əsasında tədqiq olunub. Kitabda inkişaf etmiş sosializm şəraitində Azərbaycan Kommunist Partiyası, sovetlər, həmkarlar təşkilatlarının fəaliyyətində fəhlə sinfinin rolu, onların sosializm yarışının təşkilindəki fəaliyyəti, fəhlə sinfinin irəli sürdüyü səmərələşdirici təkliflər və yeni texnikanın istehsalata tətbiqi sahəsində rolu faktlarla işıqlandırılıb.

Azərbaycan SSR EA-nın "Elm" nəşryatında 1970-ci ildə çapdan çıxmış "Azərbaycan sovet dövrü tarixi məsələləri (Tarix İnstitutunun əsərləri) XVIII cild" adlı kitabının 96-140 -cı səhifələrində B.S.Qurbanovun "Azərbaycan SSR fəhlələrinin əmək qəhrəmanlığı (1946-1958-ci illər)" verilmiş yazısında problem tarixşünaslığ baxımından da tədqiqi olunduğu üçün diqqəti cəlb edir. Məqalənin giriş hissəsində müəllif müharibədən sonrakı dövrdə Azərbaycan fəhlə sinfinin əmək fəallığına həsr olunmuş kitab, məqalə və dissertasiyaları tarixşünaslıq baxımından təhlil edir. Müəllif problemi tədqiq etmiş Ə.Əliyev, C.B.Quliyev, M.Osmanov, H.Ə.Fərruxov, K.Hüseynov, M.Naydel, Z.Dullayeva, A.B.Rəsulov, D.Y.Quliyev, Y.Q.Qasımov, N.G.Qədirova, İ.S.Müslümov, C.Y.Qasımov, N.Ə.Saniyev, A.Ş.Abbasov, B.M.Abdullayev, R.Q.Qədimov, K.A.Rəhimov, S.X.Xəlilov və başqa alimlərin kitab, məqalə və dissertasiyalarının adlarını qeyd etməklə yanaşı, onların qısa təhlilini də verib. Müəllif həmin əsərləri təhlil edərək belə nəticəyə gəlib ki, fəhlə sinfinin fəaliyyətinə aid çoxlu sayda əsərlər yazılmasına baxmayaraq, onun tədqiqatına qədər xalq təsərrüfatının bərpa edilməsi və sosializmin qəti qələbəsinin başa çatması dövrü olan 1945-1958-ci illərdə fəhlə sinfinin əmək fəallığını və yaradıcılıq fəaliyyətini ümumiləşdirən heç bir məqalə və əsər yazılmayıb.

Məqalədə 1958-ci ildə sənayedə fəhlə və qulluqçuların sayının 1940-cı ilə nisbətən 167%, o cümlədən fəhlələrin sayının 180% artması qeyd olunub. Bundan başqa müəllif arxiv sənədləri əsasında 1958-ci ildə Sumqayıtda fəhlə və qulluqçuların sayının 33.453, Mingəçevirdə 10.784, Əli Bayramlıda (indiki Şirvan) 10.736 və Daşkəsəndə 7.759 nəfərə çatdığını, 1948-1958-ci illərdə respublika üzrə sənayedə çalışan fəhlə və qulluqçuların tərkibində azərbaycanlıların sayının çoxaldığını göstərib. Məqalədə qeyd olunur ki, Azərbaycan 1958-ci ildə Avropa, Asiya və Afrikanın bir sıra ölkələrinə 120 adda məhsul göndərib.

Azərbaycanda fəhlə sinfinin 40-60-cı illərdəki fəaliyyətinə aid bir sıra

dissertasiyalar da yazılıb. Bunlardan N.Ə.Saniyevin "Azərbaycan maşınqayırma sənayesinin bərpa və inkişafı etdirilməsi uğrunda fəhlələrin mübarizəsi (1946-1950-ci illər)" (1963-cü il), B.M.Abdullayevin "Müharibədən sonrakı illərdə Azərbaycan SSR fəhlə sinfinin inkişafı (1946-1950-ci illər)" (1965-ci il), M.İ.Quliyevin "Azərbaycan SSR-də tikintinin və inşaat materialları sənayesinin inkişafı uğrunda fəhlələrin mübarizəsi (1959-1965-ci illər)" (1966-cı il), Ş.M.Şərifovun "Kommunizm quruculuğu dövründə Azərbaycan fəhlə sinfi ilə kəndlilərin ittifaqının daha da möhkəmlənməsi (1959-1965-ci illər)", (1966-cı il), A.Q.Zeynalovun "İxtisaslı gənc fəhlə kadrların hazırlanması və tərbiyə edilməsi sahəsində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti (1952-1955-ci illər)" (1971-ci il) , C.X.Hüseynovun "Azərbaycan fəhlə sinfi kommunizm quruculuğu illərində (1959-1965-ci illər)" (1973-cü il) və s. mövzularda müdafiə olunmuş dissertasiyaları göstərmək olar.

C.Bəhramovun "Azərbaycan dəniz neftçıxarma sənayesinin yaranmasının naməlum səhifələri (1949-1960-cı illər)" adlı məqaləsində sovet tarixşünaslığında öz əksini tapmayan faktlar işıqlandırılıb. (386, №1 1998)

Məqalədə göstərilir ki, dünya təcrübəsində ilk dəfə olaraq 1949-cu il noyabrın 7-də uzun illər ərzində Azərbaycan alim və mühəndislərinin apardıqları elmi-praktik axtarışların nəticəsində Xəzər dənizinin "Neft daşları" rayonunda gündəlik debiti 100 ton olan 1 saylı quyu fontan vurub. Bu uğurlu nəticədən sonra 1949-cu il dekabrın 11-də SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-də dəniz neft yataqlarının kəşf edilməsi və istifadəyə verilməsi tədbirlərinin yaxşılaşdırılması haqqında" qərar qəbul edib. Müəllif məqalədə Xəzər neftinin fəth edilməsi prosesinə yaradılan maneələrdən bəhs edir. O, qeyd edir ki, SSRİ Neft Sənayesi Nazirinin referenti, 1948-ci ilədək "Azərneftin" baş geoloqu işləmiş Helkvistin Azərbaycana düşmən münasibət bəsləyən şəxslərin köməyi ilə nazir N.K.Baybakovu əsas neft yataqlarının dənizdə deyil, Gəncə və Şamaxı ərazilərində yerləşdiyinə inandırmışdı. N.K.Baybakov 1954-cü il iyulun 29-da Bakıda keçirilmiş müşavirədə çıxış edərək 1948-1953-cü illərdə Azərbaycan neft sənayesində əsaslı tikinti üçün ayrılmış 10,2 milyard manatın lüzumsuz olduğunu, bu qədər maliyyə vəsaitinin M.C.Bağırovun İ.V.Stalinlə dostluğu nəticəsində Azərbaycana ayrıldığını sübut etməyə çalışıb. O, Azərbaycan neftçilərinin gətirdikləri əsaslı dəlillərə baxmayaraq 1955-ci il üçün nəzərdə tutulan əsaslı vəsaiti 2,2 dəfədən çox azaldılaraq 700

milyon manata endirildiyini və Azərbaycanı iqtisadi cəhətdən perspektivsiz neft rayonları qrupuna aid edildiyini bildirib. Bunun da nəticəsində Azərbaycanda 1955-ci ildə 1954-cü ilə nisbətən neftçıxarmanın səviyyəsi 2,2 dəfə, kəşfiyyat qazma işlərinin səviyyəsi 4,4 dəfə azalıb. Müəllif qeyd edir ki, Azərbaycanda neft sənayesinin inkişafına düşmən olan qüvvələr bu dövrdə əsas vəsaitin SSRİ-nin şərq rayonlarına qoyulmasına çalışıblar. Məqalədə göstərilir ki, 1956-cı ildə SSRİ Dövlət Plan Komitəsinin sədr müavini Mkrtıçyan Partiya Nəzarəti Komitəsinin sədri N.Şvernikə məktub göndərərək Azərbaycan neft sənayesinə və ilk növbədə Xəzərdə neft çıxarılmasına vəsait ayırmağın mənasız olduğunu bildirib. Lakin Azərbaycan KP MK-nın birinci katibi İ.D.Mustafayevin 1957-ci ilin fevralında Moskvaya gedərək Azərbaycan neft sənayesinin, o cümlədən Xəzər neft yataqlarının iqtisadi cəhətdən perspektivliyini sübut edən 13 səhifəlik sənəd vasitəsilə SSRİ rəhbərliyini inandırması Azərbaycana qarşı irəli sürülən təxribatın baş tutmasına imkan verməyib.

Bütün bu faktlar göstərir ki, hətta SSRİ daxilində Azərbaycan sərvətlərinin istismar edilməsi ilə onun şöhrət qazanmasına düşmən münasibət bəsləyən qüvvələr də var idi ki, bu cür qüvvələrin təsiri ilə sovet rejimi daxilində Azərbaycana qarşı yeridilən ayrı-seçkilik siyasəti bəzən daha kəskin şəkil alırdı.

Fəhlə sinfinin fəaliyyəti ilə yanaşı V.Y.Axundov, F.A.Əhmədşina, Z.İ.Quliyeva və başqa alimlər 40-50-ci illərdə iqtisadi əlaqələrə, iqtisadi əməkdaşlığa aid bir sıra kitab və məqalələr, dissertasiyalar həsr etmişlər.(448, 449 və s.)

V.Y.Axundovun rus dilində nəşr olunmuş “Azərbaycan yeddillikdə” kitabında(449) 1959-1965-ci illər ərzində Azərbaycan SSR qarşısında duran vəzifələr, o cümlədən iqtisadiyyat sahəsində yerinə yetirilməli olan planlardan bəhs olunur. Bu kitab yeddiillik haqqında yazılmış az saylı kitablardan biri kimi müəyyən maraq doğurur.

F.A.Əhmədşinanın “Azərbaycan SSR-in müttəfiq respublikalarla iqtisadi əməkdaşlığı (1946-1980-ci illər)” kitabında müharibədən sonrakı dövrdən başlayaraq 80-ci illərə kimi Azərbaycanın digər sovet respublikaları ilə iqtisadi əməkdaşlığı faktiki materiallar əsasında tədqiq olunub.(448)

Z.İ.Quliyevanın 1964-cü ildə “Azərbaycan neftçilərinin qardaş sovet respublikaların neftçiləri ilə əməkdaşlığı (1946-1958-ci illər)” mövzusunda

müdafiə etdiyi dissertasiya sonrakı dövrlərdə bəzi mövzularla müqayisədə öz aktuallığını itirməmyib.

Kənd təsərrüfatının, o cümlədən kəndlilərin 1946-50-ci illərdəki vəziyyətinə aid SSRİ miqyasında, o cümlədən Azərbaycanda bir sıra kitab və məqalələr, dissertasiyalar yazılıb. (117,470,495,498,№8,1960 və s.)

SSRİ Nazirlər Soveti "Xırda kolxozların iriləşdirilməsi haqqında" qərarı (7 iyun 1950) və s. qərar və göstərişlər 50-ci illərdə kənd təsərrüfatına aid yazılan əsərlərdə təbliğ olunub.

Azərbaycanda bu mövzuya aid müdafiə olunmuş dissertasiyalardan, Y.N.Yusifovun "Dördüncü beşillikdə pambıqçılığın inkişafı və kolxozların daha da möhkəmlənməsi uğrunda Sov.İKP-nin mübarizəsi" (Azərbaycan SSR-in materialları əsasındda), M.H.Seyidovun "Azərbaycan kolxozlarının maddi-texniki bazasının möhkəmləndirilməsi (1951-1958-ci illər)", R.R.Bayramovun "Azərbaycan kənd təsərrüfatının inkişafı uğrunda mübarizədə "Kommunist" qəzetinin rolu (1951-1958 - ci illər)" adlı tədqiqat işlərini göstərmək olar.

X.A.Əliyevin "Sovet hakimiyyəti Azərbaycan kəndlilərinə nə verdi?" kitabında (117) sovet rejiminin kəndliləri istismardan azad edərək onlara xöşbəxtlik, firavanlıq bəxş etməsi geniş təbliğ olunub. Müəllif sovet statistikasına istinad edərək Azərbaycan kəndlisinin vəziyyətinin günü-gündən yaxşılaşdığını sübut etməyə çalışır. Lakin faktlar sübut edir ki, sovet tarixşünaslığının iddia etdiyi kimi kəndli sinfinin vəziyyəti sovet hakimiyyəti illərində açınacaqlı olaraq qalmış, onların qeyri rəsmi istismarı davam etmişdi.

Azərbaycan ziyalılarının 50-ci illər fəaliyyətinə aid M.Mehdizadə, M.Rüstəmov, Q.Xəlilov və başqa alimlər bir sıra kitab və məqalələr yazıblar. (169, 259,343,344 və s.)

M.A.Rüstəmovun "Sovet cəmiyyətinin inkişafında ziyalıların rolu" kitabında(343) sovet ziyalılarının marksizm-leninizm nəzəriyyəsinə sədaqətli, fəhlə və kəndlilərin içərisindən çıxaraq formalaşmış və məsələlərə sinfi, partiyalı mövqedən yanaşan bir təbəqə olduğu 1959-cu ilə qədər olan faktlara istinadən tədqiq olunub. Müəllif ziyalıların cəmiyyətin inkişafında oynadığı müsbət rolu faktlarla izah edərək, kommunist partiyasının rəhbərliyi altında onların fəhlə və kəndlilərlə yanaşı, cəmiyyətin ictimai-siyasi həyatındakı fəaliyyətinin müsbət tərəflərini faktlarla işıqlandırıb. Ziyalılardan hadisələrə sinfi, partiyalı mövqedən

yanaşmaq tələb olunması, onların sovet rejimində müstəqil, azad olmamalarını göstərirdi. Müxtəlif yaradıcı ittifaqlarında birləşdirilən ziyalı təbəqəsi kommunist partiyasının  inhisarı altında fəaliyyət göstərirdi. Lakin bu çatışmazlıqlar sovet tarixşünaslığında öz əksini tapmamışdı.

M.A.Rüstəmovun 1963-cü ildə nəşr olunmuş "Azərbaycan sovet ziyalılarının formalaşması və inkişafı" kitabında (344) müəllifin əvvəlki illərdə nəşr olunmuş kitablarındakı ideyalar Azərbaycana aid faktlara istinadən davam etdirilib.

Q.V.Xəlilovun "SSRİ-də sosialist ziyalılarının yaradılması və inkişafı" kitabında(170) 1960-cı ilə qədər olan dövrdə sovet ziyalılarının formalaşması mərhələləri, onların spesifik xüsusiyyətləri işıqlandırılıb.

M.Mehdizadənin "Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr" adlı kitabı(259) sovet hakimiyyəti illərində Azərbaycanda ümumtəhsil məktəblərinin inkişaf mərhələlərinə həsr olunub. Bu əsər Azərbaycan sovet maarifi sahəsində böyük təcrübə qazanmış bir müəllif tərəfindən yazıldığına görə digər kitablardan keyfiyyətcə fərqlənir. Kitabda sovet ümumtəhsil sisteminin yalnız müsbət cəhətlərinin işıqlandırılması və mövcud nöqsanların göstərilməməsi dövrün tələblərindən irəli gəlib. Lakin qeyd etmək lazımdır ki, ideoloji fərqlərə və bir sıra çatışmazlıqlarına baxmayaraq sovet təhsil sisteminin müsbət cəhətləri bəzi burjua alimləri tərəfindən də yüksək qiymətləndirilib.

Azərbaycanın sovet dövrü tarixinin müxtəlif dövrlərinə aid məqalələr toplusu kimi 1970-ci ildə nəşr olunmuş "Azərbaycan sovet dövrü tarixi məsələləri (Tarix İnstitutunun əsərləri) XVIII cild" kitabında nəşr olunmuş Ə.A.Mənsimovun "Azərbaycan SSR-də mədəniyyətin inkişafı tarixindən (1951-1958-ci illər)" məqaləsi faktlarla zənginliyinə görə digərlərindən fərqlənir. Müəllif qeyd edir ki, 1950-1951-ci illərdə 8-10-cu siniflərdə 39152 nəfər şagird təhsil alırdısa, 1958-1959-cu dərs ilində onların sayı 86623 nəfərə çatmış, bu illərdə 322 yeni orta məktəb açılmışdı. Müəllif daha sonra göstərir ki, Azərbaycan SSR-də qızların, xüsusilə kənd yerlərində azərbaycanlı qızların təhsilə cəlb edilməsində nöqsanlara baxmayaraq 1956-1957-ci illərdə şagirdlərin ümumi sayının 45,1%-ni, 1958-1959-cu illərdə isə 45,7%-ni qızlar təşkil ediblər ki, bu da əvvəlki illərlə müqayisədə xeyli çoxdur. Bundan başqa məqalədə qeyd olunur ki, 1956-1957-ci dərs ilində Azərbaycanda 3233 nəfər tələbənin təhsil aldığı 15 pedaqoji məktəb fəaliyyət

göstərib ki, 1951-1958-ci illər ərzində bu məktəblərdə 12876 nəfər sinif müəllimi hazırlanıb. Əgər 1950-1951-ci illərdə respublika məktəblərində 26922 ali və orta ixtisas təhsilli müəllim işləyirdisə, 1958-1959-cu illərdə onların sayı artaraq 41077 nəfərə çatıb.

Məqalədə elmi işçilər haqqında da məlumat verilir. 1950-ci ildə respublikada 3364 nəfər elmi işçi var idisə, 1958-ci ildə onların sayı 5611 nəfərə çatıb. Bu müddətdə elmlər doktorlarının sayı 127 nəfərdən 174 nəfərə, elmlər namizədlərinin sayı 909 nəfərdən 1748 nəfərə qədər artıb. 1958-ci ildə respublikanın müxtəlif elmi müəsisələrində 403 nəfər aspirant təhsil alırdı. Məqalədə kitab nəşri sahəsində inkişafı əks etdirən statistik rəqəmlər də verilib. Məsələn, müəllif qeyd edir ki, 1951-ci ildə Azərbaycanda ümumi tirajla 7015 min nüsxə 849 kitab, 973 min nüsxə 94 adda jurnal nəşr olunurdusa, 1958-ci ildə 8320 min nüsxə 1075 kitab, 3696 nüsxə 73 adda jurnal, 74 min nüsxə 118 adda qəzet çapdan çıxırdı.

A.A.Xələfovun 1974-cü ildə "Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası Sovet Azərbaycanında kitabxanaçılığın tarixinin 25 illik mürəkkəb bir dövrünə həsr olunub. İdeoloji fərqlərə baxmayaraq bu cür mövzulara münasibətdə sovet və burjua alimləri arasında kəskin fikir ayrılığı mövcud olmayıb.

Tarix elmləri doktoru, professor E.R.İsmayılov müharibədən sonrakı dövrə aid tədqiqatlarının bir hissəsi 1946-1959-cu illərdə Azərbaycan ziyalılıarının tərkibində baş verən dəyişikliklərə həsr olunub. Müəllif öz əsərlərində müharibədən sonrakı dövrdə baş vermiş bu dəyişikləri sosializm quruculuğunun nailiyyəti kimi qiymətləndirib. (572)

Ə.Əhmədovun 1999-cu ildə müdafiə etdiyi "Gəncə şəhərinin mədəni quruculuğu (1951-1960-cı illər)" adlı namizədlik dissertasiyasında müəllif elmi işdə 40-cı illərin axırlarında Ümumittifaq Kənd Təssərrüfatı Akademiyasının prezidenti, akademik T.D.Lısenkonun "Genotipin dəyişməsi" nəzəriyyəsinin ölkənin hər yerində yuxarıların göstərişi ilə qəbul edilməsinə baxmayaraq Azərbaycan alimləri içərisində buna etiraz edənlərin olduğunu müəllif faktlarla qeyd edir. Bu nəzəriyyənin əsasını orqanizmin fərdi inkişafını idarə etmək, irsi xassələri istənilən istiqamətdə dəyişdirmək, beləliklə canlı aləmin inkişafında mühitin və tərbiyənin rolunu şişirtmək təşkil edirdi. Bu nəzəriyyənin məcburən bütün sahələrə tədbiqi elmin inkişafını zəiflədir, həqiqi elmi fikrə kölgə salırdı.

Müəllif qeyd edir ki, S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun "Seleksiya və genetika" kafedrasının müdiri, professor Rəcəbli və kənd təsərrüfatı elmləri namizədi T.Hüseynov "Lısenko məktəbi"nə qarşı çıxaraq müxtəlif təzyiqlərə baxmayaraq öz fikirlərini axıracan müdafiə ediblər. Əkinçilik İnstitutunda 1948-ci ilin oktyabrında keçirilmiş ümumi yığıncaqda alimlərə müxtəlif təzyiqlər göstərilsə də onlar öz fikirlərindən dönməyiblər. Bundan sonra "Lısenko məktəbi"nə qarşı çıxan alimlərin elmi nəticələrinin təsərrüfata tətbiqinə qadağa qoyularaq, vəzifədən azad ediliblər.

40-50-ci illər Azərbaycan mədəniyyəti və incəsənətinə aid müxtəlif illərdə bir sıra əsərlər yazılıb. Q.Məmmədli, R.Quliyev, M.Aslanov, Z.Səfərova, M.İbrahimov, F.Şuşinski, Ə.İsazadə, A.M.Atakişiyev, M.K.Qurbanov, Ə.A.Mənsimov və başqa tədqiqatçılar bir sıra kitablar həsr ediblər (2, 18, 41, 47, 140, 141,156, 218, 619 və s.)

Bundan başqa 1956-cı ildə Azərbaycan incəsənəti adlı ayrıca kitab, N.Həbibov və M.Nəcəfovun 1960-cı ildə Sovet Azərbaycanının incəsənətinə həsr etdikləri əsər, C.Məmmədovun 1960-cı ildə Azərbaycan SSR xalq artisti Ələsgər Ələkbərova həsr etdiyi kitab da çapdan çıxıb.

M.Q.Qurbanovun rus dilində çap olunmuş "Sovet Azərbaycanın mədəniyyəti" adlı kitabında (619) Azərbaycanda sovet hakimiyyəti illərində mədəniyyətin inkişafı, onun burjua mədəniyyətindən fərqli xüsusiyyətləri, sinfiliyi, partiyalılığı və başqa cəhətləri işıqlandırılıb.

M.Qasımlının 2005-ci ildə Tbilisidə, rus dilində şapdan çıxmış "Azərbaycan beynəlxalq mədəni əlaqələrdə" (1946-1990-cı illərdə) kitabı (517) giriş, 4 fəsil, 12 paraqraf və nəticədən ibarətdir. Kitaba qeyd olunur ki, "Azərbaycanın mədəni əlaqələri çox çətin bir təkamül prosesindən keçmişdi. "Soyuq müharibə" zamanı SSRİ-də mövcud olan qapalı cəmiyyət xarici ölkələrlə, xüsusilə kapitalist ölkələri ilə mədəni əlaqələri məhdudlaşdırırdı. İnzibati amirlik sisteminin yumuşaldılması digər respublikalar kimi Azərbaycanın da mədəni əlaqələrinin inkişafına təkan vermişdi. 1946-1990-cı illərdə Azərbaycanın mədəni əlaqələri SSRİ çərçivəsində həyata keçirilsə də, bu dövrdə Azərbaycan dünyanın 150 ölkəsi ilə mədəni əlaqələr saxlamışdı. Bu əlaqələr Azərbaycan SSR Xarici İşlər Nazirliyi, "Xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyəti", Kitab palatası, Yazıçılar ittifaqı, Bəstəkarlar ittifaqı, Bədən tərbiyyəsi və İdman

Komitəsi, "Vətən cəmiyyəti" və digər təşkilatlar tərəfindən həyata keçirilirdi.

Azərbaycanın sovet dövrü tarixinin müxtəlif dövrlərinə aid məqalələr toplusu kimi 1970-ci ildə nəşr olunmuş "Azərbaycan sovet dövrü tarixi məsələləri (Tarix İnstitutunun əsərləri) XVIII cild" kitabının 140-155-cı səhifələrini əhatə edən Ə.A.Mənsimovun" Azərbaycan SSR-də mədəniyyətin inkişafı tarixindən (1951-1958-ci illər)" məqaləsi faktlara zənginliyinə görə digərlərindən fərqlənir. Müəllif qeyd edir ki, 1950-1951-ci illərdə 8-10-cu siniflərdə 39.152 nəfər şagird təhsil alırdısa, 1958-1959-cu dərs ilində onların sayı 86.623 nəfərə çatmış, bu illərdə 322 yeni orta məktəb açılıb. Müəllif daha sonra göstərir ki, Azərbaycan SSR-də qızların, xüsusilə kənd yerlərində azərbaycanlı qızların təhsilə cəlb edilməsində nöqsanlara baxmayaraq 1956-1957-ci illərdə şagirdlərin ümumi sayının 45,1%-ni, 1958-1959-cu illərdə isə 45,7%-ni qızlar təşkil ediblər ki, bu da əvvəlki illərlə müqayisədə xeyli çoxdur. Bundan başqa məqalədə qeyd olunur ki, 1956-1957-ci dərs ilində Azərbaycanda 3.233 nəfər tələbənin təhsil aldığı 15 pedaqoji məktəb fəaliyyət göstərib ki, 1951-1958-ci illər ərzində bu məktəblərdə 12.876 nəfər sinif müəllimi hazırlanıb. Əgər 1950-1951-ci illərdə respublika məktəblərində 26.922 ali və orta ixtisas təhsilli müəllim işləyirdisə, 1958-1959- cu illərdə onların sayı artaraq 41.077 nəfərə çatıb.

Məqalədə elmi işçilər haqqında da məlumat verilir. 1950-ci ildə respublikada 3.364 nəfər elmi işçi var idisə, 1958-ci ildə onların sayı 5.611 nəfərə çatıb. Bu müddətdə elmlər doktorlarının sayı 127 nəfərdən 174 nəfərə, elmlər namizədlərinin sayı 909 nəfərdən 1.748 nəfərə qədər artıb. 1958-ci ildə respublikanın müxtəlif elmi müəsisələrində 403 nəfər aspirant təhsil alırdı. Məqalədə kitab nəşri sahəsində inkişafı əks etdirən statistik rəqəmlər də verilib. Məsələn, müəllif qeyd edir ki, 1951-ci ildə Azərbaycanda ümumi tirajla 7.015 min nüsxə 849 kitab, 973 min nüsxə 94 adda jurnal nəşr olunurdusa, 1958-ci ildə 8.320 min nüsxə 1075 kitab, 3.696 nüsxə 73 adda jurnal, 74 min nüsxə 118 adda qəzet çapdan çıxıb.

Azərbaycan mədəniyyəti və incəsənəti tarixinə aid yazılmış əsərlər içərisində F.Şuşinskinin 1985-ci ildə nəşr olunmuş "Azərbaycan xalq musiqisi" iri həcmli monoqrafiyası diqqəti cəlb edir. Əgər kitabın 1970-ci ildə nəşr olunmuş variantında Azərbaycanın 40 sənətkarının həyat və yaradıcılığı, xanəndəlik sənətinin tarixi öz əksini tapıbsa, 1985-ci ildə nəşr olunmuş kitabda 51 sənətkar

haqqında geniş məlumat verilib. Bunların içərisində Cabbar Qaryağdıoğlu, Məcid Behbudov, Hüseynqulu Sarabski, Qurban Pirimov, Seyid və Xan Şuşinskilər, Zülfü Adıgözəlov, Bülbül və başqa görkəmli sənətkarlar var.

Ə.Əhmədovun 1999-cu ildə müdafiə etdiyi "Gəncə şəhərinin mədəni quruculuğu (1951-1960-cı illər)" adlı namizədlik dissertasiyasında əvvəlki illərə aid rəqəmlər müqayisə edilərək şəhərin mədəni həyatında baş verən dəyişiklər araşdırılıb. Müəllif sovet statistikasına aid rəqəmlərə tənqidi münasibət bəsləməsə də, elm və mədəniyyət sahəsindəki problemlərə sovet tarixşünaslığından fərqli yanaşma özünü açıq aydın büruzə verir.

Tədqiqat işində müharibədən sonra Gəncə şəhərində iki muzey, 1924-cü ildən fəaliyyət göstərən Nizami adına Tarix-Diyarşünaslıq muzeyi və1949-cu ildə təşkil edilmiş Azərbaycan bolşevik təşkilatının tarixi muzeyi fəaliyyət göstərdiyi qeyd olunur. Müəllif bu muzeylərdən ikincisinə üçtünlük verilməsini tənqid edərək göstərir ki, Tarix-Diyarşünaslıq muzeyində 3 sərgi salonu olduğu halda, o birisində 10 sərgi salonu təşkil olunmuş, birinci muzeyə 1946-1960-cı illərdə 340-dan bir qədər cox eksponat verildiyi halda, o birinə təşkil olunduğu iki il ərzində 2800-dən çox eksponat verilib.

Azərbaycan SSR-də 1950-ci illərdə mövcud olan milli münasibətlərə aid A.Nəcəfov, İ.İsmayılov, Ə.Əsədov, M.Quluzadə, R.Quliyev, C.Quliyev, M.Səttarov, V.Titarenko və başqaları kitab və məqalələr həsr ediblər.(193,243, 247,318,319,357,391,392,527 və s.)

A.Nəcəfovun "Azərbaycan sosialist millətinin formalaşması və inkişafı" və "Kommunizm quruculuğunda sosialist millətlərin mədəni əməkdaşlığı" kitablarında(318,319) milli münasibətlərə dair marksizm-leninizm nəzəriyyəsini əsas götürərək Azərbaycanda sosialist iqtisadiyyatının inkişafı nəticəsində iqtisadi həyat birliyinin yaranması və sosialist millətinin formalaşması prosesinin baş verdiyini sübut etməyə cəhd edilir. Hər iki kitabda millətlərarası münasibətlər sahəsində sovet cəmiyyətində yeridilən siyasətin əsasını təşkil edən beynəlmiləlçiliyin inkişafında iqtisadi əlaqələrlə yanaşı, mədəni əlaqələrin də mühüm rol oynaması faktlarla göstərilir.

İ.İsmayılovun "Sovet adamlarının beynəlmiləl tərbiyəsi" adlı kitabı(193) kommunist tərbiyəsinin bir sahəsi olan beynəlmiləl tərbiyəyə həsr olunub. Kitabda milli məsələdə kommunist partiyasının xüsusi diqqət verdiyi beynəlmiləl tərbiyənin

həyata keçirilməsinin forma və metodları geniş şərh edilsə də, bu sahədə mövcud olan formalizm, obyektiv tarixi prosesləri və milli xüsusiyyətləri nəzərə almadan subyektivcəsinə hadisələri sürətləndirmək cəhdləri və s. məsələlərə münasibət bildirməyib.

R.Quliyevin "Proletar beynəlmiləlçiliyi bayrağı altında" (243), M.Səttarovun "Sovet vətənpərvərliyi və proletar beynəlmiləlçiliyi haqqında"(357), C.B.Quliyevin "Səməd Vurğun yaradıcılığında vətənpərvərlik və beynəlmiləlçilik"(247), V.Titarenkonun "Marksist-leninçi beynəlmiləlçilik bayrağı altında"(391) və "V.İ.Lenin beynəlmiləlçiliyi bayrağı altında"(392) kitablarında 50-ci illərdə SSRİ-nin xarici siyasətinin əsas prinsiplərindən biri olan proletar, sosialist beynəlmiləlçiliyi prinsipini marksizm-leninizm klassiklərinin fikirləri ilə əsaslandırılıb və sosialist ölkələri arasında münasibətlərdə sosialist beynəlmiləlçiliyinin böyük əhəmiyyətini faktlarla göstərilib. Lakin 90-cı illərdə sosializm sisteminin dağılması prosesi bütün bunların əksini sübut etdi.

M.Y.Quluzadənin rus dilində çap olunmuş "Xalqların dostluğu və qardaşlığı ideyası Azərbaycan sovet ədəbiyyatında" adlı məqaləsini müəyyən cəhətlərinə görə problemin tarixşünaslığına aid etmək olar . (527)

Bu kitab və məqalələrlə yanaşı 50-ci illərdə Azərbaycandakı milli münasibətlərə aid bir sıra dissertasiyalar da yazılıb. Bunlara misal olaraq Ə.A.Əsədovun 1963-cü ildə "Sosialist ölkələri ilə qarşılıqlı münasibətlərdə Lenin beynəlmiləlçilik prinsiplərinin Sov.İKP tərəfindən həyata keçirilməsi (Sov.İKP XX və XXI qurultayları arasındakı dövr)" mövzusunda müdafiə etdiyi dissertasiyanı göstərmək olar.

M.M.Mirhadıyevin "Sovet Azərbaycanı - çiçəklənən sosialist respublikasıdır", "Azərbaycan SSR-də sosializmin qələbəsi", "Leninin sosializm qurmaq planının Azərbaycanda qələbəsi", "Proletar diktaturası haqqında Lenin təliminin Azərbaycanda həyata keçirilməsi" kitabları(299,300,301,302) 50-ci illərin axırları-60-cı illərin əvvəllərində sovet tarixşünaslığında dəbdə olan mövzulara həsr edilib. Bu kitablarda müəllif sosializmin tam və qəti qələbə çalması haqqında sovet tarixşünaslığında mövcud konsepsiyanı müdafiə və təbliğ edir. Azərbaycanın timsalında bu prosesin baş verdiyini sübut etməyə çalışır. Lakin 60-cı illərin əvvəllərində ölkəni bürümüş sosial-iqtisadi böhran həmin kitablarda irəli sürülən fikirlərin realliqdan uzaq olduğunu sübut edib.

Azərbaycanın 1946-1960-cı illərdəki ictimai-siyasi həyatının digər sahələrinə aid də bir sıra kitablar, məqalələr və dissertasiyalar həsr olunub. Məsələn, Q.Bağırovun 1958-ci ildə "Müasir dövrdə müharibələrin qarşısını almaq uğrunda xalqlar mübarizəsinin ümumdünya tarixi əhəmiyyəti", M.Ə.İsgəndərovun 1961-ci ildə "Azərbaycan SSR-də idmanın inkişafı tarixindən (1946-1960-cı illər)" mövzularında müdafiə etdikləri dissertasiyaları buna misal göstərmək olar.

Sovet tarixşünaslığında 50-ci illərin əvvəllərində Azərbaycanın görkəmli elm xadimi, Azərbaycan SSR EA həqiqi üzvü, professor Heydər Hüseynovun başına gətirilən faciənin səbəbləri də əvvəlki illərərdə tədqiq olunmayıb. Bir neçə məqalə istisna olmaqla Azərbaycanın 50-ci illər tarixinin bu aktual mövzusu kölgədə qalıb.

H.Z.Mahmudovun 1965-ci ildə nəşr olunmuş "Heydər Hüseynov 1908-1950: biblioqrafiya" kitabı, M.Mirhadiyevin "Alimin şöhrəti və faciəsi" məqaləsi akademik Heydər Hüseynovun başına gətirilən faciələrə həsr olunub. (204, 22 sentyabr 1988) Müəllif yazır ki, H.Hüseynovun 1949-cu ildə nəşr olunan "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" adlı əsəri alimə çox böyük şöhrət gətirib və bu əsərə görə ona Stalin mükafatı da verilib. H.Hüseynovun ölkə üzrə bu cür nüfuz qazanması ona qarşı təzyiq kampaniyası başlanmasına səbəb olub. Bundan sonra Azərbaycan K(b)P MK bürosunun qərarı ilə Partiya Tarixi İnstitutuna siyasi cəhətdən şübhəli adamın gəlməsinə kömək etdiyinə görə H.Hüseynova partiya cəzası verilir. M.C.Bağırov H.Hüseynovun kitabının geniş müzakirəsini keçirərək Şeyx Şamili mürtəce müridizmin nümayəndəsi, Rusiyanın düşməni, Türkiyənin agenti hesab edərək akademiki Şeyx Şamili tərifləməkdə təqsirləndirib. Halbuki 430 səhifəlik kitabın cəmi 2 səhifə yarımı müridizmə və Şeyx Şamilə həsr olunmuş və müəllif sovet tarixşünaslığında müridizm və Şeyx Şamil haqqında deyilənlərdən kənara çıxmamışdı. Müəllif məqalənin sonunda qeyd edir ki, M.C.Bağırovun məqsədi böyük nüfuz sahibi olan alimi sıradan çıxartmaqdan ibarət olub. (204, 22 sentyabr 1988)

Ə.Əhmədovun 1999-cu ildə "Gəncə şəhərinin mədəni quruculuğu (1956-1960-cı illər)" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyasında akademik H.Hüseynova qarşı planlı surətdə həyata keçirilmiş təzyiqlərə aid faktlar da araşdırılıb. Müəllif qeyd edilir ki, M.C.Bağırov 1950-ci il iyulun 14-də Bakı ziyalılarının yığıncağındakı məruzəsində və "Müridizm və Şamil hərəkatının

xarakteri haqqında məsələyə dair" məqaləsində Şeyx Şamilə ingilis casusu, H. Hüseynova isə burjua millətçisi damğasını vuraraq onu kəskin tənqid atəşinə tutub. Hətta M.C.Bağırov həmin iclasda kitaba müsbət rəy vermiş ədəbiyyatşünas Məmməd Arif və yazıçı Mehdi Hüseyni təhqir etməkdən belə çəkinməyib. Kitabına verilmiş Stalin mükafatının geri alınması, qərəzkarlıqla partiya cəzası verilməsi alimə çox pis təsir göstərib və akademik H.Hüseynov bu təzyiqlərə dözməyərək 1950-ci il avqustun 15-də öz bağında intihar edib.

İ.Stalinin ölümündən sonra ölkənin ictimai-siyasi həyatında baş verən dəyişiklər akademik H.Hüseynovun haqqında da ədalətin bərpasına kömək etdi. Onun qiymətli elmi tədqiqat işinə böyük ehtiyacı nəzərə alaraq Azərbaycan SSR EA Rəyasət Heyəti kitabın təkrar nəşri haqqında qərar çıxartdı. H.Hüseynovun akademik A.O.Makovelskinin redaktorluğu ilə 1958-ci ildə, rus dilində yenidən nəşr olunan "XIX əsr Azərbaycanın ictimai və fəlsəfi fikir tarixindən" adlı kitabı alimə ölümündən sonra göstərilən böyük hörmətin nümunəsi idi. Akademik A.O.Makovelski kitabın əvvəlində əsər haqqında belə yazmışdı: "H.Hüseynovun kitabı Azərbaycan ictimai və fəlsəfi fikri tarixinin tədqiqinin başlanğıcını qoyan, özündə ciddi elmi işi əks etdirən bir əsərdir."

H.Hüseynov 430 səhifəlik kitabın yalnız 43-44 səhifələrində Şeyx Şamili adı çəkilib ki, bu da aşağıdakılardan ibarətdir:"Azərbaycan kəndliləri çar müstəmləkə siyasətinə və yerli feodallara qarşı mübarizədə həmçinin Şeyx Şamil hərəkatından da ruhlanırdılar. Heç də təsadüfi deyil ki, çar məmurları öz hesabatları və məruzələrində dəfələrlə bunu qeyd edirdilər. Şamil də öz növbəsində çarizmə qarşı Azərbaycan xalqının mübarizəsinə hər vəchlə kömək etməyə çalışırdı." Daha sonra elə orada müəllif SSRİ Elmlər Akademiyası tərəfindən 1937-ci ildə, rus dilində nəşr olunmuş "Rus çarizminin XIX əsrin 20-60-cı illərində Azərbaycanda müstəmləkə siyasəti" kitabın 8-ci səhifəsinə istinadən polkovnik V.Viktirovun Tiflisə qraf A.X.Benkendorfa "Yuxarı zümrənin vəziyyəti və Zaqafqaziyanın müsəlman vilayətlərində müridizimin müvəffəqiyyətləri haqqında" məlumata əsaslanıb. Orada da digər məsələlərlə yanaşı qeyd olunur ki, Şamilin iradəsi ilə 2-3 günə 10 minə qədər əhali mübarizə üçün toplaşa bilir. Müəlif kitabın 43-44 səhifələrində kəndli üsyanları və Şeyx Şamillə bağlı V.İ.Lenin fikirlərinə və sovet tarixşünaslığına istinad etməklə tədqiqat aparmasına baxmayaraq əsassız tənqidlərə və təzyiqlərə məruz qalmışdı.

Sovet rejimin uzun illər apardığı təzyiq və repressiyalara baxmayaraq müharibədən sonra da rejimə qarşı mübarizə sönməmiş, nisbətən zəif də olsa davam etmişdir ki, bu məsələlər də sovet tarixşünaslığında öz əksini tapmamışdı.

Z.Bünyadovun 1993-cü ildə nəşr olunmuş “Qırmızı terror” kitabında “İldırım” təşkilatının fəaliyyəti haqqında arxiv sənədləri əsasında daha ətraflı məlumat verilib. Kitabda yazılır ki, təşkilatın əksəriyyəti tələbə olan 8 üzvü 1942-ci ilin iyul-sentyabr aylarında həbs olunub. Daxili işlər komissarlığı qoşunlarının hərbi tribunalı 1942-ci il oktyabrın 31-də Süleyman Əli Abbas oğlu İsgəndərli, Ələsgər Səttar oğlu Tağıyev, Məmmədhüseyn Həbib oğlu Rzayev güllələnməyə, Çingiz Seyfulla oğlu Mustafayev, Hüseynağa Mirhaşım oğlu Ağayev, Ağa Ələsgər Rza oğlu Məmmədov, Saleh Əbdülhüseyn oğlu Rzayev və Zaman Zeynal oğlu Mehdiyev 10 il həbs cəsasına məhkum edilib. (93,s.302)

S.İsgəndərlinin təşkilat üçün tərtib etdiyi andın mətnində deyilirdi: “Mənim idealım millətimi əsirlik zülmündən xilas etməkdir. Mənim məsləkim ... milli xoşbəxtlik cəmiyyətinin yaradılması üçün yeganə vasitə olan kamalizmdir. Yaşasın kamalizm !”

Kitabda 1948-ci ilə qədər fəaliyyət göstərərək sovet rejiminə qarşı mübarizə aparmış, həmin il sentyabrın 26-da həbs edilmiş digər 8 nəfər haqqında da məlumat verilib. Kitabda qeyd olunur ki, həmin şəxslər “Dönməzlər” imzası ilə S.Vurğuna məktub göndərib və sonradan ekspertlər bu məktubun Azərbaycan Pedaqoji İnstitutunun aspirantı İsmixan Məmməd oğlu Rəhimov tərəfindən yazılmasını müəyyən ediblər. Daha sonra müəllif Azərbaycan SSR Ali Məhkəməsinin 21-22 mart 1949 - cu il tarixli hökümü ilə təşkilatın üzvlərindən Rəhimov İsmixan Məmməd oğlunun, Abdullayev Gülhüseyn Hüseyn oğlunun, Zeynalov Hacı Həbib oğlunun 25 il, Kamal Əliyevin, Aydın Vahidovun, Azər Ələsgərovun, Musa Abdullayevin və Kamal Rzayevin 10 il azadlıqdan məhrum edilməsi haqqında məlmat verir. (93 s.322)

Kitabda göstərilən bəzi faktlar başqa müəlliflərin məqalələrində də öz əksini tapıb. Məsələn, N.Nəsirli öz məqaləsində qeyd edir ki, 1948-ci ildə 6 ilə yaxın qeyri - leqal fəaliyyət göstərən “İldırım” tələbə təşkilatının üzvləri həbs edilərək Sibir həbs düşərgələrinə göndərilmiş, 1956-cı ilə qədər orada işgəncələrə məruz qalmışlar.( 294, 28 may 1998 )

Tarixçi-etnoqraf, İsmayıl Umudlunun publisistik səpkidə yazdığı və

1999-cu ildə nəşr olunmuş “Azərbaycanda dissident fikir cərəyanı” kitabında da yuxarıda qeyd olunan 40-cı illərdə baş vermiş hadisələr işıqlandırılıb.

A.Quliyevin “Ədalət” qəzetinin 30 sentyabr 2000-ci il tarixli sayında dərc olunmuş “50-ci illərin dissidentləri” adlı məqaləsi “Onlar 1956-cı ildə Azərbaycanın müstəqilliyi üçün referendum keçirilməsini tələb ediblər” cümləsi ilə başlayır. Məqalədə 50-ci illərdə Azərbaycan İncəsənət İnstitutunun müəllimi, 1945-1946-cı illər Cənubi Azərbaycan Milli Hökümətinin mədəniyyət naziri olmuş Məhəmməd Biriyanın təsiri ilə formalaşmış dissidentlər Cahid Bilaloğlu və Çingiz Abdullayevin Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsindən bəhs olunur. Onlar SSRİ Konstitutsiyasında göstərilmiş “Hər bir müttəfiq respublikanın SSRİ-dən ayrılmaq hüququ var” maddəsini əsas götürərək BMT-yə müraciət etmək və referendum yolu ilə Azərbaycanın müstəqilliyinə nail olmağın mümkün olması fikrini təbliğ edir və bunu ürəkdən arzulayırdılar. Lakin DTK tərəfindən həbs olunmaları onların öz arzularını həyata keçirməyə imkan vermədi. Məqalədə qeyd olunur ki, buna baxmayaraq həbs olunana qədər Cahid Hilaloğlu 28 may 1956-cı ildə müstəqil Azərbaycanın üçrəngli bayrağını Qız Qalasının üzərinə sancmağa müvəffəq oldu.

N.Yaqublunun 2002-ci ildə nəşr olunmuş “Azərbaycan legionerləri” kitabında lengionerlər haqqında sovet tarixşünaslığından fərqli yanaşma özünü göstərir. Kitabın XIII bölümü “İkinci Dünya müharibəsindən sonrakı illərdə Azərbaycan legionerlərinin fəaliyyəti” adlanır. Həmin bölümdə qeyd olunur ki, İkinci Dünya müharibəsindən sonra Azərbaycan legionerləri Türkiyədə M.Ə.Rəsulzadənin, Almaniyada isə Ə.F.Düdənginskinin rəhbərliyi altında olan müvafiq qurumlarda fəaliyyətə başladılar. Türkiyənin Ankara şəhərində M.Ə. Rəsulzadənin bilavasitə rəhbərliyi ilə 1949-cu ilin fevralında Azərbaycan Kultur Dərnəyi yaradıldı və 1952-ci ildə “Azərbaycan” jurnalı nəşr edilməyə başlandı. Müəllif bölümün sonunda qeyd edir ki, sovet hakimiyyətinin mövcudluğu dövründə xarici ölkələrdə yaşayan legionerlər “vətən xaini” elan edilsələr də, yalnız 70-80-ci illərdə Azərbaycanda olan qohumları ilə məktublaşmağa və onlarla görüşməyə icazə ala bilmişdilər. Müəllifin fikrincə legionerlərin İkinci Dünya müharibəsindən sonrakı fəaliyyəti ümumilikdə Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda mübarizəyə istiqamətlənmişdi

50-ci illər tarixşünaslığında öz əksini tapmayan, lakin “Azərbaycan tarixi”

nin 50-ci illər dövrü haqqında obyektiv təsəvvür yaradan M.Ə.Rəsulzadənin 28 may 1953-cü il tarixdə "Amerikanın səsi" radiosu ilə Azərbaycana xitab çıxışı sonrakı illərdə də öz aktuallığını itirməmyib. M.Ə.Rəsulzadə demişdir: "1920 - ci il istilasına qarşı 1918-ci il istiqlal haqqını müdafiə edən Qafqasiya millətləri indi 33 ildir ki, müxtəlif vasitələrlə mücadilə edirlər. Zaman - zaman dramatik şəkillər alan bu mücadilədə vaxtı ilə yalançı kommunist şüarlarına aldanan, yol azmış bəzi vətəndaşlar belə bu gün həqiqi milliyyətçilər və vətənpərvərlər cəbhəsinə keçmişlər...Şükür ki, hadisələr bizə kömək edir. Dünya sovet həqiqətini görməyə başlayır. 8 ildən bəri hərbi bitirmişkən sülhə qovuşa bilməyən dünya artıq məsələni anlayır. Bilir ki, azadlıq və insan haqlarını inkar edən kommunistlər müəzzəm bir dövlət halında ayaqda durduqca və dünya inqilabı atəşi ilə yandırmaq üçün könlü keçdikcə yer üzündə heç bir zaman sülh və asayiş buluna bilməyəcəkdir. Azadlıq cahanşümul bir fikirdir... Şübhəsizdir ki, bir gün həqiqət parıldayacaq, azadlıq əsasını, Birləşmiş Millətlər prinsipini və insan haqlarını tutan tərəf qalib gələcəkdir. Bu qalibiyyət günəşi qızıl istibdad zülmü altında inləyən əziz vətənimizdə 1918-in 28 Mayı kimi yenidən doğacaqdır. Buna qətiyyən şübhə etməyiniz." (22, 26 aprel 1991)

Azərbaycan Xalq Cümhuriyyəti təhlükəsizlik idarəsinin rəisi Nağı bəy Şıxzamanlının 1964-cü ildə İstambulda çap olunmuş "Azərbaycan istiqlal mücadiləsinin xatirələri" kitabında da Azərbaycan istiqlalının bərpasına böyük inam öz əksini tapıb. Müəllif yazır: "Buna inanıram ki, keçmişindən daim iftixar payı ala-ala gəlmiş xalqımız bu naçiz əsərimi ölkəmdə rəsmlərlə süsləyib yenidən nəşr etdirəcək, bu dastan dolu şanlı keçmişi öyrənəcək və yurdun istiqlalı uğrunda fədakarca çalışmış babalarını şükranla anmaq qədirşünaslıpğı göstərəcəkdir."(163,s.155)

Sovet tarixşünaslığında öz əksini tapmayan bu cür tarixi faktlar onu göstərir ki, 30-cu illərin dəhşətli repressiyalarına və müharibənin törətdiyi faciələrə baxmayaraq Azərbaycan xalqının müstəqillik, azadlıq ideyalarını kommunist rejimi məhv edə bilməyib.

Azərbaycan mühacirənin görkəmli nümayədəsi olan Süleyman Təkinərin Münxendə türk dilində çıxan "Dərgi" adlı ədəbi jurnalın 1959-ci il 17-ci sayında dərc olunan və "525 -ci qəzetin" 27 dekabr 2006-cı il tarixli sayında təkrar işıq üzü görən "Sovet Azərbaycanında tənqidlərə hədəf olan bəzi şeirlər üzərində

araşdırmalar" məqaləsində XX əsrin 50-ci illərində ziyalılara qarşı partiya ideoloqları tərəfindən göstərilən təzyiqlərdən bəhs olunur. Məqalədə Bakıda nəşr olunan "Azərbaycan" jurnalının 1959-cu il fevral nömrəsində Rəsul Rzanın çap olunan "İnsan" və bir sıra digər şeirlərinə kommunist rəhbərlərin qərəzli münasibətindən bəhs olunur. Jurnal işıq üzü gördükdən sonra sovet tənqidçiləri onu kəskin tənqid etmiş və hətta bu şeir Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji işin vəziyyətinə dair 1959-cu ilin aprelində Bakıda keçirilən fəallar iclasında müzakirə edilib. Mərkəzi Komitənin katibi öz çıxışında qeyd edib ki, "yaradıcı işçilərimizin heç də hamısı həyatla ayaqlaşmır. Bəzən ədəbiyyat və incəsənətimizdə ideya və bədii cəhətdən zəif əsərlər meydana çıxır. Rəsul Rzanın "İnsan" şeri buna misal göstərilə bilər. Yazıçılarımız, bəstəkarlarımız, rəssamlarımız həyatı daha dərindən öyrənməli, sovet xalqının böyük qələbələrini öz əsərlərində parlaq əks etdirməlidirlər. Kommunizm qurucusu olan sovet adamı, ədəbiyyat və incəsənət əsərlərinin əsas qəhrəmanı olmalıdır".

Rəsul Rzanın "İnsan" şerindən başqa "Anket əhvalatı", "Sadə səbəb", "Təcrübəsizlik", "Ceyran dedi", "Divar daşı", "Sığorta" şerləri də bu dövrdə kommunust partiyası ideoloqlarının kəskin tənqid hədəfinə çevrilmişdi. (111,11 aprel 1959-cu il)

"Sığorta" şerində şairin sığortaçıya müraçiətlə dediyi: "De görüm böhtandan, qaradan, Yalandan, riyadan, Nahaq sözün acısından, Adamın nacinsindən Sığorta edə bilərsənmi? Əgər sən insanları bütün bu bəlalara qarşı sığorta etməkdən acizsənsə, bu halda: Dəftərini bük, Qələmini yaxana sanc! Məndən sənə nə qazanc! Mən ölümdən sığorta istəmirəm" fikrləri kommunist ideologöyasına zidd fikirlər kimi o zaman sovet mətbuatında kəskin tənqid olunub. (204,18 aprel 1959)

Kommunizm cəmiyyəti quruculuğu planlarının iflasa uğramasından sonra cəmiyyətdə olan ideoloji boşluğu doldurmaq məqsədi ilə kommunist ideoloqları tərəfindən yeni konsepsiya, inkişaf etmiş sosializm konsensiyası irəli sürüldü. Faktlar göstərir ki, hələ kommunizm cəmiyyəti quruculuğu konsepsiyası irəli sürülməmişdən əvvəl tarixçilər bu konsepsiyaya aid bir sıra əsərlər yazıblar. Bu konsepsiyaya münasibətdə alimlər arasında fikir ayrılığı 50-ci illərin axırlarından başlayaraq SSRİ-nin süqutuna qədər davam edib. Alimlərin bir hissəsi bu dövrün sosializmin qəti qələbəsindən sonra, yəni, 50-ci illərin axırlarından, bir

hissəsi 60-cı illərdən, başqa bir hissəsi isə 70-80-cı illərdən başlandığını irləi sürürdülər. İ.B.Berxinin 1957-ci ildə nəşr olunmuş kitabında (464) inkişaf etmiş sosializm cəmiyyətinin yaradılmasından bəhs olunmuş, lakin sonradan 60-cı illərin əvvəllərində bu konsepsiyanı "kommunizm quruculuğu" konsepsiyası əvəz etmiş, 60-cı illərin ortalarından başlayaraq yenidən inkişaf etmiş sosializm konsepsiyasına qayıdılmışdır.

SSRİ-də 1959-cu ilin yanvarında qəbul olunmuş 1959-1965-ci illəri əhatə edən yeddillik plan kommunizm cəmiyyəti quruculuğunu nəzərdə tutuğu üçün, Sov. İKP-nin siyasətinə uyğun olaraq 50-ci illərin axırı və 60-cı illərin birinci yarısında siyasi, iqtisadi, fəlsəfi və digər mövzularda yazılan kitablar içərisində kommunizm cəmiyyəti quruculuğuna həsr olunan kitab və məqalələr çoxluq təşkil edib.

Sovet tarixşünaslığından fərqli olaraq müasir dövrdə nəşr olunan kitablarda 1946-1950-ci illər dövrünə yeni baxış özünü büruzə verir. Məsələn, T.Qaffarovun 1999-cu ildə "Mütərcim" nəşriyyatı tərəfiindən çap olunan 279 səhifəlik "Azərbaycan tarixi" (1920-1991-ci illər) kitabında bu dövr "Müharibədən sonra ilk illərdə totalitar rejimin güclənməsi. İqtisadi sosial həyat" adlanır. Bundan başqa həmin paraqraf üç yerə bölünərək "Totalitar rejimin güclənməsi və ona qarşı mübarizə cəhdləri", "Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası", "İqtisadi və sosial həyatın inkişaf meylləri" yarımbaşlıqları şəklində verilib. Dövrün digər hissələri isə sonrakı paraqrafların tərkibində "50-80-ci illərdə siyasi sistemi təkmilləşdirmək cəhdləri. İctimai-siyasi həyat", "50-ci illərin ortaları 60-cı illərdə iqtisadi və sosial həyat " başlıqları altında şərh olunur.

SSRİ-də 50-ci illərin axırı-60-cı illərin əvvəllərində siyasi sistemin təkmilləşdirilməsi, ictimai-siyasi həyatın demokratikləşdirilməsi cəhdlərini başa çatdırmaq mümkün olmadı. Hətta bir çox tarixi ədəbiyyatda qeyd olunur ki, SSRİ-də 1985-ci ilin aprelindən həyata keçirilən yenidənqurma prosesi 50-ci illərin axırı-60-cı illərin əvvəllərində başlansa da iqtisadi çətinliklər və sovet rejiminin mahiyyətindən doğan problemlər ucbatından bu proses axıra çatdırılmadı və yarımçıq qaldı. Bu problemin tədqiqinə qadağa qoyulduğuna görə sovet tarixşünaslığında uzun müddət bu məsələ tədqiq olunmayıb. Yalnız 1985-ci ilin aprelindən etibarən elmi ələbiyyatda bu mövzuda məqalələr yazılmağa başlandı.

Məsələn, E.Y.Zubkovun rus dilində nəşr olunmuş “1956 və 1965-ci illərdə başa çatdırılmamış dəyişiklərin təcrübə və dərsləri” məqaləsi buna misal ola bilər. (499,№4,1988,s.74-88)

Bütün bunlar onu göstərir ki, 50-ci illərin ikinci yarısının tarixşünaslıığı ilə 60-cı illər tarixşünaslığı arasında sıx əlaqə mövcuddur və bunlar bir-birini tamamlayır. Buna görə də yazılan bir sıra kitab, məqalələrdə və dissertasiyalarda bu illər eyni dövr kimi tədqiq olunub.

İ.Stalinin ölümündən sonra reyimin yumşalması ilə ictimai-siyasi şəraitin nisbətən sağlamlaşması tədqiqatlara da öz müsbət təsirini göstərməyə başlamışdır. Stalinin şəxsiyyətinə pərəstişin doğurduğu ağır nəticələrin kəskin tənqidi bütün inqilabi hərəkatın tarixinə qlobal şəkildə yenidən yanaşılmasına, inqilabda “iki rəhbər” nəzəriyyəsindən imtina edilməsi ilə nəticələndi. Yumuşalma dövründə patiya-dövlət orqanlarının ideoloji nəzarətinin zəifləməsi tarix elmi üçün nisbətən əlverişli şərait yaradırdı ki, bu da elmi tədqiqatlarda marksizm ətrafında metodoloji axtarışlar olan “yeni istiqamət”in meydana gəlməsinə səbəb oldu. Bu dövrdə elmi tədqiqat müəssisələrinin şəbəkəsi, tarixçilərin beynəlxalq aləmə çıxışı, onların beynəlxalq konfranslarda iştirakı genişləndi. Lakin bütün bunlara baxmayaraq bu dövrdə kommunist partiyasının istiqamətverici təsiri əvvəlki illərə nisbətən zəif olsa da nəşr olunan əsərlərdə özünü büruzə verirdi.

1946-50-ci illərin sovet tarixşünaslığının elmi şəkildə təhlili sübut edir ki, bu dövr də digər dövrlər kimi sovet tarixçiləri tərəfindən birtərəfli tədqiq edilib. Araşdırmalar göstərir ki, 50-ci illərin əvvələrində yazılan əsərlərlə, 50-ci illərin axırlarında yazılan əsərlər arasında köklü fərqlər mövcuddur. Bunun da əsas səbəbini fikrimizcə 1956-cı ildən sonra tədqiqatlar üçün yaranmış nisbətən əlverişli mühitdə axtarmaq lazımdır.

Sovet tarixşünaslığının 1946-1950-ci illərinin tədqiqi göstərir ki, o illərdə tarixçilərin dinc yaradıcılıq faliyyəti bərpa olunumuş, bir sıra ərazilərdə dağıdılmış arxiv və muzey fondları bərpa edilmişdir. Lakin tədqiqatlar üçün ideoloji mühit yenə də əlverişsiz olaraq qalırdı. Müharibə dövründə meydana gəlmiş millətçi meyllərin şövinist xarakter almağa başlaması, digər sahələrdə olduğu kimi tarixi tədqiqatlara da öz mənfi təsirini göstərib. Bundan başqa bu dövrdə kosmopolotizmə, kibernetikaya və genetikaya qarşı aparılan kampaniyalar humanitar elmlərin, o cünlədən tarix elminin inkişafına da mane olurdu. Məhz bu cür səbəblərdən

1946-1950-ci illərə aid sovet tarixçilərinin yazdıqları kitab və məqalələrdə digər məsələrlə yanaşı ictimai-siyasi vəziyyət də birtərəfli tədqiq olunub, buna görə də bu dövrün yenidən, obyektiv şəkildə tədqiqi aktual olaraq qalır.

Fikrimizcə bu dövrü gələcəkdə tədqiq edəcək tədqiqatçılar sovet tarixşünaslığında əksini tapmayan, lakin obyektiv reallıqda mövcud olmuş hadisələrə xüsusi diqqət verməlidirlər. Bu dövrdə Azərbaycana rəhbərlik etmiş M.C.Bağırovun fəaliyyətinin birtərəfli deyil, obyektiv dəyərləndirilməsi, sovet rəhbərliyinin milli dəyərlərin məhv edilməsi istiqamətində apardığı məqsədyönlü fəaliyyətin fəsadları, bu illərdə fəaliyyət göstərmiş gizli təşkilatlar, dissident hərəkatı, müharibədən sonra mövcud olmuş ərzaq qıtlığı və bunun nəticəsində baş vermiş kütləvi aclıq hallarının fəsadları, müharibə dövründə və müharibədən sonra Azərbaycanın bir çox yüksək rütbəli zabitlərinin, Sovet İttifaqı qəhrəmanlarının müəmmalı şəkildə həyatdan köçmələri, Azərbaycan ərazilərinə qarşı erməni və gürcü millətçilərinin iddiaları və buna qarşı aparılmış mübarizə, Ermənistan ərazisindən azərbaycanlıların öz dədə-baba yurdlarından deportasiya edilməsi və bunun acı nəticələri, bu dövrdə davam etmiş repressiyalar, cənubi Azərbaycanda 1945-1946-cı illərdə fəaliyyət göstərmiş Milli Hökümət fəaliyyəti, Milli Hökümətin məğlubiyyətindən sonra SSRİ-yə pənah gətirən rəhbər işçilərin və fədailərin sonrakı taleləri, müharibə dövründə Azərbaycanlı əsirlərdən təşkil olunmuş milli legionun üzvlərinin müharibədən sonrakı fəaliyyəti və digər məsələlərin obyektiv şəkildə tədqiqnə ciddi ehtiyac var.

### 3.2. 1960 - cı illər tarixi tədqiqatlarda

SSRİ-də 1959-cu ilin yanvarında qəbul olunmuş 1959-1965-ci illəri əhatə edən yeddillik plan kommunizm cəmiyyəti quruculuğunu nəzərdə tutuğu üçün, Sov. İKP-nin siyasətinə uyğun olaraq 50-ci illərin axırı və 60-cı illərin birinci yarısında siyasi, iqtisadi, fəlsəfi və digər mövzularda yazılan kitablar içərisində kommunizm cəmiyyəti quruculuğuna həsr olunan kitab və məqalələr çoxluq təşkil edib.

Faktlar göstərir ki, hələ kommunizm cəmiyyəti quruculuğu konsepsiyası irəli sürülməmişdən əvvəl tarixçilər bu konsepsiyaya aid bir sıra əsərlər yazıblar. Bu konsepsiyaya münasibətdə alimlər arasında fikir ayrılığı 50-ci illərin

axırlarından başlayaraq SSRİ-nin süqutuna qədər davam edib. Alimlərin bir hissəsi inkişaf etmiş sosializm konsepsiyasını müdafiə etmişlər. Onların bir hissəsi bu dövrün sosializmin qəti qələbəsindən sonra, yəni, 50-ci illərin axırlarından, bir hissəsi 60-cı illərdən, başqa bir hissəsi isə 70-80-cı illərdən başlandığını irləi sürürdülər. İ. B. Berxinin 1957-ci ildə nəşr olunmuş kitabında (464) inkişaf etmiş sosializm cəmiyyətinin yaradılmasından bəhs olunmuş, lakin sonradan 60-cı illərin əvvəllərində bu konsepsiyanı "kommunizm quruculuğu " konsepsiyası əvəz etmiş, 60-cı illərin ortalarından başlayaraq yenidən inkişaf etmiş sosializm konsepsiyasına qayıdılmışdır.

Sovet tarixşünaslığından fərqli olaraq müasir dövrdə nəşr olunan kitablarda dövrə münasibətdə yeni baxış özünü büruzə verir. Məsələn, T.Qaffarovun 1999-cu ildə çap olunan "Azərbaycan tarixi" (1920-1991-ci illər) kitabında bu dövr "50-80-ci illərdə siyasi sistemi təkmilləşdirmək cəhdləri. İctimai-siyasi həyat", "50-ci illərin ortaları 60-cı illərdə iqtisadi və sosial həyat" başlıqları altında şərh olunur.

SSRİ-də 50-ci illərin axırı 60-cı illərin əvvəllərində siyasi sistemin təkmilləşdirilməsi, ictimai-siyasi həyatın demokratikləşdirilməsi cəhdlərini başa çatdırmaq mümkün olmadı. Hətta bir çox tarixi ədəbiyyatda qeyd olunur ki, SSRİ-də 1985-ci ilin aprelindən həyata keçirilən yenidənqurma prosesi 50-ci illərin ortaları 60-cı illərin əvvəllərində başlansa da iqtisadi çətinliklər və sovet rejiminin mahiyyətindən doğan problemlər ucbatından bu proses axıra çatdırılmadı və yarımçıq qaldı. Bu problemin tədqiqinə qadağa qoyulduğuna görə sovet tarixşünaslığında uzun müddət bu məsələ tədqiq olunmayıb. Yalnız 1985-ci ilin aprelindən etibarən elmi ələbiyyatda bu mövzuda məqalələr yazılmağa başlandı. Məsələn, E.Y.Zubkovun rus dilində nəşr olunmuş "1956 və 1965-ci illərdə başa çatdırılmamış dəyişiklərin təcrübə və dərsləri " məqaləsi buna misal ola bilər. (499,№4,1988,s.74-88)

Bütün bunlar onu göstərir ki, 50-ci illərin ikinci yarısının tarixşünaslıığı ilə 60-cı illər tarixşünaslığı arasında sıx əlaqə mövcuddur və bunlar bir-birini tamamlayır. Buna görə də yazılan bir sıra kitab, məqalələrdə və dissertasiyalarda bu illər eyni dövr kimi tədqiq olunub.

Sovet tarixşünaslığında 60-cı illərin birinci yarsı əvvəl kommunizm cəmiyyəti quruculuğu dövrü kimi xarakterizə olunurdu. Lakin sonradan kommunizm cəmiyyəti quruculuğu ilə bağlı irəli sürülən nəzəriyyə və planlar

iflasa uğradıqdan sonra reallığı əks etdirməyən yeni konsepsiyalar irəli sürülməyə başlandı ki, bu da dövrün adının da dəyişdirilməsinə səbəb oldu.

Moskvada 1987-ci ildə sovet dövrü tarixinin dövrlərə bölünməsinə aid keçirilmiş dəyirmi masada 1956-1985-ci illər dövrünü elmi ədəbiyyatda inkişaf etmiş sosializmin bir mərhələsi kimi vermək təklif edilmişdi.(499,№7,s.54,№ 9,s. 84,№12,s.80,1987)

Sov.İKP XX qurultayının xarici və daxili şəraitin dəyişilməsini nəzərə almaqla sosializmin təkmilləşdirilməsi yollarını müəyyən etməsi sonradan bu kimi təkliflərin ortaya çıxmasına səbəb olmuşdu.

50-ci illərin axırı 60-cı illərin əvvəllərində partiya qərarlarında, tarixçilərin əsərlərində reallıqla uzlaşmayan mövzular, məsələn kolxoz mülkiyyətinin inkişaf perspektivləri və s. geniş təbliğ olunurdu. Sosializm cəmiyyəti və onun inkişaf edərək kommunizmə keçməsi haqqında fikirlərin təbliğinə bu əsərlərdə geniş yer verildiyinə görə 80-ci illərin ikinci yarısının tarixşünaslığında həmin əsərlərin tənqidinə aid də məqalələr yazılıb.(499,№4,1988,s.58)

60-cı illərin əvvəllərində tarixi tədqiqatların yeniləşməsi, əvvəllər yol verilmiş nöqsanların aradan qaldırılması istiqamətində müəyyən işlər həyata keçirilirdi. 18-21-dekabr 1962-ci il tarixində Moskvada 2 min nəfərə yaxın tarixçinin iştirakı ilə tarix elmləri sahəsində elmi-pedaqoji kadrların hazırlanmasının yaxşılaşdırılmasına həsr olunmuş Ümumittifaq müşavirə buna misal ola bilər. Müşavirədə tarixi tədqiqatların təkmilləşdirilməsi, onların əsas istiqamətləri, şəxsiyyətə pərəstişin nəticələrinin aradan qaldırılması, elmi kadrların hazırlanması problemləri müzakirə edildi. Görkəmli tarixçilərdən E.M.Jukovun, İ.İ.Minsin, M.V.Neçkinanın, B.N.Ponomaryovun, B.A.Rıbako- vun, S.D.Skazkinin iştirak etdiyi bu müşavirədə tarixçilərin problemlərin təhlilinə elmi yanaşmaları əsas amil kimi irəli sürülmüş, yaradıcı elmi diskusiyaların mühüm rolu qeyd olunmuş, tarixi tədqiqatların prioritet istiqamətləri müəyyən edilmişdir. (505,s.26)

60-cı illərin ikinci yarısında "Böyük on illik" adlandırılan 1953-1964-cü illərdə yalnız pozitiv cəhətlərin tədqiq olunması tənqid olunmağa başlamış və bu konyunkturadan əl çəkilməsinə müəyyən cəhətlərlə edilmişdir. Lakin 1964-cü ilin oktyabrından başlayaraq "qarayaxmalara" yol verməmək bəhanəsi ilə tədqiqatçılardan müxtəlif dövrlərdə yol verilmiş nöqsanlara, buraxılmış səhvlərə ciddi fikir verməmək tələb olunurdu ki, bu da obyektiv tarixi tədqiqatların

aparılmasına imkan vermirdi.Tarixi tədqiqatlar sahəsində bu xətt 80-ci illərin ikinci yarısına qədər davam etmişdir.

Sovet Ordusu və Hərbi-Dəniz Donanması Baş siyasi idarəsinin rəsi, general A.A.Yepişevin tarixi tədqiqatlar haqqında 1966-cı ildə irəli sürdüyü fikirlər sovet rəhbərliyinin bu sahədəki siyasətinin mahiyyətini açıq aydın göstərir. A.A.Yepişev deyirdi: "Orada "Novıy mir" jurnalında deyilir ki, həqiqətin qara çörəyini onlara verək. Lakin əgər bizə sərfəli deyilsə bütün bunlar nəyimizə lazımdır."(728,s.293-294)

Elmi tədqiqatlara kommunist rəhbərlərin bu cür yanaşmasının nəticəsində elmi tədqiqat mərkəzlərinə, o cümlədən nəşriyyatlara, jurnal və qəzet redaksiyalarına 60-cı illərin ortalarından başlayaraq 1937-1938-ci illərdə və başqa dövrlərdə repressiyalara məruz qalmış, 50-ci illərdə bəraət almış hərbi komandanların və başqa vətəndaşlar haqqında geniş tədiqat işləri aparılması dolayı yollarla qadağan olunmuşdu.

80-ci illərin ikinci yarısında bəzi sovet tarixçiləri belə hesab edirdilər ki, 60-cı illərin ortalarında partiya və ölkə qarşısında iki yol var idi: Ya subyektivizm və volyuntarizmdən əl çəkərək ardıcıl və elmi əsaslarla XX qurultayın başlanğıcını qoyduğu xətti davam etdirməklə, zamanın qarşıya qoyduğu tələblərə uyğun köklü dəyişiklər həyata keçirmək. Ya da ölkənin inkişafına mane olan amillərə toxunmadan siyasi sistemi və iqtisadi mexanizmi təkmilləşdirmə yoluna üstünlük vermək. SSRİ rəhbərliyi bunlardan ikincisini seçdi. 60-cı illərin ikinci yarısından ölkə həyatının nisbətən demokratikləşməsi istiqamətində aparılan işlərin üzərindən xətt çəkildi. Bunun da mənfi nəticələri 70-80-ci illərdə qabarıq şəkildə özünü büruzə verməyə başladı.

Sovet cəmiyyətində gedən proseslər göstərmişdi ki, cəmiyyətdə əmələ gələn bütün ziddiyyətlər kommunist rejiminin mahiyyətindən irəli gəlmişdi. Lakin rejim daxilində bu ziddiyyətləri doğuran səbəbləri tənqid etmək alimlərə qadağan olunduğuna görə obyektiv tədqiqat işləri aparmaq mümkün olmamışdır. Bütün bu çatışmazlıqlar haqqında nisbətən obyektiv məlumatları burjua alimlərinin o zaman nəşr olunmuş kitab və məqalələrindən, 80-ci ilin ikinci yarısından etibarən rejimin nisbətən yumuşalması nəticəsində ölkə daxilində yazılmış kitab və məqalələrdən almaq mümkündür.

SSRİ miqyasında, o cümlədən Azərbaycanda 60-cı illər tarixşünaslığına

aid bir sıra kitab və məqalələr yazılıb. (70,534,576,580,649,671,711,719 və s.)

60-cı illər tarixşünaslığının tədqiqi göstərir ki, tarixçilər bu illərin müxtəlif problemlərinə aid də çoxlu sayda əsərlər yazıblar. Bu dövrə aid Azərbaycanda 1970-ci ilə kimi 8 doktorluq, 33 namizədlik dissertasiyaları müdafiə olunub.(75, s.114-188)

Azərbaycan Kommunist Partiyasının 60-cı illər fəaliyyətinə aid tarixçilər bir sıra kitab və məqalələr yazıblar. (232, 233, 661 və s.)

S.T.Qəndilovun 1962-ci ildə nəşr olunmuş "Sov.İKP sıralarının birliyi sosializm və kommunizm qurmağın həlledici şərtidir", 1964-cü ildə çapdan çıxmış "Partiyanın gücü onun birliyindədir", 1971-ci ildə nəşr olunmuş "Dövrümüzün zəkası", "Azərbaycanda partiya quruculuğu məsələləri" kitabları "(232,233) bilavasitə kommunist partiyasının fəaliyyətinə həsr olunub.

"Dövrümüzün zəkası" kitabında Kommunist Partiyasının yaranması, inkişafı və partiya tərəfindən burjua ideologiyasına qarşı aparılmış mübarizə tədqiq edilib. Kitabda mənbələr əsasında Azərbaycan Kommunist partiyası sıralarının inkişaf dinamikası verilib. Məsələn, kitabda 1920-ci ildə bu təşkilatın sıralarında 4000 üzv olduğu halda, kitab çap olunduğu ərəfədə 250 mindən çox üzv olması, 1921-ci ildə partiya üzvlərinin yalnız 8,61 %-nin orta, 1,27%-nin ali təhsili olduğu halda, 1966-cı ildə kommunistlərin 50,2%-nin ali və natamam ali, 30,3%-nin orta təhsilli olması qeyl olunub. Bundan başqa kitabda partiya sıralarında 148 nəfər elmlər doktoru və 1431 nəfər elmlər namizədinin fəaliyyət göstərməsi, 1967-1969-cu illərdə partiya sıralarına qəbul edilənlər arasında fəhlə və kəndlilərin 70,9% təşkil etməsi, respublika partiya təşkilatında 75-ə yaxın millət və xalqın nümayəndələrinin olması, o cümlədən partiyada azərbaycanlıların 66,5%, ermənilərin 13,7%, rusların 12,4 % təşkil etməsi qeyd olunub.

K.M.Nikolayev rus dilində nəşr olunmuş "Azərbaycan Kommunist Partiyasının fəhlə özəyinin artımı (1959-1970-ci illər)" adlı kitabında (661) Azərbaycan KP-nin tərkibində 1959-cu ildən başlayaraq 1970-ci ilə qədər fəhlə sinfinin kəndli və ziyalılara nisbətən daha da artması rəqəmlərlə göstərərək, bunu şəxsiyyətə pərəstiş dövründən sonrakı mərhələnin böyük uğuru hesab edib.

Azərbaycan Kommunist Partiyasının 60-cı illər fəaliyyətinə aid tarixçilər bir sıra dissertasiyalar müdafiə ediblər. Bunlardan M.R.Vəkilovun 1965-ci ildə "Azərbaycan Kommunist Partiyası dəniz neft sənayesinin yeni yüksəlişi

uğrunda mübarizədə (1959-1965-ci illər)", K.N.Rəhimovun 1966-cı ildə "Sovet demokratiyasının Lenin prinsiplərini həyata keçirmək sahəsində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti", Ə.A.Əliyevin 1967-ci ildə "Azərbaycan Kommunist Partiyası kolxoz quruluşunun daha da inkişafı uğrunda mübarizədə (1959-1965-ci illər)", Y.N.Yusifovun 1969-cu ildə "Sovxozların yaradılması və inkişafı sahəsində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti (1920-1965-ci illər)", R.A.Orucovun 1969-cu ildə "Sov.İKP-nin bir-birinə əks olan iki dövlət sistemində Lenin dinc yanaşı yaşaması prinsipinin qələbəsi uğrunda mübarizəsi", İ.İ.Hüseynovun 1971-ci ildə "Kommunizm quruculuğu şəraitində Azərbaycan Kommunist Partiyasının ideoloji işi", M.S.Məmmədovun 1975-ci ildə "Azərbaycan Kommunist Partiyasının fəhlə sinfinin əməyə kommunist münasibəti ruhunda tərbiyə etmək sahəsində fəaliyyəti (1959-1970-ci illər)" mövzularında müdafiə etdikləri doktorluq, E.Y.Zelinskinin 1969-cu ildə "Sovet Azərbaycanının elm tarixi sahəsində beynəlxalq əlaqələrin inkişafı. (Azərbaycan SSR EA materialları əsasında)", X.M.Abbasovanın 1973-cü ildə "Azərbaycan Kommunist Partiyasının mənzil probleminin həlli sahəsindəki fəaliyyəti (1956-1965-ci illər)", İ.N.Bağırovun 1971-ci ildə "Naxçıvan partiya təşkilatının ideoloji işi (1959-1965-ci illər)", İ.H.Quliyevin "Azərbaycan Kommunist Partiyasının partiya-dövlət nəzarəti orqanlarına rəhbərliyi (1962-1965-ci illər)" mövzularında müdafiə etdikləri namizədlik dissertasiyalarını göstərmək olar.

60-cı illərdə sovetlərin fəaliyyətinə aid tarixçilər bir sıra kitab və məqalələr həsr ediblər.( 336, 340)

K.N.Rəhimovun "Sovet demokratiyasının Lenin prinsiplərinin təntənəsi" kitabında (336) sovet demokratiyasının spesifik xusiyyətləri, burjua demokratiyasından fərqli cəhətləri nəzəri cəhətdən əsaslandırılıb. Bundan əlavə Azərbaycan SSR-ə aid faktlara istinadən sovet demokratiyasının Lenin prinsiplərinin günü-gündən inkişaf etməsi qeyd edilib.

N.V.Rubanın Azərbaycan dilində nəşr olunmuş "Sovet sosialist cəmiyyəti" kitabında (340) sosialist cəmiyyətinin nəzəri əsasları haqqında məlumat verilir. Müəllif marksizm-leninizm klassiklərinin əsərlərinə, Kommunist Partiyasının qərar və qətnamələrinə istinad etməklə sovet sosialist cəmiyyətinin burjua cəmiyyətində üstünlüklərini sübut etməyə çalışıb.

Ç.S.Axundovun 1964-cü ildə "Geniş kommunizm quruculuğu dövründə

Azərbaycan SSR-in yerli sovetlərin tarixi (1959-1963-cü illər)" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası yerli sovetlərin fəaliyyətinə həsr olunub. Müəllif öz tədqiqatında yerli sovetlərin Konstitusiya və digər hüquqi sənədlər çərçivəsində yerlərdə müvəffəqiyyətlə fəaliyyət göstərməsini, dövlət orqanları kimi zəhmətkeşlərin mənafeyini müdafiə edərək sosialist demokratiyasının inkişafında mühüm rol oynamasını xüsusi qeyd edib. Müəllif sovetlərin fəaliyyətində yalnız müsbət cəhətləri göstərərək, bu dövrdə sovetlərin fəaliyyətində olan nöqsanlara münasibət bildirməməsi kitabın sovet tarixşünaslığına xas metodlarla yazıldığını göstərir.

Azərbaycan həmkarlar təşkilatlarının 60-cı illər fəaliyyətinə aid də tarixçilər kitab və məqalələr yazıblar.(535, 536, 537, 681 və s.)

T.T.Popov və D.T.Subotinin 1970-ci ildə Moskvada rus dilində nəşr olunmuş "Sovet ictimai təşkilatlarının tarixindən. Arxiv sənədləri toplusu" kitabı (681) ictimai təşkilatların 70-ci illərə kimi, o cümlədən 60-cı illərdəki fəaliyyətinin tədqiqində mühüm əhəmiyyət kəsb edir. Bu toplu bütün problemin tədqiqində mənbə rolunu oynamaqla tədqiqatçılara yaxından köməklik göstərib və müasir dövrdə də aktuallığını saxlayır.

K.A.Hüseynovun "Azərbaycan həmkarlar ittifaqları kommunizm quruculuğunda","Həmkarlar ittifaqları ümumxalq nəzarətinin fəal iştirakçılarıdır","Azərbaycanda həmkarlar hərəkatının tarixi oçerkləri" kitablarında (535,536,537) və onun M.İ.Naydellə birgə yazdığı "Sovet Azərbaycanının həmkarlar ittifaqları" kitabında Azərbaycan həmkarlar ittifaqlarının 60-cı illərdəki fəaliyyəti geniş şəkildə tədqiq olunub, həmkarlar təşkilatlarının tarixi inkişafı xronoloji ardıcıllıqla işıqlandırılıb.

Azərbaycan komsomolunun 60-cı illər fəaliyyətinə aid də tədqiqatçılar bir sıra kitablar və məqalələr yazıblar. (28, 38, 39, 227, 284 və s.)

"Azərbaycan komsomolu. Tarixi oçerklər", "Azərbaycan komsomolunun şanlı yolu. (Tövsiyyə ədəbiyyat göstəricisi)" kitabları(38,39) problemin tarixşünaslıq baxımından tədqiqində köməkçi ədəbiyyat kimi müəyyən əhəmiyyətə malikdir.

Azərbaycan komsomol təşkilatının 60-cı illər fəaliyyətinə aid yazılmış kitablarla yanaşı 1965-ci ildə nəşr olunmuş "Azərbaycan qızlarının IV qurultayı" kitabı (28) da gənclərin fəaliyyətinin tədqiqində mühüm rol oynayır.

Şagirdlərin kommunist tərbiyəsinin gücləndirmək məqsədilə 60-cı illərdə bir sıra kitablar nəşr olunurdu. Bunlardan "Qəhrəman pionerlər (IV-VI şagirdlər üçün yaddaş)" kitabını (227) göstərmək olar. Bu kitabda sovet rejimi uğrunda barışmaz mübarizə aparmış və bu yolda canlarını belə əsirgəməmiş pionerlər şagirdlərə nümunə göstərilir və şagirdlərə həyatda onlara oxşamaq tərbiyə olunurdu

İ.Məmmədovun "Qəhrəmanlıq tarixindən səhifələr" kitabında (284) komsomolçuların sosialzm cəmiyyəti quruculuğu sahəsində göstərdiyi xidmətlər, gənclərin özləri üçün deyil, kommunizm cəmiyyətində yaşayacaq insanların firavan həyatının təmin etmək uğrunda necə mübarizə aparması faktlarla göstərilib.

Fəhlə sinfinin 60-cı illər fəaliyyətinə aid M.A.Rüstəmov, T.K.Məmmədov, A.M.Amiyev, V.A.Çıraqzadə və başqa tarixçilər kitab və məqalələr yazıblar. (290,345,692,714,715 və s.) Bundan başqa 1967-ci ildə Böyük Oktyabr Sosialist İnqilabının 50 illiyi münasibətilə Azərbaycan Dövlət Universitetində "Böyük Oktyabr və Azərbaycan fəhlə sinfi" mövzusunda elmi sessiya keçirilib və həmin tədbirin materialları kitab şəkilində çap olunub.

Moskvada nəşr olunumuş "SSRİ-nin fəhlə sinfi (1951-1965-ci illər)" kitabı(692) fəhlə sinfinin fəaliyyətinin tədqiqi üçün çox dəyərli tədqiqat işidir. Bu kitabda verilmiş müxtəlif statistik rəqəmlər, müqayisəli təhlillər fəhlə sinfinin 50-60-cı illərdəki fəaliyyəti haqqında dolğun təsəvvür yaratmağa imkan verir. Lakin kitabda göstərilən çoxlu sayda statistik rəqəmlərin nə dərəcədə reallığı əks etirməsini üzə çıxarmaq böyük zəhmət tələb edir. Bunu üçün sovet tarixşünaslığına yalnız tənqidi münasibət bəsləmək və alternativ mənbələrə istinad etmək lazımdır.

Moskvada nəşr olunmuş "SSRİ-nin fəhlə sinfi 1917-1977-ci illər: Sovet ədabiyyatı göstəricisi" kitabı (693) fəhlə sinfinin ictimai-siyasi fəaliyyətinin tarixşünaslıq və mənbəşünaslıq baxımından tədqiqi üçün mühüm əhəmiyyət kəsb edir.

S.L.Senyavskinin "SSRİ fəhlə sinfinin say artımı (1951-1965-ci illər) və "İnkişaf etmiş sosializm şəraitində sovet cəmiyyətinin sosial quruluşu (1961-1980-ci illər) kitabları (714,715) SSRİ miqyasında, o cümlədən Azərbaycanda fəhlə sininfinin fəaliyyətinin tədqiqinə həsr olunub. Əhalinin say dinamikasının tədqiqi cəmiyyətin gələcək inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Bu problemin obyektiv tədqiqinin başqa ölkələrdə olduğu kimi SSRİ-də də 60-cı illərdə cəmiyyətin inkişafına müsbət təsiri ola bilərdi. Lakin sovet statistikasında

mövcud olmuş formalizm halları bu cür tədqiqatların obyektivliyinə kölgə salır. Bu kitablarda sovet cəmiyyətinin sosial quruluşunda baş verən dəyişiklər marksizm-leninizm nəzəriyyəsinə istinadən tədiqiq edildiyində, faktların əksəriyyəti reallıqla ziddiyyət təşkil edib.

M.A.Rüstəmovun "Ölkəmizdə fəhlə sinfinin mədəni-texniki səviyyəsinin artması qanunauyğunluqları"kitabında (345), T.K.Məmmədovun "Elmi-texniki tərəqqi və fəhlələrin hərtərəfli inkişafında onun rolu (Azərbaycan SSR materialları üzrə)" kitabında (290) və s. kitablarda 70-ci ilə qədər Azərbaycan SSR-in iqtisadi yüksəlişi, bu yüksəlişdə elmi-texniki tərəqqinin rolu, iqtisadiyyatda çalışan əsas qüvvə kimi fəhlə sinfinin inkişafına elmi-texniki tərəqqinin müsbət təsiri və fəhlə sinfinin mədəni-texniki səviyyəsinin artması tədqiq olunub.

Azərbaycanda fəhlə sinfinin 60-cı illərdəki illərdəki fəaliyyətinə aid bir sıra dissertasiyalar da yazılıb. Bunlardan F.Ə.Bağırovun "Geniş kommunizm quruculuğu dövründə Azərbaycan sənayesində sosialist istehsal münasibətlərinin möhkəmləndirilməsi və daha da inkişafı tədbirləri (1959-1962-ci illər)" (1964-cü il), A.M.Amiyevin "Kommunizm cəmiyyəti quruculuğu uğrunda mübarizədə Azərbaycan fəhlə sinfinin əmək fəallığı və yaradıcı təşəbbüsünün artması (1959-1965-ci illər)" (1966-cı il), M.İ.Quliyevin "Azərbaycan SSR-də tikintinin və inşaat materialları sənayesinin inkişafı uğrunda fəhlələrin mübarizəsi (1959-1965-ci illər)"(1966-cı il), Ş.M.Şərifovun "Kommunizm quruculuğu dövründə Azərbaycan fəhlə sinfi ilə kəndlilərin ittifaqının daha da möhkəmlənməsi (1959-1965-ci illər)"(1966-cı il), A.Q.Zeynalovun "İxtisaslı gənc fəhlə kadrların hazırlanması və tərbiyə edilməsi sahəsində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti (1952-1955-ci illər)"(1971-ci il) , C.X.Hüseynovun "Azərbaycan fəhlə sinfi kommunizm quruculuğu illərində (1959-1965-ci illər)"(1973-cü il) və s. mövzularda müdafiə olunmuş dissertasiyaları göstərmək olar. Bu dissertasiyalarında Azərbaycan fəhlə sinfinin fəaliyyəti sovet tarixşünaslığına xas metodlarla tədqiq olunub.

V.A.Çıraqzadənin 1966-cı ildə rus dilində "Nuxa şəhəri ipəkçi-fəhlələrinin sosialist məişəti" mövzusunda yazdığı elmi iş Azərbaycanın qədim ənənələrə malik Nuxa (indiki Şəki) şəhəri İpək Kombinatının əməkçiləri arasında yaranmış yeni sosialist məişəti, adət-ənənələrinin tədqiqinə həsr olunub. Müəllifin bu tədqiqat işini Şəki ipəkçilərinin fəaliyyəti haqqında yazılmış ilk böyük əsər hesab etmək olar. Digər sovet alimləri kimi V.A.Çıraqzadə də əsas diqqəti qədim

adət ənənələrə deyil, yeni sosialist həyat tərzinə, Azərbaycan xalqının milli mentalitetinə çox zaman uyğun gəlməyən yeni sosialist adət-ənənələrinə verərək, bu yeni adət-ənənələri cəmiyyətin inkişafına müsbət təsir göstərən amil kimi yüksək qiymətləndirib.

Fəhlə sinfinin 60-cı illər fəaliyyəti ilə yanaşı iqtisadiyyatın inkişafına, iqtisadi əlaqələrə, iqtisadiyyatın inkişafında qadınların roluna, ayrı-ayrı sənaye müəssisələrinin tarixinə və s. problemlərə həsr olunmuş tədqiqat işləri də yazılıb. Bunlardan Ə.H.Hacıyevin 1966-cı ildə "Asiya xalq demokratiyası, Asiya və Afrikanın inkişaf etməkdə olan ölkələrilə SSRİ-nin iqtisadi və mədəni əməkdaşlığında Sovet Azərbaycanının iştirakı (1956-1963-cü illər)", E.H. Qədirovanın 1969-cu ildə "Kommunizm quruculuğu döründə Azərbaycan SSR sənayesinin inkişafında qadınların rolu (1959-1965-ci illər)", N.H.Bünyadovun 1970-ci ildə "F.Dzerjinski adına Bakı Maşınqayırma zavodunun tarixi (1925-1964-cü illər)" və s. mövzularda yazılmış namizədlik dissertasiyalarını göstərmək olar.

Kəndli sinfinin 60-cı illər fəaliyyətinə aid X.O.Əlmirzəyev, S.Q.Yolçuyev, F.S.Maniyev, E.K.Məmmədov və başqa tarixçilər bir sıra məqalə və kitablar yazıblar.(133,405,585,№ 5,1977,s.120-126 və s.)

X.O.Əlimirzəyev "Azərbaycan kommunizm quruculuğu yollarında" kitabında (133) əsasən 60-cı illərdə kənd təsərrüfatının kommunizm quruculuğu dövründə inkişafından bəhs edib. Müəllif kitabda əsasən kənd təsərrüfatında müsbət cəhətlərin tədqiqinə fikir vermiş, kommunizm quruculuğu planının uğursuzluğuna, 60-cı illərin əvvəllərində SSRİ-nin hər yerində, o cümlədən Azərbaycanda baş vermiş ərzaq qıtlığının yaranmasına münasibət bildirməyib ki, bu da o dövrdə SSRİ-də nəşr olunan bütün kitablar üçün xarakterikdir.

S.Q.Yolçuyevin 1969-cu ildə çapdan çıxmış "Kommunizm quruculuğu mərhələsində kənd əhalisinin mədəni-texniki səviyyəsinin yüksəlməsinin qanunauyğunluqları" adlı kitabında(405) kommunizm quruculuğunun başlıca vəzifələrindən biri olan kəndlə şəhər, fiziki əməklə zehini əmək arasında fərqlərin aradan qaldırılması prosesindən bəhs olunub. Kitabda bu prosesin cəmiyyətin inkişaf qanunlarına uyğun gəlməsi fikri abstrak şəkildə, faktlara istinad edilmədən müdafiə olunub.

Y.Yusifovun "Sovxozların təşkili və inkişafı sahəsində Azərbaycan

Kommunist partiyasının fəaliyyəti (1920-1965-ci illər)" mövzusunda 1969-cu ildə yazdığı doktorluq dissertasiyasında, E.K.Məmmədovun"Azərbaycanın kənd təsərrüfatı fəhlələri inkişaf etmiş sosializm dövründə" (1966-1970-ci illər) mövzusunda 1983-cü ildə namizədlik dissertasiyasında kənddə fəhlə sinfinin formalaşdırılması, kolxozlarla yanaşı sovxozların təşkil olunması sahəsində Azərbaycan Kommunist Partiyasının gördüyü işlər müsbət mənada işıqlandırılıb. Müəlliflər kommunizm quruculuğunun iflasından sonra yeni konsepsiya kimi irəli sürülmüş inkişaf etmiş sosializm dövrünü tədqiq ediblər. Tədqiqat işlərində bu dövrdə Azərbaycanda mövcud olan kənd fəhlələrinin, yəni əsasən sovxozlarda cəmləşmiş fəhlələrin fəaliyyətini araşdırıb. Sonradan inkişaf etmiş sosializm konsepsiyasının iflasa uğraması, reallığı əks etirməməsi bu tədqiqat işlərinin elmi dəyərənin aşağı düşməsinə səbəb olmuşdur.

Sovet ziyalılarının 60 - cı illər fəaliyyəti haqqında tədqiqatçılar bir sıra kitab və məqalələr yazıblar. ( 343, 344, 568, 626 və s.)

M.A.Rüstəmovun 1963 - cü ildə yazdığı "Azərbaycan sovet intelektinin formalaşması və inkişafı" kitabında Azərbaycanda 60 - cı illərdə ziyalılırn formalaşması və inkişafında böyük irəliləyişlərin olduğunu sübut etməyə çalışıb. Müəllif burjua cəmiyyəti və digər ictimai - iqtisadi formasiyaların hökm sürdüyü qonşu müsəlman ölkələri ilə müqayisədə Azərbaycanın üstünlüklərini göstərərək bunun məhz sosializm cəmiyyəti sayəsində əldə olunduğunu qeyd etib. Lakin müəllifin bu sahədə mövcud olan nöqsan və çatışmazlıqlara münasibət bildirməmsi əsərin birtərəfli yazıldığını sübut edir.

A.Atakişiyev, M.Qurbanov, Ə.Mənsimov, Z.Orucov, Ş.Mirzəyeva, Ə.Muxtarova, N.Həbibov, F. Şuşinski və başqa tədqiqatçılar Azərbaycan mədəniyyəti, maarifi, incəsənətinə aid bir sıra kitab və məqalələr yazıblar. Bundan başqa A.M.Şərifzadə, H. Ərəblinski, C. Novruzov, C. Qaryağdıoğlu və s. incəsənət xadimlərinin həyat və yaradıcılığına aid də kitablar nəşr olunub. (156,157,298, 370,371,381,619 və s.)

M.Q.Qurbanovun rus dilində çap olunmuş "Sovet Azərbaycanın mədəniyyəti" adlı kitabında (619) Azərbaycanda sovet hakimiyyəti illərində mədəniyyətin müxtəlif sahələrinin inkişafı tədqiq edilib. Müəllif digər sovet müəllifləri kimi sovet hakimiyyətinə qədər Azərbaycan xalqının mədəni cəhətdə geri qaldığını, məhz sovet hakimiyyəti sayəsində xalqın mədəni səviyyəsinin

yüksəldiyini faktlarla sübut etməyə çalışıb. Müəllif həmçinin sovet mədəniyyətinin burjua mədəniyyətindən fərqli xüsusiyyətə malik olduğunu, onun sinfiliyini, partiyalılığını, xəlqiliyini müsbət cəhət kimi təqdim edib.

H.Həsənovun 1960-cı ildə çapdan çıxmış "Azərbaycan Kommunist Partiyasının mədəni quruculuğu genişləndirmək uğrunda mübarizə tarixindən" kitabında kommunist partiyasının rəhbərliyi ilə mədəniyyət sahəsində həyata keçirilmiş bütün tədbirlərin yalnız müsbət cəhətləri işıqlandırılıb. Müəllif Azərbaycanın sovet hakimiyyətinə qədər mədəni sahədə həddindən artıq geri qaldığını, sovet hakimiyyətinin xalqa xoşbəxlik bəxş etdiyini faktlarla sübut etməyə çalışıb. Adından göründüyü kimi kitabda tədqiqat birtərəfli aparıldığından mədəniyyət sahəsində yol verilmiş nöqsanlar, mədəni inqilab dövründə xalqın mədəniyyətinə, mənəviyyatına vurulan yaralar, dağıdılan mədəni abidələr haqqında məlumat verilməyib. Sovet hakimiyyəti illərində mədəniyyət sahəsində buraxılmış bu cür səhvlərin kitabda öz əksini tapmaması tədqiqatın elmi dəyərini aşağı salır.

A.M.Atakişiyevin 1970-ci ildə "Geniş kommunizm quruculuğu dövründə Azərbaycan SSR-in mədəniyyəti (1959-1969-cu illər)" mövzusunda yazdığı doktorluq dissertasiyası 60-cı illər Azərbaycan mədəniyyətinə aid yazılmış tədqiqat işləri arasında həcminə və faktiki materialların zənginliyinə görə fərqlənir. Müəllif sovet tarixşünaslığı ənənələrinə sadiq qalaraq formaca milli, məzmunca sosialist mədəniyyətinin üstünlüklərini ön plana çəkərək yerli faktlar əsasında Azərbaycan mədəniyyətinin 10 illik bir dövrdəki vəziyyətini tədqiq edib. Müəllif mədəniyyət sahəsində sovet cəmiyyətinin üstünlüklərinin təbliğini əsas məqsəd kimi qarşıya qoyaraq mədəniyyətin, incəsənətin, ədəbiyyatın partiyalığını, sinfiliyini yüksək qiymətləndirib.

Ə.Muxtarovanın 1974-cü ildə "Azərbaycan SSR-də ali təhsilin inkişafı (1959-1965-ci illər)" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası müasir dövrdə də aktuallığını saxlayır. Müəllif elmi işdə ali təhsilin inkişaf istiqamətləri, Azərbaycan SSR-də mövcud ali məktəblərin maddi texniki bazası və kadr potensialı, tələbələrin sayının beş il ərzində artım dinamikası və s. haqqında geniş məlumat verib.

60-cı illərdə millətlərarası münasibətlər, xalqlar dostluğuna aid F.Köçərli, F.Qasımzadə, P.Əzizbəyova, İ.Hüseynov, T.Vəliyev, M.Sadıqzadə, Ş.Sadıxov,

Ə.Şakirzadə, F.Yusibov, A.Ağayev, V.Nəsirov, Q.Mustafayev, T.Eristova, Ə.Əsədov, F.Əhmədov, S.Əfəndiyev,V.Titarenko, İ.Səmədov və digər müəlliflər bir sıra əsərlər yazıbar. (215,369,406,707 və s.)

Bu problemin tarixşünaslığına da bir sıra məqalələr həsr olunub.(385,№3 1998,s.187-191,500,№51980,s.175-178 və s. )

R.R.Vəkilovun rus dilində yazdığı "Beynəlmiləl və milli münasibətlər problemi Azərbaycan alimlərinin əsərlərində (70-ci illər)" adlı məqaləsi (500,№51,1980,s.23-37) 70-ci illərə aid olmasına baxmayaraq müəllif 60-cı illər dövrünü tədqiq etmiş F.Köçərli, F.Qasımzadə, P.Əzizbəyova, İ.Hüseynov, A.Şakirzadə, T.Vəliyev, V.Nəsirov, F.Əhmədov və başqalarının əsərlərini də təhlil etmişdir. Müəllif qeyd edir ki, bu əsərlərdə Lenin milli siyasətinin Azərbaycanda həyata keçirilməsi, sosialist millət və xalqların inkişaf edərək yaxınlaşması, Azərbaycan sosialist millətinin formalaşması və inkişafı tədqiq olub.

F.Qasımzadənin "SSRİ-nin qardaş sosialist millətlərinin böyük ailəsi" kitabında (215) marksizm-leninizm klassiklərinin müddəalarına əsaslanaraq 60-cı illərin əvvələrində SSRİ-də mövcud olmuş milli münasibətləri ümumi şəkildə işıqlandırmağa çalışıb. Müəllif əsas diqqəti SSRİ-də vahid ünsiyyət dili, rus dili olan çoxmillətli xalqın yaranması ideyasının təbliğinə verib. Lakin kitabda millətlərarası münasibətlərin obyektiv inkişafında subyektiv amillərin mənfi roluna, bu proseslərin süni şəkildə sürətləndirilməsinə və xalqların zorla assimlyasiya edilməsinə münasibət bildirilməyib. Halbuki bu məsələlər o zamanlar burjua tarixşünaslığında ciddi tənqid olunurdu.

Ş.Ə.Sadıxovun rus dilində nəşr olunmuş "Kommunizm quruculuğu dövründə qardaş Zaqafqaziya xalqlarının əməkdaşlığı" (707) kitabında azərbaycan, gürcü və erməni xalqlarının 60-cı illərdə mədəni-iqtisadi əmkdaşlığı tədqiq və təbliğ olunub. Müəllif bu xalqlar arasında sosializm quruculuğu dövründə yaranmış dostluq əlaqələrini kommunizm quruculuğu dövründə müvəffəqiyyətlə inkişaf etdiyini faktlarla sübut etməyə çalışıb. Müəllif Sumqayıt, Rustavi, Kirovakan şəhərləri arasında keçirilən sosializm yarışını Zaqafqaziya xalqlarının dostluğunun inkişafında mühüm rol oynadığını qeyd edir. Lakin bu sahədə olan nöqsanlar barədə susmağa üstünlük verib. Sovet müəlliflərinin 60-cı illərdə Zaqafqaziyada millətlərarası münasibətlərdə mövcud olan problemlərin üstündən sükutla keçməsi sonrakı dövrlərədə öz mənfi təsiri göstərib.

Ə.Şakirzadənin "Xalqlar dostluğu və SSRİ-də kommunizm quruculuğu" kitabında (369) Ş.Ə.Sadıxovun kitabındakı xətti davam etdirərək Zaqafqaziya respublikaları ilə yanaşı digər sovet respublikalarında yaşayan xalqların dostluq münasibətlərini, beynəlmiləl əlaqələr sahəsində əldə olunan müvəffəqiyyətləri tədqiq edib.

M.Vəliyevin 1984-cü ildə nəşr olunmuş "Zaqafqaziya respublikalarının əməkdaşlığı" kitabı giriş və dörd fəsildən ibarətdir. Müəllif kitabın giriş hissəsində qeyd edir ki, bu kitabça təbiət elmləri və ictimai elmlər sahəsində Zaqafqaziya alimlərinin apardıqları tədqiqat işlərindən, respublikalararası ədəbi əlaqələrdən, ayrı-ayrı alimlər arasında yaranmış dostluq əlaqələrindən bəhs edir.

Kitabın "İctimai elmlər sahəsində Zaqafqaziya respublikalarının əməkdaşlığı" adlanan ikinci fəslində Azərbaycan KP MK-nın iyul (1983-cü il) plenumunun tarixçilər qarşısında qoyduğu vəzifələrdən bəhs olunur. Plenum qeyd etmişdir ki, "Tarixçilər öz səylərini xeyli gücləndirməlidir. Azərbaycanda sosializm quruculuğunun bütün mərhələlərini dərindən və hərtərəfli işıqlandırmaq lazımdır." Həmin fəsildə qeyd olunur ki, 1959-cu ilin martında Tbilisidə keçirilən Zaqafqaziya respublikaları elmi idarələrinin ictimaiyyatşünaslarının birinci müşavirəsində Elmi Əlaqələndirmə Şurası yaradıldı. Həmin müşavirədə ictimai elmlər üzrə elmi tədqiqat işinin əlaqələndirilməsi sahəsində problem komissiyaları da təşkil olundu. Həmin ilin dekabrında Tbilisidə keçirilən Zaqafqaziya respublikalarının ictimai elmlər üzrə ikinci elmi əlaqələndirmə müşavirəsində "Zaqafqaziya zəhmətkeşlərinin sosialist inqilabı uğrunda mübarizəsi", "Zaqafqaziyanın Rusiyaya birləşməsinin mütərəqqi əhəmiyyəti", "Zaqafqaziya xalqlarının mədəni əlaqəsi", "Zaqafqaziya dağlıq rayonlarının iqtisadiyyatı", "Əmək məhsuldarlığı və Zaqafqaziya kənd təsərrüfatında onun yüksəldilməsi" kimi mövzular müəyyən olunmuşdu.

Kitabda qeyd olunur ki, "SSRİ Elmlər Akademiyası və müttəfiq respublikaların elmlər akademiyalarının fəaliyyətini yaxşılaşdırmaq üzrə tədbirlər haqqında" Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1963-cü il 11 aprel tarixli qərarı Zaqafqaziya respublikalarının elmi idarələri arasında əlaqələrin daha da genişlənməsinə səbəb oldu. 1963-cü ilin aprel-may aylarında Kirovabadda(indiki Gəncə) keçirilən Kirovabad, Kutaisi Pedaqoji İnstitutlarının və Yerevan Pedaqoji İnstitutunun Leninakan filialının birgə elmi konfransının materialları kitab şəklində

çap edilmişdir. Məcmuədəki materialların ictimai elmlərə dair birinci bölümündə məruzələrin çoxu azərbaycan, erməni və gürcü xalqları ilə rus xalqının dostluğu tarixinə, yadelli işğalşılara, xarici müdaxiləçilərə, mütləqiyyət və kapital əsarətinə qarşı onların birgə mübarizəsinə, sosializm və kommunizm quruculuğu uğrunda mübarizədə Zaqafqaziya xalqlarının yeni forma və məzmunda zənginləşən, getdikcə daha da möhkəmlənən dostluğuna həsr olunmuşdur.

Kitabda həmçinin qeyd olunur ki, Zaqafqaziya xalqları Azərbaycanın Rusiyaynın tərkibinə daxil olmasının 150 illiyini bayram etdilər. 1964-cü ilin aprelində bu münasibətlə Bakı,Yerevan və Tbilisidə Zaqafqaziya elmi idarələrinin sessiyaları oldu. Respublikalarda keçirilən bu elmi sessiyalarda Zaqafqaziyanın Rusiyanın tərkibinə daxil olmasını bu regionun həyatında böyük rol oynadığı, onun mütərəqqi əhəmiyyəti geniş qeyd edildi.

Kitabda qeyd olunan faktlara tənqidi yanaşdıqda məlum olur ki, bu dövrdə ictimai elmlər sahəsində Zaqafqaziya respublikalarının əməkdaşlığı tarixi hadisələrin obyektiv tədqiqnə deyil, əksinə tarixin saxtalaşdırılmasına xidmət etmişdir. Fikrimizcə "Zaqafqaziyanın Rusiyaya birləşməsinin mütərəqqi əhəmiyyəti" adlı mövzu, Azərbaycanın Rusiyaynın tərkibinə daxil olmasının 150 illiyini bayram edilməsi kimi hadisələr Azərbaycanın 1813 və 1828-ci illərdə çar Rusiyası və 27 aprel 1920-ci ildə XI qırmızı bölşevik ordusu tərəfində işğalını pərdələmək məqsədilə edilmişdi. Buna görə də hətta bu mövzuların "Azərbaycanın Rusiyanın tərkibinə daxil edilməsi", "Zaqafqaziyanın Rusiyaya birləşdirilməsi" kimi yazılmasına belə Moskavadan icazə verilməmişdir.

Z.Sərdarovun 1979-cu ildə çapdan çıxmış "Səmərəli əməkdaşlıq (Sovet İttifaqının Bolqarstanla əməkdaşlığında Azərbaycanın iştirakı)" kitabı nisbətən az tədqiq olunmuş bir mövzuya həsr olunub. Kitabda Bolqarstan Xalq Respublikası ilə iqtisadi, mədəni, kadr hazırlığı və elmi-texniki əməkdaşlıqda Azərbaycan SSR-in iştirakı işıqlandırılıb. Kitabda qeyd olunub ki, 1961-ci ildə Azərbaycan SSR-in 20-yə yaxın zavodunda istehsal olunan 61 növ maşın və avadanlıq dünyanın 23 ölkəsinə, o cümlədən BXR-ə ixrac olunurdu. Həmin il Azərbaycanın 10 müəssisəsinin məhsulu BXR-ə göndərilib. 1963-1970-ci illərdə Azərbaycan SSR-in köməkliyi ilə Bolqaırstanda neft yağları istehsal edən müəssisələr yaradılıb. Kitabda həmçinin 1964-cü ildən Azərbaycanın Abşeron rayonu ilə Bolqarıstanın Razqrad mahalı arasında dostluq əlaqələri, sosializm yarışının təşkil olunması,

1960-1975-ci illərdə Azərbaycan SSR EA-nın Bolqarıstana 160 alim göndərməsi və BXR-dən 150-dən artıq alim və aspirantın Azərbaycana gəlməsi və s. məsələlər geniş şərh olunub. Kitabda həmçinin hər iki ölkə arasında mədəni əməkdaşlıq, mədəniyyət və incəsənət xadimlərinin görüşləri, Bolqarıstanda Azərbaycan rəssamlarının sərgilərinin təşkili, Azərbaycan filmlərinin nümayişi, nümayəndə heyətlərinin qarşılıqlı mübadiləsi, konfranslar və digər tədbirlərin keçirilməsi haqqında da ətraflı məlumat verilib.

60-cı illərdə milli münasibətlərə aid Azərbaycan alimləri bir sıra dissertasiyalar da yazıblar. Bunlardan F.O.Yusifovun 1971-ci ildə "Sovet İttifaqı Kommunist Partiyası Lenin milli siyasəti SSRİ xalqlar dostluğunun və əməkdaşlığının möhkəmləndirilməsinin əsasıdır (1945-1965-ci illər)" mövzusunda yazdığı doktorluq, A.Y.Ağayevin 1965-ci ildə "Azərbaycan və Qazaxstan respublikaları zəhmətkeşlərinin qarşılıqlı kömək və dostluğunun möhkəmləndirilməsi" mövzusunda yazdığı namizədlik və s. dissertasiyaları göstərmək olar.

İ.S.Səmədovun "Kommunizm quruculuğu dövründə xalqlar dostluğunun Lenin ideyalarının təbliğində Azərbaycan mətbuatının rolu (1959-1965-ci illər)" adlı dissertasiya işində (709) əsasən "Kommunist", "Sovet kəndi", "Bakinski raboçiy", "Vışka" və s. respublika qəzetlərinin altı illik materialları əsasında Azərbaycanda xalqlar dostluğunun, beynəlmiləl tərbiyənin vəziyyəti tədqiq olunub. Müəllif xalqlar dostluğu, beynəlmiləl tərbiyə sahəsində mətbuatın mühüm rol oynadığını faktlarla sübut etməyə çalışıb.

Milli məsələ sahəsində Azərbaycanda aparıcı mütəxəssis sayılan C.Quliyevin 1967-ci ildə rus dilində yazdığı "Tarixin burjua saxtalaşdırıcılarının əleyhinə" məqaləsində bu mövzuda yazmış digər sovet müəlliflərinin kitab və məqalələrində olduğu kimi milli münasibətlər sahəsində mövcud olan çatışmazlıqları işıqlandıran burjua tarixçiləri tənqid olunub. (565,t. 28, 1967)

60 - cı illərdə ateist tərbiyəsi və dinin tənqidi də tədqiqatçıların diqqət mərkəzində olub.

H. Abdullayevin "Mətbuatda məhərrəmliyin ifşası" məqaləsində müəllif Azərbaycan SSR mətbuatında islam dininin məzhəblərindən biri olan şiəliyin məhərrəmlik mərasiminin tənqidinə həsr olunmuş məqalələri təhlil edib.(23, №3)

60-cı illərin sovet tarixşünaslığının təhlil göstərir ki, on il (8 iyul 1959-

14 iyul 1969) Azərbaycana rəhbərlik etmiş Vəli Yusif oğlu Axundovun fəaliyyəti haqqında çox az tədqiqat işləri aparılıb. Kommunist rəhbərlərin Respublikanın ictimai-siyasi həyatına, o cümlədən rəhbərlik etdiklərin dövrün tarixşünaslığına təsirini nəzərə alaraq onların fəaliyyətinin araşdırılması zəruridir.

Hakimiyyət illərinin çoxluğuna görə o, özündən əvvəlki rəhbərlərdən yalnız 20 il Respublikanı idarə etmiş M.C.Bağırovdan geri qalır. Onun rəhbərliyi dövründə, 1963-cü ildə çapdan çıxmış "Azərbaycan tarixi"nin III cildinin ikinci hissəsində M.C.Bağırovdan sonra Azərbaycan KP MK-ya rəhbərlik etmiş M.M. Yaqubov və İ.D.Mustafayevin adları ümumiyyətlə çəkilməmiş, yalnız V.Y.Axundov təbliğ olunmuşdur. V.Y.Axundovun rəhbərliyindən sonra, yəni 1976-cı ildə nəşr olunmuş Azərbaycan Sovet Ensklopediyasında isə M.C.Bağırov və M.T.Yaqubov haqqında heç bir məlumat olmadığı halda M.D.Mustafayev və V.Y.Axundov haqqında qısa da olsa məlumat var.

Azərbaycan Respublikası SPİH Arxivində V.Y.Axundovun öz əli ilə yazdığı 18 iyul 1948-ci il və 28 aprel 1953-cü il tarixli iki tərcümeyi-hal saxlanılır (f.1,s.80,iş.177) Həmin sənədlərdən aydın olur ki, Vəli Axundova ana babasının adını qoymuşlar. Maraqlıdır ki, birinci tərcümeyi-halda V.Y.Axundov yalnız bir əmisi oğlu-Axundov Əkbər Cavad oğlunun 1937-ci ildə həbs olunması və buna qədər Bakı şəhər partiya komitəsində təlimatçı işləməsi haqqında məlumat vermiş, lakin digər əmsi oğlanları Əbülfəz və Əlinin, habelə əmisi qızının həyat yoldaşının həbsi barədə məlumatı gizli saxlamışdı. Lakin ikinci tərcümeyi-halda bunları dəqiq göstərmişdi. Bundan başqa birinci sənəddə o, həyat yoldaşının üç bacısı və bir qardaşı haqqında ətraflı məlumat versə də ikinci sənəddə həmin məlumatları bildirməyib. Bütün bu təhlillər onu göstərir ki, müharibədən sonrakı ilk illərə nisbətən 50-ci illərin əvvələrində rəhbər vəzifəyə təyin edilən şəxslərə daha tələbkar yanaşılmış və onlardan özləri haqqında daha ətraflı məlumat verilməsi tələb olunmuşdur. Bunu aşağıdakı faktdan da görmək olar. Azərbaycan SSR Daxili İşlər Nazirinin müavini general-mayor Qriqoryan Azərbaycan K(b)P MK-nın katibi Qafarzadəyə göndərdiyi 15 aprel 1946-cı il tarixli məktubda qeyd etmişdir ki, Vəli Yusif oğlu Axundov haqqında heç bir kompramat materialına malik deyildir. Halbuki V.Axundov özü 1948 və 1953-ci illərdə yazdığı sənədlərdə bu kompromatları etiraf edərək, həbs olunmuş qohumları ilə əlaqəsini kəsdiyini bildirmişdir. Bütün bunlar onu göstərir ki, Stalinin 30-cu illərdə bildirdiyi

“oğul ataya cavabdeh deyil” fikri formal mahiyyət daşımış, insanlara rejimin mahiyyətindən doğan anti-humanist münasibət qalmaqda davam etmişdir.

Sovet rejimində hər bir vətəndaş nəinki özünün və doğmalarının, hətta əmisi uşaqlarının, onların həyat yoldaşlarının və digər uzaq qohumlarının etdiyi əməllərə görə də məsuliyyət daşımışdır.

V.Y.Axundovun 28 aprel 1953-cü ildə, rus dilində yazıdığı tərcümeyi-halın tam mətni aşağıdakı kimidir:

“Vəli Yusif oğlu Axundov 1916-cü ildə Sumqayıt rayonunun Saray kəndində anadan olmuşdu. İbtidai təhsilini Saray kəndində almış, daha sonra təhsilini Biləcəri qəsəbəsində davam etdirmişdir. 1931-1935-ci illərdə Bakı Sənaye Texnikumunun Kimya fakultəsində təhsil almış, daha sonra isə 1937-1941-ci illərdə Azərbaycan Tibb İnstitutunun müalicə fakultəsində təhsilini davam etdirərək 1941 ildə ali təhsilli həkim ixtisasına yiyələnmişdir.

Əmək fəaliyətinə 1938-ci ildə Tibb İnstitutunun kafedrasında laborant kimi başlayıb. Qısa müddətdə, yəni 1940-cı ilin yanvarından 1941-ci ilin 7 iyuluna kimi Azərbaycan Tibb İnstitutunun çoxtirajlı “Tibb kadrları uğrunda” qəzetinin redaktoru və institut komsomol komitəsinin katibi olub. 1941-ci ilin 7 iyulundan 1946-cı ilin martına kimi orduda xidmət edib, Böyük Vətən Müharibəsi illərində RSFSR, Belorusiya SSR, Polşa, Almaniya və Çexoslovakiya ərazilərində döyüşən ordu hissələrində həkim kimi fəaliyyət göstərib. 2-ci dərəcəli Böyük Vətən Müharibəsi və “Qırmızı Bayraq” Ordenləri, bundan başqa “Döyüş xidmətlərinə görə”, “Qafqazın müdafiəsinə görə”, “Berlinin alınmasına görə”, “Göniqsberqin alınmasına görə”, “Almaniya üzərində qələbəyə görə” medalları ilə təltif edilib. 1946-cı ilin mart ayından 1948-ci ilin oktyabrına kimi Azərbaycan Dövlət Tibb İnstitunun “Tibbin tarixi” kafedrasında assistent, 1946-1949-cu illərdə Tibb İşçiləri Həmkarlar Təşkilatının sədri, 1949-1952-ci illərdə Azərbaycan SSR səhiyyə nazirinin müavini işləyib. 1952- ilin may ayında Bakı Vilayət Səhiyyə Şöbəsinin müdüri vəzifəsinə təyin olunub. 1939-cu ildən Sov.İKP üzvü olub.

Daha sonra V.Y.Axundov yazır: “Atam, Axundov Yusif Fətulla oğlu inqilabdan əvvəl və sonra fəhlə işləmişdir. 1922-ci ildən ömrünün axırına kimi, yəni 1945-ci ilə qədər Sov.İKP üzvü olmuşdur. Anam Axundova Zinyət Vəli qızı evdar qadındır. İki qardaşım və bir bacım var: qardaşım-Axundov Hüseyn Yusif oğlu Sov.İKP üzvü, ADU-nun 5-ci kurs tələbəsidir; qardaşım-Axundov

Nazim Yusif oğlu  KGİ üzvü, 1№-li xüsusi məktəbin 9-cu sinif şagirdidir; bacım Axundova Rəna Yusif qızı 5-ci sinif şagirdidir. Həyat yoldaşım Ağayeva Sara Hüseyn qızı həkim-oftolmoloqdur. Xəstəliklə əlaqədar hal-hazırda işləmir. 1946-cı ildə anadan olmuş Axundov Oqtay adlı oğlum var. Mənim əmim oğlu Axundov Ələkbər Cavad oğlu 1937-ci ildə həbs olunub. Bundan başqa müharibə dövründə cinayət əməllərinə görə digər əmim oğlanları-Axundov Əbülfəz, Əkbər, Əli Cavad oğlanları 2-3 il həbsdə olmuşlar. Əbülfəz və Əkbər 1943-cü ildə vəfat etmişlər. Əli isə hal-hazırda Voroşilov adına Saray sovxozunda işləyir. Bundan başqa 1951-ci ildə digər əmim oğlu Axundov Hacı Cavad oğlu cinayət törətdiynə görə həbs olunmuşdur. Habelə əmim qızının həyat yoldaşı da həbs olunub.

Mənim Voroşilov adına Saray kolxozunun sədri, yoldaş Nəriman Məmmədov tərəfindən verilmiş arayışım var ki, 1931-ci ildən Saray kəndindən çıxmağımla əlaqədar olaraq həbs olunmuş əmim oğlanları və əmim qızının  həyat yoldaşı ilə bütün əlaqələri kəsmişəm." (407,s.72-75)

Azərbaycan Sovet Ensiklopediyasının I cildində V.Y.Axundovun sovet tibb alimi kimi tərcümeyi-halı verilmişdir ki, bu tərcümeyi-hal arxivdə saxlanan sənədlərdən fərqlidir. Həmin kitabda yazılmış tərcümeyi-halın 1953-cü ildən sonrakı dövr haqqında yazılıb: "Azərbaycan KP MK-da şöbə müdirinin müavini (1953-1954), Azərbaycan SSR səhiyyə naziri ( 1954-1958), Azərbaycan KP MK katibi (1958), Azərbaycan SSR Nazirlər Sovetinin sədri (1958-1959), Azərbaycan KP MK-nın birinci katıbı (1959-1969) işləmişdir. Azərbaycan SSR EA prezidentinin müavini (1969-1972). 1972-ci ildən- 22 avqust 1986-cı ilə kimi, yəni ömrünün axırına kimi Q.M.Musabəyov adına virusologiya, mikrobiologiya və gigiyena institutunun direktoru olmuşdur.(62,I c.,s.32)

Vəli Axundov elmi yaradıcılıqla da məşğul olub. Onun  1958-ci ildə "Azərbaycan SSR su təhcizat mənbələrinin sanitar-gigienik xarakteristikası", 1972-ci ildə "Azərbaycan SSR kənd yaşayış məntəqələrinin gigiyenasının bəzi məsələləri" və s. əsərləri nəşr olunub.

Tibbə aid yazdığı əsərlərdən başqa V.Y.Axundovun  1959-cu ildə nəşr olunmuş  "Azərbaycan yeddillikdə" kitabı (449) 1959-1965-ci illər ərzində Azərbaycan SSR qarşısında duran vəzifələr, o cümlədən iqtisadiyyat sahəsində yerinə yetirilməli olan planlardan bəhs olunur.

V.Y.Axundovun rəhbərlik illərinin ilk beş ili ilə sonrakı beş ili arasında

yeridilən siyasətdə fərqlər mövcuddur. Sov.İKP MK-nın 1964-ci il 14 oktyabr plenumunda N.S.Xuruşşovun L.İ.Brejnevlə əvəz edilməsi ilə SSRİ-nin yeritdiyi daxili və xarici siyasətdə də əsaslı dəyişiklik edildi. Ölkədə inzibati-amirlik sistemi gücləndirildi.

Elmi tədqiqat mərkəzlərinə, o cümlədən nəşriyyatlara, jurnal və qəzet redaksiyalarına 60-cı illərin ortalarından başlayaraq 1937-1938-ci illərdə və başqa dövrlərdə repressiyalara məruz qalmış, 50-ci illərdə bəraət almış hərbi komandanların və başqa vətəndaşların ölümlərinin səbəbləri və s. tarixi faktlar haqqında yazmağa yenə də qadağalar qoyuldu.

Professor C.Həsənlinin "Vəli Axundov: işıqlı on il" adlı məqaləsində (525-ci qəzet, 14 may 2011-ci il) V.Axundovun fəaliyyəti haqqında bir sıra aşağıdakı maraqlı faktlar işıq üzü görüb:

"V.Axundov kimi istedadlı, hazırlıqlı, mədəni və geniş dünyagörüşə malik bir kadrın irəli çəkilməsi İ.Mustafayevin xidməti olaraq dəyərləndirilməlidir. Hələ, səhiyyə naziri işlədiyi dövrdə, 1956-cı ildə Ali Sovetin "Azərbaycan dili" haqqında fərmanından sonra səhiyyə naziri Vəli Axundov rəhbərlik etdiyi sahədə hamıya göstəriş vermişdi ki, xəstəlik tarixlərini Azərbaycan dilində yazsınlar və tibb sahəsində yazışmaları milli dildə aparsınlar... Kommunist millətçiliyinin lideri kimi 50-ci illərin ikinci yarısında Nərimanova bəraət verildikdə, səhiyyə naziri Vəli Axundov 1957-ci ilin aprel ayında Azərbaycan Dövlət Tibb İnstitutunun N.Nərimanovun adına verilməsi barədə İ.Mustafayevə məktubla müraciət etdi. O yazırdı: "Təhsil etibari ilə həkim olan N.Nərimanovun dövlət quruculuğu işlərində və xüsusilə xalq səhiyyəsinin qurulması işində xidmətləri hamıya məlumdur. Tamamilə təbiidir ki, respublikada bir sıra tibb müəssisələri Azərbaycan xalqının şanlı oğlu, görkəmli dövlət xadimi doktor N.Nərimanovun adını daşımalıdır. Yeri gəlmişkən, hazırda respublikada heç bir müalicə müəssisəsi onun adını daşımır. Əvvəllər isə onun adını daşıyan müəssisələrin adı ya dəyişdirilib, ya da onun adına adlandırılması dayandırılıb. Azərbaycan SSR Səhiyyə Nazirliyi belə hesab edir ki, bu vəziyyəti dəyişməyin zamanı gəlib çatıbdır və ona görə də bir sıra təkliflərlə, o cümlədən Azərbaycan Dövlət Tibb İnstitutunun N.Nərimanovun adına verilməsi təklifi ilə çıxış edir". Bu məktuba əsasən 1957-ci ilin aprel ayının 27-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri M.İbrahimov Tibb İnstitutuna N.Nərimanovun adının verilməsi barədə fərmanı imzaladı.

Vəli Axundov Azərbaycan KP MK-nın birinci katibi seçilməsi qabaqcadan planlaşdırılmamışdı. Lakin 1959-cu ilin payızında Sov.İKP MK-nın partiya orqanları ilə iş şöbəsi müdirinin müavini general İ.Şikin başda olmaqla Moskvadan Azərbaycana göndərilən yoxlama briqadsı respublikanın altını üstünə çevirmişdi. Bu yoxlamada əsas məqsəd millətçiliyin güclənməsi ilə bağlı faktları aşkara çıxarmaq idi...Maraqlı burasıdır ki, Şikin komissiyasının arayışında kəskin tənqid edilən rəhbər işçilərdən biri də Vəli Axundov idi. Komissiya hələ onun səhiyyə naziri işlədiyi dövrdə xəstəlik tarixlərinin Azərbaycan dilində yazılmasına göstəriş verilməsindən tutmuş, Nazirlər Sovetinin sədri olan vaxt 1959-cu ilin mart ayında rus məktəblərində Azərbaycan dilinin tədris edilməsi haqqındakı məruzəsinə qədər hər şeyi təftiş etmişdi. Həmin ilin mart ayının 25-də Azərbaycan SSR Ali Sovetinin sessiyasıda V.Axundov "Məktəbin həyatla əlaqəsini möhkəmlətmək və Azərbaycan SSR-də xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında" geniş məruzə ilə çıxış etmişdi. V.Axundov deyirdi: "Məktəblərimizdə uşaqlar rus dili ilə yanaşı olaraq Azərbaycan dilini öyrənirlər. Bu fənnin öyrənilməsi nəinki sovet xalqları arasındakı qardaşlıq və dostluğun sübutudur, həmçinin böyük əməli əhəmiyyətə də malikdir. Rus məktəblərində oxuyan şagirdlərin xeyli hissəsi Azərbaycanda anadan olmuşdur, məktəbi bitirdikdən sonra öz ata-anaları kimi respublikanın xalq təsərrüfatının müxtəlif sahələrində işləyəcəklər. Ünsiyyət vasitəsi olmaq etibarilə Azərbaycan dilini bilmək onlar üçün son dərəcədə vacibdir. Buna görə də dərs planlarında rus məktəblərində Azərbaycan dilinin öyrənilməsi nəzərdə tutulur"... Müzakirələrdən sonra Ali Sovetin sessiyası "Məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi və Azərbaycan SSR-də xalq təhsilinin sonrakı inkişafı haqqında" qanunu qəbul etdi. Qanunun 11-ci maddəsi respublikanın rus məktəblərində Azərbaycan dilinin tədrisinin icbari xarakter daşıdığını təsbit edirdi.

1964-cü ildə Nikita Xruşşov sovet rəhbərliyindən kənarlaşdırıldıqdan sonra Vəli Axundov onun qəzəbinə gəlmiş, bir tərəfdən millətçiliyə, digər tərəfdən isə, kosmopolitizmə görə yüksək vəzifələrdən uzaqlaşdırılmış istedadlı adamların demək olar ki, hamısını rəhbər vəzifələrə qaytardı. 1959-cu ildə Xruşşovun "faşistlərdən də qatı millətçi" adlandırdığı Mirzə İbrahimova məhz Vəli Axundovun ciddi təkidi ilə 1961-ci ildə Azərbaycanın Xalq yazıçısı fəxri adı verildi və N.Xruşşov sovet rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra o, Axundovun təqdimatı ilə 1965-ci ildə Azərbaycan Yazıçılar İttifaqının birinci katibi seçildi.

1961-ci ildə bilavasitə Nikita Xruşşovun şəxsi göstərişi ilə Azərbaycan KP MK-nın şöbə müdiri vəzifəsindən uzaqlaşdırılmış Şıxəli Qurbanov 1966-cı ildə məhz Vəli Axundovun təşəbbüsü ilə yenidən MK-da daha yüksək vəzifəyə, ideoloji məsələlər üzrə katib vəzifəsinə qaytarıldı. 1967-ci ildə onun qəfil vəfatından sonra 50-ci illərin birinci yarısında dəbdə olan kosmopolitizmə qarşı mübarizə fonunda rəhbər partiya işindən uzaqlaşdırılımış istedadlı alim və geniş dünyagörüşə malik Cəfər Cəfərov 1967-ci ilin avqustunda V.Axundovun təqdimatı ilə ideoloji məsələlər üzrə Azərbaycan KP MK-nın katibi seçildi və 1971-ci ilə qədər bu vəzifədə işlədi. Uzun müddət milli respublikalarda, o cümlədən Azərbaycanda da formalaşmış bir ənənəni də məhz V.Axundov aradan qaldırdı. Bu, dövlət təhlükəsizliyi orqanlarının başında kimin, daha doğrusu, hansı millətin nümayəndəsinin dayanması ilə bağlı məsələ idi. Respublikada bu təşkilatın başında dayanan sonuncu azərbaycanlı Novruz Rizayev olmuşdu. Əgər təkcə soyadlarına diqqət yetirilsə, 1930-cu ildən etibarən Azərbaycanda təhlükəsizlik orqanlarına Frinovski, Aqrba, Sumbatov, Rayev, Yemelyanov, Quskov, Kopılov, Kardaşev və Sviqun başçılıq etmişdi. Vəli Axundovun təşəbbüsü və təkidləri nəticəsində 1930-cu ildən sonra ilk dəfə 1967-ci ilin iyununda respublika təhlükəsizlik orqanlarının rəhbərliyinə milliyyətcə azərbaycanlı gətirildi. Bu azərbaycanlı az sonra nəinki Azərbaycanın taleyində, eləcədə SSRİ həyatında mühüm rol oynamış Heydər Əliyev idi...

V.Axundov respublika rəhbərliyinə gəldikdən sonra 1947-ci ildə müəmmalı şəkildə avtomobil qəzasında həlak olmuş və gizli şəkildə Buzovna qəsəbəsindəki vərəm dispanserinin həyətində dəfn edilmiş Cənubi Azərbaycan milli hökumətinin başçısı S.C.Pişəvərinin məzarı 1960-cı ilin mart ayının 22-də Azərbaycan KP MK bürosu qərarı ilə Fəxri xiyabana köçürüldü. 1965-ci ildə isə V.Axundov Pişəvərinin seçilmiş əsərlərinin nəşrinə  icazə ala bildi və Bakı küçələrindən biri də onun adını daşımağa başladı...Vəli Axundovun razılığı ilə Azərbaycan KP MK katibliyi 1965-ci ilin mart ayının 17-də cənublu demokratların Novruz bayramını qeyd etməsi üçün qərar qəbul etdi. Bu qərara görə respublika Qırmızı Aypara Cəmiyyətinə tapşırıldı ki, “ənənəvi bahar bayramını keçirmək üçün” ehtiyat fondundan Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinə 1500 manat vəsait ayrılsın. 1966-cı ildə Şıxəli Qurbanov Mərkəzi Komitəyə ideoloji məsələlər üzrə katib vəzifəsnə gətirildikdən sonra MK Bürosunun qərarı ilə Novruz bayramlarının təşkili və keçirilməsi işi ona tapşırıldı və o, bu işin öhdəsindən böyük məharətlə

gəldi.”

V.Y.Axundovun 1968-ci ildə baş verən pambıq böhranından sonra mövqeyi sürətlə zəifləməyə başladı. Moskva xaricdən pambıq alınmasına külli miqdarda pul sərf olunduğuna görə Azərbaycanda pambıq istehsalını artırmaqla vəziyyəti düzəltmək istəyirdi. V.Axundov isə Azərbaycanın ənənəvi kənd təsərrüfatı bitkilərinin məhv olmasından və işsizliyin artmasından etiyat edərək buna qarşı çıxırdı. Bu zaman respublikadan Moskvaya onun əleyhinə kütləvi surətdə məktublar göndərilməyə başlandı. Məktublarda korrupsiya baş alıb getdiyi, milli siyasətin düzügün qurulmaması, təhsil və səhiyyə sistemində özbaşınalıqların dözülməz həddə çatdığı və s. bildirilirdi. Nəhayət, Vəli Axundov Azərbaycan KP MK-nın 1969-cu il iyul plenumunda vəzifəsindən azad edildi. Həmin plenumda Azərbaycan KP MK-nın birinci katibi vəzivəsinə Heydər Əlirza oğlu Əliyev seçildi.(407,s.79-80)

Azərbaycana rəhbərlik etmiş şəxslərdən biri olan V.Y.Axundovun fəaliyyəti də çox az tədqiq olunmuşdur. Bu sahədə tədqiqat işlərinin davam etdirilməsi çağdaş Azərbaycan tarixinin daha da zənginləşməsinə kömək edə bilər.

Sovet tarixşünaslığının birtərəfli tədqiqi nəticəsində 60-cı illərdə ictimai-siaysi həyatda baş vermiş bir çox hadisələrin tədqiqatlardan kənarda qalmasına səbəb olmuşdur. Belə məsələlərdən biri olan 60-cı illərdə Azərbaycan SSR ərazilərinin Ermənistan SSR-ə verilməsi prosesinin davam etməsi, ermənilərin azərbaycanlılara qarşı etdiyi cinayətlər sovet tarixşünaslığında öz əksini tapmayıb. Əgər sovet hakimiyyətinin ilk illərində ermənilərə Azərbaycan ərazilərinin verilməsi müəyyən don geyindirməklə sovet tarixşünaslığında öz əksini tapırdısa, 60-cı illərdə baş verənlər haqqında tarixşünaslıqda və dövrü mətbuatda heç bir məlumat verilməmiş, bu hadisələrdən yalnız o ərazilərdə yaşayan əhalinin xəbəri olmuşdur.

Qarabağ Azadlıq Təşkilatı tərəfindən 2009-cu ildə çap olunmuş “Erməni iddialarının “Sovet dövrü” ”kitabında bu məsələlər barədə maraqlı faktlar var. Kitabda qeyd olunur ki, “ermənilər 1965-ci ildə 45 min nəfərin imzaladığı müraciəti Moskvaya göndərərək yenə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini xahiş etdilər. Həmin ərəfədə emissarlar İrəvandan Xankəndinə gələrək təbliğat aparır, imza toplamağa cəhd edirdilər. Emissarların bütün səylərinə baxmayaraq Qarabağ ermənilərinin əksəriyyəti imza verməkdən imtina etmişdilər. Moskvaya

göndərilən imzalar əsasən Ermənistan deyilən ərazilərdə yaşayan ermənilərə məxsus idi. Moskva rəhbərliyi bu müraciətə heç bir reaksiya vermədi. Ermənilər eyni zamanda Dağlıq Qarabağda milli zəmində qarşıdurma törətməyə cəhd göstərdilər. Ermənilərin Dağlıq Qarabağ iddialarından fərqli olaraq qondarma "erməni genosidi" kampaniyası sovet rəhbərliyi tərəfindən dəstəkləndi. Ermənilər ilk dəfə bu tarixi Sovet imperiyasının müxtəlif yerlərində, o cümlədən İrəvanda geniş şəkildə qeyd etdilər. Bu gün də davam etdirilən "genosid kampaniyası"nın başlanğıcı məhz 1965-ci ildə uydurma hadisələrin 50 illiyi münasibəti ilə Moskva rəhbərliyi tərəfindən qoyuldu."

1967-ci ildə Stepanakertdə azərbaycanlılara qarşı terror aktı törədilmiş, bir neçə nəfər qətlə yetirilmişdi. Bu qanlı hadisələr zamanı təəssüf ki, pespublika rəhbərliyi seyrçi mövqe tutmuşdur.

Moskvanın təzyiqi ilə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1969-cu il 7 may tarixli qərarı ilə sərhəd rayonlarında 2 min hektardan çox Azərbaycan torpaqları, Laçının Qaragöl yaylağının, Qubadlının Çayzəmi adlanan ərazisi, Qazağın Kəmərli kəndi torpaqlarının bir hissəsi, Kəlbəcərdə Zod qızıl mədəni, Sədərəyin Həsənqulu bağı və digər ərazilərin Ermənistana verilməsi barədə fərman imzalamışdır. Bu qərarın bir hissəsi icra olunmuş, lakin bir hissəsinin icrası isə V.Axundovdan sonra Azərbaycana rəhbərlik etmiş H.Əliyev tərəfindən dayandırılmışdır. Bu məsələ barədə son illər nəşr olunmuş bəzi məqalələrdə qısa məlumat verilmişdir. Məsələn, N. Zamanlının " İki sahil " qəzetinin 17 mart 1994-cü il tarixli sayında dərc olunmuş "Şınığın Hacılar meşəsi və Tağılar kəndi ermənilərə necə peşkəş edildi (1967-ci il)" məqaləsində Moskvanın himayəsi və yerli rəhbərlərin səriştəsizliyi ucbatından sovet hakimiyyətinin ilk illərində olduğu kimi 60-cı illərdə də Azərbaycan SSR ərazilərinin Ermənistan SSR-ə verilməsi prosesinin davam etməsi faktlarla sübut edilmişdir.

T.Mehdiyev və A.Əliyevin "Oğuz yurdu" qəzetinin 3 iyul 2001-ci il tarixli sayında dərc olunmuş "Sərhədlərimiz varlığımızdır" məqalələrində son illərə qədər 60-cı illərə aid qaranlıq qalmış bəzi faktların üzərinə işıq salınmışdır. Həmin məqalədə deyilir ki, Azərbaycan Respublikası Nazirlər Sovetinin o zamankı sədri Ə.Əlixanov Ali Sovetin qərarını icra etmək üçün 1969-cu ildə Naxçıvana gəlmişdi. O, Ermənilərlə görüşərək Sədərək əhalisinin köməkliyi ilə sərhəddin dəqiq yerini onlara göstərmişdi. Lakin sonradan o, yuxarıdan yeni tapşırıq aldıqdan sonra

Sədərəklilərə müraciətlə bildirmişdir ki, "…Biz indi Sovet İttifaqında yaşayırıq, ermənilərlə müttəfiqik… bu torpaqlar da hazırda boşdur, istifadəsizdir. Etiraz etmirsinizsə qoyun müvəqqəti ermənilər istifadə etsinlər."

Buna cavab olaraq Sədərək kənd sakini Fərman Tağıyev hər iki respublikanın rəhbərlərinə müraciət edərək deyilənlərə etiraz etmiş və bildirmişdi: "Çin dövləti də SSRİ ilə müttəfiqdir, əhalisi də lap çoxdur… SSRİ ilə Çin sərhəddində isə boş və istifadəsiz yerlər ucsuz-bucaqsızdır. Nə üçün SSRİ rəhbərliyi həmin ərazilərdən müvəqqəti istifadə üçün onlara vermir." (409, s.27)

M.Zülfüqarovun "Sumqayıt siyasi mübarizə burulğanında" məqaləsində (294, 17 avqust 1996) H.Baykaraya istinadən 60-cı illərdə Sumqayıtı idarə edənlərin 95 faizinin rus, erməni və başqa türk olmayan millətlərdən ibarət olması göstərilmişdir. Məqalədə SSRİ-nin Novoçerkassk və s. şəhərlərində olduğu kimi Sumqayıtda da 60-cı illərdə sovet rejimi əleyhinə çıxışların baş verdiyi qeyd olunmuşdur. Məqalədə deyilir: "...kommunist rejiminə qarşı 60-cı illərdə genişlənən mübarizə mərkəzlərindən biri Sumqayıt şəhəri idi. 1963-cü il noyabr ayının 7-də şəhərin əsas meydanında bayram nümayişi zamanı hökümətin siyasətindən narazı əhali ilə milis arasında ciddi toqquşma baş vermiş və bu hadisə iqtisadi vəziyyəti dözülməz olan əhalinin kortəbii qiyamının başlanması üçün qığılcım olmuşdur. Əhali S. Vurğun adına mədəniyyət sarayının qarşısında asılmış N.Xuruşşovun portiretini daş kəsəklə darmadağın etdikdən sonra, mağazaların vitrinlərini sındıraraq milis idarəsinə hücum etmiş, milisin atəş açması nəticəsində bir neçə nəfər yaralanmışdır. Əhali buna dözməyərək iki milis motoskiletini yandırmış və şəhər hərbi komissarını döyərək ölümcül hala salmışdır. "

Sovet tarixşünaslığında öz əksini tapmayan bu cür çıxışların tezliklə yatırılmasının əsas səbəbi onların kortəbii xarakterə malik olmasında idi. Çünki bu etiraz aksiyaları Xuruşşovun apardığı siyasətin əleyhinə, bu siyasətin nəticəsində ölkədə baş vermiş iqtisadi çətinliklərə, ərzaq qıtlığına, aclıq hallarına qarşı çevrildiyi halda, bu çıxışlarda Stalinin portretlərinin qaldırılması və Stalin dövrünə qayıtmaq meylləri özünü büruzə verirdi. Etiraz aksiyalarının ümumiyyətlə sovet rejiminə qarşı deyil, Xruşşovun apardığı siyasət əleyhinə çevrilməsi 60-cı illərin əvvələrində baş vermiş numayişlər üçün xarakterik idi.

Məqalədə həmçinin 60-cı illərin əvvəllərində, məqsədi müstəqil və vahid Azərbaycan olan, lakin diqqəti yayındırmaq üçün "Ümumi Azərbaycan zəhmətkeş

və kəndli partiyası" adlandırılan gizli təşkilat haqqında da məlumat verilib. Həmin dövrdə Gəncə, Xanlar kimi Sumqayıt da bu təşkilatın əsas mərkəzlərindən birinə çevrilib. Təşkilatın üzvləri təbliğat işində millətlərin öz müqəddəratını təyin etmək hüququndan geniş istifadə edirdilər. 1967-ci ildə DTK bu təşkilatın izinə düşərək 20 nəfər üzvünü həbs etmişdir ki, bunlardan da 6 nəfəri Sumqayıtdan idi." (294, 17 avqust 1996)

60-cı illər sovet tarixşünaslığında öz əksini tapmayan bir çox hadisələr sonrakı illərdə az da olsa tədqiq olunub. İ.Stalin rejimindən sonra yaranmış yeni siyasi şərait sovet rejiminin tənqidinə və milli oyanışa həsr olunmuş əsərlərin meydana çıxmasına səbəb olub. Məhz bu prosesin nəticəsində B.Vahabzadənin "Gülüstan" poeması kimi milli ruhda yazılmış bir sıra əsərlər meydana gəlmiş, sovet rejimi tərəfindən qadağan edilən "Novruz bayramı" Ş.Qurbanovun təşəbbüsü ilə təntənəli şəkildə, dövlət səviyyəsində qeyd olunmuş və digər hadisələr baş vermişdir.

XX əsrin 60-cı illərində SSRİ-nin digər ərazilərində olduğu kimi Azərbaycanın ictimai-siyasi həyatında da bir sıra müəmmalı hadisələr baş vermişdir ki, bunlar da sovet tarixşünaslığında öz əksini tapmayıb. Bunlardan Azərbaycan KP MK katibi Şıxəli Qurbanovun, Tibb Universitetinin prorektoru Məsud Əlizadənin və digərlərinin qətl hadisələrini göstərmək olar. İndiyə qədər səbəbləri naməlum qalan bu hadisələr demək olar ki, Azərbaycan tarixinin XX əsr 60- cı illər dövrünün qaranlıq səhifələrini təşkil edir.

Keçən əsrin 80-ci illərinin axırlarından başlayaraq bu hadisələrə aid Y.İsmayılovun "Sənsiz" (74,28 mart 1989), M.Rzayevanın "Siqaret yanıb qurtarmamış Şıxəlinin ölüm xəbəri yayılıb"("Şərq" qəz. №30 1999), "30 il əvvəlki qətl. Görkəmli ziyalı Məsud Əlizadənin müəmmalı ölümünün əsl baiskarı hələ də tapılmayıb" ("Ekspress" qəz.15-16 oktyabr 1998), "Şıxəli Qurbanov-80 illiyi qarşısında. Kommunist rejiminin milli oyanışa qarşı qəsdi" (112,16 dekabr 2004), "XX əsrin 60-cı illərinin siyasi prosesləri və müəmmalı qətlləri" (112,30 mart 2006) və digər başlıqlı yazılar nəşr olunub. O.Mirzəyevin 1994-cü ildə rus dilində yazdığı "Siyasi portretlər: İmam Mustafayev. Şıxəli Qurbanov. Nazim Hacıyev" kitabında 50-ci illərin axırı-60-cı illərdə Azərbaycanda rəhbər vəzifədə olmuş üç şəxs haqqında ətraflı məlumat verilib. Bu yazılarda hadisələr haqqında müxtəlif fikirlər, ehtimallar irəli sürülüb

Ş.Qurbanov 1957-ci ildə Azərbaycan KP MK- nın ideologiya şöbəsininin müdiri vəzifəsində işləyərkən 3-cildlik “Azərbaycan tarixi” kitabının müzakirəsi gedirdi. Moskvadan gəlmiş nümayəndə heyəti Azərbaycan tarixini Moskvanın istəyinə uyğun saxta şəkildə yazılmasını çalışırdılar. Ş.Qurbanov öz çıxışında yenicə millətçi damğası üstündən götürülmüş N.Nərimanovdan sitatlar gətirməklə onlara “icazə verin biz öz tariximizi özümüz yazaq” kimi sərt cavab verib. Bu çıxış bəlkə də Ş.Qurbanovun Moskvanın qara siyahısına salınmasının əsas səbəblərindən biri olmuşdu. Onun prinsipial mövqeyi Moskvadan gələnlərin etirazına səbəb olmuş və onlar biz bunu belə qoymayacağıq deyərək iclası tərk etmişdilər.

Bu hadisələrdən sonra o, vəzifədən azad olunur və elmi fəaliyyətini davam etdirmək üçün Nizami adına Dil və Ədəbiyyat İnstitutunda ədəbi əlaqələr şöbəsinin müdiri kimi səmərəli fəaliyyət göstərir.

Ş.Qurbanovu ikinci dəfə rəhbər vəzifəyə 1959-cu ildən Azərbaycan KP MK-nın birinci katibi işləyən Vəli Axundov dəvət etmiş və 1966-cı ildə o, Azərbaycan KP MK-nın katibi vəzifəsinə irəli çəkilmişdi.

Ş.Qurbanovun prinsipial mövqeyinə görə ona qarşı iki dəfə sui-qəst cəhdi olmuşdu. Birinci sui-qəsd cəhdi Bakıda, o biri isə Moskvada baş vermişdi. Ş.Qurbanov adətən xidməti maşından az istifadə edərmiş. Bir dəfə evə piyada qayıdarkən nömrəsi silinmiş bir maşın səkidə qəflətən onun üstünə sürülmüş, cəld ağacın dalına keçməklə təhlükəni sovuşdurmaq mümkün olmuşdu. O, yaxınlarına bildirmişdi ki, artıq dəqiq bilirəm ki, məni öldürmək istəyirlər. Bu barədə əvvəl heç kimə deməsə də sonradan Vəli Axundova danışıb.

İkinci sui-qəsd cəhdi Moskvada müttəfiq respublikaların MK katiblərinin iclasından sonra baş verib. İclasdan sonra hər bir katibə şəhəri gəzmək üçün bir maşın ayrılır. Lakin təsadüfən Gürcüstan MK katibi Ş.Qurbanovu öz maşınına dəvət etməsi onu ölümdən qurtarıb. Onlardan irəlidə gedən və Ş.Qurbanov üçün ayrılmış maşını qəflədən peyda olan yük maşını yandan vuraraq əzmişdi.

Ş.Qurbanov Azərbaycan xalqına, onun adət-ənənəsinə böyük məhəbbət bəsləyir, kommunist rejiminin qadağan etdiyi el bayramlarını daim bərpa etməyə çalışırdı. O, Novruz bayramını islam dini ilə əlaqələndirərək ona qadabğa qoyanları daim tənqid etmiş, elmi faktlarla sübut etmişdi ki, Azərbaycan xalqının bu bayramı islamdan çox əvvəllər də mövcud olmuş və astronomik yeni ilin, baharın gəlişini

bildirən bu bayramın qadağan edilməsi səhvdir. Azərbaycan KP MK-nın ideoloji işlər üzrə katibi kimi Ş.Qurbanov 1966-cı ildə SSRİ ilə münasibəti yaxşı olan bir neçə müsəlman ölkəsi rəhbərlərinə məktub yazaraq Novruzun dini bayram olub-olmaması barədə arayış vermələrini xahiş etmişdi. Həmin ölkələrdən Moskvaya cavab gəldikdən sonra Ş.Qurbanov Moskvaya çağırılır və o, 12 saat Kremlin kabinetlərinin birində oturaraq izahat yazmağa məcbur olur. Sov. İKP MK-nın yüksək vəzifəli şəxsi izahatı oxuduqdan sonra ona bildirir ki, "biz həqiqətən əmin olduq ki, Novruz dini bayram deyil. Sizi təbrik edirik." Bununla da Ş.Qurbanov Novruz bayramının keçirilməsinə Moskvadan rəsmi icazə alır. Bundan sonra məhz onun gərgin fəaliyyəti nəticəsində 1967-ci il martın 20-də Bakıda, kommunist rejmi dövründə ilk dəfə olaraq təntənəli surətdə Novruz bayramı keçirilmişdi.

Ş.Qurbanov Novruz bayramını təntənəli şəkildə qeyd olunması barədə Moskvadan razılıq almasına baxmayaraq tədbirdən dərhal sonra bu prosesin qarşısını alması barədə gizli tapşırıqlar verilməyə başlandı. Çünki Azərbaycan xalqının milli özünüdərkinin inkişafına çox böyük təsir göstərmiş bu hadisə kommunist rəhbərlərini narahat etməyə bilməzdi. Tez-tez Ş.Qurbanovun evinə naməlum zənglər çalmağa, ona və ailəsinə hədə-qorxu gəlməyə başladılar.

1967-ci ilin 24 mayında, saat 12.00-da Ş.Qurbanovun "Sənsiz" tamaşasına ictimai baxış keçiriləcəkdi. Artıq Akademik Dram Teatrının qarşısında afişalar da vurulmuşdu. Mayın 23-də gecə aeroportda xarici qonaqları qarşılayarkən iki gün əvvəldən sızıldayan dişi yenidən onu incitməyə başlayır. Onun dişləri sağlam olmasına baxmayaraq yalnız bir dişinə düşən xal onu incidirdi. Azərbaycan KP Bakı şəhər təşkilatının katibi Qədirovun təkidi ilə o həkimə müraciət edir. Onun dişinə Qədirovun qohumu Əliağa Əhmədov adlı həkim iynə vurur. Lakin səhəri günü iynənin yeri şişdiynə görə yenidən rəhbər işçilərə xidmət göstərən "Leçkomissiya" adlanan xəstəxanaya gəlir. O, saat 9.30-da həkimin kabinetinin qarşısında daynanmış xəstəxananın gözətçisini siqaretə qonaq etmiş, özü də siqareti yandıraraq həkimin kabinetinə daxil olmuşdu. Həkim ona kabinetə girən kimi iynə vurmuş və həmin anda, yəni kabinetə daxil olandan 10 dəqiqə sonra o keçinmişdi. Hadisənin şahidi olan qoca kişi bildirmişdi ki, mənim üçün yandırdığı siqaret yanıb qurtarmamış həkim kabinetdən çıxaraq onun vəziyyətinin ağır olduğunu bildirmişdi. Maraqlı burasındadır ki, bu hadisədən sonra həkim pəncərədən tullanaraq qaçmışdı. ("Şərq" qəz. №30 1999)

Ailə üzvlərinə bildiriblər ki, guya ona pensilin vurulduğuna görə şoka düşüb. Moskvadan qeyri rəsmi deyiblər ki, ona sinaid vurulduğuna görə boğulub. Sonradan həkim də Ş.Qurbanovun ailə üzvlərinə etiraf edib ki, ona hazır şpris vermişlər. Beləliklə Azərbaycan xalqının görkəmli ictimai və siyasi xadimi, millətini, vətənini ürəkdən sevən Şıxəli Qurbanov 42 yaşında kommunist rejiminin qurbanı olmuşdu.

Sovet dövründə baş vermiş çoxsaylı müəmmalı qətl hadisələrinin biri də Tibb İnstitutunun professoru Məsud Əlizadənin başına gətirilmişdir.

Məsud Ağamehdi oğlu Əlizadə 1932-ci ilin may ayının 20-də Bakıda, ziyalı ailəsində anadan olmuşdu. O, Bakı şəhəri 171-saylı orta məktəbi 1950-ci ildə gümüş medalla bitirərək imtahansız Tibb İnstitutuna qəbul edilmişdi. Bir qədər sonra işgüzarlığına və bacarığına görə başqalarında fərqləndiyinə görə onu institutun komsomol təşktilatının katibi seçmişlər. 1956-cı ildə institutu müvəffəqiyyətlə bitirərək Biokimya kafedrasına aspirant qəbul edilib. 1958-ci ildə Nazirlər Kabinetinin elm və təhsil şöbəsinin müdiri təyin olunub. Həmin illərdə milli, dini adət-ənənənin təbliğatı sahəsində müəyyən işlər görüb. 1960-cı ildə M. Əlizadə Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının katibi seçilib. Onun fəaliyyəti nəticəsində əvvəlki illərdən fərqli olaraq azərbaycanlı gənclərin müxtəlif vəzifələrə irəli çəkilməsi baş vermişdir ki, bu da ona qarşı hücumların başlamasına səbəb olmuşdur. M.Əlizadə haqqında "Komsomolskya pravda" qəzetində böyük məqalə dərc olunmuş və o, "millətçilikdə" təqsirləqndirilmişdir. Bundan az sonra "Azərbaycan gəncləri" qəzeti ona qarşı başlamış kampaniyanı daha da genişləndirərək, onu "xalqlar dostluğuna xəyanət edən millətçi komsomolçu" kimi xapprakterizə etmişdir. Ona qarşı kampaniyaya yekunu olaraq ÜİLKGİ rəhbəri Sergey Pavlov M.Əlizadəyə rəsmi olaraq "millətçi" damğasını vurmuşdu. Bütün bu hücumlara dözməyərək M.Əlizadə rəhbər komsomol işindən, elm və təhsil sahəsinə keçməyə məcbur olmuşdu. 1966-cı ildə o, Azərbaycan Dövlət Tibb institutunun professoru vəzifəsinə təyin edilir. Lakin onun fəaliyyətinə burada da müxtəlif maneələr yaradılır. Yuxarılarda "millətçi", "dikbaş" kimi tanınan M.Əlizadə kommunist rejimi üçün artıq adama çevrilmişdir və çox ehtimal ki, onun müəammalı qətlinin də əsas səbəblərindən biri bu olmuşdur. Hadisə isə belə baş vermişdi: "1968-ci il iyul ayının 27-sində instituta qəbul edilməsini tələb edən Qazaxlı bir gənc gündüz saat 11-12 radələrində prorektorun otağına girərək

əldəqayırma silahla onu ürək nahiyəsindən yaralamışdır. Yaralı təcili “Semaşko” adına xəstəxanaya çatdırılsa da onun həyatını xilas etmək mümkün olmamışdır.

Öz vətənini, mənsub olduğu millətini ürəkdən sevən M.Əlizadənin 36 yaşında qətlə yetirilməsinin əsil səbəbləri indiyə qədər açılmamışdır. Onu qətlə yetirən gəncin adı gizli saxlanılmış və qətldən az sonra “qatil də özünü öldürüb” bəhanəsi ilə qaldırılmış cinayət işi xətm olunmuşdur. (112, 30 mart 2006)

Sovet dövründə baş vermiş bu cür çoxsaylı müəmmalı qətl hadisələrinin obyektiv şəkildə tədqiqi müüasir dövrdə aktual olaraq qalır. Tədqiqatçıların bu problemi elmi şəkildə araşdırması qaranlıq məsələlərin üstünə işıq sala bilər.

Azərbaycanın 1960-cı illər dövrünün tarixşünaslığının təhlili göstərir ki, bu dövr də sovet tarixçiləri tərəfindən hakim kommunist partiyasının diqtəsi ilə, onun siyasətinə uyğun, birtərəfli şəkildə tədqiq olunub. Bu dövrdə Zaqafqaziya respublikaları elmi idarələrinin ictimaiyyatşünaslarının Elmi Əlaqələndirmə Şurasının yaradılması digər ictimai elmlərlə yanaşı, tarix elmi sahəsində də tədqiqatların daha çox saxtalaşdırılmasına xidmət etmişdir. Tarixi tədqiqatlara bu cür subyektiv yanaşma sonrakı illərdə öz mənfi təsirini göstərmişdi. Məhz bu səbəbdən sovet dövrü tarixinin digər illəri kimi 1960-cı illər tarixşünaslığı da yenidən, obyektiv şəkldə tədqiqi aktual olaraq qalır.

### 3.3. 1970 -1985- ci illərin tarixşünaslığı

Elmi ədəbiyyatda 1970-1985-ci illər dövrü əvvəllər “inkişaf etmiş sosializm” dövrü adlandırılsa da 1985-ci ilin aprel ayından başlayraq elmi ədəbiyyatda, SSRİ-nin yeni rəhbərliyinin irəli sürdüyü yenidənqurma siyasətinə uyğun olaraq bu dövrü “durğunluq dövrü” kimi xarakterizə etməyə başlamışlar. Lakin iqtisadi göstəricilərə görə Azərbaycan SSR digər müttəfiq respublikalardan fərqləndiyinə görə ümumən SSRİ-yə aid edilmiş bu konsepsiyanın mexaniki surətdə Azərbaycana da şamil edilməsi kökündən səhvdir. Sovet dövründə 15 respublika içərisində özünü təmin etmək gücünə malik olan iki respublikadan biri Azərbaycan SSR olduğuna görə buradakı şərait dotasiya ilə yaşayan digər respublikalardan fərqli idi.

Heydər Əlirza oğlu Əliyevin Azərbaycan KP MK-ya birinci katib seçilməsi ilə Respublikanın həyatında əvvəlki illərdən tamamilə fərqli bir ictimai-siyasi vəziyyətin başlanğıcı qoyuldu. Buna görə 70-80-ci illərin birinci yarsına aid elmi

ədəbiyyatda verilmiş xarakteristika və bölgünün mexaniki şəkildə Azərbaycana aid edilməsi reallığı əks etdirmir. Azərbaycan reallığına uyğun olaraq bu dövrün 1969-cu ilin iyul ayından başlanması, ictimai-siyasi və iqtisadi cəhətdən Azərbaycan SSR-də vəziyyətin digər müttəfiq respublikalardan fərqli olmasını nəzərə almaq vacibdir.

Bu dövrün sovet tarixşünaslığından fəqrli xarakteristikasının verilməsinə son illər bəzi müəlliflər müəyyən cəhtlər etmişlər. Məsələn, T.Qaffarovun 1999-cu ildə nəşr olunmuş “Azərbaycan tarixi” (1920-1991) kitabının 10-cu paraqrafı “70-80-ci illərdə Azərbaycanda milli oyanış, iqtisadi və sosial tərəqqi” adlanır. Bu paraqraf “Milli oyanış, iqtisadi və sosial tərəqqi siyasəti”, “İqtisadiyyat”, “Sosial həyat”, “Kommunist rejimi dayaqlarının çürüməsi” başlıqlı bölmələrə ayrılmışdır. Dövrün bu cür bölgüsü əvvəlki kitab və məqalələrdəki bölgülərdən köklü sürətdə fərqlənsə də bu bölgünün də təkmilləşdirilməsinə ehtiyac var.

1970-1985-ci illər tarixşünaslığına aid müxtəlif illərdə SSRİ miqyasında, o cümlədən Azərbaycanda çoxlu sayda kitab və məqalələr nəşr olunub. (192; 498,№12,1972,s.53-61,№ 2,1981,s.41-49;580,581,636,708,731,732,733 və s.)

1970-1985-ci illər əvvəlki illərdən bəzi xüsusiyyətlərinə görə köklü surətdə fərqlənir. Bu illərdə SSRİ miqyasında tarix elminin və o cümlədən tarixşünaslığın inkişafına istiqamət verən bir sıra müşavirə və konfranslar keçirilib. Məsələn, 1973-cü ilin mart ayında Smolensk şəhərində azərbaycanlı alimlərin də iştirak etdiyi tarixşünasların ümumittifaq konfransı tarixşünaslıq sahəsində tədqiqatların inkişafına müsbət təsir göstərib. (41, 16 mart 1973)

Azərbaycan tarixinin 1970-1985-ci illərə aid sovet tarixşünaslığının tədqiqi üçün birinci növbədə bu dövrün siyasi kursunu müəyyən etmiş Sov.İKP sənədlərinə, ən başlıcası isə Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il və 29 oktyabr 1971-ci il plenumlarının materiallarına xüsusi diqqət vermək lazımdır.

Azərbaycan KP MK-nın (5 avqust 1969-cu il) plenumunda tədqiqatçıların qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu: “İctimai elmlər sahəsində çalışan işçilərin ən mühüm vəzifəsi… Azərbaycan partiya təşkilatının və zəhmətkeşlərinin mübarizəsini, onun inqilabi və beynəlmiləl ənənlərini hərtərəfli və obyektiv göstərməkdən ibarətdir.” (204, 7 avqust 1969)

Plenumdan sonra 80-ci illərin ortalarına qədər Azərbaycan sovet tarixşünaslığında yazılan kitab və məqalələrin əksəriyyəti həmin siyasi xəttin

təsdiqi və təbliğinə həsr olunub.

Azərbaycan KP MK-nın "Sov.İKP XXV qurultayının qərarları ilə əlaqədar olaraq ideoloji işin daha da gücləndirilməsi sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında" plenumunda (oktyabr 1971-ci il) 1967-ci ildən nəşriyatlarda 400-dən artıq əlyazmanın yığılıb qalması və plandan plana keçirilməsi, 5 nəşriyyatın mətbələrində 1215 kitabın yığılması, lakin çap edilməməsi və bu ildən o biri ilə keçirilməsi, onların hazırlanmasına xeyli vəsaitin sərf olunması, qabaqcadan müəlliflərə qonorar verilməsi və tonlarla metalın istifadəsiz qalması kəskin tənqid olunub.

Plenumda bəzi kitabların tənqid edilməsi 1971-ci ilin oktyabrından sonra Azərbaycan sovet tarixşünaslığına istiqamətverici təsir göstərib. Plenumda respublikada ictimai elmlər sahəsində az əsər yazılmadığı qeyd olunsa da, lakin bu əsərlərin bir çoxunun lazımi səviyyədə olmaması, həmin əsərlərdə metodoloji səhvlərin olması, elmi təhlilin dayazlığı, fakt materiallarının nəzəri cəhətdən lazımınca ümumiləşdirilməməsi, bəzi müəlliflərin tarixi keçmişdən bəhs edərkən partiyalılıq prinsiplərindən kənara çıxması, istismarçı siniflərin ayrı-ayrı nümayəndələrinin müəyyən dərəcədə ideallaşdırması, burjua filantropiyasının ictimai təbiətinin düzgün izah edilməməsi tənqid olunaraq alimlərə aşağıdakı göstərişlər verilib: "İctimai elmlərlə məşğul olan alimlərimiz tarixi keçmişi və müasir dövrü qiymətləndirərkən həmişə aydın partiya mövqeyində durmalı, ideya büdrəmələrinə, burjua təsirinin hətta ən kiçik təzahürlərinə qarşı barışmaz olmalı, antikommunizmə qarşı, burjua alimlərinə qarşı ideoloji mübarizənin ön cərgəsində getməlidirlər." (204, 2 noyabr 1971 )

Plenumda "Gənclik" nəşriyyatının baş redaktoru V.Paşayevin "Özüm, gözüm, sözüm ..." kitabının nəşrinin ciddi ideoloji səhvlərə görə dayandırılması qeyd edilmiş, M.Əsgərovun "Tank vuruşması", R.Zeynalovun və L.Borodetskinin "416-cı Taqanroq diviziyası", F.Şuşinskinin "Şuşa" kitablarında təhrif və səhvlərin olması tənqid olunmuş, 20 min nüsxə tirajla çap edilmiş Azərbaycan Sovet Ensklopediyasının yeganə cildi olan birinci cildinin ciddi səhvlər və qüsurlar üzündən yenidən işlənməsi haqqında göstəriş verilib. (204, 2 noyabr 1971 )

1969 iyulundan 1985- ci ilin aprelinə kimi olan dövrün tarixşünaslığına Kommunist Partiyasının qurultay və plenumlarının irəli sürdüyü vəzifələrlə yanaşı, Azərbaycan KP MK rəhbərlərinin müxtəlif məsələlərlə bağlı etdikləri məruzələrin

də böyük təsiri olmuşdu. Bu dövrün sovet tarixşünaslığı Azərbaycan KP MK rəhbərlərinin müxtəlif məruzələrinin çap olunduğu kitablardan (439,440,441 və s.) istiqamət götürərək bu məruzələrdə irəli sürülən ideyaların daha geniş təbliğinə həsr edilib. Bu dövrdə yazılan dissertasiya və kitabların əksəriyyətində 1969-cu ilin avqust plenumu, dönüş plenumu kimi xüsusi qeyd edilirdi.

1969 iyulundan 1985-ci ilin aprelinə kimi olan dövrdə əvvəlki illərə nisbətən müxtəlif problemlərə aid daha çox kitab çap olunub ki, bu da tarixşünaslığın inkişafına müsbət təsir göstərib. Məsələn, Azərbaycan SSR-də 1979-cu ildə 12,9 milyon nüsxə kitab nəşr olunub ki, bunun da 8,1 milyonu azərbaycan dilində idi. (654,s.311) Nəşr olunan kitabların tərkibində marksizm-leninizm ideologiyasını təbliğ edən kitablar böyük əksəriyyət təşkil etməsi həmin dövrün tələbindən irəli gəlirdi.

1985-ci ildə nəşr olunmuş "Təbliğat işinin, kütləvi-siyasi işin aktual məsələləri Azərbaycan Kommunist Partiyasının sənədlərində" kitabında 1980-1985-ci illərdə qəbul olunmuş Azərbaycan KP-nin 24 qərar və qətnaməsi verilib. Bu sənədlər ayrı-ayrı sahələrə həsr olunub. Məsələn, Azərbaycan KP MK-nın "Respublikada tərcümə işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" (aprel 1983) qərarında əsas məsələ V.İ.Leninin əsərlərinin Azərbaycan dilinə tərcümə edilib nəşr olunmasına aid idi. Əgər, 1983-cü ilə qədər sovet hakimiyyəti illərində Azərbaycan dilində V.İ.Lenin əsərləri 3648 min nüsxə tirajla 340 dəfə nəşr olunmuşdursa, 1985-ci ildə bu 4100 min nüsxə tiraja çatmış, 1100-ə qədər əsər ilk dəfə çap olunmuş və bu əsərlərin nəşri əvvəlki illərə nisbətən 70-80-ci illərdə daha da artmışdır.(388,s.133)

70-80-ci illərin birinci yarısı Azərbaycan Kommunist Partiyasının fəaliyyətinə aid İ.S.Müslümov, S.B.Musayev, B.S.Abdullayev, İ.M.Qurbanov, H.C.Aslanov və başqa tarixçilər tərəfindən bir sıra kitab və məqalələr yazılıb (34; 35; 37, №1,1983,s.40-45; 417; 429; 452; 563; 684 və s.)

İ.S.Müslümovun 1979-cu ildə rus dilində nəşr olunmuş "Rəhbər özək (Azərbaycan Kommunist Partiyasının siyasi və təşkilatçılıq fəaliyyətinin vəhdəti)" kitabında Sov.İKP XXV qurultayının qərarları əsasında Azərbaycan Kommunist Partiyasının siyasi və təşkilati işinin inkişaf etdirilməsi öz əksini tapıb. Müəllif həmçinin həmkarlar və komsomol təşkilatlarının fəaliyyətini də müxtəlif rəqəmlərə əsasən şərh edib. Kitabda digər məsələlərlə yanaşı 1969-cu ildən sonra

Azərbaycanda kadr siyasətinin aşağıdakı istiqamətlərdə aparıldığı qeyd edilib:

- Vəzifəsində sui-istifadə etmiş, məsuliyyət hissini itirmiş... rəhbər işçilərin kənarlaşdırılması;

- Rəhbər kadrların tərkibinin ideyaca mətin, siyasi cəhətdən savadlı, prinsipial və təşəbbüskar... keyfiyyətlərə malik işçilərlə gücləndirilməsi;

- Kadrların ideya mətinliyinin və siyasi tərbiyəsinin yüksəldilməsi;

- Kadrların düzgün tərbiyəsində əsas vasitə olan bolşevikcəsinə tənqid və özünü tənqidin ardıcıl inkişaf etdirilməsi.

B.M.Abdullayevin rus dilində nəşr olunmuş "Aparıcı qüvvə. Respublikanın həyatında fəhlə sinfinin aparıcı rolunun yüksəldilməsi sahəsində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti (1971-1980-ci illər)" kitabında (417) fəhlə sinfinin avanqard rolunun artırılması sahəsində Azərbaycan KP-nin 10 illik fəaliyyəti tədqiq olunub. Kitab giriş, beş fəsil və nəticədən ibarətdir.

Giriş hissəsində sosializm və kommunizm quruculuğu dövründə Azərbaycan KP-nin müxtəlif sahələrdə fəaliyyətinə və sovet Azərbaycanının iqtisadiyyatının, fəhlə sinfinin inkişafına aid yazılmış 26 kitabın tarixşünaslıq baxımında qısa təhlili kitabın elmi əhəmiyyətini artırır. Müəllif 1974 və 1977-ci illərdə rus dilində çapdan çıxmış iki cildlik "Azərbaycan SSR fəhlə sinfinin tarixinin oçerkləri" kitabını Azərbaycan tarixçi tədqiqatçılarının böyük uğuru hesab etmişdir. Müəllif bu kitabın vətəndaş tarixi aspektində yazıldığını xüsusi qeyd edərək, fəhlə sinfinin aparıcı rolunun yüksəldilməsi sahəsində Azərbaycan Kommunist Partiyasının fəaliyyətinin tədqiqatçılar tərəfindən az araşdırıldığını tənqid etmiş və bu işin gücləndirilməsinin zəruri olduğunu göstərmişdir.

B.M.Abdullayevin kitabında respublika sənayesinin inkişafında kommunist partiyasının rolu işiqlandırılıb, fəhlə sinfinin tərkibində dəyişiklər və inkişaf təhlil edilib, fəhlə sinfinin respublikanın ictimai-siyasi həyatında rolunun artırılması istiqamətində partiyanın gördüyü tədbirlər, fəhlə sinfinin ideya-siyasi cəhətdən kamilləşməsi və onların əmək fəallığının artması geniş şərh edilib. Müəllif tədqiqatın obyektinin şəhərdə təmərküzləşmiş fəhlə sinfi olduğunu qeyd etməsi sübut edir ki, kitabda kəndə fəaliyyət göstərən sovxoz fəhlələrinin fəaliyyəti tədqiq olunmayıb.

Kitabın "Respublika sənayesinin və fəhlə sinfinin inkişafına partiya rəhbərliyi" adlanan birinci fəsildə müəllif sənayenin inkişafına dair Azərbaycan

KP-nin bir sıra qərarlarını şərh edərək, məhz bu qərarların nəticəsində sənayenin inkişafı, yeni iş yerlərinin açılması və fəhlə sinfinin sayca artdığını qeyd edib. Bundan başqa 1977-1980-ci illərdə beşillik plana əlavə olaraq respublikada 90 min, o cümlədən Bakıda 5260, Naxçıvan MSSR-də 4010, Sumqayıtda 2870, Kirovabadda (indiki Gəncə) 2950, Qazaxda 2860, Qubada 2950 iş yerlərinin açılmasını nəzərdə tutan faktlar və bu kimi digər məsələlər kitabda arxiv sənədləri əsasında xüsusi qeyd olunub.

Kitabın "Respublika partiya təşkilatının ictimai-siyasi həyatda fəhlə sinfinin aparıcı rolunun gücləndirilməsi sahəsində fəaliyyəti" adlanan ikinci fəslində müəllif müxtəlif partiya təşkilatlarında fəhlə sinfinin sayının başqa sinif və təbəqəyə nisbətən çox olmasını və bunun ildən-ilə inkişaf etdiyini sovet statistikasına istinadən göstərib.

Kitabın "Fəhlə sinfinin ideya-siyasi cəhətdən inkişafı" adlanan üçüncü fəslində müxtəlif sənaye müəssisələrində təbliğat və təşviqatın səmərələşdirici təkliflərin artmasına və planların artıqlaması ilə yerinə yetirilməsinə müsbət təsiri işıqlandırılıb. Fəhlə sinfinin ideya-siyasi cəhətdən inkişafının istehsalatın inkişafına təsir etməsinə misal olaraq müəllif "Soyuzneftmaş" istehsalat birliyində 2725 səmərələşdirici təklifin istehsalata tətbiq edildiyini, bundan 4291 min manat mənfəət götürüldüyünü misal göstərib.

Kitabın "Fəhlə sinfinin peşə və ümumtəhsil səviyyəsinin yüksəldilməsinə qayğı" adlanan dördüncü fəslində müəlliif 70-ci illərdə və 80-ci illərin əvvəllərində fəhlə sinfinin yeni nəslinin hazırlanmasında texniki-peşə məktəblərinin rolunu yüksək qiymətləndirib və əvvəlki illərlə müqayisə apararaq fəhlə sinfi içərisində orta ixtisas və ali təhsillilərin sayının artığını faktlarla qeyd edib.

K.Bağırovun rus dilində nəşr olunmuş "İdeya-tərbiyəsi işinə kompleks münasibət" adlı kitabı(452) giriş, üç fəsil və nəticədən ibarətdir. Bu kitab K.Bağırovun Azərbaycan KP Sumqayıt şəhər partiya komitəsinin birinci katibi vəzifəsində işlədiyi dövrdəki fəaliyyətinə həsr olunub. Kitabın giriş hissəsində müəllif Azərbaycan KP Sumqayıt şəhər partiya komitəsinin ideoloji işinə aid kompleks planın əsas istiqamətlərini qeyd edib. Bunlar Sov.İKP XXV qurultayının ideoloji iş, daxili və xarici siyasət sahəsində qoyduğu vəzifələrə uyğun olaraq partiya təhsilinin təkmilləşdirilməsi, vətənpərvərlik və beynəlmiləlçilik tərbiyə işinin genişləndirilməsi, əməyə kommunust tərbiyəsini, sosializm yarışının

inkişaf etdirilməsi, xalq təhsili və peşə təhsil sisteminin təkmilləşdirilməsi, qabaqcıl təcrübənin təbliğinə, əmək şəraitinin yaxşılaşdırılmasına xidmət edən iqtisadi təhsilin inkişafı, əhalinin ideya-siyasi və mədəni səviyyəsinin artırılması, kütləvi informasiya vasitələrinin ideya səviyyəsinin, onların koordinasiya və operativliyinin daha da artırılması, Böyük Oktyabr sosialist inqilabının 60-illiyinə hazırlıq, inqilabın ümumdünya-tarixi əhəmiyyətinin izah edilməsi, SSRİ-nin yeni Konstitusuyasının təbliğ edilməsindən ibarət idi.

Kitabın birinci fəslində qeyd olunur ki, Sumqayıtda 1972-1973-cü illərdə 7810 dinləyicinin, o cümlədən 5069 kommunistin siyasi təhsil aldığı 183 ibtidai, 157 marksim-leninizm məktəbləri və 82 nəzəri seminar var idisə, 1976-1977-ci illərdə 12345 dinləyicinin, o cümlədən 8582 kommunistin təhsil aldığı 185 ibtidai, 200 orta məktəb və ali təhsillilər üçün 118 nəzəri seminar fəaliyyət göstərirdi. Komsomol siyasi maarifçilik işində 20 min gənc məşğul olurdu.

Kitabın ücüncü fəslində qeyd olunur ki, gənclərin mənəvi tərbiyəsi ilə 100-dən artıq partiya və komsomol veteranı məşğul olurdu. Kitabda həmçinin göstərlir ki, gənclər arasında Kremldə qırmızı bayrağın qarşısında, əfsanəvi “Avrora” kreyserinin və sovet xalqının digər inqilabi, döyüş və əmək şöhrəti yerlərində şəkil çəkdirmək uğrunda təşkil olunmuş yarış mənəvi tərbiyədə mühüm rol oynayırdı. Bu fəsildə Sumqayıtda fəhlə sinfinin ideya-siyasi, mənəvi və əmək tərbiyəsi sahəsində görülən işlərə aid faktlar da qeyd olunub. Kitabda göstərilir ki, 1976-cı ildə şəhərdə 70 min nəfəri əhatə edən 500 tematik gecə, disputlar keçirilib. 190 min nəfər konsert və teatra, həmçinin 4 min fəhlə, qulluqçu və şagirdin təmsil olunduğu 128 özfəaliyyət kollektivinin çıxışlarına tamaşa edib.

H.Aslanovun rus dilində 1981-ci ildə nəşr olunmuş “Fəhlə kollektivində hami tərbiyəçilik” adlı kitabında Azərbaycanın sənaye müəssisələrində gənc fəhlərə hami tərbiyənin əhəmiyyəti, onların gələcək inkişafında bu tərbiyənin rolu geniş şərh olunub. Kitabda qeyd edilir ki, Sumqayıt şəhərində gənclərin hami tərbiyəsi ilə 1500 əmək qabaqçılı məşğul olurdu.

Tədqiq olunan dövrdə partiya ilə inzibati orqanların əlaqələrinə, xalq nəzarətinin təşkilinə, sosial-iqtisadi inkişafa aid İ.M.Qurbanov, S.B.Musayev, İ.X.Zeynalov və digər tarixçilər bir neçə məqalə və kitablar yazıblar. ( 35, s.15-27, 466, 618 və s.)

İ.M.Qurbanovun rus dilində nəşr olunmuş “Sosial-iqtisadi planlara ideoloji

təminat” kitabında (618) Respublikada irəli sürülən sosial-iqtisadi planların həyata keçirilməsində ideoloji təminatın əhəmiyyəti nəzəri cəhətdən əsaslandırılıb.

İ.X.Zeynalov 1986-cü ildə “Respublika xalq nəzarəti orqanlarının fəaliyyəti” mövzsusunda namizədlik dissertasiyası, 1999-cu ildə isə “Azərbaycanın iqtisadi və sosial inkişafı (1970-1980-ci illər) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

70-80-ci illərin birinci yarısında sovetlərin fəaliyyətinə aid S.Babayev, Y.Vəliyev, N.Məmmədov  və başqa tarixçilər bir sıra məqalə və kitablar həsr ediblər.  (35, s.66-73, 401 və s.)

Y.Vəliyevin əsəri (401) aqrar-sənaye komplekslərinin inkişaf etdirilməsinə həsr olunub. Müəllif Kommunist Partiyası, sovetlər,  həmkarlar və komsomol təşkilatlarının bu sahədəki fəaliyyətlərini tədqiq edib.

T.Cəfərovanın elmi məqaləsi 70-80-ci illərdə sovetlərlə partiya arasında qarşılıqlı əlaqənin tarixşünaslığına həsr olunub.( 545)

S.M.Babayev 1992-ci ildə “Azərbaycanda sovetlər və ümumtəhsil məktəbləri (1960-1985-ci illər)” mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Müəllif 25 illik bir dövrü tədqiq edərək ümumtəhsil məktəblərinin inkişafında sovetlərin rolunu geniş  şəkildə faktlarla işıqlandırıb. Müəllif 70-80-ci illərdə sovetlərin rəhbərliyi ilə Azərbaycanda  ümumtəhsil məktəblərinin inkişafı, şəhər və kəndlərdə yeni çoxmərtəbəli məktəb binalarının inşa edilməsini müsbət hal kimi qiymətləndirib.

R.Suleymanovun 1984-cü ildə rus dilində nəşr olunmuş  “Azərbaycanda ali məktəbin inkişafı” və 1990-cı ildə yazdığı “Azərbaycanda orta ixtisas təhsilli mütəxəssislərin hazırlanması” kitabları  azərbaycan təhsilinin 70-80-ci illərdəki vəziyyətini öyrənmək üçün mühüm əhəmiyyət kəsb edir. Bu kitablar müasir dövrdə də aktuallığını itirməyib.

70-80-ci illərin birinci yarısında Azərbaycan həmkarlar təşkilatlarının fəaliyyətinə aid Z.Şıxlınski, S.Xəlilov və digər tarixçilər bir sıra kitab və məqalələr yazıblar. (37, №12,1983, s.76-80; 373; 390,№1-2,1982, s.43-46, №2,1983,s.22-25; 582;  686; 688)

Z.Şıxlinski və S.Xəlilovun 1984-cü ildə nəşr olunmuş “Partiyanın etibarlı dayağı” kitabında (373) 70-ci illər və 80-ci illərin əvvəllərində iqtisadiyyat və mədəniyyətin inkişafı  uğrunda mübarizədə Azərbaycan həmkarlar təşkilatının

fəaliyyəti tədqiq edilib. Kitab giriş və üç fəsildən ibarətdir. Kitabın birinci fəslini Z. Şıxlınski, ikinci və üçüncü fəsillərini isə S. Xəlilov yazıb.

"Həmkarlar ittifaqlarının gücü partiya rəhbərliyindədir" adlanan birici fəsildə müəllif V.İ.Leninin əsərlərinə və partiya qurultaylarının materiallarına istinad edərək həmkarlar təşkilatlarına partiya rəhbərliyi və qayğısından bəhs edib. Bu fəsildə müəllif respublika həmkarlar ittifaqlarının sıralarının genişlənməsini faktlarla göstərib. Məsələn, müəllif qeyd edib ki, Azərbaycan həmkarlar ittifaqı üzvlərinin sayı 1970-ci ildə 1 milyon 399 min nəfər idisə, 1982-ci ildə artaraq 2 milyon 270 min nəfər olub.

"Xalq təsərrüfatı planlarını yerinə yetirmək sahəsində Azərbaycan həmkarlar təşkilatlarının fəaliyyəti" adlanan ikinci fəsildə Azərbaycan Həmkarlar İttifaqları Şurasının 1971-ci il noyabrın 2-də keçirilmiş XII plenumunda "Sosializm yarışının təşkilinin daha da yaxşılaşdırılması haqqında" Kommunist Partiyasının qərarları ilə əlaqədar respublika həmkarlar ittifaqlarının qarşısında duran vəzifələrin müzakirə edilməsi barədə geniş məlumat verilib. Müəllifin sosializm yarışının yalnız müsbət tərəflərini qeyd etməsi, yarışın təşkilində yol verilən nöqsanlara və mövcud olan formalizm hallarına münasibət bildirməmsi tədqiqatın birtərəfli aparıldığını sübut edir.

"Zəhmətkeşlərin maddi rifahının yaxşılaşdırılması və mədəni səviyyəsinin yüksəldilməsi həmkarlar ittifaqının fəaliyyətinin mühüm sahəsidir" adlanan üçüncü fəsildə müəllif tədqiq etdiyi dövrü əvvəlki illərlə müqayisə etməklə əhalinin maddi rifahı və mədəni səviyyəsinin artdığını qeyd edib. Lakin bu fəsildə partiya və həmkarlar təşkilatları qurultaylarının materiallarında göstərilən rəqəmlər əvvəlki illərlə müqayisə edilsə də, bu cür müqayisə inkişaf etmiş qərb ölkələrinin həyat səviyyəsi ilə aparılmayıb. Bu da həmin dövrdə inkişafın ölkə daxilində səviyyəsini aşkara çıxarmağa imkan versə də, dünya ölkələri ilə müqayisədə inkişafın səviyyəsini müəyyənləşdirməyə imkan vermir. Məsələn, kitabda göstərilir ki, Azərbaycan SSR-də 1920-1970-ci illərdə 36842 min kv.metr ümumi mənzil sahəsi tikilib. (373,s.87) Lakin burada Respublikada mənzilə ehtiyacı olan əhalinin sayı dəqiq göstərilmədiyinə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə müqayisə aparılmadığına görə real vəziyyət haqqında məlumat əldə etmək mümkün deyil.

Kitabda digər məsələlərlə yanaşı Azərbaycan həmkarlar təşkilatlarının xarici ölkələrin həmkərlar təşkilatları ilə əlaqələri də tədqiq edilib. Kitabda qeyd

edilir ki, Azərbaycan həmkarlar təşkilatları 1977-1980-ci illərdə xarici ölkələrin həmkarlar təşkilatlarının 157 nümayəndə heyətini qəbul edib.(373,s.104)

70-80-ci illərin birinci yarısına aid gənclərin və komsomolun fəaliyyətinə aid Ə.Bağırzadə, İ.Məmmədov, C.Əlibəyov, R.Məmmədov, V.İbrahim, V.Muxtarov, R.Quliyev, İ.Quliyev, Z.Hadıyev, R.Hüseynov, Ç.Məmmədov və başqa tədqiqatçılar kitab və məqalələr yazıblar (34,s.65-75;84,172,242,244,750 və s.)

Bu kitabların yazılmasında Azərbaycan KP-nin gənclərin kommunist ruhunda tərbiyəsinə istiqamət verən qərarlarının mühüm rolu olub. Belə qərarlara misal olaraq, Azərbaycan KP MK-nın "XI Qızıl Ordunun inqilabi və döyüş xidmətlərinin əbədiləşdirilməsi haqqında" (3 avqust 1977-ci il)(49) qərarını göstərmək olar. İşğalçı XI Ordunun "xilaskar" obrazını gənclərin şüuruna bir daha yeritmək üçün 70-80-ci illərdə bir sıra tədbirlər həyata keçirilmiş, Bakı şəhərinin şimal hissəsində XI orduya aid böyük monument qoyulmuşdur.

Bakıda sovet hakimiyyəti illərində XI ordu, 26 Bakı Komissarı, S.Şaumyan, A.Çaparidze, M.Əzizbəyov, M.Məmmədyarov, Q.Müsabəyov, B.Sərdarov, R.Axundov və başqa bolşevik rəhbərlərinə ucaldılmış abidələr XX əsrin sonlarından başlayaraq tədricən sökülərək, götürülüb. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin verdiyi məlumata görə Bakının kənarında sovet dövrü abidələrindən ibarət açıq havada muzey təşkil olunacağı nəzərdə tutulur.

Hazırda sovet rejimindən qalmış bəzi heykəllərin qalması və dövlət tərəfindən qorunması bəzən əhalidə belə bir yanlış fikrin yaranmasına səbəb olur ki, bu şəxsləri tənqid etmək, onların xalqımıza qarşı etdikləri cinayətlər haqqında fikir söyləmək olmaz. Fikrimizcə əhali arasında gündən-günə güclənən bu fikir gələcəkdə tariximizin obyektiv tədqiqi sahəsində yeni problemlərin yaranmasına gətirib çıxara bilər.

Azərbaycan Respublikasında sovet dövründə bəzi şəxslərin ucaldılmış heykəllərinin dövlət tərəfindən qorunmasını müsbət hal hesab edilsə də, onlar haqqında vətəndaşlara obyektiv məlumatların verilməsinə ciddi ehtiyac var.

Hazırda Bakı şəhəri və onun ətrafında vətəndaşların mütləq əksəriyyətinin tanımadığı və ya fəaliyyətləri haqqında obyektiv məlumatın olmadığı bir çox heykəllər mövcuddur. Onların fəaliyyəti haqqında obyektiv məlumatları əldə

etmək üçün alternativ mənbələrlə yanaşı, sovet tarixşünaslığına da müraciət etməyə ehtiyac var. Yalnız sovet tarixşünaslığına tənqidi yanaşmaqla onlar haqqında kifayət qədər məlumat əldə etmək mümkündür.

Fikrimizcə onlar haqqında vətəndaşlara obyektiv məlumatın verilməsi və bu heykəllərin postamentlərində onların fəaliyyəti haqqında qısa məlumatın yazılması zəruridir. Bütün bunlar çağdaş Azərbaycan tarixinin bəzi qaranlıq səhifələrinin üzərinə işıq salınmasına, obyektiv faktların üzə çıxmasına kömək edə bilər.

70-80-ci illərdə Zaqafqaziya respublikaları gəncləri arasında əlaqələri gücləndirmək üçün bir sıra tədbirlər həyata keçirilmişdi ki, bu tədbirlər də sonradan sovet tarixşünaslığının tədqiqat obyektinə çevrilib. Bunlara misal olaraq, Azərbaycan LKGİ Qazax rayon komitəsinin təşəbbüsü ilə hər ilin 11 avqust gününü üç respublika gənclərinin dostluq görüşü günü kimi qeyd edilməsi qərara alınmış və bu tədbirin XI Ordunun keçdiyi döyüş marşurutu ilə keçirilməsi bəyənilmişdi. Bu görüşlər Xram çayının Kürə qovuşduğu yerdə ("Qırmızı körpü") növbə ilə keçirilirdi. 1976 və 1980-ci illərdəki görüşləri Azərbaycan gəncləri təşkil etmişdi. (204,2 noyabr 1980;390,№9,1977)

Bu sovet ənənəsini bərpa etmək üçün Azərbaycan, Gürcüstan və Ermənistan kommunistləri rəhbərlərinin 1999-cu ilin sentyabrında Gürcüstanın Qori şəhərində keçirilmiş görüşündə "Qırmızı körpü" hərəkatının yaradılması haqqında razılıq əldə olunmuş və oktyabrın 2-də Moskvada keçirilməsi nəzərdə tutulan görüşdə hərəkatın fəaliyyət proqramı haqqında danışıqların davam etdirilməsi nəzərdə tutulmuşdu. (22,30 sentyabr 1999)

Fikrimizcə, bu cür kommunist ənənələrin bərpa edilməsinə edilən cəhdlər müstəqil Azərbaycan dövlətçiliyinin zəiflədilməsinə yönəldiyinə görə Konstitutsiyaya zidd bir hərəkət kimi qiymətləndirilməlidir.

R.Məmmdovun 1974-ci ildə nəşr olunmuş "Mühüm partiya işi" kitabı gənclərin kommunist ruhunda tərbiyə edilməsinə həsr olunub. Müxtəlif fikirliliyi, plüralizmi inkar edən müəllif partiyanın rəhbərliyi ilə gənclərin yalnız marksizm-leninizm təlimi əsasında tərbiyə edilməsini zəruri saymış, onlarda ateist dünyagörüşünün, yəni allaha, dinə nifrət hissinin formalaşdırılmasını müsbət qiymətləndirmişdi.

V.İbrahimin 1975-ci ildə yazdığı "Baykal-Amur magistralında" kitabı

Baykaldan Amura qədər çəkilməsi nəzərdə tutulan dəmir yolunun tikintisində Azərbaycanlı gənclərin gərgin əməyindən bəhs olunur.

70-ci illərdə SSRİ-nin müxtəlif respublikalarından olduğu kimi Azərbaycandan da yüzlərlə gənc sovet təbliğatının təsiri ilə bu nəhəng tikintidə işləməyə gedirdilər. Bu tikintidə çalışan gənclərin əksəriyyəti komsomol xətti ilə ora göndərildiyinə görə onlara ÜLKGİ-nin təsiri güclü idi. BAM-ın tikintisində əsas məqsəd SSRİ-nin məskunlaşmamış ərazilərinə əhalisi sıx olan regionlardan əhalini cəlb etmək, həmin regionun sərvətlərindən istifadə etməklə yanaşı həm də əhalisi sıx olan regionlarda işsizlik problemini aradan qaldırmaqdan ibarət idi.

Ə.Bağırzadə, İ.Məmmədov və C.Əlibəyovun birlikdə yazdığı "İnqilabi ənənələr və gənclik" kitabında (84) gəncləri inqilabı ənənələri, proletar beynəlmiləlçiliyi ruhunda ruhunda tərbiyə edilməsindən bəhs olunur. Kitabda burjua cəmiyyətinə qarşı düşmənçilik, kommunizm əxlaq kodeksinin tələblərinə uyğun olaraq prinsipial mövqe tutmaq gənclərdən tələb olunur.

R.Quliyev və V.Muxtarovun "Gənc marksistlərin ictimai vəzifələri" kitabında (244) Azərbaycan gənclərində kommunist şüurunun formalaşdırılmasının əsas istiqamətlərindən biri kimi ictimai işlərə onların cəlb edilməsi barədə məlumat verilir. Kitabda demokratik cəmiyyətlərdə əsas götürülən fərdin hüququnun deyil, kollektiv hüququn müdafiəsindən bəhs olunur. Kitabda konkret insan üçün deyil, mücərrəd cəmiyyət uğrunda təmənnasız fəaliyyət göstərmək, ictimai işlərlə məşğul olmaq gənclər üçün şərəf işi hesab olunur və onların əsas vəzifələrindən biri kimi təbliğ edilir.

İ.Quliyev və Z.Hadıyevin "Elmi-texniki inqilab və kəndli gənclər" kitabında (242) elmi-texniki tərəqqinin naliyyətlərinin kənd təsərrüfatına tətbiqi sahəsində gənclərin fəaliyyəti işıqlandırılıb. Bu kitabda da sovet tarixşünaslığında yazılmış digər kitablar kimi əsasən kommunizm quruculuğunun əsas vəzifələrindən biri olan şəhərlə kənd, zehni əməklə fiziki əmək arasında fərqlərin aradan qaldırılmasından bəhs olunub. Kitabda elmi-texniki tərəqqinin kəndli gənclərin şüuruna müsbət təsir göstərməsi və bu tərəqqinin təsiri ilə onların üzərinə düşən vəzifələri layiqincə həyata keçirmələri də faktlarla işıqlandırılıb.

R.Hüseynovun 1983-cü ildə yazdığı "Hədəf gənclərdir" adlı kitabında burjua ideologiyasına qarşı mübarizədən, gənclərin bu ideologiyanın təsiri altına düşməsinin qarşısının alınmasının zəruriliyindən bəhs olunub.

Ç.İ.Məmmədovun "Partiyanın aqrar siyasətinin həyata keçirilməsi üçün ideoloji təminat yaradılmasında respublika komsomolunun iştirakı (1971-1975-ci illər)" məqaləsində Azərbaycanda kənd təsərrüfatı planlarının yerinə yetirilməsi ilə əlaqədar gənclər arasında komsomolun ideoloji fəaliyyəti tədqiq edilib.(34,s.65-75)

70-80-ci illərin birinci yarısında sovet tarixçiləri fəhlə sinfinin fəaliyyətinə və problemin tarixşünaslığına aid bir sıra kitab və məqalələr yazıblar. (34; 35; 140; 290; 415; 429; 502; 565, №2 1976 s.12; №1 1980; № 4 s.36-52; 1982 №1; 585, 1974 № 2, s.176-191; 690; 691; 693; 715; 718; 744 və s.)

İ.E.Vorojeykin və S.L.Senyavskiynin rus dilində nəşr olunmuş "Fəhlə sinfi sovet cəmiyyətinin aparıcı qüvvəsidir" kitabı(502), bundan başqa "SSRİ fəhlə sinfi 1917-1977:sovet ədəbiyyatının göstəricisi"kitabı(693) problemin tarixşünaslıq baxımından tədqiqində mühüm əhəmiyyətə malikdir.

1982-ci ildə rus dilində nəşr olunmuş "Azərbaycan SSR-in xalq təsərrüfatı SSRİ-nin yaradılmasının 60 illiyinə doğru" kitabında göstərilir ki, Azərbaycanın işləyən əhalisinin 1970-ci ildə 52,5 %-ni, 1979-cu ildə isə 59,6 %-ni fəhlə sinfi, müvafiq olaraq 24,6 % və 16, 7 % -ni isə kəndlilər təşkil edirdi.

Fəhlə sinfinin fəaliyyəti ilə bağlı Ə.Muxtarovanın 1972-ci ildə yazdığı "Aqrar sənaye kompleksi şəraitində fəhlə kadrlarının hazırlanması" və 1976-cı ilə rus dilində nəşr olunmuş "SSRİ-nin sovxozları" əsərləri mühüm əhəmiyyət kəsb edir. Bu tədqiqatlarında müəllif fəhlə sinfinin cəmiyyətin ictimai-siyasi həyatındakı mühüm rolunu geniş tədqiq etmiş, onun inkişaf dinamikası, milli tərkibi haqqında məlumatlar vermişdir ki, bu məlumatlar hazırda da aktual olaraq qalır.

İ.Məmmədovun 1991-ci ildə nəşr olunmuş "Azərbaycan fəhlə sinfinin mədəni-texniki səviyyəsi" (1970-1980-ci illər) adlı monoqrafiyası da 70-ci illərdə Azərbaycan fəhlə sinifinin vəziyyətinin öyrənilməsi baxımında əhəmiyyətlidir.

70-80-ci illərdə fəhlələrin kommunist tərbiyəsinə xüsusi fikir verilirdi ki, bu sahədə də zavod kitabxanalarının və muzeylərin mühüm rolu var idi. Məsələn, "Texniki tərəqqi uğrunda" qəzetinin 25 aprel 1977-ci il tarixli sayında göstərilir ki, Bakı Məişət Kondesionerləri zavodunun elmi-texniki kitabxanasında 40 minə yaxın kitab fondu var idi. Bu dövrdə Bakı Fəhləsi zavodunun kitabxanası 9572 nüsxə kitab ilə təhciz olunmuşdu.(56)

1969-1979-cu illərdə respublikada dövlət muzeylərinin sayı artaraq 37-dən 52-yə çatmışdı.(204,9 iyul 1979) Təkcə sənaye mərkəzi olan Kirovabadda (indiki Gəncə)1980-ci ildə ictimai əsaslarla 43 muzey fəaliyyət göstərirdi.(54)

Azərbaycan tarixçiləri fəhlə sinfinin 70-80-ci illərin birinci yarsındakı fəaliyyətinə aid bir sıra dissertasiyalar da yazıblar. Məsələn, Ə.İ.Muxtarovanın 1990-cı ildə "Azərbaycan SSR-i fəhlə sinfinin aqrar dəstəsi 70-80-ci illərin birinci yarısında" mövzusunda yazdığı doktorluq, İ.M.Məmmədovun 1983-cü ildə yazdığı "Azərbaycan zəhmətkeşlərinin Ümumittifaq Lenin iməcliklərində iştirakı (1969-1976)" mövzusunda yazdığı namizədlik, 1992-ci ildə "Azərbaycan fəhlə sinfinin mədəni-texniki səviyyəsi (1970-1980-ci illər)" mövzusunda yazdığı doktorluq dissertasiyaları buna misal ola bilər. Bu dissertasiyalar 1969-1985-ci illər sovet tarixşünaslığının tədqiqndə mühüm əhəmiyyətə malikdirlər.

A.A.Abbasovun "Azərbaycanın dağ-mədən sənayesi fəhlələrinin məişət və mədəniyyəti" kitabında (415) sosioloji sorğular və müxtəlif illərdəki vəziyyətin müqayisəli təhlili əsasında dağ-mədən sənayesi fəhlələrinin məişət və mədəniyyəti yüksək səviyyədə olduğu göstərilir.

T.K.Məmmədovun "Elmi-texniki tərəqqi və fəhlələrin hərtərəfli inkişafında onun rolu.(Azərbaycan SSR materialları üzrə)" kitabında (290) elm-texniki tərəqqinin fəhlələrin iqtisadi və texniki biliklərinin inkişafı ilə yanaşı onların siyasi cəhətdən də kamilləşməsində mühüm rol oynaması geniş şərh olunub.

C.Əhmədli və A.Rəhimovun 1976-cı ildə nəşr olunmuş "Fəhlə elmi-texniki inqilab dövründə" kitabında elmi-texniki tərəqqinin 60-cı illərdən başlayaraq fəhlə sinfinin hərtərəfli inkişafında müsbət rolu tədqiq edilib.

B.S.Qurbanov, A.A.Məmmədov və A.M.Eldarovun "Azərbaycan fəhlə sinfi 60 ildə" məqaləsi, K.Q.Qədirovanın (Osipova) "Azərbaycan fəhlə sinfinin müasir dövrdə ictimai-siyasi fəallığı (70-80-ci illər)" məqaləsi və s. məqalələr (565,№2,1976,s.12, №1,1980,s.36-52, №4,1982, №1,1987,s.11-17; 585,№2, 1974,s.176-191) 1980-ci ildə nəşr olunmuş "Azərbaycan fəhlə sinfinin doqquzuncu beşillikdə əmək yüksəlişi (1971-1975-ci illər) Sənədlər və materiallar" kitabı, B.M.Kərimovun 1982-ci ildə nəşr olunmuş "Fəhlə sinfinin sovxoz dəstəsinin sosial inkişafı" kitabı və s. kitablar fəhlə sinfinin fəaliyyətini öyrənmək üçün mühüm əhəmiyyətə malikdir.

Azərbaycanın sosial strukturu və fəhlə sinfinin fəaliyyəti ilə bağlı tədqiqatlar

içərisində E.R.İsmayılovun rus dilində nəşr olunmuş kitab və məqalələri diqqəti cəlb edir. Onun Moskva Dövlət Universitetinin Xəbərlərinin 1990-cı il üçüncü sayında dərc olunmuş "Azərbaycanda sosial strukturun dəyişilməsinin vacib amilləri" məqaləsi və 1990-cı ildə nəşr olunmuş "Azərbaycan SSR-in sosial quruluşu" kitabı problemin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan alimləri 70-80-ci illərin birinci yarısında sosial-iqtisadi vəziyyətə, şəhərin kəndə və ya fəhlə sinfinin kəndlilərə hami köməkliyinə və s. məsələlərə aid də kitab və məqalələr yazıblar. Bundan başqa bu illərə aid statistik və biblioqrafik materiallar da nəşr edilib.(120; 356; 409; 565,№ 2,1981,s.13-21, №2, 1987,s.21-28,654 və s.)

Z.Səmədzadə və M.Musayevin "Onuncu beşillikdə Sovet Azərbaycanının iqtisadi və sosial inkişafı" kitabında (356) Azərbaycan SSR-in iqtisadi və sosial vəziyyətinə dair statistik rəqəmlər müqayisə edilərək, 70-ci illərdə respublikanın inkişafı faktiki materiallar əsasında tədqiq olunub.

Kitab giriş və 6 fəsildən ibarətdir. Kitabın II-V fəsillərini Z.Səmədzadə, I və VI fəsilləri M.Musayev yazıb. Kitabın giriş hissəsində müəlliflər 70-ci illərdə Sovet Azərbaycanının əldə etdiyi uğurları Sov.İKP və SSRİ Nazirlər Sovetinin Azərbaycanda kənd təsərrüfatı və sənayenin inkişaf etdirilməsi ilə bağlı 1970, 1975 və 1979-cu illərdə qəbul etdiyi qərarlarla əlaqələndirirlər. Kitabda Azərbaycanının on il ardıcıl olaraq ümumittifaq sosializm yarışında qalib gələrək qırmızı bayrağa layiq görülməsi geniş şərh olunur. Müəlliflər tərəfindən Azərbaycan iqtisadiyyatının sürətlə inkişafı çoxlu sayda rəqəmlər və cədvəllərə istinad edilməklə şərh olunub. Kitabda göstərilir ki, "doqquzuncu beşillik Sovet Azərbaycanının tarixində ən yaxşı beşillik, onun iqtisadiyyatının inkişafında dönüş mərhələsi olmuşdur." (356, s.19)

S.Qəndilovun 1984-cü ildə çapdan çıxmış "Coşqun yüksəliş illəri" kitabında(234) Sov.İKP XXIV-XXVI qurultaylarının qərarlarının həyata keçirilməsi sahəsində Azərbaycan KP-nin fəaliyyəti tədqiq olunub. Kitab giriş, 4 fəsil və nəticədən ibarətdir.

"Böyük və gərgin işin başlanğıcı" adlanan I fəslin əvvəli "Nöqsanlar aradan qaldırılır" adlanır. Müəllif qeyd edir ki, 1959-cu ildə respublikanın kimya sənayesi, 1968-ci ildə 147 müəssisə, yəni respublikada fəaliyyət göstərən müəssisələrin təqribən 20%-i, 1969-cu ilin birinci yarısında 183 müəssisə, yəni müəssisələrin

26,4%-i plan və tapşırıqları yerinə yetirməyib. Müəllif göstərir ki,1969-cu ildə kənd təsərrüfatında da vəziyyət ürək açın olmayıb, həmin ildə 18 rayon pambıq satışı planını yerinə yetirməyib. 1969-cu ilin iyul ayından başalayaraq problemlər həll edilərək Respublaka çoşqun inkişafa qədəm qoydu.

Ümumiyyətlə kitabda 1969-cu ilin avqust plenumuna qədərki dövrə tənqidi yanaşılaraq nöqsanlar faktlar əsasında qeyd olunub və 1970-1980-ci illərdə respublikanın inkişafı elmi şəkildə əsaslandırılıb.

İ.X.Zeynalovun 1996-cı ildə yazdığı "Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illər)" adlı kitabında iqtisadi və sosial sahəyə aid faktlar əvvəlki illərlə müqayisə edilərək 1970-1980-ci illərdə baş vermiş iqtisadi və sosial yüksəliş və onun səbəbləri tədqiq olunub. Kitabda sosial sahəyə aid verilmiş faktiki materiallar 1969-1985-ci illər dövrünün ictimai-siyasi tarixnin tədqiq üçün mühüm əhəmiyyətə malikdir.

T.B.Qafarovun 1981-ci ildə və İ.B.Məhərrəmovun 1987-ci ildə yazdıqları məqalələr (565,№2,1981,s.13-21, №2,1987,s.21-28) 20-30-cu illərdə Azərbaycanda mövcud olmuş və sonrakı illərdə, o cümlədən 70-80-ci illərdə də davam etdirilmiş şəhərin kəndə və ya fəhlə sinfinin kəndlilərə hami köməkliyinə həsr olunub.

Bu mövzu ilə bağlı arxiv sənədlərində də çoxlu faktlar var. Məsələn, sənədlərdə Bakı Yüksəkgərginlikli Elektirik Avadanlığı zavodunun Lerik rayonu Həzi Aslanov adına sovxozuna hamilik köməyi göstərməsi, müəssisə əməkçilərinin gücü ilə saman saxlamaq üçün 300 kv.m. sahəsi olan talvarın istifadəyə verilməsi, zavodun fəhlələrinin müxtəlif vaxtlarda sovxoza ezamiyyətə gedərək bir müddət kənddə işləməsi qeyd olunub.(57) Bundan başqa Bakı "Elektroştamp" təcrübə zavodunun Cəlilabad rayonunun "Qırmızı partizan" sovxozuna, Bakı Məişət Kondisionerləri zavodunun Lənkəran rayonunun "Marso" sovxozuna və s. zavod və fabriklərin kəndə hami köməyinə aid arxiv sənədlərində çoxlu sayda məlumatlar var. Bundan başqa arxivlərdə 70-80-ci illərdə sənaye müəssisələrinin sərhədçilərə hami köməkliyinə aid də faktlara rast gəlmək olur. Məsələn, Leytenant Şmidt adına Maşınqayırma zavodunun sərhəd dəstələrindən birinə hami köməyi haqqında məlumat diqqəti cəlb eidr. Zavodun təbliğatçıları sərhədçilər qarşısında tez-tez müxtəlif mövzularda mühazirələrlə çıxış etmiş, özfəaliyyət kollektivləri konsertlər vermiş, müxtəlif vaxtlarda sərhədçilər zavodda qonaq olmuşlar.(58)

Azərbaycan sovet tarixçilərindən Y.Yusifov, F.Maniyev, Ş.Muradov, F.Abbasov, Y.Qasımov, T.Qafarov, Z.Hacıyev, A.Hacılı və başqa tədqiqatçılar 70-80-ci illərin birinci yarısında kəndlilərin və kənd təsərrüfatının vəziyyətinə aid bir sıra kitab və məqalələr yazmış, dissertasiyalar müdafiə etmişlər.(152; 153; 220; 30; 565, № 2,1984,s.10-17; 585,№ 5,1977,s.120-126; 716 və s.)

Y.Yusifovun 1979-cu ildə çapdan çıxmış "Azərbaycan Kommunist Partiyasının kənd təsərrüfatında əsaslı dönüşün yaradılması sahəsində təşkilati işi (1970-1979-cu illər)" kitabında əsasən 70-ci illərdə kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı Azərbaycan KP MK-nın qəbul etdiyi qərarlar şərh olunub, kənd təsərrüfatı sahəsində, xüsusilə pambıqçılıq, üzümçülük və tərəvəzçilik sahəsində Azərbaycanın əldə etdiyi naliyyətlər işıqlandırılıb. Kitabda digər respublikalara nisbətən Azərbaycanın plan və öhdəlikləri artıqlaması ilə yerinə yetirilməsi rəqəmlərlə göstərilmib və bu sahədə ümumittifaq sosializm yarışının qalibi kimi keçici qırmızı bayraqlar alması xüsusi vuğulanıb. Kitabda əsasən kənd təsərrüfatı sahəsində 70-ci illərdə mövcud olmuş müsbət işlər tədqiq edilib.

F.Maniyev, Ş.Muradov, F.Abbasov, Y.Qasımov, S.Hüseynov və başqa tədqiqatçıların məqalələri (565,№2,1984,s.10-17; 585,№5,1977,s.120-126) Azərbaycanın kənd əhalisinin say dinamikasına, sosial tərkibinin dəyişilməsinə, kəndin ictimai-iqtisadi və demoqrafik inkişaf meyllərinə və s. məsələlərə həsr olunub.

Z.Hacıyevin "Elmi-texniki tərəqqi və kənddə sosial dəyişikliklər" və "Kəndin sosial inkişafı" kitablarında(152; 153) Azərbaycan kəndinin 70-80-ci illərdə sosial problemlərinin müvəffəqiyyətlə həll olunduğu və əhalinin maddi rifah halının durmadan yüksəldiyi geniş şərh edilib. Bu kitablarda da digər sovet alimlərinin əsərlərinə xas olan nöqsanlar mövcuddur. Kitabda müəllif yalnız pozitiv faktların tədqiqinə fikir verərək, hətta sovet dövrü mətbuatında öz əksini tapan nöqsanlara münasibət bildirməyib.

S.Hüseynovun 1986-cı ildə nəşr olunmuş və Azərbaycan SSR Ali və Orta İxtisas Təhsil Nazirinin əmri əsasında dərs vəsaiti kimi təsdiq edilmiş "Azərbaycan kəndinin iqtisadi, sosial və mədəni inkişafı" kitabında Azərbaycan kəndinin inkişafına dair partiya, hökümət qərarları və həyata keçirilən tədbirlər, kənd təsərrüfatı üçün kadrların hazırlanması, kənddəki struktur dəyişiklikləri, kəndlilərin rifahının yaxşılaşdırılması, mədəni-həyat səviyyəsinin yüksəldilməsi

və s. məsələlər işıqlandırılıb.

Ş.Muradov və F.Abbasovun "Azərbaycan SSR-də kəndin ictimai-iqtisadi və demoqrafik inkişaf meylləri" kitabında (306) 70-ci illərdə Azərbaycanda kənd əhalisinin həyat səviyyəsinin yüksələrək şəhər əhalisinə yaxınlaşması, kənd əhalisinin demoqrafik vəziyyətinin tədricən dəyişilməsi tədqiq edilmişdi.

70-80-ci illərin birinci yarısı Azərbaycan ziyalılarının fəaliyyətinə aid M.Ə.Əfəndiyev, M.A.Rüstəmov, T.Ş.Baxşəliyev və digər tədqiqatçılar bir sıra məqalə və kitablar həsr ediblər. (136; 346; 565,№2,1980 və s.)

M.Ə.Əfəndiyevin 1973-cü ildə nəşr olunmuş "Kənd ziyalısı və kəndin mənəvi həyatında onun rolu" kitabında 136 kənddə yaşayıb fəaliyyət göstərən müəllimlərin, həkimlərin və başqa ziyalı nümayəndələrinin əhalinin mənəvi inkişafındakı müsbət rolundan bəhs olunur.

M.A.Rüstəmovun 1977-ci ildə yazdığı "Sovet ziyalıları inkişaf etmiş sosializm dövründə" kitabında(346)və "Fəhlə sinfi ilə ziyalıların yaxınlaşmasının bəzi məsələləri" məqaləsində(565,№2,1980)kommunizm cəmiyyəti quruculuğunun müvəffəqiyyətsizliyə uğramasına baxmayaraq müəllif siniflər və ziyalı təbəqə arasında fərqlərin tədricən ləğv olunması prosesinin müvəffəqiyyətlə getdiyini və bunun kommunizm quruculuğunun əsas mərhələsi olan inkişaf etmiş sosializm cəmiyyətində daha da artdığını faktlarla sübut etməyə çalışır.

T.Ş.Baxşəliyevin 1989-cu ildə rus dilində nəşr olunmuş "Azərbaycan ziyalılarının say və tərkibinin dəyişilməsi (1960-1980-ci illər)" kitabı sovet statistikasına istinadən yazılıb. Müəllif müxtəlif illərə aid faktları müqayisə edərək 20 il ərzində Azərbaycanda ziyalıların sayını artdığını, bunun da məhz iqtisadi və sosial inkişafın nəticəsində baş verdiyini faktlarla göstərir.

Azərbaycan qadınlarının fəaliyyəti, onların cəmiyyətdə rollarına aid Ş.M. Muradov, Ç.Q.Qədirova və başqa müəlliflər bir neçə kitab və məqalələr yazıblar. (27; 305; 553 və s.)

"Azərbaycan qadının səadəti" kitabında(27) sovet hakimiyyəti illərində qadınların azadlığa çıxaraq səadətə qovuşması, onların cəmiyyətin həyatında fəal rol oynaması faktlarla tədqiq olunub.

Ş.M.Muradovun "Azərbaycan SSR-də qadın əmək ehtiyyatlarından istifadənin ictimai-siyasi problemləri" kitabında(305) Azərbaycanda qadın əməyindən istifadə və qadınların daha geniş şəkildə istehsalata cəlb etmək üçün

Azərbaycanın ayrı-ayrı rayonlarında yüngül sənaye müəssisələrinin yaradılması zərurətindən bəhs olunur.

"Azərbaycan SSR-in qadınları"(553) statistik məcmuəsi problemin öyrənməsində mühüm əhəmiyyətə malikdir.

70-80-ci illərin birinci yarısında Azərbaycan fəhlə sinfinin digər ölkələrin zəhmətkeşləri ilə əlaqələrinin inkişafı üçün yeni formalar axtarılıb tapılırdı. Məsələn, yeni yaradılmış formalara misal olaraq 1975-ci ildə Kybanın Xose Martin adına Metallurgiya Kombinatında Azərbaycan metallurqlarının iştirakı ilə əsası qoyulmuş "Dostluq ərintisi"ni misal göstərmək olar. Bu yeni forma iştirakçıların növbə ilə dostluq etdikləri müəssisələrdə təcürübə mübadiləsi aparması və səmərələşdirici təkliflərinin müəssələrdə tətbiqini nəzərdə tuturdu. Azərbaycan Boru Yayma Zavodunun metallurqları Kuba, Rustavi, Dnepropetrovsk, Nikopol, Yujnı Nikolayevsk metallurqları ilə birlikdə 1975-1985-ci illərdə əməkdaşlığın bu formasından geniş istifadə ediblər. Məsələn, yalnız 1983-cü ilin martından 1985-ci ilin martına kimi Azərbaycan metallurqları əməkdaşlıq etdikləri müəssisələrin fəhlə sinfi ilə birlikdə sürətli metodlarla 50-dən artıq "Dostluq ərintisi" həyata keçirib.(552, 3 mart 1985)

1970-80-ci illərdə "Kommunizm cəmiyyəti quruculuğu" konsepsiyası iflasa uğradıqdan sonra yenidən "inkişaf etmiş sosializm" və "inkişaf etmiş sosializmin təkmilləşdirilməsi" konsepsiyaları təbliğ olunmağa başlanmışdır ki, Azərbaycan alimləri də bu mövzuda bir sıra kitab və məqalələr yazmışlar. (34; 585,№2, 1977; 638; 648 və s.)

"Azərbaycan Kommunist Partiyasının inkişaf etmiş sosializm dövründə ideoloji işi (1971-1980-ci illər)" kitabı (34) müxtəlif məqalələr toplusu kimi mühüm əhəmiyyətə malikdir. Kitabda Azərbaycan Kommunist Partiyasının müxtəlif sahələr aid ideoloji işinə aid samballı məqalələr toplanıb.

Akademik A.S.Sumbatzadənin "İnkişaf etmiş sosializmin Azərbaycan SSR-in materialları əsasında öyrənilməsi" məqaləsində inkişf etmiş sosoializm cəmiyyətinin reallığa çevrilməsini Azərbaycanın timsalında göstərməyə cəhd olunur. Məqalədə bu mövzuda yazılmış kitab və məqalələrdə öz əksini tapmış fikirlər yığcam şəkildə göstərilir.(585,№2,1977)

N.Əbdürrəhmanov və N. Soltanovanın "İnkişaf etmiş sosializm və onun təkmilləşdirilməsi" kitabı(110) SSRİ-də kommunist rejiminin süqutu ərəfəsi bu

konsepsiyanın müdafiəsinə həsr olunub. Bu kitabda kommunizm quruculuğunun 1980-ci ildə başa çatacağı haqqında proqramın həyata keçməməsinin səbəbləri araşdırılmadan, "inkişaf etmiş sosializm" konsepsiyasına obyektiv münasibət bildirilmədən, reallığı əks etdirməyən "inkişaf etmiş sosializmin təkmilləşdirilməsi" konsepsiyasının istiqamətləri nəzəri cəhətdən tədqiq edilib.

T.K.Musayev və Q.T.Əmirovun "İnkişaf etmiş sosializm şəraitində Azərbaycan zəhmətkeşlərinin sosializm yarışı"(1971-1979-cu illər) kitabında (648) sovet rejimində geniş yayılmış sosializm yarışı mövzusu tədqiq olunub. Kitabda Azərbaycanın ümumittifaq miqyasında keçirilən sosializm yarışında əldə etdiyi nailiyyətlər, dalbadan keçici qırmızı bayraqların alınması, sosializm yarışının istehsalatda rəqabətin artırılmasında rolu və s. geniş şərh olunub.

Sovet tarixşünaslığında inkişaf etmiş sosializm mərhələsinin hansı dövrdən başlanması haqqında fikir ayrılığının olması və bu fikir ayrılığının SSRİ dağılana qədər qalması sübut edir ki, "inkişaf etmiş sosializm" konsepsiyası real həyatla uzlaşmayan, utopik fikir yığnağından başqa bir şey olmamışdı.

Fikrimizcə "inkişaf etmiş sosializmin təkmilləşdirilməsi" konsepsiyasının irəli sürülməsində məqsəd böhran keçirən sovet cəmiyyətinin ömrünü uzatmaqdan ibarət idi. Lakin sonrakı hadisələr göstərdi ki, kommunist ideologiyasına gətirilən bu süni yeniliklər rejimin süqutunun qarşısını ala bilmədi.

Sov.İKP 1970-1985-ci illərdə xalqlar dostluğu və beynəlmiləlçilik ideyalarının təbliğinə daha çox fikir verdiyinə görə sovet tarixşünaslığında bu mövzuda yazılan əsərlər də çoxluq təşkil edir. 1988-ci ilə kimi sovet alimləri bu problemə dair 1300-dən artıq müxtəlif kitab və broşura həsr etmişlər. (682, 30 dekabr 1988 )

Azərbaycan SSR-də də əhalinin tərkibi çoxmillətli olduğu üçün bu problem daim diqqət mərkəzində olub. 1979-cu ildə respublika əhalisinin 21,9 %-i başqa millət və xalqlara mənsub idi. (656) Bu dövrdə Azərbaycan SSR-də 100-dən artıq, o cümlədən Bakıda 90-dan çox, Kirovabadda (indiki Gəncə) 40-dan çox (404, s. 92), Sumqayıtda 83, Mingəçevirdə 56, Əlibayramlıda 55 (37,№1,1983,s.62), Naxçıvanda 15-dən çox (359,s.113) millət və xalqın nümayəndəsi yaşayırdı. Milli münasibətlər sahəsində elmi tədqiqat işlərini gücləndirmək üçün Azərbaycan SSR EA-nın Fəlsəfə və Hüquq İnstitutunda "Milli münasibətlərin və beynəlmiləl tərbiyənin nəzəri problemləri" şöbəsi, sonradan isə Akademiyanın ayrıca institutu

yaradılmışdı.

Milli münasibətlər, xalqlar dostluğu və beynəlmiləl tərbiyəyə aid 70-80-ci illərin birinci yarısında əsərlərin yazılmasına Azərbaycan KP MK-nın "Azərbaycanın xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin işinin yaxşılaşdırılması haqqında" (oktyabr 1976),"Sov.İKP XXV qurultayı qərarlarını həyata keçirmək sahəsində Azərbaycan, Ermənistan və Gürcüstan Kommunist Partiyaları Mərkəzi Komitələrinin birgə ideoloji tədbirlər planı haqqında" (oktyabr 1976) (43),""Dostluq" teatrının yaradılması haqqında" (avqust 1977)(44), "SSRİ xalqları dostluğu respublika Sarayının yaradılması haqqında" (aprel 1979)(45), "Kutaisi, Leninakan və Kirovabad şəhərləri zəhmətkeşlərinin sosializm yarışının 30 illiyi haqqında" (may 1979)(40), "Azərbaycan zəhmətkeşlərinin qardaş sovet respublikaları zəhmətkeşləri ilə beynəlmiləl əlaqələrinin daha da inkişaf etdirmək tədbirləri haqqında" (4 noyabr 1981), ""Partiyanın XXVI qurultayının qərarları", "SSRİ-nin təşkil edilməsinin 60-cı ildönümü haqqında" Sov. İKP MK-nın qərarı ilə əlaqədar olaraq zəhmətkeşlərin beynəlmiləl tərbiyəsi sahəsində Lenin rayon partiya komitəsinin işi haqqında"(avqust 1982-ci il) (429,s.32-48,52-60), Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin "Televiziya və radio vasitəsilə zəhmətkeşlərin beynəlmiləl tərbiyəsinin təşkili haqqında"(30 mart 1978) (60) və s. qərarların böyük təsiri olub. Bu dövrdə yazılan kitab və məqalələrdə əsas məqsəd Kommunist Patiyasının qərarlarından irəli gələn vəzifələri, ideyaları müdafiə etmək və onların təbliğinə kömək göstərməkdən ibarət idi. Hətta, Azərbaycan KP MK-nın 4 noyabr 1981-ci il qərarı ilə SSRİ xalqlarının dostluğu və qardaşlığı mövzusunda ən yaxşı ictimai-siyasi və publisistik əsərlərin müəlliflərinə təqdim etmək üçün N.Nərimanov adına medal da təsis edilmişdi.

Azərbaycan alimlərinin digər respublikalarla dostluq əlaqələrindən bəhs edən mövzulara öz tədqiqatlarında daha çox yer vermələrinin bir səbəbi də 70-80-ci illərdə Azərbaycan KP-nin qərarı ilə Respublikanın RSFSR-in bir sıra əyalətlərinə hamilik etməsi ilə bağlı idi. Belə əsərlərin yaranmasında Azərbaycan KP MK-nın "1976-1980-ci illərdə Arxangelsk vilayətinə hamilik köməyi göstərmək tədbirləri haqqında" (sentyabr 1976) (52), Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "1981-1985-ci illərdə Arxangelsk vilayətinə hamilik köməyi göstərilməsi tədbirləri haqqında" (avqust 1981) (455, 11 avqust 1981), Azərbaycan LKGİ Sumqayıt şəhər komitəsinin "Tümenin tikinti obyektləri

üzərində Sumqayıt şəhər komsomol təşkilatının hamilik tədbirləri haqqında" (40) və s. qərarların mühüm rolu olub. 1971-1980-ci illərdə beynəlmiləl tərbiyə məsələləri Azərbaycan Kommunist Partiyasının üç (XXVIII, XXIX və XXX ) qurultayında, 4 plenumunda (oktyabr 1971-ci il, may 1972-ci il, dekabr 1974-cü il, iyul 1979-cu il) müzakirə predmeti olub.(712,s.98)

Həmin qərarlar əsasında Azərbaycan bu bölgələrə maddi kömək göstərməklə yanaşı, komsomol putyovkaları və tələbə inşaat dəstələri vasitəsilə canlı qüvvə ilə də yardım edirdi. Bundan başqa RSFSR-in həmin bölgələrinin əhalisinin Azərbaycanın müxtəlif guşələrində istirahətləri də təşkil edilirdi. Məsələn, həmin qərarların birində göstərilirdi ki, "Azərbaycan Həmkarlar İttifaqı Şurası hər il Arxangelsk vilayəti üçün sanatoriyalara, istirahət evlərinə, pansionat və pioner düşərgələrinə putyovkalar ayırsınlar."(47)

Millətlərarası münasibətlərin tarixşünaslığına və sosializm şəraitində milli münasibətlərin burjua tarixşünaslığının tənqidinə aid sovet alimləri bir sıra kitab və məqalələr yazmışlar. (191; 192; 385, №3,1998, s.187-191; 423; 488; 500,№5, 1980, s.175-178; 404; 610; 611; 612; 657; 758)

"Sovet cəmiyyətinin burjua tarixşünaslığının tənqidi:Məqalələr toplusu" kitabı(610) və M.İ.Kuliçenkonun rəhbərliyi ilə yazılmış " SSRİ-də milli münasibətlərə dair burjua konsepsiyalarının tənqidi" kitabı(611) problemin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

R.R.Vəkilovun "Beynəlmiləl və milli münasibətlər problemi Azərbaycan alimlərinin əsərlərində (70-ci illər)" adlı məqaləsində (500,№51,1980,s.23-37) "Zəhmətkeşlərin beynəlmiləl tərbiyəsi məsələləri" kitabında dərc edilmiş F.Köçərlinin "Çoxmillətli sovet mədəniyyətinin inkişafı və onun burjua saxtalaşdırıcıları" adlı məqaləsi, "Lenin milli siyasəti və onun burjua saxtalaşdırıcılarına qarşı mübarizə" kitabında çap olunmuş "Azərbaycan xalqının mənəvi inkişafının antikommunist saxtalaşdırıcılarının tənqidi" adlı yazısı, "İkidilliyin və çoxdilliyin problemləri" kitabında dərc olunmuş A.Aslanovun "Qohum olmayan dillərin dialektlərinin morfoloji interferasiyası haqqında (Azərbaycan materialları əsasında)" məqaləsi, Ə.Daşdəmirovun "Millət və şəxsiyyət", İ.Abdullayevin "Azərbaycanda ikidilliyin və çoxdilliyin meydana gəlməsinin forma və xarakteri haqqında", B.Avılovun "Gənc fəhlələrin beynəlmiləl tərbiyəsində çoxmillətli istehsalat kollektivlərinin rolu", V.Nəsirovun "Milli

azadlıq hərəkatı və müasir antikommunizmə qarşı mübarizə məsələləri", "Sovet vətənpərvərliyi ilə sosialist beynəlmiləlçiliyinin vəhləti", "Milli münasibətlər və antikommunizm", İ.İsmayılovun "Qafqaz zəhmətkeşlərinin beynəlmiləl ənənələri", A.Əsədovun "Qarşılıqlı qardaşlıq köməyinin gücü", H.Sadıxovun "Dostluq və qardaşlıq şəhəri", "SSRİ-nin yeni sənaye mərkəzlərinin yaradılmasında sosialist millət və xalqlarının iştirakı" kitabları təhlil olunub.

Müəllif bu əsərlərin yazılmasında Azərbaycan KP MK-nın oktyabr (1971), may (1972) və iyul (1979) plenumlarının qərarlarının, "Sovet xalqı və milli ilə beynəlmiləlin dialektikası" (Bakı 1972), "Sosialist beynəlmiləlçiliyinin həyata keçirilməsi" (Bakı 1974), "Zaqafqaziyada Lenin milli siyasətinin təntənəsi" (Tbilisi 1970), "Zaqafqaziya Kommunist təşkilatlarının zəhmətkeşlərin beynəlmiləl tərbiyəsi sahəsində fəaliyyəti" (Tbilisi 1977) və s. mövzularda keçirilmiş ümumittifaq elmi-praktiki konfransların mühüm rol oynadığını qeyd edib.

Müəllif 70-ci illərdə milli münasibətlər problemi və beynəlmiləlçiliyə aid yazılmış kitab və məqalələri təhlil etdikdən sonra belə nəticəyə gəlib ki, Azərbaycan alimləri bu dövrdə aşağıdakı istiqamətlərdə tədqiqat işləri aparıblar:

- Milli məsələnin marksist-leninçi nəzəriyyəsi və onun Azərbaycanda həyata keçirilməsinin təcrübəsi;
- Sov.İKP-nin Lenin milli siyasəti və SSRİ xalqlarının dostluq və qardaşlığının gücləndirilməsi;
- İnsanların yeni tarixi birlik forması kimi sovet xalqının formalaşması, inkişafı və möhkəmləndirilməsi;
- İnkişaf etmiş sosializm cəmiyyətində milli münasibətlərin inkişaf tendensiyası;
- SSRİ millət və xalqlarının qarşılıqlı münasibətlərinin sosial-psixoloji cəhətləri;
- Vahid çoxmillətli sovet mədəniyyətində milli və beynəlmiləlin vəhdəti;
- SSRİ-də dillərarası qarşılıqlı münasibətlər;
- Zəhmətkeşlərin beynəlmiləl və vətənpərvərlik tərbiyəsi;
-SSRİ-də milli münasibətlərin burjua saxtalaşdırıcılarının tənqidi.

80-ci illərin birinci yarısında milli münasibətlər probleminə aid yazılmış kitab və məqalələrin təhlili göstərir ki, bu dövrdə də müəlliflər öz tədqiqatlarını həmin istiqamətlərdə aparıblar.

Azərbaycan alimlərinin 1970-1980-ci illərdə millətlərarası münasibətlər,

xalqlar dostluğu və beynəlmiləl tərbiyəyə aid yazdıqları əsərləri şərti olaraq bir neçə qrupa bölmək mümkündür. Birinci qrupa proletar beynəlmiləlçiliyinin nəzəri və təcrübi prblemlərinə həsr olunmuş kitab və məqalələri daxil etmək olar. Bu mövzuya Ə.Sumbatzadə, F.Köçərli, M.Sadıqzadə, Ə.Talıbov və başqa tədqiqatçılar kitab və məqalələr həsr ediblər. (208; 347; 384,500,№ 5,1976)

Bu əsərlərdə müəlliflər milli məsələyə, proletar beynəlmiləlçiliyinə dair marksizm-leninizm klassiklərinin ideyalarını subyektivcəsinə əsaslandırmağa çalışmış və bu ideyaların milli məsələdə yeganə düzgün xətt olduğunu sübut etməyə səy göstərmişlər. Lakin faktlar göstərir ki, milli məsələdə kommunist rejimi dövründə nəzəriyyə ilə praktika uyğun gəlməmiş, marksizm-leninizm klassiklərinin milli məsələ sahəsində müdafiə etdikləri "millətlərin öz müqəddəratını təyin etməsi" hüququ kağız üzərində qalmışdır. Proletar beynəlmiləlçiliyi və onun inkişaf etmiş forması olan sosialist beynəlmiləlçiliyi ideyası isə süveren dövlətlərə qarşı təcavüz, işğal siyasətinə xidmət etmişdir.

İkinci qrupa sovet cəmiyyətində xalqlar dostluğunun təbliğinə həsr olunmuş əsərləri aid etmək olar. Bu mövzuda S.Qarayev, F.Yusibov, İ.İsmayılov, R.İmanov, Ş.Mkrtıçyan, İ.Müslümov, İ.Mosesova, U.Sarkisyan və başqaları kitab və məqalələr yazmışlar.(213; 314; 423; 438 və s.)

Bu əsərlərdə xalqlar dostluğuna sinfi nöqteyi nəzərindən yanaşılaraq, tarixi faktları nəzərə almadan, tarixi unutdurmaq yolu ilə, süni şəkildə dostluq və qardaşlıq ideyaları təbliğ olunurdu. Bu siyasətin nəticəsində iqtisadi cəhətdən qonşu respublikalardan qat-qat üstün olan Azərbaycan SSR daim dotasiya ilə yaşayan respublikalara yardım etmişdir. Bu təbliğatda mövcud olan formalizm, saxtakarlıq halları 80-ci illərin axırlarında özünü büruzə verərək milli münaqişələrə gətirib çıxarmışdır.

Üçüncü qrupa Sov.İKP-nin milli məsələdə xüsusi fikir verdiyi beynəlmiləl tərbiyəyə və əlaqələrin inkişafına həsr olunmuş B.Avılovun, V.Nəsirovun, S.Qarayevin, S.Sayadovun, Q.Bayramovun, B.Çərkəsovun, A.Sadıxovun, H.Sadıxovun və başqa müəlliflərin əsərlərini (20; 90; 100; 214; 326; 704; 705; 706; 712 və s.) aid etmək olar.

Bu əsərlərdə beynəlmiləl cəhətlər geniş təbliğ edilmiş, milli ənənələrin təbliğinə fikir verilməmiş, çox zaman kosmopolitizm ilə beynəlmiləlçilik eyniləşdirilmişdir. Faktlar göstərir ki, sovet alimlərinin əksəriyyəti öz tədqiqatlarında

insanların şüurunda olan milli hisslərə ciddi fikir verməmişlər. Məsələn, SSRİ EA Sosioloji Tədqiqatlar İnstitutu 1977-1982-ci illərdə milli münasibətlərin nəzəri əsaslarına aid yazılmış 240 əsəri təhlil edərkən aydın olmuşdur ki, müəlliflərin üçdə ikisi sosializm şəraitində insanların şüurunda milli hisslərin olmasını yalnız qeyd etmiş, yarıdan çoxu isə bu məsələni heç nəzərə də almamışdır. (546,s.111)

H.Ş.Sadıxovun rus dilində nəşr olunmuş "Azərbaycanın gənc şəhərlərinin beynəlmiləl əlaqələri" kitabında(706) müəllif Azərbaycanın gənc şəhərləri, Sumqayıt, Mingəçevir, Əlibayramlının (indiki Şirvan) başqa respublikaların və xarici ölkələrin şəhərləri ilə dostluq və mədəni əlaqələrindən, bu şəhərlərin salınmasında digər sovet respublika mütəxəssislərinin rolu, həmin şəhərlərin əhalisinin milli tərkibi, qarışıq nikahların sayı və bu cür nikahların müsbət nəticələrindən bəhs edilib. Kitabın 19; 38; 47; 102; 115; 123; 134 və s. səhifələrində faktların mənbələrinin göstərilməməsi bunların həqiqiliyinə şübhə yaradır. Bundan başqa müəllif 14-cü səhifənin birinci abzasında heç bir mənbəyə əsaslanmadan Sumqayıt şəhərinin salınmasında 72 millət və xalqın nümayəndələrinin iştirak etdiyini göstərdiyi halda, həmin səhifənin ikinci abzasında "Pravda" qəzetinin 6 yanvar 1961-ci il tarixli sayına istinadən bu rəqəmin 45 olduğunu bildirir. Bu faktlar onu göstərir ki, bir çox müəlliflər kommunist partiyasının milli siyasətini təbliğ edərkən onlar üçün yaradılmış şəraitdən sui-istifadə edərək, mövcud olmayan faktlardan istifadə etməkdən belə çəkinməmişlər.

S.A.Sayadovun rus dilində nəşr olunmuş "Beynəlmiləlçilik qanunu ilə" kitabında(712) müəllif müxtəlif rəqəmləri müqayisə etməklə kommunist partiyasının beynəlmiləlçilik sahəsində fəaliyyətinin düzgünlüyünü ciddi-cəhdlə sübut etməyə çalışmış və bu sahədə mövcud olan nöqsanlara isə münasibət bildirməmişdir. Bu kitab iki hissədən və 7 bölmədən ibarətdir. Birinci hissə "SSRİ xalqlarının ideya-siyasi və sosial-iqtisadi birliyinin möhkəmləndirilməsi sahəsində Sov.İKP-nin beynəlmiləl fəaliyyəti" adlanır. Müəllif burada`Azərbaycanın ictimai-siyasi həyatına, elm və təhsilin inkişafına aid faktları qeyd edərək, bütün bunların kommunist partiyasının beynəlmiləl siyasəti sayəsində əldə olunduğunu vurğulayır. Kitabda qeyd olunur ki, 70-ci illər Sovet Azərbaycanının güclü elmi potensialının daha da inkişaf etməsi dövrü oldu. Məsələn, 1971-1980-ci illərdə 1970-ci illərlə müqayisədə Azərbaycan alimlərinin ümumi sayı 3911, elmlər doktorlarının sayı 355, elmlər namizədlərinin sayı 2840, akademik, akademiyanın

müxbir üzvü və professorlar 202, dosentlər 1033, baş elmi işçilər 408, kiçik elmi işçilər və assisentlərin sayı 281 nəfər artmışdır. Lakin rəqəmlərin müqayisəsi sübut edir ki, müəllifin istinad etdiyi bu rəqəmlər dəqiq deyil. Yəni ümumi say ilə göstərilən digər rəqəmlərin cəmi uyğun gəlmir. Bundan başqa kitabda qeyd olunur ki, Azərbaycanda 1971-1980-cı illərdə kütləvi kitabxanaların sayı 2923-dən 3837-ə çatmış, 914 yeni kitabxana açılmışdır. Bu dövrdə nəşr olunan kitabların tirajı 11,6 milyon nüsxədən artaraq 11,8 milyon nüsxəyə, jurnalların tirajı 8,8 milyon nüsxə artaraq 25 milyon nüsxədən 33,8 milyona, qəzetlər sayı 118-dən 132- yə, tirajı 2,1 milyondan 2,7 milyona çatmışdı.(712,s.63)

Kitabın "Sov.İKP-nin beynəlxalq fəaliyyətində beynəlmiləlçilik" adlanan ikinci fəsildə müəllif qeyd edir ki, SSRİ Elmlər Akademiyasının ictimai elmlər üzrə məlumat İnstitunun verdiyi məlumata görə sosialist ölkələrinin ictimai elmlər sahəsində tədqiqat aparan alimlərinin əməkdaşlığının nəticəsində 1974-1979-cu illərdə 1011 əsər nəşr olunub. Çoxtərəfli və ikitərəfli konfransların, simpoziumların materalları ilə birlikdə bunların sayı 1546-ya çatırdı. Bundan başqa kitabda SSRİ-də fəaliyyət göstərən turizm müəssisələrinin bu illərdə 400 xarici turist firmaları ilə əlaqə saxladığı,1971-1980-ci illərdə SSRİ-yə 40 milyon xarici turistin gəldiyi, 35 milyon sovet vətəndaşının xarici ölkələrə getdiyi qeyd olunur. (712,s.155,253)

Müəllif bütün bu faktları sadalamaqla Sov.İKP-nin xalqların dostluğu, əməkdaşlığına üstünlük verdiyini, SSRİ-nin daim sülhsevər xarici siyasət yeritdiyini sübut etməyə çalışmışdır.

H.Hacılının 1985-ci ildə nəşr olunmuş "Dostluq və əməkdaşlıq telləri" (İnkişaf etməkdə olan ölkələrə sovet yardımı və onlarla əməkdaşlıqda Azərbaycan SSR-in iştirakı) adlanan kitabı giriş, iqtisadi, təhsil, elm və incəsənət sahələrində əməkdaşlığa həsr olunmuş dörd fəsildən ibarətdir. Müəllif qeyd edir ki, hələ 1982-ci ildə dünyanın 76 ölkəsindən gəlmiş 2700 gənc M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində, C.İldırım adına Azərbaycan Politexnik İnstitutunda, D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda, N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunda, Oktyabr adına Bakı Neft Texnikumunda, Rüstəmzadə adına Bakı Energetika Texnikumunda, 2 nömrəli Bakı Tibb Texnikumunda, ÜİLKGİ-nin 50 illiyi adına 74 nömrəli peşə texniki-təhsil məktəbində və başqa təhsil ocaqlarında müxtəlif ixtisaslara yiyələnmişdi. Kitabda həmçinin göstərilir ki,

Azərbaycanda elmin inkişafı, onun qazandığı naliliyyətlər dəfələrlə beynəlxalq sərgi və yarmarkalarda, o cümlədən Misir Ərəb Respublikasında (Qahirə,1974) və Suriya Ərəb Respublikasında (Dəməşıq, 1975), Hindistanda (Dehli, 1976 və 1982) və inkişaf etməkdə olan başqa ölkələrdə müvəffəqiyyətlə nümayiş etdirilmişdir. Kitabda tarixçi alimlərdən Ə.Əlizadə, Ə.Sumbatzadə və SSRİ Elmlər Akademiyası Ümumi Tarix İnstitutunun direktor müavini, SSRİ EA müxbir üzvü Ə.İsgəndərovun müxtəlif xarici ölkələrdə keçirilmiş tədbirlərdə iştirakları haqqında məlumat verilib. Müəllif qeyd edir ki, akademik Ə.Əlizadə, 1961 və 1970-ci illərdə Türkiyənin Ankara şəhərində, 1966 və 1969-cu illərdə isə İranın Tehran və Təbriz şəhərlərində tarixçilərin beynəlxalq konqreslərində etdiyi maraqlı məruzələr tədbir iştirakçılarının rəğbətinə səbəb olmuşdu.

Kitabda nailiyyət kimi təqdim olunan bu faktda tənqidi yanaşdıqda Azərbaycan tarixçilərinin, xüsusilə də əksəriyyət təşkil edən aspirantların, elmlər namizədlərinin və hətta elmlər doktorlarının sovet rejimi dövründə xarici ölkələrdə, xüsusilə kapitalist ölkələrində keçirilən beynəlxalq tədbirədə iştirakının mümkünsüz olduğu qəntətinə gəlmək olar. Əgər akademik Ə.Əlizadənin 10 il ərzində cəmi 4 beynəlxalq tədbirdə iştirakı nailiyyət kimi qeyd olunursa, deməli digərlərinin iştirakından danışmağa dəyməz.

Azərbaycan alimlərinin 70-80-ci illərdə beynəlxalq həmrəylik, beynəlmiləl əlaqələr mövzularına daha çox diqqət vermələrində Azərbaycan KP MK bürosunun “Bakı şəhərində Asiya və Afrika xalqları ilə IV həmrəylik konfransının keçirilməsi haqqında” 20 aprel 1976-cı il qərarına müvafiq olaraq 13-15 may 1976-cı il tarixdə 200 sovet nümayəndəsinin, Asiya və Afrika ölkələrindən gəlmiş 25 nümayəndənin iştirakı ilə bu tədbirin həyata keçirilməsinin də istiqamətverici təsiri olub.(48)

Bu məsələ ilə bağlı Bakı şəhərində 1982-ci ildə “İnkişaf etmiş sosializm şəraitində millətlərin və milli münasibətlərin inkişafı” və 1983-cü ildə isə “Sovet adamının mənəvi aləmində millilik və beynəlmiləlliyin aktual problemləri” mövzularında ümumittifaq elmi praktik konfranslar keçirilib.

Dördüncü qrupa insanların yeni tarixi birliyi kimi sovet xalqının yaranması, çoxmillətli sovet mədəniyyəti, mədəniyyətdə mili ilə beynəlmiləlin vəhdəti və s. təbliğ edən kitab və məqalələri aid edtmək olar. F.Köçərlinin, Ə.Daşdəmirovun, A.Şirinovun, Q.Bağırovun, İ.Cəfərovun və başqa müəlliflər bu mövzularda kitab və məqalələr yazmışlar. (85; 102; 210; 375 və s.)

Bu müəlliflər millətlərin inkişaf edib gələcəkdə obyektiv surətdə tədricən qaynayıb qarışması prosesini, yuxarıdan göstərişlə millət və xalqları zorakılıqla assimilyasiya edilməsi siyasəti ilə eyniləşdirərək sübut etməyə çalışırdılar ki, çoxmillətli xalq olan sovet xalqı artıq formalaşmış və bu hadisə obyektiv tarixi proses nəticəsində baş vermişdir. Lakin bu siyasətin müəlifləri və təbliğatçıları unudurdular ki, obyektiv qanunlara zidd olaraq süni surətdə millətlərin qaynayıb qarışması prosesini sürətləndirmək cəhdləri və bu prosesdə yol verilən zorakılıq halları əks proseslərin başlanmasına təkan verəcəkdir. Sonradan başqa amillərlə yanaşı məhz milli məsələdə yeridilən səhv siyasət və buna vətəndaşların etirazları SSRİ-nin dağılması prosesində mühüm rol oynadı.

Azərbaycan alimləri 70-80-ci illərin birinci yarısında rus dilini vahid ünsiyyət dili kimi inkişafını, rus dilinin milli respublikalarda, o cümlədən Azərbaycanda geniş yayılmasını təbliğ edən bir sıra kitab və məqalələr yazmışlar.

İ.Cəfərovun 1982-ci ildə rus dilində nəşr olunmuş “Rus dili dostluq dili, qardaşlıq dilidir” kitabı giriş, üç fəsil və nəticədən ibarətdir. Kitabın giriş hissəsində müəllif F.P.Filina, Y.D.Deçerieva, İ.F.Protçenko, İ.K.Belodeda, A.T.Bazieva, M.İ.İsaeva, M.İ.Quboqlo və başqa müəlliflərin rus dilinə, millətlərarası ünsiyyət dili kimi rus dilinin roluna aid əsərlərini təhlil edib. Bundan başqa müəllif qeyd edir ki, kitabın yazılmasında məqsəd milli dilllər məsələsinə aid Lenin nəzəriyyəsinin təcrübədə necə həyata keçirildiyini öyrənmək, çoxmilli və çoxdilli sovet ölkəsində dil probleminin hərtərəfli, kompleks şəkildə tədqiq etmək, rus dilinin sosialist millətləri arasında millətlərarası ünsiyyət dili və beynəlmiləl birliyin gücləndirilməsi amili kimi mühüm rol oynamasını araşdırılmaqdan ibarətdir.

Müəllif E.V.Tadevsonyanın “SSRİ-də sosialist millətlərinin gələcək yaxınlaşması” adlı məqləsinə ( 500,1965 № 3,c.55) istinadən qeyd edir ki, 1926-cı ildə RSFSR-dən kənarda rusların 5%-i yaşayırdısa, 1959-cu ildə 14,2%-i yaşayırdı. Daha sonra müəllif bu müqayisəni davam etdirərək qeyd edir ki, 80-ci illərin əvvələində 23,8 milyon rus özünün etnik ərazisindən kənarda yaşayırdı. Müəllif 1980-ci il SSRİ əhalisinin siyahıya alınmasına aid sənədlərə istinad edərək göstərir ki, bu dövrdə Ukraynada 10,4 milyon, Belorusiyada 1,1 milyon, Özbəkstanda 1,6 milyon, Kazaxstanda 5,9 milyon, Gürcüstanda 0,5 milyon, Azərbaycanda 0,5 milyon, Litvada 0,3 milyon, Moldaviyada 0,5 milyon, Latviyada

0,8 milyon, Qırğızstanda 0,9 milyon, Tacikstanda 0,4 milyon, Ernənistanda 70 min, Türkmənstanda 0,3 milyon, Estoniyada 0,4 milyon rus yaşayırdı. Müəllifin fikrincə digər respublika və vilayətlərdə yaşayan rus əhalisi SSRİ xalqlarının daha möhkəm birliyinin əmələ gəlməsində, həmin ərazilərdə rus dilinin daha geniş yayılmasında mühüm rol oynayırdı.

Kitabın nəticə hissəsində müəllif qara şriflərlə xüsusi qeyd edir ki, rus dili çoxmillətli sovet xalqının ictimai həyatınının bütün sahələrinə daxil olduqca onun əhəmiyyəti hiss olunacaq dərəcədə artır, müxtəlif millətlərin ikinci ana dilinə çevrilir. Müxtəlif mənbələrə istinadən müəllif qeyd edir ki, SSRİ-nin 112,7 milyon rus olmayan əhalisinin 54,8 milyonu rus dilində sərbəst danışır, onlardan 11,6%-i rus dilini ana dili, 37,1%-i isə ikinci ana dili sayır.

Müəllif kitabda rus dilinin SSRİ xalqları üçün vahid ünsiyyət vasitəsi olmasını, bu dilin beynəlxalq dil kimi böyük nüfuz qazanmasını və s. məsələləri geniş işıqlandırıb. Müəllif digər sovet tədqiqatçıları kimi rus dilinin milli respublikalarda geniş yayılmasını milli dillərin sıxışdırılması hesabına deyil, könüllülük əsasında baş verdiyini faktlarla sübut etməyə çalışıb.

Bu kimi əsərlərin yazılmasında SSRİ Nazirlər Sovetinin "Müttəfiq respublikalarda rus dilinin öyrənilməsi və tədrisinin daha da təkmilləşdirmək tədbirləri haqqında" (31 avqust 1978-ci il) qərarına uyğun olaraq Azərbaycan KP MK-nın 1 noyabr 1978-ci il tarixli (50) və Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin 29 dekabr 1978-ci il tarixli (59) qərarları mühüm rol oynamışdı. Kommunist Partiyasının siyasətinə uyğun olaraq bu cür qərarlar sonralar da qəbul olunmuşdur. Buna misal olaraq, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Rus dilinin öyrənilməsini yaxşılaşdırmaq üçün əlavə tədbirlər haqqında" (27 may 1983- ci il) qərarı göstərmək olar.

M.İ.Kuliçenkonun 1981-ci ildə Moskvada, rus dilində nəşr olunmuş "SSRİ-də millətlərin çiçəklənməsi və yaxınlaşması" əsərində qeyd olunur ki, Sov.İKP rus dili ilə yanaşı digər dillərin də inkişafına böyük diqqət verir. SSRİ-də 52 dildə məktəb fəaliyyət göstərir, 44 dildə jurnallar, 56 dildə qəzetlər, 60 dildə kitablar, 77 dildə bədii ədəbiyyat nəşr olunur, 67 dildə radio və televiziya verlişləri translyasiya edilir. Müəllifin kitabda istinad etdiyi bu faktlar həqiqətən sovet dövründə mövcud olmuşdur. Lakin fikrimizcə bütün bunlar milli dillərin inkişafından daha çox, kommunist ideologiyasının əhali arasında daha geniş

yayılması, burjua ideologiyasına qarşı daha səmərəli mübarizə aparılması naminə həyata keçirilmişdir.

Sovet respublikalarında bu dövrdə yerli əhali ilə yanaşı təxminən 60 milyon digər millət və xalqların nümayəndələri yaşayırdı. (682, 20 sentyabr 1989-cu il) Bunlar arasında da vahid ünsiyyət dili rus dili hesab olunurdu. Bu kimi faktlara istinadən Sov.İKP kiçik xalqları nisbətən böyük xalqlar, daha sonra isə onları da rus xalqı içərisində assimlyasiya edilməsi siyasətinə üstünlük verirdi.

Başqa sahələrdə olduğu kimi rus dilinin də müttəfiq respublikalarda öyrənilməsi sahəsində 70-80-ci illərdə yol verilmiş nöqsanlar, formalizm və digər neqativ hallar sovet tarixşünaslığında öz əksini tapmayıb. Sov.İKP MK-nın "Sovet Sosialist Respublikaları İttifaqının təşkil edilməsinin 60-cı ildönümü haqqında" (21 fevral 1982-ci il ) qərarında SSRİ əhalisinin 82 faizinin rus dilini sərbəst bilməsi haqqında məlumat verilsə də bu faktın obyektivlikdən uzaq olması sonrakı illərdə müxtəlif kitab və məqalələrdə tənqid olunub. Məsələn, A.Avtorxanov öz əsərində SSRİ-də xalqların zorakılıqla assimiliyasiyaya uğradılmasının səbəblərini araşdıraraq bunun nəticəsində 1926-cı ildə SSRİ-də yaşayan 194 millət və xalqın sayının azalaraq 1979-cu ildə 119-a endiyini, yəni sovet siyasətinin nəticəsində 73 millət və xalqın tarix səhnəsində süni şəkildə silindiyini qeyd edib.(419, s.139-140) Bu cür faktlar sovet tarixşünaslığında da öz əksinin tapmışdı. Məsələn, E.A.Baqramov, J.Q.Qolotvin, E.V.Tadevosyanın 1988-ci ildə Moskvada, rus dilində nəşr olunmuş "Beynəlmiləl və vətənpərvərlik tərbiyənin, milli münasibətlərin inkişafının aktual problemləri" kitabında qeyd olunur ki, 1926-cı ildə SSRİ-də 200 millət və xalq yaşayırdısa, 1939-cu ildə onların sayı 140-a, 1959-cu ildə 126-ya, 1970 və 1979-cu ildəki siyahıya almada isə onların sayı 119-a enmişdir. Burjua tarixşünaslığından fərqli olaraq sovet tarixşünaslığında bu prosesin xalqların inteqrasiyası, nisbətən kiçik xalqların böyük xalqlarla qaynayıb-qarışması nəticəsində baş verdiyi, bunun heç bir kənar müdaxilə olmadan təbii proses olduğu xüsusi vurğulanır.

Sovet xalqı pərdəsi altında ruslaşdırma siyasətini tənqid edən M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycanda rus-bolşevik hakimiyyətinin ruslaşdırma siyasəti iki şəkildə təzahür edir: iqtisadiyyatda mərkəzləşdirmə, mədəniyyətdə ruslaşdırma". (339,s.98)

Ə.Daşdəmirovun "Qan qohumluğundan güclü" kitabı (102) "Proletar

beynəlmiləlçiliyi-xalqlar dostluğunun ideya-siyasi əsasıdır", "SSRİ xalqlarının dostluğu və qardaşlığı-sosialist beynəlmiləlçiliyi etikasının yüksək normasıdır", "Möhkəm əqidəli beynəlmiləlçilər tərbiyə etməli" başlıqlı üç hissədən ibarətdir. Müəllif kitabda marksizm-leninizm klassiklərinin əsərlərindəki fikirlərə istinad edərək beynəlmiləlçilik ideyasının mahiyyətini izah etmişdir. Kitabda qeyd olunur ki, müasir şəraitdə beynəlmiləlçilik tərbiyəsi sisteminin təkmilləşdirilməsi aşağıdakıları tələb edir: beynəlmiləlçilik tərbiyəsinin kommunizm quruculuğu praktikası ilə, sosialist millətləri və xalqları arasında real münasibətlərlə, onların dostluğu və qarşılıqlı yardımı ilə getdikcə daha sıx və üzvi şəkildə əlaqələndirilməsi; beynəlmiləlçilik tərbiyəsi işinin kommunist tərbiyəsinin digər istiqamətləri ilə, ən əvvəl elmi, inqilabi dünyagörüşün formalaşdırılması, əməyə kommunist münasibəti tərbiyə edilməsi, vətənpərvərlik, ateizm və əxlaq tərbiyəsi ilə hərtərəfli əlaqələndirilməsi; tərbiyə işinin nəzəri səviyyəsinin yüksəldilməsi, eyni zamanda ən müxtəlif emosional və sosial-psixoloji təsir vasitələrindən istifadə edilməsi; milli məsələ ətrafında ideoloji hücum mübarizəsinin gücləndirilməsi, millətçiliyin və millətçilik məhdudiyyətinin hər cür təzahürlərinə qarşı barışmazlıq tərbiyə edilməsi; beynəlmiləl ünsiyyəti intensivləşdirmək, təsərrüfat və mədəniyyət quruculuğunun bütün sahələrində SSRİ xalqları dostluğunun və qarşılıqlı yardımının çoxcəhətli təzahürlərinin geniş işıqlandırmaq məqsədilə müasir kütləvi informasiya və təbliğat vasitələrindən səmərəli istifadə olunması.

Milli münasibətlər probleminə həsr olunmuş əsərlərin sonuncu qrupuna sovet tarixşünaslığında dəbdə olmuş antikommunizmə qarşı, burjua tarixşünaslığı əleyhinə T.Köçərlinin, V.Nəsirovun, Ə.Tağıyevin, F.İsmayılovun, İ.İsmayılovun və başqa müəlliflərin yazdıqları kitab və məqalələri (69; 194; 207; 738 və s.) aid etmək olar.

Bu əsərlər içərisində T.Köçərlinin "Tarixi saxtalaşdıranlar əleyhinə" kitabı (207) faktiki materialların zəngiliyi baxımından diqqəti cəlb edir. Kitab burjua tarixçilərinin tənqidinə həsr olunmasına baxmayaraq infornasiya qıtlığı mövcud olduğu 70-ci illərdə bir çox tədqiqatçılar burjua alimlərinin fikirləri haqqında məlumatları məhz bu cür kitablardan alırdılar. Bu cəhətinə görə kitab böyük əhəmiyyətə malikdir.

70-80- ci illərin birinci yarısı qərb ölkələrində sovet cəmiyyətində mövcud olan milli münasibətlər diqqət mərkəzində idi. Buna görə də bu ölkələrdə SSRİ-də

milli münasibətlər və sovet rejiminin digər probleminə aid çoxlu sayda kitab və məqalələr çap olunmuşdu. Məsələn, təkcə Almaniya Federativ Respublikasında 700-dən çox alim və mütəxəssisin iştirakı ilə 1966-1972-ci illərdə 7500 səhifədən ibarət "Sovet sistemi və demokratik mərkəziyyət. Müqayisəli ensiklopediya" adlı 6-cildlik əsər çapdan çıxmışdı.(37, №1, 1977,s.83) Bu illərdə qərb ölkələri, xüsusilə ABŞ alimləri SSRİ-də, o cümlədən Azərbaycan SSR-də mövcud olmuş millətlərarası münasibətləri daim diqqət mərkəzində saxlamışlar. Məsələn, ABŞ-da bu mövzuda 1971-ci ildə 245, 1982-ci ildə isə 258 dissertasiya müdafiə edilmiş, təkcə 1979-1980-ci illərdə "Millətçilik və Zaqafqaziyada sosial dəyişikliklər" mövzusunda iki böyük konfrans keçirilmişdir. (382, s.9)

Burjua alimlərinin kitablarında sovet rejiminin çatışmazlıqları tənqid olunduğuna görə sovet alimləri bu faktları təkzib etmiş, bunları burjua saxtakarlığı hesab etmişlər. Lakin bu əsərlərə tənqidi yanaşanda aydın olur ki, burjua saxtalaşdırıcıları kimi qələmə verilmiş alimlər Azərbaycanın tarixinə, mədəniyyətinə, milli münasibətlərə daha obyektiv yanaşmışlar. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra onların yazdıqları əsərlər daha aktual olmuşdur. Belə müəlliflər içərisində sovet tarixşünaslığında daim tənqid olunan və düşmən kimi qələmə verilən Azərbaycan xalqının görkəmli şəxsiyyətləri M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, H.Baykara və digər müəlliflər də vardır. ABŞ-da son illər keçirilən elmi konfranslarda Azərbaycanın mövqeyini müdafiə edən görkəmli alim T.Svyatoçovski də daim sovet alimləri tərəfindən saxtakarlıqda ittiham olunanlar sırasında olmuşdu.

F.Əhmədşina, A.Əsədov və başqa müəlliflərin əsərlərində (444; 447; 448 və s.) Azərbaycanın digər sovet respublikaları ilə mədəni-iqtisadi əlaqələri tədqiq olunub.

A.Əsədovun rus dilində nəşr olunmuş "Qarşılıqlı qardaşlıq yardımının gücü" kitabı (444) 70-ci illərin əvvələrində Azərbaycanın digər respublikalarla qarşılıqlı iqtisadi əlaqələrindən, əsasən də Azərbaycanın həmin respublikalara iqtisadi köməyindən bəhs edir.

T.Əhmədşinanın "Azərbaycan qardaşlıq ailəsində" və "Azərbaycan SSR-in müttəfiq respublikalarla iqtisadi əməkdaşlığı (1946-1980)" kitablarında (447; 448) Azərbaycanın digər müttəfiq respublakalarla müqayisədə əldə etdiyi iqtisadi uğurlar, ümumittifaq sosializm yarışlarında əldə etdiyi nailiyyətlər barədə geniş

məlumat verilir. Kitabdaki faktlar sübut edir ki, Azərbaycan 70-80-ci illərdə digər müttəfiq respublikalarla müqayisədə iqtisadi cəhətdən daha çox inkişaf etmiş və mərkəzi fondlara daha çox vəsaitlər keçirmişdi.

Azərbaycan Dövlət Universiteti alimlərinin nəşr etdirdikləri "Sovet Azərbaycanı SSRİ xalqlarının qardaşlıq ailəsində" kitabında (720) Azərbaycanın müxtəlif sahələrdə əldə etdiyi uğurlar məqalələr şəkilində çap olunub. Kitabdakı materiallarda Azərbaycanın SSRİ miqyasında sosial-iqtisadi və mədəni cəhətdən inkişaf etmiş bir respublika olduğu faktlarla göstərilmişdi.

70-80-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafına aid yazılan kitablarda DQVM-də vəziyyətin Azərbaycanın digər ərazilərindən daha yaxşı olduğunu sübut edir.

R.İmanovun "Sosialist Dağlıq Qarabağı" və "Çiçəklənən diyar" kitabları (179; 180) Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinə həsr olunub. Kitabda vilayətin ictimai-siyasi və iqtisadi vəziyyətinə aid faktlar 1988-ci ilin fevralında erməni separatçılarının sosial problemlərlə bağlı irəli sürdükləri iddiaların əsassız olduğunu sübut edir.

R.İmanovun "Çiçəklənən diyar" kitabı giriş və üç fəsildən ibarətdir. Kitabın giriş hissəsində qeyd olunur ki, kitabda Azərbaycan KP MK-nın rəhbərliyi altında son üç beşillikdə iqtisadiyyat və mədəniyyətin inkişafı sahəsində vilayət partiya təşkilatının fəaliyyəti konkret materiallar əsasında işıqlandırılıb.

Kitabın "DQMV-nin yaranması xalqların Lenin dostluğunun təcəssümüdür" adlanan birinci fəslində verilmiş DQMV-nin 50 illiyi münasibətilə Azərbaycan KP MK və Nazirlər Sovetinin təbrik məktubunda deyilir: "... Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in tərkibində təsərrüfat və mədəniyyət quruculuğunda gözəl müvəffəqiyyət qazanmış və bunun üçün Vətənin yüksək mükafatına - Lenin ordeninə layiq görülmüşdür."

Kitabın "Sosializm quruculuğu illərində vilayətin iqtisadi və sosial inkişafı" adlanan ikinci fəslində qeyd olunur ki, DQMV-nin sahəsi 4,4 min kv. km, əhalisi 165 min nəfərdən artıqdır. Əhalinin tərkibi əsasən erməni və azərbaycanlılardan ibarətdir. Tabeliyində 2 şəhər, 6 şəhər tipli qəsəbə, 74 kənd soveti, 5 rayon var. Müəllif vilayətin iqtisadi göstəricilərini qeyd edərkən erməni müəlliflərinin yazdıqları kitablara da istinad etmişdir. Məsələn, Ş.Mkrtıçyanın 1970-ci ildə Bakıda nəşr olunmuş "Dağlıq Qarabağ Muxtar Vilayəti" kitabına istinadən qeyd

olunur ki, 1968-1969-cu təsərrüfat ilində vilayətdə istehsal edilmiş kənd təsərrüfatı məhsullarının dəyəri 43,5 milyon manat təşkil etmişdir ki, bu da 1950-ci ildəkinə nisbətən 5,3 dəfə çox idi. Bundan başqa müəllif 1974-cü ildə Stepanakertdə nəşr olunmuş "Dağlıq Qarabağ 50 ildə" kitabına istinadən göstərmişdir ki, vilayətdə 1940-cı il səviyyəsi ilə müqayisədə 1962-ci ildə mebel istehsalı 38 dəfə, ipək parça istehsalı 24 dəfə, kərə yağı istehsalı 37 dəfə, konyak istehsalı 13 dəfə, şərab istehsalı 64,9 dəfə, elektrik enerjisi istehsalı 95 dəfədən çox artmışdır.

Kitabın "Kommunizm quruculuğu yollarında" adlanan üçüncü fəslində müəllif "Sovetski Karabax" qəzetinin 21 yanvar 1982-ci il tarixli sayına istinadən bildirmişdir ki, 1981-ci ildə Azərbaycan SSR-də sənaye istehsalı 7 % artdığı halda, DQMV üzrə 8,3 % artmışdır. Müəllif A.Zaxaryanın 1957-ci ildə nəşr olunmuş "Dağlıq Qarabağ ipəkçilik sənayesi sovet hakimiyyəti illərində" əsərinə istinadən göstərir ki, 1929-cu ildə fəaliyyətə başlayan 26 Bakı komissarı adına Qarabağ ipək kombinatı vilayətin təşkil edildiyi ilk illərlə müqayisədə 1957-ci ildə 120 dəfədən çox, 1970-1975-ci illərdə isə təxminən 250 dəfədən çox artmışdı. Kitabda daha sonra qeyd olunur ki, vilayətdə fəaliyyət göstərən 44 sənaye müəssisəsinin hamısı məhsul istehsalı və satışına dair onuncu beşilliyik planı artıqlaması ilə yerinə yetirmişdir.

Bütün bu və digər faktlar sonradan DQMV iqtisadi, mədəni və sosial geriliyi ilə bağlı ortaya çıxan erməni iddialarının saxta olduğunu təsdiq edir.

Alimlərin tədqiq etdikləri mövzulardan biri də 70-80-ci illərin birinci yarısında Azərbaycanın demoqrafiyası, əhali artımı ilə bağlı olmuşdur. Azərbaycan alimlərindən K.Şükürov, Ş.Müslümov, K.Məmmədov, Ç.Baxışov və başqa müəlliflər bu mövzuya bir sıra kitab və məqalələr həsr ediblər. (379; 649; 634; 656 və s.)

K.K.Şükürovun "Azərbaycan əhalisi haqqında ədəbiyyat" kitabında (379) qədim dövrlərdən başlayaraq XX əsrin axırlarına kimi, o cümlədən sovet hakimiyyəti illərində Azərbaycan əhalisinə aid yazılmış kitab və məqalələr haqqında məlumat verilib. Biblioqrafik göstərici olan bu kitab əhatə etdiyi dövrlərə və həcminə görə digər tədqiqat əsərlərindən keyfiyyətcə fərqlənir. K.K.Şükürovun kitabı həmçinin dövrün tarixşünaslıq baxımından tədqiqi üçün də mühüm əhəmiyyətə malikdir.

Ş.Müslümov "Əhali artımı problemi haqqında burjua tarixşünaslığı"

məqaləsində (649) əhali artımı və əhalinin məskunlaşması probleminə aid burjua tarixşünaslığını tənqid edərək sübut etməyə çalışmışdır ki, insanların firavan yaşayışını və təbii artımını təmin etməyə qadir olan cəmiyyət yalnız sosializm cəmiyyətidir. Burjua cəmiyyətində əhali artmının ziddinə olan nəzəriyyələri və əsərləri tənqid edən müəllif sosializmin kapitalizmdən daha hümanist bir cəmiyyət olduğunun faktlarla sübut etməyə çalışıb.

K.V.Məmmədovun rus dilində nəşr olunmuş "Azərbaycan SSR-in demoqrafik inkişafı" kitabında (634) sovet statistikasına istinadən müxtəlif illərə aid rəqəmlər müqayisə edilməklə Azərbaycanda əhali artımının yüksələn xətt üzrə getdiyi, bunu sosializmin böyük naliyyəti olduğu faktlarla qeyd olunub. Müəllif elmi araşdırmaları nəticəsində belə qənaətə gəlib ki, əhalinin sayının artması və etnik tərkibinin əvvəlki illərə nisbətən azalması, yəni nisbətən kiçik etnik qrupların böyük xalqlar içərisində assimliyasiyaya məruz qalması təbii prosesin, sovet milli siyasətinin, əhalinin maddi rifahının və sosial-iqtisadi inkişafının nəticəsidir. Müəllif öz tədqiqatlarında inkişaf etmiş ölkələrlə obyektiv müqayisə aparmadan sovet cəmiyyətinin ən humanist, insanların təbii artımı üçün ən real şərait yaradan bir cəmiyyət olduğunu sübut etməyə çalışıb.

SSRİ-də əvvəlki illərdə olduğu kimi 70-80-ci illərin birinci yarısında da din əleyhinə təbliğat kampaniyası aparılırdı. Sov.İKP-nin "İslamın 1400 illiyi ilə əlaqədar təbliğat tədbirləri haqqında" (20 aprel 1979-cu il) qərarı ilə əlaqədar Azərbaycan KP MK 25 may 1979-cu il tarixdə tədbirlər planı tərtib etmişdi. (51) Əhalisini sayına görə Azərbaycanın ikinci şəhəri olan Gəncədə 70-80-ci illərdə dinə qarşı mübarizə əvvəlki illərdə olduğu kimi daim diqqət mərkəzində olmuşdu. Şəhər və onun ətrafında fəaliyyət göstərən 6 müxtəlif dini mərkəz və ziyarətgahlarda əks təbliğatın yalnız müxtəlif dini mərasimlər vaxtı aparıldığı tənqid olunaraq, dinə qarşı mübarizənin müntənzəm aparılması üçün xüsusi təlimat verilmişdi.(55)

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi öz fəaliyyətində elmi ateizm təbliğatını gücləndirmək işinə xüsusi diqqət verərək "Zəhmətkeşlərin elmi-ateizm tərbiyəsində Culfa rayon "Zəfər" qəzeti redaksiyasının işi haqqında"(17 fevral 1977) qərar qəbul edib. Qərarda qeyd olunur ki, 1976-cı il ərzində qəzetdə din əleyhinə 20 məqalə və məktub dərc olunmasına baxmayaraq redaksiya öz imkanlarından lazımi səviyyədə istifadə etməyib. Qərarda din əleyhinə, xüsusilə

islam dini mərasimlərinə qarşı mübarizəni gücləndirmək üçün “Zəfər” qəzetinə tapşırıqlar verilib.(60)

İran İslam Respublikası ilə həmsərhəd olan Naxçıvanda İranda 1979-cu ildə baş vemiş İslam inqilabından sonra dinə qarşı mübarizə daha da güclənmiş və bu barədə müvafiq qərarlar qəbul olunmuşdur. Məsələn Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin “Naxçıvan 5 №-li Tikinti Tresti Partiya Komitəsi, Elektronika və Tütün Fermentasiya zavodları ilk partiya təşkilatlarının kollektivdə apardığı elmi-ateizm təbliğinin vəziyyəti haqqında” (27 dekabr 1980) qərarı (61) buna misal ola bilər.

Bəzi alimlər sovet dövründə dinə qarşı mübarizəni iki mərhələyə bölürlər:

1. **Barışmaz ateizm mərhələsi (1920-1930-cü illər).** Bu mərhələlədə din düşmən ideologiya hesab olunduğundan dindarlar fiziki cəhətdən məhv edilir, dini binalar dağıdılır və ya digər məqsədlər üçün istifadə edilirdi.

2. **Elmi ateizm mərhələsi (1950-1980-ci illər).** Bu mərhələdə dindarların məhv edilməsi siyasəti onların yenidən tərbiyə olunması, dindarların cəmiyyət üçün yararsız şəxslər kimi təqdim edilməsi siyasəti ilə əvəz edildi.

70-80-ci illərdə dindarların sovet tərbiyəsi əsasında ateistləşdirmək siyasəti həyata keçirilirdi. Lakin bununla yanaşı dini idarələr və dini kadrlar hazırlyan məktəblər də fəaliyyət göstərirdi ki, bu da əvvəlki illərdəki siyasətdən fərqlənirdi. Bu dövrdə müsəlman dini kadrları hazırlamaq üçün Buxarada “Mir-Ərəb” mədrəsəsi və İmam əl-Buxari adına Daşkənd İslam Universitetinin ilahiyyat fakültəsi fəaliyyət göstərirdi. Lakin bu illərdə də dinə münasibət bir neçə dəfə dəyişmişdir. Müharibədən sonra dinə münasibət yumuşalsa da XX əsrin 60-cı illərdə dinə qarşı radikallıq yenidən güclənmiş, müharibədən sonra açılmış dini binalar yenidən bağlanmışdır.

Kommunist rejiminin tələblərinə uyğun olaraq və dinin əleyhinə qəbul olunmuş qərarların təsiri ilə 70-80-ci illərdə Azərbaycanda ateizim təbliğinə aid bir sıra kitab və məqalələr yazılıb.

M.A.Balayevin 1971-ci ildə nəşr olunmuş “Müqəddəslər”ə pərəstiş - keçmişin zərərli qalığıdır”, Ə.Əliyevin 1981-ci ildə yazdığı “Mənəvi mədəniyyət və din”, N.Cəlilovun 1984-cü ildə nəşr olunmuş “Elmi-texniki inqilab və ateist

dünyagörüşü” və digər kitablar buna misal ola bilər.

N.Cəlilovun “Elmi-texniki inqilab və ateist dünyagörüşü” kitabında (95) müəllif elm və texnikanın inkişafı ilə dini təsəvvürlərə böyük zərbə vurulmasından və ateist dünyagörüşünün inkişaf etməsi üçün əlverişli şərait yaranmasından bəhs edilir. Lakin müəllifin elm və texnikanın inkişafına görə SSRİ-dən irəlidə olan inkişaf etmiş kapitalist ölkələrində insanların dinə inamının nəyə görə güclü olmasına münasibət bildirməməsi və bu ölkələrlə müqayisələr aparmaması tədqiqatın birtərəfli aparıldığını sübut edir.

A.Əhmədovun rus dilində çapdan çıxmış “İslam müasir ideoloji mübarizədə” kitabı (445) giriş, 3 fəsil və nəticədən ibarətdir. Kitabın I fəsli “İslam və müsəlmanlar müasir dünyada”, II fəsli ““İslam amili” imperializmin planlarında”, III fəsli “Antikommunizm müsəlman irticasının ictimai tərəqqi əleyhinə mübarizədə silahıdır” adlanır.

Müəllif burjua alimlərinin “ruslar müsəlmanların qəlbi uğrunda mübarizə aparırlar” (445,s.181), “Sovet İttifaqının Konstitutsiyasında şəxsiyyət azadlığı cəmiyyət azadlığı vasitəsilə məhv edilir” (445,s.192), “SSRİ-də milli və dini hisslərin qızışdırılması onun məhvinin başlanğıcı olacaqdır” (445,s.117) kimi fikirləri tənqid etməsinə baxmayaraq sonrakı hadisələr bu fikirlərin doğruluğunu təsdiq etdi.

1970-1985-ci illərin ictimai-siyasi tarixinin sovet tarixşünaslığının formalaşmasında H.Əliyevin müxtəlif məruzə və çıxışları mühüm rol oynayıb. Məhz buna görə də dövrün tarixşünaslığının araşdırılmasında H.Əliyevin ictimai-siyasi fəaliyyətinin öyrənilməsinin, onun fəaliyyətinə aid yazılmış kitab və məqalələrin təhlilini mühüm rolu var.

H.Əliyevin Azərbaycan Sovet Ensklopediyasında yazılmış qısa tərcümeyi-halı aşağıdakı kimidir:

“Əliyev Heydər Əlirza oğlu 10 may 1923-cü il tarixdə Naxçıvan şəhərində fəhlə ailəsində anadan olmuşdur. Sovet partiya və dövlət xadimi, Sov. İKP MK Siyasi Büro üzvlüyünə namizəd, AKP MK-nın birinci katibi. Sosialist Əməyi Qəhrəmanı (1979). 1945-ci ildən Sov. İKP üzvüdür. Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra, 1939-1941-ci illərdə M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda oxumuşdur. 1941-ci ildən Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri işləmişdir. 1944-cü ilin

mayında H. Əliyev Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmiş və 1969-cu ilə qədər məsul vəzifələrdə çalışmışdır.

1957-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Tarix fakultəsini bitirmişdir. 1964-cü ildə Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir. H. Əliyevə general-mayor rütbəsi verilmişdir.

AKP MK-nın iyul (1969) plenumunda Əliyev MK-nın birinci katibi və Büro üzvü seçilmişdir.

H. Əliyev SSRİ Ali Sovetinin (8-10-cu çağırış) deputatı olmuşdur. 9-cu çağırış SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini olmuşdur. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin üzvüdür. 4 dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və medallarla təltif edilmişdir." (62, IV-c., 1980, s. 23)

H.Əliyev həm hakimiyyət illərinin uzun müddətli olduğuna görə, həm bir-birindən köklü surətdə fərqlənən ikinci və üçüncü respublikalar dövründə rəhbərlikdə olduğuna və digər göstəricilərə görə başqa rəhbərlərdən köklü surətdə fərqlənir. Əgər H. Əliyevə qədər Azərbaycana rəhbərlik etmiş şəxslərdən yalnız M.C.Bağırov 20 il ölkəyə başçılıq etmişdisə H.Əliyev bu göstəriciyə görə də bütün rəhbərləri geridə qoymuşdur. O, 24 ilə yaxın Azərbaycana rəhbərlik etmiş (I dövr 14 iyul 1969-2 dekabr 1982, II dövr 23 iyun (3 oktyabr)1993-15 oktyabr 2003), 5 ildən artıq isə SSRİ kimi nəhəng bir dövlətin rəhbərbərlərindən biri olmuşdur.

H.Əliyev hakimiyyətinin birinci dövrü haqqında müsahibələrinin birində demişdir: "14 il burada çalışdım. Beş ildən artıq Moskvada işləyərkən yenə də Azərbaycana daha çox vəsait ayırmaqla, respublikamızın işlərini daha da irəliyə aparmaqla məşğul oldum. Mən üst-üstə 20 il bu işləri gördüm" (23,14 noyabr 1996-ci il, 168, 14 noyabr 1996-ci il )

Əgər H. Əliyevin hakimiyyətinin ikinci dövründəki 10 ili də bura əlavə etsək belə nəticə çıxarmaq olar ki, obyektiv və subyektiv səbəblərdən arada bir neçə il fasilə olmaqla 30 ildən artıq bir müddətdə hakimiyyətdə olmuşdur.

H.Əliyev bir göstəricəyə - ona aid yazılmış kitab və məqalələrin çoxluğuna görə də digər rəhbərləri geridə qoyur. Bu göstəriciyə görə H.Əliyev nəinki M.C. Bağırovu, hətta N.Nərimanovu da üstələyir.

H.Əliyev haqqında çoxlu sayda kitab və məqalələr yazılmasına baxmayraq bunların hələ də tarixşünaslıq baxımından təhlil olunmaması təəssüf doğurmaya

bilməz. Məhz buna görə də  H. Əliyev fəaliyyətinin hər iki dövrünün tarixşünaslıq baxımından tədqiqinə böyük etiryac var.

H.Əliyevin hakimiyyətinin I dövrünə, 1969-1982-ci illərə aid yazılmış kitab və məqalələri şərti olaraq iki qrupa bölmək olar. Bunlardan birincisinə onun şəxsiyyətinə böyük hörmət  bəsləməklə fəaliyyətinin müsbət cəhətlərini tədqiq etmiş müəlliflərin əsərləri aiddir. Bu cür kitab və məqalələr əsasən 1969-1982 və 1993-2013-cü illərdə yazılmışdır. İkinci qrupa isə H.Əliyevin fəaliyyətinə əsasən  tənqidi mövqedən yanaşmaqla yazılmış  kitab və məqalələri aid etmək olar. Bunlar da əsasən 1988-1990-cı llərdə, yəni H.Əliyevin Azərbaycanda olmadığı, Moskvanın göstərişi ilə Ə.Vəzirovun hakimiyyəti dövründə yazılmış kitab və məqalələrdir.(407,s.81-83)

H.Əliyev 1982-ci ildə Sov. İKP MK Siyasi Bürosunun üzvü seçilərək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. O zaman SSRİ Nazirlər Soveti sədrinin 12 müavini, yalnız 1 nəfər birinci müavini var idi. H.Əliyev həm də 10 Siyasi Büro üzvündən biri olduğu üçün özünün də qeyd etdiyi kimi SSRİ rəhbərliyində üçüncü-dördüncü şəxs  olmuşdu.

Sov.İKP MK-nın 1985-ci ilin mart plenumunda M. Qarbaçov baş katib seçildikdən sonra onun apardığı siyasət bir çoxları kimi H. Əliyevi də qane etmirdi. H.Əliyev özü bu barədə belə demişdir: “1986-cı ildə ilk dəfə olaraq Qorbaçov SSRİ-nin tərkibində olan türkdilli respublikaların rəhbərlərini çıxarıb, onların yerinə rusları və başqa millətdən olan adamları təyin etməyə başladı. Mən ona anlatdım ki, belə etmək olmaz... 1986-cı ilin dekabrında Qazaxstan rəhbəri Kunayevə qarşı ədalətsizlik oldu. Kunayev qazax, türk idi. O, 22 il orada bu vəzifədə çalışmışdı. O vəzifədən istefa verməli oldu. Mən ona qarşı olan ədalətsizliyə etiraz etdim... Kabardin-Balkar Muxtar Respublikasının rəhbəri Malbaxov da müsəlman idi. Qorbaçov onu da çıxarıb, yerinə Sibirdən bir rusu gətirib qoymaq istəyirdi. Mən buna da, digər belə məsələlərə də etiraz etdim. Siyasi Büroda mənim - bir türkün, müsəlmanın olması onlar üçün əlverişli deyildi.” (23,14 noyabr 1996-ci il, 168, 14 noyabr 1996-ci il)

Qorbaçovun yeritdiyi siyasətə etiraz olaraq H.Əliyev tutduğu vəzifələrdən istefa verərək 1987-ci ilin sonundan 1990-cı ilin iyuluna kimi Moskvada yaşamışdı. Bu dövrdə ona qarşı başlamış qərəzli kampaniyaya Sov.İKP MK-nın Plenumunda (25 aprel 1985-ci il) Sov.İKP MK üzvü, fərdi pensiyaçı kimi çıxış edərək etirazını bildirmişdir. H.Əliyev öz çıxışında demişdi: “Son vaxtlar

mətbuatda mənim Azərbaycan KP MK-nın birinci katibi olduğum dövrdəki işimə tənqidi qiymət verən məqalələr dərc olunmuşdur...Qeyd etmək istəyirəm ki, bütün bu məqalələr mənim Azərbaycanda işlədiyim dövrdə sui-istifadələrə və müxtəlif pozuntulara görə rəhbər vəzifələrdən azad edilmiş və partiya məsuliyyətinə cəlb olunmuş ayrı-ayrı şəxslərin sözü ilə yazılır...Mən Azərbaycandan 1982-ci ildə çıxmışam, Dağlıq Qarabağda isə hadisələr isə 1988-ci ildə başlanmışdır. Mənim Azərbaycanda işlədiyim dövrdə Dağlıq Qarabağda vəziyyət normal idi, sabit idi. Millətlərarası münasibətlər zəminində heç bir mənfi hallar yox idi...Azərbaycan KP MK-nın birinci katibi işlədiyim bütün dövr ərzində Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarmaq barədə bircə məktub da, bircə ərizə də daxil olmamışdır.Yeri gəlmişkən Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişaf səviyyəsinə görə göstəriciləri Azərbaycan və Ermənistan üzrə orta respublika göstəricilərindən yüksəkdir."(682, 27 aprel 1985-ci il)

H.Əliyev Moskvada M.Qorbaçov və əlaltılarının ona qarşı təşkil etdikləri qərəzli kampaniyaya bir müddət qətiyyət göstərdikdən sonra vətənə qayıdaraq, Bakıya, oradan da Naxçıvana getdi. Bununla da H. Əliyevin hakimiyyətinin ikinci mərhələsi - 1993-2003-cü illər dövrü başladı. Bu mərhələdə o, Azərbaycan Respublikası parlamentinin deputatı, Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsindən Azərbaycan Respublikası Milli Məclisinin sədri, Respublikanın Prezidenti postuna qədər çətinliklərlə dolu, gərgin bir yol keçdi.

H.Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü haqqında sovet dövründə və sonrakı illərdə çox sayda kitab və məqalələr yazılmışdır. Bunlardan F.Abdullazadənin 2003-cü ildə rus dilində nəşr olunmuş "Heydər Əliyev:siyasi portiret", Y.Mahmudovun 2005-ci ildə nəşr olunmuş "Azərbaycan:qısa dövlətçilik tarixi", İ.V.Andriyanovun 2005-ci ildə Moskvada, rus dilində nəşr olunmuş "Heydər Əliyev", R.Mehdiyevin 2006-cı ildə nəşr olunmuş "Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: Məqalələr, çıxışlar, müsahibələr", A.Xələfovun 2006-cı ildə nəşr olunmuş "Heydər Əliyev və Azərbaycanda kitabxana işi", M.Qasımlının 2006-cı ildə nəşr olunmuş "Heydər Əliyev-istiqlala gedən yol: 1969-1987-ci illər", Z.Fərəcovun rerdaktorluğu ilə rus dilində, 2007-ci ildə nəşr olunmuş "Heydər Əliyevin kreml günləri", Ə.Qasımovun 2009-cu ildə nəşr olunmuş "Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası: XX əsrin 70-80-ci illəri", N.Məmmədovun 2012-ci ildə nəşr olunmuş "Heydər

Əliyev və Dağlıq Qarabağın tarixi”  və digər kitab və məqalələri  göstərmək olar. Bundan başqa İ.Hüseynova 2003-cü ildə “Müasir Azərbaycan dövlətinin formalaşmasında və möhkəmlənməsində Heydər Əliyevin rolu”, B.Nəbiyev 2007-ci ildə “Heydər Əliyev və Azərbaycan SSR-in iqtisadi inkişafı(1969-1982-ci illər)”, S.Pişnamazzadə 2008-ci ildə “Heydər Əliyev və Azərbaycan Respublikasında milli mənəvi dəyərlərin qorunması”, Ə.Qasımov 2011-ci ildə “Heydər Əliyev və Naxşıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər)”, M.Şabanov 2012-ci ildə “Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması sahəsində fəaliyyəti”, Ə. Cabbarlı  2013-cü ildə “Heydər Əliyev və Naxçıvanın tarixi məsələləri” mövzularında dissertasiyalar müdafiə etmişlər.

Azərbaycan Respublikası Prezidentinin  İşlər  İdarəsi  Prezident kitabxanasının hazırladığı və Heydər Əliyev elektron sənədlər toplusunda olan “Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin nitqlərindən, məruzələrindən, çıxışlarından, müsahibələrindən seçmələr (noyabr 1969 - oktyabr 1982)” kitabında müxtəlif məsələlərə aid 37 sənəd verilib ki, bunlar da  problemin tarixşünaslıq baxımından öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Bu kitabda H.Əliyevin “Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi” (1 noyabr 1969-cu il), “İdeoloji işi daha da gücləndirmək sahəsində Respublika partiya təşkilatlarının vəzifələri haqqında” Azərbaycan KP MK Plenumunda məruzəsi (29 oktyabr 1971-ci il), “Azərbaycan Yazıçılarının V qurultayında nitqi” (1 iyun 1972-ci il), “Nəriman Nərimanovun abidəsinin açlışında nitqi” (6 iyun 1972-ci il), “Nəriman Nərimanovun 100 illik yubley mərasimindəki məruzəsi”(29 iyun 1972-ci il), “Bərabər ittifaqda “Literaturnaya qazeta”ya müsahibəsi (16 avqust 1972-ci il), “Qoy ədalət zəfər çalsın “Literaturnaya qazeta” ya müsahibəsi (18 noyabr 1981-ci il) , “Şuşada Vaqifin məqbərəsinin açlışı mərasimində çıxışından ”(14 yanvar 1982-ci il), “Xankəndində (Stepanakertdə) Dağlıq Qarabağ Muxtar Vilayətinin Partiya fəallarının yığıncağındakı nitqindən”(14 yanvar 1982-ci il) və digər tarixi materiallar, həmçinin nəşr olunmuş digər kitablar (115; 431; 432; 433; 434; 435 və s.) 70-80-ci illər ictimai-siyasi proseslərin tarixşünaslığının tədqiqndə müstəsna əhəmiyyətə malikdir. H.Əliyev bu çıxışlarında Azərbaycan elm və ədəbiyyatının inkişafına, Azərbaycan ədəbi dilinin saflığının qorunub saxlanmasına aid dediyi fikirlər müasir dövrdə də aktual olaraq qalır. H.Əliyev qeyd edirdi ki, “dahi rus

şairi M.Y.Lermontov Azərbaycanın tarixi ilə yaxından maraqlanmış və Azərbaycan dilini yüksək qiymətləndirmişdi. O, dostu Rayevskiyə yazmışdı: "Azərbaycan dilini öyrənməyə başlamışam, fransız dili Avropada zəruri olduğu kimi, bu dil də burada və ümumiyyətlə, Asiyada zəruridir".(111, 7 oktyabr 1972-ci il)

Digər çıxışında bu fikri davam edirərək demişdi: "Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərilməlidir. Dilimizin jarqon, dialekt ifadələri ilə zibillənməsinə yol vermək olmaz. Yazıçı dilin, nitq mədəniyyətinin ədəbi normasının qanunvericisi olmalıdır. Təəssüf, elə yazıçılar var ki, bu tələblər səviyyəsində dura bilmirlər. Üstəlik ayrı-ayrı yazıçılar təkcə danışıqlarında yox, həm də əsərlərində dil xətalarına yol verirlər. Bununla əlaqədar olaraq mətbuat, radio, televiziya, teatr, kino işçilərinə, mühazirəçilərə və müəllimlərə xüsusi tələbkarlıqla yanaşmaq lazımdır. Mən ümid edirəm ki, bu problemlər sizin yaradıcılıq fəaliyyətinizdə özünün praktik həllini tapacaqdır."(204, 13 iyun 1981)

H.Əliyevin 70-80-ci illərdə Azərbaycan dili haqqında dediyi bu fikirlər hazırda da öz aktuallığını saxlayır.

Azərbaycan rəhbərliyinin milli dilin inkişafına göstərdiyi qayğının nəticəsində 1979-cu ildə Azərbaycan SSR-də yaşayan digər millət və xalqların 287 min nəfəri azərbaycan dilində sərbəst danışırdı.(656,s.131)

Azərbaycan xalqının ədəbi abidəsi olan "Kitabi Dədə Qorqud" uzun müddət sovet rejimi tərəfindən kəskin tənqid olunsa da, 1969-cu ildən sonra Azərbaycanın yeni rəhbərliyinin sayəsində öz layiqli qiytmətini ala bilmişdi. H.Əliyev bu münasibətlə demişdir: "Azərbaycan ədəbiyyatı bu inqilabi mərhələyə, öz inkişafının bu ən mühüm dövrünə zəngin bədii ənənələrlə daxil olmuşdur. Bu ədəbiyyatın çoxəsrlik tarixi "Kitabi Dədə Qorqud" kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xaqaninin və Nəsiminin, Füzulinin və Vaqifin, söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir. Klassik ədəbiyyatımız qəsbkarların qanlı işğalçılığı vaxtında durğunluq dövrü də keçirmişdir." (204, 27 may 1976)

R.Mehdiyevin "Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: Məqalələr, çıxışlar, müsahibələr" kitabının birinci cildində (261) 1971-2006-cı illərdə dövri mətbuatda, bəzi elmi-nəzəri jurnallarda dərc olunmuş məqalələri, habelə müxtəlif tədbirlərdəki çıxışları, mətbuat nümayəndələrinə müsahibələri və digər materiallar

toplanmışdır. Həmin materiallarda H.Əliyevin Azərbaycana rəhbərliyinin 34 illik tarixinin elmi-nəzəri ümumiləşdirmələrlə təhlili xüsusi yer tutur. Həmin materiallarda H. Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünün elmi-nəzəri təhlili verilmişdir ki, bu da 1969-1985-ci illər dövrünün tədqiqi üçün mühüm əhəmiyyətə malikdir.

Z.Fərəcovun rerdaktorluğu ilə rus dilində, 2007-ci ildə nəşr olunmuş "Heydər Əliyevin Kreml günləri" kitabında H.Əliyevin 1969-1991-ci illərdə etdiyi müxtəlif çıxış və məruzələrin mətnləri toplanıb. Kitabın əvvəlində qeyd olunur ki, Azərbaycanın gələcəyi üçün Moskva, Leninqrad, Kiyev və Minskin ali məktəblərində milli kadrların hazırlanması H.Əliyevin xidməti sayəsində mümkün olmuşdu. 1969-1982-ci illərdə həmin ali məktəblərdə on mindən artıq azərbaycanlı kvotadan kənar təhsil almışdır. Kitabda H.Əliyevin 5 dekabr 1979-cu ildə Moskvada təhsil alan azərbaycanlı tələbələr və aspirantlarla görüşdə etdiyi məruzə də verilib. Məruzədə qeyd olunur ki, hazırda respublikanın ali məktəblərində 100 mindən artıq gənc təhsil alır. Hər il Moskvaya 270-280 gənc təhsil almağa göndərilir. Hazırda ölkənin 43 şəhərində Azərbaycandan göndərilmiş 3300 tələbə təhsil alır.

Fikrimizcə, Azərbaycan tarixinin ən gərgin dövrlərin birində ölkəyə rəhbərlik etmiş H.Əliyevin ictmai-siyasi fəaliyyətinin tədqiqi əvvəlki illərdə olduğu kimi, müasir dövrdə də aktual olaraq qalır.

Azərbaycan tarixinin 70-80-ci illərin birinci yarısına aid sovet tarixşünaslığının çatışmayan cəhətlərindən biri o dövürdə baş vermiş və sovet rejiminin nöqsanlarını özündə əks etdirən hadisələrin tədqiq edilməməsidir. Bu mövzular haqqında 1985-ci ilin aprelindən sonra yazılmış kitab və məqalələrdə müəyyən məlumatlar verilsə də həmin hadisələrin elmi şəkildə, obyektiv tədqiqi aktual olaraq qalır.

V.Hüseynovun Moskvada iki cildlik, rus dilində nəşr olunmuş "Bir ömürdən daha artıq" adlı kitabında (531) 80-ci illərin əvvələrinə aid sovet tarixşünaslığında əksini tapmayan faktlar geniş işiqlandırılıb. Həmin illərdə Azərbaycan KP Bakı şəhər partiya komitəsinin birinci katibi, sonralar isə Azərbaycan SSR DTK-nın sədri kimi yüksək vəzifələrdə çalışmış müəllif kitabda XX əsrin sonlarında Azərbaycanda baş vermiş hadisələrə də öz münasibətini bildirib.

Kitabda Azərbaycan KP MK-nın 11 oktyabr 1983-cü il tarixli Büro iclasında

respublika partiya rəhbərliyində mövcud olmuş fikir ayrılıqları haqqında da geniş məlumat verilib. Azərbaycan KP Bakı şəhər partiya komitəsinin işinin müzakirə edildiyi həmin iclasda büro üzvləri K.M.Bağırov, V.N.Konovalov, H.Ə.Həsənov, V.Ə.Hüseynov, F.E.Musayev, S.B.Tatlıyev, H.N.Seyidov, Z.M.Yusifzadə, R.Ə.Mehdiyev, C.M. Müslimzadə, L.X.Rəsulova, Q.Ş.Əfəndiyev iştirak ediblər.

Azərbaycan KP MK-nın katibi, akademik Ə.Daşdəmirov "Demokratiyanın, aşkarlığın nöqsanları barədə bəzi mülahizələr" adlı məqaləsində yazırdı: "…tarix elminə, onun nüfuzuna da ciddi zərər vurulmuşdu... Bir nəslin ömrü ərzində tarixin bir neçə dəfə özbaşına dəyişdirilməsi cəzasız qala bilməz. Tarix bunun qisasını sosial hafizənin iflasa uğraması ilə, siyasi və ümumi mədəniyyətin aşağı düşməsi ilə alır." (111,24 iyun 1988)

70-80-ci illərin birinci yarısında sovet tarixşünaslığında öz əksini tapmayan hadisələr haqqında məlumatları 80-ci illərin ikinci yarısından etibarən nəşr olunmuş kitab və məqalələrdən almaq olar. (21,19,26 mart 1993;106,s.9;154,3-16 iyun 1992;204,6,30 oktyabr,21 dekabr 1988,7 fevral 1989;294,21 aprel 1998; 313,15 avqust 1996 və s . )

Azərbaycan ali məktəblərində 70-ci illərdə sovet rejiminə qarşı narazılıqları özündə əks etdirən hadisələr sovet tarixşünaslığında öz əksini tapmasa da "Aydınlıq" qəzetinin 19, 26 mart 1993-cü il sayında dərc olunnan "Universitetdə 70-ci illər tələbə hərəkatı haqqında", "Müxalifət" qəzetinin 15 avqust 1996-ci il sayında dərc olunan "70-ci illər tələbə hərəkatı", M.Zülfüqarlının 2003-cü ildə nəşr olunmuş "İstiqlal tarixini yaradanlar" kitabı və digər kitab və məqalələrdə bu məsələlər haqqında məlumat verilib.

Həmin mənbələrdə qeyd olunur ki, 70-ci illərdə Azərbaycan Dövlət Universitetində (Hazırki Bakı Dövlət Universiteti) sovet rejiminə qarşı tələbə hərəkatının özünü büruzə verirdi. Bu dövrdə başqa fakültələrdən fərqli olaraq tarix fakültəsində tələbələrin fəallığı daha yüksək idi. Fikrimizcə bunu əsas səbəbi həmin fakultədə daha çox ictimai və siyasi fənlərin tədris olunmasında axtarmaq lazımdır. Tarix fakultəsində bu dövrdə mövcud olan şərait milli duyğuların və vətənpərvərlik hissinin inkişafına müəyyən şərait yaradırdı. 1972-ci ilin payızında fakultə tələbə həmkarlar təşkilatının hesabat seçki iclasının demokratik ruhda keçməsi, tələbələrin öz istədikləri nümayəndələri rəhbər orqanlara seçmələri və bir sıra başqa tədbirlər tələbələrin öz güclərinə inamını artırırdı. Tələbələr müxtəlif

tədbirlərdə Çar Rusiyasının imperiya siyasətini yeni formada davam etdirən sovet rejiminın siyasətini tənqid edir, SSRI-də totalitar rejimin bərqərar olmasını və digər məsələlər haqqında söhbətlər aparır, ayrı-ayrı dərslərdə isə müəllimlərə irad tutaraq "SSRI tarixi" adı ilə Rusiya tarixinin tədris olunmasına etirazlarını bildirirdilər. Azərbaycan tarixinin saxtalaşdırılmasını, dərs proqramında cənubi Azərbaycan mövzusuna geniş yer verilməməsini, Şah Ismayıl, Cavad xan, Səttarxan, Xiyabani kimi şəxsiyyətlər, Gülüstan və Türkmənçay müqavilələri haqqında obyektiv məlumatların gizlədilməsini tənqid edirdilər. Sovet tarixşünaslığında "Azərbaycanın Rusiyaya birləşməsi" kimi işlədilən fikirləri tənqid edərək işğala siyasi qiymət verilməsini, o zaman üçün qadağan olunmuş digər mövzuların obyektiv tədqiq olunmasını tələb edir, Çarizmin Qafqazda yeritdiyi işğalçı siyasəti sovet rejiminin yaradıcılarının öz sözləri ilə tənqid edirdilər. Onların istinad etdiyi mənbələrdən biri 1828-ci ildə yazılan "Qafqazın idarə olunması haqqında xüsusi mülahizələr" adlı sənəd idi. Həmin sənəddə qeyd olunurdu ki, "ordakı əhalini rus dilində danışmağa, yazmağa və düşünməyə məcbur etmək lazımdır."

1974-cü il oktyabrın 24-ü saat 18-00-da BDU-nun tarix fakültəsinin yerləşdiyi (Indiki Iqtisad Universitetinin binası) binanın 3-cü mərtəbəsində yarıqaranlıq bir auditoriyada keçirilmiş iclasda gizli təşkilatın əsası qoyuldu. Təşkilatın əsas fəaliyyət istiqamətləri Azərbaycanın müstəqilliyi, cənubi Azərbaycanla şimali Azərbaycanın birləşməsi ideyalarını yaymaq, ölkəyə rusların axınının qarşısını almaq, Azərbaycan xalqının ruslaşdırılmasına qarşı etiraz etmək, Respublikanın sərvətlərinin Moskva tərəfindən istismarına qarşı çıxmaq və s. məsələlərdən ibarət idi.

Təşkilatın mübarizə vasitələrinə üçlük qruplar yaratmaq, gizli dərnəklərin sayını çoxaltmaq, digər dərnəklərlə məxvi əlaqələrə girmək, tələbələr arasında təbliğatı gücləndirmək, qəzet buraxmaq, tələbələrin gizli çıxışlarını təşkil etmək və s. məsələlər daxil idi. Təşkilatın yığıncaqlarında "Asiya və Afrika ölkələrinin tarixi" fənnindən dərs deyən Əbülfəz Əliyevin təqib olunmasına münasibət bildirilirdi. Bütün yığıncaqlarda cənubi Azərbaycan məsələsinə xüsusi yer verilir, B.Vahabzadənin "Gülüstan" poeması tələbələr tərəfindən mübarizəyə çağırış simvolu kimi həvəslə oxunurdu.

Bu dövrdə digər fakültələrdəki milli ruha malik tələbələrlə əlaqələr də yaradılmışdı. Xüsusilə "Novruz" bayramı günü - 1975-ci ilin mart ayının 21- də

Fəxri xiyabanda Şıxəli Qurbanovun məzarı üstündə mitinq keçirmiş jurnalistika fakültəsinin tələbləri ilə əlaqələr daha möhkəm idi.

Proseslərdə mühüm rol oynamış divar qəzeti üzərində iş 1974-cü il dekabrın 21-də başa çatdırıldı. "Odlar yurdu" adlanan qəzetin başlığı alov dilimləri ilə haşiyələnmiş, sağ tərəfdə Babək, sol tərəfdə Səttarxanın üsyankar obrazları əks olunmuşdu. Qəzetdə "Cənubi Azərbaycan Milli Hökuməti" (1945-1946), "Odlar yurduna müraciət" adlı məqalələr, Vyetnamın, Almaniyanın, Çinin və başqa parçalanmış dövlətlərin, o cümlədən Azərbaycanın birləşməsi uğrunda mübarizə ideyasına həsr olunmuş analitik yazı verilmişdi. Qəzetdə həmçinin M.Şəhriyarın "Azərbaycan" şeri də yazılmışdı.

1974-cü il dekabrın 21-i, saat 13-30-da qəzetin dekanlığın yaxınlığındakı divardan asılması ilə fakültədə vəziyyət daha da gərginləşdi. Əvvəl fakültənin dekanı, professor M.Qazıyev tələbələrə bu cür məqalələrlə qəzet çıxarmağın təhlükəli olduğunu başa salmağa çalışaraq, şənbə günü olduğundan bazar ertəsi bir yerə yığışıb, onun özünü də redaksiya heyətinə daxil etməklə "Odlar Yurdu"nun əvəzinə yeni bir qəzet çıxarmağı məsləhət gördü. Lakin növbəti tənəfüsə çıxarkən tələbələr fakültənin metronun "Bakı Soveti" stansiyası (Hazırda "İçəri Şəhər") yaxınlığındakı binasına universitet rektorunun, DTK-nın universitetə təhkim olunmuş kuratorunun gəldiyinin şahidi oldular. Onlar dekandan fərqli olaraq redaksiya üzvlərinə qarşı hücuma keçərək, tələbələri universitetdən xaric, hətta həbs etdirəcəkləri ilə hədələməyə başladılar. Lakin 19 yaşlı gənclər özlərini ləyaqətlə apararaq bütün məqalələrin "Azərnəşrin" çap etdiyi kitablar əsasında yazdıqlarını faktlarla sübut etdilər. Buna baxmayaraq təzyiqlər daha da gücləndi və 3 gündən sonra redaksiya heyətinin universitetdən xaric olunması haqqında əmr hazırlandı. Dekabrın 24-də rektorun qəbulunda redaksiya üzvlərindən bu işə onları "Asiya və Afrika ölkələrinin tarixi" kafedrasının müəllimi Əbülfəz Əliyevin təhrik etməsi barədə izahat yazmaları tələb olunsa da, gənclər bundan qəti şəkildə imtina etdilər. Nəticədə tələbələrə töhmət verməklə kifayətlənsələr də, bu hadisədən sui-istifadə edərək 1975-ci ilin yanvarında Əbülfəz Əliyevi həbs etdilər.

Məhkəmə prosesinin getdiyi dövrü tələbə hərəkatının ən yüksək dövrü adlandırmaq olar. Məhkəmənin son günü Ali Məhkəmənin qarşısında çoxlu saylı milis və əsgərlərin tələbələri içəri buraxmamaları ciddi etiraza səbəb oldu.

Tələbələrlə milis arasında güclü qarşıdurma onların Ali Məhkəmənin qarşısındakı bağa tərəf sıxışdırılması ilə nəticələndi. Milislərin təxribat xarakterli təhqiramiz hərəkətlərinə tələbələrin ciddi etiraz etmələrinə baxmayaraq məhkəmə prosesi başa çatana qədər bu qarşıdurma davam etdi. Milislər tələbələrin qarşısını kəsməkdə aciz qaldıqlarına görə, onlara kömək üçün əsgərlər göndərildi. Qarşıdurmada oğlanlarla yanaşı, tələbə qızlar da böyük cəsarət nümayiş etdirdilər. Bütün təzyiqlərə baxmayaraq tələbələr mübarizənin taktikasını dəyişərək məhkəmə prosesində özünü ləyaqətsiz apararaq yalançı şahidlik etmiş və Ə.Əliyevin həbsinə kömək etmiş professor, müəllim və tələbələrə fakültədə kollektivin ümumi nifrətinin yaranmasına nail olmuşlar.

Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevin səyi nəticəsində bu prosesin Moskva tərəfindən şişirdilməsi və daha çox şəxsin həbs olunmasının qarşısı alındı. Ə.Əliyev isə Resbublika daxilində qısa müddət həbsdə qalandan sonra azad olundu və Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda işlə təmin edildi.

70-80-ci illərin birinci yarısı SSRİ miqyasında bütün sahələrdə yenidən partiya-dövlət orqanlarının nəzarətinin güclənməsi dövrü kimi xarakterizə olunur ki, bu da tarix elmində yeni metodologiya axtarışı ilə xarakterizə olunan “yeni istiqamətin” ləğvinə gətirib çıxardı. Bu dövrdə sovet dövrünün kohnə metodoloji istiqamətləri bərpa olundu ki, bu da tarixi tədqiqatlarda özünü büruzə verdi. Lakin bu illərdə sovet dövrü tarixinə aid tədqiqatlarda güclü partiya-dövlət nəzarəti olduğu halda, mütləq monarxiya, feodalizm, Rusiyanın inqilaba qədərki aqrar quruluşu və s. kimi mövzuların sərbəst tədqiqnə nisbətən imkan verilirdi. Bu dövrün elmi tədqiqatların vəziyyəti bütün SSRİ miqyasında eyni olsa da, Azərbaycan SSR-də bir qədər fərqli idi. O dövrdə Azərbaycan rəhbərliyinin yeritdiyi siyasət, onların çıxış və məruzələrindəki irəli sürülən müddəalar, digər respublikalardan fərqli olaraq iqtisadiyyatın əvvəlki illərə nisbətən daha da güclənməsinə, milli şüurun, azərbaycan dilinin daha da inkişafına, milli hərbi kadrların hazırlanmasına imkan vermişdir. Bütün bunlar da o dövrün tarixşünaslığına müsbət təsir göstərmişdir. Azərbaycanda 1980-ci ildə Elmlər Akademiyasının rəhbərliyi ilə 123 elmi-tədqiqat institutu, o cümlədən Tarix institutu fəaliyyət göstərir, 17 ali məktəbdə 105 min gənc, o cümlədən 67 ölkədən gəlmiş gənc təhsil alırdı.( 431, s.17)

Azərbaycan tarixinin 70-80-ci illərin birinci yarısına aid tarixşünaslığın

tədqiqi göstərir ki, bu dövrün yenidən araşdırılmasına ciddi ehtiyac var. Sonrakı illərdə nəşr olunmuş kitab və məqalələrdə bu dövrün tədqiqininin aktuallığı elmi şəkildə əsaslandırılıb.

## IV FƏSİL. 1985-1991-ci illərin tarixşünaslığı
### 4.1. 1985-1987-ci illər tarixi tədqiqatlarda

1985-ci ilin aprel ayından irəli sürülmüş yenidənqurma konsepsiyası başqa sahələrdə oluduğu kimi, tarixi hadisələrə də nisbətən yeni münasibətlərin formalaşmasına şərait yaratdı. Tarix elminə partiya, dövlət nəzarəti zəifləməyə və aradan qalxmağa başladı. Çoxlu sayda alternativ qərb yönümlü nəzəriyyələr meydana çıxdı. Tarix və tarixşünaslığa aid çoxlu əsərlər, mənbələr nəşr olundu. Yeni tədqiqat mövzuları meydana çıxdı və dünya tarix elminin nümayəndələri ilə yeni əməkdaşlıq əlaqələri yaradıldı.

Yenidənqurma konsensiyanın mahiyyəti ilə yaxından tanış olmaq üçün siyasi xadimlərin nəşr olunmuş bir sıra kitab və məqalələrinə diqqət yetirmək lazımdır. (235; 236; 237; 238 və s.)

SSRİ-nin müxtəlif ərazilərində keçirilmiş bir sıra dəyirmi masalar, elmi diskussiyalar sovet dövrü tarixinin ayrı-ayrı dövrlərinə aid ağ ləkələrin silinməsinə, tarix elminin inkişafına şərait yaratdı. Belə tədbirlərdən “Tarix elmi yenidənqurma şəraitində” başlıqlı dəyirmi masanı, “Xalqın tarixi şüurunun yeniləşməsi” mövzusunda konfransı (Moskva, 27-28 aprel 1988) və s. tədbirləri göstərmək olar. (498,№ 3,1988; 682, 28 aprel 1988)

1985-ci ilin aprelindən irəli sürülmüş yenidənqurma siyasəti dövründə dini binalar yenidən dindarlara qaytarılmışdı. M.S.Qorbaçovun 1989-cu ildə Roma Papası ilə görüşündən sonra SSRİ-də katolik dinin binalarının da bərpasına başlanılmışdı. XX əsrin 80-ci illərin axırından etibarən SSRİ-də islam dininin də sürətli inkişafı üçün şərait yaranmışdır. Yeni mədrəsələr, məscidlər açılmış, Tatarstan və Başqırdstanda Volqa Bulqarlarının islam dinini qəbul etməsinin 1100 illiyi və Müsəlman dini məclisinin yaranmasının 200 illiyi təntənəli şəkildə qeyd olunmuşdu.

Bu dövrdə sovet dövrünə aid əvvəlki illərdə yazılan əsərlərdən fərqli olan bir sıra kitab və məqalələr nəşr olunub. (499,№ 5,1988; 674; 727; 728 və s.)

Lakin yenidənqurma konsepsiyasının bir sıra ziddiyyətləri dıgər məsələrlə yanaşı obyektiv tarixi tədqiqatların meydana çıxmasına da əngəl törədirdi. Bu dövrdə cəmiyyətin demokratikləşdirilməsi, fikir plüralizminin inkişafının əsas şərtlərindən biri olan çoxpartiyalı sisteminin bərqərar olması çox güclü maneələrlə

üzləşirdi. Kommunist partnameklatura ilə yanaşı bəzi tarixçi alimlər də bu prosesə mane olur və bunu öz əsərlərində əsaslandırırdılar.

Bu dövrdə yazılmış əsərlərdə 70-80-ci illərin əvvəllərində yerli mənafeyi ümumdövlət mənafeyindən üstün tutmaq meyli, ümumittifaq fondlarından istifadə olunmasında başqalarını qabaqlamağa çalışmaq, plan və öhdəliklərin yerinə yetirilməsinə dair məlumatların şişirdilməsi və s. tənqid olunub.

80-ci illərin ikinci yarısında yazılmış kitab və məqalələrdə kommunist rejiminin səhvləri tənqid olunsa da, müəlliflər problemlərin həllini kommunist partiyasının yeniləşməsində, SSRİ-nin demokratikləşməsində görürdülər. Lakin onlar bu proseslərin başlanması ilə ziddiyyətlərlər məngənəsində olan rejimin, o cümlədən kommunist partiyasının ləğv olunacağı və SSRİ-nin dağılacağı fikrini qəbul etmirdilər. Belə yazılara misal olaraq S.Andreyevin “Hakimiyyətin quruluşu və cəmiyyətin vəzifələri” adlı məqaləsini misal göstərmək olar.(24,№7,1989)

Məqalə “İqtisadiyyat və istehsalat sahəsində böhranın dərinləşməsi”, “Nə üçün yenidənqurma iflasa uğraya bilər? (Siyasi baxış). Marksizm bürokratizmi haqqında”, “İctimai fəaliyyət üzərində partiya nəzarəti və partiya aparatının fəaliyyəti üzərində ictimai nəzarət”, “Cəmiyyətin siyasi quruluşu sistemində ictimai təşkilatların rolu”, “Partiyanın XIX konfransının yekunları və ictimai inkişafın yaxın perspektivləri (Nəticə)” fəsillərindən ibarətdir.

“Cəmiyyətin siyasi quruluşu sistemində ictimai təşkilatların rolu” fəslində müəllif sovet cəmiyyətinin ictimai-siyasi vəziyyətini təhlil edərək fəhlə, kəndli və ziyalılara böhrandan çıxmağın yolları haqqında yazmışdır: “Səksən iki milyon adamı birləşdirən fəhlə sinfi elə bir vəziyyətə salınıb ki, “gözünü çəkən kimi” yenidən istehsal prosesini necə qurmaq hüququnu onların əlindən alırlar. Bəli, məhz bu qüvvə siyasi məqsədini müəyyənləşdirəndən sonra vəziyyəti kökündən dəyişə bilər...Qoy zəhmətkeş kəndlilərin Sovetlərdə öz siyasi nümayəndəliyi, öz liderləri olsun və onlar hər hansı təsərrüfatın nəyi əkmək və nəyi becərməyin vacib və faydalı olmasını özləri müəyyən etsinlər. Qoy yaradıcı ziyalılar - o adamlar ki, ali qərarların hazırlanmasında onların işıqlı fikirlərindən kifayət qədər istifadə olunmur - imkan verilsin ki, siyasi təşkilatda birləşib, öz düşündüklərini qəti şəkildə hökümətə çatdırsınlar.”

Məqalənin sonunda müəllif belə yazır: “Bizim hamımızı böyük sınaq gözləyir... Ölkəmizdəki demokratiya yaxın gələcəkdə tarixi kamillik sınağından

keçməlidir. Biz bu sınağa dözə biləcəyikmi?" (24,№7,1989) Lakin müəllif özü bu suala cavab verməkdən çəkinmişdi.

Q.Bernar "Za rubejom" qəzetinin 1989-cu il 18-ci sayında "Dəyişikliyin dörd ili: Fransız jurnalistləri SSRİ-də yenidənqurmanın ilk illərinin bəzi yekunları haqqında" məqaləsində yenidənqurma prosesinin gedişini şərh edərək inkişaf etmiş kapitalist ölkələrində bu prosesin müsbət qarşılandığını faktlarla qeyd edib.

80-ci illərin ikinci yarısında keçirilmiş Ümumittifaq tarixşünaslıq konfranslarının materialları (498,№3,1986; 499,№5,1986; 585,№1,1986, №1,1988) bu dövrün tarixşünaslıq baxımından öyrənilməsində mühüm rol oynayır.

Q.L.Smirnov "Yenidənqurma başlandı…Ümumbəşəri maraq və sinfi maraqlar" məqaləsində yazmışdır: "Heç kim bu faktı inkar edə bilməz ki, iki sistemin yarışı, kapitalizm ilə sosializm arasında mübarizə aradan qalxmır. Lakin bütün siyasi qüvvələr, əgər əsl reallıq zəminində fəaliyyət göstərmək istəyirlərsə sinfi maraqların yalnız prioritet kimi ümumbəşəri maraqları nəzərə almaqla təmin edilməsini qəbul etməlidirlər"(728, s. 401)

Buradan görünür ki, yenidənqurma konsepsiyası marksizmin özəyini təşkil edən sinfi mübarizə haqqında ideyalardan imtina etməmiş, sinfi mübarizəni ümumbəşəri maraqlara uyğunlaşdırmağı nəzərdə tutmuşdur. Fikrimizcə sinfi mübarizəyə bu cür yanaşma marksizmdən geri çəkilməkdən başqa bir şey deyildir.

Azərbaycan tarixinin 1985-1988-ci illər dövrü elmi ədəbiyyatda müxtəlif başlıqlar altında verilib. Bu kitablar içərisində T.Qaffarovun 1999-cu ildə nəşr olunmuş "Azərbaycan tarixi" (1920-1991) kitabı diqqəti cəlb edir. Kitabın IV fəsli "Sovet imperiyasının süqutu. Azərbaycanda xalq hərəkatı. Dövlət müstəqilliyinin bərpası" adlanır. Fəslin I paraqrafı İflasdan qurtarmaq cəhdləri; İflasın səbəbləri; Yenidənqurma; "Parçala-höküm et" siyasətinin fəallaşması; Dağlıq Qarabağda milli münaqişənin qızışdırılması, II paraqrafı Xalq hərəkatının başlaması. Etiraz hərəkatından demokratiya uğrunda hərəkata doğru; Etiraz hərəkatı. Meydan; Demokratiya uğrunda mübarizə; III paraqrafı Demokratik hərəkatı boğmaq cəhdləri; Demokratik qüvvələrin parçalanması və hərəkatın radikallaşması; 20 yanvar, IV paraqrafı Milli azadlıq hərəkatı. Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpa olunması; İqtidar-AXC sövdələşmələri; Milli azadlıq hərəkatının genişlənməsi; Sovet imperiyasının süqutu. Azərbaycan Respublikasının Azadlıq bəyannaməsi başlıqları altında verilib.

T.Qaffarovun dövrə verdiyi bu təsnifatın digər kitablardakı analoji təsnifatlardan köklü surətdə fərqlənməsinə baxmayaraq onun təkmilləşdirilməsinə ehtiyac var.

Yenidənqurma konsepsiyası, mərkəzdən başlayan demokratikləşmə prosesi ayrı-ayrı respublikalara, o cümlədən Azərbaycana da təsir göstərmiş, Azərbaycan tarixinin başqa dövrləri kimi, sovet dövrünün də nisbətən fərqli tədqiqinə şərait yaratmışdı.

Azərbaycan SSR EA Tarix, Fəlsəfə və Hüquq institutları ali məktəblərin ictimai kafedraları ilə birlikdə 1988-ci ilin dekabr ayından "Yenidənqurma və Azərbaycan sovet dövrü tarixinin bəzi aktual problemləri" mövzusunda silsilə elmi-praktik konfraslar keçirməyə başlamışdı. 9 dekabr 1988-ci il tarixdə keçirilmiş ilk konfransda professor Q.Mədətov "XIX Ümumittifaq partiya konfransı və Azərbaycan sovet dövrü tarix elminin aktual vəzifələri", professor M.Ağamirov "Sovet cəmiyyəti tarixinin elmi dövrləşdirilməsi məsələsinə dair", professor H.Əzimov "Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizə tarixində "ağ ləkələrə" dair", Z.İsayev "Azərbaycanda kənd təsərrüfatının kollektivləşməsi tarixinə yeni münasibət", professor T.Musayeva "Azərbaycan SSR-də mədəni quruculuq tarixinin tədqiqi sahəsində vəzifələr" mövzularında çıxış etmişlər. Konfransın "Tarixin açılmamış səhifələri. Aşkarlıq və keçmişimiz" ümumi başlıq altında dərc olunmuş materiallarında deyilir: "Lenindən sonrakı uzun illər ərzində tariximiz demək olar ilk dəfədir ki, hadisələrə və faktlara öz həqiqi, daha elmi, obyektiv və prinsipial qiymətini vermək imkanı qazandı... İndi yaranan hər yeni əsərin qiyməti ancaq tarixçinin istedadından, onun ürəyinin yanğısından, yüksək elmi prinsipiallığından aslıdır." ( 204,10 dekabr 1988)

Yenidənqurma dövründə Sovet hakimiyyətinin banisi olan V.İ.Leninin səhvsiz və toxunulmaz elan olunması sübut edir ki, tarixçilərə tarix yazılması üçün müəyyən hədlər və çərçivələr daxilində icazə verilmişdir.

SSRİ-nin dağılmasında 80-ci illərin ikinci yarısından bəzi müttəfiq respublikalarda yüksələn milli-azadlıq hərəkatları da mühüm rol oynamışdır.

M.Ə.Rəsulzadə çox böyük uzaqgörənliklə Türkiyədə çıxan "İstiqlal" qəzetinin 20 iyun 1932-ci il tarixli sayında yazmışdı: "Heç şübhə yoxdur ki, Sovet İttifaqı özünün ən zəif nöqtələrindən dağılmağa başlayacaq. Qafqaz isə belə zəif nöqtələrdən biridir." Sonrakı hadisələr M.Ə. Rəsulzadənin dediyi bu sözlərin

həqiqiliyini sübut etdi.

Əvvəlki illərdə olduğu kimi 80-ci illərin ikinci yarsında, əksər sovet tarixçilərinin öz əsərlərində burjua alimlərinin əsərlərindəki obyektiv faktları inkar etməsi xəttini davam etdirməsi həmin dövrdə yeridilən siyasətin ziddiyyətli olduğunu sübut edir.

Azərbaycan alimləri içərisində burjua alimlərinin əsərlərini daha çox tənqid edən və tədqiqatlarını əsasən buna həsr edən A.A.Zərgərov sonrakı dövrdə də bu mövqeyi müdafiə edib. Onun bu dövrdə yazdığı məqalələrdə əvvəlki illərdə olduğu kimi burjua alimlərinin fikirləri kəskin tənqid olunub, bu fikirlər tarixin saxtalaşdırılması kimi qiymətləndirilib. (565,№ 2,1986,s.6-12)

Y.Mahmudovun "Tarixçi kadrlar: vəziyyət və perspektivlər"(204, 14 fevral 1989), İ.Ağayevin "Yenidənqurma və tarix" və s. məqalələr (111, 16 sentyabr 1988) dövrün tarixşünaslıq baxımındandan tədqiqinə həsr edilib.

Milli məsələlədə əvvəlki illərdə olduğu kimi 80-ci illərin ikinci yarısında da çox böyük problemlər olmasına baxmayaraq bu dövrdə nəşr olunan bir çox kitab və məqalələrdə bunlara münasibət bildirilməyərək əvvəlki səhvlər təkrar olunurdu. S.V.Kuleşovun, Y.P.Sviredenkonun və digər müəlliflərin əsərləri buna misal ola bilər. (608, 612)

Kollektiv müəlliflər tərəfindən hazırlanmış və Leninqrad Universiteti tərəfindən rus dilində nəşr olunmuş "Sov.İKP-proletar beynəlmiləlçiliyi partiyasıdır: Tarixşünaslıq və mənbəşünaslıq məsələləri" kitabı (608) sovet tarixçiləri tərəfindən problemin tarixşünaslığına həsr olunmuş fundamental əsərlərdəndir. Bu kitab faktların zənginliyinə və formaca sovet tarixçilərinin əvvəlki əsərlərindən fərqlənsə də, məzmunca eyniyyət təşkil edir.

İ.P.Sameryannın 1987-ci ildə Moskvada, rus dilində nəşr edilmiş "SSRİ-də milli münasibətlər" kitabı giriş, 4 fəsil və nəticədən ibarətdir. Kitabın "Sovet socialist cəmiyyətində milli münasibətlərin inkişafı" adlanan ikinci fəslində müəllif Azərbaycan üzrə əhalinin tərkibində fəhlə sinfinin 1959-cu ildə 36,9%, 1970-ci ildə 52,5%, 1979-cu ildə 59,6% olduğu halda Ermənistanda müvafiq olaraq 41,4%, 58,5%, 64,2% olduğunu bildirir. Bundan başqa SSRİ üzrə 1970-ci ilə nisbətən 1985-ci ildə milli gəlirin 94%, Azərbaycanda 158%, Ermənistanda isə 179% artdığını qeyd edir. Həmçinin kitabın "Sovet xalqının vahid çoxmilli mədəniyyəti və beynəlmiləl və vətənpərvərlik tərbiyəsinin bəzi məsələləri adlı"

beşinci fəslində əhalinin hər min nəfərinə düşən ali və orta təhsilli insanlarının sayının Azəbaycanda 1970-ci ildə 471, 1979-cu ildə 652, 1983-cü ildə 710 nəfər olduğu halda Ermənistanda müvafiq olaraq 516, 713, 746 nəfər göstərilmişdir.

Fikrimizcə müəllifin heç bir təhlil və izah vermədən bu cür quru rəqəmləri sadalaması, sovet hakimiyyəti illərində dotasiya ilə yaşayan Ermənistandan bütün sahələr üzrə üstün olan Azərbaycan haqqında yanlış təsəvvürlər yaradılmasına xidmət etmişdir. Bundan başqa kitabın "Sovet xalqı yeni tarixi birlikdir" adlı dördüncü fəslində müəllifin R.Payps, X.Seton-Uotson, V.Kolarz, B.Meyssner, S.Vardis, B.Levinskiy və başqa antikommunist ideoloqların sovet millətlərinin yaxınlaşması və onların yeni tarixi birlik olan sovet xalqının tərkibində birləşməsini qeyri-rus millətlərin assimlyasiya edilməsi, onların zorla kommunistlər tərəfindən yaradılmış "vahid sovet-rus millətinin" tərkibinə daxil edilməsi haqqında fikirlərini kəskin tənqid etməsi də reallığı əks etdirmir.

Azərbaycan alimlərinin respublikadakı ictimai-siyasi proseslərlə bağlı 1985-1988-ci illərdə yazdıqları kitab və məqalələrdə də bu hal özünü büruzə verirdi. Bu dövrdə cəmiyyətdə baş verən proseslərin təsiri ilə digər mövzularla yanaşı alimlər millətlərarası münasibətlərə daha çox müraciət etmişlər. (147; 250; 251; 252; 416; 676; 704; 738 və s.)

Bu cür əsərlərin yazılmasında Azərbaycan KP MK-nın "Azərbaycan SSR əmək kollektivlərinin 1982-1990-cı illərdə RSFSR-in qeyri-qaratorpaq zonasında aqrar-sənaye kompleksi və onunla əlaqədar, xalq təsərrüfatı sahələri obyektlərinin tikintisinə hamilik yardımını genişləndirmək təşəbbüsü haqqında "(4 aprel 1986) qərarının və s. sənədlərin istiqamətverici təsiri olmuşdur. (204, 4 aprel 1986)

Ə.M.Tağıyevin 1986-ci ildə rus dilində nəşr olunmuş "Azərbaycan milli mədəniyyəti və onun antikommunist saxtalaşdırıcılarının tənqidi" və 1988-ci ildə çapdan çıxmış "Lenin milli siyasəti və antikommunizm" kitabları əvvəlki illərdə olduğu kimi burjua alimlərinin Azərbaycan haqqında yazdıqlarını səmərəsiz inkar etmək mövqeyindən yazılıb.

Müəllif "Lenin milli siyasəti və antikommunizm" kitabında burjua alimlərindən V.Monteylin "Sovet milli siyasəti marksizm pərdəsi altında yeridilən müstəmləkəçilik siyasətindən başqa bir şey deyildir", professor A.Adeyin "Azərbaycanın əhəmiyyətli yeraltı sərvətlərinin sahibi onun əhalisi deyil, müstəmləkəçilərdir", H.Baykaranın "Azərbaycan və Tükmənstan

müstəmləkələrində... xalq rus fabrikləri üçün xammal hazırlamağa məcbur edilmişdir", A.Tavetoğlunun "Azərbaycan türkünün ehtiyacından əvvəl Moskva fatehlərinin ehtiyacları ödənilir" və s. bu kimi fikirləri tənqid edib. Müəllif burjua alimlərini tənqid edərək onların məqsədinin SSRİ xalqlarının mehriban qardaşlıq ailəsinə düşmənçilik salmaq, onu zəiflətmək, ölkə daxilindəki müxtəlif millət və xalqları bir-birinin üzərinə qaldırmağa çalışmaqla ölkədə sosializm və kommunizm quruculuğuna mane olmaq, yaxud heç olmasa bu prosesi ləngitməkdən ibarət olduğunu xüsusi qeyd edib.

80-ci illərin axırı və 90-cı illərin əvvəllərində gedən proseslərə baxmayaraq bəzi Azərbaycan alimlərinin burjua tarixşünaslığına, fəlsəfəsinə, sosiologiyasına münasibəti dəyişməmişdir. Məsələn F.Köçərli bu dövrdə yazırdı: "Hazırda fəlsəfə sahəsində çalışan alimlərimizin əsas vəzifələrindən biri müasir burjua fəlsəfəsinin və sosiologiyasının tənqidi təhlilini verməkdir" (168, 31 iyun 1992)

Bakıda 16 may 1987-ci ildə keçirilmiş və materialları rus dilində nəşr olunmuş "Mətbuat və beynəlmiləl tərbiyənin təkmilləşdirilməsi" adlı respublika seminarında çıxış edən alimlər də milli məsələdə yeni fikir nümayiş etdirə bilməmişlər. Seminarın materiallarında "Dostluq və qardaşlığın telləri", "Beynəlmiləlçi, vətənpərvərlər tərbiyə edək", "Sosializm yarışı-dostluğun təməlidir" başlıqlarla 24 seminar iştirakçısının çıxışları dərc olunub.

Seminarda qeyd olunub ki, " "Bakinskiy raboçiy" qəzetinin 11 və 12 iyun 1987- ci il nömrələrində Ermənistan SSR-in gerbinin təsviri kobud səhvlərlə verildiynə görə günahkarlar cəzalandırılıb. Respublikanın bütün qəzet və jurnallarının əməkdaşları bundan nəticə çıxarmalıdırlar." (676,s.37)

Azərbaycan KP rəhbərliyi məsələlərə bu cür münasibət bəslədiyi bir vaxtda qonşu respublikada Ermənistan KP-nin rəhbərliyi altında Azərbaycan əleyhinə düşmənçilik kampaniyaları, separatçı hərəkətlər gündən-günə güclənirdi. Azərbaycan rəhbərliyinin mövqeyi o dövrün tarixşünaslığına da öz təsirini göstərirdi.

F.S.Əsədovun "Dar gündə yaxşı arxa" kitabında(147) rus və azərbaycan xalqları arasında dostluğun tarixi köklərindən bəhs olunub, Azərbaycan xalqının iqtisadi, mədəni inkişafında rus xalqının böyük roluna aid çoxlu sayda faktlar göstərilir. Lakin müəllif Moskvanın tarixən yeritdiyi ayrı, seçkilik siyasəti, milli münasibətlərdə buraxılmış kobud səhvlər haqqında susmağa üstünlük vermişdir.

B.Çərkəsovun "Beynəlmiləl tərbiyə və incəsənət" kitabı (100) sovet tarixşünaslığı ənənələri əsasında yazılıb. Kitab giriş, iki fəsil və nəticədən ibarətdir. Birinci fəsil "Beynəlmiləl tərbiyə-kommunist tərbiyəsinin tərkib hissəsidir, ikinci fəsil isə "Zəhmətkeşlərin beynəlmiləl tərbiyəsində incəsənətin rolu" adlanır. İkinci fəsildə bədii ədəbiyyat, kino, teatr, musiqi, opera və balet, təsviri incəsənət, radio və televiziyanın beynəlmiləl tərbiyədə rolu işıqlandırılıb. Lakin müəllif sovet dövründə millətlərarası münasibətlərdə buraxılmış səhvlər, demormasiyalar və onların yaratdığı fəsadlara münasibət bildirməyib.

Azərbaycan mədəniyyəti və incəsənəti tarixinə aid yazılmış əsərlər içərisində F.Şuşinskinin 1985-ci ildə nəşr olunmuş "Azərbaycan xalq musiqisi" iri həcmli monoqrafiyası diqqəti cəlb edir. Əgər kitabın 1970-ci ildə nəşr olunmuş variantında Azərbaycanın 40 sənətkarının həyat və yaradıcılığı, xanəndəlik sənətinin tarixi öz əksini tapıbsa, 1985-ci ildə nəşr olunmuş kitabda 51 sənətkar haqqında geniş məlumat verilib. Bunların içərisində Cabbar Qaryağdıoğlu, Məcid Behbudov, Hüseynqulu Sarabski, Qurban Pirimov, Seyid və Xan Şuşinskilər, Zülfü Adıgözəlov, Bülbül və başqa görkəmli sənətkarlar var.

80-ci illərin ikinci yarısında sovet tarixşünaslığına xas olan ehkamlardan uzaq, tarixə yeni, sovet təfəkküründən fərqli baxışlarla yanaşan tarixçilərin kitab və məqalələri də nəşr olunub.( 378; 386,№3,1998,s.187-191; 442; 460 və s.)

1987-ci ildə nəşr olunmuş "Azərbaycan ictimai elmləri: 1985-ci ildə nəşr olunmuş ədəbiyyat göstəriciləri" kitabı dövrün tədqiqində mənbəşünaslıq baxımından əhəmiyyətə malikdir.

Azərbaycan KP-nin, həmkarlar təşkilatlarının, fəhlə sinfinin 1985-1988-ci illərdəki fəaliyyətinə aid bir sıra sənədlər toplusu və kitablar nəşr olunub. Bunlardan "Azərbaycan Kommunist Partiyası XXXI qurultayının materiallarını" (31), "Azərbaycan Kommunist Partiyasının Respublikanın xalq təsərrüfatının inkişafına rəhbərliyi (1981-1986-cı illər)"(35), "İdeoloji iş: təbliğat və təşviqat fəaliyyəti: Partiyanın palanlarının, tikinti təsərrüfat tapşırıqlarının yerinə yetirilməsinin təmin etmək sahəsində Azərbaycan partiya təşkilatlarının təcrübəsi" (563) və s. kitabları göstərmək olar.

Azərbaycan tarixinin 1985-1988-ci illər dövrünün tarixşünaslığını tədqiq olunmasında bu illərdə Azərbaycana rəhbərlik etmiş şəxslərin fəaliyyətinin dərindən öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu dövrdə 1982-1988-ci

illərdə Azərbaycan KP MK-nın birinci katibi K.Bağırovun fəaliyyətinin tədqiqi aktual olaraq qalır.

Kamran Məmməd oğlu Bağırov 5 il 5 ay müddətində (3 dekabr 1982-21 may 1988) Azərbaycana rəhbərlik edib. H.Ə.Əliyevin Sov.İKP MK Siyasi Bürosuna üzv seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi ilə Azərbaycan Respublikası rəhbərliyində dəyişiklik baş verdi. Azərbaycan KP MK-nın 1982-ci il dekabrın 3-də keçirilmiş plenumunda Kamran Bağırov Azərbaycan KP MK-nın I katibi seçildi. Plenum haqqında məlumatın dərc olunduğu qəzetlərdə K.Bağırovun qısa tərcümeyi-halı aşağıdakı kimi yazılıb:

"Kamran Məmməd oğlu Bağırov 1933-cü ildə qulluqçu ailəsində anadan olmuşdur. 1961-ci ildən Sov.İKP üzvüdür. Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun inşaat fakultəsini və Sov.İKP MK yanında Ali Partiya Məktəbini bitirmişdir. Azərbaycanın bir sıra tikinti trestlərində çilingər, mühəndis, müdir müavini, Azərbaycan SSR Nazirlər Sovetinin tikinti şöbəsi müdirinin müavini işləmişdir.

1971-ci ildən K.M.Bağırov partiya işindədir: Azərbaycan KP MK tikinti şöbəsinin müdiri, Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi, 1978-ci ildən Azərbaycan KP MK -nın katibi işləmişdir.

Azərbaycan KP XXIX və XXX qurultaylarında Azərbaycan KP MK-nın üzvü seçilmişdi. 1978-ci ildən Azərbaycan KP MK Büro üzvüdür. Doqquzuncu çağırış SSRİ Ali Sovetinin, bir sıra çağırış Azərbaycan SSR Ali Sovetinin deputatıdır." (204, 4 dekabr 1982-ci il)

1982-cı ilin 10 dekabrında öz işinə başlamış Azərbaycan SSR Ali Sovetinin altıncı sessiyası H.Ə.Əliyevi başqa işə keçməsi ilə əlaqədar Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin üzvü vəzifəsindən azad edərək bu vəzifəyə K.M.Bağırovu seçmişdir.

K.Bağırovun hakimiyyətini şərti olaraq iki dövrə, dekabr 1982-aprel 1985 və aprel 1985-may 1988-ci illərə ayırmaq olar. Birinci dövr Sov.İKP-nin əvvəlki siyasi xəttinin davamı kimi xarakterizə oluna bilər. Çünki bu dövrdə Sov.İKP MK 1964-ci il oktyabr plenumunda L.İ.Brejnevin baş katib seçilməsi ilə irəli sürülmüş siyasi xətt davam etdirilmişdir.

1982-1985-ci illərdə K.Bağırov bütün məsələlərdə əvvəlki kursu davam etdirib. K.M.Bağırov SSRİ-nin 60 illiyi ilə əlaqədar 13 dekabr 1982-ci il tarixdə

keçirilmiş "Beynəlmiləlçiliyin və xalqlar dostluğunun böyük bayramı" adlı təntənəli iclasda demişdir: "Respublikada Azərbaycan KP MK-nın 13 il yarım Heydər Əliyev yoldaşın rəhbərlik etdiyi MK bürosunun məqsədyönlü və prinsipial fəaliyyəti sayəsində...partiya, dövlət, plan və əmək intizamı möhkəmləndirilmişdir." (204, 14 dekabr 1982-ci il)

Lakin sonrakı dövrdə siyasi mühitin dəyişməsi ilə K.Bağırovun da ictmai-siyasi fəaliyyətində dəyişiklər baş vermişdir. Sov.İKP MK-nın 1985-ci il mart plenumunda M.S.Qorbaçovun Baş katib seçilməsi və həmmin ilin aprelində keçirilmiş Sov.İKP MK Plenumunda irəli sürülmüş yenidənqurma konsepsiyası digər respublikalar kimi Azərbaycanda da ictimai-siayi vəziyyəti dəyişdirmişdi. M.Qorbaçov ilə H.Əliyev arasında yaranmış ziddiyyətlər K.Bağırovun H.Əliyevə münasibətlərinə də təsir etməyə bilməzdi. Buna görə də 1985-1988-ci illərdə H.Əliyevin respublikaya rəhbərlik etdiyi 70-80-ci illər dövrünə münasibət dəyişmiş və təftişi başlamışdır. Lakin bu proses respublikada rəhbərlikdə təmsil olunan bir çox şəxslərin müqaviməti nəticəsində güclənə bilməmişdir. Əvvəlki illərin kəskin tənqidi K.Bağırovun özü üçün də sərfəli deyildi. Çünki bu illərin məsuliyyətinin bir hissəsi MK katibi kimi onun da üzərinə düşürdü. Amma bütün hallarda K.Bağırovun hakimiyyəti illərində bir-birindən köklü surətdə fərqlənən iki müxtəlif siyasətin yeridilməsi respublikanın da həyatında öz təsirini göstərirdi.

K.Bağırovun rəhbərlik etdiyi illərdə iqtisadi cəhətdən bir sıra nailiyyətlər əldə olunmuşdu. Məsələn,1983-cü ildə Qroznı-Bakı neft kəmərinin istifadəyə verilməsilə Azərbaycan SSRİ-nin vahid neft kəmərinə qoşuldu. 1984-cü ildə Bakıda Ağır Elektirik Avadanlığı zavodu işə düşdü. 1985-ci ildə Dərin dəniz özülləri zavodu ilk məhsullarını istehsal etdi. Kənd təsərrüfatı məhsulları istehsalında da müəyyən irəliləyiş olmuşdur. Əgər üzüm istehsalı 1982-ci ildə 1 milyon 816 min ton idisə, 1985-ci ildə 1 milyon 820 min tona, taxıl istehsalı 1 milyon 212 min tondan 1 milyon 300 min tona çatmışdır. Təkcə pambıq istehsalı bu dövrdə azalaraq 834 min tondan 750 min tona enmişdir. (407,s.90-92)

Lakin bu göstəricilərlə yanaşı SSRİ rəhbərliyinin səhv qərarları və Azərbaycan rəhbərliyinin bunları kor-koranə yerinə yetirməsi respublikanın iqtisadiyyatına böyük zərbə vurmuşdur. M.S.Qorbaçovun göstərişi ilə həyata keçirilən alkoqolizmə qarşı mübarizə kampaniyası bir çox respublikalarda yerinə yetirilmədiyi halda Azərbaycanda buna demək olar ki, canla-başla əməl edilmişdir.

Halbuki alkoqolizm halları Azərbaycan üçün xarakterik deyildi. Aparılan səhv siyasətin nəticəsində 1985-ci ildə respublikada olan 268 min hektar üzümlükdən 100 min hektardan çoxu məhv edildi.

Moskvanın və beynəlxalq təşkilatların himayəsi ilə ermənilər Azərbaycana qarşı planlı surətdə düşmənçilik siyasəti yeritməyə başlayarkən K.Bağırovun başçılıq etdiyi Azərbaycan rəhbərliyi buna qarşı cavab verməkdə acizlik nümayiş etdirmiş və gözləmə mövqeyi tutmağa üstünlük vermişdir.

Azərbaycan rəhbərliyi bu məsuliyyətli dövrdə erməni düşmənçiliyinin qarşısını çox zaman formal xalqlar dostluğu ideyalarının təbliği ilə almağa çalışırdı. Respublika əhalisinin erməni təxribatlarına qarşı mübarizə aparmaq tələblərinə isə heç bir reaksiya verilmirdi. Bunu K.Bağırovun SSRİ-nin 60 illiyi ilə əlaqədar 13 dekabr 1982-ci il tarixdə keçirilmiş "Beynəlmiləlçiliyin və xalqlar dostluğunun böyük bayramı" adlı təntənəli iclasdakı məruzəsində aydın görmək olar. O demişdir: "1922-ci ildə Azərbaycan Kommunist Partiyası 40 millətdən olan 8.276 kommunisti birləşdirirdi. İndi isə onun sıralarında 71 millətdən olan 350 mindən çox kommunist vardır. Respublikanın rəhbər partiya orqanlarının tərkibi də beynəlmiləldir. Şəhər və rayon partiya komitələri katiblərinin 30 faizi yerli millətin nümayəndəsi deyildir.

Beynəlmiləl tərbiyə sahəsində iş apararkən Azərbaycan KP MK partiya təşkilatlarını milli məhdudluğun, eqoizmin, nəzakətsizliyin hər cür, hətta ən kiçik təzahürlərinə qarşı barışmaz münasibət bəsləməyə istiqamətləndirir."(204, 14 dekabr 1982-ci il)

K.Bağırovun rəhbərliyi illərində bu siyasət sonralar da davam etdirilmişdir. Erməni şovinistlərinin Azərbaycana qarşı ideoloji təxribatlarının artdığı, erməni yazıçılarının kitab və məqalələrində azərbaycanlılara qarşı qatı düşmənçilik ideyaları yaydığı bir vaxtda Azərbaycan rəhbərliyi bu təxribatlara qarşı nəinki mübarizə aparmır, hətta ermənilərə ən adi etirazların da qarşısını dərhal alırdı.

Ermənilərin gündən-günə azğınlaşdığı bir vaxtda K.Bağırovun respublikaya rəhbərliyi Moskvanı qane etmirdi. K.Bağırov Moskvanın yeni siyasətinin icrası üçün uğurlu kadr hesab olunmadığına görə Azərbaycan KP MK-nın 21 may 1988-ci il tarixli plenumunda bu siyasəti daha çevik həyata keçirəcəyi ehtimal olunan Ə.X.Vəzirovla əvəz edildi. Həmin gün Ermənistanda da K.S.Dəmirçiyan

S.Q.Arutunyanla əvəz olundu. Bu dəyişikliklərlə Moskva hər iki respublikada mövcud olan gərginliyin aradan qaldırılmasına nail olmaq istəyirdi. Lakin əksinə, sonrakı dövrdə digər müttəfiq respublikalar kimi Azərbaycanda da vəziyyət daha da gərginləşməyə başladı.(407,s.97)

Azərbaycana rəhbərlik etmiş digər şəxslər kimi K.M.Bağırovun fəaliyyətinin dərindən öyrənilməsinə etiyac var. Fikrimizcə, bu işin həyata keçirilməsi Azərbaycan tarixinin ən ziddiyyətli dövründən biri olan XX əsrin sonlarında baş verən hadisələrin mahiyyətinin obyektiv şəkildə dərk olunmasına kömək edə bilər.

Yenidənqurma siyasəti dövründə sovet rəhbərliyi yaranmış vəziyyətdən sui-istifadə edərək, Azərbaycana qarşı ayrı-seçkilik siyasəti yeridərək ictimai-siyasi həyatda əvvəlki illərdə əldə olunmuş nailiyyətlərə kölgə salmağa çalışıb. Buna misal olaraq Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin D.Bünyadzadə adına Azərbaycan Xalq təsərrüfatı İnstitutu ilə bağlı qərarını göstərmək olar. Fikrimizcə digər respublikalarda da təhsil sistemində eyni problemlərin olmasına baxmayaraq Azərbaycana bu cür münasibətin siyasi tərəfləri mövcud idi və bu qərar respublikaya qarşı mərkəzin o dövrdəki qərəzkarlığından irəli gəlirdi. Mərkəzi hakimiyyətin qərarına müvafiq olaraq Azərbaycan KP MK-nın "Ali məktəbi daha da inkişaf etdirmək və mütəxəssislər hazırlanmasının keyfiyyətini yüksəlmək haqqında" Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarlarının yerinə yetirilməsi sahəsində D.Bünyadzadə adına Azərbaycan Xalq təsərrüfatı İnstitutunun işindəki ciddi nöqsanlar haqqında" qərarı (26 noyabr 1985) qəbul olundu.(204, 27 noyabr 1985-ci il)

Bu qərarın qəbul olunması o dövrdəki Azərbaycan rəhbərliyinin Moskvanın ayrı-seçkilik siyasətinə qarşı heç bir müqavimət göstərmək gücünə malik olmadığını, bu siyasət qarşısında açizliyini sübut edirdi.

Qərarda göstərilir ki, pis oxuduqlarına görə institutdan xaric edilən tələbələrin sayı hələ də çoxdur. Təkcə son 5 il ərzində institutdan 527 nəfər xaric edilmişdir. Təkrar kursda saxldanılan tələbəlrin sayı həmin dövr ərzində 113 nəfər olmuşdur. Qəbul imtahanlarının hazırlanması və keçirilməsində ciddi nöqsanlar vardır. İnstituta qəbul olunanların sosial tərkibinin tənzimlənməsi məsələləri nəzərdən qaçırılır. 1980-ci ildən bəri ali məktəbə qəbul olunanlar arasında fəhlələrin, koxozçuların və onların uşaqlarının xüsusi çəkisi 7,6 faiz azalmış və 1985-ci ildə ancaq 55,3 faiz olmuşdur. Bundan başqa qərarda qeyd

olunurdu ki, aspirantura vasitəsilə elmi-pedaqoji kadrların hazırlanmasının ciddi surətdə yaxşılaşdırılması tələb olunur. Aspirantlar arasında hazırlığı zəif olan, elmi tədqiqat işinə meyl göstərməyən, ali məktəbi kafi qiymətlərlə bitirən şəxslər də az deyildir. 1980-ci ildən 1984-cü ilədək olan dövr ərzində aspirantların cəmi 7,1 faizi dissertasiya işlərini vaxtında müdafiə etmişdir. (204, 27 noyabr 1985-ci il)

Bu qərardan sonra həmin institutun müstəqil fəaliyyəti dayandırılmış və Leninqrad İqtisad İnstitunun filialına çevrilmişdir. Fikrimizcə bu addım o zamankı SSRİ rəhbərliyinin Azərbaycana qarşı  ayrı-seçkilik siyasətinin bariz nümunəsi hesab oluna bilər.

1985-1988-ci illər dövrüdə hadisələrin sürətlə inkişaf etməsi, 1988-ci ilin fevralından separatçı qüvvələr tərəfindən Dağlıq Qarabağ probleminin ortaya atılması ilə ziddiyyətlərin daha da kəskinləşməsi tarixşünaslığın istiqamətini dəyişdirmiş, yeni yazılan kitab və məqalələr içərisində Azərbaycanın milli maraqlarına uyğun yazılar çoxluq təşkil etməyə başlamışdı.

1985-1988-ci illərin sovet tarixşünaslığının təhlili göstərir ki, bu dövrdə tarixçilər ictimai-siyasi məsələlərə əvvəlki dövrlərdən bir qədər fərqli yanaşmışlar. Bu dövrdə kommunist partiyasının yeritdiyi yenidənqurma siyasəti tarixi tədqiqatların nisbətən demokratikləşməsinə şərait yaratmışdır. Uzun illər insan haqlarının kobud surətdə pozulduğu, obyektiv tarixi tədqiqatlara qadağalar qoyulduğu bir cəmiyyətdə irəli sürülən aşkarlıq və demokratikləşmə xətti cəmiyyətdə baş vermiş və xalqdan gizli saxlanılan cinayətlərin üzə çıxmasına imkan vermişdi. Bu dövrdə yazılan əsərlər sonradan SSRİ kimi bir imperiyanın dağılmasında da müəyyən rol oynamışdır.

Bu dövrün tarixşünaslıq baxımından təhlili sübut edir ki, tarixçilər bu illərin ictimai-siyasi proseslərinə aid çoxlu sayda kitab və məqalələr yazmalarına baxmayaraq bu dövrün tədqiqində də subyektivizm, birtərəflilik özünü göstərir. Buna görə də bu dövrün tarixşünaslıq baxımından  yenidən, obyektiv tədqiqinə böyük ehtiyac var.

### 4.2. 1988-1991-cı illər  elmi araşdırmalarda

Azərbaycan tarixinin ən gərgin və ziddiyyətli dövrlərindən biri də 1988-1990-ci illər, yəni dövlət müstəqilliyinin bərpası uğrunda mübarizə dövrüdur. Bu dövrün ictimai-siyasi problemlərinin tarixşünaslığına aid postsovet məkanında bir

sıra kitab və məqalələr yazılıb. Bunlardan A.A.İsgəndərovun “Tarix elmi XXI əsrin astanasında” (498,№7,1996,c.9-17), C.A.Veliçkonun “SSRİ-də yenidənqurma (1985-1991-ci illər) vətən və xarici tarixşünaslığında” (483) və başqalarını göstərmək olar.

M.Zülfüqarlının bu dövrün tarixşünaslığına aid bir sıra məqalələri çap olunub. Bunlara misal olaraq “20 yanvar faciəsinin tarixşünaslığı”(64,№ 4,2012,84-88), “Azərbaycanın dövlət müstəqilliyinin bərpası dövrünün tarixşünaslığı”(fevral 1988-oktyabr 1991) (362,say-6,2013,s.235-245), “Azərbaycan milli azadlıq hərəkatının tarixşünaslığı”(1988-1991-ci illər) (212,№2,2013,s.18-22) və başqa məqalələri göstərmək olar.

1988-1990-cı illərin ictimai-siyasi proseslərinə aid yazılmış əsərlərin müəlliflərini mövqelərinə görə şərti olaraq iki qrupa bölmək olar. Birinci qrupa ömrünü başa vurmaqda olan kommunist rejimini müəyyən qədər yeni dövrə uyğun şəkildə müdafiə edən müəllifləri, ikinci qrupa isə Azərbaycanda demokratik düşüncəni, müstəqil dövlətçilik məfkurəsini müdafiə edən tədqiqatçıları aid etmək olar.

80-ci illərin axırlarından etibarən yaranmış yeni şəraitin tələbinə uyğun olaraq tarixçilər kommunist partiyasının fəaliyyətinin əvvəlki qaydada, yəni yalnız pozitiv tərəflərinin tədqiqindən demək olar ki, imtina etmiş, əksinə kommunist partiyasının əvvəlki illərdəki fəaliyyətinin tənqidinə daha çox fikir verməyə başlamışdılar.

Sov.İKP-nin fəaliyyəti ilə bağlı Moskvada və SSRİ-nin digər şəhərlərində nəşr olunan bir çox kitablar (419,727,728 və s.) Azərbaycan alimlərinin də tədqiqatlarına təsir etmişdir.

Kommunist rejimini müdafiə edən tarixçilərdən Ə.S.Sumbatzadə, P.Ə. Əzizbəyova, D.P.Quliyev və digər tarixçilərin yazdıqları kitab və məqalələr formaca əvvəlki illərdə yazdıqlarından fərqlənsə də, məzmunca eyni mahiyyət daşımışdır. (107,17 noyabr 1990,455,2 dekabr 1988,733 və s.)

Bu dövrdə ictimai təşkilatların, xüsusən də həmkarlar təşkilatlarının yeniləşməsi, qeyri-formal təşkilatların yaranması ilə bağlı fikirlər aktual olmuşdu. Bu problemin öyrənilməsində K.Ağahüseynovun, L.Rəsulovanın müsahibələri (455,25 yanvar,3 fevral 1987,15 avqust 1990,13 iyun 1991,457,7 mart 1989,491,12 avqust 1990,601,№ 1,1990,s.61-66 və s.) müsbət rol oynayır.

X.Hasilovanın "Yenidənqurma və qadınlar" (26,№12,1989), L.L.Rıbakovanın "Azərbaycan xalq təsərrüfatı" jurnalının 1989-cu il 8-ci sayında dərc edilmiş "Qadınların əmək fəallığı xalq təsərrüfatının inkişafında vacib şərtdir" və s. məqalələrdə 80-ci illərin axırlarında sovet cəmiyyətində qadına olan münasibət və qadınların yenidənqurma dövründəki fəaliyyəti işıqlandırılıb.

80-ci illərin sonlarında Azərbaycan gənclərinin fəaliyyəti ilə bağlı müəlliflər bir sıra məqalələr yazıblar.( 37,№ 5,1986, s 63-69 və s.)

R.D.Məmmədovun rus dilində nəşr olunmuş "Sosialist cəmiyytində ziyalılar" kitabı (631) cəmiyyətin aparıcı qüvvələrindən biri olan ziyalıların fəaliyyətinə həsr olunub. Müəllif müxtəlif illərə aid rəqəmlərin müqayisəsi əsasında cəmiyyət üzvləri arasında ziyalıların sayının artdığını və onların cəmiyyətdə rolunun yüksəldiyini sübut etməyə çalışır.

Ə.Tağıyevin 1993-cü ildə müdafiə etdiyi "Azərbaycanda milli gerçəklik və onun saxtalaşdırılmasının tənqidi " mövzusunda doktorluq dissertasiyası 1988-1993-cü illərdə Azərbaycandakı mövcud milli münasibətləri tədqiqinə həsr olunub.

80-ci illərin ikinci yarısından başlayaraq demokratikləşmə prosesinin təsiri ilə kommunist rejimində dinə və dindarlara olan münasibət dəyişilməyə başlamışdı. Məhz buna görə də bu illərdə din əleyhinə, ateizm tərbiyəsinə aid yazılan məqalərlə yanaşı dinin müsbət cəhətlərini önə çəkən, kommunist rejimində insanların vicdan azadlıqlarına qarşı çevrilmiş siyasəti tənqid edən, islam dininin müsbət cəhətlərini özündə əks etdirən məqalələr də yazılmışdır. (23,28 dekabr 1991, 37, №11, s.82-86, 41, 5 iyul 1991,108, №11, 1991, 111,2 avqust 1991, 204, 31 yanvar, 1 oktyabr 1988, 6 yanvar 1989,24 iyul 1991, 385,23 noyabr 1991 və s.)

Azərbaycan SSR-in 1988-1990-cı illər tarixşünaslığının ən aktual və xüsusi tədqiqat tələb edən mövzusu milli-azadlıq hərakatı ilə bağlıdır.

Çağdaş Azərbaycan milli-azadlıq hərəkatının (fevral 1988-oktyabr 1991) öyrənilməsində hərəkatın liderləri və başqa siyasətçilərin kitabları, onların fəaliyyətinə və milli-azadlıq hərəkatına həsr olunmuş kitablar mühüm əhəmiyyət kəsb edir.

Bunlardan Ə.Elçibəyin, E.Məmmədovun, A.Balayevin, T.Qafarovun, O.B.Sultanovun, M.P.Zülfüqarlının, Ə.Tahirzadənin və başqa müəlliflərin kitablarını göstərmək olar.(105,106,282,365,383,387,406,407,408,409,460,703

və s.)

Ə.Elçibəyin "Deyirdim ki, bu quruluş dağılacaq" kitabında (106) müəllifin sovet quruluşu haqqında düşüncələri, bu rejimin məhvə məhkum olması haqqında müxtəlif təhlilləri verilib. Ə.Elçibəyin "Bu mənim taleyimdir" adlı digər kitabında (105) onun 16 mart 1988-ci il tarixdə Azərbaycan Elmlər Akademiyasındakı mitinqdə çıxışından başlayaraq Azərbaycan Ali Sovetin sessiyasındakı 23 mart 1992-ci il tarixli çıxışına qədər etdiyi məruzələr, müsahibələr toplanıb. Bundan başqa Ə. Elçibəy haqqında müxtəlif şəxslərin fikirləri də kitabda öz əksini taplanıb. Hər iki kitab çağdaş milli azadlıq hərəkatının öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

Azərbaycan tarixinin 1988-1991-ci illər dövrünün öyrənilməsində O.B. Sultanovun elmi tədqiqatlarının özünəməxsus yeri var. Onun "80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə" kitabı (363) bu dövrün tədqiqində ilk böyük həcmli tədqiqat işidir.

Kitab giriş, 3 fəsil və nəticədən ibarətdir. Müəllif kitabın giriş hissəsində XX əsrin əvvəllərindən başlayaraq 90-cı illlərin əvvəllərinə qədər davam etmiş milli azadlıq hərəkatını şərti olaraq 4 dövrə bölüb : XX əsrin əvvəllərindən 1917-ci ilin fevral hadisələrinə qədər; 1917-1920-ci illər; 1920-1988-ci illər; 1988-ci ildən 90-cı illlərin əvvəllərinə qədər.

Müəllif XX əsrin əvvəllərindən 1917-ci ilin fevral hadisələrinə qədər davam etmiş siyasi mübarizə dövrünün tarixşünaslığına münasibət bildirərək qeyd edir ki, "bu dövrün tarixi sovet siyasi sisteminin tələblərinə uyğunlaşmış tərzdə tədqiq olunsa da, Azərbaycanın tarix elminin inkişafında əvəzsiz xidmətləri olan Z.İ.İbrahimov, Ə.S.Sumbatzadə, İ.A.Hüseynov, Ə.N.Quliyev, P.Ə.Əzizbəyova, C.B.Quliyev, Q.Bayramov və başqa müəlliflərin samballı əsərləri həmin dövrün ictimai-siyasi proseslərinin hərtərəfli və obyektiv öyrənmək üçün bu gün də əhəmiyyətlidir."

Kitabda Ə.Elçibəy, E.Məmmədov, İ.Qənbər və H. Əliyevə əhalinin neçə faiz ümid etməsi haqqında "El-oba" sosioloji tədqiqat mərkəzinin apardığı araşdırmanın nəticələri verilmiş və mənbə kimi AZ.TV-nin arxivi, 29 iyun 1992-ci il tarixli "Xəbərlər" verilişinin mikrofon qovluğu göstərilib. Bundan başqa müəllifin "Azadlıq" radiostansiyasının 18 fevral 1991-ci il tarixdəki səhər verlişinə, "Vesti" xəbərlər proqramının 26 iyul 1992-ci il tarixli məlumatlarına

və bu kimi digər məlumatlara istinad etməsi, onun tarixi tədqiqatlara yeni, sovet tarixşünaslığına xas metodlardan fərqli yanaşdığını göstərir. Tədqiqat işlərinin demokratikləşdirilməsi məhz tədqiqatçılardan yalnız rəsmi mənbələrdən deyil, hətta qeyri rəsmi və şifahi tarixi mənbələrdən də istifadəsinə imkan verir ki, inkişaf etmiş ölkələrdə bu üsuldan çoxdan istifadə edilir.

Ə.Məmmədovun 2005-ci ildə "Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmlənməsi uğrunda mübarizə" (1980-ci illərin sonu-1997-ci il) mövzusunda müdafiə etdiyi dissertasiya da Azərbaycanda XX əsrin sonunda baş verən milli-azadlıq hərəkatına həsr olunub.

R.Sadıxbəylinin rus dilində nəşr olunmuş "Azərbaycanda demokratik hərəkatın bərqərar olması məsələsini öyrənmək üçün Azərbaycan dövrü mətbuatı bir mənbə kimi. 1989-1990-cı illər(qəzet materialları üzrə)" məqaləsi  problemin mənbəşünaslıq və tarixşünaslıq baxımdan tədqiqində müsbət rol oynayır.(703)

SSRİ-nin dağılması prosesində əsas amillərdən biri olan millətlərarası münaqişələr Alma-Atada (17-18 dekabr 1986-cı il), Frunzedə  (fevral 1987-ci il), Tallin və Vilnüsdə (23 avqust 1987-ci il), Vıru və Tartuda (21 oktyabr 1987-ci il), Tbilisidə (9 aprel 1989-cu il), Özbəkstanın Fərqanə vilayətində (3-4 iyun 1989-cu il), Qazaxstanın Novıy Uzen şəhərində (17 iyun 1989-cu il), Tacikstanın İsfaran rayonunda (13 iyun 1989-cu il), Sxumidə (15-16 iyul 1989-cu il), Kişnyovda (7-10 noyabr 1989-cu il) və digər ərazilərdə baş vermişdir. (682,19 dekabr 1986-cı il, 21 mart 1988-ci il,10 aprel,5 iyun,21 iyun,15 iyul,17 iyul,12 noyabr 1989-cu il)

Akademik Y.V.Bromleyin Moskvada, rus dilində nəşr olunmuş "SSRİ-də milli proseslər: yeni yanaşmalar axtarışında" adlı kitabında(472) SSRİ ərazisində gedən milli proseslər tədqiq olunub. Kitab giriş əvəzi, altı fəsil və nəticədən ibarətdir. Müəllif kitabın giriş əvəzi hissəsində Sov.İKP-nın XIX Ümumittifaq konfransının və Sov.İKP MK iyul (1988-ci il) Plenumunun  1989-cu ilin əvvəlinə kimi millətlərarası münasibətlərin təkmilləşdirilməsi ilə bağlı zəruri sənədlərin hazırlanması ilə əlaqədar elmi-tədqiqat müəssisələrinə verdiyi sosial sifariş əsasında kitabın yazıldığını qeyd edir. Elmi-tədqiqata bu cür subyektiv yanaşmanı qeyd etməklə sanki müəllif kitabın əvvəlində  obyektivlikdən uzaq, reallığı düzgün əks etdirməyən bir əsərin ortalığa qoyulması ilə bağlı oxuculara xəbərdarlıq edir.

Kitabın "Problemlər necə əmələ gəlir" adlı birinci fəslində müəllif  SSRİ-nin tarixi mərhələlərini təhlil edərək qeyd edir ki, 1979-cu ildə SSRİ-də özünün

ərazi-dövlət quruluşu olmayan millət və xalqların nümayəndələrinin sayı 55 milyon nəfər idi. Bu dövrdə 23,9 milyon rus RSFSR-dən kənarda yaşayırdı. Müəllif erməni separatçılarının irəli sürdüyü və A.Y.Proxonovun "Literaturnaya qazeta" qəzetinin 10 avqust 1988-ci il tarixli sayında dərc olunmuş "Mən Stepanakertdə oldum" adlı məqaləsindəki saxta iddialara əsaslanaraq Dağlıq Qarabağ və onun ətarfında baş verən hadisələrə münasibət bildirir. Müəllif qeyd edir ki, Dağlıq Qarabağda yaşayan erməni əhalisinin mədəni və iqtisadi tələblərinin yerinə yetirilməsi ilə bağlı səhvlər buraxılmış, erməni dilində kitablar buraxılmamış, Ermənistanla mədəni mübadiləyə qadağa qoyulmuşdu. Vilayətdə ən aşağı vəzifəyə də təyinat mütləq Bakı ilə razılaşdırılmalı idi. Ermənistanla Dağlıq Qarabağı ayıran dar ərazidə isə yollar və körpülər dağılmış vəziyyətdə idi. Bu səbəbdən də əhali yaxın Ermənistana uzaq Bakıdan təyyarə ilə getmək məcburiyyətində qalırdı. Bakı tərəfindən qoyulmuş bu ağır qaydaları ziyalılar, təsərrüfat rəhbərləri, partiya üzvləri  özbaşınalıq kimi qiymətləndirirdilər. Müəllifin bu fikirlərinin saxta, obyektivlikdən uzaq olmasını Dağlıq Qarabağa aid sovet dövründə və müasir dövrdə  yazılmış kitablardakı faktlar sübut edir.

Kitabın nəticə hissəsində müəllif qeyd edir ki, yenidənqurma dövründə cəmiyyətin ictimai həyatında baş verən deformasiyalara qarşı mübarizə sosial ziddiyyətlərə gətib çıxarır ki, bu da çoxmillətlilik şəraitində milli xarakter alır. Buna görə də problemin həlli üçün ictimai həyatdaki deformasiya ilə milli münasibətlərdəki antoqonist ziddiyyətləri fərqləndirməyi bacarmaq lazımdır. Onun fikrincə istismarçı siniflərin ləğvi ilə ölkədə antoqonist ziddiyyətlər aradan qalxıb. Lakin SSRİ-də digər sahələrdə olduğu kimi milli münasibətlərin də inkişafında müəyyən ziddiyyətlər qalmaqdadır. Bunun da əsas səbəbi iqtisadiyyat sahəsindəki qeyri-düzgün yanaşmalar və mövcud durğunluq əlamətləri, sosial siyasətin əhəmiyyətinin düzgün qiymətləndirilməməsi, sosial ədalət, demokratiya və beynəlmiləl prinsiplərin pozulmasıdır. Buna görə SSRİ-də milli münasibətlərin gələcək inkişafı üçün sosial-iqtisadi inkişafın sürətləndirilməsi, ictimai həyatın yenidənqurulması, aktiv sosial siyasətin yeridilməsi, demokratiyanın, aşkarlığı genişləndirilməsi vacibdir. Müəllifi sonda təklif etdiyi yol avtoritar və totalitar systemin mövcud olduğu SSRİ-nin dağılmasına aparan bir yol idi ki, bu da millətlərarası münasibətlərin kəskinləşməsi ilə özünü büruzə verirdi.(472)

Millətlərarası münaqişələrin qızışdırılmasında maraqlı olan qüvvələr

SSRİ-nin müxtəlif ərazilərində ekspermentlər keçirərək məkrli niyyətinin həyata keçirmək üçün Azərbaycanın Dağlıq Qarabağ ərazisini SSRİ-nin digər ərazilərindən daha münasib ərazi olduğu qənaətinə gəldilər. Bundan sonra Moskavadakı havadarlarının köməkliyi ilə erməni separatçıları vasitəsilə 1988-ci ilin fevralından başlayaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa qarşı təxribatlara başladılar.

Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) Soveti deputatlarının 20 fevral 1988-ci il tarixdə DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxaraq Ermənistan SSR-in tərkibinə birləşməsi haqqında müraciət qəbul etməsi ilə XX əsrin əvvəllərindən qızışdırılan erməni-müsəlman, erməni-türk münaqişəsinin yeni mərhələsinin əsası qoyuldu. Bu qərardan sonra Ermənistan SSR və DQMV-də "Kurunk" və "Qarabağ" komitələrinin təşkil etdiyi mitinq, nümayiş və tətillər vasitəsilə dövlət orqanlarına təzyiq göstərilməyə, mərkəzdəki havadarların köməkliyi ilə separatçı planların tezliklə həyata keçirilməsinə cəhdlər edilməyə başlandı. Rusiya və digər böyük dövlətlərin yaxından köməkliyi ilə Azərbaycan torpaqlarına qarşı planlı surətdə növbəti erməni fitnəkarlığı həyata keçirilməyə başlayarkən, Dağlıq Qarabağ separatçılarının vəhşiliklərinə etiraz olaraq, Azərbaycanda ilk dəfə tələbələrin 1988-ci il 19 fevral mitinqi keçirildi. Azərbaycan Dövlət Universiteti, Politexnik və İnşaat Mühəndisləri İnstitutu tələbələrinin kommunist rejimi dövründə görünməmiş 3-4 minlik izdihamı "Azadlıq" meydanından Azərbaycan KP MK-nın qarşısına kimi daha da genişlənərək 10-15 min adamın iştirak etdiyi böyük mitinqə çevrildi.

Azərbaycan rəhbərliyinin göstərişi ilə müxtəlif əmək kollektivlərinin, "Qayğı", "Vətən", "Qarabağa Xalq Yardımı Komitəsi" və s. təşkilatların SSRİ xalq deputatlarına, SSRİ prezidenti M.S.Qarbaçova müraciətləri (204,28,29 mart,27 may 1990;366, 2 sentyabr 1989 və s.) təşkil olunsa da bunaların heç bir müsbət nəticəsi olmadı və vəziyyət gərginləşməkdə davam etdi.

Bakı Dövlət Univetsiteti kollektivinin Azərbaycan xalqına müraciəti digər mürciətlərdən konkret səmərəli təkliflərlə fərqlənsə də rəhbərlik bu müraciətə də digərləri kimi etinasız yanaşdı. Müraciətdə deyilirdi:"Uzun illər respublikada Qarabağ və sərhəd rayonlarının tarixinin öyrənilməsinə məsuliyyətsiz münasibət bəslənilməsi erməni ekstremistlərinin Dağlıq Qarabağ ətrafında süni problem yaratmalarında az rol oynamamışdır... Bakı Dövlət Universiteti bu işdə öz

məsuliyyətini dərk edərək tarix fakultəsində "Qarabağ" adlı elmi-tədqiqat qrupu yaratmaq təşəbbüsü ilə çıxış edir və respublika hökümətini, ilk növbədə Xalq Təhsil Nazirliyini həmin qrupun fəaliyyətə başlaması üçün təsirli tədbirlər görməyə çağırır."( 23, 18 may 1990)

Moskvadan asılı olan respublika rəhbərliyi və onların xəttini müdafiə edən tarixçilərdən fərqli olaraq bu dövrdə S.Əliyarovun, V.Vahabzadənin, İ.Andronovun, G.Quluşkovun və başqalarının Azərbaycan mətbuatında, A.Buşev, S.Romanyuk, A.Vasilkov, G.Ovçarenkonun mərkəzi mətbuatda hadisələrin qarşısını almağa kömək edən obyektiv məqalələri (23, 5 mart, 20 aprel 1990; 24,№ 2,s.187-190, №9,1988,s.176-188, №1,1989,s.181-189, №5,1990,s.163-171; 74,26iyul 1988; 86, 26 noyabr 1988, 22 sentyabr 1989; 111, 25 mart, 18 noyabr 1988, 18 avqust 1989, 22 sentyabr 1989, 23 fevral 1990; 204, 22 mart, 23 iyul, 11 noyabr 1988, 18 yanvar 1989; 455, 9 avqust 1989, 12 yanvar 1990; 682, 4 aprel 1988) çap olunub.

Dağlıq Qarabağ probleminə aid məqalələrlə yanaşı İ.Əliyev, Y.Mahmudov, Q.Qeybullayev, K.Şükürov, R.İmanov, V.Arzumanlı, Z.Sultanov, F.Hicran, S.Babayev, R.Arakelov, Y.Pompeyev və başqa müəlliflərin çap olunmuş kitabları (17; 78; 114; 162; 257; 363; 364; 443; 604 və s.) obyektivliyinə görə diqqəti cəlb edir.

Akademik İqrar Əliyevin 1989-cu ildə rus və azərbaycan dillərində nəşr olunmuş, "Dağlıq Qarabağ. Tarix. Faktlar. Hadisələr" kitabında həmin ərazinin coğrafi mövqeyi, qədim dövrdən 1989-cu ilə kimi qısa tarixi, milli tərkibi, DQMV-nin yarandığı tarixi şərait və bu dövrdə gedən siyasi proseslər, 1988-ci ildən başlanan separatçı hərəkətlərin səbəbləri geniş tarixi faktlar əsasında işıqlandırılıb. Lakin müəllif sovet tarixşünaslığı ənənələrinə sadiq qalaraq DQMV-nin yaranmasını Lenin milli siyasətinin təntənəsi hesab edir. O qeyd edir ki, bu gün məsuliyyət, sinfi, partiya yanaşması, kommunist ciddiliyi və prinsipial tələbkarlığı mühüm əhəmiyyət kəsb edir. Daha sonra müəllif göstərir ki, hər bir sovet xalqının milli mənafeləri o zaman ən yaxşı şəkildə qorunur ki, hər yerdə və hər zaman Sovet Sosialist Respublikaları İttifaqının mənafeləri qorunmuş olsun. Buradan belə nəticəyə gəlmək olar ki, müəllif problemin həllini SSRİ-nin qorunub saxlanmasında görürdü.

Q.Qeybullayevin 1990-cı ildə nəşr olunmuş "Qarabağ" (Etnik və siyasi tarixinə dair) kitabının ön söz hissəsində qeyd olunur ki, müasir erməni

tarixşünaslığında Azərbaycanın Kür və Araz çayları arasındakı ərazisinin, o cümlədən Dağlıq Qarabağın tarix boyu Ermənistanın tərkib hissəsi olması konsepsiyası hakimdir. Tarixi faktların yanlış təfsiri əsasında yaranmış bu saxta, tarixi gerçəklikdən uzaq konsepsiyaya söykənən erməni ekstremistləri isə Azərbaycanın ərazi bütövlüyünü pozaraq, Qarabağın Dağlıq Qarabağ Muxtar Vilayətinə daxil olan hissəsini Ermənistana birləşdirilməsi iddiasını irəli sürürlər. Erməni tədqiqatçılarını bu saxta konsepsiyası Azərbaycan tarixşünaslığında öz tənqidini tapmışdır. Z.M.Bünyadov, İ.H.Əliyev, F.C.Məmmədova, R.B.Göyüşov, T.M.Məmmədov və başqalarının əsərlərində tarixi faktlar əsasında onlara cavab verilmişdir.

Robert Arakelovun rus dilində nəşr olunmuş "Faciənin müqəssirləri məlumdur" adlı kitabında (443) hadisələrə obyektiv münasibət özünü göstərir. Müəllif erməni millətinə mənsub olmasına baxmayaraq ermənilər tərəfindən təşkil olunmuş "Qarabağ hərəkatı"nın fəaliyyətini beynəlxalq hüquqa və ölkələrin konstitusiyasına zidd, avantürist bir hərəkət adlandıraraq qonşu azərbaycanlılara qarşı düşmənçilik toxumu səpən Z.Balayanın, S.Xanzidyanın, L.Arutunyanın pis əməllərini kəskin tənqid etmişdi. Müəllif həmçinin Ermənistandan azərbaycanlıların zorakılıqla qovularaq monoetnik dövlət yaradılması fikrini və bu prosesin başlanğıcında Qukar rayonunda 100-dən artıq azərbaycanlının vəhşicəsinə qətlə yetirilməsini xəstə təxəyyülün məhsulu, dəhşətli cinayət hesab etmişdi.

Y.Pompeyevin rus dilində nəşr olunmuş "Qarabağ qan girdabında" kitabında (680) Dağlıq Qarabağ probleminin əsas səbəbləri göstərilib və erməni terrorçuluğu tarixi faktlarla ifşa edilib. Müəllif rus tarixçisi Şavrovun 1911-ci ilə aid "Zaqafqaziyada rus işinə yeni təhlükə" kitabında " Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyonu əyalətin yerli əhalisi olmayıb, bizim tərəfimizdən köçürülüb" fikrinə istinad edərək ermənilərin Qarabağda yerli əhali olmadığını sübut edir. (680,s.44)

Müəllif 1926-cı ildə nəşr olunmuş Böyük Sovet Ensiklopediyasına istinadən göstərir ki, birinci dünya müharibəsi başlanan zaman Rusiya və Türkiyə arasında səpələnmiş ermənilərdən o zaman Bosfor və Dardanel boğazlarını ələ keçirmək istəyən Rusiya və İngiltərə öz məqsədlərini həyata keçirmək üçün bir alət kimi istifadə ediblər. 387-ci ildə dövlətçiliyini itirmiş ermənilər təxminən 1500

ildən sonra, yəni 1877-ci il Rus-Türk müharibəsindən sonra Rusiyanın himayəsi ilə erməni dövləti yaratmağa çalışıblar. (680,s.56-57) Müəllif Dağlıq Qarabağ probleminin Rusiya, Türkiyə və qərb ölkələrinin cənubi Qafqazda tarixən strateji maraqlarının toqquşmasından yarandığını tarixi faktlarla açıb göstərib.

Müəllif Zaqafqaziyanın partiya rəhbərlərindən olan Levon Mirzəyanın 1923-ci ildə dediyi "Təmiz şəkildə Qarabağ məsələsi yoxdur. Erməni kəndlisi Bakı və Ağdamla sıx əlaqələri olmasa yaşaya bilməz " sözlərini qeyd edərək, bütün bunlara baxmayaraq ermənilərin sovet hakimiyyəti illərində öz separatizmləri üçün məqam axtardıqlarını qeyd edir. Məsələn kitabda göstərilir ki, ermənilər A. Mikoyanın köməkliyi ilə 50-ci illərin axırlarında da Dağlıq Qarabağ məsələsini qaldırmağa cəhdlər ediblər. O zaman onların müraciətinə N.S.Xuruşovun kəskin cavabı erməni separatçılarının geri çəkilməyə məcbur edib. N. S. Xuruşovun müraciətə cavab olaraq demişdi: "Mən Dağlıq Qarabağ ermənilərinin Ermənistana bir sutka ərzində köçürülməsini təmin etmək üçün 12 min hərbi yük maşını ayrılmasını təklif etməyə hazıram." (680,s.19-20)

Bu cür faktlar onu göstərir ki, başqa dövrlərdən fərqli olaraq 1985-ci ilin aprelindən irəli sürülən yeni siyasət onlara öz məkirli məqsədlərini həyata keçirmək üçün əlverişli şərait yaradıb.

Müəllif kitabda SSRİ ərazisində milli münaqişə ocaqlarının yaranacağı haqqında qərb siyasətçilərinin proqnozları haqqında da məlumat verib. ABŞ prezidentinin köməkçisi Zbiqnev Bjezinski "Vaşinqton tayms" qəzetinə müsahibəsində demişdi: "Yaxın 20-30 il dünyada milli və etnik münaqişələrin mərkəzi Sovet İttifaqı olacaq. Millətçilik orada canlı dinamik qüvvəyə çevriləcəkdir. Sovetlər öz millətlərinin problemlərini nəzarət altına ala bilməyəcəklər. Onların sistemi öldürücü böhran qarşısındadır."(680,s.13)

Kitabda erməni terroçululuğunun qanlı cinayətləri haqqında da çoxlu sayda məlumat var. Müəllif "Yeni Ermənistan" partiyasının terrorçu üzvlərinin 1977-ci ilin yanvarında Moskva metrosunda onlarla adamın ölümü ilə nəticələnən partlayış törətmələrini, erməni diasporunun terrorçu dəstəsinin 1991-ci ilin sentyabrında Paris şəhərinin Usman məhəlləsində 60 nəfəri girov götürməsini, ASALA ("Erməni gizli azadlıq ordusu") üzvlərinin 1991-ci ilin dekabrında Budapeştdə Türkiyənin səfiri Bədrəddin Tunabaşa sui-qəsd təşkil etməsini və digər faktları qeyd edərək erməni terrorizminin köklərini açıb göstərib. (680,s.11) Müəllif

Sumqayıt hadisəsinin də səbəblərini beynəlxalq aləmlə və erməni terrorizmi ilə əlaqələndirərək bu hadisədən sonra Ermənistanda tarixən azərbaycanlıların yaşadığı və DQMV ərazisindən 2 dəfə artıq olan 8 min kv. km ərazini əhatə edən 172 kənddən 200 minə qədər əhalinin vəhşicəsinə qovulmasını, bu qanlı cinayət zamanı 216 nəfərin, o cümlədən 57 qadının, 5 südəmər körpənin, 18 müxtəlif yaşlı uşağın qətlə yetirilməsini faktlarla göstərib. (680,s.103)

Kitabda hadisələrin baş verməsində öz qızışdırıcı fəaliyyəti ilə mühüm rol oynamış Sov.İKP Baş Katibi M.S.Qorbaçovun məsləhətçisi A.Aqanbekyanın 1987-ci ilin noyabrında Fransanın "Humanite" qəzetinə verdiyi müsahibəsi dərc olunub. Həmin müsahibədə A.Aqanbekyan Qarabağ haqqında verilmiş suala cavab olaraq demişdir: "Bir iqtisadçı kimi mən belə hesab edirəm ki, Qarabağ Azərbaycana nisbətən Ermənistanla daha artıq bağlıdır." Halbuki həmin dövrdə DQMV xarici mal dövriyyəsində Ermənistanın payı cəmi 1,5 faiz idi. (680,s.18)

Hadisələrin sonrakı inkişafı göstərdi ki, erməni separatçılarının 1988-ci ilin əvvəllərində fəallaşması məhz Moskvadakı bu cür havadarların himayəsi nəticəsində mümkün olmuşdu.

Azərbaycan KP MK partiya tarixi institutu tərəfindən hazırlanaraq 1989-cu ildə nəşr olunmuş "Dağlıq Qarabağ: zəka qalib gələcək" kitabında 152 partiya və dövlət sənədləri, həmçinin Dağlıq Qarabağ hadisələri ilə bağlı digər sənədlər toplanıb. Kitabda qeyd olunur ki, bu sənədlər Sov.İKP-nın milli məsələnin həllində ardıcıl leninçi yanaşmasını, millətlərin bərabər hüquqluğunu təmin etdiyini inandırıcı şəkildə göstərir. Kitabda kommunist partiayasının mövqeyini əks etdirən sənədlər toplandığından, bu kitab sovet tarixşünaslığının tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir.

Dağlıq Qarabağ probleminə aid qərb ölkələrində də bir sıra kitab və məqalələr yazılıb. Bunlardan Əhməd Təbrizlinin Fransız dilində yazdığı, AFR-də 1989-cu ildə nəşr olunmuş "Qarabağın tarixi və ona aid sənədlər", Tamara Draqadzenin Londonda 1989-cu ildə çapdan çıxmış "Erməni-Azərbaycan münaqişəsi: struktur və inkişaf. Üçüncü dünya dördlüyü" və s. kitabları göstərmək olar. O.Altstadtın, T.Svyatoxovskinin və digər müəlliflərin məqalələri obyektivliyi ilə diqqəti cəlb edir. (204,13 avqust 1989,328, sentyabr 1989, №1,1990)

ABŞ-ın məşhur sovetşünası, Azərbaycan tarixi üzrə mütəxəssis, professor T.Svyatoxovski 1989-cu ilin fevralında ABŞ-dakı erməni mərkəzinin Kolumbiya

universitetində təşkil etdiyi Dağlıq Qarabağ məsələsi ilə bağlı azərbaycan-erməni millətlərarası münaqişənin ildönümünə həsr olunmuş konfransda çıxış edərək demişdir: “Azərbaycanda yaşayan ermənilər də daxil olmaqla Zaqafqaziyada yaşayan bütün ermənilər köklü xalq deyil, gəlmədirlər. Onların böyük hissəsi XIX əsrdə İran və Türkiyədən köçürülüblər...Mənim fikirimcə ermənilərin tələbləri ədalətsiz tələbdir...Burada yaşayan yerli ermənilər də Qarabağ və Gəncə xanlığının tərkibində yaşamışlar. Gəncə kimi Qarabağ da şübhəsiz ki, Azərbaycan torpağıdır.”(328, sentyabr 1989)

Həmin ildə Qarabağ problemi Fransada keçirilmiş “Dialoq-89” və s. beynəlxalq tədbirlər də müzakirə olunub.

Z.Səmədzadənin 1995-ci ildə nəşr olunmuş “Dağlıq Qarabağ: naməlum həqiqətlər” kitabında erməni saxtakarlarının fikirləri faktlarla ifşa edilib. Müəllif qeyd edir ki, DQMV-də sənaye məhsulunun ümumi həcmi 1976-cı ildə 53% idisə, 1986-cı ildə 60% olmuşdur. Bu müddətdə sənaye məhsulları istehsalının inkişaf sürətinə görə orta respublika göstəricisi 178,7% idisə, DQMV-də 183% idi. Adambaşına düşən sənaye məhsullarının həcminə görə DQMV respublikanın digər regionları arasında birinci yerə çıxmışdır. Kitabda qeyd olunur ki, Azərbaycan SSR Dövlət statistika idarəsinin 1988-ci ilə olan məlumatına görə sosial-iqtisadi inkişafın bir sıra sahələrinə görə DQMV hətta Ermənistanı da qabaqlayırdı.

Kitabda daha sonra göstərilir ki, 1979-cu il əhalinin siyahıya alınmasının nəticələrinə görə Azərbaycanda ermənilərin ümumi sayının 25,9%-i DQMV payına düşürdü. 1926-1988-ci illərdə vilayət əhalisinin sayı 57,1 min nəfər və ya 45,6% artıb. 70-ci illərdə vilayətin azərbaycanlı əhalisinin respublikanın və SSRİ-nin digər ərazilərinə köçməsi əhalinin nisbətinə təsir göstərib. Müəllif qeyd edir ki, 1989-cu ilin yanvarına olan məlumatda vilayətin 189 min 29 nəfər sakininin 145 min 450 nəfərinin (77%) erməni, 40 min 632 nəfərinin (21%) azərbaycanlı olduğu göstərilsə də bu həqiqəti əks etdirmir. Çünki 1989-cu il siyahıya alınmasında ermənilərlə bağlı şişirdilmiş rəqəmlər əsas götürülüb. Yəni rəsmən vilayətdə qeydiyatda qalan, lakin Ermənistan SSR-də, yaxud SSRİ-nin başqa ərazilərində daim yaşayan və işləyən ermənilər (15-20%) vilayət sakini kimi qələmə verilmiş, vilayətin azərbaycanlılar yaşayan kəndlərindən, o cümlədən Stepanakertdən 1988-ci il sentyabrın 18-də qovulmuş 15 min azərbaycanlı nəzərə alınmamışdır.

1989-cu il iyulun 19-da ABŞ senatının Azərbaycan SSR-in DQMV-də

vəziyyətə dair qətnamə qəbul etməsi münaqişənin beynəlmiləlləşdirməsi üçün şərait yaratdı. Bu da Venetsiyada erməni məsələsinə dair "Ermənistan sosialist partiyası" tərəfindən təşkil olunmuş konfransda "münaqişəni beynəlmiləlləşdirmək" haqqında qərar qəbul olunması ilə nəticələndi. (204,23 iyul, 10 sentyabr 1989)

Artıq 80-ci illərin ikinci yarısında başqa sahələrdə olduğu kimi ideoloji mübarizədə də sosializm sisteminin geriliyini Azərbaycan alimləri də təsdiq edirdilər. Məsələn, professor S.Qəndilov siyasi tarix sahəsində tədqiqatlara həsr olunmuş məqaləsində sovet tərəfinin ləng iş aparmasını tənqid edərək burjua alimlərinin daha fəal olduğunu qeyd etmişdir ki, bu da o dövr üçün cəsarətli addım hesab olunurdu. ( 204, 7 may 1989)

Tarixçi alimlər K. Şükürov və E. Əlibəylinin "Azərbaycan demoqrafiyası (problemlər və mülahizələr)" məqaləsində millətlərarası münasibələrin kəskinləşməsində demoqrafiya sahəsində mövcud problemlərin də mühüm rol oynaması göstərilib. Məqalədə qeyd edilir ki, "Azərbaycan demoqrafiya elmininin indiki vəziyyəti çox təşviş doğurur və bu nəinki respublikanın indiki həyatına, siyasi vəziyyətinə də mənfi təsir göstərir. Son vaxtlar milli münasibətlər zəminində baş verən xoşagəlməz hadisələr məhz bir də bu məsələlərin dərindən öyrənilməməsinin nəticəsində baş vermişdir." (111, 3 iyun 1988)

Ş.Yaqubovun 1995-ci ildə nəşr olunmuş "Qətiyyətin təntənəsi" kitabında Türkiyyəli publisist İrfan Ülkünün 1994-cü ildə Bakıda nəşr olunmuş "Qızıl ulduzdan hilala doğru" kitabına istinadən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəzi məsələlərə aydınlıq gətirilir. Kitabda digər məsələlərlə yanaşı H.Əliyevin Sov. İKP MK Siyasi Bürosundan uzaqlaşdırılması ilə Dağlıq Qarabağda münaqişəsinin başlaması arasında əlaqənin olduğu qeyd olunur. Kitabda göstərilir ki, H.Əliyev bu məsələni müsahibələrinin birində belə izah edib: "Moskvanın Qarabağ əməliyyatı mənim Siyasi Bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmış, lakin tətbiq olunmasında mən ciddi maneə imişəm. Azərbaycanın bu milli məsələsi ilə əlaqədar Qorbaçov, onunla mümkün olmasa, Liqaçov, Viktor Çebrikov və DTK sədri, eyni zamanda Siyasi Büro üzvü Kryuçkovla danışmaq istəyirdim. "Əlimdə sənədlər, sübutlar var, Qarabağ Azərbaycanın öz torpağıdır"- deyirdim. Onların mənə cavabı isə bu idi: "Biz Qarabağdakı erməni-azərbaycan münaqişəsi ilə bağlı problemi özümüz həll edəcəyik"

Y.M.Mahmudov, K.K.Şükürovun 2009-ci ildə nəşr olunan " Qarabağ: real tarix, faktlar, sənədlər" kitabı faktların zənginliyinə və məsələlərə obyektiv yanaşılmasına görə digər kitablardan fəqlənir. Müəlliflər mənbələr əsasında Qarabağın tarixini qədim zamanlardan müasir dövrədək tədqiq ediblər.(257)

Prof. K.K.Şükürov və T.R.Baqiyevin tərtib etdiyi və Sank-Peterburqda rus dilində nəşr olunmuş " Qarabağ: konfliktin kontekstindən tarix" kitabı (593) problemin obyektiv öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Kitabda Süleyman Əliyarlı, İqrar Əliyev, Fəridə Məmmədova, Ziya Bünyadov, Vaqif Piriyev, Məşədi xanım Neymətova, Oktay Əfəndiyev, Gövhər Məmmədova, Fuad Əliyev, Mahmud İsmayılov, Kərim Şükürov, Eldar İsmayılov, Odri L.Altştadt, Tomas Qoles, Blanka Xançilova, Tim Pote, Rik Foun kimi görkəmli tarixçilərin Dağlıq Qarabağ probleminə aid yazdıqları məqalələr toplanıb. Burada toplanmış məqalələrin qısa məzmunu haqqında giriş hissədə layihənin rəhbəri T.K.Heydərov yazır:"İ.Əliyevin "Qarabağ qədim dövrdə" məqaləsində Qarabağ tarixinin ilkin tarixi dövrü-regionda ilk insanların əmələ gəlməsi və ilk etno-siyası birləşmələrin formalaşması dövrü tədqiq edilir. Qarabağın tarixi Qafqaz Albaniyasının tarixinin fundamental problemləri ilə sıx bağlı olduğundan F.Məmmədovanın "Qarabağ probleminin Alban mənbələri" məqaləsində bu məsələlər işqlandırılıb...Görkəmli tarixçi Z.Bünyatovun "Azərbaycan VII-IX əsrlərdə" monoqrafiyasından verilmiş bir parça Qarabağ tarixinin fundamental məsələsinə-qriqoryanlaşdırılma prosesinə həsr olunub... V.Piriyevin ("Qarabağ hülakülər və cəlarilər dövlətlərinin tərkibində XII-XIVəsrlər"), O.Əfəndiyevin ("Qarabağ Ağqoyunlu və Səfəvilər dövlətlərinin tərkibində XV-XVII əsrlər"), F.Əliyevin ("Qarabağ xanlığı (XVIII əsr)"), K.Şükürovun ("Azərbaycan Qarabağ xanlığı ilə Rusya arasında bağlanmı 1805-ci il Kürəkçay müqaviləsi"), M.İsmayılovun ("Qarabağ XIX-XX-əsrin əvvələrində"), E.İsmayılovun ("Dağlıq Qarabağın sovet tarixnin Arsax təssübkeşliyi haqqında") məqalələri Qarabağın tarixini xronoloji ardıcıllıqla təqdim edir.

M.Neymətin ("Qarabağın epiqrafik abidələri"), G.Məmmədovanın ("Şimali Azərbaycanın məlikləri və xristian məlikləri məsələsi haqqında"), K.Şükürovun ("Dağlıq Qarabağın muxtariyyətləşməsi məsələləri haqqında") məqalələrində Qarabağ tarixinin konkret məsələləri tədqiq edilib.

Azərbaycanşünas-tarixçi Odri L.Altştadt Dağlıq Qarabağ probleminin praktik aspektləri ilə maraqlanaraq "yaraları kim sağalda bilər?" sualına cavab verməyə

çalışır. Digər məhşur qərb azərbaycanşünası T. Qoles Dağlıq Qarabağ münaqişəsinin vacib problemlərindən olan, “qərb kütləvi informasiya vasitələri Dağlıq Qarabağ münaqişəsi haqqında” məsələlərini öyrənib. B.Xançilova “Dağlıq Qarabağ: öz müqəddəratını təyin etməyə olan iradlara yenidən baxılır”, T.Pote Qarabağın statusuna aid referendum:tənqidi təhlil”, R.Founun “Dağlıq Qarabağ ətrafında münaqişə və balkan xalqlarının müstəqilliyi” məqalələrində öz müqəddəratını təyinetmə, referendum və başqa məsələlər təhlil edilir.

Biz ümid edirik ki, bu toplum Azərbaycan Respublikası Dağlıq Qarabağ regionunun çətin  tarixi-coğrafi problemlərinin dərk olunmasında mühüm rol oynayacaq.”(593,s.7-8)

Ə.Abdullayevin 1995-ci ildə nəşr olunmuş “Ermənistanın Azərbaycana təcavüzkar siyasəti tarixindən” kitabında müəllif  DQMV Soveti deputatlarının 20 fevral 1988-ci il tarixli müraciətinə qədər 1987-ci ilin oktyabrında Yeravanda Puşkin adına parkda “Qarabağ” komitəsinin mitinq keçirməsi haqqında məlumat verir. Müəllif bu mitinqdə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları irəli sürməsini faciənin başlanğıc nöqtəsu hesab edir.

Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutu tərəfindən 1989-cu ildə nəşr olunmuş “DQMV ətrafındakı hadisələr saxtalaşdırıcıların əyri güzgüsündə” adlı sənədlər toplusunda Moskvada, Ermənistan SSR və DQMV-də nəşr olunan qəzetlərdə erməni separatçılarının Dağlıq Qarabağla bağlı yazıları və şərhlər toplanıb. Bundan başqa kitabda Azərbaycan mətbuatında DQMV-nin iqtisadiyyatına, ictimai-siyasi vəziyyətinə aid  dərc olunmuş məqalələr və hətta heç bir yerdə dərc olunmamış müraciətlər, sənədlər xronoloji ardıcılıqla verilib.

Çağdaş Azərbaycan milli-azadlıq hərəkatının başlanmasında Dağlıq Qarabağ ətrafında baş verən hadisələr katalizator rolu oynasa da, prosesə təkan verən ictimai-siyasi və sosial  ziddiyyətlərin kökü çox dərin idi. Sov.İKP MK-nın məlumatına görə, təkcə 1988-ci ildə Sov.İKP MK-ya göndərilmiş 54238 məktubun 28287-si, yəni 52,2%-i millətlərarası münasibətlərə aid idi. Bu məktubların da əksəriyyəti Baltikyanı respublikalardan, Ermənistan və Azərbaycandan göndərilmişdir. (564,№7,1989,s.130-131) Bu kimi faktlar bir daha onu göstərir ki, sosial, iqtisadi, siyasi problemlərlə yanaşı sovet cəmiyyətində millətlərarası münasibətlərdə mövcud olan ciddi problemlər 80-ci illərin axırlarında özünü qabarıq şəkildə büruzə verməyə başlamışdı.

1988-ci ilin fevralından Azərbaycanda baş verən proseslər respublika rəhbərliyini bir sıra tədbirlər görməyə məcbur etmişdir. Məsələn, əvvəlki illərdə “Azərbaycan tarixi” nin tədrisinə bəslənən ögey münasibəti müəyyən qədər aradan qaldırmaq məqsədi ilə orta məktəblərdə tədris saatları artırılmış, ixtisasından asılı olmayaraq bütün ali məktəblərdə “Azərbaycan tarixi” tədris olunmağa başlanmışdır. Dərsliklərin olmaması bir çox çətinliklər yaratdığına görə bu dövrdə bir sıra kitablar da nəşr olunmuşdur.

Akademik Z. Bünyadovun redaktorluğu ilə 1990-cı ildə rus dilində çap çıxmış “Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə” kitabı məhz bu zərurətdən yaranmış kitablardandır. Kitabda tarixçi alimlərdən İ.Əliyev, F.Məmmədova, X.Xəlilov, R.Şükürovanın Qarabağın qədim tarixinə aid məqalələri, A.S.Qriboyedovun, N.İ.Şavrovun, V.İ.Veliçkonun ermənilərin Qarabağa köçürülməsi və onların separatçı hərəkətləri haqqında məlumatları, tarixi sənədlər və mənbələr, 1918-1923-illərə aid arxiv sənədləri, Dağlıq Qarabağın 1988-1990-cı illərdəki vəziyyətinə aid sənədlər, Z.Bünyadovun “Niyə Sumqayıt?”, N.Vəlixanovanın “Zori Balayana “Yol” kitabı ilə əlaqədar fikirlər” məqalələri və s. materiallar çap edilib.

Erməni separatçıları 80-ci illərin axırlarında Dağlıq Qarabağ məsələsi ilə yanaşı Ermənistanda yaşayan azərbaycanlıların kütləvi şəkildə qovulması prosesinə başlamışdılar ki, bu işdə də onlar sovet ordusunun dəstəyində istifadə edirdilər.

M.C.Neymət və B.A.Quliyevanın 2007-ci ildə çapdan çıxmış “Azərbaycan xalqının maddi-mədəniyyət abidələri-erməni terrorunun hədəfində” kitabı erməni terrorçuları tərəfindən dağıdılmış Azərbaycan maddi-mədəni abidələrindən bəhs edir. Kitab giriş, iki fəsil və nəticədən ibarətdir. Kitabın “Qərbi Azərbaycan ərazisində (Ərazidə hazırda Ermənistan Respublikası yerləşir) tarixin saxtalaşdırılması və abidələrin məhv edilməsi” adlanan birinci fəslində müəlliflər ümummili lider H.Əliyevin tarixçilər qarşısında qoyduğu vəzifəni qeyd edirlər.

H.Əliyev tarixçilər qarşısında fudamental, elmi, populyar əsərlər yazmaqla Azərbaycanın ərazi bütövlüyünü qoruyub saxlamaq üçün gələcək nəsillər üçün güclü konsepsiya hazırlamaq vəzifəsi qoymuşdur. Bu konsepsiya gələcəkdə hansısa qüvvə tərəfindən Azərbaycan torpaqlarını işğalına imkan verməməli, əsərlər yazılmalıdır ki, indiki Ermənistanın yerləşdiyi ərazinin Azərbaycana

məxsus olduğunu sübut edilsin. (332, 11 fevral1999 )

Kitabın ikinci fəsli "Ermənilər tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində maddi mədəniyyət abidələrin məhv edilməsi"adlanır. Bu fəsildə müəlliflər faktlarla qədin azərbaycan abidələrinin ermənilər tərəfindən məhv edilməsini, bəzi abidələrin isə saxtalaşdıraraq öz adlarına çıxmalarını tənqid edirlər. Kitabda erməni müəlliflər tərəfindən hətta saxta tarixi kitablar da yazıldığı qeyd olunub. Müəlliflər bu cür saxta kitablara misal olaraq S.Karapetyanın 2000-ci ildə İrəvanda çap olunmuş "Dağlıq Qarabağ ərzisində erməni mədəni abidələri" kitabını göstərərək oradakı saxtakarlıqları faktlarla ifşa edirlər.

Əziz Ələkbərlinin "Qərbi Azərbaycanlıların 1988-ci il soyqırımı (Sənədlərin dili ilə)" kitabında sovet tarixşünaslığında olmayan bi sıra məsələlər işıqlandırılıb. Kitabda İrəvan şəhərinin tarixi və onun azərbaycanlılara məxsus olmasına aid tutarlı faktlar öz əksini tapıb. Bundan başqa azərbaycanlılara məxsus olan, sonradan ermənilər tərəfindən adları dəyişdirilmiş 22 rayon, Axta, Vedi, Zəngibasar, Qəmərli, Ellər, Barana, Allahverdi, Vorontsovka, Böyük Qarakilsə, Hamamlı, Cəlaloğlu, Amasiya, Sərdarabad, Karvansara, Başkeçid, Qarakilsə, Meğri, Gorus, Çəmbərək, Qafan, Keşişkənd, Paşalı rayonları və 258 kənd haqqında ətraflı məlumat verilib. Bu məlumatlarda azərbaycanlıların 1988-ci il hadisələri zamanı hər bir yaşayış məntəqəsində əllərindən alınmış ictimai əmlakın siyahısı verilib. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət komitəsi sədrinin, Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədr və məsul katibinin imzaladığı "1988-ci ildə Qərbi Azərbaycanda (İndiki Ermənistan Respublikasının ərazisində) azərbaycanlılara qarşı törədilmiş soyqırımının onlara vurduğu maddi və mənəvi ziyan haqqında" arayış hadisələr haqqında obyektiv məlumatlar əldə etmək üçün etibarlı mənbə rolunu oynaya bilər. Arayışda deyilir: "Hazırda Ermənistan Respublikası adlanan Qərbi Azərbaycan ərazisindəki azərbaycanlı kəndləri və rayonlarının adlarının dəyişdirilib erməni adları ilə əvəz olunması və azərbaycanlı əhaliyə qarşı göstərilən digər demoqrafik təzyiqlər Ermənistan SSR yaradılan zamandan başlayaraq, 1988-ci ildə son kulminasiya həddinə çatdı.

1988-ci ildə Qərbi Azərbaycandan (indiki Ermənistan Respublikası) təkcə azərbaycanlılar yaşayan 172 kənddən, 89 qarışıq kənd və 6 şəhər tipli yaşayış məntəqəsindən 49.928 ailə ( 250.000 nəfər azərbaycanlı) öz doğma yurdlarından

zorla qovuldular. Bu zaman 226 nəfər soydaşımız ermənilər tərəfindən öldürülmüş (güllələnmiş, qəsdən avtomobil qəzasına salınmış, dağ yollarında donmuş və s.) 400 nəfərdən çox adam bədən xəsarəti almışdır. Bir çox azərbaycanlıların evləri, əmlakları yandırılmışdır. (126,s.8)

Əsas qaçqınlıq dövrü 1988-ci ilin noyabr-dekabr aylarına təsadüf etdiyindən, soydaşlarımızın kolxozda olan illik əmək haqları ermənilərə qalmış, bir çoxları dövlət banklarında olan əmanətlərini götürə bilməmiş, məcburiyyət qarşısında qalaraq, öz geniş bağ-bağçalarını və xüsusi evlərini Azərbaycanda dövlət binasında yaşayan ermənilərin 2-3 otaqlı mənzilləri ilə dəyişməli olmuşlar.

Bu zaman Ermənistandan gəlmiş qaçqınların əmlakı, mal-qarası, bağ-bağçasının dəyəri Azərbaycan Qaçqınlar Cəmiyyətində toplanmış sənədlər əsasında təxmini hesablanaraq müəyyən olunmuşdur ki, qaçqın əhaliyə dəyən maddi ziyan 2,5 milyard ABŞ dolları təşkil edir. Kolxaozlarda azərbaycanlılara məxsus olan 43.789 baş iribuynuzlu, 454.660 baş xırdabuynuzlu mal-qara, çoxsaylı ev quşları və donuzları, arı ailələri, 170 mədəniyyət evi, 274 məktəb binası, 119 kitabxana, uşaq bağçaları, həkim məntəqələri, məscid binaları, 1.381 yardımçı təsərrüfatı tikintiləri, 2.169 avtomaşın, 1.976 traktor, 3.132 kənd təsərrüfatı texnikası, minlərlə hektar üzüm və meyvə bağları ermənilərə qalmışdır. Bunların hamısının dəyəri təxmini hesablamalara uyğun olaraq, 17,5 milyard ABŞ dolları təşkil edir. (126,s.9)

Beləliklə qaçqınlara dəyən ümumi maddi ziyan 20 milyard ABŞ dolları təşkil edir. Soydaşlarımıza dəyən mənəvi ziyanın qədəri isə ölçüyə gəlməzdir. Yuxarıda qeyd olunanlar haqqında SSRİ Prokurorluğundan, Ermənistan SSR prokurorluğundan və Ermənistan SSR-in rayon prokurorluqlarından, o zamankı Rayon İcraiyyə Komitələrindən və digər səlahiyyətli dövlər qurumları tərəfindən təsdiq edilmiş möhürlü-imzalı sənədlər Azərbaycan Qaçqınlar Cəmiyyətində saxlanılır.

Bu gün Ermənistandan qaçqın düşən əhalidən su, hava, iqlim şəraitinin dəyişməsi nəticəsində ölənlərin sayı yüzlərlədir."(126, s.9 -10)

Kitabın "Qərbi Azərbaycanlıların 1988-ci il soyqırımını təsdiq edən sənədlərdən nümunələr" başlıqlı bölmündə sənədlər, foto şəkillər, məktublar, ərizələr toplanıb. (126,392-550)

Millət vəkili Elxan Süleymanov və i.ü.e.d. Vurğun Süleymanovun 2012-

ci ildə yazdığı "Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri" kitabında təcavüz nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi zərərin müəyyənləşdirilməsinə yönəlmiş kompleks məsələlər ilk dəfə olaraq araşdırılıb. Kitab giriş, 5 fəsil və nəticədən ibarətdir. Kitabın məsləhətçiləri Belçika Konstitusiya Məhkəməsinin hakimi Jan Pol Murman, Almaniya millət vəkili (1976-2009) Eduard Lintner və coğrafiya elmləri doktoru, professor Çingiz İsmayılovdur. Kitaba Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi və geosiyasi kökləri tədqiq olunmuş və Ermənistanın Azərbaycan ərazilərini işğal faktını beynəlxalq təşkilatların tanıması üçün mühüm sənədlər də əlavə edilib. Kitab azərbaycan, rus, ingilis, fransız, ukrayna və ərəb dillərində nəşr olunub.

Kitabın giriş hissəsində müəlliflər qeyd edirlər ki, Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) və digər 7 rayon işğal edilmiş, 20 min azərbaycanlı həlak olmuş, 50 min insan yaralanmış və müxtəlif dərəcəli xəsarət almış, 5 mindən artıq azərbaycanlı əsir və itkin düşmüş, Ermənistanın öz ərazisində və işğal etdiyi Azərbaycan ərazilərində həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. Müharibə nəticəsində 900-dən çox ya- şayış məntəqəsi dağıdılmış və qarət edilmiş, mülki əhalinin ümumilikdə 9 milyon m2 sahədə evləri, dövlət müəssisələri və sosial obyektlər dağıdılmış və yandırılmışdır. Ümumiyyətlə, Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və Azərbaycan ərazilərinin işğalı nəticəsində ölkəmizə bilavasitə dəyən zərərin miqdarı onlarla milyard dollar hesablansa da, müxtəlif mənbələrdə bu barədə dəqiq məlumat verilmir. Ümumiyyətlə, vurulmuş zərər deyəndə həm dövlətin özünə vurulmuş zərər, həm də onun vətəndaşlarına, təşkilatlarına və kommersiya strukturlarına vurulmuş zərər nəzərdə tutulur.( 363,s.3)

Kitabın "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi və geosiyasi kökləri" adlanan birinci fəslində ermənilərin XIX əsrin əvvəlindən başlayaraq Azərbaycan ərazilrəinə çar Rusiyası tərəfindən köçürülməsi, 1918-ci ilin mart ayında müxtəlif bölgələrdə yerli müsəlman əhaliyə qarşı soyqırım həyata keçirmələri, sovet hakimiyyəti illərində Azərbaycanlılara qarşı yeridilən ayrı-seçkilik siyasəti faktlarla göstərilmişdir. Kitabda qeyd olunur ki, Azərbaycana

qarşı silahlı təcavüz ölkənin Dağlıq Qarabağ bölgəsində erməni separatçı qrupların hüquqazidd hərəkətləri ilə başlanmışdır. Ermənistanın hakimiyyət orqanları isə separatçıların bu əməllərini özlərinin beynəlxalq hüquq normaları ilə ziddiyyət təşkil edən qərarları ilə dəstəkləmiş və Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürmüşdür. Bu qərarlar sırasında Ermənistan SSR Ali Sovetinin "Ermənistan SSR ilə Dağlıq Qarabağın birləşdirilməsi haqqında" 1 dekabr 1989-cu il tarixli qərarı və Ermənistanın dövlət suverenliyi haqqında 23 avqust 1990-cı il tarixli bəyannamə xüsusilə vurğulanmalıdır. Ermənistan tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normaları ilə ziddiyyət təşkil edən həmin sənədlərə görə, digər bir dövlətin ərazisinin bir hissəsi - Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi "Ermənistan Respublikasının ayrılmaz hissəsi" elan edilirdi. Ermənistan SSR Ali Sovetinin qeyd edilən qərarları bu dövlətin silahlı qüvvələrinin Azərbaycan Republikasına qarşı silahlı təcavüzü nəticəsində reallaşdırıldı.(363,s.5)

Kitabın birinci fəslində qeyd olunur ki, "Ermənistan hakimiyyəti öz ərazisində yaşayan azərbaycanlıları öz tarixi torpaqlarından deportasiya etməklə kifayətlənməmiş və 1988-1994-cü illərdə Azərbaycana qarşı silahlı təcavüz etmişdir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV), eləcə də ona bitişik olan 7 rayonunun (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları) əraziləri işğal edilmişdir. Bundan əlavə Azərbaycanın cəbhəyanı və Ermənistanla sərhədyanı rayonlarının da bir sıra yaşayış məntəqələri işğal olunmuş (Naxçıvan MR, Qazax, Tərtər, Ağcabədi, Gədəbəy) və ciddi zərər (Ağstafa, Beyləqan, Tovuz) vurulmuşdur. Hazırda Dağlıq Qarabağ və ona bitişik ərazilər də daxil olmaqla, Naxçıvan Muxtar Respublikasının işğal olunmuş 2 kəndindən biri, Ağdam rayonunun işğal olunmuş 82 kəndindən 80, Füzuli rayonunun işğal olunmuş 76 kəndindən 54, Tərtər rayonunun 13 kəndi və Qazax rayonunun işğal olunmuş 12 kəndindən 7 kəndi  hələ də işğal altında qalmaqdadır."(363,s.11)

Kitabın "Beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktının tanınması" adlanan ikinci fəslində BMT Təhlükəsizlik Şurasının  30 aprel 1993-cü ildə qəbul etdiyi 822,  29 iyul 1993-cü ildə qəbul etdiyi 853, 14 oktyabr 1993-cu ildə qəbul etdiyi 874 və 12 noyabr 1993-cu ildə qəbul etdiyi 884 saylı qətnamələrnin böyük siyasi və hüquqi əhəmiyyətə

malik olduğu göstərilir. Kitabda qeyd olunur ki, qətnamələrdə "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında münaqişə" ifadəsi öz əksini tapmışdır.

Kitabda həmçinin göstərilir ki, BMT Baş Assambleyası tərəfindən, baş komitələrə vermədən, qəbul olunmuş 16 yanvar 1998-ci il tarixli "Birləşmiş Millətlər Təşkilatı və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq haqqında" A/RES/52/22 saylı qətnamənin 16-cı bəndində "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında olan münaqişə" ifadəsi əks olunmuşdur. Analoji ifadə BMT Baş Assambleyası tərəfindən 9 fevral 2000-ci ildə qəbul olunmuş A/RES/54/117 (bənd 16), 2 mart 2001-ci ildə qəbul olunmuş A/RES/55/179 (bənd 15), 14 fevral 2002-ci ildə qəbul olunmuş A/RES/56/216 (bənd 2), 6 fevral 2003-cü ildə qəbul olunmuş A/RES/57/298 (bənd 26) qətnamələrdə öz əksini tapmışdır.

Yuxarıda qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olar ki, BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının rəsmi sənədlərində:

- Dağlıq Qarabağ Azərbaycanın bir regionu kimi tanınır. BMT-nin sənədlərində birmənalı olaraq Dağlıq Qarabağ regionunun Azərbaycana mənsub olması təsdiq edilir;
- Azərbaycan ərazilərinin işğal olunması faktı etiraf edilir;
- aparılmış etnik təmizləmə nəticəsində Azərbaycan əhalisinin qovulmasından sonra Dağlıq Qarabağ ərazisində qalmış əhali mövcüd olmayan "Dağlıq Qarabağ xalqı" kimi Ermənistanın yox, "Azərbaycanın Dağlıq Qarabağ regionunun erməniləri" kimi tanınır;
- regionda olan bütün dövlətlərin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazinin əldə edilməsi üçün gücdən istifadə edilməsinin yolverilməzliyi təsdiqlənir;
- Azərbaycanın işğal olunmuş bütün rayonlarından işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur;
- Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən qovulmuş əhalinin öz evlərinə qayıtmasına olan ayrılmaz hüququ təsdiqlənir və belə qayıdış üçün müdaxilədən zərərçəkmiş ərazilərin hərtərəfli reabilitasiyası da daxil olunmaqla, lazımi şəraitin yaradılması zərurəti qeyd olunur;
- Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda erməni və Azərbaycan

icmaları üçün normal, təhlükəsiz və bərabər yaşayış şəraitinin təmin edilməsi zərurəti etiraf edilir; xüsusi qeyd olunur ki, Azərbaycan Respublikasının ərazilərinin işğal olunması nəticəsində yaranmış vəziyyətin qanuni olmasını heç bir dövlət tanımamalıdır və belə vəziyyətin saxlanılmasına kömək və ya yardım etməməlidir. (363,s.25-26)

Müəliflər ikinci fəsildə həmçinin Avropa Şurasının Parlament Assambleyası, Avropa İttifaqı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO), İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumların qəbul etdikləri sənədləri də təhlil edərək Azərbaycanın ərazi bütövlüyü ən nüfuzlu dövlətlərarası beynəlxalq təşkilatlar tərəfindən tanındığını və dəstəkləndiyini faktlarla sübut etmişlər.

Kitabın "Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi nəticəsində fövqəladə humanitar vəziyyətin yaranması" adlanan üçüncü fəslində qeyd olunur ki, ümumiyyətlə, Ermənistanın silahlı təcavüzü nəticəsində keçmiş DQMV-nin inzibati ərazisinə daxil olmayan işğal edilmiş Azərbaycanın rayonlarının ərazisi Dağlıq Qarabağ bölgəsinin ərazisindən dörd dəfə böyükdür. Bu fəsildə Ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində insan hüquqları sahəsində qəbul edilmiş çoxsaylı beynəlxalq müqavilələrdə ehtiva edilmiş normaların pozulduğu faktlarla göstərilmişdir. Müəlliflər "İnsan hüquqlarına dair Ümumdünya Bəyannaməsi"-nin, "Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt"-ın, "İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Beynəlxalq Pakt"-ın, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya"-nın, "İşgəncələrə və digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan münasibətlərə qarşı və ona görə cəzalandırma haqqında Konvensiya"-nın, "Uşaq hüquqları haqqında Konvensiya"-nın bütün müddəaları ciddi şəkildə pozulduğunu qeyd ediblər. Bundan əlavə, silahlı təcavüz zamanı beynəlxalq humanitar hüquq normaları da, o cümlədən "Quruda müharibə aparma qanunları və adətləri haqqında" 18 oktyabr 1907-ci il Haaqa Konvensiyasının (Konvensiya IV), "Müharibə vaxtı mülki əhalinin müdafiəsi haqqında" 12 avqust 1949-cu il Cenevrə Konvensiyasının, "Hərbi əsirlərlə davranış haqqında 12 avqust 1949-cu il Cenevrə Konvensiyası"-nın, "Beynəlxalq silahlı münaqişələrin qurbanlarının müdafiəsi haqqında" 12 avqust 1949-cu il Cenevrə Konvensiyalarına əlavə Protokolun (1977- ci il), BMT Baş Assambleyasının "Silahlı münaqişələr zamanı

qadın və uşaqların müdafiəsi haqqında" 14 dekabr 1974-cü il tarixli 3318(XXIX) qətnaməsinin müddəaları ciddi şəkildə pozulması da xüsusi qeyd olunmuşdur. (363,s.25-26)

Kitabın "Ermənistanın işğalı nəticəsində Azərbaycan tarixi və mədəniyyət abidələrinə dəymiş zərər" adlı dördüncü fəslində Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə Azərbaycan xalqının tarix və mədəniyyət abidələrinin dağıdılması və qəsdən korlanması kimi əməlləri Silahlı munaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında Haaqa Konvensiyasının (1954-cu il), Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında Paris Konvensiyasının (1970-ci il), Arxeoloji irsin muhafizəsi haqqında Avropa Konvensiyasının (1992-ci il), YUNESKO-nun Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında Konvensiyasının (1972-ci il) müddəalarının ciddi və kobud şəkildə pozulması ilə müşayiət edilmişdir. Bu fəsildə qeyd olunur ki, Ermənistan tərəfindən işğal edilmiş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri qalmışdır. Bunlarla yanaşı, 40 mindən artıq eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray,8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi, 103200 ədəd mebel avadanlığı, 5640 musiqi aləti, 481 kinoqurğu, 20 ədəd kinokamera, 423 videomaqnitofon, 5920 dəst milli kişi və qadın geyimləri, 40 komplekt səsgücləndirici, 25 iri və 40 kiçik həcmli attraksion işğal olunmuş ərazilərdə qalmışdır. (363,s.64)

Kitabın "Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə vətəbii sərvətlərə dəymiş zərər" adlanan beşinci fəslində göstərilir ki, bütövlükdə, Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərində 247352 ha meşə sahəsi, o cümlədən 13197,5 ha qiymətli meşə sahələri, 152 ədəd təbiət abidəsi və 5 ədəd geoloji obyekt qalmışdır və böyük əhəmiyyət kəsb edən bu təbiət abidələrinin əksəriyyəti işğalçı dövlət tərəfindən amansızcasına məhv edilmişdir. Kitabda həmçinin qeyd edilir ki, 1976-cı ildə Tərtər çayı üzərində inşa edilmiş, bəndinin hündürlüyü 125 m və ümumi su tutumu 560 milyon m3 olan Sərsəng su anbarı da Ermənistanın işğalı altında qalmış ərazilərdə yerləşir. Ermənistanın

işğalından əvvəl Sərsəng su anbarından öz başlanğıcını götürən magistral kanallar vasitəsilə Azərbaycanın düzənlik hissələrində yerləşən Tərtər, Ağdam, Bərdə, Goranboy və digər rayonları ərazilərində 79000 ha əkin sahəsi suvarılırdı. Hazırda Azərbaycanın 7 rayonu Sərsəng su anbarından istifadə etmək imkanlarından məhrum edilmişdir. Uzun müddət ərzində texniki qurğulara xidmət göstərilməməsi nəticəsində qəza vəziyyətində olan anbardan
aşağıda yerləşən 400 min nəfər Azərbaycan əhalisi hazırda təhlükə altında yaşayır. (363,s.70-73)

Kitabın "Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş sosial-iqtisadi zərər" adlanan altıncı fəslində qeyd olunur ki, ümumiliklə, Ermənistanın silahlı təcavüzü nəticəsində işğal edilmiş Azərbaycan ərazilərində 900-dən artıq yaşayış məntəqəsi (şəhər, qəsəbə, kənd və s.), ümumi sahəsi 9,1 mln m2 olan 150 minə yaxın yaşayış evi və mənzil, 4366 sosial-mədəni təyinatlı obyekt, 7000 ictimai bina, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 1025 məktəb, 855 uşaq bağçası, 4 sanatoriyamüalicə kompleksi, 798 səhiyyə müəssisəsi, o cümlədən 695 xəstəxana və digər tibb müəssisəsi, 927 kitabxana, 1510 mədəniyyət müəssisəsi, 598 rabitə obyekti dağıdılaraq məhv edilmişdir. Bundan əlavə, 5198 km avtomobil yolu, 348 körpü, 286 km dəmir yolu xətti, 116 dəmir yolu körpüsü, 224 su anbarı, 7568 km su xətti, 2000 km qaz kəməri xətti, 76940 km elektrik xətti dağıdılmışdır. (363,s.82)

Kitabın "Ermənistanın işğalı nəticəsində Azərbaycana dəymiş maddi zərərin ümumi miqdarı" adlanan yeddici fəslində faktlara istinad olunmaqla işğal nəticəsində dəymiş ziyanın miqdarı haqqında məlumat verilir. Müəlliflər qeyd edir ki, Azərbaycanın BMT-də Daimi Nümayəndəliyinin BMT Baş Katibinə ünvalandığı 25 oktyabr 1996-cı il tarixli məktubunda göstərilir ki, ilkin və axıra qədər müəyyən olunmayan məlumatlara görə Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticəsində vurulmuş maddi zərərin ümumi dəyəri on milyardlarla ABŞ dolları təşkil edir . İslam Konfransı Təşkilatının sənədlərində də bu rəqəm 60 mlrd. ABŞ dolları həcmində göstərilir. 13-14 Mart 2008-ci ildə keçirilmiş İslam Konfransı Təşkilatının on birinci Zirvə Görüşündə ("Müsəlman Umması 21-ci əsrdə") qəbul olunmuş "Üzv ölkələrə, İKT üzvü olmayan ölkələrə və müsəlman icmalarına iqtisadi yardım göstərilməsinə aid fəaliyyət haqqında" 2/11-E (IS) saylı qətnaməsinin Azərbaycana aid olan hissəsində qeyd edilir ki, Ermənistan

tərəfindən işğal edilmiş ərazilərdə Azərbaycana dəymiş iqtisadi zərərin həcmi 60 mlrd. ABŞ dollarıdır. (363,s.84)  Lakin müəlliflər dəymiş ziyanın göstərilən rəqəmdən artıq olduğunu faktlarla sübut edirlər. Onlar göstərirlər ki, Ermənistanın silahlı təcavüzü və işğalı nəticəsində Azərbaycana vurulmuş birbaşa sosial-iqtisadi zərərin 300 milyard ABŞ dollarından, ölkənin 1995-2010-cu illər ərzində itirdiyi mənfəətin 86,702 milyard ABŞ dollarından, işğal edilmiş ərazilərdə Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində ölkədə yaranmış fövqəladə humanitar vəziyyətin aradan qaldırılması məqsədilə qaçqın və məcburi köçkünlər üçün sərf edilmiş xərclərin 4,684 milyard ABŞ dollarından, işğal altında olan ərazilərdə Azərbaycanın təbii sərvətlərinin dağıdılaraq talan edilməsi və ətraf mühitin ekologiyasına vurulan zərərin 40,15 milyard ABŞ dollarından artıq olmasını nəzərə alaraq, Azərbaycana dəymiş maddi zərərin ümumi miqdarını müəyyənləşdirdikdə görürük ki, onun məbləği çox böyükdür və 2011-ci ilin əvvəllərinə olan məlumatlara əsasən 431,536 milyard (dörd yüz otuz bir milyard beş yüz otuz altı milyon) ABŞ dolları təşkil edir.(363,s.91)

Müəlliflər kitabın "Ərazilərin işğalı nəticəsində vurulmuş zərərə görə Azərbaycanın Ermənistandan təzminat alma hüququ" adlanan səkkizinci fəslində beynəlxalq sənədlərə istinadən Azərbaycanın işğalçı dövlətdən təminat almaq hüququnun olduğunu sübut edirlər. Azərbaycanın bu hüququnun olmasını BMT Baş Assambleyasının 12 dekabr 2001-ci ildə qəbul etdiyi 56/83 saylı "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsinə eyni adlı əlavə təsdiq edir. Sənədin 28-ci maddəsində göstərilir ki, beynəlxalq hüquqazidd əməllər dövlətin beynəlxalq məsuliyyətinə səbəb olur ki, bu da hüquqi nəticələr doğurur. "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 31-ci maddəsinə əsasən, məsuliyyət daşıyan dövlət beynəlxalq hüquqazidd əməllər nəticəsində vurduğu zərəri ödəməlidir və bu zərər beynəlxalq hüquqazidd əməllər nəticəsində vurulmuş bütün ziyanlardan, o cümlədən maddi və ya mənəvi ziyanlardan ibarətdir. (363,s.95-96)

Kitabın nəticə hissəsində müxtəlif mənbələrə istinadən Ermənistanın silahlı təcavüzü və işğalı nəticəsində Azərbaycana vurulmuş zərərin miqdarı ümumiləşdirilərək hesablanmışdır. Kitabda qeyd olunur ki, "Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycana küllü miqdarda maddi zərər vurulmuşdur. İşğal edilmiş Azərbaycan ərazilərində 900-dən artıq yaşayış məntəqəsi,ümumi sahəsi

9,1 mln kv. metr olan 150 minə yaxın yaşayış evi və mənzil, 4366 sosial-mədəni təyinatlı obyekt, 7000 ictimai bina, 2389 sənaye və kənd təsərrüfatı obyekti,1025 məktəb, 855 uşaq bağçası, 4 sanatoriya-müalicə kompleksi, 798 səhiyyə müəssisəsi, 927 kitabxana, 1510 mədəniyyət müəssisəsi, 598 rabitə obyekti və digərləri dağıdılaraq məhv edilmişdir. İşğal nəticəsində Azərbaycana vurulmuş maddi zərərin həcmi, ilkin araşdırmalara əsasən, 2011-ci ilin əvvəllərinə 431,536 milyard (dörd yüz otuz bir milyard beş yüz otuz altı milyon) ABŞ dollarından artıq təşkil edir və işğal aradan qaldırılmayanadək ilbəil artacaq.” (363,s.105-106)

V.Arzumanlı və N.Mustafanın 1998-ci ildə nəşr olunmuş“Tarixin qara səhifələri. Deportasiya. Soyqırım” kitabının nəticə hissəsində qeyd olunur ki, işğal edilmiş ərazilərdə 4 minə yaxın sənaye və kənd təsərrüfatı obyekti, ümumi sahəsi 6 milyon kv. metr olan 180 mindən artıq mənzil və şəxsi ev, minə yaxın təlim tərbiyə müəssisəsi, 3 minə yaxın mədəni-maarif ocağı, 700-dən artıq tibb müəssisəsi erməni vandalları tərəfindən dağıdılmışdır. Beləliklə, təkcə XX yüzillikdə bir milyona yaxın Azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə öldürülmüş, 1,5 milyondan artıq soydaşlarımız indiki Ermənistan ərazisindən deportasiya edilmişdir. 1918-ci ildə imzalanan Batum müqaviləsinə əsasən cəmisi 9 min kv. km. ərazisi olan Ermənistan 1988-ci ildə onu 30 min kv.km.-ə çatdırmış, hazırda isə işğal etdiyi ərazilərlə birlikdə azı 45 min kv.km. əzəli Azərbaycan torpaqlarını öz nəzarəti altına almışdır.

Q.Hacıyevin 2000-ci ildə nəşr olunmuş “Bərdə şəhərinin tarixi(e.ə. III-b.e. XVIII əsri)”, 2008-ci ildə nəşr olunmuş “Bərdə şəhərinin coğrafi, siyasi və mədəni tarixi” və onun 2001-ci ildə S.Nurullayevlə birlikdə yazdığı “Vladimir Kazimirovun “Qarabağ sülh arzusu və əsil niyyəti” kitablarında problem obyektiv şəkildə tədqiq olunub.

Müəlliflər “Vladimir Kazimirovun “Qarabağ sülh arzusu və əsil niyyəti” kitabında Rusiya Federasiyasının Minsk qrupundakı səlahiyyətli nümayəndəsi V.Kazimirovun 2009-cu ildə rus dilində nəşr olunmuş  “Qarabağa sülh: Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Rusiyanın vasitəçiliyi” kitabındakı fikirlərə obyektiv münasibət bildirərək Dağlıq Qarabağ münaqişəsinin alovlanmasında Rusiyanın rolunu faktlarla açıb göstərmişlər.

F.İsmayılovun 2005-ci ildə müdafiə etdiyi “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ABŞ-ın mövqeyi”,  V.Qədirovun 2007-ci ildə

müdafiə etdiyi "Ermənilərin Qarabağla bağlı ərazi iddiaları", Ş.Məmmədovun 2010-cu ildə müdafiə etdiyi "Erməni terroru və böyük dövlətlərin ikili standartları", N.Məmmədovun 2011-ci ildə müdafiə etdiyi "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin tarixi"(1923-1991-ci illər) və digər dissertasiyalar problemin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Bakıda keçirilən ilk mitinqlərdə səslənən haqlı tələblərə Respublika və SSRİ rəhbərliyinin etinasız yanaşması hadisələrin daha da kəskinləşməsinə səbəb oldu. Azərbaycana qarşı təxribatları gücləndirmək və düşmənçiliyi qızışdırmaq üçün düşmən qüvvələri tərəfindən planlı surətdə 27-29 fevral 1988-ci il tarixdə Sumqayıt faciəsi törədildi.

Ermənistanda yaşayan 200 mindən artıq azərbaycanlını, sonra isə Qarabağın dağlıq ərazilərindəki Azərbaycan əhalisini xüsusi vəhşilik və zorakılıqla öz ata-baba yurdlarından kütləvi şəkildə qovmaq prosesinin sürətləndirmək üçün təşkil olunmuş Sumqayıt faciəsi əvvəllər sınaqdan çıxarılmış forma əsasında həyata keçirilmişdir. Faktlar sübut edir ki, XX əsrin əvvəllərində çar Rusiyası xəfiyyə idarəsi tərəfindən bir neçə dəfə təşkil olunmuş erməni-müsəlman qırğınları və Sumqayıt hadisəsi eyni senari əsasında təşkil olunmuşdu.

Qarabağ ərazisində iki azərbaycanlı gənc qətlə yetirildikdən sonra ermənilər yeni cinayətkar planlarını həyata keçirmək üçün ictimai-siyasi və ekoloji problemlərin kəskin olduğu, 83 millət və xalqın nümayəndələrindən ibarət 230 mindən artıq əhalinin yaşadığı Sumqayıt şəhərini seçdilər. Çünki bu şəhərdə mövcud olan problemlər başqa şəhərlərə nisbətən faciənin təşkilatçılarının planlarına daha çox uyğun gəlirdi.

Sumqayıt hadisələri barədə 1988-ci ildən sonra Z.Bünyadov, M.İsmayılov, Əfqan, H.Sadıxov, R.Məmmədov, A.İsmayılov, M.Zülfüqarlı, Y.Tabasaranski, E.Məmmədov, A.Mansurzadə, Ə.Veysəlli, T.Əliyev, R.Süleymanoğlu və başqa müəlliflər tərəfindən bir sıra kitab və məqalələr yazılıb. (4; 23,27 fevral 1992,7 oktyabr 1993,4 mart 1994; 26,№1,1991,s.2-3,37,№5,1991,s.77-78; 111,2 dekabr 1988; 168,28 fevral 1998, 28 fevral 1999; 190; 278; 294,16 noyabr 1996; 350,366,28 fevral 1997, 27 fevral 1998, 27 fevral 1999; 395; 455,28 may 1988; 456, fevral 1994; 491,1 may 1993; 552,12 mart 1993,24 fevral 1995; 565,№2,1989,s.120-121 və s.)

Bu müəlliflər içərisində Sumqayıt hadisələrinə 15-dən artıq məqalə

həsr etmiş R. Süleymanoğlunun yazıları diqqəti xüsusi cəlb edir. (21,26 fevral 1993; 23,6 iyul 1990; 168,27 fevral 1998; 332,28 fevral 1998; 366,29,31 oktyabr,14,17,21,26,28 noyabr,3,10 dekvabr 1992, 1 mart 1997 və s.)

M.Zülfüqarlının "Geo strategiya" jurnalının 2013-cu il 1-ci sayında dərc olunmuş "Erməni mərkəzlərin Sumqayıt təxribatı (Tarixşünaslığın təhlili)" məqaləsi hadisənin tarixşünaslığına həsr olunub.

Akademik Z.Bünyadov "Niyə Sumqayıt?" məqaləsində baş vermiş hadisələrin əsl mahiyyətini aşkara çıxarmağa çalışıb. Müəllif məqlədə Sumqayıt hadisəsinin erməni mərkəzləri tərəfindən törədildiyini faktlarla sübut edərək yazır:"Sumqayıt faciəsi erməni millətçiləri tərəfindən şüurlu şəkildə qabaqcadan planlaşdırılmışdı. Faciənin baş verməsinə bir neçə saat qalmış şəhərə erməni tele və foto müxbirlər gizli surətdə gələrək, hadisənin baş verməsini gözləmişlər. Azərbaycanlı sifətində ilk cinayətkar aksiyanı erməni Qirqoryan törədərək beş Sumqayıt ermənisini qətlə yetirmişdi... Bu dövrdə milislərə nəinki silah, hətta adi dəyənək gəzirmək qadağan olunmuşdu. Ertəsi gün Stepanakertdə "Sumqayıt soyqırım qurbanlarına" tökmə abidə ucaldılmışdır"(565,№2,1989,s.120-121)

A.Mansurzadənin tərtib etdiyi "Sumqayıt qurbanları" kitabı Sumqayıt hadisələrinə həsr olunmuş məqalələr toplusundan ibarətdir. Bu kitabda Sumqayıtda şəhid olmuş Vəkil Babayev, Natiq İsgəndərov, Dadaş Xudaşov, Canpolad Orucov, Surxay Əliyev haqqında məqalələrlə yanaşı, E.Məmmədovun "28-dən 29-a keçən gecə", M.Şahbazovun "Tarix unutqanlığı bağışlamır" və s. başlıqlı yazılar dərc olunub.(258)

E.Məmmədovun Azərbaycan, rus və ingilis dillərində çap olunmuş "Erməni təxribatı:Sumqayıt, fevral 1988-ci il:faktlar və mülahizələr" kitabında (278) müəllif hadisələrin canlı şahidi kimi hadisə haqqında öz mülahizələrini bildirməklə yanaşı, obyektiv faktlar əsasında hadısənin erməni mərkəzləri tərəfindən tərədildiyini sübut edir.

R.S.Məmmədovun "Sumqayıt hadisələri Dağlıq Qarabağ problemi kontekstində" kitabı (288) müəllifin "Sumqayıt həqiqətləri" adlı ümumi bir başlıq altında nəşr olunmağa başlanmış dörd kitabdan ikincisidir. Birinci kitab"Sumqayıt: tarixdən səhifələr (1930-2000)", üçüncü kitab-"Sumqayıt hadisələri mətbuat səhifələrində", dördüncü kitab isə-"Sumqayıtın bugünü və sabahı" adlanır. Bu kitabda Sumqayıt hadisələrinin Dağlıq Qarabağda baş qaldıran erməni

separatizminə təkan vermək üçün ermən mərkəzləri tərəfindən qəsdən törədildiyi faktlarla sübuta yetirilir.  Kitabda qeyd olunur ki, hadisələrin ən azı üç tərəfi vardır:

Birinci, bəlkə də ən əsas tərəf Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi M.S.Qorbaçovun rəhbərliyi ilə dünya sosializm sistemini və eləcə də SSRİ-ni dağıtmaq siyasətini həyata keçirən qüvvələr idi.

İkinci tərəf fürsətdən istifadə edərək Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycandan qoparmaq və Ermənistana birləşdirmək istəyən erməni və ermənipərəst millətçi və separatçı qüvvələr olmuşdur.

Üçüncü tərəf isə hadisələri icra edən, xüsusi hazırlıq keçmiş təxribat qrupu tərəfindən hadisələrə təhrik olunmuş yeniyetmələr, müxtəlif cinayətkar ünsürlər və yetkinləşməmiş gənclər idi. SSRİ-nin milli münaqişələr zəminində dağıdılması ssenarisinin müəllifləri və ssenarini həyata keçirməyə çalışan qüvvələr, o cümlədən, erməni millətçi və separatçılarının havadarları Qarabağ uğrunda ümummilli erməni hərəkatına təkan verə biləcək tutarlı bir siyasi bəhanə əldə etmək üçün Azərbaycan Respublikası ərazisində antierməni iğtişaşları törətmək qərarına gəldilər və bu məqsədlə əlverişli yer kimi Sumqayıt şəhərini seçdilər.  (288,s.4-5)

Kitabda rəsmi məlumata istinadən qeyd olunur ki, Sumqayıtda törədilmiş hadisələri araşdırmaq üçün SSRİ Prokurorluğunda 18/55461-88№-li xüsusi cinayət işi açılmışdı. Bu işi aparan istintaq qrupu SSRİ-nin müxtəlif bölgələrindən ezamiyyə olunmuş hüquqşünaslardan, kriminalistlərdən, psixoloqlardan, səhiyyə işçilərindən ibarət idi. Istintaq nəticəsində müəyyən edilmişdir: “1988-ci il fevralın 27-29-da Azərbaycan SSRİ-nin Sumqayıt şəhərində xüliqanlıq edən şəxslər tərəfindən iğtişaşlar törədilmişdir. Bu iğtişaşlar nəticəsində müxtəlif millətlərdən olan 32 adam (o cümlədən, 26 erməni–R.M.) həlak olmuş, 400 nəfərdən çox adam müxtəlif dərəcəli bədən xəsarəti almış, 200-dək mənzil hücuma məruz qalmış və dağıdılmış, 50-dən artıq mədəni-məişət obyektinə xəsarət yetirilmiş, 40-dan çox nəqliyyat vasitəsi sındırılmış, bir hissəsi yandırılmışdır. Dövlətə 7 milyon rubl (bugünkü qiymətlərlə təxminən 30 milyon dollardan artıq.- R.M.) həcmində maddi ziyan vurulmuşdur”. İstintaq materiallarında deyilir ki, 444 nəfər adam məhkəmə qarşısında cavab verməli olmuş, onlardan 400 nəfəri 10-15 sutka təcridxanalarda saxlanılmış, bir neçəsi uzunmüddətli həbs cəzasına, bir nəfəri – Əhməd İman oğlu Əhmədov isə güllələnməyə məhkum olunmuşdur. Məlumatı olmayan oxuculara bildirək ki, hökm tez-tələsik yerinə yetirilmişdir. Hadisələrlə

bağlı saxlanılanlar arasında müxtəlif millətlərdən olan adamlar-azərbaycanlılar, ermənilər, ruslar, ləzgilər, talışlar, yəhudilər və başqaları olmuşar. Şəhərdə xuliqanlıq edənlər, iğtişaşları törədənlər, müxtəlif əqidəli insanlar-satın alınmış cinayətkarlar, terrorçular, tüfeylilər, narkomanlar, spirtli içki düşkünləri....30 nəfər isə ümumiyyətlə heç bir yerdə işləməyənlər idi."(288,s.99-100)

Kitabda KİV-də çıxan materiallara əsasən hadisə zamanı Sumqayıtın erməni sakinlərinin azərbaycanlılar tərəfindən müdafiə olunmasına aid çoxlu sayda məlumat var. Məsələn,  Sumqayıt şəhər sakini Akopyanın və onun ailə üzvlərinin imzası ilə "Kommunist Sumqaita" qəzetinin redaksiyasına daxil olmuş və qəzetin 11 mart 1988-ci il tarixli nömrəsində dərc olunmuş məktubda oxuyuruq: "Mən milliyyətcə erməniyəm. Mən və mənim ailəm bəzi araqarışdıran və şüursuz adamların günahı ucbatından Sumqayıtda başlanmış hərcmərcliklərlə əlaqədar olaraq çıxılmaz vəziyyətə düşmüşdük. Ilk kömək əlini bizə uzadanlar mənim azərbaycanlı qonşularım oldu. Bizim böyük ailəmizi onlar özlərinin darısqal mənzilində gizlədib saxladılar. Onlar öz ürəyinin hərarəti, qonaqpərvərliyi və ürək-dirək vermələri ilə bizi qızındırdılar".

"Kommunist Sumqaita" qəzetinin 16 mart 1988-ci il sayında  Armenum Mosesyannın sözləri yazılıb: "Bizim yanımızda etibarlı dostlar: iş yoldaşlarımız, mənim qonşularım var idi. Onlar məni bir dəqiqə də olsun təhlükədə tək qoymadılar. Solmaz İbrahimova, Böyükağa Ağayev, Sultan Umudov, bir çox başqaları, bizim evdə yaşayanlar xuliqanlara əl-qol açmağa, hadisələr törətməyə imkan vermədilər, bizi xilas etdilər" (288,s.106-108)

Hadisələr zamanı Sumqayıt şəhərinin hərbi komendantı təyin olunmuş general-leytenant V.Krayev də öz müsahibələrinin birində bu faktları təsdiq etmişdir: "Şəhərin sakinləri bizə kömək etməsəydilər, onda həlak olanların sayı daha çox olardı. Belə ki, azərbaycanlı sürücü dərhal on nəfər ermənini idarə etdiyi avtobusa oturdub doğulduğu rayona, Şəkiyə, qohumlarının yanına aparmışdı. Digər bir azərbaycanlı ailə çoxmərtəbəli binaya soxulmaq istəyən bir qrup xuliqanın qarşısını kəsdi. Bir nəfər fəhlə erməni dostu ilə avtobusda gedirmiş. Qəflətən avtobusu saxladan bir dəstə adam ermənin onlara verilməsini tələb edir. Azərbaycanlı özü xəsarət alır, lakin dostunu xilas edir". (682,21 mart 1988-ci il)

Sumqayıt hadisəsi zamanı azərbaycanlıların şəhərdə yaşayan erməniləri təxribatçılardan qorumasına aid o dövrdə hətta Moskvada nəşr olunan mərkəzi

qəzetlərdə də məlumatlar verilmişdi. Məsələn, "Pravda" qəzeti yazırdı ki, 1988-ci ilin fevralında Sumqayıtda xuliqan elementlər tərəfindən törədilən qarışıqlıq zamanı şəhərin zəhmətkeşləri təmkinlik nümyiş etdirmiş, azərbaycanlıların əksəriyyəti həyatları ilə risk edərək əsil beynəlmiləlçi olduqlarını sübut etmişlər. (682, 21 fevral 1988-ci il)

Bəzi dərc olunmuş məqalələri Sumqayıt hadisələrinin tarixşünaslığına aid etmək olar. Məsələn, H.Sadıxov, R.Məmmmədovun "Sumqayıt hadisəsi ermənipərəst mətbuatın əyri güzgüsündə" məqaləsi, 1988-1992-ci illərdə Sumqayıt hadisəsinə həsr olunmuş məqalələrin şərhinə həsr olunmuş məqalə və s. yazılar hadisənin tarixşünaslıq baxımından tədqiqinə yaxından kömək edə bilər. (552, 29 fevral 1992, 24 fevral 1995)

H.Sadıxovun "Sumqayıt:milli əsarət ya milli səxavət?" kitabında(350) sovet rejimini Sumqayıtda yeritdiyi siyasət tənqid olunur. Müəllif hadisələrin canlı şahidi və tədqiqatçı kimi faktlar əsasında şəhərdə cinayəti təşkil edənləri ifşa etmişdir. Müəllif şəhərin rus dilində olan zəngin arxiv mareriallarından istifadə edərək təkzibolunmaz faktlarla göstərir ki, Azərbaycan Respublikasının hər yerində olduğu kimi, xalqlar dostluğu şəhərində onun tikilməyə başlandığı ilk günlərdən etibarən hazırda ermənilərin iddia etdiyi kimi, "milli əsarət" siyasəti yox, əksinə "mili saxavət" siyasəti həyata keçirilmişdir. Kitabda sovet dövründə Sumqayıtda yaşayan ermənilərə Moskvanın siyasətinə uyğun olaraq xüsusi qayğı göstilməsi, onların müxtəlif yüksək vəzifələrdə çalışmalarına aid çoxlu sayda faktlar var.

H.Sadıxov Sovet dövründə yazdığı kitablarda (704; 705; 706; 707) əsasən şəhərin beyməlmiləl əlaqələrini, qarışıq nigahları və s. problemləri tədliğ etmişdir. Lakin hadisələrdən sonra onun tədqiqatının istiqaməti dəyişmiş və Sumqayıtda baş verənlər barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün bir neçə kitab və məqalə yazmışdı. (350; 552; 29 fevral 1992,24 fevral 1995)

A. İsmayılovun iki fəsil, 13 bölmədən ibarət "Sumqayıt prosesi" kitabı (190) Azərbaycanda hadisəyə aid yazılmış ən iri həcmli kitablardandır. Kitab "Sumqayıt prosesi" adlanan birinci fəsli "Prosesi təyinatıma gətirən yol və cinayət işi ilə tanışlığım", "Qriqoryan kim idi?", "Qriqoryanın rolu", "Qara plaşlılar kimlər idi?", "Prosesə kənar müdaxilələr", "Mətbuatın rolu və rəhbərliyin biganəliyi", "Azərbaycanlılar erməniləri necə xilas edirdilər?", "Prosesdən gəldiyim nəticə

və məhkəmədəki nitqim", "Məhkəmənin hökmü" bölmələrdən, "Sumqayıt hadisələrinin təfərrüatı" adlanan ikinci fəsil isə "Sumqayıta gətirən yol-səbəblər və nəticələr", "Fərqli insanlardan yekdil rəy və yaxud Sumqayıt hadisələri kimin vicdanında qaldı?", "Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi", "Qorbaçov və ermənilik" bölmələrdən ibarətdir ki, bu bölmələrlə tanışlıq hadisənin mahiyyəti haqqında dolğun məlumat əldə etməyə imkan verir.

Kitabda analitik əsərləri ilə məhşur olan yazıçı İqor Lvoviç Buniçin SSRİ-də baş verən, hələ də sirri açılmayan əsas 14 hadisələr sırasına Vilnüs, Sumqayıt, Bakı, Tbilisi hadisəsələrini də aid etməsi qeyd olunur. Bu fakt həmin hadisələrin kənar qüvvələr tərəfindən planlı surətdə törədildiyini bir daha sübut edir. Kitabda həmçinin o dövrdəki hadisələrlə bağlı Ayaz Mütəllibovun fikirləri də verilmişdir ki, bu da hadisələrin mahiyyət barədə müəyyən qənaətə gəlməyə imkan verir. O demişdir: " Azərbaycanın yaxşı planlaşdırılmış qəsd nəticəsində düşdüyü dəhşətli haqsızlıqlar son illərdə məni düşündürürdü: doğrudanmı, hamı üçün heç bir şeyin fərqi yoxdur, doğrudanmı, heç kim (mən respublikanı nəzərdə tuturam) baş verənlərlə maraqlanmayacaq? Axı bu minvalla istənilən xalqın axırına çıxmaq olar və bu halda başqaları, sadəcə müşahidə edəcəklər. Azərbaycana münasibət bizim İttifaqın iç üzünü tam açıqladı. Axı biz bu gün də təkik."

Kitabda verilmiş SSRİ DTK-nin keçmiş sədri Vladimir Kryuçkovun ölümü ilə əlaqədar Britaniyanın "The Times" qəzetinin 30 noyabr 2007-ci il sayında yazılmış məlumat bir daha hadisənin kənar qüvvələr tərəfindən planlaşdırıldığını sübut edir. Məlumatda deyilir: "... Kryuçkov və digər DTK əməkdaşları Kremilin gücünü və nüfuzunu zəiflətmək üçün bu "təhlükəli elementlərə" diqqət yetirdilər. Onlar insanların yerlərdəki narazılığını əsas gətirərək, SSRİ-nin Sumqayıt və Bakı (Azərbaycan), Tiflis (Gürcüstan), Vilnyüs (Litva) və Riqa (Latviya) kimi şəhərlərdə təxribat aksiyaları təşkil etdilər."

V.Hüseynovun Moskvada iki cildlik, rus dilində nəşr olunmuş "Bir ömürdən daha artıq" adlı kitabının bir bölümü " Sumqayıt facəsi" adlanır. Müəllif qeyd edir ki, SSRİ-nin yeni rəhbərliyini o zaman tarix üç sərt və ağır imtahana çəkdi. Birincisi 1986-cı ilin aprelində baş vermiş Çernobıl faciəsi. İkincisi, yenidənqurmanın ilk qanlı hadisəsi, Qazaxstanda D.A.Kunayevin Q.V.Kolbinlə əvəz edilməsinə etiraz edən gənclərin 1986-cı ilin dekabrda başladığı hərəkatın qann içində boğulması, üçüncü Qarabağ münaqişəsi (fevral 1988-ci il) və Sumqayıt

(1988-ci il fevralın axırıncı günü)

Müəllif qeyd edir ki, hadısələrə qədər Bağırovun, Gevorkovun və Müslümzadənin çıxışlarında DQMV-nin Ermənistana birləşdirilməsi haqqında mərkəzi hakimiyyət orqanlarına edilən müraciətlər haqqında bir kəlmə də danışmamışlar. Aqanbekyanın təxribat xarakterli bəyanatına da heç bir reaksiya verilməmişdi. Müəllif digər faciələr kimi, Sumqayıt hadisəsinin də əsas səbəbini qərb ölkələri ilə on illərlə aparılan müharibənin yaddan çıxarılmasında və sovet siyasi rəhbərliyinin çıxardığı qərarlara heç kimin etiraz edə bilməməsi, nazirliklərin, respublika və şəhər rəhbərliyinin yalnız bu qərarları kor koranə icra etməyə məcbur edildiyi sovet sisteminin mahiyyətində görür. Onun fikrincə insanları inandırmışdılar ki, bir-iki ilə formaca sovet, məzmunca amerika tipli demokratiya bərqərar olacaq. Bundan başqa müəllif bu zaman respublika rəhbərliyində K.Bağırovun yerini tutmaq üğrunda mübarizənin də hadisələrdə müəyyən rol oynadığını qeyd edir. (531,s.89-92)

Ümumiyyətlə Sumqayıt hadisəsəinə aid yazılmış məqalə və kitablarda əsasən "Sumqayıt hadisəsi erməni mərkəzləri tərəfindən planlaşdırılmış cinayətdir", "Bu hadisə SSRİ-nin dağılmasının və respublikaların suverenlik uğrunda mübarizəsinin qarşısının alınması üçün Moskva tərəfindən hazırlanmış qəsd idi" kimi fikirlər müdafiə olunur.

Fikrimizcə, bunlar cinayətin təşkilatçılarının bir hissəsidir. Əgər cinyətin təşkilatçılarının bir hissəsi SSRİ daxilində idisə, digər bir hissəsinin qərb ölkələrində olması haqqında kifayət qədər faktlar mövcuddur. Sumqayıt faciəsində imperiyanı qoruyub saxlamaq istəyən qüvvələrlə yanaşı, onun dağılmasını istəyən həm daxili, həm də xarici qüvvələrin əli vardı.

Cinayətin icraçıları isə xüsusi mərkəzlər tərəfindən hadisə ərəfəsində şəhərə göndərilmiş casuslar və onların təxribatına uyan səbatsız ünsürlər olmuşdu. Belə casuslardan biri "Qlasnost" jurnalının müxbiri Qriqoryantsın nümayəndəsi A.Şelkov qabaqcadan Sumqayıta gələrək, hadisələri lentə almış və artıq hadisələrin səhərisi günü qərbdəki himayədarları vasitəsi ilə müxtəlif ölkələrdə nümayiş etdirmişdi.

Hadisənin qabaqcadan xüsusi təxribatçı mərkəzlər tərəfindən təşkil olunduğunu sübut edən çoxlu sayda faktlar mövcuddur. Məsələn, Stepanakertdə Sumqayıt hadisəsinə aid abidənin qabaqcadan hazırlanması, hadisədən qabaq

şəhərdə nömrəsiz maşınlarda qara gödəkçəli adamların peyda olması və hadisədən sonra onların yoxa çıxması, hadisə ərəfəsi şəhər hüquq-mühafizə orqanlarının fəaliyyətinin dayandırılması, tabel silahlarının alınması, erməni millətindən olan imkanlı şəxslərin əksəriyyətinin əmanət banklarında olan pullarını götürərək, hadisədən iki gün əvvəl şəhərdən çıxması və s. faktlar bunu sübut edir. Bu cinayətin icrasında müxtəlif ölkələrdə fəaliyyət göstərən erməni təşkilatlarının rolu böyük olmuşdur.

Faciənin əsas təşkilatçılarının hadisə baş verdiyi vaxt müəyyən edilməməsində şəhər və respublika rəhbərliyi arasında hadisə ərəfəsində münasibətlərin kəskinləşərək, düşmənçilik həddinə çatmasının da müəyyən rolu olmuşdu. Məhz bunun nəticəsində, hadisələrin əsl səbəblərini araşdırıb, düzgün nəticə çıxarmaq əvəzinə, Azərbaycan KP MK "Sumqayıt şəhər Partiya Komitəsi Bürosunun əhali arasında təşkilatçılıq işində böyük nöqsanları, siyasi naşılığı və şəhərdə faciəli hadisələrin qarşısını almaqda fəaliyyətsizliyi haqqında"(16 mart 1988-ci il) qərar qəbul etməklə öz səbatsızlığını nümayiş etdirdi. Bu qərarla Azərbaycan KP rəhbərliyi faciənin əsas təşkilatçılarını deyil, şəhər rəhbərliyini günahkar hesab etməsi həmin dövrdə cinayətin əsil təşkilatçılarının ifşa edilməsinə mane oldu.

Sumqayıt hadisəsi haqqında məqalə və kitab yazan bəzi müəlliflər bu hadisənin əsas səbəblərindən biri kimi şəhərdə əvvəlki illərdə millətlərarası münasibətlərin kəskin olduğunu qeyd edirlər. Lakin faktlar bunun əksini sübut edir. Millətlərarası münasibətlər sahəsində şəhərdə əvvəlki illərdə nöqsanlar, formalizm halları olsa da, bu münasibətlər düşmənçilik həddində deyildi. Məsələn, Sumqayıtda nəşr olunan şəhər qəzetlərində 1987-ci ilin noyabrında Böyük Oktyabr inqilabının 70 illiyi ilə əlaqədar, yəni hadisələrdən 3 ay qabaq Sumqayıtla qardaşlaşmış Kirovakan şəhər nümayəndə heyətinin Sumqayıt əhalisi tərəfindən hörmətlə qarşılanması haqqında yazılar, erməni artistlərinin çıxışlarından geniş foto-reportajlar verilmiş ki, bu da şəhərdə millətlərarası münasibətlər sahəsində ciddi problemlərin olmadığını sübut edir.(358, 9 noyabr 1988-ci il). Bundan başqa Bakıda 27-28-iyun 1983-cü ildə keçirilmiş "Sosialist həyat tərzinin təkmilləşdirilməsinin ideoloji problemləri" adlı elmi-praktik konfransın 1986-cı ildə rus dilində nəşr olunmuş materiallarında qeyd olunur ki, Sumqayıtda yaşayan ermənilərin 65%-i,rusların 72%-i, azərbaycanlıların 63%-i,

tatarların 84%-i üçün rəhbər işçinin hansı millət və xalqın nümayəndəsi olması heç bir əhəmiyyət kəsb etmir. Bundan başqa aparılmış sosioloji sorğuların nəticəsində məlum olmuşdur ki, şəhərdə yaşayan rusların 68%-i, ermənilərin isə 67%-i müxtəlif millətlərin nümayəndələrindən ibarət qarışıq nikahlara müsbət yanaşırlar. Həmçinin Sumqayıtda soruğuda iştirak edənlərin 83%-i digər millət və xalqlar arasında yaxın dostlarının olduqlarını bildirmişlər. Bu kimi faktlar bir daha sübut edir ki, hadisənin əsl təşkilatçıları və icraçıları şəhər əhalisi deyil, kənar qüvvələr olmuşdur.

Sumqayıt hadisəsi isə qısa olaraq belə baş vermişdi: Xüsusi hazırlanmış bir qrup təxribatçı Ermənistanda azərbaycanlılara qarşı törədilən vəhşiliklər barədə şayiələr yayaraq, hətta Qafandan yaralıların gətirildiyini bildirmiş, onların başına toplaşmış məlumatsız və səbatsız ünsürlərdə qisasçılıq hissələrini qızışdıraraq, qabaqcadan əldə etdlikləri ünvanlara basqınlar təşkil edərək qətllər, qarətlər və yanğınlar törətmişlər. Moskva rəhbərliyi 3 gün gecikdikdən sonra şəhərə qoşun yeritmişdir. Burada 6-9 fevral 1905-ci il Bakıda törədilmiş erməni-müsəlman qırğını ilə müəyyən bir oxşarlıq özünü büruzə verir. Ordunun şəhərə işğalçı kimi girərək özbaşınalıq etməsi, milli təəssüb hissini boğa bilməyən şəxslərin etirazına və müqavimətinə səbəb olmuş, nəticədə, hərbçilər bir neçə texnika itirmişlər. Bu qeyri-bərabər, kortəbii müqavimətdə 6 nəfər azərbaycanlı həlak olmuş, general Krayevin əmri ilə yüzlərlə şəhər sakini həbs olunmuş, 94 nəfər haqqında cinayət işi qaldırılmışdı. Bunların arasında Ermənistan qaçqınlarından bir nəfərin də olmaması bir daha sübut edir ki, onların adlarının bu hadisələrdə hallandırılması məqsədli xarakter daşımışdı.

Moskvadan Sumqayıta ezam edilmiş müstəntiqlər ordusu şəhər sakinləri haqqında uydurma ittihamlar hazırlayıb Rusiyanın müxtəlif şəhərlərinin məhkəmələrinə göndərmişlər. İstintaq nəticəsində məlum olmuşdur ki, ilk cinayəti özünü azərbaycanlı kimi qələmə vermiş E.Qriqoryan törədərək, 5 nəfəri qətlə yetirib. Azərbaycanlılar müxtəlif müddətlərə azadlıqdan məhrum edilsələr də, məhkəmədə E.Qriqoryanın üzərindən ittihamın götürülməsi cinayəti təşkilatçılarının erməni mərkəzləri olması faktını bir daha təsdiq edir.

Ən ağır cəzanı 1988-ci ilin noyabrında SSRİ Ali Məhkəməsi çıxardı. Məhkəmə Ə.Əhmədovu güllələnməyə məhkum etdi və minlərlə Azərbaycan vətəndaşının etirazına baxmayaraq 1990-cı ilin aprelində hökm icra olundu. 15

il iş almış T.İsmayılovun Tbilisidə, E.Gəncəliyevin isə Bakıda müəmmalı şəkildə öldürülməsi Moskvanın ermənipərəst siyasətinin nəticəsi idi.

Moskva o zaman hadisələrə bu cür qiymət verdi. Moskvadan asılı olan Azərbaycanın o zamankı rəhbərliyi isə Sumqayıt hadisələrini Azərbaycan KP MK-nın 16 mart 1988-ci il qərarı ilə qiymətləndirdi. Sumqayıt hadisəsinin daha dərindən tədqiqinə ciddi ehtiyac var. Fikrimizcə hadisənin obyektiv şəkildə tədqiqi ona düzgün siyasi qiymət verilməsinə, günahsız yerə ittiham olunmuş insanların bəraət almasına, ədalətin bərpa olunmasına imkan verər.

Azərbaycana rəhbərlik etmiş şəxlər hakimiyyətdə olduqları dövrdə digər məsələlərlə yanaşı, tarixi tədqiqatlara, tarixşünaslığın istiqamətinin müəyyənləşdirilməsinə güclü təsir imkanları olmuşdur. Buna görə 1988-ci ilin mayında 1990-cı ilin yanvarına qədər Azərbaycan KP MK-nın birinci katibi olmuş Əbdülrəhman Xəlil oğlu Vəzirovun fəaliyyətinin tədqiq olunması, onun dövründə formalaşmış taruxşünaslığın araşdırılması mühüm aktuallıq kəsb edir.

Çağdaş Azərbaycan tarixinin ən gərgin və ziddiyyətli dövründə, erməni separatçılarının gündən-günə azğınlaşdığı, ölkədə sovet rejiminə qarşı milli-azadlıq hərəkatının geniş vüsət aldığı bir vaxtda Əbülrəhman Xəlil oğlu Vəzirov 1 il 8 ay (21 may 1988-25 yanvar 1990) Respublikaya rəhbərlik etmişdir.

Azərbaycan KP MK-nın 21 may 1988-ci il tarixli plenumu haqqında məlumatın dərc edildiyi kütləvi informasıya vasitələrində Ə.X.Vəzirovun qısa tərcümeyi-halı aşağıdakı kimi verilib:

"Ə.X.Vəzirov 1930-cu ildə fəhlə ailəsində anadan olmuşdur. 1952-ci ildən Sov. İKP üzvüdür. M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirmişdir.

1951-ci ildən Azərbaycan Sənaye İnstitutunda ÜİLKGİ MK-nın komsomol təşkilatçısı, 1954-cü ildən Azərbaycan LKGİ MK-nın katibi, ikinci katibi, birinci katibi vəzifəsində işləmişdir.

1959-cu ildən ÜİLKGİ MK- nın katibi olmuşdur.

1970-ci ildən Ə.X.Vəzirov partiya işində çalışmışdır. Kirovabad (indiki Gəncə) şəhər Partiya Komitəsinin birinci katibi, 1974-cü ildən Azərbaycan KP MK Sənaye-Nəqiliyyat şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1976-cı ildən diplomatik fəaliyyətə başlamışdır. Kəlküttədə (Hindistan Respublikası) SSRİ-nin baş konsulu, Nepalda, sonra isə Pakistan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsində işləmişdir.

Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, Xalqlar Dostluğu, Şərəf Nişanı Ordenləri ilə təltif edilmişdir. Səkkizinci çağırış SSRİ Ali Sovetinə deputat və Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir." (204, 22 may 1988-ci il )

Tərcümeyi-haldan görünür ki, Ə.X.Vəzirovun Azərbaycana rəhbər təyin olunmasında Moskvanın xüsusi marağı var idi. Moskva Ə.Vəzirovu Azərbaycana göndərərkən onun iflasını qabaqcadan görməyə bilməzdi. Çünki, əgər 11 iyul 1929-5 avqust 1930-cu illərdə 1 il 24 gün Azərbaycana rəhbərlik etmiş N. Gikalonu AK(b)P X qurultayı digər məsələlərlə yanaşı yerli şəraiti və yerli dili bilməməkdə günahlandıraraq vəzifəsindən azad etmişdirsə, öz ana dilini və yerli ictimai-siyasi vəziyyəti yaxşı bilməyən Ə.Vəzirovu da XX əsrin sonlarında bu aqibətin gözləyəcəyini Moskva bilməmiş deyildi. Deməli, Moskvanı Ə.Vəzirovun gələcək taleyi deyil, özünün Azərbaycanda zəifləmiş dayaqlarını möhkəmləndirmək daha çox maraqlandırırdı. Fikrimizcə, 12 il Azərbaycandan kənarda diplomatik fəaliyyət göstərmiş, ölkədə gedən proseslərdən xəbərsiz olan və hətta yerli dili çox pis bilən bir şəxsin erməni separatizminin gücləndiyi bir vaxtda Azərbaycana rəhbər göndərilməsində Moskvanın bir neçə məqsədi var idi:

Birincisi, demokratikləşmə pərdəsi altında dolayı yolla ermənilərin öz məkrli niyyətlərini həyata keçirməsinə münbit şərait yaratmaq;

İkincisi, M.Qorbaçovun düşmən münasibət bəslədiyi H.Əliyevə və onun kadrlarına qarşı mübarizədə Ə.Vəzirovdan istifadə etmək;

Üçüncüsü isə onun köməkliyi ilə ölkədə başlamış milli-azadlıq hərəkatının qarşısını almaq.

Ə.Vəzirovun H.Əliyevin rəhbərliyi altında 6 il respublikada yüksək vəzifədə çalışmasına baxmayaraq respublikada anti-Əliyev kampaniyasına rəhbərlik etməyə canla-başla razı olması onun uzaq görməyən siyasətçi olduğunu göstərir. Fikrimizcə, Vəzirovun tezliklə iflasa uğramasında digər məsələlərlə yanaşı bu amilin də mühüm rolu olmuşdur.(407,s.98-100)

Sovet hakimiyyəti illərində iqtidara yeni gəlmiş rəhbərin özündən əvvəlkinə düşmən münasibət bəsləməsi, onun yalnız səhvlərini önə çıxarmaqla tarix səhnəsindən silməyə çalışması rejimin xarakterik xüsusiyyətlərindən biri idi. Xruşşov Stalini, Brejnev Xruşşovu, Qorbaçov isə Brejnevi inkar etməklə özlərinin və rejimin iflasını yaxınlaşdırırdılar. Ümumiyyətlə götürdükdə 70 ildə baş vermiş bütün cinayətlər rejimin mahiyyətindən doğmuş, ayrı-ayrı rəhbərlər isə

bu prosesin yalnız icraçısı rolunda çıxış etmişlər. Ona görə də Qorbaçovun və onun yerli nümayəndəsi olan Vəzirovun da rejimin yaradıcısı olan Lenini ilahiləşdirmək, onu səhvsiz elan etməklə bütün günahları əvvəlki rəhbərlərin üstünə yıxmaq və demokratikləşmə yolu ilə rejimi qoruyub saxlama cəhdlərinin heç bir perspektivi yox idi. Çünki təkpartiyalı, totalitar sovet rejimi ilə demokratikləşmə prosesi bir araya sığa bilməzdi.

Ə.X.Vəzirov respublikaya rəhbər təyin olunandan dərhal sonra Azərbaycan KP MK "Dağlıq Qarabağ Muxtar Vilayətində hadisələr üçün V.S.Gevorkov yoldaşın və başqa rəhbər işçilərin məsuliyyəti haqqında" məsələ müzakirə etmişdir. Azərbaycan KP MK V.S.Gevorkovu Sov.İKP sıralarından xaric etmiş, V.A.Boqoslovski və A.A.Aslanova uçot vərəqələrinə yazılmaqla töhmət elan etmişdir.

Sonrakı hadisələr sübut etdi ki, Moskvanın razılığı ilə Ə.Vəzirovun DQMV rəhbərliyni dərhal cəzalandırması heç də erməni separatçılığının qarşısının alınmasına xidmət etməmişdir. Sadəcə olaraq bu hərəkətlə Moskva müəyyən qədər Ə.Vəzirovun xalq arasında nüfuzunu artırmaq və bundan sonra onun əli ilə öz siyasətini həyata keçirmək məqsədini güdmüşdür. Bunu Vəzirovun bir qədər sonra atdığı addımlar sübut etmişdir.

Ə.Vəzirovun sonrakı fəaliyyətində əsas, prioritet məsələ respublika rəhbərliyində çalışan H.Əliyev tərəfdarlarını vəzifədən uzaqlaşdırmaq olmuşdur. Ə.Vəzirov hakimiyyətə gəldikdən 9 gün sonra Azərbaycan KP MK-nın katibi R.Mehdiyevi tutduğu vəzifədən uzaqlaşdırması və onu siyasi aləmdən təcrid etməsi deyilənləri sübut edir.

Azərbaycan KP MK-nın 1988-ci il 30-31 may plenumu Ramiz Ənvər oğlu Mehdiyevi elmi işə keçməsi ilə əlaqədar olaraq Azərbaycan KP MK katibi vəzifəsindən və MK bürosu üzvlyündən azad edilmişdir. Bundan sonra R.Mehdiyev 1988-1993-ci illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının Fəlsəfə İnstitunda elmi işlə məşğul olmuş və milli münasibətlər mövzusunda dissertasiya müdafiə edərək fəlsəfə elmləri doktoru adı almışdır.

Plenumda həmçinin Sumqayıt Şəhər Partiya Komitəsinin keçmiş birinci katibi C.M.Müslümzadə təşkilatçılıq işində və siyasi işdə, şəhərdə faciəli hadisələrlə nəticələnmiş böyük nöqsanlara yol verdiyinə görə Sov.İKP sıralarından xaric edilmişdir.

Plenumun C.M.Müslümzadəni partiyadan xaric etməsi göstərir ki, K.Bağırov kimi Ə.Vəzirov da Sumqayıt hadisələrinin əsil təşkilatçılarının üzə çıxarılmasında maraqlı olmamış, faciənin günahını şəhər rəhbərlərinin üzərinə yıxmaqla kifayətlənmişdir.

Respublikanın yeni rəbərliyi əsas diqqətini erməni təxribatlarına qarşı mübarizəyə deyil, əvvəlki illərdə yol verilmiş nöqsanların tənqidinə yönəltmişdi. Hətta dərin tarixi köklərə malik Dağlıq Qarabağ probleminin də Ə.Vəzirov tərəfindən 70-80-ci illərlə əlaqələndirməsi onun uzaqgörən siyasətçi olmadığını sübut edir. O, mərkəzi hökumətin mövqeyinə uyğun olaraq Qarabağ problemi haqqında belə demişdir: "Dağlıq Qarabağ məsələsi deyilən məsələnin kökləri durğunluq illəri ilə bağlıdır. Bu məsələnin mənbələri və ibrət dərsləri ətraflı öyrənilməlidir və biz bu işi mütləq görəcəyik." (407,s.99)

Ə.Vəzirovun hakimiyyəti dövründə mətbuatda 70-80-ci illərin tənqidinə aid çoxlu sayda məqalələr dərc olunurdu. Məsələn, belə yazılara misal olaraq "Zəfər çalan ədalət deyildi" (204,21 dekabr 1988-ci il), "Ağ pambıqda qara ləkə" (204,2 fevral 1989) və digər məqalələri göstərmək olar. Fikrimizcə mövcud problemləri həll etməyə qadir olmayan Ə.Vəzirov 70-80-ci illərin tənqid etməkdə məqsədi əhalinin diqqətini yayındırmaq və baş verənlərə görə məsuliyyəti əvvəlki rəhbərlərin üstünə atmaq idi.

Bu dövr Respublika mətbuatında qeyd olunurdu ki, Azərbaycanın milli gəlirinin ildə orta hesabla 20-25 faizinin İttifaq fondunun yaradılmasına sərf edildiyi halda respublika həyat səviyyəsinin əsas göstəricilərinə görə SSRİ üzrə orta səviyyədən 1,7 dəfə geri qalırdı. Ermənistan isə İttifaq fondunun yaradılmasına milli gəlirin 8,2 faizini, Gürcüstan 7,6 faizini, Ukrayna 4,8 faizini, Belorus 14 faizini, Moldova 6,9 faizini, Türkmənstan isə 2,9 faizini verirdi. Yalnız 1970-1988-ci illərdə Azərbaycan İttifaq fonduna 30 milyard manatdan çox vəsait vermişdir. Buna baxmayaraq 1987-ci ilin statistik məlumatına görə hər min nəfərə düşən avtomobillərin sayı Litvada 108, Estoniyada 107, Gürcüstanda 84, Azərbaycanda isə cəmi 32 idi. Xəstəxanalarla təmin olunma dərəcəsinə görə Azərbaycan SSRİ -nin 15 respublikası içərisində 14-cü yeri tuturdu. Bundan başqa Ə.Vəzirovun təbliğatçıları qeyd edirdilər ki, 1989-cu ildə azərbaycanlıların sayı estonlardan təxminən 6 dəfə, litvalılardan 2 dəfə, gürcülərdən isə 1,7 dəfə çox olmasına baxmayaraq eston dilində 13,3 milyon nüsxə tirajla 1319 adda, litva

dilində 20,5 milyon tirajla 2075 adda, gürcü dilində 16,1 milyon nüsxə tirajla 1383 adda, Azərbaycan dilində isə cəmi 11,3 milyon nüsxə tirajla cəmi 793 adda kitab çap olunmuşdu. Həmin ildə eston dilində 116, litva dilində 105, gürcü dilində 61 mətbu orqan nəşr olunduğu halda, Azərbaycan dilində cəmi 55 adda dövrü mətbuat nəşr olunmuşdu. Onların fikrincə bütün bunlar əvvəlki rəhbərliyin səhvi ucbatından baş vermişdir.(204, 14 sentyabr 1989-cu il)

Əvvəlki dövrləri kəskin tənqid edən Ə.Vəzirovun özünün hakimiyyətdə olduğu qısa müddətdə respublikada demək olar ki, bütün iqtisadi göstəricilərə görə geriləmə müşahidə olunmuşdur.

Ə.Vəzirov başda olmaqla Azərbaycan KP MK 1989-cu ilin yazında SSRİ xalq deputatlarının seçkilərini köhnə qaydada, əvvəlcədən hazırlanmış siyahılara uyğun keçirməyə nail oldu. Deputatlar içərisində passivliyə meyl göstərən, yuxarıların göstərişi ilə hərəkət edənlər əksəriyyət təşkil edirdi. Yeni seçilən deputatlar içərisində bir nəfər də olsun qeyri-formal təşkilatın nümayəndəsi yox idi. Əvəzində isə beş nəfər erməni, o cümlədən Azərbaycana qarşı qatı düşmən münasibəti bəsləyən Z.Balayan da var idi. Seçkilərin bu nəticələri Ermənistandan və DQMV ərazisindən azərbaycanlıların kütləvi şəkildə, zorla qovulduğu bir vaxtda Azərbaycanın kommunist rəhbərliyinin xalqı üzərində növbəti rüsvayçı "qələbəsi" idi. Ə.Vəzirovun səyləri nəticəsində Azərbaycan çətin bir vaxtda SSRİ Ali Soveti tribunasından səmərəli və faydalı istifadə imkanlarından demək olar ki, məhrum oldu.

Sov.İKP MK və SSRİ Nazirlər Soveti "1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" qərar qəbul etməklə erməni separatçılarının guya sosial-iqtisadi cəhətdən DQMV-nin Azərbaycanın digər regionlarından geri qalması haqqında uydurmalarını təsdiq etmiş və onların daha çox əl-qol açmasına imkan yaratmışdı. Halbuki DQMV Vilayət partiya komitəsinin birinci katibi B.S. Gevorkov 1978-ci ildə göstərmişdi ki, "Dağlıq Qarabağ hər min nəfər əhalisinə düşən həkimlərin sayına görə, inkişaf etmiş kapitalist ölkələrini çoxdan ötüb keçmişdir. Ümumi Azərbaycan respublikası üzrə orta yaşayış həddi 72 yaş olduğu halda, Dağlıq Qarabağda daha yüksək, 75 yaş həddindədir."(407,s.104)

Ə.Vəzirov 20 yanvar faciəsindən sonra Azərbaycan KP MK-nın plenumunda A.Mütəllibovla əvəz edildi.

Fikrimizcə, Azərbaycana rəhbərlik etmiş digər şəxslər kimi Ə. Vəzirovun da fəaliyyətinin obyektiv şəkildə, daha geniş tədqiqinə ehtiyac var. Belə bir araşdırma çağdaş Azərbaycan tarixinin bəzi qaranlıq səhifələrinə işıq salınmasına kömək edə bilər.

Ermənilərin gündən-günə azğınlaşmasına etiraz olaraq 1988-ci ilin 16 martında Elmlər Akademiyasının qarşısında, 1988-ci ilin 16 mayında isə Azadlıq meydanında mitinqlər keçirildi. Mərkəzi hakimiyyətin 18 iyul qərarından sonra mərkəzi və yerli hökumətin məsuliyyətsizliyi, Ermənistandan azərbaycanlıların vəhşiliklə qovulmasının kütləvi hal alması xalqın səbr kasasını daşdıraraq, qərb mətbuatının "XX əsrin oğuz dastanı" adlandırdığı meydan hərəkatının (17 noyabr-5 dekabr 1988) başlanmasına gətirib çıxardı. Tarixçilər milli-azadlıq hərəkatı tarixinin şanlı səhifələrindən olan "Meydan hərəkatına" aid ayrıca məqalələr həsr ediblər.( 294, 16 noyabr 1996)

Çağdaş Azərbaycan tarixinin şanlı səhifələrindən birini təşkil edən, 18 gün sovet imperiyasına qarşı geniş vüsət almış meydan hərəkatı 70 illik bir rejimin zaman-zaman toplanmış problemləri nəticəsində baş versə də, bunun üçün səbr kasasının daşdıran son damla Topxana meşəsində ermənilərin törətdiyi təxribat olmuşdur.

Topxanada baş verənlər barədə "Topxana harayı" adlı məqalədə ( 23,7 aprel 1990-cı il) məlumat verilsə də fikrimizcə bu hadisələrin tam mahiyyətini əks etdirmir. Çox təəssüf ki, Topxanadan sonra baş vermiş yeni erməni təxribatları bu hadisəni bir qədər kölgədə qalmasına səbəb olub.

"Topxanada 16 il əvvəl nə baş vermişdi?" adlı məqalədə (112,04 noyabr 2004-cü il) hadisə barədə geniş məlumat verilir. Məqalədə qeyd olunur ki, Azərbaycanın ərazilərinə erməni təcavüzünün başlanğıcı hesab olunan Topxana hadisəsi aşağıdakı senari əsasında baş verib: "SSRİ Əlvan Metallurgiya Nazirliyinin Ermənistan SSR-də yerləşən Kanaker alüminium zavodunun direktoru R.N.Enqonyan DQMV XDS İcraiyyə Komitəsinin sədri S.A.Babayana xalq təsərüffatı məhsulları istehsal edən kooperativin yaradılması üçün Əsgəran rayonunun Engels adına kolxozun ərazisində 10 hektar torpaq ayrılması üçün 31 avqust 1988-ci il tarixli 006-3186 saylı məktubla müraciət edib. Məktubda Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin aqrar-sənaye kompleksində istehsal sahələrinin inkişafı haqqında 22 noyabr 1987-ci il tarixli qərarı əsas kimi göstərilib. Bu

müraciətin qeyri-qanuniliyi və təhlükəliyi onda idi ki, Ermənistanın hər hansı bir zavodu kooperativ yaratmaq üçün öz ərazisindən deyil, Azərbaycan ərazisindən torpaq ayrılmasını istəyirdi. Bu açıq, aydın SSRİ-nin o zamankı böhranlı vəziyyətindən sui-istifadə edilərək Azərbaycan ərazisinin zəbt olunmasına cəhddən başqa bir şey deyildi. Bu müraciət DQMV Sovetinin deputatlarının 20 fevral 1988-ci il tarixdə DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxaraq Ermənistan SSR-in tərkibinə birləşməsi haqqında müraciətindən sonra ermənilərin növbəti təxribatı idi. Topxanaya qarşı ermənilərin qəsdi münaqişənin yeni mərhələsinin əsası qoydu. Bu kimi təxribatların həyata keçirilməsi üçün Ermənistan SSR və DQMV-də "Kurunk" və "Qarabağ" komitələri mitinq, nümayiş və tətillər həyata keçirir, dövlət orqanlarına təzyiq göstərirdilər. Bu zaman onlar mərkəzdəki havadarların köməkliyi ilə separatçı planların həyata keçirilməsinə cəhdləri daha da artırırdılar.

Ermənilər tikinti işlərini başlamaqla həm Azərbaycan torpağını zəbt etmək, həm də Azərbaycanın təbiətinə, konkret desək Topxana meşəsinə ekoloji cəhətdən ziyan vurmaq məqsədi güdür və bunula da ziddiyyətləri kəskinləşdirmək istəyirdilər.

S.A.Babayan 1988-ci il sentyabrın 3-də həmin məktubun üstünə tikinti və arxitektura şöbəsinin müdiri V.Q.Osipyana ünvanlanmış aşağıdakı dərkənarı qoymuşdu: "Xahiş edirəm, məcburi surətdə yer ayırın. Məsələ razılaşdırılıb."

Burada haqlı olaraq belə bir sual meydana çıxır. Görəsən S.A.Babayan Azərbaycan torpağının Ermənistana vermək üçün məsələni kiminlə razılaşdırıb? SSRİ qanunlarına görə bu məsələ SSRİ və Azərbaycan rəhbərliyi ilə razılaşdırılmalı idi. Lakin sənədlərdə onun bu məsələni kimlə razılışdırdığı göstərilmir. Ola bilsin ki, bu qeyri-qanuni addımı atmaq üçün ermənilərin Moskvadakı havadarları ilə şifahi razılaşmaları olub. Lakin bunun heç bir hüquqi əsası olmadığına görə ermənilərin bu hərəkəti o zaman vəzifə səlahiyyətini aşmaq, özbaşınalıq, azığınlıq kimi qiymətləndirilməli idi.

V.Q.Osipyan isə torpaq ayrılması ilə bağlı 16 sentyabr 1988-ci ildə 01-66 nömrəli məktubla Əsgəran Rayon XDS İK-nin sədrini əvəz edən V.Köçəryana müraciət edib. Nəhayət torpaq sahəsinin ayrılması ilə bağlı A.Ağababyan və A.Əsriyanın imzası ilə 28 oktyabr 1988-ci il tarixində 32/212 saylı qərar qəbul olunub. Qərarda Topxananın adı dəyişdirilərək Xaçentapa kimi göstərilib. Topxananın adının Xaçentapa kimi göstərilməsinin düzgünlyünü sübut etmək

üçün Ermənistan KP MK-nın orqanı olan “Kommunist” qəzetinin 4 dekabr 1988-ci il tarixli sayında rus dilində “Topxana yoxsa Xaçen-tapa?” adlı məqalə də çap olunub. Sonradan ermənilər Xaçınçay, Xaçbulaq və digər adlar kimi Xaçentəpənin də azərbaycan adı olduğunu görərək Topxananın adını ikinci dəfə dəyişərək “Tsaxkasar” qoyublar. Bundan sonra A.Ağababyanın sərəncamı ilə işi sürətləndirmək üçün xüsusi komissiya yaradılıb.

Təsdiqlənmiş tikintinin baş planına görə ermənilər yeni qəsəbə salmaq üçün işləri Cıdır düzündən yaxşı görünən 3, 4 və 5-ci sahələrdən başlayaraq Xankəndi istiqamətində deyil, Şuşa tərəfə genişləndirilməyi nəzərdə tuturdular. Deməli bu planda qeyd olunduğu kimi ermənilər bu ərazidə kiçik müəssisə deyil, böyük şəhər salmağı planlaşdırırdılar ki, bu da haqlı olaraq azərbaycanlıların narazılığına səbəb oldu.

Bu məsələ ilə əlaqədar ilk dəfə Azərbaycan Dövlət Təbiəti Mühafizə Komitəsi həyacan təbili çalaraq 16 noyabr 1988-ci il tarixdə SSRİ və Ermənistan SSR rəsmilərinə tikintinin qanunsuz olduğunu və təbiətə böyük ziyan vuracağı haqda etiraz teleqramları göndərdi.

Bu hadisədə xəbər tutan Azərbaycan xalqı Bakının Azadlıq meydanına toplaşaraq respublika rəhbərliyindən iki gün ərzində bu təxribata son qoymağı tələb etdi və bununla da Azərbaycan tarixinə “Milli dirçəliş günü” kimi daxil olan meydan hərəkatı başlandı.

Faktlar göstərir ki, ermənilər Topxana meşəsinə əvvəlki illərdə də böyük ziyanlar vurublar. Azərbaycan SSR Nazirlə Sovetinin 01 fevral 1982-ci il tarixli 56 saylı qərarı ilə qırılan ağacların cərimə qiymətləri təsdiqlənsə də bu qərar kağız üzərində qalıb. Bundan başqa həmin qərarda 450 hektar qoruğun və Daşaltı dövlət yasaqlığının yaradılması nəzərdə tutulmasına baxmayaraq həyata keçirilməyib.

Hadisələrin başlanğıcında Azərbaycan SSR Mənzil Tikintisi və Sosial Bankında Topxana üçün 700075 saylı hesaba külli miqdar pul yığılsa da demək olar ki, problemin həlli üçün heç bir əməli tədbirlər görülmədi.

Azərbaycanın o zamankı rəhbərləri hadisələrin arxasınca sürünərək Toxanada erməni təxribatını aradan qaldırmaq əvəzinə xalqın mübarizə əzmini qırmağa çalışırdılar. Xalqın tələbi ilə Azərbaycan SSR Nazirlər Soveti 24 noyabr 1988-ci il tarixdə Topxana ilə əlaqədar 466 saylı qərar versə də dekabrın 5-dən 6-sına keçən gecə meydanın dağıdılması ilə bu qərar da digərləri kimi kağız

üzərində qaldı. (112,04 noyabr 2004-cü il)

Fikrimizcə XX əsrin sonlarından erməni hərbi birləşmələri tərəfindən Azərbaycan ərazilərinin işğalının baş verdiyi ictimi-siyasi vəziyyəti obyektiv dərk etmək, Azərbaycan tarixini ağ ləkələrdən təmizləmək üçün Topxana və bu kimi digər ərazilərə qarşı ermənilərin törətdikləri təxribatların dərindən öyrənməsinə böyük ehtiyac var.

1988-ci ilin dekabrında Ermənistanda baş verən zəlzələ zamanı vəziyyətin gərginliyinə baxmayaraq bir qrup azərbaycanlının təyyarə ilə köməyə göndərilməsi və onların ermənilər tərəfindən bilərəkdən qəzaya uğradılması növbəti faciələrdən birini təşkil edir. (366, 8 iyun 1990) Təəssüf ki, bu hadisə tədqiqatçılar tərəfindən lazımi səviyyədə araşdırılmayıb.

Y.Pompeyevin rus dilində nəşr olunmuş "Qarabağ qan girdabında" kitabında qeyd olunur ki, zəlzələdən dərhal sonra Azərbaycan yüzdən artıq avtokran, buldozer, ekskavator,70 min ton benzin, dizel yanacağı, ağ neft, 1200 ton duru bitum, 90 min ton mazut, 2800 ton maşın yağı hadisə yerinə göndərdi. Leninakan, Spitak, Kirovakanda 20 hərəkət edən yanacaq doldurma məntəqəsi, çoxlu sayda boru, kabel hədiyyə edildi. Zərərçəkənlərə ilk tibbi yardımı Bakıdan sanitar maşınlarla gəlmiş on tibbi briqada göndərilmişdi. 1988-ci ilin ortalarında 700412 saylı hesaba Azərbaycan 5 milyon rubl ianə köçürmüşdü. Ermənilər isə bu köməyin əvəzində SSRİ xalq deputatı Muradyanın rəhbərliyi ilə zəlzələdən ziyan çəkmiş azərbaycanlıların yaşadığı Qursalıdan əhalinin zorla çıxarılmasına nail oldular. Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavinin rəhbərliyi ilə əhali vertalyotlarla Azərbaycanın Qazax rayonuna köçürüldülər. Bundan başqa İL-76 təyyarəsində köməyə gələn və bilərəkdən qəzaya salınan 77 azərbaycanlıdan yeganə sağ qalan F.Balayevə yardım göstərən həkim və digər tibbi personala hədələyici vərəqlər göndərərək, ona yardım edənlərin cəzalandıralacağı bildirilmişdi. (680,s.97)

A.Nağının 2009-cu ildə nəşr olunmuş "Qarabağ müharibəsi"(Qısa tarix) kitabında bu hadisə belə şərh olunur: "1988-ci ilin dekabr ayında Ermənistanda baş vermiş zəlzələ zamanı da azərbaycanlı və ermənilərin əsil mənəvi dəyərləri nümayiş etdirildi. Zəlzələdən dərhal sonra, dekabrın 11-də Azərbaycandan xüsusi dəstə təyyarə ilə təbii fəlakət zonasına yola düşdü. Lakin köməyə gələn təyyarə Leninakan hava limanının dispetçer heyəti tərəfindən qəzaya uğradıldı. Bu qəza

nəticəsində 73 nəfər azərbaycanlı həlak oldu, yalnız bir nəfər xilas ola bildi. Həmin şəxsi isə Ermənistanda heç bir xəstəxana qəbul etmədi, onu təcili olaraq Bakıya göndərməli oldular. Zəlzələdən zərərçəkənlərə kömək üçün gəlmiş fransalı xilasedicilər isə daha dəhşətli hadisənin şahidi oldular. Onların aşkar etdikləri qaynaqlanmış borunun içərisindən 71 azərbaycanlı uşağın meyitləri çıxarıldı. Məlum oldu ki, erməni quldurları hələ noyabrın 12-də uşaqları diri-diri həmin borunun içərisinə salaraq, hər iki tərəfini qaynaq etmişdilər. Bu hadisə uşaqlardan birinin anası Mədinə Şərifovanın gözləri qarşısında baş vermişdi.

M.Qorbaçov başda olmaqla Moskva rəhbərliyi Ermənistanın "etnik təmizləmə" və ilhaqçı siyasətini dəstəkləyir, işğalçı tərəfin Azərbaycanın hesabına ərazilər əldə edərək möhkəmlənməsində maraqlı olduğunu gizlətmirdi. Hadisələrin bu ssenari əsasında davam etdirilməsində M.Qorbaçovun erməni əhatəsinin də kifayət qədər rolu var idi. Zəlzələdən sonra M.Qorbaçov Ermənistanda oldu, bir sıra görüşlər keçirdi və "Qarabağ komitəsi"nin fəaliyyəti ilə bağlı bəzi tənqidi fikirlər səsləndirdi. Lakin bu fikirlər yalnız söz olaraq qaldı. Düzdür, M.Qorbaçovun səfərindən dərhal sonra bu komitənin üzvlərini həbs edib Moskvaya apardılar, lakin cəmisi altı aydan sonra onları sərbəst buraxdılar və onlar geriyə qayıdaraq öz fəaliyyətlərini davam etdirdilər."

1988-ci ildə Azərbaycan rəhbərliyi  hadisələrdən düzgün nəticə çıxara və öz işini şəraitə uyğun qura bilməyərək xalqı yalan vədlərlə sakitləşməyə çalışırdı. Bu dövrdə respublika rəhbərliyi D.Quliyevin "Həyat həqiqəti və təhlükəli oyun (DQMV haqqında)", Ə.Daşdəmirovun "Birlik yeganə yoldur", K.Rəhimovun "Xeyirxahlıq tarazlığı naminə", N.Demidovun "Bu gün Qarabağda (Qarabağda bu gün nə baş verir?)", "İndi təmkin, səbr tələb olunur!" və s. bu kimi məqalələrlə hadisələrin qarşısını almağa cəhd etmişdi. (86,24 noyabr 1988,204, 21 yanvar,7 iyun, 30 avqust, 17 noyabr 1989)  Bu məqalələrlə yanaşı hər iki respublika tibb institutları rektorlarının "Din ayrı qardaş"  başlıqlı mükaliməsi, Ş.Əkbərzadənin DQMV-nin ağsaqqal müəllimi A.Xaçaturyana müraciətlə yazdığı "Biz tale qonşusuyuq..."  və bu mövzuda digər yazılar, həmçinin Azərbaycan SSR DQMV-də yaşayan qadın və analara respublika qadın və anaların müraciəti kimi bir sıra yazılar qəzet səhifələrində verilib. (26,№8,1989,s.10-11,204, 6 mart 1988) Bundan başqa baş verən hadisələri qərb ölkələrinin təxribatı kimi qiymətləndirən Ə.Zərgərov, A.Məmmədov, A.Rzayev və başqa müəlliflərin "Təhrikçilər dinc

dayanmır", "Ehtirasları qızışdıran kimlərdir?", "Təxribatçı səslər" və s. başlıqlı məqalələr (37, №5,s.97; 86,30 mart 1988; 204, 8 mart, 26 mart, 25 noyabr 1988, 21 noyabr 1989) də qəzet və jurnallarda dərc edilib.

Azərbaycan KP MK-nın birinci katibi Ə.X.Vəzirov mərkəzin tam təsiri altında olduğundan Qarabağ problemi ilə bağlı düzgün mövqe tuta bilməyərək bu məsələ barədə reallığa uyğun olmayan fikirlər irəli sürürdü. Lakin tarixi faktlar göstərir ki, kökləri daha dərin olan bu problemin həlli istiqamətində mərkəzdən tam asılı olan və bilavasitə mərkəzin təlimatı ilə işləyən Azərbaycan rəhbərliyi heç bir əməli tədbir həyata keçirə də bilməzdi.

Milli-azadlıq hərəkatı inkişaf etdikcə ona rəhbərlik edəcək bir təşkilatın yaranması zərurəti ortaya çıxırdı. Azərbaycan rəhbərliyi Azərbaycanda Xalq Cəbhəsi yaradılması ideyasından qorxuya düşərək bunun qarşısını hər vəchlə almağa çalışmış, saxta qurumlar yaratmağa, onu öz təsiri altına almağa səy göstərmişdir. Respublika rəhbərliyi digər Respublikalarda yaranmış Xalq Cəbhələrinin fəaliyyətindən, gündən-günə artan nüfuzundan ehtiyat edərək, Xalq Cəbhəsi əvəzinə "El birliyi", "Milli Qurtuluş birliyi" yaradılmasına çalışmışdır.

Bütün təzyiq və təxribatlara baxmayaraq nəhayət 1989-cu il iyulun 16-da Azərbaycanın 30 rayonundan məşvərətçi səslə 240, səsvermə hüququ ilə 196 nəfərin iştirakı ilə Bakıda AXC-nin təsis konfransı keçirilmişdir. Xalq Cəbhəsinin yaranması haqda dünya xalqlarına 22 dildə müraciətlər göndərildi. AXC-nin qəbul olunmuş ilk proqramında göstərilirdi ki, "AXC-nin siyasi fəaliyyətinin əsas məqsədi SSRİ tərkibində Azərbaycan SSR-in siyasi, iqtisadi və mədəni suverenliyinə nail olmaq, onu hüquqi dövlətə çevirməkdir." (73,№1,1989)

Respublikanın paytaxtı ilə yanaşı ayrı-ayrı regionlarda 1988-1990-cı illərdə baş vermiş hadisələrin tədqiqi, müxtəlif bölgələrdəki ictimai-siyasi vəziyyətin öyrənilməsi də aktual olaraq qalır. Bu mövzuda son illər az da olsa kitab və məqalələr yazılıb.(408,409)

"Azadlıq və demokratiya mübarizləri" kitabında (408) 1988-1990-cı illərdə Mingəçevirdə baş vermiş hadisələr haqqında geniş məlumat verilir.

Kitabda bu dövrdə Mingəçevirdə baş verən hadisələr haqqında qeyd olunur ki, 1988-ci ildə respublikanın hər yerində olduğu kimi, Mingəçevirdə də milli-azadlıq hərəkatı geniş vüsət almışdır. İlk olaraq müxtəlif müəssisə və təşkilatlarda ermənilərin separatçı hərəkətlərini pisləyən iclaslar, yığıncaqlar

keçirilirdi. Şəhər əhalisinin əksəriyyəti belə düşünürdü ki, SSRİ  rəhbərliyi bu işi yoluna qoyacaq, günahkarları cəzalandıracaq və məsələni Azərbaycanın xeyrinə həll edəcəkdir. Lakin hadisələrin get-gedə qızışması, Stepanarkertdəki (Xan kəndi) mininqlərdə azərbaycanlılar yaşayan evlərə silahlı basqın çağrışları, Ermənistandan soydaşlarımızın öz ata yurdlarından qovulması faktları və dolayısı ilə SSRİ rəhbərlərinin ermənilərə dayaq durması  bu fikrin yanlış olduğunu sybut etdi. Artıq əhali başa düşürdü ki, Azərbaycanın ərazi bütövlüyü təhlükədədir, milləti, dövləti məhv olmaqdan qurtarmaq lazımdır. SSRİ  rəhbərliyi Azərbaycan torpaqlarına edilən təcavüzə qarşı heç bir tədbir görmürsə, xalq ayağa qalxmalı, öz qeyrətini, namusunu qorumalıdır.  1988-ci ilin əvvələrində Mingəçevirdə keçirilmiş ilk kortəbii yürüşdə artıq bu cür fikirlər səslənirdi. Yerli hakimiyyət nümayəndələri tərəddüd və qorxu içində olsalar da yürüş iştirakçılarına mane olmurdular.

Mingəçevirdə  yürüşlər, yığıncaqlar, mitinqlər 1988-ci ilin oktyabr-noyabr aylarında geniş vüsət almağa başladı. Ən möhtəşəm, yüksək səviyyədə təşkil olunmuş yürüş şəhərin Kür çayının sağ sahilində yerləşən ərazisindən, Mingəçevirin  iri müəssisəsi olan Azərbyacan DRES-dən başladı. Azərbaycan KP şəhər partiya komitəsinin binasına  doğru irəliləyən yürüşçülərə qoşulanların sayı durmadan artırdı. Şəhərin qərb hissəsindən, Toxuculuq kombinatı tərəfdən gələnlərlə DRES tərəfdən gələn yürüş iştirakçıları “Kosmos” kinoteatrının qarşısındakı dördyol ayrıcında birləşdilər. Təşvişə düşmüş şəhər rəhbərliyi yürüşçülərin qarşısına çıxaraq camaatı sakitləşdirməyə çalışırdılar. Azərbaycan KP şəhər partiya komitəsinin birinci katibi Ramiz Tanrıverdiyevin “mən bu şəhərin rəhbəriyəm”  sözləri mitinq iştirakçılarının “Azadlıq!”, “Qarabağ!”, “Separatçılar cəzalandırılmalıdır!” şüarları ilə eşidilməz oldu və xalq öz haqq sözünü demək üçün tribuna tələb etməyə başladı. Mitinq iştirakçılarının tələblərindən qorxuya düşən hakimiyyət nümayəndələri tələsik M.Davudova adına Mingəçevir Dövlət Dram Teatrının qarşısındakı meydanda tribuna duzəldərək mikrafonlarla təhciz etdilər. Bunda sonra fasiləsiz mitinqlər başladı. (408,s.10)

Qarabağdan, Bakıdan, sərhəd bölgələrindən, Ermənistandan alınan həyacanlı xəbərlər mitinqdə səsləndirilir, ermənilərin törətdikləri vəhşiliklərə etiraz bildirilir, hakimiyyətdən tədbir görülməsi tələb olunurdu. Mitinqlər 1988-ci ilin sonuna qədər davam etdi. Bundan sonra, həmin meydanda 1989-cu ildə fasilələrlə

bir neçə güclü mitinq də keçirilildi. Artıq şəhərdə xalq hərəkatı təşkilatlanmağa, Xalq Cəbhəsinin dayaq dəstələri yaranmağa başlamışdır. Mitinqlərdə fəallıq edənlər işlədikləri müəssisələrdə təşkilatlanma işlərinə rəhbərlik edirdilər. Bunların sırasında milli azlıqların nümayəndələrinin, xüsusilə  də rus millətinin nümayəndələrinin də olması prosesin demokratik mahiyyətindən xəbər verirdi. Bunlara misal olaraq Mingəçevirdə doğulub boya, başa çatmış Yura Oleyniki və başqalarını göstərmək olar. (408,s.11)

`1989-cu il oktyabrın 2-də M.Davudova adına Mingəçevir Dram Teatrının binasında AXC-nin Mingəçevir  şəhər şöbəsinin təsis konfransı keçirildi və ilk İdarə Heyəti seçildi. Ümumiyyətlə milli-azadlıq hərəkatının liderləri, tanınmış ziyalılar, hökümət nümayəndələri Mingəçevirə xüsusi diqqət yetirir, tez-tez şəhərə gələrək mitinqlərdə çıxışlar edirdilər. Məsələn, Bəxtiyar Vahabzadə, Aydın Məmmədov, Bəkir Nəbiyev və başqa tanınmış şəxslər müxtəlif vaxtlarda şəhərdə keçirilmiş mitinqlərdə çıxışlar etmişlər. Bəxtiyar Vahabzadənin vətənpərvərlik ruhunda, Aydın Məmmədovun türkçülük, milli birlik haqqında çıxışları şəhər əhalisinin mübarizə əzmini artırdı.

1990-cı ilin 20 yanvarında rus qoşunlarının Bakıya təcavüz etməsi və yüzlərlə insanın həlak olması və yaralanması xəbəri şəhər əhalisini sarsıtdı və hadisəyə etiraz əlaməti olaraq ayağa qaldırdı. Artıq kütləvi aksiyaların toplandığı məkan dəyişirdirilərək "1941-1945-ci illər Böyük Vətən müharibəsi" iştirakçılarının xatirəsinə ucaldılmış abidə kompleksinin qarşısına keçirildi. 20 yanvar faciəsindən sonra bu meydan "Azadlıq" meydanı adlandırıldı. ( 408, s.11-14)

Azərbaycan tarixinin 1988-1990-cı illər tarixşünaslığında tədqiqatçıların ən çox müraciət etdiyi mövzulardan biri  20 yanvar hadisəsidir. Bu mövzuya T.Köçərli, M.İbrahimov, Q.Əbdülsəlimzadə, R.Zeynalov, A.Balayev, N.Fərəcov, T.Əsədullayev, M.İsmayıl, A.Yunusov, M.Hüseynov, N.Hacıyev və başqa müəlliflər məqalələr həsr ediblər.(22,24 yanvar 1991; 23,3 avqust 1990,8 mart 1991; 86, 24 dekabr 1990,19 yanvar 1991; 107,17 noyabr 1990,17 yanvar 1991; 108,№2,1991,s.18-19;204,8 dekabr 1990; 402,16 yanvar,24 aprel 1991;455, 23 dekabr 1990, 20 yanvar 1991; 491,12 yanvar 1991; 552,18 yanvar 1992 və s.)

Bu məqalələrlə yanaşı müstəqil ekspert kimi Amerika Helsinki qrupunun üzvü, hüquqşunas Robert Kuşenin,  fransız  M.Broksülün, rus A.Yevstiqneyevin,

D.Muradovun və digər xarici müəlliflərin 20 yanvara aid məqalələri və mərkəzi mətbuatda çıxan yazılar da hadisənin tədqiqində müəyyən əhəmiyyətə malikdir. (21,18 yanvar 1991; 107,17 yanvar 1991; 171,№ 3,1990,s.72-74; 204,14 avqust 1990; 566,12 yanvar 1992; 602, 25 noyabr, 14 dekabr 1990 və s.)

Bundan başqa M.Qarayevin "Yanvar hadisələrinin mətbuatda işıqlandırılması", Q.Nəbizadənin "20 yanvar xarici mətbuatda", "Bakı necə tutuldu: 20 yanvara həsr olunmuş məqalələrdən seçmələr" "Tamamilə məxfi. (Azərbaycan KP MK-nın susmaq xəyanəti sənədlərdə)", E.Mehrəliyevin "Müharibə və nəsrimiz" və digər məqalələri fikrimizcə Ermənistan-Azərbaycan münaqişəsinin, o cümlədən 20 yanvar hadisəsinin tarixşünaslığına aid etmək olar.(23,24 yanvar 1991, 27 yanvar 1994; 24,№8,2000; 107,17 yanvar 1991; 171,№4,1991 )

Bu məqalələrlə yanaşı A.Balayev, R.Mirzə, Q.Gəngərli, İ.Vəliyev, SSRİ xalq deputatları M.T.Abbasov, O.A.Əhmədov, S.M.Vəzirov, M.N.Hacıyev, T.K.Hacıyev, V.Q.Məmmədov, A.A.Namazova, A.R.Rzayev, E.Y.Salayev və digər müəlliflərin də 20 yanvara aid kitabları nəşr olunub. (88; 200; 201; 399; 422; 743; 759)

A.Nağının 2009-cu ildə nəşr olunmuş "Qarabağ müharibəsi" (Qısa tarix) kitabında 20 yanvar 1990-cı il hadisələri ərəfəsi Respublikadakı vəziyyət haqqında aşağıdakı məlumat verilib:1990-cı il yanvarın əvvəllərində erməni tərəfi Dağlıq Qarabağın şimal hüdudlarına yaxın olan Goranboy rayonunun kəndlərini havadan güllələbaran etdi. Bu məqsədlə onlar döyüş silahları ilə təmin edilmiş Mİ-8 mülki vertolyotlarından ilk dəfə istifadə etdilər. Ermənilərin bu hücumları vəziyyəti gərginləşdirdi. AXC tərəfindən yaradılmış Milli Müdafiə Şurası dinc əhalini müdafiə etmək üçün könüllü dəstələrin bir hissəsini Gəncə-Xanlar sahəsində cəmləşdirdi. Yanvarın 11-də Goranboy rayonu ərazisində bir neçə silahlı qarşıdurma baş verdi. Bu hadisələrdən sonra Moskva Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarında fövqəladə vəziyyət rejimi elan etdi. Eyni zamanda Azərbaycan-Ermənistan sərhəddinin Naxçıvan hissəsində də silahlı toqquşmalar baş verdi. Yanvarın 18-də Naxçıvan Muxtar Respublikasının Kərki kəndi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edildi. Qarabağ və Naxçıvanda gedən döyüşlərlə paralel olaraq Azərbaycanda siyasi böhran kəskinləşirdi. Bakıda hakimiyyət, demək olar ki, iflic vəziyyətində idi. Bəzi cənub rayonlarında hakimiyyət AXC-nin yerli şöbələrinin nəzarəti altına keçmişdi. 1989-

cu il dekabrın 29-da Cəlilabadda, 1990-cı il yanvarın 11-də Lənkəranda Sovet hakimiyyəti devrildi. 1989-cu ilin sonu-1990-cu ilin əvvəlində İranla 137 km-lik sərhəd zolağı açıldı, mühəndis-texniki qurğular sıradan çıxarıldı. Bakıda və digər iri şəhərlərdə kütləvi vətəndaş itaətsizliyi aksiyaları keçirilir, əsas dövlət orqanları və hərbi hissələrin fəaliyyəti dayandırılırdı. Azərbaycanda Sovet imperiyasına qarşı nifrət yüksək həddə çatmışdı. İşğalçı Ermənistanı dəstəkləyən Moskva hakimiyyətinə son qoyulması tələb edilirdi. Moskva Azərbaycanda hakimiyyətini itirəcəyindən ehtiyat edərək güc tətbiq etmək, xalqa divan tutmaq qərarına gəldi. 1990-cı il yanvarın 16-19-da Moskva rəhbərliyi Bakı ətrafında 50 min nəfərdən artıq hərbi qüvvə cəmləşdirdi. Bu qüvvələr Zaqafqaziya, Moskva, Leninqrad hərbi dairələri, hərbi-dəniz donanması, Daxili İşlər Nazirliyi daxili qoşunları və digər hərbi birləşmələrin hesabına formalaşdırılmışdı.

SSRİ xalq deputatları M.T.Abbasov, O.A.Əhmədov, S.M.Vəzirov, M.N.Hacıyev, T.K.Hacıyev, V.Q.Məmmədov, A.A.Namazova, A.R.Rzayev, E.Y.Salayevin tərtib etdikləri və rus dilində nəşr olunmuş "Faciəli yanvar-Bakı 1990" kitabı (759) müxtəlif sənədlər, fərmanlar, çıxış və məqalələrin toplandığı 8 hissədən ibarədir.

Kitabın birinci hissəsində A.F.Daşdəmirovun "Demokratiya və zorakılıq bir araya sığmaz" məqaləsi və A. Mütəllibovun 6 fevral 1990-cı il tarixli çıxışı verilib.

"Ərazi iddiası-ziddiyyətin mənbəyidir" adlı ikinci hissədə 27, "Azərbaycanın gərgin günləri və fövqəladə vəziyyət" adlı üçüncü hissədə 29, "Yeni təxribat keçməyəcək" adlanan dördüncü hissədə 31 material nəşr olunub.

"Xarici mətbuat Azərbaycandakı vəziyyət haqqında" adlanan beşinci hissədə Azərbaycan SSR Xarici İşlər Nazirliyi mədəni və elmi əlaqələr informasiya şöbəsinin topladığı materiallar işıqlandırılıb. Konkret olaraq kitabın beşinci hissəsində ABŞ-ın "Vaşinqton post" qəzetinin 18 yanvar, "Nyu-York tayms" qəzetinin 19, 20, 21, 22, 24 yanvar, Avstraliyanın "Kanberra tayms" qəzetinin 18 yanvar, Vatikanın "Osservatore romano" qəzetinin 23 yanvar, Fransanın "Jurnal dyu dimanş" jurnalının 24 yanvar, Yaponiyanın "İomiuri" qəzetinin 23 yanvar, Türkiyənin "Terkiş deyli nyus" qəzetinin 25 yanvar, İrannın "Cümhuriye islami" qəzetinin 19 yanvar 1990-cı il nömrələrində verilmiş materiallar, bundan başqa Türkiyə nümayəndəsinin NATO-dakı bəyanatı, Anadolu agentliyinin məlumatları

verilib.

“Həyat davam edir” adlanan altıncı hissədə Azərbaycan KP plenumunun materialları və müxtəlif təşkilatların müraciətləri nəşr olunub. (759)

“Kimdir müqəssir?” başlıqlı yeddinci hissədə Y.Arakelyan, Z.Qədirbəyov və Q.Ovçarenkonun birlikdə yazdıqları “Dağlıq Qarabağ və onun ətrafındakı hadisələr haqqında”, Q.Qluşkovun “Aşkarlığın qıtlığı yoxsa obyektivliyin qıtlığı?”, Mirzə İbrahimovun “Torpaqdan pay olmaz!”, Anarın “Bədbəxtlik” məqalələri, yazıçı Çingiz Abdullayevin SSRİ xalq deputatlarına müraciəti və elmi işçi Elmira Axundovanın məqaləsi nəşr edilib.(455,9 avqust 1989;491,18,23 yanvar 1990;682, 21 mart 1988)

“Qara yanvarın” qurbanları adlanan səkkizinci hissədə Azərbaycan SSR Səhiyyə Nazirliyinin məlumatları dərc olunub. Məlumatlarda qeyd edilir ki, 1 fevral 1990-cı il tarixə qədər Azərbaycanın tibb müəssisələrinə 706 nəfər müraciət edib. Məhkəmə-tibb məntəqələrinə 84 nəfər qəbul olunub. Onlardan 73 nəfəri, o cümlədən 16 nəfəri arxadan odlu silahdan yaralanmış, 8 nəfəri zirehli texnika ilə əzilmiş, 2 nəfəri süngü yarası almışdır. 29 yanvar 1990-cı ilə qədər 170 nəfər həlak olub ki, bunlardan da 6 nəfəri rus, 7 nəfəri tatar, yəhudi, ləzgi milliyyətindən olanlardır. Həlak olanların 6 nəfərini qadın, 9 nəfrini isə uşaq və yeniyetmə təşkil etmiş, 301 nəfər isə itkin düşüb.(759)

Aydın Balayev və Rasim Mirzənin “20 yanvar hadisələri. Sənədlər, mövqelər, şərhlər (1990-2000)” adlı kitabı (88) faktiki materialların çoxluğu baxımından digər kitablardan fərqlənir.

Kitabda 1988-1990-cı illərdə Azərbaycanda gedən və son nəticədə 20 yanvar hadisələrinə gətirib çıxaran proseslər təhlil edilib, müxtəlif dövlət orqanlarının, ictimai-siyasi qurumların 20 yanvar hadisələrinə münasibətini əks etdirən sənədlər dərc olunub, həmin hadisələrin bilavasitə iştirakçısı olmuş siyasi və ictimai xadimlərin mövqeləri işıqlandırılıb. Kitab ön söz və üç bölmədən ibarətdir.

“Yenidənqurma siyasətindən 20 yanvar hadisələrinə doğru (1988-1990)” adlanan birinci bölmə “Azərbaycanda milli hərəkatın başlanması”, “1989-cu ildə Azərbaycanda ictimai-siyasi durum. Milli hərəkatın yüksəlişi”, “Moskvanın Azərbaycanda milli hərəkatı məhv etmək cəhdi. 20 yanvar hadisələri” başlıqlı hissələrə bölünüb.

Kitabın birinci hissəsində Azərbaycanın milli gəlirinin ildə orta hesabla 20-25 faizinin ittifaq fondunun yaradılmasına sərf edildiyi halda həyat səviyyəsinin əsas göstəricilərinə görə SSRİ üzrə orta səviyyədən 1,7 dəfə geri qaldığını, “Azərbaycan tarixi” dərsliklərində XX əsr hadisələrinin təsvirinə 317 səhifə ayrıldığı halda, ən qədim dövrdən XIX əsrin sonlarınadək olan böyük bir dövrə cəmi 166 səhifə yer verildiyi, 1969-1979-cu illəri əhatə edən sonuncu bölmədə dəfələrlə L.Brejnevin adının çəkilməsi, ciddi təhriflərə məruz qalmış “Azərbaycan tarixi”nin tədrisinə cüzi miqdar saat ayrıldığı halda, əsas diqqətin “SSRİ tarixi” adı altında rus tarixinin tədrisinə verilməsi, 1977-ci ildə qəbul olunmuş Konstitutsiyada Azərbaycan dilinin dövlət dili statusu almasına baxmayaraq bunun kağız üzərində qalması və Azərbaycan dilinin sıxışdırılması tənqid olunub. Bundan başqa 1989-cu ildə Azərbaycanlıların sayı estonlardan təxminən 6 dəfə, litvalılardan 2 dəfə, gürcülərdən isə 1,7 dəfə çox olmasına baxmayaraq eston dilində 13,3 milyon nüsxə tirajla 1319 adda, litva dilində 20,5 milyon tirajla 2075 adda, gürcü dilində 16,1 milyon nüsxə tirajla 1383 adda, Azərbaycan dilində isə cəmi 11,3 milyon nüsxə tirajla cəmi 793 kitabın çap olunması və bu ildə eston dilində 116, litva dilində 105, gürcü dilində 61 mətbuat orqanı nəşr olunduğu halda, Azərbaycan dilində 55 dövrü mətbuat orqanının nəşr olunması müəlliflər tərəfindən tənqid edilib.

Kitabın birinci hissəsində həmçinin, o zamankı Azərbaycan rəhbərliyinin 1985-ci ilin sonlarında “Daşnaksütun” partiyasının Afinada keçirilmiş XXIII qurultayında qəbul edilmiş, əzəli Azərbaycan torpaqları olan Naxçıvan və Qarabağı da özündə birləşdirən Ermənistanın yaradılması ideyasına, S.Şaumyanın “Literaturnaya qazeta”nın 2 sentyabr 1987-ci il tarixli və A.Aqambekyanın “Humanite” qəzetinin 18 noyabr 1987-ci il tarixli sayındakı bəyanatlarına heç bir reaksiya verməmələri, əksinə Azərbaycan torpaqlarını Ermənistan torpaqları kimi təqdim edən Z.Balayanın bədnam “Ocaq” kitabının mətbuatda tənqidinə qadağa qoyması kəskin tənqid edilib.

“1989-cu ildə Azərbaycanda ictimai-siyasi durum. Milli hərəkatın yüksəlişi” adlanan ikinci hissədə 1989-cu ildə baş vermiş hadisələr, o cümlədən yanvarın 12-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə A.Volskinin başçılığı altında DQMV Xüsusi İdarə Komitəsinin təşkil olunması ilə Azərbaycan rəhbərliyinin vilayətin idarə olunmasından faktiki kənarlaşdırılması, 1989-cu il

iyulun 16-da Bakıda yarımleqal şəraitdə AXC-nin təsis konfransının keçirilməsi və oktyabrın 5-də Respublika Nazirlər Soveti tərəfindən rəsmən qeydə alınması, AXC-nin rəhbərliyi ilə 29 iyun, 5 və 12 avqustda keçirilmiş çoxminli izdihamlı mitinqlər və əksər müəssisələrin qoşulduğu xəbərdarlıq tətilləri, sentyabrın 23-də Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycan SSR-nin suverenliyi haqqında" Konstitutsiya qanununun qəbul edilməsi, dekabrın 24-də AXC-nin mətbu orqanı olan "Azadlıq" qəzetinin ilk nömrəsinin 200 minlik tirajla çapdan çıxması və digər hadisələr  qısa şərh olunub.

"Moskvanın Azərbaycanda milli hərəkatı məhv etmək cəhdi. 20 yanvar hadisələri" adlanan üçüncü hissədə AXC-nin 1989-cu ilin sonlarına yaxın əhalinin əksər hissəsinin rəğbətini qazanması, rəsmi hakimiyyətin isə xalqın etimadını tamamilə itirməsi nəticəsində faktiki olaraq klassik ikihakimiyyətliliyin yaranması, 1990-cı  ilin martında keçirilməsi nəzərdə tutulan Ali Sovetə seçkilərdə AXC-nin qələbəsinin qaçılmaz olmasının Moskvanı təşvişə salması və bunun qarşısını almaq və digər respublikaların gözünü qorxutmaq üçün 20 yanvar faciəsini törətməsi və s. məsələlər şərh edilib.

Müəlliflər 20 yanvar faciəsində sonrakı vəziyyəti şərh edərək bu qənaətə gəliblər ki, faciə AXC-yə güclü zərbə vursa da qanlı qırğının təşkilatçıları öz məqsədlərinə nail ola bilməyiblər.  Onların fikrincə siyasi və mənəvi cəhətdən tam iflasa uğramış Sovet imperiyası nəinki Azərbaycanda milli hərəkatı məhv etmək iqtidarında olmadı, əksinə onun törətdiyi faciə milli hərəkatın tələblərinin daha da radikallaşmasına gətirib çıxartdı. Belə ki, əgər 20 yanvar hadisələrinə qədər AXC SSRİ-nin tərkibində Azərbaycanın real suverenliyinə nail olmasını əsas məqsəd kimi irəli sürürdüsə, 1990-cı il martın 24-25-də keçirilən AXC Ali Məclisi təşkilatın Azərbaycanın SSRİ-dən kənarda tam dövlət müstəqilliyi uğrunda mübarizə apardığını bəyan etdi.

Kitabın "Sənədlər, şərhlər" adlanan ikinci bölməsində Azərinformun məlumatları, DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 15 yanvar 1990-cı il tarixli fərmanı, AXC İdarə Heyətinin 15, 26, 27 , 29 yanvar  və 2 mart tarixli bəyanatları, 1989-cu il noyabr-dekabr aylarında vəziyyət haqqında məlumatı və digər sənədlər verilib. Bundan başqa  Azərbaycan KP MK-nın katibi H.Həsənovun 8 yanvar 1990-cı il tarixdə keçirilmiş  yığıncaqda, xalq yazıçısı İsmayıl Şıxlının Azərbaycan KP

MK-nın 24 yanvar 1990-cı il tarixli plenumunda, Etibar Məmmədovun 30-31 oktyabr 1990-cı il tarixdə keçirilmiş məhkəmədə, İsa Qənbərovun AXC-nin III konfransındakı çıxışları, Azərbaycan SSR Ali Sovetinin və Azərbaycan KP MK-nın qəbul etdiyi sənədlər, 20 yanvar hadisəsi ilə bağlı müstəqil araşdırmaların nəticələri, hadisə ilə bağlı Azərbaycan SSR Ali Soveti Komissiyasının rəyi və Azərbaycan Respublikası Ali Sovetinin 24 mart 1994-cü il tarixli qərarı nəşr olunmub

"Mövqelər, şərhlər..." adlanan üçüncü bölmədə 20 yanvar hadisələri və ondan əvvəl başlayan Meydan hərəkatı ilə bağlı verilmiş 7 suala Müsavat Partiyasının Başqanı İsa Qənbərin, Azərbaycan Yazıçılar Birliyinin sədri, millət vəkili Anarın, AXCP sədri Əbülfəz Elçibəyin, AXCP sədrinin birinci müavini, millət vəkili Əli Kərimovun, VHP-nin sədri, millət vəkili Sabir Rüstəmxanlının, AMDP-nin sədri Nemət Pənahlının, ASDP həmsədri Zərdüşt Əlizadənin, Azərbaycan EA-nın əməkdaşı Ənvər Əliyevin cavabları verilib.

Professor Çapay Sultanovun faciə ilə bağlı rus dilində nəşr olunmuş, "İmperiyanın son zərbəsi" kitabında (730) faciə ərəfəsində ermənilərin separatçı fəaliyyəti, sovet rəhbərliyi daxilində olan çəkişmələr, faciələrə böyük dövlətlərin və beynəlxalq təşkilatların münasibəti və s. məsələlər işıqlandırılıb. Kitab yazılmasında 454 mənbədən istifadə olunub. Yerli mənbələrlə yanaşı, qərb, rus və erməni mənbələrindən istifadə edilməsi kitabın elmi dəyərini artırır. Kitab sonradan ingilis və türk dillərində də nəşr olunub.

R.Mehdiyevin 2000-ci ildə çapdan çıxmış "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" kitabında digər məslələrlə yanaşı 20 yanvar faciəsi ilə bağlı da çoxlu sayda faktlar var. Kitabın "Qanlı yanvar və Dağlıq Qarabağ problemi" adlı bölümündə qeyd olunur ki, 1989-cu il oktyabrın 7-də respublika DTK-sının sədri Vaqif Hüseynovun əmri ilə komitənin müxtəlif bölmələrinin 12 zabitindən ibarət "Böhran qrupu" deyilən qrup yaradılmışdı. O qrupa 5-ci şöbənin rəisi Vladimir Mirzəyev başçılıq edirdi…"Böhran qrupuna" dair istintaq materialları göstərir ki, əslində qrupun fəaliyyət dairəsi xeyli geniş idi və əmrlə müəyyənləşdirilmiş çərçivədən çox-çox kənara çıxırdı. Fitnə-fəsadlar, partlayışlar, mənzillərin yandırılması, qətl məqsədilə sui-qəsdlər - bunlar həmin qrupun məşğul olduğu əməllərin heç də tam siyahısı deyildir. İstintaqın aşkara çıxardığı faktların təhlili sübut edir ki, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov Moskvanın

bütün göstərişlərini sözsüz yerinə yetirərək, öz xalqına qarşı ağır cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olmuşdur. Azərbaycan KP MK-nın ikinci katibi V.Polyaniçko, hökumətin sədri A.Mütəllibov, DTK-nın sədri V.Hüseynov bu cinayətin birbaşa iştirakçıları idilər. Bakı Şəhər Partiya Komitəsinin birinci katibi M.Məmmədov Bakıya qoşun bölmələrinin yeridilməsinə qarşı tədbirlər görülməməsinə, vətəndaşların təhlükəsizliyinin təmin edilməməsinə görə siyasi məsuliyyət daşıyır. Azərbaycan KP MK Bürosunun digər üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri mənəvi-siyasi məsuliyyət daşıyırlar.

Kitabda "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı"nın tam mətni də verilib. Qərarda qeyd olunur ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür… Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublika rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olmuşdur. SSRİ Konstitusiyası, Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulmuş, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmışdır.

20 yanvar faciəsi ilə bağlı Moskva Dövlət Universitetinin Beynəlxalq Münasibətlərin Sosiologiyası kafedrasının müdiri, siyasi elmlər doktoru Aleksandr Duqinin fikrirləri obyektivliyinə görə digərlərindən fərqlənir. O, faciə ilə bağlı aşağıdakı fikrləri deyib: "Mən hesab edirəm ki, həmin dövrdə Azərbaycanda baş vermiş faciə təkcə Azərbaycan xalqının yox, bütün Sovet xalqının faciəsi idi. Təəssüf ki, Qorbaçovun cinayətkar siyasətinin dəhşətli nəticələri hələ də özünü

göstərir. Qarşıda bizi daha böyük bəlalar, minlərlə insanın qanının axıdılması gözləyir. Bunlar Mixail Qorbaçovun cinayətkar siyasətinin nəticəsidir... 1990-cı ilin yanvarında azərbaycanlıların qırılması o vaxtkı Sovet rəhbərliyinin cinayətkar əməllərinin bir elementidir."(190,s.168-169)

V.Hüseynovun Moskvada iki cildlik, rus dilində nəşr olunmuş "Bir ömürdən daha artıq" adlı kitabının bir bölümü "Qara yanvar" adlanır. Müəllif 20 yanvar faciəsinə digər müəlliflərə nisbətən fərqli münasibət bəsləyir. Müəllifin fikrincə 1988-ci ilin mayında K.Bağırovun Ə.Vəzirovla dəyişdirilməsi, eyni zamanda Ermənistan və DQMV rəhbərliyinə yeni şəxslərin təyin olunması əhalidə Qarabağ problemininin tezliklə həllinə ümidi artırmışdı. Qazax və İcevan rayonlarının sərhəddində hər iki respublika rəhbərlərinin, Ə.Vəzirovla S.Q.Arutyunyanın görüşü buna müsbət təsir göstərmişdi. (531)

Dövrü mətbuatda 20 yanvar faciəsi ilə yanaşı Azərbaycanın ən yeni tarixinin tədqiq olunmamış mövzularından, hərbçilər tərəfindən Bakı-Sumqayıt yolunda törədilmiş qanlı cinayət, Neftçala və Lənkəran faciələri haqqında M.Qarayevin, P.Lyukimsonun, F.Əsgəroğlunun və digər müəlliflərin bir neçə məqalələri dərc olunub.(21,11 yanvar 1991; 108,№2,1991,s.12-15; 111,01 fevral 1991)

"Lənkəran, Neftçala şəhidləri" məqaləsində (21,11 yanvar 1991) qeyd olunur ki, Bakıdakı 20 yanvar faciəsindən sonra sovet qoşunları ilə Lənkəranda qarşıdurma olmaması üçün bir qrup şəxs İstisu meşəsinə çəkilib. Yanvarın 26-da 14.30 dəqiqədə tank və vertolyotların köməyi ilə sovet qoşunları əməliyyat keçirərək, xüsusi qəddarlıqla 20-dən artıq Lənkəranlını həbs edərək, onlara müxtəlif işgəncələr veriblər. Sonra isə onların əl və ayaqlarını məftillə boğazlarına bağlayaraq vertalyotla Qızılağac aeroportuna, oradan da təyyarə ilə Bakıya gətiriblər. 1965-ci il təvəllüdlü Tariyel Abdullayevin boğazına bağlanmış məftil onu boğduğuna görə məftili bir az boşaltmağı xahiş etsə də, əsgərlər əksinə məftili daha da sıxaraq onun boğulmasına gülərək tamaşa etmişlər. Xüsusi qəddarlıqla öldürülmüş T.Abdullayev yanvarın 31-də şəhidlər xiyabanında dəfn olunmuş, valideynləri isə bu faciədən yalnız fevralın 12-də xəbər tutmuşlar.

Yanvarın 26-da saat 14 radələrində Rövşən Bədəlov, Şahin Məmmədov, Rövşən Allahverdiyev Lənkəranın Haftoni-Kirov kəndləri arasında sovet ordusu əsəgərləri tərəfindən atəşə məruz adlıblar. R.Bədəlov və Ş.Məmmədov vəhşicəsinə öldürüldükdən sonra qatillər izi itirmək üçün meyidləri yandırıblar.

Məqalədə həmçinin Neftçalada sovet ordusu vəhşiliklərinə məruz qalaraq şəhid olmuş Əbülfəz Cəfərov və Nurəddin Ağahüseynov haqqında məlumat verilib. Məqalədə göstərilir ki, N.Cəfərov yanvarın 26-da rayon xəstəxanasından, atasının yanından qayıdarkən AXC Neftçala rayon təşkilatının qarşısında atəşə tutulub. Sovet əsgərləri onu yaralı halda həbs olunanların yanına gətirərək müxtəlif işgəncələr vermişlər. N.Cəfərovun qırıq-qırıq "... Vətənimin, xalqımın yolunda ölürəm, ay allah" deməsini yanındakılar dəhşətlə xatırlayırlar. Sovet ordusu əsgərləri onun barmağındakı qızıl üzüyü çıxarda bilmədiklərinə görə, N.Cəfərovu öldürdükdən sonra üzüklə birlikdə barmağını da kəsib götürüblər.

Məqalədə N.Ağahüseynovun yanvarın 25-də axşam saat 19-da evə gedərkən Neftçaladakı mərkəzi univermağın yanında sovet əsgərlərinin açdığı atəş nəticəsində öz maşınında yaralanması və xəstəxanada vəfat etməsi haqqında da məlumat verilib. Onun ailəsinə rayona daxil olmuş silahlı dəstənin təzyiqi ilə N.Ağahüseynovun öz əcəli ilə öldüyünü təsdiq edən saxta şəhadətnamə verilsə də, sonradan rayon əhalisinin tələbi ilə həqiqət bərpa olunub. (21, 11 yanvar 1991)

M.Zülfüqarlının "Neftçala və Lənkəran faciələrinin tarixşünaslığı" məqaləsi (264,№12,2012,s.78-79) hadisələrə aid yazılmış məqalələrin təhlilinə həsr olunub.

"Azadlıq və demokratiya mübarizləri" kitabında 20 yanvar 1990-cı il tarixdən Mingəçevirdəki vəziyyət haqqında məlumat verilir: "Azərbaycan televiziyasının susdurulması, mərkəzi televiziya kanallarının birtərəfli məlumatlar yayması şəhərdə informasiya qıtlığı yaratmışdı. Bu zaman şəhər əhalisi yalnız Şuşa TV-nin 1 saatlıq verlişlərinə baxa bilirdi. Fövqəladə vəziyyətin elan edilməsi ilə Şuşa televiziyası da susduruldu. Belə bir şəraitdə şəhər fəalları video lentləri efirə buraxmaqla bu boşluğu doldurmağa çalışırdılar. Mingəçevirin "Azadlıq" meydanında keçirilən mitinqdə Bakıdakı hadisələrin canlı şahidi olan şəxslər 20 yanvar hadisəsi barədə mitinq iştirakçılarına ətraflı məlumat verirdi. Mitinqlərdə çıxış edənlər müxtəlif təkliflər, o cümlədən 40 günlük tətil etmək təklifini irəli sürdülər və bu təklif mitinq iştirakçıları tərəfindən yekdilliklə qarşılandı.( 408, s.14)

20 yanvar faciəsindən sonra özündə qüvvə tapan Azərbaycan vətəndaşları 9 aprel Tbilisi hadisələrinin ildönümü münasibətilə Gürcü xalqının dərdinə şərik olaraq həmrəylik yürüşü keçiriblər. Bakıda və respublikanın digər bölgələrində

fövqəladə vəziyyətin elan olmasına baxmayaraq Bakıdan Tbilisiyə qədər davam edən bu yürüşün önündə kiçik yaşlı Oktay Babazadənin milli üçrəngli bayrağı aparması müstəqillik uğrunda mücadilə edən Azərbaycanda mübarizə ruhunun yüksək olmasından xəbər verirdi. R.Hüseynovun "İnşaatçı" qəzetinin 21 aprel 1990-cı il sayında dərc olunmuş "Dərdin böyüyü-kiçiyi yoxdur" (9 aprel Tbilisi hadisəsinin ildönümü münasibəti ilə azərbaycanlıların həmrəylik yürüşü haqqında) məqaləsi bu hadisəyə həsr olunub.

Tədqiq olunan dövrdə Dağlıq Qarabağ problemi, Bakıda 20 yanvar faciəsi və digər hadisələr Azərbaycanda yenidənqurma və demokratikləşmə proseslərinə şübhələrin yaranmasına və münasibətin dəyişməsinə səbəb oldu. Bunun da nəticəsində Hidayətin ""Yenədənqurma" sözü və yenidənqurma özü", M.Şükürün "Yenidənqurma budurmu?" məqalələri kimi yenidənqurma konsepsiyasını tənqid edən məqalələr dərc olunub. (23,24 mart 1990,111,27 mart 1990)

Fikirimizcə 20 yanvar faciəsini doğuran səbəbləri yaxından öyrənmək üçün bu hadisələrə qədər prosesləri təhlil edib nəticə çıxarmaq daha düzgün olardı. Bu məsələ ilə bağlı yazılmış məqalələrdə 20 yanvar hadisəsinə qədər proseslər aşağıdakı ardıcıllıqla işıqlandırılıb:

Azərbaycan rəhbərliyi Azərbaycanda Xalq Cəbhəsi yaradılması ideyasından qorxuya düşərək bunun qarşısını hər vəchlə almağa çalışaraq saxta qurumlar yaratmağa, onu öz təsiri altına almağa səy göstərib.

Bütün təzyiq və təxribatlara baxmayaraq nəhayət 1989-cu il iyulun 16-da Bakıda AXC-nin təsis konfransı keçirilib. Xalq Cəbhəsinin yaranması haqda dünya xalqlarına 22 dildə müraciətlər göndərilib.

AXC-nin qəbul olunmuş ilk proqramında göstərilirdi ki, "AXC-nin siyasi fəaliyyətinin əsas məqsədi SSRİ tərkibində Azərbaycan SSR-in siyasi, iqtisadi və mədəni suverenliyinə nail olmaq, onu hüquqi dövlətə çevirməkdir."(22, 24 dekabr 1989)

Təsis konfransında qəbul edilmiş "Azərbaycan SSR-in dövlət suverenliyi haqqında" qətnamədə isə bu məsələ belə yazılıb: "Azərbaycanda Demokratik Respublika quruluşu Sovet Sosialist quruluşu ilə əvəz edildikdən sonra onun suverenliyi böyük dövlətçilik siyasəti nəticəsində ləğv edilmiş və indiyə qədər bərpa olunmamışdır. AXC SSRİ tərkibində qalmaqla Respublikanın suverenliyinə nail olmaq perspektivini yalnız inqilabi yenidənqurma proseslərinin davam

etməsi şəraitində mümkün hesab edir. AXC SSRİ-nin federativ sisteminin təkmilləşdirilməsini zəruri hesab edir."(73,№3 1989, s.1)

SSRİ-nin tərkibində Azərbaycanın suverenliyinin qeyri -mümkünlüyünü yaxşı başa düşən Respublika rəhbərliyi bu fikirlərdən öz məqsədləri üçün istifadə etməyə cəhdlər etmişdir. Sonradan Azərbaycan KP MK katibi, akademik Ə. Daşdəmirov "Suverenliyin hüdudları" məqaləsində bu ideyanı müdafiə edərək Respublikanın digər rəhbərləri ilə əhalini yeni ittifaq müqaviləsinə doğru sürükləməyin ideoloji xəttini müəyyən etmişdi. (682, 24 avqust 1990)

Fikrimizcə SSRİ-nin tərkibində Azərbaycanın suverenliyi ideyası 27 aprel 1920-ci il işğalından sonra bolşeviklərin elan etdiyi müstəqil Azərbaycan Sovet Respublikasının "suverenliyi" ilə oxşarlıq təşkil edirdi.

Milli-azadlıq hərəkatının yeni mərhələsi 29 iyul 1989-cu il tarixindən böyük vətənpərvərlik dalğası ilə "Azadlıq" meydanında keçirilən mitinqlə başlamışdı ki, bu mitinqlərə də 1988-ci il noyabr mitinqlərindən fərqli olaraq AXC rəhbərlik edirdi.

"Azadlıq" meydanında avqustun 5-də keçirilən mitinqdə Respublika rəhbərliyinə verilən tələblər yerinə yetirilmədiyi üçün yeni tələblər irəli sürülürdü. Tələblər yerinə yetirilmədiyinə görə 150 minlik 12 avqust 1989-cu il tarixli mitinqdə avqustun 24-də birgünlük tətil keçirilməsi haqqında qərar qəbul olundu. Bu qərar öz nəticəsini verdi və Respublika rəhbərliyi qarşıdurmadan geri çəkilməyə məcbur oldu. Avqustun 14-də, bir günlük xəbərdarlıq tətilinin nəticələrinin müzakirə olunduğu mitinqdə Respublika rəhbərliyinin nümayəndəsi də iştirak edərək AXC idarə heyətini Azərbaycan KP MK-nın rəhbərliyi ilə danışıqlara dəvət etməsi hərəkatın uğuru hesab oluna bilər. Lakin bu danışıqların və xalqın təzyiqi nəticəsində Azərbaycan SSR Ali Soveti "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyət haqqında" (15 avqust 1989) qərar qəbul etsə də, bu qərar da digərləri kimi icra olunmadı.

500 minə qədər adamın iştirak etdiyi 19 avqust 1989-cu il tarixli mitinqdə vətəndaşlara Respublika rəhbərliyi ilə keçirilmiş görüşdə müzakirə edilən məsələlər haqqında məlumat verilmişdi. Bunlar fövqaladə vəziyyətlə əlaqədar olaraq növbədənkənar sessiyanın çağırılması, DQMV-də yaradılmış Xüsusi İdarəetmə Komitəsinin və komendant saatının ləğvi, AXC-nin təsdiqi və s. məsələlər idi.

Mitinqlərdə irəli sürülən tələblər yerinə yetirilmədiyinə görə avqustun 21-22-də iki günlük, sentyabrın 4-dən 11-nə kimi bir həftəlik ümum Respublika tətili keçirildi. Bu kütləvi tədbirlərdən sonra Azərbaycan KP MK ilə AXC İdarə Heyəti arasında 13 sentyabr 1989-cu il tarixdə aparılmış danışıqlar nəticəsində 10 maddədən ibarət razılaşma protokolu imzalandı. Protokolda DQMV-də fəaliyyət göstərən Xüsusi İdarə Komitəsinin ləğv olunması, Azərbaycan SSR-in dövlət suverenliyi və iqtisadi müstəqilliyi haqqında qanun layihələrinin müzakirə edilib qəbul edilməsi və s. məsələlər barədə razılıq əldə olundu.(262, sentyabr 1989)

Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyasında (15 sentyabr 1989-cu il) razılaşma protokolunun DQMV ilə bağlı I maddəsi qismən, AXC İdarə Heyətinin sessiyaya dəvət olunması, qanun layihələrinin hazırlanmasında iştirak etməsi və sessiyanın gedişinin televiziya ilə birbaşa yayımını nəzərdə tutan II və X maddələrinə tam əməl olundu. Digər maddələr, xüsusilə dövlət suverenliyi və iqtisadi müstəqillik haqqında qanunun qəbul olunmasını nəzərdə tutan III maddənin qəbul edilməməsi üçün Respublika rəhbərliyinin etdiyi müxtəlif cəhdlərinin qarşısı çətinliklə də olsa AXC üzvləri tərəfindən alındı. Onların qətiyyətli çıxışları və fəaliyyəti nəticəsində 23 sentyabrda öz işini başa çatdıran sessiyada keçmiş SSRİ ərazisində ilk dəfə olaraq “Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında” Azərbaycan SSR-in Konstitusiya Qanunu qəbul olundu. (328, sentyabr 1989)

Qanunu qəbul edildiyi dövrdəki ictimai-siyasi vəziyyət haqqında ““Suverenlik haqqında” qanun (sentyabr 1989) necə qəbul olundu?” adlı məqalədə (294, 10 oktyabr 2006) ətraflı məlumat verilir. Məqalədə qeyd olunur ki, çağdaş Azərbaycan tarixinin ən gərgin, ən ziddiyyətli dövrlərindən birini təşkil edən 1989-cu ilin sentyabr ayını “ikihakimiyyətlik” dövrü kimi də qiymətləndirmək olar. Bu dövrdə hakimiyyət kommunist partiyasının əlində olsa da güc xalq hərəkatının tərəfində idi. Maraqlıdır ki, bəzi müqayisələr aparılsa Azərbaycanda XX əsrin 80-ci illərin axırı-90-cı illərin əvvəllərində baş vermiş hadisələrlə Polşada baş vermiş hadisələr arasında çoxlu oxşar cəhətlərə rast gəlmək olar. Polşada da Azərbaycanda olduğu kimi 1989-cu ilin avqustunda kütləvi hərəkatların nəticəsində hökümət müxalifətlə dialoqa başlamağa və 21 maddədən ibarət saziş imzalamağa məcbur olmuşdu. Azərbaycanda da Polşada olduğu kimi seçkilərdə müxalifətin qələbə çalacağına heç bir şübə yox idi. Lakin sovet qoşunları tərəfindən 20 yanvar

faciəsinin törədilməsi buna imkan vermədi. Demokratiya uğrunda mübarizədə Polşadan fərqli olaraq Azərbaycana qərb ölkələrinin dəstək verməməsi 20 yanvar kimi faciələrin baş verməsinə gətirib çıxardı.

"Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında" Azərbaycan SSR-in Konstitusiya qanunu qəbul olunduğu dövrdə Respublika rəhbərliyinin göstərişi ilə mətbuatda mitinq və tətilləri pisləyən yazılar rəsmi mətbuatda dərc olunurdu. Belə yazılarda qeyd olunurdu ki, "1988-1989-cu illərdə tətillər nəticəsində respublikada təqribən 390 milyon manatlıq az sənaye məhsulu istehsal edilmişdir.Təkcə son bir həftədə Bakının, Sumqayıtın bir çox müəssisələrinin işləməməsi ucbatından 150 milyon manat itirilmişdir." (354, 22 sentyabr 1989)

SSRİ və Respublika rəhbərliyinin problemlərin həlli istiqamətində fəaliyyət göstərməməsi Azərbaycanda siyasi böhranı daha da kəskinləşməsinə səbəb oldu və 1989-cu ilin noyabr ayından mitinqlər yenidən geniş vüsət almağa başladı. Mitinqlərdə irəli sürülən tələblərdən biri Ermənistandan öz yaşayış yerini məcburi tərk etmiş 165 min azərbaycanlını Qarabağda yerləşdirməkdən ibarət idi. Lakin SSRİ Ali Sovetinin "DQMV-də vəziyyəti normal hala salmaq tədbirləri haqqında" (28 noyabr 1989) qərarı buna imkan vermədi.

Bundan sonra AXC-nin parlament seçkilərində qələbəsinin labüd olduğunu görən Moskva Azərbaycanın dinc yolla müstəqilliyinin bərpasının qarşısını almaq üçün kütləvi cinayətləri planlaşdırmağa başladı. Rəsmi Moskva dağılmaqda olan imperiyanın ömrünü uzatmaq və başqa regionlarda vüsət alan milli hərəkatların qarşısını almaq məqsədilə Bakıda xalqa qarşı qanlı cinayət törətməyi qərara aldı. Faciə ərəfəsi Azərinformun erməni terrorçularının qanlı cinayətləri haqqında yaydığı xəbərlər və yayılan şayiələr ehtirasları coşdurur, xalqı problemin həllində passiv mövqe tutan rəhbərliyə qarşı müxtəlif təzyiq formalarından istifadə etməyə təhrik edirdi. 20 yanvar faciəsinə qədər respublikanın bir sıra bölgələrində qarşıdurma faciələrə gətirib çıxardı.

Belə hadisələrdən biri 1989-cu ilin sonunda Cəlilabad rayonunda baş verdi. Cəlilabadda əhalinin etiraz mitinqini zorakılıqla dağıtmaq üçün respublikanın müxtəlif bölgələrindən 1989-cu il dekabrın 28-dən 29-na keçən gecə yüzlərlə silahlı milis dəstələri gətirilməsi əhalini daha da hiddətləndirdi. Qarşıdurmada rayonun inzibati binaları dağıdıldı, milis maşınları yandırıldı və dinc əhali arasında

ölənlər və yaralananlar oldu.

"Azadlıq" meydanında 30 dekabr 1989-cu il tarixdə keçirilən mitinqdə AXC bu hadisəyə rəsmi münasibət bildirdi: "Cəlilabadda nümunə kimi fövqəladə vəziyyət elan etmək istəyirlər ki, sonradan digər yerlərdə bunu tətbiq etsinlər... İndiki dövrdə onların qorxduğu bir məsələ var ki, o da seçki məsələsidir. Seçki məsələsindən Moskva da narahatdır, Bakı da. Vəzirov hətta təklif edib ki, 15-20 deputat yeri verək bizdən əl çəkin. 360 yerə AXC 360 namizəd verəcək. Onlar uduzacaqlarını görürlər."

Mitinqdə həmçinin Vəzirovun istefa tələbinə də münasibət bildirildi: "Vəzirov gedəcək yerinə V.Hüseynov, A.Mütəllibov, H.Həsənov gələcək. Onlar özləri gəlməyəcək, Moskvadan təyin olunacaqlar. Hakimiyyətin xalqa verilməsinin bir yolu var. Ali qanunverici orqan xalqa verilməlidir. Onda onun işinə heç kim qarışa bilməz. Ali Sovet xalqın əlinə keçsə Konstitutsiyanın VI maddəsi çıxarılar...SSRİ rəhbərliyinin qorxduğu bir şey varsa o da Azərbaycanın SSRİ-dən ayrılmasıdır. Bunun iki yolu var. Ya Ali qanunverici orqanın qərarı ilə, ya da üsyan yolu ilə...Bizim indiki yolumuz odur ki, 2-3 il dözmüşük, 2-3 ay da dözək."(15,16)

Sovet tarixşünaslığının tədqiq etmədiyi mövzulardan biri də 1989-cu ilin 31 dekabrında baş verən və sonradan tarixə "Dünya azərbaycanlılarının həmrəylik günü" kimi düşən sərhəd hərəkatıdır. Bu mövzu ilə əlaqədar sonrakı illərdə bir sıra tədqiqat işləri aparılıb.(409,294, 28 dekabr 1996, 26 dekabr 2006)

"Sərhəd hərəkatından vüsət alan həmrəylik" adlı məqalədə qeyd olunur ki, 7 oktyabr 1989-cu il tarixdə saat 10-00-da İliç (Şərur) rayonunun mərkəzi meydanında keçirilən mitinqdə iki tələb irəli sürülürdü. Birinci tələb AXC rayon təşkilatının icazəsi olmadan Ermənistan SSR ərazisinə yanacaq və ərzaq məhsulları buraxılmaması, ikinci tələb isə rayonun dəmir yolu stansiyalarında AXC üzvlərinin təşkil etdiyi postların fəaliyyətinə yerli partiya və sovet təşkilatlarının təzyiqinə son qoyulması. 14 və 17 oktyabr 1989-cu il mitinqlərində isə əsas tələb ondan ibarət idi ki, hərbi xidmətə çağrılan azərbaycanlı gənclər yalnız Azərbaycan ərazisində xidmət etsinlər. (294, 28 dekabr 1996)

1989-cu ilin noyabr ayından başlayaraq Ermənistanın Vedi, Masis, Yexednadzor rayonlarından azərbaycanlıların Sədərəyə qaçqın axını başlaması vəziyyəti daha da ağırlaşdırdı. Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirovun

tapşırığı ilə bu qaçqınlar Azərbaycanın digər rayonlarına buraxılmamalı, yalnız Naxçıvan ərazisində yerləşdirilməli idilər. Bu zaman Ermənistanın azərbaycanlılar yaşayan Şiddi kəndinin əhalisi ermənilərlə atışmadan sonra erməni azğınlığına etiraz əlaməti olaraq Türkiyənin sərhəddinə toplaşaraq kəndi tərk etmək istəmədiklərini bildirir və mübahisəli məsələləri həll etmək üçün Moskvadan komissiya tələb edirlər. Bu zaman Naxçıvandan göndərilən iki zirehli hərbi maşın Şiddi kəndinin qadın və uşaqlarını Sədərəyə gətirib onların yerləşdirilməsini təmin etdi.

1989-cu il dekabrın 31-də Naxçıvanda başlanan sərhəd hərəkatı Ordubad-Culfa-Bəbək-Naxçıvan-Şərur-Sədərək ərazisi boyunca Araz kənarında Azərbaycan xalqını iki yerə bölən sərhəd dirəkləri sökülərək yandırılması ilə nəticələndi. Bu hərəkatın əsas məqsədi uzun illər Azərbaycan xalqının iki yerə bölünməsinə və azərbaycanlıların yaşadıqları öz dədə baba yurdlarından, Ermənistan və Dağlıq Qarabağda kütləvi surətdə qovulmasına etiraz etmək, bu həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdan ibarət idi. Lakin bundan başqa SSRİ ilə İran arasında sərhəd dirəklərinin Araz çayının sahilindən deyil, çaydan xeyli aralı qoyulması da əhalinin kəskin etirazına səbəb olmuşdu. Çünki Araz çayı ilə sərhəd dirəkləri arasında xeyli münbit torpaq və otlaq sahəsi istifadəsiz qalması, Araz çayının suyundan əhali lazımınca istifadə edə bilməməsi də ciddi narazılıq doğururdu.

1989-cu ilin yaında SSRİ-ni lərzəyə salmış Ümumrespublika tətil hərəkatının rəhbərləri digər tələblərlə yanaşı, Araz boyu istifadəsiz qalmış torpaqların əhalinin istifadəsinə verilməsini də tələb kimi irəli sürürdülər. Ölkə rəhbərliyi bu şərti qəbul etməsinə baxmayaraq ona əməl etmək istəmirdi. Sərhəd dirəklərinin dağıdılmasının bir səbəbi də məhz respublika rəhbərliyinin verdiyi sözə əməl etməməsi olmuşdu.

1989-cu ilin 31 dekabrında bütün Naxçıvan ərzisi boyu sərhəd dirəklərini sökülməsinə başlanıldı. Həmin tarixdən sərhədə gedən rayon əhalisi Sədərək kəndi yaxınlığında İranla sərhəddə 2 km, Vəli dağı ərazisində 1,5 km, Şərurun Kərimbəyli kəndi yaxınlığında 2 km, Xələc kəndində 1,8 km, Qara Həsənli kəndində 7 km, Diyadin kəndində 2,5 km, Püsyan kəndində 1,5 km və Şahtaxtı kəndində 4 km ərazidə sərhəd məftillərini kəsmişdilər. (409,s.40)

Bu proses Naxçıvanın İranla sərhəd ərazilərində nisbətən asan keçsə də Türkiyyə ilə sərhəddə vəziyyət fərqli idi. İranla sərhəddən fərqli olaraq Türkiyə ilə

sərhəd hər iki tərəfdən möhkəm qorunurdu. Rus zabiti Oreşkinin rəis olduğu 15 saylı sərhəd zastavasında yerli əhalinin nümayəndələri arasında danışıqlar başladı. Danışıqlarda qeyd olundu ki, sərhəd sökülməsi azərbaycanlılar sərhəddi pozub NATO-nun üzvü olan Türkiyəyə keçmək istəyi kimi qələmə verilə bilər. Bundan başqa zastava rəisi Ermənistan tərəfdəki qamışlıqda gizlədilmiş iki zirehli hərbi maşınının sərhəd pozulan kimi onlar atəş açacağı və günahı da azərbaycanlıların üstünə yıxacağı barədə də xəbərdarlıq etdi. Bundan sonra əldə olunan razılığa əsasən sərhədçilər yerli əhaliyə iki qardaş xalqı bir-birindən ayıran sərhəddən simvolik olaraq tikanlı məftil qırıb götürməyə icazə verdilər. Bu tikanlı məftil kiçik hissələrə bölünüb əhaliyə paylandı və yüzlərlə ailəyə təzə ilin müqəddəs ərmağanı kimi sərhəd dirəklərindən sökülmüş tikanlı məftillər hədiyyə edildi. Bu proses əhalinin vətənpərvərlik hisslərinin daha da güclənməsində, onun həmrəyliyinin artmasında mühüm rol oynadı.

Bu hadisəni Alman xalqını iki yerə ayırmış Berlin divarının sökülməsi ilə müqayisə etmək mümkündür. Hər iki proses parçalanmış xalqların birləşmək istəyini özündə əks etdirirdi. Almaniyada da əhali Berlin divarlarından qoparılmış kiçik hissələri xalqın birlik rəmzi kimi götürmüş, onları ən qiymətli həddiyə kimi evlərində qoruyub saxlamışlar. Lakin Berlin divarının sökülməsi Alman xalqının birləşməsi ilə başa çatsa da, Araz çayı üzərindəki sərhəd dirəklərinin sökülməsi Azərbaycanın şimali ilə cənubunun birləşməsi ilə nəticələnmədi. Buna baxmayaraq bu hadisə SSRİ-nin dağılması, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunmasında mühüm rol oynamışdır. (409,s.41-42)

Bundan bir il sonra Naxçıvan MR Ali Məclisi "31 dekabr dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü haqqında" (16 dekabr 1991) qərar qəbul etdi. Qərarın II bəndi ilə müafiq qərar qəbul olunması üçün Azərbaycan Respublikası Ali Sovetinə təklif verildi. Bundan sonra Respublika Milli Məclisi "31 dekabrın Dünya Azərbaycanlılıarnın həmrəylik günü kimi bayram edilməsi haqqında" (27 dekabr 1992) qərar qəbul etdi. (294, 28 dekabr 1996)

AXC-nin 2 yanvar 1990-cı il tarixdə keçirilən sessiyasında aşağıdakı tələblər irəli sürülmüşdü:"Ermənistanla bütün əlaqələr kəsilsin; Dağlıq Qarabağda erməni əhalisi Azərbaycanın qanunlarına tabe olmadığına görə vətəndaşlıqdan məhrum edilib Respublikadan çıxarılsın...Bizim məqsədimiz şəhərdə əmin-amanlığın qorunması, əhalinin bir-biri ilə toqquşmasına yol verməməkdir." (15)

Qarabağ probleminin həllinin süni surətdə uzadılmasına etiraz olaraq və dünya dövlətlərinin diqqətini bu məsələyə yönəltmək məqsədilə Lənkəranda 1990-cı il yanvarın 11-də, gecə saat 2.00-da partiya və hakimiyyət orqanlarının fəaliyyətini müvəqqəti dayandırıldı. Müvəqqəti milli müdafiə komitəsi şəhərdə məsuliyyəti öz üzərinə götürərək kortəbii formada Qarabağa və Ermənistanla sərhəd rayonlarına köməyə getmək istəyən gəncləri qanuni nizami dəstəklərdə birləşdirmək üçün DİŞ-in əməkdaşları ilə razılığa gəldi. Komitə özünün "Elin səsi" adlı bülleteni də nəşr etdi.

Bakıda gərginliyi artırmaq məqsədilə Moskva əvvəl Xanlar (indiki Göy göl) və Qubadlıya hərbi vertolyotların hücumunu təşkil etdi, lakin bu təxribat istənilən nəticəni vermədiyinə görə Bakıda erməni talanları təşkil etməyə başladı. Bu təxribat vaxtı Bakıda Sovet ordusunun 12 minlik qoşunu var idi ki, onlara və digər güc nazirliklərinin qüvvələrinə 20 yanvara qədər heç nəyə qarışmamaq əmri verilmişdi.

Azərbaycan Ali Soveti Rəyasət Heyəti 15 yanvar 1990-cı il tarixdə Dağlıq Qarabağda və sərhəd rayonlarında fövqəladə vəziyyət elan olunması haqqında qərar qəbul etdi. Bu qərar 19 yanvar 1990-cı il tarixdə saat 16.46 dəqiqədə Moskvaya göndərilərkən xalqdan gizli olaraq Bakı və Gəncə şəhərləri də bura əlavə olunmuşdu.

Sov.İKP rəhbərliyini təmsil edən Y.Primakov və A.Kirenko yanvarın 16-da AXC rəhbərləri ilə görüşdə, Azərbaycan KP MK-nın katibi Ə.Daşdəmirov və Azərbaycan KP Bakı şəhər komitəsinin I katibi M.Məmmədov isə yanvarın 18-də televiziya ilə çıxışlarında bildirmişlər ki, Bakıda komendant saatı olmayacaq, şəhərə qoşun yeridilməyəcək. Faktlar göstərir ki, artıq yanvarın 18-də gündüz saat 12.00-da Ə.Vəzirov vəzifədən kənarlaşdırılmış, lakin bu xəbər gizli saxlanmışdır. Bundan başqa faciə ərəfəsi "Alfa" qrupunun üzvləri əhaliyə obyekyiv məlumat verilməsinin qarşısını almaq üçün Azərbaycan Televiziya Komitəsinin enerji blokunu partlatmışlar.

Yanvarın 19-dan 20-nə keçən gecə qaniçən ordu qəflətən bir neçə istiqamətdə Bakıya girərək əliyalın, ürəkləri vətən sevgisi ilə döyünən əhaliyə qarşı ağılasığmaz vəhşilik edərək, dinc əhalini qırdı. O gecə xalq qurban verə-verə milli-azadlığın şəhidlik sınağından mərdliklə çıxaraq, dərddən güclü olduğunu sübut etdi.

Deputat istintaq komissiyasının məlumatına görə yanvar faciəsində 130 nəfər şəhid olmuş, 700 nəfər yaralanmışdı. Hətta fövqəladə vəziyyət elan edilmədən Neftçala və Lənkərana qoşun yeridərək vəhşiliklər edilmiş, nəticədə Neftçalada 2 nəfər, Lənkəranda 6 nəfər öldürülmüşdü. Qanlı cinayətlə yanaşı imperiya ordusu minədək vətəndaşı həbs edərək, Rusiyanın müxtəlif bölgələrinə göndərmişdi.

Bu dövrdə itkin düşənlər haqqında müxtəlif şaiyələrin yayılması əhalini bərk narahat edirdi. "Sabit Orucov" gəmisi "Sos" siqnalı ilə bütün dünyaya faciə barədə məlumat verdikdən sonra şəhərə dənizdən hücumun qarşısını almaq üçün Azərbaycan dənizçiləri, həyatlarını təhlükə qarşısında qoyaraq bütün gəmiləri Bakı buxtasına yığdılar. Yanvarın 21-də saat 20.30 dəqiqədə iki hərbi gəminin, iki katerin müşayiəti ilə naməlum yük aparması haqqında məlumat alan dənizçilər hərbi katerlərə qarşı silahsız mübarizəyə başladılar. Düşmən atəşi nəticəsində "Neftqaz-18", "Neftqaz-64", "Aktau", "Şirvan-2", "Çelekin-1", "Atlet-21", "Vadaley-4" gəmiləri ciddi surətdə zədələndi. Yaralı gəmilər Azərbaycan dənizçilərinin düşmənə nifrətinin, xalqın silahsız mübarizəsinin nümunəsi idi. 20 yanvardan dərhal sonra başlamış kütləvi repressiyalar, həbslər düşmənə müqavimət göstərmiş qəhrəman dənizçilərdən də yan keçmədi.

Qanlı yanvar faciəsinə etiraz əlaməti olaraq Naxçıvan MSSR Ali Soveti SSRİ-nin və müvafiq surətdə Azərbaycan SSR-in tərkibindən çıxmaq haqqında qərar qəbul etsə də, yanvarın 27-də Azərbaycan SSRİ Ali Soveti bu qərarı ləğv etdi. Yanvarın 22-də Azərbaycan SSR Ali Soveti Bakıda fövqəladə vəziyyətin tətbiqini qeyri-qanuni hesab edərək, onu ləğv etməsinə baxmayaraq Azərbaycan KP MK bürosu fövqəladə vəziyyətin qalmasını lazım bildi.(294, 16 yanvar 1997)

Sovet tarixşünaslığında tədqiq olunmayan mövzulardan biri də 1990-cı ilin 20 yanvar faciəsi ərəfəsi Naxçıvanın ictimai-siyasi vəziyyəti, sovet ordusunun köməkliyi ilə ermənilərin Naxçıvana qarşı planlaşdırdığı təxribatla bağlıdır. Sovet tarixşünaslığında bu məsələ öz əksini tapmasa da, sonrakı illərdə nəşr olunmuş bir sıra kitab və məqalələrdə bu problem haqqında ətraflı məlumatlar verilib.

Bunlarda A.Rüstəmoğlunun "Sədərəyin harayı" ("Səs"qəz. 25 iyun 1992-ci il), M.Məmmədovun "Sədərək hadisələri "20 yanvar"ın ilk səhifəsi idi ("İki sahil" qəz. 18 yanvar 1997-ci il), C.İbrahimoğlunun "9 gün gəlinsiz toy" (112,14 oktyabr 1995-ci il), M.Zülfüqarlının "Erməni təcavüzünün ilk qurbanı:Kərki

kəndi”,  ““Həsənqulu bağı” erməni təcavüzündən necə müdafiə olundu”(112, 17 noyabr 2004-cü il) “Naxçıvana qarşı 20 yanvar qəsdi”(112,7 yanvar 2005-ci il) məqalələrini, “Sədərəyin mərd mübarizləri” kitabını (409) göstərmək olar.

Azərbaycanın ən strateji ərazilərindən birini təşkil edən Sədərəkdə həmin illərdə baş verən hadisələrin obyektiv tədqiqi müasir dövrdə də aktual olaraq qalır.

“Sədərəyin mərd mübarizləri” kitabında Azərbaycanın strateji cəhətdə ən vacib regionlarından biri olan Naxçıvan MSSR-in Sədərək ərazisində1988-1990-cı illərdə baş verən ictimai-siyasi proseslər barədə geniş məlumat verilir.(409)

Kitabda qeyd olunur ki, Ermənistan silahlı dəstələri müxtəlif vaxtlarda böyük strateji əhəmiyyəti olan Sədərəyə 14 dəfə quldurcasına hücuma keçmiş, ancaq rayonun qəhrəman müdafiəçiləri doğma torpağın şərəfini sonadək ləyaqətlə qorumuşlar. Sədərəyin müdafiəsi uğrunda aparılmış  çoxsaylı döyüşlərdə “Telestudiya”, “Kökəltmə birliyi”, “Qaraburun-Koroğlu”, “Mil”, “Ağoğlan”, “Ucubiz”, “Cintəndiri”, “Əjdəkan”, “Qara ağac”ın Kərki selovu,  Tağı bağı, Həsənqulu bağı, Yetimlər və s. postlarında  320 nəfər müxtəlif yaralar almış, 500-ə qədər ev dağıdılmış, 104 nəfər şəhid olmuşdu. (409,s.90)

Azərbaycan tarixinin sovet dövründə öyrənilməmiş səhifələrindən biri də  20 yanvar ərəfəsi ermənilərin Naxçıvana qarşı planlaşdırdığı təxribatlar, o cümlədən Kərki kəndinin işğalı ilə bağlıdır. Kərki kəndi Sədərəkdən 10 km aralı Azərbaycanın 1990-cı ilin 20-yanvarına qədər Ermənistan tərəfdə anklav ərazisi idi.

1988-ci ilin fevralından erməni ekstrimistlərinin təxribatları başlanandan ilk hədəflərindən biri də məhz Kərki kəndi olmuşdur. Hadisələri xronoloji ardıcılıqla izlədikdə məlum olur ki, Kərki Moskvanın tapşırıqlarını canla, başla yerinə yetirən o zamankı respublika rəhbərliynin acizliyi nəticəsində işğala məruz qalmışdı.

Ermənilərin təxribatlarına baxmayaraq 1989-cu ilin martın 17-də Novruz bayramı münasibətilə Kərkililərin bayramını təbrik etmək üçün  Sədərək kəndinin nümayəndə heyəti bayram sovqatları ilə Ermənistan SSR-in Arazdəyən kəndindən (indiki Erasx) keçməklə oraya getmişlər. Kərki kənd  orta məktəbində təşkil olunmuş təntənəli bayram şənliyində Sədərəkdən gəlmiş musiqiçilər, Bahar qızı, Kosa və Keçəl kənd əhalisinə böyük sevinc bəxş etmişlər. Nümayəndə heyəti geri qayıdarkən silahlı erməni quldurları KAMAZ və ZİL markalı maşınlarla Sədərək

sərhəddinə qədər onları təqib edərək atəşə tutmuş, lakin xoşbəxtlikdən xəsarət alan olmamışdı.

1989-cu ilin yayında ermənilərin ara verməyən atəşlərinə baxmayaraq Sədərək və Kərki əhalisi ruhdan düşmür, hətta toy şənliklərini də keçirirdilər. Bu toylardan birində Sədərəkdə təşkil olunmuş toya gəlin Kərki kəndindən gətirilməli idi ki, bu da böyük risk tələb edirdi. Erməni quldurları bu iki kənd arasında post qoymuş, Kərki kəndinin əlaqəsini hər yerdən kəsmişlər.Toy məclisində iştirak edən Sədərəyin qeyrətli oğulları gəlini Kərki kəndindən gətirməyi öz boyunlarına götürmüşlər. Həyatlarını təhlükə qarşısında qoyan igidlər gizli yollarla Kərkiyə gələrək gəlini götürüb Sədərək kəndinə yola düşmüşlər. Sədərəkli gənclər söz vermişlər ki, əgər ermənilər müqavimət göstərib onları və gəlini girov götürmək istəsələr düşmən əlinə keçməmək üçün son anda özlərini öldürəcəklər. Onların maşınları Sədərək və Kərki kəndlərinin bir-biri ilə əlaqəsini kəsən, Arazdəyən kəndində yerləşən posta yaxınlaşarkən maşının sürətini artıraraq ermənilərin şlaqbaumu endirməsinə imkan verməyiblər. Birinci maşın sürətlə keçdikdən sonra gəlin maşını da onun ardınca sürətlə postu keçərək Sədərəyə tərəf yollanıb. Ermənilər atəş açsalar da xoşbəxtlikdən xəsarət alan olmayıb. (409,s.30)

1989-cu ilin avqust ayında Kərkini müdafiə etmək üçün Sədərəkdən oraya göndərilmiş milis işçiləri silahı posta təhvil verərək növbədən geri qayıdarkən Cəhənnəm dərəsinin boğazı Əncirlikdə, Həsənqulu bağını zəbt edərək bostan əkmiş ermənilər tərəfindən mühasirəyə alınmışlar. Bir az keçməmiş İliç rayon (indiki Şərur) partiya komitəsinin birinci katibi və Azərbaycan SSR Daxili İşlər Naziri hadisə yerinə gəlmişlər. Bu zaman yerli əhali vəziyyətin ağırlığını nəzərə alaraq onlardan toplanmış silahların qaytarılmasını nazirdən xahiş etmişlər. Bundan dərhal sonra nazirin əmri ilə Sədərəklilərdən yığılmış ov tüfənglərini geri qaytarılmış, əlavə olaraq Sədərək milisinə bir neçə avtomat da verilmişdi. Gərgin döyüşlərdən sonra milis rəisinin müavininin rəhbərlik etdiyi milis işçiləri, yerli əhali ilə birlikdə ermənilərin mühasirəsini yararaq mühasirədə olan milis işçilərini azad etmişlər.

Kərki kəndinin müdafiəsini zəiflətmək və əhalinin ərzaqla təmin edilməsinə imkan verməmək üçün erməni quldurları Kərkiyə Arazdəyəndən gedən yolu tez-tez bağlayırdılar. Buna görə İliç (Şərur) rayon XDS İcraiyyə Komitəsinin sədrinin təşəbbüsü ilə Kərki kəndindən Şurut bulağından, Tejgar dağının

ətəyindən Həsənqulu bağından keçməklə Sədərəyə yol çəkilişinə başlanılmışdı. Lakin vəziyyətin get-gedə daha da ağırlaşması bu işin başa çatdırılmasına imkan vermədi.

1957-ci ildə Ermənistan tərəfindən İliç(Şərur) rayonun Dövlət Bankına 16 min rubl ödənildikdən sonra o zamankı Azərbaycan rəhbərləri Cermux-Yerevan şossesinin Kərkidən keçməsinə icazə vermişlər. O vaxtdan həmin yol ermənilərin nəzarəti altına keçmişdi. O, dövrdə Azərbaycan rəhbərliynin çıxardığı səhv qərar 1989-cu ildə ermənilərin Arazdəyən-Kərki yolunu da bağlamalarına şərait yaratmışdır. Bura ermənilər hətta milli münaqişələrin qarşısını almaq üçün göndərilmiş rus qoşunlarını da buraxmırdılar. Kərki əhalisi ilə əlaqə demək olar ki, tam kəsilmişdi. Əhali aclıq çəkirdi. Kərkiyə yalnız Həsənqulu bağındakı ermənilərin bostan sahəsindən gizlincə keçməklə, çətinliklə ərzaq aparılması təşkil olunurdu.

1990-cı ilin əvvəllərində Kərkini müdafiə etmək üçün kənddə cəmi 17 nəfər qalmışdı. Hər iki gündən bir Sədərəkdən 20-30 nəfər könüllü növbə ilə onlarla birlikdə Kərkini qoruyurdular.

15 yanvardan 16-na keçən gecə Kərki kəndindən hava telefonu ilə bildirmişlər ki, təxminən 2-3 min nəfər silahlı erməni kəndi mühasirəyə alıb. Onlar səhər saat 7-dən kəndi atəşə tutmağa başlamış, kəndin müdafiəçiləri, Daxili İşlər Nazirliyinin 60 nəfər əməkdaşı köməyə gələnə qədər onlarla döyüşmüş, düşmənin qarşısını kəsmişlər. Ermənilər kənddəki mağazanı, pavilyonu və bir evi yandırsalar da geri çəkilməyə məcbur olublar. Bu döyüşdə bir erməni öldürülüb, ikisi isə yaralanıb. Kərki müdafiəçilərinə Sədərəkdən hərbi texnika ilə köməyə gələn 3 nəfər hərbçi yaxından köməklik edib, onların səyi nəticəsində faciənin qarşısı alınıb. Ermənilər geri çəkildikdən sonra körpünün altından ABŞ istehsalı olan 2 avtomat və çoxlu patron aşkara çıxarılaraq SSRİ Müdafiə Nazirliyinə təhvil verilib.

Yanvarın 18-i axşama qədər Kərkinin igid müdafiəçiləri ermənilərə layiqli müqavimət göstəriblər. Lakin qüvvələr nisbəti qeyri-bərabər olduğuna görə vəziyyət faciə ilə nəticələnə bilərdi. Daxili Xidmət qoşunlarının nümayəndələri telefonla Sədərəkdəki komandirlərinə bildirirdilər ki, mülki şəxslər və polis işçiləri kəndi tərk etməlidirlər. Rus hərbiçilərinin təkidi ilə Kərkini əhalisi kəndi tərk etməyə məcbur edildi. Kərkini erməni quldurlarından müdafiə edən 34 nəfər

mülki şəxs və iki milis işçisi də Azərbaycan rəhbərliyinin əmri ilə kəndi tərk edib, dağ yolları ilə Sədərəyə gəldi. Həmin gün Kərki rus hərbçilərinə təhvil verildi və onlar da kəndi ermənilərə hədiyyə etdilər. Beləliklə, Kərki hadisələr başlayandan Naxşıvan istiqamətində ermənilərin işğal etdiyi ilk Azərbaycan kəndi oldu. (409,s.54)

Fikrimizcə Kərki və digər işğal olunmuş kəndlərin müdafiəsində iştirak etmiş qəhrəman insanların fəaliyyəti tədqiq olunmalı, işğalın səbəbləri araşdırılmalıdır. Bütün bunlar Azərbaycan tarixnin qaranlıq səhifələrinə işıq sala və Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpasında mühüm rol oynaya bilər.

Bakıya qoşun yeritmək haqqında qərar qəbul etmiş Moskva rəhbərliyi, bununla paralel Naxçıvana qarşı da təxribat hazırlamışdı. 18 yanvar 1990-cı il tarixdə saat 15-00-dan- 24.00 qədər sərhəddə yerləşən Sədərək karantin postunda və 1 saylı şərab zavodunda qanlı döyüşlər olmuşdu. Həmin döyüşlərdə Sədərəyin qəhrəman müdafiəçiləri düşmənə layiqli cavab vermişlər. Ermənistan tərəfdən gəlmiş sovet hərbiçiləri bildirmişlər ki, həmin döyüşlərdə 32 erməni qulduru öldürüldüyünə görə ermənilər həmin gün matəm elan etmişlər.

Yanvarın 19-da ermənilər sovet qoşunlarının köməyi ilə Sədərəyi ağır top atəşinə tutmuşlar. Həmin gün bir neçə nəfər şəhid olmuş, 300-dən artıq ev dağılmışdı. Bundan az sonra Yerevandan Naxçıvana Kuznetsov familyalı generalın rəhbərliyi ilə 150-200 nəfərlik hərbi dəstə Sədərəyin Qaraburundakı "Koroğlu" bulağının ərazisində qurulmuş barrikadaya qədər gəlmiş və qarşı tərəflə danışıqlara başlamışdır. Danışıqlar zamanı general onların məqsədinin Qıvraq hərbi hissəsində əsgərlərə axşam yeməyi verərək Mehriyə getmək olduğunu bildirsə də, tezlikdə bunun Naxçıvana qarşı planlaşdırılmış təxribat olduğu üzə çıxıb. Məlum oldu ki, sovet qoşunlarının əsil məqsədi Naxçıvan MSSR ərazisinə girərək Qorbaçovun fərmana əsasən burada fövqəladə vəziyyət elan etməkdir. Naxçıvan əhalisinin və rəhbərliyinin sayıqlığı nəticəsində sovet qoşunlarının təxribatının qarşısını çətinliklə də olsa almaq mümkün oldu.

Bu məqsədlə təcili olaraq Naxçıvan MSSR Ali Sovetinin 19 yanvar 1990-cı il tarixdə fövqəladə sessiyası çağırılıb. Sessiya Muxtar Respublikada yaranmış ictimai-siyasi vəziyyət haqqında məsələ müzakirə edərək, aşağıdakı tarixi qərarı qəbul etdi. Qərarda deyilirdi:

- SSRİ əsas qanunun 81-ci maddəsinə əsasən Azərbaycan SSR, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan MSSR-in suverenliyi və ərazi bütövlüyü müdafiə edilmədiyindən;
- Azərbaycan SSR və Naxçıvan MSSR ali qanunverici orqanlarının ittifaq orqanlarına dəfələrlə edikləri müraciətləri nəticəsiz qaldığından;
- Ermənistan SSR tərəfindən edilən təcavüz nəticəsində Muxtar Respublikanın ərazi bütövlüyü və vətəndaşların həyatı təhlükə qarşısında qaldığından;
- Türkiyə Cümhuriyyəti, Azərbaycan SSR, Gürcüstan SSR, Ermənistan SSR arasında RSFSR-in iştirakı ilə bağlanmış Qars müqaviləsinin şərtləri kobud sürətdə pozulduğundan, Naxçıvan MSSR-in Ali Sovetinin fövqəladə sessiyası qərara alır:

1. Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etsin;
2. Qars müqaviləsinin şərtlərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınlarının qarşısını almaq məqsədilə Türkiyə Respublikasına müraciət edilsin;
3. Yaranmış vəziyyətlə əlaqədar olaraq Birləşmiş Millətlər Təşkilatına, İran İslam Respublikasına və dünyanın bütün dövlətlərinə kömək məqsədilə müraciət olunsun;
4. Naxçıvan Muxtar Respublikası ərazisində olan sovet qoşun hissələri respublikadan çıxarılsın;
5. SSRİ Ali Sovetindən tələb edilsin ki, Naxçıvan MR-na edilən təcavüzə son qoyulsun;
6. Qərar Azərbaycan SSR-ə və SSRİ dövlətlərinin nəzərinə çatdırılsın. (409,s.58)

Naxçıvan MSSR Ali Sovetinin qərarından sonra general Kuznetsova bildirildi ki, əgər hərbçilər bizim ərazimizə daxil olsa bu, təcavüz kimi qiymətləndiriləcək. Naxçıvan MR Ali Məclisinin sədri Afiyyədin Cəlilovun kabinetindən general Moskva ilə danışaraq vəziyyət haqqında məlumat verib və bundan sonra sovet hərbiçiləri Yerevana qayıtmağa məcbur olublar.

Sonradan məlum olub ki, yanvarın 19- da Sədərəyə olan güclü hücümla 20 yanvar Bakı qırğını eyni mərkəzdən idarə olunurmuş və Bakıdakı qarışılıqda istifadə edərək Naxçıvanın işğalı həyata keçirilməli imiş. Bunu Sədərəkdə tutulmuş erməni əsiri də təsdiq edib. O, bildirmişdi ki, ermənilərə elan edilmiş

plana əsasən yanvarın 18-də Sədərək, 19 və 20-də isə Şərur və Naxçıvan işğal olunmalı imiş.

Naxçıvan MR Ali Məclisinin Naxçıvanın SSRİ-nin tərkibindən çıxması haqqında qərarını bir qədər sonra Azərbaycan SSR Ali Soveti ləğv edib. (112, 7 yanvar 2005-ci il, 409, s.57-59)

Azərbaycan Respublikası Milli Məclisi 20 yanvar hadisəsinə siyasi qiymət versə də, tarixçilər tərəfindən bir sıra kitablar yazılsa da bu facənin qaranlıq, açılmamış səhifələri hələ çoxdur. Bu qaranlıq məqamların üstünə işıq salmaq üçün hələ çox işlər görmək lazımdır.

20 yanvar faciəsindən sonar Respublika rəhbərliyində dəyişiklik edildi. Azərbaycana Ə.Vəzirovdan sonra 2 il 1 ay 10 gün və daha bir gün (25 yanvar 1990 - 6 mart 1992, 14-15 may 1992) rəhbərlik etmiş Ayaz Niyazi oğlu Mütəllibovun fəaliyyəti də digər rəhbərlər kimi obyektiv və subyektiv səbəblərdən tədqiqatçılar tərəfindən az öyrənilmişdir.

Onun hakimiyyət illərini şərti olaraq iki dövrə bölmək olar: Birinci dövr, 25 yanvar 1990 - 18 oktyabr 1991- ci illərdə sovet rejiminin süqutu və dövlət müstəqilliyinin bərpası dövrü; ikincisi isə 18 oktyabr 1991- 6 mart 1992-ci illərdə dövlət müstəqilliyinin möhkəmləndirilməsi və hakimiyyət uğrunda gedən mübarizə dövrü. Lakin bu dövrlərdən başqa A. Mütəllibovun hakimiyyətinin bir günlük bərpa olunduğu 14-15 may 1992-ci il tarixini də onun hakimiyyət dövrünə aid etmək lazımdır.

Ayaz Mütəllibovun arxivdə saxlanılan 10 vərəqlik (SPİH MDA f.2, siy.152, iş 420) şəxsi işində onun haqqında ətraflı məlumat verilmişdir. Bu sənədlər içərisndə onun öz əli ilə 30 mart 1977-ci il tarixdə yazdığı tərcümeyi-halı da vardır: "Ayaz Niyazi oğlu Mütəllibov 1938-ci ildə Bakıda qulluqçu ailəsində anadan olmuşdur. 1946-1956-cı illərdə Bakının 189 saylı orta məktəbində təhsil almış, 1954-1962-ci illərdə ÜİLKGİ-nin üzvü olmuşdur. 1956-1962-cü illərdə M.Əzizbəyov adına Neft və Kimya İnstitunda təhsil alaraq "Neft və qaz mədənlərinin maşın və avadanlıqları" ixtisası üzrə mühəndis -mexanik ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə 1958-ci ilin aprel ayından Azərbaycan Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitunda mexanizasiya şöbəsində texnik vəzifəsi ilə başlamışdır. 1959-cu ilin aprelindən Bakı Soyuducular zavodunda mühəndis-konstruktor, 1960-cı ilin aprelindən yığma sexinin ustası, 1962-ci ilin fevralından

hazır məhsulun keyfiyyətinə nəzarət şöbəsinin rəisi, 1963-cü ilin yanvarından konstruktor bürosunun rəisi, 1966-cı ilin aprelindən baş mühəndis, həmin ilin oktyabrından zavodun direktoru, 10 aprel 1974-cü ildən isə Bakı Elektrik Məişət Avadanlıqları Birliyinin Baş direktoru vəzifələrində çalışmışdır.

1963-ci ilin noyabrından Sov.İKP üzvüdür.

Atası - Mütəllibov Niyazi Əşrəf oğlu 1915-ci ildə Sabirabadda anadan olub. Sov.İKP üzvüdür. Böyük Vətən müharibəsi əlilidir. F.Əfəndiyev adına Elmi-Tədqiqat İnstitutunda “Eksperimental və klinik təbabət” laboratoriyasının müdridir. Tibb elmləri doktorudur.

Anası - Mütəllibova Kübra Qəni qızı 1913-cü ildə Şamaxıda anadan olmuşdur. İxtisasca həkimdir, təqaüddədir.

Bacısı - Mütəllibova (Qasımova) Dilarə Niyazi qızı 1939-cu ildə anadan olub, həkimdir, ailəlidir, 2 №-li poliklinikada işləyir.

Qardaşı - Mütəllibov Əşrəf Niyazi oğlu, 1941-ci ildə anadan olub, ailəlidir. Azərbaycan Neft və Kimya İnstitutda işləyir. Texnika elmləri namizədidir.

Həyat yoldaşı - Mütəllibova (Qoqiyeva) Adelya Musa qızı 1938-ci ildə Bakıda anadan olub, ixtisasca həkimdir. Respublika müalicə-bədən tərbiyəsi dispanserində işləyir.

Oğlu - Mütəllibov Azad Ayaz oğlu 1962-ci ildə anadan olub, 6 №-li məktəbin 8-ci sinfində oxuyur.

Oğlu - Mütəllibov Zaur Ayaz oğlu 1970-ci ildə anadan olub.

1965-ci ildə Çexoslovakiyaya “Salex” zavodunun təcrübəsini öyrənmək üçün ezam olunub. 1970-ci ildə Azərbaycan KP MK-nın təklifi ilə Yaponiyada EKSPO-70 tədbirində iştirak edib. 1973-cü ildə Dunay çayı boyu kruizdə iştirak edib. Xaricdə və həbsdə qohumları yoxdur. Mühakimə olunmayıb.”

Arxivdə olan digər sənədlərdən məlum olur ki, bu tərcümeyi-halı A.Mütəllibov 1977-ci ildə rəhbər partiya işinə keçərkən yazmışdır.

A.Mütəllibov 1977-ci ilin 11 avqustundan 1980-ci ilin 5 yanvarına kimi Azərbaycan KP Bakı şəhəri Nərimanov rayon partiya komitəsinin ikinci katibi olub. Daha sonra Nərimanov rayon partiya komitəsinin birinci katibi, Dövlət Plan Komitəsinin sədri və Nazirlər Sovetinin sədri vəzifələrində çalışıb.

Azərbaycan KP MK-nın 25 yanvar tarixli plenumu 20 yanvar faciəsindən sonra Moskvaya qaçmış Ə.Vəzirovun yerinə iki nəfərin, Ayaz Mütəllibov və

Həsən Həsənovun namizədliyini müzakirə edib. H.Həsənov öz namizədliyini geri götürdükdən sonra plenum Nazirlər Sovetinin sədri Ayaz Mütəllibovu Azərbaycan KP MK-nın birinci katibi seçmişdir. Bundan sonra MK katibi Həsən Həsənov Nazirlər Sovetinin sədri təyin olunmuşdur. (407,s.108 -110)

20 yanvar faciəsindən sonra kommunist partiyasına qarşı yaranmış ümumxalq nifrəti partiya biletlərinin yandırılması və onun sıralarından kütləvi surətdə partiya üzvlərinin çıxması ilə nəticələnmişdir. Faciədən sonra A.Mütəllibovun rəhbərliyi ilə revanş götürməyə çalışan Azərbaycanın kommunist partiyası yenə də hadisələrin arxasınca sürünmək yolunu tutaraq ölkəni yeni İttifaq müqaviləsinə doğru və SSRİ-nin qorunub saxlanması istiqamətində sürükləməyə başlamışdı.

Azərbaycan KP MK-nın 1990-cı il 10 fevral tarixli plenumu problemləri həll etmək əvəzinə mövcud reallığın əksinə olaraq, Moskva ilə dostluq əlaqələrinin gücləndirilməsinə xüsusi diqqət vermişdir. Bu məqsədlə plenumda 1991-ci ildə 850 illik yubleyi qeyd olunan böyük Azərbaycan şairi Nizami Gəncəvinin Moskva şəhərində abidəsinin qoyulması haqqında qərar qəbul olunmuş və bu qərar Moskva Şəhər İcraiyyə Sovetinin müzakirəsinə təqdim edilmişdir.

Azərbaycan KP MK-nın birinci katibi A.Mütəllibov öz müsahibələrində respublikada baş vermiş hadisələrə obyektiv qiymət verməkdən çəkinmiş, Moskvanın yeritdiyi siyasətə tənqidi yanaşmamış, yalnız mövcud vəziyyəti təsvir etməklə kifayətlənmişdir. O məruzələrinin birində deyirdi: “Xalqlar dostluğuna asanlıqla sağalmayacaq yaralar vurulmuşdur. Kütləvi tətillər, aramsız təxribat, əsəbi, həyacanlı şərait respublika iqtisadiyyatını inkişafdan qoymuşdur, Respublika xəzinəsinə yüz milyon manat zərər dəymişdir. Mən hələ elmi və mədəni sahələrdə yaranmış durğunluğu, dəyəri pulla ölçülməyən mənəvi ziyanı demirəm.” (204,21 mart 1990-cı il)

Hətta Sov.İKP-nin süqut etdiyi 1991-ci ildə də Azərbaycan rəhbərliyi Moskvanın yeritdiyi ayrı-seçkilik siyasətinə qarşı cəsarətli addımlar ata bilməmiş, müəyyən səthi tənqidlərlə kifayətlənmişdir.

Sov.İKP MK-nın məsul işçisi, Azərbaycanın xalq deputatı R.Hüseynovun “Yandırılmış partbiletlərin alovundan dirçələn Azərbaycan Kommunist Partiyası” məqaləsində“ (455, 9 may 1991-ci il) əvvəlki illərdə mövcud olmuş nöqsanlara loyal münasibət bəslənilmişdir. O, 1975-1990-cı illərdə Sov. İKP MK aparatında

bir nəfər belə azərbaycanlının işləməməsini nöqsan kimi qeyd etsə də bu siyasətin köklərini açmamış və Azərbaycan KP-nin tezliklə böhrandan çıxaraq öz əvvəlki mövqeyini bərpa edəcəyini bildirmişdir. Bu cür faktlar Azərbaycanın kommunist rəhbərlərinin nə qədər reallıqdan uzaq bir fəaliyyət göstərdiyini əyani sübut edir.

Azərbaycan KP MK-nın birinci katibi Ayaz Mütəllibov 1990-cı ilin yazında Sədərəyə gələrək yerli vəziyyətlə tanış olub. O, Sədərəyi strateji cəhətdən möhkəmləndirmək məqsədilə ona rayon statusu veriləcəyi, burada aeroport tikiləcəyi, Sədərək əhalisinin su probleminin həll olunacağı, Kərki kəndinin işğaldan azad ediləcəyi və digər problemlərin yaxın zamanlarda həll olunacağı barədə əhaliyə söz vermişdi. Lakin Sədərəyə rayon statusu verilməsindən başqa, digər vədlər yerinə yetirilməmişdi.

Respublikada sabitliyi bərpa etmək məqsədilə 1990-cı il mayın ortalarında iqtidar və AXC nümayəndələrinin, görkəmli ziyalıların iştirakı ilə keçirilən görüşdə Məşvərət Şurası yaradıldı.

Azərbaycan SSR Ali Sovetinin sessiyası mayın 19-da Məşvərət Şurasında əldə olunmuş razılığa əsasən prezident vəzifəsi təsis etdi və A.Mütəllibvu bu vəzifəyə seçdi. Onun 21 may 1990-cı il fərmanı ilə 28 may Azərbaycan dövlətçiliyinin bərpası günü elan olundu. Həmin gün Azərbaycan Respublikasının üçrəngli bayrağı keçmiş Azərbaycan parlamaentinin binası üzərində yenidən qaldırıldı. Fövqəladə vəziyyət olmasına baxmayaraq bu münasibətlə Bakıda, Gəncədə və digər yerlərdə mitinqlər, nümayişlər keçirildi. A.Mütəllibovun bu addımı onun xalq arasında müəyyən qədər nüfuzunun artmasına səbəb oldu. Vətəndaşlarda onun xalqın mənafeyinə uyğun fəaliyyət göstərəcəyinə inam artsa da Moskva A.Mütəllibova xalqla yaxınlaşmağa imkan vermədi. (407, s.121)

1990-cı il sentyabrın 30-da Azərbaycan SSR Ali və yerli xalq deputatları Sovetlərinə seçkilər keçirildi. Bəzi dairələrdə oktyabrın 14-də və dekabrın 16-da təkrar seçkilər oldu. Seçkilərin saxtalaşdırılması azad və ədalətli rəqabətə imkan vermədi. 360 deputat mandatından cəmi 30-nu “Demblokun” nümayəndələri alasalar da onlar xalqın dəstəyi ilə Azərbaycanın dövlət müstəqiliyinin bərpası uğrunda mübarizəni davam etdirdilər.

Çağdaş Azərbaycan tarixinin tədqiqatdan kənarda qalan problemlərindən biri 20 yanvar faciəsindən sonra ölkənin ictimai-siyasi həyatında, xüsusən də AXC daxilində baş verən hadisələrdir.

E.Məmmədovun “Lefortovo gündəliyi” kitabı (282) 20 yanvar faciəsi və hadisədən sonrakı dövrü öyrənmək üçün əhəmiyyətlidir. Müəllif Moskvada 25 yanvar 1990-cı il tarixdə həbs olunaraq Lefortovo həbsxanasına gətirildiyi gündən 31 iyul 1990-cı il tarixə qədər baş vermiş hadisələri xronoloji ardıcıllıqla qələmə alıb.

Kitaba xalq şairi Xəlil Rza Ulutürk “Əjdaha mağarasında mübarizə” başlıqlı ön söz yazıb. “Lefortovo gündəliyi” kitabının yazılmasına səbəb isə E.Məmmədovun 20 yanvar faciəsindən sonra Moskvaya gedərək, 25 yanvar 1990-cı il tarixdə Azərbaycanın daimi nümayəndəliyində mətbuat konfransı keçirməsi və bundan sonra həbs edilməsi ilə əlaqədardır.

Onun həbsini həyata keçirən təpədən-dırnağa kimi silahlanmış dəstə xüsusi vəhşilik və qəddarlıq göstərərək, qadınların və uşaqların ağlaşmasına məhəl qoymamış, nümayəndəliyin binasında xeyli dağıntılar törətmişdi. O, özü hadisəni belə qiymətləndirirdi: “Bircə nəfər adam üçün Azərbaycanın daimi nümayəndəliyinin hücumla tutulub dağıdılması və sonra həmin adamın həbs edilməsi imperiyanın böyük qorxu içində olduğu, zəifliyini göstərir və bu zəifliyə nail olmaq bizim böyük məqsədimizdir”.(282,s.7)

20 yanvar hadisəsindən sonra Respublikanın ictimai-siyasi həyatında baş verən, lakin tədqiqatçıların diqqətindən kənarda qalmış bəzi məsələlərə “20 yanvardan sonrakı bəzi qaranlıq məqamlar haqqında” adlı məqalədə (112,05 yanvar 2005-ci il) müəyyən aydınlıq gətirilir. Məqalədə qeyd olunur ki, hələlik tədqiqatçıların diqqətini cəlb etməyən məsələlərdən biri də 1990-cı ilin yayında AXC daxilində birdən-birə bir qrup şəxsin təcili olaraq partiya yaratmağa başlamasıdır. AXC rəhbərliyinin bir hissəsi 20 yanvar qırğınına kimi SSRİ-nin tərkibində Azərbaycanın real suverenliyinə nail olmasını mümkün hesab edirdisə, bu hadisədən sonra onlar bu mövqedən imtina etdilər. AXC Ali Məclisinin 1990-cı il yanvarın 24-25- də Ağstafa rayonunda keçirilmiş iclasında, AXC-nin SSRİ-dən kənarda Azərbaycanın tam dövlət müstəqilliyi uğrunda mübarizə apardığı bəyan olundu. Bu qərar SSRİ rəhbərliyinin fikirləri ilə əkslik təşkil etdiyinə görə onlar AXC-ni parçalamaq istiqamətində yeni planları reallaşdırmağa başladılar.

20 yanvar faciəsindən sonra SSRİ-nin səlahiyyətli şəxsləri bildirmişlər ki, Bakıya qoşun yeritməkdə məqsəd AXC-nin sturkturlarını dağıtmaq idi. Faciədən sonra rəsmi Moskva öz məqsədinə çatmadığı üçün Azərbaycan milli-azadlıq

hərəkatını parçalamaq üçün yeni taktiki addımlar atmağa başladı və AXC-nin "liberal" adlanan qanadına aid olan şəxsləri öz tərəflərinə çəkməyə cəhdlər etdi. Bununla bağlı AXC sədri Ə.Elçibəy belə demişdi: "20 yanvardan sonra Xalq Cəbhəsini dağıtmaq istəyən Yazova Qorbaçov etiraz edib deyib ki, demokratik fikirlilər o millətçiləri, radikalları təmizləsinlər, sonra onlarla danışıqlara girərsiniz".

Faciədən sonra AXC-nin bir sıra nüfuzlu rəhbərləri həbs olunaraq Lefortovo həbsxanasına salınmasında sonra azadlıqda qalan rəhbərlərin bəzilərinə açıq fəaliyyət göstərmək üçün şərait yaradıldı. Yanvarın 31- də AXC-nin açıq fəaliyyətə keçməsi, hətta təşkilatın iki üzvünün Baltikyanı respublikalara gedərək erməni nümayəndələri ilə görüşməsi sübut edir ki, Moskva artıq AXC-nin parçalamaq istiqamətində öz istəklərini reallaşdırmağa başlamışdır. (112,05 yanvar 2005-ci il)

Bu planlardan biri də AXC qarşıya qoyduğu vəzifələri həyata keçirmədən, yəni Azərbaycanın dövlət müstəqilliyi bərpa olunmadan partiyalaşma prosesinə başlamaq idi. Bu AXC Ali Məclisinin Ağstafa iclasının qərarlarına zidd olmaqla yanaşı, həm də geriyə, yəni Azərbaycan Xalq Cəbhəsi təsis konfransında qəbul olunmuş proqrama uyğun olaraq "Demokratikləşmə yolu ilə SSRİ daxilində Azərbaycanın Suverenliyinə nail olmaq" müddəsına qayıtmaq demək idi. Bu sahədə ilk addım 1990-cı ilin yayında atıldı və "Şimali Azərbaycan Demokrat Partiyası" təsis komitəsinin yaradılması barədə xəbər mətbuatda dərc olundu. Təsis komitəsinin üzvü "Zamanın tələbiylə. Şimali Azərbaycan Demokrat Partiyası" adlı müsahibəsində partiyanın yaranmasını zəruri edən amilləri qeyd etmişdir. O, bildirmişdir ki, "indi Azərbaycan xalqı dövlət müstəqilliyi uğrunda şüurlu mübarizə dövrünə qədəm qoyur və öz baxışlarımızı təbliğ etmək, gələcəkdə onların bərqərar olması uğrunda mübarizə aparmaq üçün partiya formasından istifadə etməyi məqsədəuyğun sayırıq." (22,13 iyul 1990-cı il)

Lakin xalqın imperiyaya qarşı mübarizə əzminin yüksək olması və həbs olunanların azadlığa buraxılması üçün kütləvi şəkildə imzaların toplanması həmin şəxslərin partiya yaratmaq palanlarının qarşısını bir müddət ala bildi.

70 illik kommunist rejiminin dağılmasının obyektiv və subyektiv səbəbləri Azərbaycanın iqtisadçı alimlər tərəfindən də tədqiq olunub. N.Müzəffərli "İqtisadi etüdlər" kitabında sovet dövlətinin dağılmasının obyektiv səbəblərini belə izah edir: "80-ci illərin ortalarında SSRİ-də istehsal edilmiş bütün istehsal

vasitələrinin 84 faizi yeni istehsal vasitələrinin istehsalına yönəldilmişdi. Bu çox mühüm rəqəmdir, çünki vəziyyətin əcayibliyini açıqlığı ilə ortaya qoyur: ölkə dəzgahlar istehsal edirdi, bunlarla başqalarını, həmin başqaları ilə daha başqalarını, sonuncular isə elə birinciləri düzəldirdi.

İqtisadiyyatın belə sahə quruluşu o deməkdir ki, cəmiyyət öz iqtisadi resurslarını son nəticədə heç bir fayda əldə etmədən sadəcə olaraq yandırır. İstehsalın genişlənməsinin cəmiyyətin rifahını yüksəltməyə xidmət etməsi barəsində deyilənlərin hamısı boş söz yığnağına dönür, zira istehsalın genişlənməsi gələcəkdə onun daha da artıq genişlənməsi üçün alətə çevriləndə cəmiyyətin rifaha qovuşması prinsipcə qeyri-mümkündür. Bu həmin haldır ki, iqtisadiyyat insanlara yox, özünə işləyir. SSRİ-nin əvvəlcə iqtisadiyyatının, sonra da özünün dağılmasının başlıca səbəblərindən biri elə məhz bu oldu. ”(315,s.76-77)

Respublikada baş verən hadisələrdən ibrət dərsi almayan Azərbaycan Kommunist Partiyası nəinki problemlərin həllinə kömək edir, əksinə reallığa zidd olan tədqiqat işlərinə dəstək verməkdə davam edirdi. Məsələn, N.M.Süleymanovun 1990-cı ildə Bakıda müdafiə etdiyi “Azərbaycan Kommunist Partiyasının fəhlələrin əmək fəallığını yüksəldilməsi sahəsində fəaliyyəti” namizədlik dissertasiyası buna misal ola bilər. Azərbaycan Kommunist Partiyasının bu cür fəaliyyəti qısa müddətdə onun iflasına səbəb oldu və 1991-ci ilin sentyabrında keçirilmiş qurultayda partiya özünü buraxılmış elan etdi.

SSRİ-nin süqutu ərəfəsi digər mövzularla yanaşı Azərbaycan mədəniyyətinin problemlərinə aid N.Cəfərov, M.Şıxlinski, Z.Bağırov, İ.Əfəndiyev və başqa müəlliflərin məqalələri çap olunub. (37,№ 11,1987, s.29-32,111, 17 mart 1989,6 aprel 1990,11 yanvar 1991)

R.Orucov və M.Qasımovun məqaləsi beynəlxalq münasibətlər, xarici siyasət məsələləri və beynəlxalq mədəni əlaqələrin Azərbaycan tarixşünaslığına həsr edilib. (65, № 1,1989)

Azərbaycan alimlərinin sovet dövrünə aid 80-ci illərin sonları 90-cı illərin əvvəllərində yazdıqları məqalə və kitabların təhlili göstərir ki, tədqiqatçıların əksəriyyəti ictimai-siyasi problemlərə əvvəlki illərdən fərqli olaraq daha obyektiv münasibət bəsləmişlər.

1988-1990-cı illərdə tarix sahəsində elmi tədqiqatlara partiya-dövlət nəzarətinin zəifləməsi və aradan qalxması prosesinin başlanması sovet

tarixşünaslığını böhrana gətirib çıxardı. Sovet hakimiyyətinə qədərki dövr və sovet dövrü haqqında yeni, obyektiv faktlarla zəngin tədqiqatlar işıq üzü görməyə başladı. Lakin bu dövrün tarixşünaslıq baxımında obyektiv tədqiqi sübut edir ki, tarixi tədqiqatlarda müsbət irəlləyişlər olmasına baxmayaraq, bu dövrdə tarixçilərin demək olar ki, əksəriyyəti əvvəlki illərin steriotiplərindən tam azad ola bilməmişlər. Bu da həmin illərdə yazılmış əsərlərdə özünü açıq- aydın göstərir.

Azərbaycan tarixinin sovet dövrünün tarixşünaslığının obyektiv tədqiqi sahəsində tarixçilər hələ çox işlər görməlidirlər. Tarixşünaslıq sahəsində sovet dövründən qalmış köhnə steriotiplərin aradan qaldırılması, bu dövrə aid yazılmış çoxsaylı kitab və məqalələrə, arxiv sənədlərinə tənqidi münasibət bəsləməklə sovet dövrünün tarixinin yenindən yazılması bu mühüm işin tərkib hissəsidir.

# NƏTİCƏ

Azərbaycan SSR-in 1920-1991-ci illər tarixinə aid yazılmış kitabların, məqalələrin və dissertasiyaların obyektiv təhlili nəticəsində belə qənaətə gəlmək olar ki, bu dövr tarixinin yenidən tədqiqi əvvəlki illərdə olduğu kimi yenə də aktual olaraq qalır.

Fikrimizcə sovet dövrü tarixinin düzgün öyrənilməməsi, sovet dövrü tarixinin ayrı-ayrı dövrlərinə aid vətəndaşların obyektiv məlumata malik olmaması və bu boşluqdan bəzi qüvvələrin sui-istifadə etməyə cəhd etmələri Azərbaycandakı hazırkı ictimai-siyasi vəziyyətə də müəyyən təsir göstərə bilər.

Azərbaycan SSR-in ictimai-siyasi tarixinin sovet tarixşünaslığının tədqiq, bu istiqamətdə yazılmış əsərlər və sənədlərin elmi şəkildə təhlili göstərir ki, sovet dövr tarixinin yenidən obyektiv tədqiqi müstəqil Azərbaycan Respublikasının daha da güclənməsinə yaxından kömək göstərə bilər.

Tədqiqat işində 1920-1930-cu illər dövrünün tarixşünaslığı, 1920-1922 və 1922-1930-cu illər kimi iki yarımfəsilə bölünərək araşdırmışdır. Burada Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, Bakıda və ölkənin ayrı-ayrı qəzalarında sovet hakimiyyətinin qurulması haqqında sovet alimlərinin yazdıqları əsərlər və sovet tarixşünaslığına alternativ yazılmış kitab və məqalələr təhlil edilib. Bundan başqa sovet hakimiyyətinin ilk illərinə aid inqilab komitələrinin, kəndli komitələrinin yardılması, sovet hakimiyyətinin kənddə apardığı siyasətə, fəhlə-kəndli ittifaqına, sovet, həmkərlar, komsomol təşkilatlarının təşkilinə, ZSFSR və SSRİ-nin təşkil edilməsinə aid sovet tarixşünaslığı tədqiq olunub, sovet tarixçilərinin əsərləri burjua alimlərinin problemə aid yazdıqları kitab və məqalələrlə müqayisə edilib. Həmçinin Azərbaycan KP-nin, həmkarlar və komsomol təşkilatlarının fəaliyyəti, Naxçıvan MSSR və DQMV yaranması, sosialistcəsinə sənayeləşdirilmə və kənd təsərrüfatının kollektivləşdirlməsi dövründə fəhlə-kəndli ittifaqının möhkəmləndirilməsi, şəhərin kəndə hami köməyi, mədəni inqilab, sosializm quruculuğu şəraitində gedən sinfi mübarizə, 30-cu illərin repressiyaları və s. problemlərə aid sovet alimlərinin yazdıqları kitab, məqalə və dissertasiyalar və sovet tarixşünaslığına alternativ yazılmış kitab və məqalələr tədqiq edilib.

Azərbaycan tarixinin İkinci Dünya müharibəsi dövrünün müxtəlif problemlərini tədqiq etmiş tarixçilərin əsərlərinin tarixşünaslıq baxımından təhlili

göstərir ki, bu əsərlərdəki faktlar sovet dövrü tarixinin digər illərinə aid yazılmış kitab və məqalələrdəki faktlara nisbətən daha dəqiqdir. Lakin ümumiyyətlə sovet dövrü tarixinin digər dövrləri kimi bu illər də hakim kommunist partiyasının müəyyən etdiyi kriteriyalara uyğun olaraq birtərəfli tədqiq edildiyi üçün müharibə dövrünün də yenidən, obyektiv tədqiqinə ciddi ehtiyac var.

Azərbaycan SSR-in 1920-1945-ci illərin sovet tarixşünaslığının təhlili göstərir ki, bu dövrün ictimai-siyasi tarixinə sovet tarixçiləri çoxlu sayda kitab və məqalələr həsr etmiş, bunula da Azərbaycan tarixşünaslığının inkişafına öz töhvələrini vermişlər. Bu kitab və məqalələr kommunist partiyasının tələb və göstərişləri əsasında yazılmasına baxmayaraq bu tədqiqatlarda istinad olunan çoxlu saylı mənbələr, müxtəlif statistik materiallar, müxtəlif mövzulara aid tarixşünaslığın təhlili mühüm əhəmiyyət kəsb edir və müasir dövr tarixi tədqiqatlara yaxından köməklik göstərir. Lakin sovet tarixşünaslığında subyektivizm, faktlara birtərəfli yanaşma özünü açıq aydın büruzə verdiyinə görə tədqiqatçıların sovet dövründə yazılmış kitab və məqalələrə tənqidi yanaşmasına ciddi ehtiyac var. Azərbaycan SSR-in tarixinin ən ziddiyyətli, mürəkkəb, hadisələlərlə zəngin dövrü olan 1920-1945-ci illərinin yenidən, obyektiv şəkildə tədqiqi aktual olaraq qalır. Tarixçilər bu dövrün ictimai-siyasi proseslərini yenidən tədqiq etməklə tariximizi ağ ləkələrdən təmizlənməsinə öz töhvələrini verə bilərlər.

30 və 40-cı illərin repressiyalarına aid sovet dövründə və sonrakı illərdə yazılmış kitab və məqalələrin təhlili göstərir ki, bəzi siyasi xadimlərə qarşı sovet dövründə irəli sürülmüş ittiahamlara yenidən qiymət verilməsinə ciddi ehtiyac var. Məsələn, 1993-cü ildə nəşr olunmuş "Mir Cəfər Bağırovun məhkəməsi (Arxiv materialları)" kitabında irəli sürülmüş bəzi ittihamlar bu qəbildəndir. Bundan başqa fikrimizcə sovet dövründə represiyaya məruz qalmış, sonradan bəraət almış müxtəlif şəxslərə eyni münasibət bəsləmək fikrindən də imtina etməyin vaxtı çoxdan çatıb.

1946-1950-ci illərin ictimai-siyasi tarixinin sovet tarixşünaslığının tədqiqi göstərir ki, o illərdə tarixçilərin dinc yaradıcılıq faliyyəti bərpa olunumuş, bir sıra ərazilərdə dağıdılmış arxiv və muzey fondları bərpa edilmişdir. Lakin tədqiqatlar üçün ideoloji mühit yenə də əlverişsiz olaraq qalırdı. Müharibə dövründə meydana gəlmiş millətçi meyllərin şövinist xarakter almağa başlaması, digər sahələrdə olduğu kimi tarixi tədqiqatlara da öz mənfi təsirini göstərirdi. Bundan başqa bu

dövrdə kosmopolotizmə, kibernetikaya və genetikaya qarşı aparılan kampaniyalar humanitar elmlərin, o cünlədən tarix elminin inkişafına da mane olurdu. Məhz bu cür səbəblərdən 1946-1950-ci illərə aid sovet tarixçilərinin yazdıqları kitab və məqalələrdə digər məsələrlə yanaşı ictimai-siyasi vəziyyət də birtərəfli tədqiq olunmuşdur. Buna görə də bu dövrün yenidən, obyektiv şəkildə tədqiqi aktual olaraq qalır.

Fikrimizcə bu dövrü gələcəkdə elmi cəhətdən araşdıracaq tədqiqatçılar sovet tarixşünaslığında əksini tapmayan, lakin obyektiv reallıqda mövcud olmuş hadisələrə xüsusi diqqət verməlidirlər. Bu dövrdə Azərbaycana rəhbərlik etmiş M.C.Bağırovun fəaliyyətinin birtərəfli deyil, obyektiv dəyərləndirilməsi, sovet rəhbərliyinin milli dəyərlərin məhv edilməsi istiqamətində apardığı məqsədyönlü fəaliyyətin fəsadları, bu illərdə fəaliyyət göstərmiş gizli təşkilatlar, dissident hərəkatı, müharibədən sonra mövcud olmuş ərzaq qıtlığı və bunun nəticəsində baş vermiş kütləvi açlıq hallarının fəsadları, müharibə dövründə və müharibədən sonra Azərbaycanın bir çox yüksək rütbəli zabitlərinin, Sovet İttifaqı qəhrəmanlarının müəmmalı şəkildə həyatdan köçmələri, Azərbaycan ərazilərinə qarşı erməni və gürcü millətçilərinin iddiaları və buna qarşı aparılmış mübarizə, Ermənistan ərazisindən azərbaycanlıların öz dədə-baba yurdlarından deportasiya edilməsi və bunun acı nəticələri, bu dövrdə davam etmiş repressiyalar, cənubi Azərbaycanda 1945-1946-cı illərdə fəaliyyət göstərmiş Milli Hökümətin fəaliyyəti, Milli Hökümətin məğlubiyyətindən sonra SSRİ-yə pənah gətirən rəhbər işçilərin və fədailərin sonrakı taleləri, müharibə dövründə Azərbaycanlı əsirlərdən təşkil olunmuş milli legion üzvlərinin müharibədən sonrakı fəaliyyəti və digər məsələlərin daha geniş araşdırılmasına ciddi ehtiyac var.

1950-ci illərin ictimai-siyasi tarixinin sovet tarixşünaslığının təhlili göstərir ki, bu dövr də sovet tarixçiləri tərəfindən hakim kommunist partiyasının diqtəsi ilə, onun siyasətinə uyğun, birtərəfli şəkildə tədqiq olunub.

İ.Stalinin ölümündən sonra rejimin yumşalması ilə ictimai-siyasi şəraitin nisbətən sağlamlaşması tədqiqatlara da öz müsbət təsirini göstərməyə başlamışdır. Stalinin şəxsiyyətinə pərəstişin doğurduğu ağır nəticələrin kəskin tənqidi, bütün inqilabi hərəkatın tarixinə qlobal şəkildə yenidən yanaşılmasına, inqilabda “iki rəhbər” nəzəriyyəsindən imtina edilməsi ilə nəticələndi. Yumuşalma dövründə patiya-dövlət orqanlarının ideoloji nəzarətinin zəifləməsi tarix elmi üçün nisbətən

əlverişli şərait yaradırdı ki, bu da elmi tədqiqatlarda marksizm ətrafında metodoloji axtarışlarda olan “yeni istiqamət” in meydana gəlməsinə səbəb olmuşdu. Bu dövrdə elmi tədqiqat müəssisələrinin şəbəkəsi, tarixçilərin beynəlxalq aləmə çıxışı, onların beynəlxalq konfranslarda iştirakı genişlənmişdi. Lakin bütün bunlara baxmayaraq bu dövrdə kommunist partiyasının istiqamətverici təsiri əvvəlki illərə nisbətən zəif olsa da nəşr olunan əsərlərdə özünü büruzə verirdi.

50-ci illərin sovet tarixşünaslığının elmi şəkildə təhlili sübut edir ki, bu dövr də digər dövrlər kimi sovet tarixçiləri tərəfindən birtərəfli tədqiq edilib. Araşdırmalar göstərir ki, 50-ci illərin əvvələrində yazılan əsərlərlə, 50-ci illərin axırlarında yazılan əsərlər arasında köklü fərqlər mövcuddur. Bunun da əsas səbəbini fikrimizcə 1956-cı ildən sonra tədqiqatlar üçün yaranmış nisbətən əlverişli mühitdə axtarmaq lazımdır. Bu dövrün tədqiqi sübut edir ki, 1950-ci illərin tarixşünaslıq baxmından araşdırılması aktual olaraq qalır. Azərbaycan SSR-in digər dövrlərinin tarixşünaslığı ilə yanaşı, 50-ci illərin tarixşünaslığının da yenidən tədqiqinə böyük ehtiyac var.

Azərbaycan tarixinin 1960-1985- ci illərə aid sovet tarixşünaslığının tədqiqi və sonrakı illərdə bu dövrə aid yazılmış kitab və məqalələrin müqayisəli təhlili göstərir ki, bu dövrün də tarixi hadisələri sovet tarixçilərinin əsərlərində subyektivcəsinə işıqlandırılıb.

60-cı illərin ikinci yarısında “Böyük on illik” adlandırılan 1953-1964-cü illərdə yalnız sovet cəmiyyətinin pozitiv cəhətlərinin tədqiq olunması tənqid olunmağa başlamış və bu konyunkturadan əl çəkilməsinə müəyyən cəhtlər də edilmişdir. Lakin 1964-cü ilin oktyabrından başlayaraq “qarayaxmalara” yol verməmək bəhanəsi ilə tədqiqatçılardan müxtəlif dövrlərdə yol verilmiş nöqsanlara, buraxılmış səhvlərə ciddi fikir verməmək tələb olunmağa başlandı ki, bu da obyektiv tarixi tədqiqatların aparılmasına imkan vermədi.Tarixi tədqiqatlar sahəsində bu xətt 80-ci illərin ikinci yarısına qədər davam etmişdir.

80-ci illərin ikinci yarısında bəzi sovet tarixçiləri belə hesab edirdilər ki, 60-cı illərin ortalarında partiya və ölkə qarşısında iki yol var idi: Ya subyektivizm və volyuntarizmdən əl çəkərək ardıcıl və elmi əsaslarla XX qurultayın başlanğıcını qoyduğu xətti davam etdirməklə, zamanın qarşıya qoyduğu tələblərə uyğun köklü dəyişiklər həyata keçirmək. Ya da ölkənin inkişafına mane olan amillərə toxunmadan siyasi sistemi və iqtisadi mexanizmi təkmilləşdirmə yoluna üstünlük

vermək. SSRİ rəhbərliyi bunlardan ikincisini seçdi. 60-cı illərin ikinci yarısından ölkə həyatının nisbətən demokratikləşməsi istiqamətində aparılan işlərin üzərindən xətt çəkildi. Bunun da mənfi nəticələri 70-80-ci illərdə qabarıq şəkildə özünü büruzə verməyə başladı.

1959-cu ilin martında Tbilisidə keçirilən Zaqafqaziya respublikaları elmi idarələrinin ictimaiyyatşünaslarının birinci müşavirəsində Elmi Əlaqələndirmə Şurası yaradılması və problem komissiyalarının təşkil olunması tarixşünaslığa öz mənfi təsiri göstərmişdi. Üç Qafqaz Respublikaları tarixşilərinə "Zaqafqaziya zəhmətkeşlərinin sosialist inqilabı uğrunda mübarizəsi", "Zaqafqaziyanın Rusiyaya birləşməsinin mütərəqqi əhəmiyyəti" və s. bu kimi mövzularda tədqiqatlar aparılması barədə göstərişlərin verilməsi növbəti dəfə tarixin saxtalaşdırılmasına gətirib çıxarmışdı.

Fikrimizcə Elmi Əlaqələndirmə Şurasının qərarı ilə Azərbaycanın Rusiyaynın tərkibinə daxil olmasının 150 illiyini bayram edilməsi Azərbaycanın 1813 və 1828-ci illərdə çar Rusiyası və 27 aprel 1920-ci ildə XI bölşevik ordusu tərəfində işğalını pərdələmək məqsədinə xidmət edirdi. Buna görə də hətta bu mövzuların "Azərbaycanın Rusiyanın tərkibinə daxil edilməsi", "Zaqafqaziyanın Rusiyaya birləşdirilməsi" kimi yazılmasına belə Moskavadan icazə verilməmişdir.

60-cı illərdə Zaqafqaziya respublikaları elmi idarələrinin ictimaiyyatşünaslarının Elmi Əlaqələndirmə Şurasının yaratdılması digər ictimai elmlərlə yanaşı, tarix elmi sahəsində də tədqiqatların daha çox saxtalaşdırılmasına xidmət etmişdir. Tarixi tədqiqatlara bu cür subyektiv yanaşma sonrakı illərdə öz mənfi təsirini göstərmişdi. Məhz bu səbəbdən sovet dövrü tarixinin digər illəri kimi 60-cı illərin tarixşünaslığı da yenidən, obyektiv şəkldə tədqiqi aktual olaraq qalır.

Azərbaycan SSR-dəki ictimai-siyasi və iqtisadi vəziyyət digər sovet respublikalarından fərqli olduğundan 1970-1985-ci illərdə SSRİ-yə aid edilən "durğunluğun" Azərbaycana aid edilməsi fikrimizcə düzgün deyil. Gələcəkdə bu dövrü tədqiq edən tarixçilərin H.Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə (1969-1982-ci illər) sovet rejiminin sərt tələblərinə baxmayaraq milli şüurun, milli kadrların formalaşmasnda mühüm işlərin görüldüyünü, iqtisadi inkişafın nəticəsində ictimai-siyasi mühitin də əlverişli olması və digər bu kimi amilləri nəzərə almaları vacibdir.

70-80-ci illərin birinci yarısı SSRİ miqyasında bütün sahələrdə yenidən partiya-dövlət orqanlarının nəzarətinin güclənməsi dövrü kimi xarakterizə olunur ki, bu da tarix elmində yeni metodologiya axtarışı ilə xarakterizə olunan "yeni istiqamətin" ləğvinə gətirib çıxardı. Bu dövrdə sovet dövrünün kohnə metodoloji istiqamətləri bərpa olundu ki, bu da tarixi tədqiqatlarda özünü büruzə verdi. Lakin bu illərdə sovet dövrü tarixinə aid tədqiqatlarda güclü partiya-dövlət nəzarəti olduğu halda, mütləq monarxiya, feodalizm, Rusiyanın inqilaba qədərki aqrar quruluşu və s. kimi mövzuların sərbəst tədqiqnə nisbətən imkan verilirdi. Bu dövrün elmi tədqiqatların vəziyyəti bütün SSRİ miqyasında eyni olsa da, Azərbaycan SSR-də bir qədər fərqli idi. O dövrdə Azərbaycan rəhbərliyinin yeritdiyi siyasət, onların çıxış və məruzələrindəki irəli sürülən müddəalar, digər respublikalardan fərqli olaraq iqtisadiyyatın əvvəlki illərə nisbətən daha da güclənməsinə, milli şüurun, azərbaycan dilinin daha da inkişafına, milli hərbi kadrların hazırlanmasına imkan vermişdir. Bütün bunlar da o dövrün tarixşünaslığına müsbət təsir göstərmişdir. Gələcəkdə bu dövrü tədqiq edəcək tarixçilərin bu xüsusiyyətləri nəzərə almalıdırlar.

Azərbaycan tarixinin 70-80-ci illərin birinci yarısına aid tarixşünaslığın tədqiqi göstərir ki, bu dövrün yenidən araşdırılmasına ciddi ehtiyac var. Sonrakı illərdə nəşr olunmuş kitab və məqalələrdə bu dövrün tədqiqininin aktuallığı elmi şəkildə əsaslandırılıb.

1985-1988-ci illərin sovet tarixçünaslığının təhlili göstərir ki, bu dövrdə tarixçilərin bir qismi ictimai-siyasi məsələlərə əvvəlki dövrlərdən bir qədər fərqli yanaşmışlar. Bu dövrdə kommunist partiyasının yeritdiyi yenidənqurma siyasəti tarixi tədqiqatların nisbətən demokratikləşməsinə şərait yaratmışdır. Uzun illər insan haqlarının kobud surətdə pozulduğu, obyektiv tarixi tədqiqatlara qadağalar qoyulduğu bir cəmiyyətdə irəli sürülən aşkarlıq və demokratikləşmə xətti tarixi tədqiqatlarda həmin cəmiyyətdə baş vermiş və xalqdan gizli saxlanılan cinayətlərin üzə çıxmasına imkan vermişdi. Bu dövrdə yazılan əsərlər sonradan SSRİ kimi bir imperiyanın dağılmasında da müəyyən rol oynamışdır.

Bu dövrün tarixşünaslıq baxımından tədiqiqi sübut edir ki, tarixçilər bu illərin ictimai-siyasi proseslərinə aid çoxlu sayda kitab və məqalələr həsr etmələrinə baxmayaraq bu dövrün tədqiqində də subyektivizm, birtərəflilik özünü göstərir. Buna görə də bu dövrün tarixşünaslıq baxımından obyektiv tədqiqi öz aktuallığını saxlayır.

1988-1991-ci illərdə tarix sahəsində elmi tədqiqatlara partiya-dövlət nəzarətinin zəifləməsi və aradan qalxması prosesinin başlanması sovet tarixşünaslığının böhranına səbəb oldu. Sovet hakimiyyətinə qədərki dövr və sovet dövrü haqqında yeni, obyektiv faktlarla zəngin tədqiqatlar işıq üzü görməyə başladı. Lakin bu dövrün tarixşünaslıq baxımında obyektiv tədqiqi sübut edir ki, tarixi tədqiqatlarda müsbət irəlləyişlər olmasına baxmayaraq, bu dövrdə tarixçilərin demək olar ki, əksəriyyəti əvvəlki illərin steriotiplərindən tam azad ola bilməmişlər. Bu da həmin illərdə yazılmış əsərlərdə özünü açıq- aydın göstərir.

1988-1991-ci illərin sovet tarixşünaslığı əvvəlki illərdən fərqlənsə də bu dövrdə də tarixçilər ictimai-siyasi proseslərin əsil mahiyyətin açıb göstərə bilməyiblər. Məsələn həmin dövrün əsas hadisələrindən olan 20 yanvar faciəsinin əsl səbəbləri, bu hadisənin törədilməsində bir başa günahkar olan şəxlər barədə sovet tarixşünaslığında faktlara rast gəlmək mümkün deyil.

Fikrimizcə 20 yanvar faciəsində sovet rəhbərliyi ilə yanaşı SSRİ-nin dağılmasında maraqlı olan, buna görə də baş verən cinayətlər göz yuman qərb ölkələrinin səlahiyyətli şəxsləri də məsuliyyət daşıyırlar.

Faktlar göstərir ki, əvvəlki illərdə olduğu kimi hazırda da öz vətəndaşlarına qarşı cinayət törətmiş, onların kütləvi qırğınına bais olmuş dövlət başçılarına müxtəlif münasibətlər mövcuddur. Qərb dövlətlərinin müxtəlif məsələlərdə olduğu kimi həmin şəxslərə də ikili münasibət bəsləməsinə aid çoxlu sayda faktlar göstərmək olar.

Azərbaycan Respublikası Milli Məclisi 20 yanvar hadisəsinə siyasi qiymət versə də, cinayətə bilavasitə rəhbərlik etmiş M.Qorbaçov hələ də məsuliyyətə cəlb olunmayıb. Əksinə qərbin dəstəyilə M.Qorbaçov The New York Times Syndicate korporasiyası ilə birlikdə 2007-ci ilin yanvarından başlayaraq ABŞ, Latın Amerikası, Avropa və Asiyanın aparıcı qəzetlərində məqalələrlə çıxış edərək törətdiyi cinayətlərə haqq qazandırmağa çalışıb. Fikrimizcə qərb dövlətlərinin münasibətindən asılı olmayaraq M.Qorbaçov Azərbaycan xalqına qarşı 1990-cı ilin 20 yanvarında cinayət törədiyinə görə ədalət məhkəməsi qarşısında cavab verməlidir. Gələcəkdə 20 yanvar faciəsi ilə bağlı tədqiqiat aparacaq tarixçilər sovet tarixşünaslığından fərqli olaraq problemə tərəfsiz yanaşmalı, baş vermiş bu cür hadisələrin əsil mahiyyətini üzə çıxarmağa çalışmalıdırlar.

Azərbaycanın qərbə intenqrasiyasının daha da dərinləşməsi, Avropa

Şurasına qəbul olunması, Türkiyə Cümhuriyyəti ilə dostluğun, NATO ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi Rusiyanın regionda strateji mövqelərinin get-gedə zəifləməsinə gətirib çıxarır ki, bu da onun ciddi narahatlığına səbəb olur. Məhz buna görə də Rusiya əvvəlki mövqelərini bərpa etmək üçün bütün vasitələrdən istifadə etməyə çalışır. Bu vasitələrdən biri də Azərbaycan tarixinin obyektiv tədqiq olunmamasından sui-istifadə edilməsidir. Tarixini bilməyən xalqın tarixi təkrar olunur. Deməli sovet dövründə baş vermiş hadisələrin obyektiv tədqiq edilməsi bu problemlərin aradan qaldırılmasına kömək edə bilər. Bunun üçün Azərbaycan SSR-in tarixi tərəfsiz mövqedən tədqiq olunaraq xalqa çatdırılmalısına ciddi ehtiyac var.

Azərbaycan tarixinin sovet dövr tarixşünaslığının tədqiqi göstərir ki, sovet alimləri rejimin müəyyən etdiyi hədd çərçivəsində fəaliyyət göstərərək yalnız sovet arxivlərinin və təşkilatlarının rəsmi sənədləri əsasında kitab və məqalələr yazmışlar. Onlar 1948-ci ildən başlayaraq Qərbi Avropa, ABŞ və hətta Afrika ölkələrində tarixi tədqiqatlarda geniş istifadə olunan şifahi tarixi mənbələrdən istifadəsinə qadağa qoyulmuşdu. Bu qadağa SSRİ-nin süqutu ərəfəsi götürülsə də elmi əsərlərdə bundan çox az istifadə olunub. Şifahi tarixin problemləri və metodları tarix elmlərinin XV beynəlxalq konqresində (Buxarest, 7 avqust 1980-ci il) və digər elmi yığıncaqlarda geniş müzakirə edilib. SSRİ-də ilk dəfə olaraq 1989-cu ildə "XX əsr tarixinin öyrənilməsində şifahi mənbələrin rolu" adlı Ümumittifaq konfransı keçirilib. Azərbaycanda şifahi tarix sahəsində həyata keçirilən ilk layihə "Bakı, 20 yanvar 1990-cı il-Qanlı şənbə" mövzusunda olub. Bundan sonra "Azərbaycan şifahi tarixi: vəziyyəti və inkişafı" (111, 23 mart 1990), "Tarix elminin yeni sahəsi: Şifahi tarix: problemlər və perspektivlər" ("Ayna" qəzeti 21 sentyabr 2001- ci il) və bir neçə digər məqalələr nəşr olunsa da bu sahəyə hələ də lazımi fikir verilmir. Fikrimizcə müasir dövrdə sovet dövrü tarixinin yenidən tədqiqində şifahi mənbələrdən istifadə edilməsi daha samballı əsərlərin meydana çıxmasına səbəb ola bilər.

Sovet hakimiyyəti illərində baş vermiş hadisələr haqqında Azərbaycanın müxtəlif regionlarındakı yaşlı əhali də, 40-cı illərdə Qazaxstana və Orta Asiya respublikalarına sürgün olunmuş, 1945-1946-cı illər cənubi Azərbaycandan gəlmiş, 1948-1953-cü illər Ermənistandan deportasiya edilmiş soydaşlarımızda, 1988-ci ildən başlayaraq Ermənistandan, sonra isə Dağlıq Qarabağdan və digər

işğal edilmiş ərazilərdən zorakılıqla çıxarılmış əhalidə, 20 yanvar, Xocalı və digər faciələrin canlı şahidlərində obyektiv tarix yazmaq üçün küllü miqdar şifahi məlumat və faktlar mövcuddur. Fikrimizcə Azərbaycanın tarixinin yenidən tədqiqində canlı şahidlərinin verdiyi obyektiv məlumatlarda geniş istifadə olunmasına ciddi ehtiyac var.

Riyaziyyata aid deyilmiş bir müdrik fikir sovet tarixşünaslılığının da mahiyyətini başa düşülməsində tədqiqatçılara kömək edə bilər. Riyaziyyatçılar göstərirlər ki, elmi kollektiv o vaxta qədər işləməyə qadirdir ki, orada ideyalar ziddiyyəti, fikir plüralizmi mövcud olsun. Əgər bütün kollektiv bir nəfər kimi "bəli" söyləyirsə, bu o deməkdir ki, ya kollektivin imkanları tamamilə tükənib, ya da mövzunun axırına çıxılmışdır. Sovet hakimiyyəti dövründə fikir plüralizminin olmaması, təkpartiyalı sistemdə alternativ fikirlələrə düşmən münasibət bəslənilməsi, tarixi proseslərə sinfi nöqteyi nəzərindən yanaşılması ona gətirib çıxarmışdır ki, yuxarıların göstərişlərinə tarixçilər bir nəfər kimi "bəli" söyləmiş və birtərəfli tarix yazmışlar. Məhz bu cəhətlərinə görə çox zaman tədqiqatçılarda belə yanlış təsəvvür yaranır ki, sovet tarixşünaslığını tədqiq edərkən ayrı-ayrı mövzulara aid yazılmış yüzlərlə kitab və məqalələrin müsbət və mənfi cəhətlərini üzə çıxarmaq üçün bunlardan bir neçəsi ilə yaxından tanış olmaq kifayət edər. Çünki bu kitab və məqalələr qabaqcadan hazırlanmış bir qəlibə salınmış və bu çərçivədən çıxmağa heç kimə imkan verilməmişdir. Sovet tarixşünaslığının bu cəhəti ilk baxışdan tədqiqatçıların işinin müəyyən qədər asan olması təsəvvürünü də yarada bilər. Lakin fikrimizcə əsl həqiqətdə bu cəhət tədqiqatçıların işini asanlaşdırmaq əvəzinə daha da çətinləşdirir. Çünki tədqiqatçı yalnız məhz sovet tarixşünaslığına aid yüzlərlə kitab və məqalələrlə yaxından tanış olduqdan sonra bu təsəvvürün yanlış olduğunu özü üçün yəqin edə bilər.

Bundan başqa problemin tədqiqi nəticəsində gəldiyimiz qənaətdən biri də odur ki, sovet tarixşünaslığının tədqiqini çətinləşdirən digər amil məhz elə onun rəngarəng olmamasıdır. Buna görə də tədqiqatçı sanki şirə toplamaq üçün çiçək axtaran, lakin bunun üçün uzun müddət şirəsi olmayan çoxlu saylı bitki üzərinə qonmağa məhkum olunmuş bal arısına bənzəyir. Lakin bu yorucu və çətin prosesdən sonra elmi əhəmiyyətə malik zəngin faktlarla istinadən yazılmış əsərlərə rast gəlmək mümkün olur. Fikrimizcə çox böyük zəhmət nəticəsində aşkara çıxarılan bu müsbət cəhətləri, sovet alimlərinin onlar üçün ayrılmış qəliblər çərçivəsində çox

böyük çətinliklə əldə etdikləri elmi nailiyyət kimi də dəyərləndirmək olar.

XX əsrin 90-cı illərindən başlayaraq SSRİ-nin süqutu nəticəsində ictimai-siyasi həyatda baş verən proseslər tarix elminin kommunist ideologiyasının inhisarından azad olmasına gətirib çıxartdı. Bir sıra ölkələrdə tarixi tədqiqatlara maddi cəhətdən dəstək verilməsində dəyişiklər baş vermişdi. Qrant yolu ilə elmi tədqiqatlara dəstək verilməsi qərb ölkələrində olduğu kimi, keçmiş SSRİ məkanında da formalaşmağa başlamışdır. Məsələn, beynəlxalq aləmdə humanitar, o cümlədən tarixi tədqiqatlara Açıq Cəmiyyət İnstitutu (Soros Fondu), Ford fondu, MakArturov fondları maliyyə dəstəyi verirlər. Rusiyada miqyasında humanitar elmlər, o cümlədə tarix elmi sahəsində tədqiqatlara Rusiya humanitar elm fondu dəstək verir. Azərbaycanda da H.Əliyev Fondu, Azərbaycan Prezidenti yanında Elm Fondu. Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət təşkilatlarına Dövlət Dəstəyi Şurası və digər qurumlar tarixi tədqiqatların inkişafına yaxından köməklik göstərirlər.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra qərbə inteqrasiya sahəsində mühüm irəlləyişlərə nail olmuşdur. Lakin qərb ölkələri mərkəzlərinin cənubi Qafqaz ərazisində tarixi tədqiqatlar sahəsində həyata keçirdiyi bəzi layihələr sovet dövrü tarixini ağ ləkələrdən təmizləmək əvəzinə, problemləri daha da dərinləşməsinə, tarixinin yenidən saxtalaşdırılmasına gətirib çıxara bilər. Məsələn, belə layihələrdən biri "Avropa Şurası ilə Tbilisi təşəbbüsü" birgə regional layihədir ki, bu layihədə Avropa ümumtəhsil məktəblərinin 15-16 yaşlı şagirdləri üçün "Qafqaz xalqlarının tarixi" adlı dərs vəsaitinin hazırlanması nəzərdə tutulub. Təhsil və Xarici İşlər Nazirliklərinn internet saytında layihənin adından başqa əlavə məlumat olmaması, bu kitabın hansı müəlliflər tərəfindən yazıldığı, Azərbaycan tarixinin həmin kitabda nə dərəcədə obyektib işıqlandırılması haqqında məlumat verilməməsi bu cür layihələrin obyektivliyinə inamı azaldır.

Adından görünür ki, bu regional layihədir. Yəni bu layihədə Qafqaz xalqlarının tarixçiləri, o cümlədən Azərbaycan, gürcü, erməni və digər xalqların tarixçilərinin birgə işləməsi nəzərdə tutulub. Azərbaycan tarixinin əvvəlki illərdə olduğu kimi hazırda da qonşu respublikaların tarixçiləri tərəfindən saxtalaşdırıldığını və bu saxtakarlığa qərb tarixçilərinin biganə qalması, bəzən isə dəstək verməsi ciddi narahatlıq doğurur. Sovet dövründə yazılan "SSRİ tarixi" kitablarında Azərbaycan tarixinin necə saxtalaşdırıldığı yəqin ki, çoxlarının

yadındadır.

Fikrimizcə "Qafqaz xalqlarının tarixi" kitabı kimi əsərlər tarixçilər tərəfindən geniş müzakirə edilməli, bu məsələ barədə ictimaiyyətə geniş məlumat verilməlidir. Məhz bu yolla tarixin yenidən saxtalaşdırılmasının qarşısını almaq mümkündür.

Son vaxtlar Moskvada Rusiyanın tarixinə aid əvvəlkilərdən köklü surətdə fərqlənən, Rusiyada yaşayan bütün xalqların mənafeyinə uyğunlaşdırılmış yeni dərsliklərin hazırlanması işinə başlanmışdır. Rusiya tarixçiləri keçmiş SSRİ xalqları üçün, o cümlədən Cənubu Qafqaz Respublikaları üçün də bu cür ümumi bir tarixin yazılması təklifini irəli sürmüşlər. Fikrimizcə bu təşəbbüslər tarixin yenidən saxtalaşdırılması, insanların şüurunda tarixi unutqanlığın formalaşdırmasına uğursuz cəhtlərdən başqa bir şey deyil. Bu cür təşəbbüslər bəzi qərb tarixçilərinin təklif etdiyi "tarixi unut, reallıqla barış" kimi təhlükəli konsepsiyalardan qaynaqlanır ki, bu da ərazisinin 20 faizi işğal altında olan Azərbaycan Respublikası üçün təhlükəlidir.

Azərbaycan SSR tarixinin tarixşünaslığının tədqiqi belə bir ümumi nəticəyə gəlməyə imkan verir ki, həmin dövrə aid çoxlu sayda kitab, məqalə və dissertasiyalar yazılmasına baxmayaraq dövrün obyektiv tədqiqi sahəsində tarixçilərin görməli olduqları mühüm işlər hələ qabaqdadır. Cəmiyyət inkişaf etdikcə başqa elmlərlə yanaşı tarix elmi də inkişaf edir. Fikrimizcə müasir dövrdə Azərbaycan Respublikasının qərbə inteqrasiyasının daha da dərinləşməsi, demokratikləşmə sahəsində əldə olunmuş bir sıra uğurlar, iqtisadi islahatların həyata keçirilməsi tarixi tədqiqatlar üçün də əlverişli mühütin yarandığını göstərir. Bu da tarixi tədqiqatların gələcək inkişafına da nikbin baxmağa imkan verir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Abdullayev Ə.İ. Erməni təcavüzü: acı faktlar, fəlakətli nəticələr. Bakı: İqtisad Universitetinin nəşriyyatı,2003,114 s.

2.Abdullayev Ə.İ. Ermənistanın Azərbaycana qarşı təcavüzü tarixindən bəzi məqamlar.Bakı: İqtisad Universiteti, 2011,447 s.

3.Abışov V.Ş. Azərbaycanlıların soyqırımı. (1917-1918-ci illər) B.: Nurlan, 2007,176 s.

4. Acı həqiqətlər. Bakı, Azərnəşr, 1991, 232 s.

5. Ağ ləkələr silinir. (Tərtibçi O. Mirzəyev). Bakı, Azərnəşr, 1991, 200 s.

6. Ağayev V. Azərbaycan komsomolu V1 beşillik planın yerinə yetirilməsi uğrunda mübarizədə. Bakı, Azərnəşr,1958, 58 s.

7. Ağayev V. Komsomol təşkilatları əmək məhsuldarlığını yüksəltmək uğrunda mübarizədə.Bakı, Azərnəşr, 1961, 68 s.

8. Ağayev Q. Azərbaycan komsomolu sənayeləşdirmə dövründə. Bakı, Azərnəşr,1958, 47 s.

9. Ağayev İ. Azərbaycan xalqının öz müqəddəratını təyin etmək hüququ türk tarixşünaslığında. Az. tarixi problemləri üzrə gənc tədqiqatçıların 1-ci res. elmi konfransının məruzələri. 1-ci h., Bakı, 1991, s. 83 -86

10. Ağayev Ə. Sovet İttifaqı Qəhrəmanı İ.Süleymanov.Bakı,Azərnəşr,1944,14 s.

11. Ağayev Ə. Canını əsirgəməyən gənclər ( 306-cı atıcı komsomol polku döyüşlərdə). Bakı,Gənclik,1941,21 s.

12. Axundov B. Azərbaycanlılar doğma Qafqaz uğrunda vuruşmalarda.Bakı, Azərnəşr,1943,24 s.

13. Axundov V. Kommunizm uğrunda mərd mübarizlər.(26 Bakı komissarları haqqında) Bakı,1968,152 s.

14. Alıcanov M. Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı. (1941-1944-cü illər.)Bakı,Elm,1975,250 s.

15. AMİP-in (Azərbaycan Milli İstiqlal Partiyası) Foto -Video lobaratoriyasının cari arxivi.

16. AMİP-in (Azərbaycan Milli İstiqlal Partiyası) cari arxivi.

17. Arzumanlı V. Tarix siyasətin, siyasət tarixin dili ilə. Bakı,Qartal,1999,442 s.

18. Aslanov M. Üzeyir Hacıbəyov-jurnalist.Bakı,Azərnəşr,1985,208 s.

19. Atakişiyev A.M. Azərbaycanda xalq təsərrüfatının bərpası dövründə fəhlə sinfi ilə kəndlilərin ittifaqının möhkəmləndirilməsi uğrunda mübarizə (1921-1925-ci illər.)Bakı,Azərnəşr,1961,180 s.
20. Avılov B. Gənc fəhlələrin beynəlmiləl tərbiyəsində çoxmillətli istehsalat kollektivlərinin rolu Bakı,Gənclik,1973,64 s.
21. "Aydınlıq" qəz., Bakı ( azərb. dilində)
22. "Azadlıq" qəz., Bakı ( azərb. dilində)
23. "Azərbaycan" qəz. Bakı ( azərb. dilində)
24. "Azərbaycan" jur., Bakı ( azərb. dilində)
25. Azərbaycan Böyük Vətən Müharibəsində. 1941-1945. Ədəbiyyat göstəricisi. Bakı,Elm,1985,271 s.
26. "Azərbaycan qadını" jur., Bakı (azərb. dilində)
27. Azərbaycan qadının səadəti. Bakı,Azərnəşr,1974,78 s.
28. Azərbaycan qızlarının IV qurultayı.Bakı,Azərnəşr,1965,135 s.
29. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. 1-ci cild,XIX əsrin 80-ci illəri-aprel 1920-ci il. Bakı,Azərnəşr,1986,504 s.
30. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri.Bakı,Azərnəşr,1964,818 s.
31. Azərbaycan Kommunist Partiyası XXXI qurultayının materialları. Bakı, Azərnəşr,1986,216 s.
32. Azərbaycan Kommunist Partiyasının 20-30-cu illər tarixinin bəzi məsələləri. Bakı, Bakı Dövlət Universiteti, 1990, 93 s.
33. Azərbaycan Kommunist Partiyasının qurultayları,konfransları və MK plenumlarının qətnamə və qərarları. 1-ci cild.1920-1937.Bakı,Azərnəşr,1987,711 s.
34. Azərbaycan Kommunist Partiyasının inkişaf etmiş sosializm dövründə ideoloji işi.(1971-1980-ci illər) Elmi əsərlərin tematik məcmuəsi. ADU, Bakı,1983,94 s.
35. Azərbaycan Kommunist Partiyasının Respublikanın xalq təsərrüfatının inkişafına rəhbərliyi (1981-1986-ci illər). Bakı, ADU, 1986,132 s.
36. Azərbaycan Kommunist Partiyasının tarixi. Bakı,Azərnəşr,1958,424 s.
37. "Azərbaycan Kommunisti" jur., Bakı(azərb. dilində)
38. Azərbaycan komsomolu.Tarixi oçerklər. Bakı, Gənclik, 1968, 479 s.
39. Azərbaycan komsomolunun şanlı yolu (Tövsiyyə ədəb. göstəricisi) Bakı, M. F. Axundov adına Respublika Dövlət Kitabxanası,1968,56 s.

40. Azərbaycan LKGİ Sumqayıt şəhər təşkilatının cari arxivi, 20 mart 1981-ci il tarixli büro iclası, protokol №52,v.21
41. "Azərbaycan müəllimi" qəz. Bakı (azərb. dilində)
42. Azərbaycan pioner təşkilatının tarixindən.Bakı,1975,46 s.
43. Azərbaycan Respublikası SPİH MDA f.1, siy.428, iş 60, v. 13,18.
44. Azərbaycan Respublikası SPİH MDA f.1, siy.433, iş 46, v. 40.
45. Azərbaycan Respublikası SPİH MDA f.1, siy.444, iş 32, v. 2.
46. Azərbaycan Respublikası SPİH MDA f.1, siy.444, iş 34, v. 11.
47. Azərbaycan Respublikası SPİH MDA. f.1, siy.28,iş 56, v. 82.
48. Azərbaycan Respublikası SPİH MDA. f.1, siy.428,iş 30, v. 16.
49. Azərbaycan Respublikası SPİH MDA. f.1, siy.433,iş 42, v. 29.
50. Azərbaycan Respublikası SPİH MDA. f.1, siy.439,iş 76, v. 8
51. Azərbaycan Respublikası SPİH MDA. f.1, siy.444,iş 40, v. 22.
52. Azərbaycan Respublikası SPİH MDA. f.1, siy.428,iş 56, v. 37.
53. Azərbaycan Respublikası SPİH MDA. f.2, siy.148, iş 146, v.54.
54. Azərbaycan Respublikası SPİH MDA f.102, siy.18, iş 1, v.236
55. Azərbaycan Respublikası SPİH MDA. f.1940, siy.3,iş 2, v. 239.
56. Azərbaycan Respublikası SPİH MDA. f.1942, siy.1,iş 26, v.62-63.
57.Azərbaycan Respublikası SPİH MDA f. 10724,siy.1,iş 12 -13,v.55-57,68, 71
58. Azərbaycan Respublikası SRİH MDA f.1781, siy.1,iş239,v.80
59. Azərbaycan Respublikası Naxçıvan MR SPİH MDA f.1,siy.9, iş 27,v.16
60. Azərbaycan Respublikası Naxçıvan MR SPİH MDA f.1,siy.9,iş15,v.24
61. Azərbaycan Respublikası Naxçıvan MR SPİH MDA f.619,siy.6,iş 21,v.45-46
62. Azərbaycan Sovet Ensiklopediyası. Bakı, Azərbaycan Sovet Ensklopediyası baş redaksiyası,I-X c.1976-1987-ci illər
63. Azərbaycan sovet xalqlarının qardaşlıq ailəsində (Bibloqrafik göstərici) 1972-1981.Bakı,1982,153 s.
64. "Azərbaycan Pedaqoji Universitetinin Xəbərləri" Humanitar elmlər bölməsi. (azərb. dilində)
65. "Azərbaycan SSR EA Xəbərləri" Tarix, Fəlsəfə və Hüquq.
66. "Azərbaycan SSR Ali və orta təhsil nazirliyinin jurnalı" Tarix,İctimaiyyat, Coğrafiya.

67. Azərbaycan SSR Ali Soveti rəyasət Heyətinin fərmanları və Azərbaycan SSR Hökümətinin qərarlarının xronoloji küllüyatı. 2-ci c.,(1936-1945) Bakı,1961, 364 s.
68. Azərbaycan SSR-in təsərrüfatı Böyük Vətən müharibəsi illərində.Bakı,1985, 254 s.
69. Azərbaycan tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı. Bakı,Elm,1978,220 s.
70. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər).Bakı."Elm", 2008,608 s.
71. Azərbaycan tarixi ( Z. Bünyadov və Y. Yusifovun redaktorluğu ilə).Bakı 1994,680s.
72. Azərbaycan tarixi. 3 cilddə,3-cü cild, 1-ci kitab. Bakı,Elm,1973,548 s.
73. "Azərbaycan Xalq Cəbhəsinin bülleteni"
74. "Azərbaycan gəncləri" qəz. Bakı ( azərb. dilində)
75. Azərbaycanda müdafiə olunmuş dissertasiyaların biblioqrafiyası (1920-1975). Tərtibçi, Mustafayeva Z.V. 1- ci hissə, humanitar elmlər.Bakı,Elm,1981,402 s.
76. Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları.Bakı,Azərnəşr,1963,247 s.
77. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi.I cild, Bakı 2012,443 s.
78. Babayev S. Müharibə (1988-1993). Bakı,Azərbaycan,1995,120 s.
79. Bağırzadə Ə.Z. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində.Bakı, Azərnəşr,1970,442 s.
80. Bağırzadə Ə.Z. V. İ. Lenin Sovet Sosialist Respublikalar İttifaqının təşkilatçısıdır.Bakı,Bilik,1982,28 s.
81. Bağırzadə Ə. Z. V.İ. Lenin SSRİ-nin yaradıcısı və təşkilatçısıdır.Bakı,Bilik, 1972 ,20 s.
82. Bağırzadə Ə.Z. Qəhrəman gənclik.(Azərbaycan komsomolu Böyük Vətən müharibəsi illərində).Bakı,Uşaqgəncnəşr,1957,136 s.
83. Bağırzadə Ə. Lenin və gənclik. Bakı,Uşaqgəncnəşr,1960,112 s.
84. Bağırzadə Ə., Məmmədov İ., Əlibəyov C. İnqilabi ənənələr və gənclik.Bakı, Azərnəşr,1976,148 s.
85. Bağırov Q. Mədəniyyətdə milli və beynəlmiləl. Bakı,1974,158s.
86. "Bakı" qəz., Bakı ( azərb. dilində)
87. "Bakı Universitetinin Xəbərləri", humanitar elmlər seriyası.

88. Balayev A., Mirzə R. 20 yanvar hadisələri, sənədlər, mövqelər, şərhlər. (1990-2000) Bakı Çaşıoğlu,2000,241 s.
89. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi.Bakı, Azərnəşr,1992,276 s.
90. Bayramov Q.SSRİ-də milli münasibətlərin inkişafı.Bakı,Azərnəşr,1984,198s
91. Bokov F.Y. Azərbaycan övladlarının ölməz igidliyi.Bakı, Azərnəşr,1975,s.218
92. Bünyadov B. Bərpa dövründə Azərbaycanda Sovet ticarətinin yaranması və inkişafı.( 1921-1925-ci illər) Bakı,Elm,1971,123 s.
93. Bünyadov Z. Qırmızı terror. Bakı,Azərnəşr,1993, 331 s.
94. "Böyük Oktyabr və Azərbaycan". Bakı ali məktəblərinin ictimai elmlər kafedralarının elmi-nəzəri konfrasının məruzələri.Bakı 1990,98 s.
95.Cəlilov M.Elmi-texniki inqilab və ateist dünyagörüşü. Bakı, Azərnəşr,1982, 106 s
96. Cəfərov M.C. Àzərbàycàn kəndi kollektivləşmə illərində (1920-ci illərinin sonu -30-cu illər)-Bakı,Elm,2008-300 s.
97. Cəfərov M.C. Stalinizm və Azərbaycan kəndi(1920-ci illərin sonları-30-cu illər) Bakı:"Elm", 2012.-144s.
98. Cəfərov Ə. Kirovabad. Bakı,Azərnəşr,1961,120 s.
99. " Cumhuriyyət" qəz., Bakı ( azərb. dilində).
100. Çərkəzov B. Beynəlmiləl tərbiyə və incəsənət. Bakı,Azərnəşr,1986,200 s.
101. Dadaşlı A. Azərbaycanda Sovet hakimiyyətinin qurulması. ÜİK(b)P yanında MLİ Azərb. filialının əsərləri.Bakı,1947,s.5.
102. Daşdəmirov Ə. Qan qohumluğundan güclü. Bakı,1982,53 s.
103. Dilbazov Ə. Azərbaycanda fəhlə-kəndli ittifaqını möhkəmləndirmək uğrunda mübarizə tarixindən (may 1920-may 1921). ADU-nun elmi əsərləri. Bakı,1961, №5,s.9-15
104. Dilbazov Ə. Bakı fəhlələrinin Azərbaycan kəndlərinə köməyi (1920-1923) Bakı,Azərnəşr,1959, 68 s.
105. Elçibəy Əbülfəz. Bu mənim taleyimdir.B.:Gənclik,1992.-304 s.
106. Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq.Bakı,Gənclik,1992,96 s.
107. "Elm" qəz., Bakı ( azərb. və rus dillərində).
108. "Elm və həyat" " jur., Bakı (azərb dilində)
109. Eristova T. İ. Sovet Azərbaycanı zəhmətkeşlərinin şanlı beynəlmiləlçilik ənənələri. Bakı, Azərbaycan Dövlət Kitab Palatası,1961,46 s.

110. Əbdürrəhmanov N., Soltanova N. İnkişaf etmiş sosializm və onun təkmilləşdirilməsi. Bakı,Azərnəşr1985,83 s.
111. "Ədəbiyyat və incəsənət" qəz., Bakı,(azərb. dilində)
112. "Ədalət" qəz., Bakı,(azərb. dilində)
113. Əliyev A.P. Azərbaycanın neft sənayesində sosializm yarışı. (1935 -1941-ci illər.).Bakı,1955,132 s.
114. Əliyev İ. Dağlıq Qarabağ. Tarix. Faktlar. Hadisələr. Bakı, Elm,1989,117 s.
115. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı,Azərnəşr,1998,488 s.
116. Əliyev İlham Heydər oğlu. Azərbaycanıma inanıram. Kitabın müəll. M.Ozerov; Rus dilindən tərcümə. R.Əskər.- B.: Azərnəşr, 2007.- 376 s.
117. Əliyev X. A. Sovet hakimiyyəti Azərbaycan kəndlilərinə nə verdi? Bakı, Azərnəşr,1957,148 s.
118. Əliyev X., Əlimirzəyev X. Azərbaycan kənd təsərrüfatının kollektivləşdirilməsi tarixindən. (1930-1934-cü illər) Bakı, Elm,1957,274 s.
119. Əliyev X.A. Azərbaycan Kommunist partiyasının fəhlə-kəndli ittifaqının möhkəmləndirilməsi uğrunda mübarizə tarixindən. Bakı, ADU, 1961, 414 s.
120. Əliyev Ə. Azərbaycan neft sənayesi. Biblioqrafiya. Bakı, Azərnəşr,1977, 54 s.
121. Əliyev M.M. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı. Bakı:Adiloğlu,2001,316 s
122. Əliyev Ə.P. SSRİ-nin təşkili və onun tarixi əhəmiyyəti. Bakı,Azərnəşr, 1972, 35 s.
123. Əlizadə M.A. Azərbaycan gəncləri kommunizmin fəal qurucularıdır.Bakı, 1960, 46 s.
124. Əlizadə N. Azərbaycanda sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə tarixindən.Bakı,Azərnəşr,1974,152 s.
125. Əlizadə Ə. Komsomol partiyanın sədaqətli köməkçisi və mübariz ehtiyat qüvvəsidir.Bakı, Az. SSR siyasi və elmi bilikləri yayan cəmiyyət,1958,42 s.
126. Ələkbərli Ə.Y. Qərbi Azərbaycanlıların 1988-ci il soyqırımı.(Sənədlərin dili ilə) . Bakı, "Nurlan" nəşriyyatı, 2008, 559 s.
127. Əlimirzəyev X.O. Kənd təsərrüfatın elliklə kollektivləşməsi üçün şəraitin yaradılması.Bakı,1956, 58 s.
128. Əlimirzəyev X. O. Sosializm və kommunizm qurmaq haqqında Lenin planı. Bakı, Azərbaycan SSR siyasi və elmi bilikləri yayan cəmiyyət ,1957,48 s.

129. Əlimirzəyev X.O. Sovet Azərbaycanı-Böyük Oktyabr Sosialist inqilabının yetişdirməsidir. Bakı, Azərnəşr,1958,236 s.
130. Əlimirzəyev X. O. Azərbaycan kəndi sosialist inqilabının hazırlanması və qələbəsi uğrunda mübarizə dövründə. Bakı,ADU,1960,124 s.
131. Əlimirzəyev X.O. Azərbaycan Kommunist Partiyasının kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulması uğrunda mübarizəsi (1926-1937-ci illər). Bakı, 1961,157s.
132. Əlimirzəyev X. O. Azərbaycan kəndi Sovet hakimiyyəti illərində. Bakı, Azərnəşr,1963,208 s.
133. Əlimirzəyev X. O. Azərbaycan kommunizm quruculuğu yollarında. Bakı, Azərnəşr,1967,234 s.
134. Əlimirzəyev X. O. Vahid qardaşlıq ailəsində ( SSRİ-nin 50 illiyi münasibətilə). Bakı,Elm,1972,28 s.
135. Ənnağıyev Ə. Azərbaycan komsomolunun yaranması tarixindən. Bakı, Uşaqgəncnəşr,1958,106 s.
136. Əfəndiyev M.Ə. Kənd ziyalısı və kəndin mənəvi həyatında onun rolu. Bakı,1973,102 s.
137. Əfəndiyev S. Azərbaycan xalqının beynəlmiləlçilik ənənələri. Bakı, Azərnəşr, 1966, 40 s.
138. Əfəndiyev S.M. Seçilmiş əsərləri.2-ci cild, Bakı,Azərnəşr,1990,396 s.
139. Əfəndiyev T. Müəllim və komsomol təşkilatı. Bakı, Uşaqgəncnəşr,1954,52 s.
140. Əhmədli C. T., Rəhimov A. Fəhlə elmi-texniki inqilab dövründə. Bakı,1976, 108 s.
141. Əhmədov A. Gənclərin ateist tərbiyəsində komsomol təşkilatlarının rolu. Bakı,1959, 96s.
142. Əhmədov F. Kommunizm quruculuğu dövründə zəhmətkeşlərin beynəlmiləl tərbiyəsi. Bakı, Azərnəşr,1964,132 s.
143. Əhmədov X. Azərbaycanda sovetlərin yaradılması və möhkəmləndirilməsi (1921-1925-ci illər). Bakı, Elmlər Akademiyası Tarix İnstitutu,1966,186 s.
144. Əhədov A. Azərbaycan komsomolunun şanlı yolu.Bakı,Uşaqgəncnəşr,1960, 52 s.
145. Əsgərov L. H. 1926-1932-ci illər ərzində Azərbaycan SSR xalq təsərrüfatının inkişafı tarixindən.Bakı,ADU,1986,91 s.

146. Əsgərov Ə. N. SSRİ-nin təşkili və Sovet Azərbaycanının beynəlxalq əlaqələri. Bakı,Elm, 1972 ,28 s.
147. Əsədov F. S. Dar gündə yaxşı arxa.Bakı,Azərnəşr,1988,126 s.
148. Əsədov Ə. Proletar beynəlmiləlçiliyi sosialist ölkələrinin qarşılıqlı münasibətlərinin əsasıdır. Bakı, Azərbaycan SSR siyasi və elmi bilikləri yayan cəmiyyət, 1966,64 s.
149. Əsədov Ə. Sovet Sosialist Respublikaları 50 ildə. Bakı,Elm,1972,70 s.
150. Əzizbəyova P. Ə. Azərbaycan kəndi sosialist inqilabının hazırlanması və qələbəsi uğrunda mübarizə dövründə. Bakı,1960,134s.
151. Əzizbəyova P. Ə. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsində böyük rus xalqının qardaşlıq köməyi. Bakı,1954,168 s.
152. Hacıyev Z. Elmi-texniki tərəqqi və kənddə ictimai dəyişikliklər.Bakı,Elm, 1977,44 s.
153. Hacıyev Z. Kəndin sosial inkişafı. Bakı,Azərnəşr,1986,216 s.
154. “Haray” qəz., AXC Sumqayıt ŞT orqanı, Sumqayıt (azərb. dilində)
155. Heydərov S. Azərbaycan Kommunist Partiyası Böyük Vətən müharibəsi dövründə. Bakı,1957,230 s.
156. H.Ərəblinski. Aktyorun həyat və fəaliyyətinə dair sənədlər məcmuəsi.Bakı, Azərbaycan SSR Azərbaycan Teatr Cəmiyyəti,1967,104 s.
157. Həbibov N. Azərbaycan Sovet rəssamlığı. Bakı,Azərnəşr,1966,188 s.
158. Həsənli C.P. “ Ağ ləkə”lərin qara kölgəsi. Bakı, Gənclik,1991,199 s.
159. Həsənli C.P. Azərbaycan Respublikasının diplomatiya tarixi.Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920) . Azərbaycan Respublikası Xarici İşlər Nazirlyi I cild.- B.: “GARİSMA” MMC, 2009, 549s.
160. Həsənli C.P. Güney Azərbaycan Tehran-Bakı-Moskva arasında (1939-1945) Bakı, Diplomat, 1998, 324 s.
161. Həsənov İ.M. Yusif Sadıqov. ( Sovet İttifaqı Qəhrəmanı.) Bakı, Azərnəşr, 1985, 23 s.
162. Hicran F. Qarabağda talan var. Bakı,1992,123s.
163. Hüseynov R. Yurdun adında can.Bakı,“Elm”,2010, 904 s
164. Hüseynov D. Böyük Vətən müharibəsi illərində sovet xalqının mənəvi-siyasi birliyi.Bakı,1959,124s.
165. Hüseynov İ. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi. Bakı,1960, 132 s.

166. Hüseynov H. M. Bolşeviklərin rəhbərliyi altında Naxçıvan zəhmətkeşlərinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizəsi. Bakı, 1958, 154s.
167. Hüseynov C. Xalqın birliyinin qələbəsi ( Böyük Vətən müharibəsində sovet xalqının ideya və siyasi birliyinin qələbəsi haqqında) Bakı,Azərnəşr,1966,s155.
168. "Xalq" qəz., Bakı (azərb.dilində)
169. Xəlilli X. Sovet tarixşünaslığı-milli ölüm elmi. Bakı, "MBM" MMC, 2010, 400 s.
170. Xəlilov Q.V. Sovet sosialist maarifçiliyinin yaranması və inkişafı. Bakı, Azərnəşr, 1960,s.155.
171. " Xəzər " jur., Bakı ( azərb. dilində).
172. İbrahimli F.F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920 -1930). Bakı, 1996.
173. İbrahimli X.C. Azərbaycan Mühacirəti Tarixi. Bakı, 2012, 400 s.
174. İbrahimli X.C. Azərbaycan siyasi mühacirəti (1920-1991) Bakı, Elm, 1997, 304 s.
175. İbrahimov Z. İ. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı, Azərnəşr, 1957, 588 s.
176. İbrahimov M. Tufanlara kömək edən bir qələm: Üzeyir Hacıbəyov şəxsiyyəti və yaradıcılığı.Bakı, Azərnəşr, 1987, 197 s.
177. " İqtisadiyyat" " jur., Bakı ( azərb. dilində)
178. İmanzadə S. Oktyabr Sosialist İnqilabı və Azərbaycanda qadın azadlığı.Bakı, Azərnəşr,1957,108 s.
179. İmanov R. Sosialist Dağlıq Qarabağı.Bakı,1981,54 s.
180. İmanov R. Çiçəklənən diyar. Bakı, Azərnəşr,1984,78 s.
181. "İpəkçi " qəz., Şəki ( azərb. dilində).
182. İsazadə Ə. Üzeyir Hacıbəyov haqqında seçilmiş xatirələr. Bakı,1990,67 s.
183. İsayev Ə. İsrafil Məmmədov. Bakı, Azərnəşr, 1986,36 s.
184. İsgəndərov A.C. 1917-1920-ci illər Azərbaycan tarixşünaslığına yeni bir baxış. Az. tarixi prob. üzrə gənc tədqiqatçıların 1-ci respub. elmi konf. məruzələri 1-ci h. Bakı, 1991, s. 95-98
185. İsgəndərov A.C.1918-ci il mart qırğının tarixşünaslığı.Bakı,Mütərcim,1997, 184 s.

186. İsgəndərov A.C. Azərbaycanda sovet hakimiyyətinin qələbəsi 50-ci illərin sonu-70-ci illər tarixşünaslığında Azərbaycan tarixi problemləri üzrə məruzələr məcmuəsi. Az. tarixi prob. üzrə gənc tədqiqatçıların 2 ci respub. elmi konf. məruzələri. Bakı,1992, s.110 -112.
187. İsgəndərov A.C. Bakı kommunası və onun tarixşünaslığı haqqında. BDU-nun gənc tarixçi tədqiqatçılarının elmi konfransının materialları.Bakı,1991,s.204-208
188. İsgəndərov A.C. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918-1920-ci illər) Bakı, 2006, 290s.
189. İsgəndərov M.S. Sovet hakimiyyəti uğrunda. Bakı, 1967,103s.
190. İsmayılov A. Sumqayıt prosesi. Bakı: Çoşoğlu, 2010, 204 s.
191. İsmayılov E., Həsənov C., Qafarov T. Azərbaycan tarixi. Bakı, 1995,
192. İsmayılov İ. Z. Elmi kommunizm kursunda Azərbaycan ictimai-siyasi ədəbiyyatından istifadə edilməsi. Bakı, Maarif, 1985, 124 s.
193. İsmayılov İ. Z. Sovet adamının beynəlmiləl tərbiyəsi haqqında. Bakı, Azərnəşr, 1957, 168 s.
194. İsmayılov İ.Z. Sovet şərq xalqları mədəniyyətinin inkişafı və antikommunizm. Bakı, Azərnəşr, 1975, 80 s.
195. İsmayılov F.C. Ermənistan - Azərbaycan münaqişəsinin tarix kökləri və müasir dövr. Bakı: İnformasiya Texnologiyaları, 2009, 266 s.
196. “ İstiqlal “ qəz., Bakı (azərb. dilində).
197. Karenin A. Sultan Məcid Əfəndiyev. Bakı, Azərnəşr, 1963, 121 s.
198. Katibli M. Bakı keçmişdə, indi və gələcəkdə. Bakı, Azərnəşr,1961,72 s.
199. Katibli M. Qəzənfər Musabəyov. Bakı, Azərbaycan SSR siyasi və Elmi bilikləri yayan cəmiyyət, 1958, 310 s.
200. Kəngərli Q. Qara yanvar şəhidləri. Bakı, Gənclik, 1992, 310 s.
201. Kəngərli Q. Erməni lobbisi...Azərbaycan faciəsi. Bakı,1992, 214 s.
202. Kərimov S. Kiçik torpaq uğrunda döyüşlərdə.Bakı,Gənclik,1982,100 s.
203. Kolesnikova M. V.,Kolesnikov M. S. Rixard Zorge.Bakı,Gənclik,1981,297 s.
204.“Kommunist ”qəz., Bakı ( azərb. dilində).
205. Köçərli T. Azərbaycan Kommunist Partiyasının sosializm qurmaq uğrunda mübarizəsi. Bakı, Azərnəşr, 1960, 135s.
206. Köçərli T. Yaddan çıxmaz Qarabağ.Naxçıvan nəqşi-cahan. Bakı, Elm, 1998, 460 s.

207. Köçərli T. Tarixi saxtalaşdıranlar əleyhinə. Bakı, Azərnəşr, 1972, 183 s.
208. Köçərli F. Lenin milli siyasətinin təntənəsi. Bakı, Elm, 1983, 120 s.
209. Köçərli F. Nəriman Nərimanov.Bakı, Azərbaycan SSR EA,1965,339 s.
210. Köçərli F., Daşdəmirov Ə. Sovet xalqı və milli inkişafın dialektikası. Bakı, 1972, 167 s.
211. Kuliev A. Azərbaycan SSR Kommunizm quruculuğu yollarında. Bakı,1961,64 s.
212. "Qara papaqlar" jur., Bakı ( azərb. dilində).
213. Qarayev S. Dostluq yolları ilə. Bakı,1977, 75 s.
214. Qarayev S. Zəhmətkeşlərin beynəlmiləl tərbiyəsi. Bakı,1984,83 s.
215. Qasımzadə F. SSRİ-nin qardaş sosialist millətlərinin böyük ailəsi. Bakı, Uşaqgəncnəşr, 1962, 188 s.
216. Qasımov İ. Azərbaycanda kolxoz hərəkatına dair. Bakı, Azərnəşr, 195, 220 s.
217. Qasımov Y. Gənclər əmək məhsuldarlığının yüksəldilməsi uğrunda mübarizədə.Bakı, Birləşmiş Nəşriyyat Mətbəəsi, 1956, 39 s.
218. Qasımov İ. Kənd təsərrüfatının kollektivləşdirilməsində komsomolun iştirakı. Bakı, Uşaqgəncnəşr, 1955, 64 s.
219. Qasımov Y. Azərbaycan gəncləri altıncı beşilliyin yerinə yetirilməsi uğrunda mübarizədə. Bakı, Birləşmiş Nəşriyyat Mətbəəsi, 1957, 36 s.
220. Qasımov Y. M. Naxçıvan MSSR-də kənd əhalisinin sosial tərkibindəki əsaslı dəyişikliklər: Naxçıvan MSSR-in 60 illiyi münasibətilə. Bakı, Azərbaycan SSR "Bilik"cəmiyyəti, 1980, 27 s.
221. Qasımov M. "Tarix problemlərimizə metodoloji baxış" 525-ci qəzet.- 2009.- 7 fevral.- S.10.
222. Qasımov M. 1946-1990-cı illərdə Azərbaycanın beynəlxalq mədəni əlaqələri məsələsinə dair. Azərbaycan tarixi problemlərinin gənc tədqiqatçılarının ikinci respublika elmi konfransının məruzələri.(27-28 mart 1992).Bakı,1992, s.182-184.
223. Qasımov M. Xarici dövlətlər və Azərbaycan (Aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, Qanun, 1998, 356 s.
224. Qafqazda Sovet totalitarizmi (20-30 -cu illər). Elmi konfransın materialları. Xəzər Universiteti 6-7 noyabr 1998.Bakı, 1998.
225. Qazıyev M. Böyük Vətən müharibəsi və Azərbaycan.Bakı,1943,54s.

226. Qazıyev M. V.İ. Leninin şagirdi və silahdaşı ( Nəriman Nərimanovun anadan olmasının 100 illiyi münasibətilə) Bakı, Elm, 1970, 47 s.
227. Qəhrəman pionerlər(IV-VI şagirdləri üçün yaddaş) Bakı,Gənclik,1961,76 s.
228. Qəhrəmanov B. Doktor Nərimanov. Bakı, Azərnəşr, 1990, 55 s.
229. Qəndilov S. T. Sov. İKP ölkənin sənayeləşdirməyin Lenin planını həyata keçirmək uğrunda mübarizədə ( 1926-1929-cu illər). Bakı, ADPİ, 1962, 59 s.
230. Qəndilov S. T. Azərbaycan Kommunist Partiyası sıralarının boyartımı və ictimai tərkibinin tənzim edilməsi uğrunda mübarizədə (1926-1932-ci illər). ADU-nun elmi əsərləri, Bakı, 1964 № 6, s.10-18
231. Qəndilov S. T. Azərbaycan Kommunist Partiyası sıralarının təmizliyi uğrunda mübarizə tarixindən. ADU-nun elmi əsərləri. Bakı, 1964, №2, s.7-15
232. Qəndilov S.T. Partiyanın gücü onun birliyindədir.Bakı,Azərnəşr,1964,44 s.
233. Qəndilov S. T. Azərbaycanda partiya quruculuğu məsələləri. Bakı, Azərnəşr,1971, 292 s.
234. Qəndilov S. T. Coşqun yüksəliş illəri. Bakı, Azərnəşr, 1984, 180 s.
235. Qorbaçov M.S. Yenidənqurma və ölkəmiz üçün və bütün dünya üçün yeni təfəkkür. Bakı, Azərnəşr, 1987, 310 s.
236. Qorbaçov M. S. Yenidənqurma xalqın doğma işidir. SSRİ həmkarlar ittifaqlarının XVIII qurultayında nitq.25 fevral 1987.Bakı,Azərnəşr,1987,271 s.
237. Qorbaçov M.S. Oktyabr və yenidənqurma: İnqilab davam edir. 1917-1987. Bakı, Azərnəşr, 1987, 653 s.
238. Qorbaçov M.S. Seçilmiş nitq və məqalələri. Bakı, Azərnəşr,1986,412 s.
239. Qranin Y. Azərbaycan oğulları Moskva və Leninqrad uğrunda döyüşlərdə. Bakı, Azərnəşr,1943,16 s.
240. Qranin Y. Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədov.Bakı,Azərnəşr,1943, 12 s.
241. Qranin Y. Sovet İttifaqı Qəhrəmanı Baloğlan Abbasov Bakı,1944,14s.
242. Quliyev İ., Hadıyev Z. Elmi-texniki inqilab və kəndli gənclər. Bakı, Gənclik, 1979, 83 s.
243. Quliyev R. Proletar beynəlmiləlçiliyi bayrağı altında.Bakı,Azərnəşr,1957,84s.
244. Quliyev R., Muxtarov V. Gənc marksistlərin ictimai vəzifələri.Bakı,197,46s.
245. Quliyev H. Cəbhə qəzetləri (1941 -1945).Bakı,Azərnəşr,1965,142 s.

246. Quliyev C.B. V.İ. Lenin və Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizə. Bakı,1957,65s.
247. Quliyev C.B. Səməd Vurğun yaradıcılığında vətənpərvərlik və beynəlmiləlçilik. Bakı, APİ, 1959, 152 s.
248. Qurbanov A.K. Azərbaycan Kommunist partiyasının kənd təsərrüfatının elliklə kollektivləşdirilməsi dövründə Sovetlərin kənddə möhkəmləndirilməsi uğrunda mübarizəsi. Bakı, 1961, 103 s.
249. Qurbanov B. Bakı fəhlələrinin Azərbaycan kəndinə hamilik köməyi. (1923-1934) Bakı, Azərb. SSR EA, 1960, 176 s.
250. Qurbanov B., Qədirova N. İctimai özfəaliyyət təşkilatları sovet cəmiyyəti siyasi sisteminin ayrılmaz hissəsidir.-Sovet cəmiyyətinin siyasi sisteminin inkişafı. Bakı, Azərnəşr, 1987, s. 99-121, 124 s.
251. Qurbanov B., Qədirova N. Həmkarlar ittifaqlları sovet cəmiyyətinin siyasi sistemində zəhmətkeşlərin ən kütləvi təşkilatıdır.- Sovet cəmiyyətinin siyasi sisteminin inkişafı.Bakı, Azərnəşr, 1987, s. 58-81, 124 s.
252. Qurbanov B.S. , Ələsgərov A.K. Cəmiyyətin sosial strukturunun inkişafı. Bakı, Azərnəşr,1987, 112s.
253. Qüdrətov D.B. Azərbaycanın qardaş respublikalarla iqtisadi və mədəni əməkdaşlığı. (1920-1932).Bakı, Elm, 1973, 278 s.
254. Qürbətov D.B. Birinci beşillikdə Azərbaycanda sovxoz quruculuğu (1928-1932-ci illər.) Bakı, Azərb. SSR EA, 1962, 181 s.
255. Lenin V.İ. Əsərləri tam külliyatı (ƏTK), Bakı, Azərnəşr,
256. Lenin milli siyasəti və antikommunizm. Bakı,1988, 164s.
257. Mahmudov Y.M. , Şükürov K.K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı: Təhsil, 2009,143 s.
258. Mansurzadə A. Sumqayıt qurbanları. Sumqayıt, 1996, 56 s.
259. Mehdizadə M. Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr.Bakı, Azərnəşr,1958, 328 s.
260. Mehdiyev K. Stepanakert.Bakı,Uşaqgəncnəşr,1960,36 s.
261. Mehdiyev R. Ə. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə : məqalələr, çıxışlar, müsahibələr. I cild: İyun, 1971-iyun, 2001, Bakı : XXI-YNE, 2006,624 s.
262. "Meydan" qəz., AXC-nin orqanı, Bakı ( azərb. dilində)
263. Meysner H.O. Siz kimsiniz Rixard Zorge? Bakı, Azərnəşr,1970,144 s.

264. .“Mədəni həyat” jur. ( azərb. dilində)
265. Mədətov Q.Ə. Naxçıvanda Sovet Hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR qurulması. Bakı, Azərnəşr,1958, 164 s.
266. Mədətov Q.Ə. Azərbaycanlıların Böyük Vətən müharibəsi illərində Fransada partizan və antifaşist müqavimət hərəkatında iştirakı. “Azərbaycan SSR-in 40 illiyi”külliyatı. Bakı,1960,s.10-21
267. Mədətov Q.Ə. Azərbaycan Böyük Vətən müharibəsi illərində. Bakı, Azərbaycan SSR EA,1965, 504 s.
268. Mədətov Q.Ə. Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə.Bakı,Gənclik, 1975,23 s.
269. Məhəmməd peyğəmbər: həyat və kəlamları. Bakı,1990, 87 s.
270. Məhərrəmov N. “ Daşnaksütun ” və Azərbaycanın taleyi. Bakı, Azərbaycan, 1995,95 s.
271. Məhərrəmova L. Azərbaycanın milli dövlət dili məsələsi qərb tarixşünaslığında. Azərbaycan tarixi üzrə gənc tədqiqatçıların 1-ci Respublika elmi konfransının məruzələri. Bakı,1991, 2-ci h. s. 229
272. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992, 183 s.
273. Məmmədzadə M.B. Müsavatçılar və kommunistlər. İstila qurbanları. Bakı,1993, 96 s.
274. Məmmədli Q. Azərbaycan teatrının səlnaməsi (1920-1930). 2 h. Bakı,Yazıçı,1983, 300 s.
275. Məmmədli Q. Üzeyir Hacıbəyov 1885-1948. Həyat və yaradıcılığının səlnaməsi.Bakı,Yazıçı,1984,462 s.
276. Məmmədli Q., Quliyev R. Üzeyir Hacıbəyov.Bakı,İşıq,1985, 62 s.
277. Məmmədov A. Azərbaycanda Staxanov hərəkatı. Bakı,1975, 53 s.
278. Məmmədov E. Erməni təxribatı : Sumqayıt, fevral 1988-ci il : faktlar və mülahizələr. Bakı : Mütərcim, 2005, 64 s
279. Məmmədov İ. Azərbaycan tarixi. Bakı., Adiloğlu, 2005, 486 s
280. Məmmədov E. İ. Kənd təsərrüfatının elliklə kollektivləşməsi ərəfəsində Azərbaycan kəndində sinfi mübarizə (1927-1929) Bakı, Azərbaycan SSR EA, 1961,156 s.

281. Məmmədov E. İ.  Kənd təsərrüfatının elliklə kollektivləşməsi illərində Azərbaycan kəndində sinfi mübarizə (1930-1937-ci illər). Bakı, Azərbaycan SSR EA, 1967,151 s.
282. Məmmədov E.S.  Lefortova gündəliyi.Bakı,Elm,1992,70 s.
283. Məmmədov İ., Əsədov S. Ermənistan Azərbaycanlıları və onların acı taleyi (qısa tarixi oçerk.) Bakı,Azərbaycan,1998, 71 s.
284.  Məmmədov İ. Qəhrəmanlıq tarixindən səhifələr. Bakı, Gənclik, 1968, 56 s.
285. Məmmədov İ. M.,  Ənnağıyev Ə.  Azərbaycan komsomolu sosializm qurmaq uğrunda mübarizədə. Bakı, 1958,102s.
286. Məmmədov M. Hüseyn Ərəblinski : Həyat və yaradıcılığı. Bakı, Azərnəşr, 1968, 60 s.
287. Məmmədov N. Z. Azərbaycan Kommunist Partiyasının kənd təsərrüfatının inkişafında Sovetlərin rolunu daha da artırmaq sahəsində fəaliyyəti. Azərb. Kom. Partiyasının Respublikanın xalq təsərrüfatının inkişafına rəhbərliyi   (1981-1985-ci illər) kitabında. Bakı,1986,s.23-31
288. Məmmədov R.S. Sumqayıt hadisələri Dağlıq Qarabağ problemi kontekstində. -Sumqayıt, 2010-128 s
289. Məmmədov S.  Azərbaycanın  qəhrəman qızları. Bakı,1988,112 s.
290. Məmmədov T. K. Elmi-texniki tərəqqi və fəhlələrin hərtərəfli inkişafında onun rolu.( Azərbaycan SSR materialları üzrə.) Bakı,1970,79 s.
291.Məmmədov C.Azərbaycan SSR xalq artisti Ələsgər Ələkbərov.Bakı,1960, 68s.
292. Məmmədov Ə. Sumqayıt. Bakı,1957,72 s.
293. Mixaylov N. A. ÜİK(b)P komsomolun təşkilatçısı və rəhbəridir. Bakı, Uşaqgəncnəşr, 1952, 31 s.
294. "Millət "  qəz., Bakı ( azərb. dilində)
295. Mir Cəfər Bağırovun məhkəməsi (Arxiv materialları) Bakı,1993,120 s.
296.  Miralayev T. Azərbaycanın qızıl qvardiyaçı və  qırmızı partizanları. Bakı, Azərnəşr,1970,130 s.
297.  Mirzəyeva B.M. Azərbaycanın Böyük Vətən müharibəsində iştirakı tarixinin tarixşünaslığı. Tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı.Bakı,1995.25 s.

298. Mirzəyeva Ş. Ədəbiyyat və incəsənətin Lenin partiyalığı prinsipi. Bakı, Azərbaycan SSR EA,1965, 338 s.
299. Mirhadıyev M. M. Sovet Azərbaycanı-çiçəklənən sosialist respublikasıdır. Bakı, Birləşmiş Nəşriyyat Mətbəəsi, 1955, 44 s.
300. Mirhadiyev M. M. Leninin Sosializm qurmaq planının Azərbaycanda qələbəsi. Bakı, Uşaqgəncnəşr, 1956, 128 s.
301. Mirhadıyev M. M. Azərbaycan SSR -də sosializmin qələbəsi. Bakı, Birləşmiş Nəşriyyat Mətbəəsi, 1959, 43 s.
302.Mirhadiyev M. M. Proletar diktaturası haqqında Lenin təliminin Azərbaycanda həyata keçirilməsi. Bakı, Azərnəşr, 1961, 220 s.
303. Mirhadıyev M.M. Kapitalizmdən sosializmə keçid dövründə Azərbaycanda proletar diktaturası dövlətinin təşkili və inkişafı.(1917-1937-ci illər). Bakı, Maarif, 1973,106 s.
304. Mkrtıçyan Ş.M. Dağlıq Qarabağ Muxtar Vilayəti. Bakı,Azərnəşr,1970,39 s.
305. Muradov Ş.M. Azərbaycan SSR-də qadın əmək ehtiyyatlarından istifadənin ictimai-siyasi problemləri. Bakı,Elm,1974,190 s.
306. Muradov Ş., Abbasov F. Azərbaycan SSR-də kəndin ictimai -iqtisadi və demoqrafik inkişaf meylləri.Bakı,Elm,1978,112 s.
307. Musabəyov Q. Seçilmiş nitq və məqalələri. 1-2 c.,Bakı,1989, 140s.
308. Musayev İ.M., Hacıyeva A. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti(1917-1921-ci illər).Bakı,1998,385 s.
309. Musayev İ.M. Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət. (1917-1920). Bakı, 1992, 284 s.
310. Musayev İ.M. Azərbaycanın xarici siyasəti ( mart 1917-aprel 1920-ci illər). Bakı, İqtisad Universitetinin nəşiryyatı, 2001, 291s.
311. Musayev T. XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr.Bakı, Nurlar NPM, 2008 320 s.
312. Mustafayev A.H. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2009, 420 səh.
313. " Müxalifət " qəz., Bakı ( azərb. dilində)
314. Müslümov İ, Mosesova İ. M. , Sarkisyan U. Q. Sovet Dağlıq Qarabağı Lenin milli siyasətinin təntənəsidir. Bakı, Azərnəşr, 1983, 182 s.

315. Müzəffərli N. İqtisadi etüdlər. Bakı, Şuşa, 1999, 238 s.
316. Nadirov A.A. Sovet Azərbaycanının şəhərləri və onlarda sənayenin inkişafı. Bakı, Elm,1973,39 s.
317. Nəbiyev K.P. Azərbaycanda kollektivləşmənin müasir dövr baxımından bəzi məsələləri. "Böyük Oktyabr və Azərbaycan" mövzusunda keçirilmiş Bakı ali məktəblərinin kafedralararası elmi konfransının (noyabr 1990 ) materialları.Bakı, 1990, s.23-30
318. Nəcəfov A. Azərbaycan sosialist millətinin formalaşması və inkişafı.Bakı, 1955, 64 s.
319. Nəcəfov A. Kommunizm quruculuğunda sosialist millətlərinin mədəni əməkdaşlığı. Bakı, Azərbaycan SSR EA , 1961, 96 s.
320. Nəcəfov B.İ. Deportasiya. III hissə. Bakı,Çaşıoğlu,1998,212 s.
321. Nəcəfov X.S. Ağamalıoğlunun siyasi və ateist görüşləri. Bakı, Azərnəşr, 1968, 142 s.
322. Nəcəfova S. Biz beynəlmiləlçilərik. Bakı, Azərnəşr, 1988, 109 s.
323. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V. Stalinə məktub). B.: Azərnəşr, 1992, 80 s.
324. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası.Bakı,Elm,1990,94 s.
325. Nəsirov V.Y. Proletar beynəlmiləlçiliyi və sosialist vətənpərvərliyi.Bakı, Azərnəşr,1962,112 s.
326. Nəsirov V. Sovet vətənpərvərliyi ilə sosialist beynəlmiləlçiliyinin vəhdəti. Bakı, Azərnəşr,1972,216 s.
327. Nəsirov V. Milli münasibətlər və antikommunizm Bakı,Elm,1973,44 s.
328. "Odlar yurdu " qəz., Bakı (azərb. dilində)
329.Orucov Q. Azərbaycan Qafqaz döyüşlərində.Bakı, Azərnəşr,1981,160 s.
330. Paşayev A.Ə. Ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (XIX-XX əsrlər)-Bakı, Çaşıoğlu, 2011.-148 s.
331. Resenziyalar biblioqrafiyası 1946-1959. M.F. Axundov adına Azərbaycan Respublika Kitabxanasının nəşri , Bakı,1961, 56 s.
332. " Respublika " qəz., Bakı (azərb. dilində)
333. Rəhimov Ə.C. 1920-ci ildə Azərbaycanda torpaq mülkədarlığının ləğvi. Bakı, Azərbaycan SSR EA, 1962, 212 s.

334. Rəhimov K. Azərbaycan Kommunist partiyasının respublikada Sovetlərin möhkəmləndirilməsi uğrunda mübarizəsi. (1921-1929 illər) Bakı,1959, 97s.
335. Rəhimov K. Beynəlxalq fəhlə hərəkatının birliyi. Bakı,1960, 65s.
336. Rəhimov K.N. Sovet demokratiyasının Lenin prinsiplərinin təntənəsi. Bakı,1967, 76 s.
337. Rəfiyev C. Nəcəfqulu Rəfiyev.Bakı, Azərnəşr, 1985, 32 s.
338. Rəsulzadə M.Ə. İ.V. Stalinlə ixtilal xatirələri. Bakı, 1991, Elm, 80 s.
339. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı,Gənclik,1991,110 s.
340. Ruban N.V. Sovet sosialist cəmiyyəti. Bakı, Azərnəşr, 1966, 58 s.
341. Ruhulla Axundov. Seçilmiş əsərləri. Bakı, Azərnəşr,1977, 206 s.
342. Rüstəmbəyli M.K. Xalqın xoşbəxtliyi uğrunda (Azərbaycanın Quba qəzasında Sovet hakimiyyəti uğrunda mübarizə.1917-1920 -ci illər.Bakı, Azərnəşr,1969, 62 s.
343. Rüstəmov M.A. Sovet cəmiyyətinin inkişafında ziyalıların rolu. Bakı, Azərnəşr,1959,68 s.
344. Rüstəmov M.A. Azərbaycan sovet ziyalılarının formalaşması və inkişafı. Bakı,Azərbaycan SSR EA,1963,187 s.
345. Rüstəmov M.A. Ölkəmizdə fəhlə sinfinin mədəni-texniki səviyyəsinin artması qanunauyğunluqları. Bakı, Azərbaycan SSR EA, 1966, 326 s.
346. Rüstəmov M.A. Sovet ziyalıları inkişaf etmiş sosializm dövründə. Bakı,Elm,1977,218 s.
347. Sadıqzadə M. Proletar beynəlmiləlçiliyi bayrağı altında. Bakı, Azərnəşr, 1972, 52 s.
348. Sadıxov Ş.Ə. Sovet Sosialist İttifaqının təşkilinə dair. Bakı, ADPİ,1961,68 s.
349. Sadıxov Ş.Ə. Zaqafqaziya Sovet respublikalarının əlaqələrinə dair.( 1920-1921-ci illər). Bakı, ADPİ, 1962, 58 s.
350. Sadıxov H.Ş. Sumqayıt : milli əsarət ya milli səxavət?Sumqayıt , 2004,160 s
351. Sarkisov H.A. Qvardiya generalı Həzi Aslanov.Bakı,Gənclik,1975,166 s.
352. Seyidov M. Partizanın qeydləri.Bakı,Uşaqgəncnəşr,1960,76 s.
353. Səfərova Z.Y. Üzeyir Hacıbəyov yaradıcılığında nəzəri və estetik problemlər. Bakı,Elm,1985,208 s.
354. "Səhər" qəz., Bakı( azərb. dilində)

355. Səfərov Y.H.   SSRİ xalqlarının tarixşünaslığı XIX əsr.Bakı,ADU,1969,257 s.
356. Səmədzadə Z., Musayev M. Onuncu beşillikdə Sovet Azərbaycanının iqtisadi və sosial inkişafı.Bakı,Azərnəşr,1981,233 s.
357. Səttarov M. Sovet vətənpərvərliyi və proletar beynəlmiləlçiliyi haqqında. Bakı,1957,35 s.
358. "Sosialist Sumqayıtı " qəz., Sumqayıt (azərb. dilində)
359. Sovet Naxçıvanı. Bakı,Azərnəşr,1984,136 s.
360. Sovet hakimiyyəti uğrunda. Bakı, Azərnəşr,1967,259 s.
361. Stalin İ. V. Leninizm məsələləri. Bakı, Azərnəşr,1953,764s.
362." Strateji təhlil" Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin jurnalı. (azərb. dilində)
363. Süleymanov E., Süleymanov V. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri.Bakı,2012,181 s.
364. Sultanov Z. Qarabağın qara günləri. Bakı,Yazıçı,1992,146 s.
365. Sultanov O.B. XX əsrin 80-cı illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycanda siyasi mübarizə.monoqrafiya. Bakı.Maarif nəşriyyatı 2010, 231 s.
366. "Sumqayıt" qəz., ( azərb. dilində)
367. Şahmirov Ə.Ş.  Faşizm üzərində qələbədə Azərbaycanın neft və kimya sənayesinin həlledici rolu. Bakı,1966, 93s.
368. Şahgəldiyev K. Azərbaycanda sovet hakimiyyətinin qələbəsində rus xalqının köməyi. Bakı,Azərnəşr,1960,204 s.
369. Şakirzadə Ə. Xalqlar dostluğu və SSRİ-də kommunizm quruculuğu. Bakı, 1968, 68 s.
370. Şərifzadə A.M.  haqqında sənədlər toplusu. Bakı, İşıq,1985,242 s.
371. Şərifzadə A.M.  haqqında xatirələr.Bakı,Azər. Teatr Cəm.,1963,171 s.
372. Şıxlinski Z.B. Azərbaycan kəndində sovet quruculuğu ( 1926-1932-ci illər). Bakı, Elm,1975,237 s.
373. Şıxlinski Z., Xəlilov S. Partiyanın etibarlı dayağı.Bakı,Azərnəşr,1984,106s.
374. Şirvan Y. Sosialist Bakısı. Bakı,1947,25 s.
375. Şirinov A. Çoxmillətli sovet mədəniyyəti. Bakı, Elm, 1973, 36 s.
376. Şirinov H. Yarış sosialist həyat tərzinin tərkib hissəsidir. Bakı, Azərnəşr, 1984, 76 s.
377. Şükürov A. Fəlsəfə.Bakı,Elm,1997,381 s.

378. Şükürov K.K. Azərbaycan tarixi. Üç hissədə. II hissə. Ən qədim zamanlardan bizim günlərədək:Dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər.Bakı, Şirvannəşr, 1998,480 s.
379. Şükürov K.K. Azərbaycan əhalisi haqqında ədəbiyyat. Biblioqrafik göstərici. (qədim zamanlardan müasir dövrədək) Bakı, 1997, 368 s.
380. Şükürov K.K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları: qədim zamanlardan müasir dövrədək: tarix elm. dok. dis. avtoreferatı: 07.00.02, 07.00.09 AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu - Bakı, 2006-47 s.
381. Şuşinski F. Cabbar Qaryağdıoğlu.Bakı, Azərnəşr, 1964, 101 s., Bakı, İşıq, 1987,128 s.
382. Tağıyev Ə. Lenin milli siyasəti və antikommunizm.Bakı,Azərnəşr,1988,102 s.
383. Tahirzadə Ə. Meydan 4 il 4 ay. Bakı, Ay-ulduz, 1997, 1 ci cild 488 s., 2-si cild 414 s.
384. Talıbov Ə.V. İ. Lenin proletar beynəlmiləlçiliyi haqqında. Bakı,1973,102s.
385. “Tarix” qəz., Bakı ( azərb. dilində)
386. “Tarix və onun problemləri” jur., Bakı ( azərb. dilində)
387. Telmanqızı N. Etibar Məmmədov və Azərbaycanın xarici siyasəti. Bakı, 1998, 123 s.
388. Təbliğat işinin, kütləvi-siyasi işin aktual məsələləri Azərbaycan Kommunist Partiyasının sənədlərində.Bakı,1985,172 s.
389. Təhməzov Z. Sovet İttifaqı Qəhrəmanı Abbas Quliyev. Bakı,1983,40 s.
390.“ Təşviqatçı ” jur., Bakı ( azərb. dilində)
391. Titarenko V. Marksist-leninçi beynəlmiləlçilik bayrağı altında.Bakı,1959,49 s.
392. Titarenko V. V. İ. Lenin beynəlmiləlçiliyi bayrağı altında. Bakı,1962, 40 s.
393. Tokarjevski Y. Azərbaycanlı partizanlar vətən uğrunda döyüşlərdə. Bakı, Uşaqgəncnəşr, 1942, 24 s.
394. Tokarjevski Y. Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov. Bakı,1942,28 s.
395. Veysəlli Ə, Əliyev T. Sumqayıtın qan yaddaşı.Sumqayıt,1998, 256 s.
396. Vəlizadə İ. Qanlı Yanvar.Bakı, Azərnəşr, 1992, 95 s.
397. Vəliyev İ. Dünya susur, tarix susmur.Bakı, Gənclik, 1994, 430 s.
398. Vəliyev İ. Qaçqınlıq. Bakı, Göytürk, 1996, 103 s.
399. Vəliyev İ. Qara gündəlik: 1990-cı il 20 yanvar hadisələri. Bakı, Azərbaycan Ensklopediyası,1997,134 s.

400. Vəliyev İ., Muxtarov K., Hüseynov F. Deportasiya.Bakı, 1998,440 s.
401.Vəliyev Y. Azərbaycan Kommunist Partiyasının, Sovetlərin, Həmkarlar İttifaqları və Komsomol təşkilatlarının aqrar-sənaye komplekslərinin inkişaf etdirilməsi sahəsində fəaliyyəti. (1976-1980) Elmi əsərlərin tematik məcmuəsi. Bakı, 1981,s.33 -49.
402. "Vətən səsi"qəz., Bakı ( azərb. dilində).
403. "Yeni Müsavat" qəz., Bakı ( azərb. dilində).
404. Yetkin sosializm şəraitində zəhmətkeşlərin beynəlmiləl tərbiyəsi məsələləri. Bakı, Elm, 1984,180 s.
405. Yolçuyev S.Q. Kommunizm quruculuğu mərhələsində kənd əhalisinin mədəni-texniki səviyyəsinin yüksəlməsi qanunauyğunluqları. Bakı,1969.58s.
406. Zülfüqarlı M.P. Azərbaycan tarixi: II Respublika dövrünün tarixşünaslığı: 1920-1991-ci illər: monoqrafiya / -Bakı:Çaşıoğlu,2001,312 s.
407. Zülfüqarlı M.P. Azərbaycanı kimlər idarə edib? ( may 1918-oktyabr 2003) Bakı, Qanun, 2006,136 s.
408. Zülfüqarlı M.P. Azadlıq və demokratiya mübarizləri.Bakı,Qanun,2004,112 s.
409. Zülfüqarlı M.P. Sədərəyin mərd mübarizləri. Bakı, Qanun, 2004, 127 s.
410. Zülfüqarlı M.P. Sovet tarixşünaslığının tənqidi təhlili. Bakı 2013, 25 s
411. Zülfüqarlı Bakının qəhrəman müdafiəçisi. General Məmməd Bağır Bağırov (1901-1946-cı illər)Bakı,Mütərcim 2013, 68 s.

**Rus dilində**

412. Аббасов М.Г. Бакинская партийная организация в годы Великой Отечественной войны (1941-1945 гг).-Б.: Азернешр, 1990,360 с.
413. Аббасов М.Г.Баку в годы Великой отечественной войны. Баку,Азернешр,1967,264 с.
414. Аббасов М.Г. На крыльях мужества: науч.-попул. очерки о военных летчиках Азербайджана.Баку, Элм, 1975, 271 с.
415. Аббасов А.А. Современный быт и культурно горно-промышленных рабочих Азербайджана. Баку, Элм,1980, 99 с.
416. Аббасов А.А., Селимзаде А.Г. Город братства.Баку,Азернешр,1987,91 с.
417. Абдуллаев Б.М. Ведушая сила. Деятельность Компартии Азербайджана по повышений ведуший роли рабочего класса в жизни республики (1971-1980) Баку,1984, 204 с.

418. Абдуллаев З.Б. Молодые борцы Сумгаита. Баку,1959, 87 с.
419. Авторханов А. Империя кремля. Советский тип колониализма. Минск, Дружба народов, 1991, 107 с.
420. Агаев В.М. Торжество ленинских идей о социалистическом соревновании. Баку, Азернешр,1970,378 с.
421. Агасиев В. Одесские страницы: ( Одескийпериод жизни и деятельности Наримана Нариманова). Баку, Азернешр, 1981, 89 с.
422. Агресия. Баку-январь 1990. под редакцией Азера Касумзаде и Махира Гамзаева) специальный выпуск журнала «Денюш»Баку, 1990, 13 с.
423. Азербайджан в семье советских народов.( Библогр. указатель.) 1972-1981. Баку, Азерб. Гос. Рес. библиотека им. М. Ф. Ахундова, 1986, 127 с.
424. Азербайджанская ССР в период Великой Отечественной войны ( 1941-1945 гг.) Сб. документов и материалов в двух томах.т. 1, Баку, 1976, т. 2. Баку, 1977, 376 с.
425. " Азербайджанская нефтянное хозяйство"жур., Баку ( на рус. языке)
426. Азизбекова П.А. Азербайджанская ССР.Москва,Из.АН СССР,1958,76 с.
427. Азизбекова П.А. Руководство В.И. Ленина социалистическим строительством в Азербайджане. (1920-1923 гг.) Баку, Из. АН Азерб. ССР, 1960, 267 с.
428. Азизбекова П.А. В. И. Ленин и социальные преобразования в Азербайджане ( 1920-1923 гг.) Москва, 1962, 367 с.
429. Актуальные вопросы прпагандской, массово-политической работы в документах Компартии Азербайджана. Баку, Азернешр, 1984, 134 с.
430. Актуальные проблемы национального и интернационального в духовном мире советского человека.Выпуск 1.Баку, Элм, 1984, 223 с.
431. Алиев Г.А. 60 лет Азербайджанской и Коммунистической партии Азербайджана.Баку, Азернешр,1980. 50 с.
432. Алиев Г. А. Боевые задачи профсоюзов республики.Баку,1977.
433. Алиев Г.А. Боевые задачи советов народных депутатов. Баку: Азернешр, 1982. 43 с.
434. Алиев Г. А. Школа управлений, школа хозяйствования, школа коммунизма. Речь на XVI съезде профсоюзов республики. Баку, 1982, 52 с.

435. Алиев Х. Из истории Борьбы КП Азербайджана за укрепление союз рабочих и крестьян. Баку, 1961, 123 с.
436. Алиев Ш.М. Национально-государственные интересы в СССР.-Б.: Азернешр, 1990,280 с.
437. Алибекова Э.Б. Вопросы древней истории Азербайджана в российской историографии XIX - начала XX вв. Баку, «Təhsil», 2009, 224 с.
438. Ализаде А.А., Левиатов В.Н. Историческая наука в Азербайджанской ССР.Труды Аз.ФАН СССР, 1947, №10, с.125-135.
439. Амосов Н. Н.,Белоносов И. И.,Ежов В. А. Профсоюзы СССР в годы великой Отечественной войны: (Историографический обзор).В кн.: проблемы историографии и источниковедения истории КПСС. Ленинград, Из. Ленинградского университета, 1973. Вып.2. 204 с.
440. Аннагиев А. Профессиональные образование рабочих в Азербайджане. Баку, Профтехиздат, 1960, 64 с.
441. Анчуков П.Е. Воспитательная роль социалистического соревнования. Баку, 1978, 36 с. В
442. Анисков, В.Т. Подвиг Советского крестьянства в Великой Отечественной войне: Историографический очерк -М.: Мысль, 1979, 151с.
443. Аракелов Р. Нагорный Карабах: Виновники трагедии известны. Баку, Шарг-Гарб,1991,35 с.
444. Асадов А. Сила братской взаимопомощи. Баку, Азернешр, 1972, 110 с.
445. Ахмедов А. Ислам в современной идеологической борьбе. Баку, Политиздать, 1985, 240 с.
446. Ахмедов Т. Нариман Нариманов. Баку, Язычы, 1985, 32 с.
447. Ахмедшина Ф. А. Азербайджан в братском содружестве. Баку, Элм, 1979, 84 с.
448. Ахмедшина Ф. А. Экономическое сотрудничество Азербайджанской ССР с союзными республиками ( 1946-1980 гг.) Баку, Элм, 1987, 341 с.
449. Ахундов В. Азербайджан в семилетке.Москва,Госполитиздать,1959,47 с
450. Ахундов Г. Сумгаит.Баку,Азернешр,1966,44 с.
451. Багиров М. Путь генерала: Историко-биографический очерк о генерале Ази Асланова. Баку, Язычы, 1988, 179 с.

452. Багиров К. М. Идейно-воспитательной работе-комплксный подход. Баку, Азернешр, 1978, 84 с.
453. Багирзаде А. З. Патриотизм молодеж: советский молодеж в годы Великой Отечественной войны и строителства коммунизма. Баку. Детюниздать, 1962, 140 с.
454. Баевский Д. А. Очерки по истории хозяйственного строительства период гражданской войны. Москва, Из. АН ССР, 1957, 447 с.
455. “ Бакинский рабочий” газ., Баку ( на рус. языке)
456. “ Бакинец ” газ., Баку ( на рус. языке)
457. “ Баку” газ. ( на рус. языке.)
458. Баксовет за 10 лет ( 1920- 1930). Баку, 1930, 23 с.
459. Баку за 40 лет в цифрах.Стат.сб., Баку, Азернешр, 1960, 116 с.
460. Балаев А.Г. Азербайджанское национальное движение: от “Мусавата” до Народного фронта. Баку, Элм, 1992, 103 с.
461. Балаев А.Г. Азербайджанская нация : основные этапы становления на рубеже XIX-XX вв. Москва, 2012, 407с.
462. Белоносов И. И. Советские профсоюзы в годы войны. Москва, Профиздат, 1970, 216 с.
463. Беляева В. А. Трудавой героизм рабочих Азербайджана в годы Великой Отечественной войны ( 1941-1945 гг.) Баку, Азнефтиздат,195, 185 с
464. Берхин И. Б. Созидание развитого социалистического общества. Москва, Наука, 1957, 191 с.
465. Берхин И. Б. Экономическая политика советского государства в первой годы Советской власти. Москва, Наука, 1970, 239 с.
466. Бехбудов Т. Взаимоотношения партийных и административных органов Азербайджана в 1970-х-первой половине 1980-х годов. (Автореферат диссертации) Баку, 1996, 32 с.
467. Библография изданий АН Азербайджанской ССР за 1945-1959 гг. Баку, 1962, 34 с.
468. Библография трудов философов Азерб. ССР, опубликованных в Москве, Ленинграде, других союзных республик и за рубежом (1970-1981гг.) Баку, Элм, 1982, 44 с.
469. Битва под Сталинградом. Краткий очерк. Москва, 1944, 34 с.

470. Богданенко М. Л. Совхозы СССР 1951-1958. Москва, 1972, 98 с.
471. Братский союз-основа рацсвета советских республик. Сб. статей. Кишинев, Штиинца, 1982, 328 с.
472. Бромлей Ю. В. Национальные процессы в СССР: в поисках новых подходов.-М.: Наука,1988.-208 с.
473. Буниатзаде Д. За большевистский перелом в азербайджанской нефтяной промышленности. Баку, 1930, 23 с.
474. Бунизаде Д. Десят лет на стройке социализма. Баку,Аз.ГИЗ, 1930, 31 с.
475. Буниятов З. М., Зейналов Р. Э. От Кавказа до Берлина. Баку, Азернешр, 1990, 222 с.
476. Бюллетен I Закавказского съезда профсоюзов. Тбилиси, 1922, № 6,с. 45-46.
477. Ваганов Ф. М. Правый уклон в ВКП(б) и его разгром (1928-1930гг.) Москва, Политиздат, 1977, 285 с.
478. Валов А. М., Гараевская И. А. Советские профсоюзы в годы индустриализации ( 1926-1937). Москва, Профиздат, 1987, 254 с.
479. Везиров Х. Г. Азербайджанская большевистская печать в борьбе за победу Советской власти. Баку, 1961, 154 с.
480. Велиев С. Спутник Баку (Очерк о Сумгаите). В кн.:подвиг продолжается. Сб очерков и документальных повестей.Москва, 1983, с.117-182.
481. Великая Отечественная война 1941-1945. Энциклопедия. Москва, Советская энциклопедия, 1985,832 с.
482.Великая победа.1941-1945.Рек. библогр. указ.Москва, Книга,1979,285 с.
483. Величко С. А. Перестройка СССР (1985-1991 гг.) В отечественной и зарубежной историографии. // Известия ТПУ. 2005. №1, с.199-205
484. Великий Октябрь и Советский Азербайджан. ( Экспонаты рассказывают.) под ред. П. Азизбековой. Баку, Элм, 1977, 255 с.
485. Векилов Р.А. История возникновения Азербайджанской Республики под ред. Дж.Б.Гулиева; АН Азербайджанской ССР.- Баку: Элм, 1998, 68 с.

486. Великий Октябрь и победа социалистической революции в Закавказье: указатель советской литературы.(Совместное издание Центров научной информации по общественном АН Азербайджанской ССР,Армянской ССР и Грузинской ССР.Баку, ИНИОН, 1977, 222 с.
487. Великий Октябрь и рацвет экономики и культуры Советского Азербайджана. ( Отв. Ред. А. С. Сумбатзаде.)Баку, Элм, 1977, 274 с.
488. Великий Октябрь и торжество ленинской национальной программы партии: реальность истории и банкротство ее фальсификаций. Москва, 1987.
489. Великий подвиг.( рек. указ. литературы о годы Великой Отечественный войне Советского Союза) Москва, Книга, 1970, 216 с.
490. Веселов Г. П. Советская интелегенция в годы Великой Отечественной войны ( 1941-1945 гг.)-В кн.: Советская интелегенция:(История формирования и роста. 1917-1965 гг.) Москва, 1968, 256 с.
491. “Вышка”газ., Баку ( на рус.языке)
492. Военно-Морской Флот СССР в Великой Отечественной войне. Москва, 1944, 63 с.
493. Военные моряки в борьбе за власть Советов в Азербайджане и Прикаспии 1918-1920 гг. Сборник документов. Баку, Элм, 1971, 392 с.
494. Вознесенский Н. Военная экономика СССР в период Великой Отечественной войны. Москва, 1947, 71 с.
495. Волков И. М. Развите сельского хозяйства СССР в послевоенные годы ( 1946-1970). Москва, Наука, 1972, 384 с.
496. Волков Ф. Д. Подвиг Рихарда Зорге. Баку, Знание, 1978, 96 с.
497. “Военно-истрический журнал” Москва ( на рус. языке)
498. “ Вопросы истории” жур., Москва ( на рус. языке)
499. “ Вопросы истории КПСС” жур.,. Москва ( на рус. языке)
500. “ Вопросы философии” жур., Москва ( на рус. языке)
501. “Вопросы экономики” жур.,. Москва ( на рус. языке)
502. Ворожейкин И.Е., Сенявский С. Л. Рабочий класс-ведущая сила советского общества (Вопросы методологии и историографии). Москва, Мысль, 1977, 374 с.
503. Воскресенская М.А., Новоселов Л.И. Производственная совещания-школа управления ( 1921-1965 гг.) Москва, Профиздат, 1965, 223 с.

504. Всемирно-историческая победа советского народа.1941-1945. Москва, 1971, 178 с.
505. Всесоюзное совещание о мерах улучшения подготовки научно-педогогических кадров по историческим наукам, 18-21 декабря 1962 г. Москва, Наука, 1964, 518 с.
506. Вторая мировая война. В 3-х кн. Москва, Наука, 1966, 439 с.
507. Вторая мировая война. Краткая история. Москва, Наука, 1984, 590 с.
508. Второй Всеазербайджанский съезд Советов. Стен.отчет. Баку,1922,46 с.
509. Вургун С. Развитие и задачи общественных наук в республике. В кн.: 10 лет Академии Наук Азербайджанской ССР. Научная сессия 23- 27 апреля 1955.Баку, 1955, с.3-10
510. Габибов Н., Наджафов М. Искуство Советского Азербайджана. Живопись, скульптура, графика. Москва, Искуство, 1960, 200 с.
511. Галицкая И.А. Молодежь, религия, атеизм. Москва, Наука, 1978, 112с.
512. Галлени М. Советские партизаны в италянском движение сопротивления. Москва, Прогресс, 1970, 223 с.
513. Галоян Г. Октябрская революция и возраждение народов Закавказья. Москва, Мысль, 1977, 293 с.
514. Галоян Г. Рабочие движения и национальный вопрос в закавказье (1900-1922). Ереван, Айастан, 1968, 508 с.
515. Галоян Г. Социалистическая революция в Закавказье освешение буружазной историографии. Москва, Соцэкгиз, 1960, 219 с.
516. Гаффаров Т.Б. Социальные сдвиги в азербайджанской деревне на современном этапе. Баку, 1986, 245 с.
517. Гасымлы М.Дж. Азербайджан в международных культурных связях (1946-1990 гг.). – Тбилиси, изд. Артанучи, 2005, 300 с.
518. Герои Советского Союза сыны Азербайджана.Баку,Азернешр,1965,340 с.
519. Гимпельсон Е. Г. “Военный коммунизм”: политика, практика, идеология. Москва,Мысль,1973,296 с.
520. Голиченкова Е. С. Коммунистическая партия Азербайджана в борьбе за созидание Закавказской Федерации. В кн.: 40 лет СССР и Закавказской Федерации. Баку,1962,с.23-31

521. Гордон Л. А., Клопов Э. В. Что это было? Размышления о предпосылках и итогах того, что случилось с нами в 30-40-е годы. Москва, Политиздат, 1989,318 с.
522. Гулиев Г.А. Библиография этногрфии Азербайджана.Баку, Из. АН Аз. ССР,1962.Вып.1.,127 с.
523. Гулиев Дж. Б. Под знаменем ленинской национальной политики. (Осуществление Коммунистической партией ленинской национальной политики в Азербайджане в 1920-1925 гг.) Баку, Азернешр, 1972, 249 с.
524. Гулиев Дж. Б.. Борьба Коммунистической партии за осуществление Ленинской национальной политики в Азербайджане . Баку, Азернешр,1970, 705 с
525. Гулиев Дж. Б. К истории образования второй республики Азербайджана. Баку :Элм,1997,164 с
526. Гулиев Дж. Б. В.И. Ленин об Азербайджане : по страницам полного собрания сочинений В.И. Ленина. Баку : Азернешр, 1966, 40 с
527. Гулизаде М. Ю. Идея дружбы и братства народов в азербайджанской советской литературе. Труды объединенной научной сессии Академия Наук СССР и академии наук Закавказских республик по общественным наукам. Баку, Изд. АН Азерб. ССР,1957,с. 623-626.
528. Гусейнов А. А. По ленинскому пути идустриализации-борьба коммунистической партии за созидание и развитие новых индустриальных центров в Азербайджанской ССР. Баку, Азернешр, 1964, 197 с.
529. Гусейнов А.А.Алигейдар Караев.( биограф.очерк.)Баку, Азернешр, 1976, 80 с.
530. Гусейнов И. А. Развитие исторический науки в Азербайджане. Изв. Аз.ФАН СССР, 1943,№ 6, с. 104-108.
531. Гусейнов В. Больше, чем одна жизнь. Кн. 2. -М.: Издательский дом «Красная звезда», 2013, 424 с.
532. Гусейнов И. А. Историческое значение большевитского лозунга "Независимий советский Азербайджан." Учен. зап. АГУ 1957,№ 10, с.3-9
533. Гусейнов И. А. Крестьянское движение в Азербайджане в 1917-1920 гг. В кн.: Великий Октябрь и борьба за Советскую власть в Азербайджане. Баку, 1957, с. 16-23

534. Гусейнов И. А. Развитие гуманитарных наук в Азербайджане за годы Советской власти. В кн.: Развитие наук в советском Азербайджане.Баку, 1967, с. 5-16
535. Гусейнов К. А. Профсоюзы Азербайджана в борьбе по построение коммунизма. Баку, Азернешр, 1960, 118 с.
536. Гусейнов К. А. Профсоюзы-активные участники всенародного кантроля. Москва, Профиздат, 1965, 93 с.
537. Гусейнов К. А. Очерки истории профдвижения в Азербайджане. Баку, Азернешр, 1966, 487 с.
538. Гусейнов М. Д. Основные моменты истории развития Азербайджанской Компартии. (Мои воспоминания)-В сб.: Четверт века борьбы за социализм. Тифлис,1923, 75с.
539. Гусейнов М. Д. Тюркская демократическая партия федеоалистов "Мусават" в прошлом и настоящем. Баку, 1927, 86 с.
540. Гусейнов Г. Борьба трудящихся Нахичевани под руководством большевиков за победу и упрочение советской власти (1917-1921 гг) Баку, 1960, 124 с.
541. Гусейнов Ч. Г. Советская литература и интернациональное воспитание трудящихся. В кн.: Социализм и нация. Москва, 1975,с. 471- 475.
542. Дащдамиров А.Ф. Проблема личности в марксистско-ленинской теории нации и национальных отношений. Баку: Азернешр, 1984,155 с.
543. Декреты Азревкома (1920-1921гг.).Баку, Азернешр, 1988, 519 с.
544.Деятельность Коммунистических организаций Закавказья по интернациональному воспитания трудящихся. Тбилиси, Сабгота Сакартвело,1977, 474 с.
545. Джафарова Т. Основные вопросы историографии взаимоотношение советов и партии в 70-80-е годы. Док. 1- го научной конф. молодых исслед. проб. истории Азербайджана. 2- ч., Баку. 1991,с. 275-278.
546. Джунусов М. С. Буржуазный национализм, принцип критики. Москва, Наука, 1986, 238 с.
547. Директивы командирования фронтов красной армии ( 1917-1922). Сборник документов,т. 3. Москва, Военииздат, 1974, 728 с.

548. Дмитренко С. Л. Борьба КПСС за единство своих рядов
(окт. 1917-1937 гг.) Москва, Политиздат, 1976, 320 с.
549. Дружба ( Ежегодник Республиканского дворца дружбы народов.) Баку, Элм, 1985, 163 с.
550. Дубнер А. Бакинский пролетариат в годы революции ( 1917-1920). Баку, 1931, 42 с.
551. Дулаева З. А. Сумгаит-индустриальный гигант Азербайджана. Баку, Изд. АН Аз. ССР, 1962, 128 с.
552. “ Эхо Сумгаита” газ., Сумгаит ( на рус. языке).
553. Женщины в Азербайджанской ССР.Стат.сб.Баку,Статистика,1972,100 с.
554. Жибарев П. Б. Индустриализация СССР-великий подвиг советского народа. Москва, Изд. МГУ 1969, 328 с.
555. Жимерин Д. Г. История электрификации СССР. Москва, 1962, 213с.
556. Жузе П. К. Папак и папакизм. К истории коммунистического движения в Азербайджане IX в.-Изв. АГУ. Сер. общественных наук, 1921 № 1, с. 204-216.
557. Жуков Г. К. Воспоминания и размышления.Кн.:1-3, Москва,1983,421с.
558. Ибрагимов Дж. О развитие исторической науки в Азербайджане. Труды АПИ им. В.И. Ленина,т.1 Б.,1958, с.12-23
559. Ибрагимов Дж. К развитию исторической науки в Азербайджане в годы Советской власти. Тр. АГИП, 1960,т. XIV, с.142-147.
560. Ибрагимов Дж. К развитию исторической науки в Азербайджане в годы Советской власти. Тр. АГИП, 1967,№ 5,с. 39-45.
561. Ибрагимов З. И., Токаржевский Е. А. Развитие советской исторической науки в Азербайджане. Баку, Елм,1964, 122 с.
562. Ибрагимов З.И., Токаржевский Е.А. К вопросу советской историографии в 20-х, нач. 30-х гг. Труды Инс. Истории АН Азерб. ССР, т. XVII, 1966,с.5-9
563. Идеологическая работа: действенность пропоганды и агитации: Из опыта партийных организации Азербайджана по обеспечению выполнения планов партии, задач хозяйственного строительства. Баку, Азернешр, 1985, 352 с.
564. “ Известия ЦК КПСС ” жур., Москва ( на рус. языке)

565. “Известия АН Азербайджанской ССР.” Серия истории, философии и права, Баку ( на рус. языке)
566. “Известия” газ., Москва ( на рус. языке).
567. Из истории борьбы КП Азербайджана за укрепление союз рабочих и крестьян. Баку, 1961, 165с.
568. Из истории советской интеллигенции. Сборник статей. Москва, Мысль, 1966, 223 с.
569. Изменения в социальной структуре советского общества. 1938-1970. Москва, 1973, 216 с.
570. Изменение о социальной структуры народов СССР. Вопросы истории и историографии социальных преобразований 20-30-х годов. Москва, Изд. МГУ, 1982, 128 с.
571. Иманов Г. Вопросы историографии Азербайджана. Наши достижения и ближайшие задачи. В кн.:Наука Азербайджанской ССР за 15 лет.Баку,1936, с.6-13
572. Исмаилов Е. Р. Изменения в численности и составе интеленгенции Азербайджана в период послевоенного социалистического строительства (1946-1959 ). Москва, 1976, 237с.
573. Исмаилов Е. Р. Власть и народ. Послевоенний сталинизм в Азербайджане. 1945-1953. Баку, «Адилоглы», 2003, 344 с.
574. Исмаилов Е. Р. Азербайджан: 1953-1956 гг. Первые годы «оттепели». Баку, «Адилоглы», 2006, 368 с.
575. Историографии Великой Отечественной войны.Сборник статей. Москва,1980, 268 с.
576. Историография социалистического и коммунистического строительства в СССР. сборник статей по материалам сесии научного Совета. Москва, Изд. АН СССР, 1962, 276 с.
577. История Азербайджана. т.3, част 2, Баку, Изд. АН Аз. ССР,1963, 538 с.
578. История Великой Отечественной войны Советского Союза, 1941-1945. Москва, Воениздат, 1960-1965. т. 1- 6, т. 1-535 с., т. 2- 681 с., т. 3-662 с., т. 4-527 с., т. 5-658 с., т. 6-313 с.

579. История второй мировой войны 1939-1945.т. 1- 12. Москва, Воениздат, 1973-1982, т. 1-360 с., т. 2- 479 с., т. 3-493с., т. 4-527 с., т. 5-509 с., т. 6-511 с., т. 7-543 с., т. 8-527 с., т. 9-567 с., т 10 = 535 с., т. 11-488 с., т. 12-490 с.
580. История и историки. Историографический ежегодник. Москва, Наука, 1973, 411 с.
581. История исторических наук СССР. Советский период. Москва, Наука, 1980, 733 с.
582. История профсоюзов СССР.ч.1-2.Москва, Профиздат,1977-1979, ч.1-256 с.,ч.2-304 с.
583. История СССР. ч. 2, Москва, Просвешение, 1974, 519 с.
584. История государства и права Азербайджанской ССР ( 1920-1934 гг.) Баку, АН Аз. ССР, Ин. Философии и права, 1973, 552 с.
585. “ История СССР ” жур., Москва ( на рус. языке).
586. “ Исторические записки ” жур., Москва ( на рус. языке).
587. Каганович Л. М. За большевистское изучение истории партии. Москва, 1932, 65с.
588. Кадырова (Осипова) Н. Г. О шефской работе в азербайджанской деревне (1926-1929 гг.) Труды Института истории АН Азерб.ССР,т.XIV, 1960, с.23-34
589. Кадышев А.Б. Интервенция и гражданская война в Закавказье, воениздат СССР, Москва, 1960, с. 120.
590. Казиев М. Нариман Нариманов. Баку, Азернешр, 1956, 187 с.
591. Казиев М. Страницы истории комсомола Азербайджана.Баку,1958,153 с.
592. Казиев М. Ученики и соратники В. И. Ленина-борцы за советскую власть в Азербайджане.Баку,Азернешр, 1983,266 с.
593. Карабах: история в контексте конфликта./Составители К.К.Шукюров, Т.Р.Багиев-СПб.:Издательство «Вестник»,2014.-404с.
594. Караев С. Под знамением пролетарского интернационализма. (Интернациональные связи азербайджанских большевиков с партийными организациями других стран до 1920 г.) Баку, 1980 ,176 с.
595. Касумова Я. Борьба Компартии Азербайджана в развитие тяжелый промышленности после военной период. Баку, 1971, 201 с.
596. Кеворков Б. С. В семье единой. Баку, Азернешр, 1978, 90 с.

597. Керимов Б.М. Социальное развитие совхозного отряда рабочего класса. Баку, 1982, 187 с.
598. Керимов А. Самоотвержной труд колхозников Азербайджана в годы Великой Отечественной войны. Баку, 1962, 213 с.
599. К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР.1918-1925.Документы и материалы. Баку, Азернешр, 1989, 334 с.
600. “ Коммунист” жур., Москва ( на рус. языке)
601. “ Коммунист Азербайджана ” жур., Баку ( на рус. языке)
602. “ Комсомолская Правда” газ., Москва ( на рус. языке)
603. Комсомол и молодежь в годы Великой Отечественной войны 1941 -1945 гг.:Материалы к указателю литературы.В 4-х вып.Москва, 1973, 215 с.
604. Конфликт в Нагорном Карабахе: Сб. статей / Сост. Шукюров И.Ш.-Б.: Азернешр, 1990,272 с
605. Котова В.Н. Историография истории СССР (1917-1934).Киев,1966, 195 с.
606. Кочарли Т. Подвиг нефтянников Баку в первой пятилетке. Баку, Азернешр, 1966, 67 с.
607. КПСС-вдохновитель и организатор победы советского народа в Великой Отечественной войне: Историографмческий очерк. Москва, Политиздат, 1973, 262 с.
608. КПСС-партия пролетарского интернационализма: Вопросы историографии и источниковедения. Межвуз. сборник. Изд-во ЛГУ, Ленинград, 1987, 167 с.
609. КПСС о профсоюзах.Москва, 1982, 124 с.
610. Критика буржуазной историографии советского общества: Сб. статей. Москва, Политиздат, 1972, 412 с.
611. Критика буржуазных концепций национальных отношений в СССР. Авт. кол.: М. И. Куличенко и др. Москва, 1984, 325 с.
612. Кулешов С. В., Свириденко Ю. П. Национальная политика КПСС в освешении современной Советской историографии и буржуазной советологии. Москва, 1987, 231с.
613. Кулиев А. Г. До встречи в Берлине. Баку, Гянджлик, 1975, 164 с.

614. Кулиев М. Враги Октября в Азербайджане. ( К 10-летию Октября) Баку, Аз.ГИЗ, 1927, 65с.
615. Кулиев А. Н., Нейдель М. И. 50 лет профсоюза рабочих нефтяной промышленности. Баку, 1956, 67 с.
616. Кулиев А. Население Советский Азербайджан. Баку, 1957, 35 с.
617. Курбанов Б. С. Рабочий класс Азербайджана на пути к развитовому социализму ( 1945-1958). Баку, 1984, 112 с.
618. Курбанов И. М. Социально-экономическим планам-идеологическое обеспечение. Баку, Азернешр, 1984, 103 с.
619. Курбанов М. К. Культура Советского Азербайджана. Баку, Азернешр, 1959, 132 с.
620. Лельчук В. С. Ленинский кооперативный план и борьба партии за его осуществление. Москва, Политиздат, 1969, 311 с.
621. Лельчук В. С. Ленинский план социалистической идустриализации и борьба партии за его осуществление. Москва, Политиздат, 1969, 382 с.
622. Лельчук В. С. Социалистическая индустриализация СССР и ее освещение в советской историографии. Москва, Наука,1975, 312 с.
623. Ленинское учение о союзе рабочего класса с кресьянством. Москва, Наука, 1970, 343 с.
624. “ Литератуная Россия” газ., Москва ( на рус. языке)
625. “ Литератуная газета” Москва ( на рус. языке)
626. Лутченко А. И. Советская интелегенция: ( Формирование кадров советской интелегенции.) 1917-1961 гг. Москва, Знание, 1962, 32 с.
627. Любимов А. В. Торговли и снабжение в годы великой Отечественной войны. Москва, Экономика, 1968, 231 с.
628. Маар Н. Я. Талыши. Петроград, 1922, 54 с.
629. Макеев И. В. Реальность истории и мифы “ советологов”.В кн.: Против антикоммунистических извращений истории революционного движения в Азербайджане. Баку, 1978, с.23-34
630. Мамедов И.М. Комсомол-верный помощник Компартии в борьбе за коллективизацию.Баку,1955,86 с.
631. Мамедов Р. Д. Интелегенция в социалистическом обществе. Баку, Азернешр, 1989, 210 с.

632. Мамедова Н. Развитие Азербайджанской советской историографии в 20-е годы. Док. 1- ой нучной конф. молодых исслед. проб. истории Азербайджана. 1 ч., Баку, 1991, с. 47-50.
633. Мамедов А.С. Мингечаур. Баку,1970,54с.
634. Мамедов К.В. Демографическое развитие в Азербайджанской ССР. Баку, 1980,69 с.
635. Маковская И., Шарапов Ю. Культ личности и историко-партийная наука. В кн.: Страницы истории КПСС: Факты, проблемы, уроки. Москва, Высшая школа, 1988,с. 509-532, 703 с.
636. Марушкин Б. И. История в современной идеологической борьбе: (строительство социализма в СССР сквозь призму антикоммунистической историографии США.) Москва, Мысль, 1972, 230 с.
637. Матюгин А. А. Рабочий класс СССCР в годы востоновления народного хозяйства ( 1921-1925). Москва, Из. АН СССР, 1962, 364 с.
638. Медведев В. А. Развитой социализм: вопросы формирования общественного сознания, Москва, Политиздат, 1980, 272 с.
639. “Международная жизн” жур., Москва ( на рус. языке)
640. Мехтиев Г. Г. Деятельност Коммунистическая Партии Азербайджана в период Великой Отечественной войны ( 1941-1945 гг.) Баку, Азернешр, 1967, 292 с.
641. Мильман А. Азербайджанская ССР суверенное государства в составе СССР. Баку, Азернешр, 1971, 300 с.
642. Миралаев Т. С. Руководство большевиков революционным движением крестян в Гянджинском и Казахском уездах. Баку, 1963, 67 с.
643. Митрофанова А. В. Рабочий класс СССР в годы Великой Отечественной войны. Москва, Наука, 1971, 575 с.
644. Митрофанова А. В. Героический труд комсомольцев и молодежи военных лет в советской историографии. В кн.: Ленинский комсомол в Великой Отечественной войне. Москва, Молодая гвардия, 1975, 334 с.
645. “ Молодой коммунист ” жур., Москва ( на рус. языке)
646. Мусабеков Г. Изб. стат и речи. т. 1-2, Баку, Из. АН Аз. ССР, 1960-1962, т. 1-197 с., т. 2-214 с.

647. Мурадова А.Д. Деятельность Бакинского совета (1926-1934 гг.) Автореф. канд ист. наук. Бакы,1980, 31 с.
648. Мусаева Т.К., Амиров Г.Т. Социалистическое соревнование трудящихся Азербайджана в период развитого социализма. (1971-1979 годы). Баку, Элм, 1980, 79 с.
649. Муслимов Ш. Буржуазная историография о проблеме народонаселения. Труды Всесоюз. межвуз. науч. конф. Москва, 1972, с.54-61
650. Нагиев Н.К. В Сумгаите.Баку,1959,43 с.
651. Нагорный Карабах: разум победит. Документы и материалы. Баку, Азернешр, 1990, 444 с.
652. " Народное творчество и этнография" жур., Москва ( на рус. языке)
653.Нариманов Н. Избранные произведения. т. 2 ,Баку,Азернешр, 1989, 768 с.
654. Народная хозяйства Азербайджанской ССР за 60 лет. Юбилейный стат. сборник. Баку, Азернешр, 1980, 375 с.
655. Народное хозяйства СССР в годы Великой Отечественной войны (июнь 1941-май 1945 гг.) Библогр. указ. книжной и журнальной литературы на русском языке ( 1941-1968 гг.) Москва, Наука, 1971, 460 с.
656. Население СССР. Справочник, Москва 1983, 342с.
657. Национальная политика КПСС. Очерк историографии. Москва, Политиздат, 1981, 256 с.
658. " Нева" жур., Москва ( на рус. языке)
659. Неймат М.С., Кулиева В.А. Объект армянского террора -памятники материальной культуры Азербайджанского народа. Баку,`2007, 40 с.
660. Никишин А. Очерк Бакинского горняцкого профдвижения 1917-1920 гг.-Материалы по истории профдвижения горнорабочих. Баку, 1926,с.23-32
661. Николаев К. М. Рост рабочего ядра Компартии Азербайджана ( 1959-1970 гг.) Баку, Азернешр, 1974, 106 с.
662. " Новое время" жур., Москва ( на рус. языке)
663. Нурузаде Ш. Развитие легой промышленности Азербайджана в 1976-1980 гг. и ее социальное значение для трудовых коллективов. Баку,1994,98с.
664. Образование СССР-торжество ленинской национальной политики. Межвуз. сб. Ленинград, Изд. ЛГУ, 1982, 144 с.
665. "Огонек" жур., Москва ( на рус. языке)

666. Олегина И. Н. Индустриализация СССР в английской и американскй историографии. Ленинград, Изд. ЛГУ, 1971, 222 с.
667. Орджаникидзе С. Статьи и речи. т. 1. Москва, Политиздат, 1956, 516 с.
668. Очерки истории отечественной исторической наук.XX века. Монография. Омск: Издателство ОмГУ,2005, 684 с.
669. Очерки истории профдвижения в Азербайджане. Баку, 1966, 87 с.
670. Очерки истории рабочего класса Азербайджанской ССР.т. 1- 2, Баку, Элм, 1974, 1977, 304 с.
671. Очерки по историографии советского общества. Москва, Изд. МГУ, 1967, 320 с.
672. Папуша З. Е. Работа Коммунистической партии Азербайджана в деревне в период упрочения Советской власти.( май 1920-апрель 1921 гг.) Труды Азерб. филиала ИМЛ при ЦК КПСС,т. XX ,Баку ,1960, с.31-40
673. Первый Всеазербайджанскй съезд Советов.Стен.отчет.Баку,1922,123 с.
674. Перестройка: проблемы, поиски, находки. Москва, 1987,154с.
675. Печат Азербайджанской ССР (1920-1956 гг.) Стат. сб. Баку,1958,114с.
676. Печат и проблемы совершенствования интернационального воспитания. Баку, Азернешр, 1987, 132 с.
677. Победа Советской власти В Закавказье.Тбилиси,Мецниереба,1971, 682 с.
678. Позняк Г. А. Борьба В. И. Ленина за укрепление единства коммунистической партии ( 1920-1921 гг.) Москва, 1974,213с.
679. Полонский Л. Магнитка зовет: страницы истории великой стройки жизнь Чингиза Илдырыма. Баку, Азернешр, 1972, 155 с.
680. Помпоев Ю.А. Кровавый омут Карабаха.Баку,издатель. Азербайджан, 1992-208с.
681. Попов Т, Т., Суботин Д. Т. К истории советских общественных организаций. Сборник архивных документов. Москва, Высшая школа,1970, 440 с.
682. “ Правда ” газ., Москва ( на рус. языке)
683. Против буржуазной историографии советского общества. Москва, 1972, 123 с.
684. Против буржуазных фальсификаторов истории и политики КПСС, Москва, Политиздат, 1980, 286 с.

685. Профессиональное  движение в Азербайджане  к 5 съезду профсоюзов. Баку, 1926,79 с.
686. Профсоюзы Азербайджана в цифрах. Баку, Азернешр, 1977, 8 с.
687. Профсоюзы в период построения социализма в СССР (октябрь 1917-1937 гг.) Москва, 1963,127с.
688. Профсоюзы и общества. Сборник .Москва, Наука, 1982, 364 с.
689. Пять лет АСПС. Юбилейный сборник. Баку, 1925,23 с.
690. Рабочий класс-ведущая сила мирового революционного процесса: (Критика буржуазных и реформистских консепсий.) Москва, Политиздат, 1973, 184 с.
691. Рабочий класс и индустриальное развитие СССР.Москва,Наука,1975, 482 с.
692. Рабочий класс СССР ( 1951-1965). Москва, Наука, 1969, 559 с.
693. Рабочий класс СССР 1917-1977 : Указатель советской литературы, изданной в 1971-1977 гг. Москва, 1978,129 с.
694. “ Рабочая трибуна” газ., Москва (на рус. языке)
695. Раджабов Р. А. Общественная организации Азербайджана и их роль в привлечение масс к управлению советским государством (1920-1932 гг.) Баку,Азернешр,1975,154 с.
696. Развитие наций и национальных отношений в условиях развитого социализма: Материалы выездного заседания бюро отделения философии и права АН СССР. (Баку , 27-28 октября 1982 г.) Баку, 1983,287 с.
697. Ратгаузер Я. А. Борьба за Советской Азербайджан. К истории апрельского переворота. Баку, 1928, 36с.
698. Ржевский О. А. Война и история. ( Буржуазная историография США о второй мировой войне.) Москва, 1976, 327с.
699. Рзаев Г.С., Саркисов В. С. Рожденный из легенды.(Сумгаит.) Баку, Гянджлик, 1970, 79 с.
700. Рзакулиев О. М. Критика буржуазной фалсификации истории культурного строительства в советском Азербайджане (1920-1937 годы). В кн. Против буржуазных фальсификаторов истории и культуры Азербайджана. Баку, “ Елм” 1978, с.34-41,220 с.

701. Резолюции и постановления съездов Совета Азербайджанской ССР. (1921-1937). Баку, Изд. АН Аз. ССР, 1961, 200 с.
702. Резалюция IX сьезда АКП(б), 6-14 марта 1929 г. Баку, 1929, 48 с.
703. Садыхбейли Р. Периодическая печать Азербайджана как источник изучения вопроса становления демократического движения в Азербайджане 1989-1990 гг.( по газетным материалам.) Материалы конференции молод. истриков БГУ. Баку, 1991, с. 235-237.
704. Садыхов А.М. Созидаюшая сила социалистического интернационализма. Баку,Азернешр, 1985,110 с.
705. Садыхов Г.Ш. Город дружбы и братства Азербайджана.Баку, Элм, 1973,37 с.
706. Садыхов Г. Ш. Интернациональные связи молодых городов Азербайджана. Баку, Азернешр, 1984,166 с.
707. Садыхов Ш. А. Сотрудничество братских закавказских народов в строительстве коммунизма. Баку,1965,124с.
708. Салов В. И. Историзм и современная буржуазная историография. Москва, Мысль, 1977, 253 с.
709. Самедов И. С. Роль азербайджанский печати в пропаганде ленинских идей дружба народов в период строителства коммунизма.( 1959-1965 гг.) Баку, АН Аз. ССР, Институт Истории, 1968.( Автореферат), 32 с.
710. Самедов И.С., Талышев Ч.И. Героизм молодежи. (Мингечаур).Баку, Гянджлик,1972,59 с.
711. Сахаров А. М. Изучение отечественной истории за 50 лет Советской власти. Москва, Знание, 1968, 45 с.
712. Саядов С.А. По законам интернационализма: (Марксистско-ленинская политика интернационализма в деятельности КПСС на современном этапе строительства коммунизма).Москва, Мысль,1983, 269 с.
713. Самарина Н.Г. Отечественноя историческая наука в советскую эпоху.М.:МГУКИ., 2002, 176 с.
714. Сенявский С. Л. Рост численности рабочего класса СССР ( 1951 -1965). Москва, 1966, 176 с.
715. Сенявский С. Л. Социальная структура советского общества в условиях развитого социализма ( 1961-1980 гг.) Москва, Мысль,1982, 351 с.

716. Сидорова Л.А. Оттепель в исторической науке. Середина 50-х - середина 60-х гг. // Историческая наука России в XX веке. М., 1977, с.23-34
717. Смирнов Г. Л. Революционная суть перестройки. Социально-философский очерк. Москва, Политиздат, 1987, 222 с.
718. Советский Азербайджан : мифы и действительность.А З. Абдуллаев [и др.] под ред. Р.Э. Мехтиева,АН Азербайджанской ССР,Баку,Элм, 1987,392 с.
719. Советская историческая наука от XX к XXII съезду КПСС. Сбоник статей. Москва, Изд. АН СССР, 1962, 627 с.
720. Советский Азербайджан в братской семье народов СССР. Баку, Азернешр, 1983, 203 с.
721. Советский Азербайджан. Баку, Изд. АН Аз. ССР, 1958, 762 с.
722. Советская историография XX век.М:РГГУ,1996,552 с
723. Социалистическая индустриализация Азербайджана ( 1926-1932 гг.) Документы и материалы. Баку, 1957, 193 с.
724. Селунская В. М. Ленинское учение о кооперации и современность. Москва, Знание, 1989, 62 с.
725. СССР в годы Великой Отечественной войны ( июнь 1941-снетябрь 1945 гг.):Указатель советской литературы за 1941-1967 гг.Москва,1977,297с.
726. Стариков Н.В. Эпоха «оттепели» и этапы эволюции сталинизма: вопросы историографии // Советская историография. М., 1996,с.31-43
727. Страницы истории КПСС.Факты,проблемы, уроки. Москва, Высшая школа, 1988, 703 с.
728. Страницы истории советского общества. факты, пролемы, люди. Москва, Политиздат, 1989, 447 с.
729. Становление Советского многонационального государства (1917-1922 гг.) в современной американской историографии. Москва, 1971,324 с.
730. Султанов Ч.А**.** Последний удар Империи. Баку, 20 января 1990 г., Баку, 2004, 765 с.
731. Сумбатзаде А. С. Против буржуазной историографии советского общества. Москва, 1972, 231 с.
732. Сумбатзаде А. С. Основные направление исторических исследования в Азербайджанской ССР. В кн.: Советская историческая наука в 1975-1979. Москва, 1980.с. 326-331.

733. Сумбатзаде А. С. Азербайджанская историография XIX-XX веков. Баку, 1987,316 с.
734. Сумбатзаде А. С. и др. Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры : XIX - нач. XX вв. Баку, АН Азерб. ССР, 1955, 295 с.
735. Сумбатзаде А.С. Азербайджанцы - этногенез и формирование народа . Баку : Элм, 1990,304 с.
736. Сумбатзаде А. С. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане,М.: Наука, 1972, с. 209.
737. Цкитишвили К. Закавказье в партизанской войне 1941-1945 гг. Тбилиси, Изд. ЦК КП Грузии, 1973, 302 с.
738. Тагиев А.М. Азербайджанская национальная культура и критика ее антикоммунистических фальсификации. Баку, 1986,108 с.
739. Токаржевский Е. А. Первые шаги Советской власти в Азербайджане в 1920 г. Труды Азерб. филиала ИМЭЛ при ЦК ВКП(б),т. 2, Баку,1946,с.21-30
740. Токаржевский Е. А. Очерки истории Советского Азербайджана в период перехода на мирную работы по восстановлению народного хозяйства ( 1921-1925 гг.) Баку, 1956, с.113
741. Токаржевский Е.А. Трудящихся Азербайджана в объединительном движении за образование СССР. В кн.: 40 лет СССР и Закавказской Федерации. Баку, Изд. АН Аз. ССР, 1962, 262 с.
742. Токаржевский Е.А. Изучение основных проблем истории социалистического и коммунистического строительства в Азербайджанской ССР. В кн.: Историография социалистического и коммунистического строительства В СССР. Москва, Изд. АН СССР,1962, 276 с.
743. Трагедия длиную в 2 года. Албом. Баку, Азернешр, 1990, 32 с.
744. Трудовой подьем рабочего класса Азербайджана в девятой пятилетки (1971-1975). Баку, Азернешр, 1980, 308 с.
745. Трудовой подвиг советского крестьянства в послевоенные годы. Колхозы СССР в 1946-1950 гг. Москва, 1972,213 с.
746. “ Труд” газ., Москва ( на рус. языке)
747. Труды Аз. Гос. Университета. Баку ( на рус. языке)
748. Труды Аз. Гос. Пед. Института. Баку ( на рус. языке)

749. Тыл Советских Вооруженных Сил в Великой Отечественной войне. Москва, Воениздат, 1977, 559 с.
750. Тяжелников Е.М. Союз молодых ленинцев.Москва, Политиздат,1980, 367с.
751. Туган-Барановский М. И. Социальные основы кооперации.Москва, 1916,496 с.
752. Устоновление Совотской власти в национальных районах России: Анализ советской историографии и критика буржуазной литературы. Кишинев, Штиница, 1979, 231 с.
753. Файн Л.Е. Развитие кооперации в СССР в 20-е годы.Иваново, 1988,84с.
754. Халилов А, Трепетин Б. Л. Азербайджанский филиал Академии наук СССР в годы Великой Отечественной войны (1941-1945 гг.) Баку, Элм, 1975, 57 с.
755. Халилов А. Трудящиеся Азербайджана в борьбе за осуществление кооперативного плана В. И. Ленина. Баку, Элм, 1970, 246 с.
756. Хрестоматия по истории КПСС. 1925-март 1985 г., т.2, Москва, Политиздат, 1989, 519 с.
757. Чаянов А. В. О сельскохозяйственной кооперации .Саратов: Приволж. кн. изд-во, 1989,176 с.
758. Чертина З. С. Национальные отнощения при социализме в буржуазной историографии США. Москва, Наука, 1982, 141 с.
759. Черный январь / Сб. подгот. нар. депутаты СССР М.Т. Аббасов и др.-Б.: Азернешр,1990,288 с.
760. Шарифов А.Против информационной блокады.Баку,“Язычы”,1992,200 с.

**“MEKAN SERVES NN” MMC**
Çapa imzalanmışdır: 16.12.2016
Fiziki çap vərəqi: 30,5
Tiraj: 150